تَفْسِيرُ الْقُرْآنِ الْعَظِيم

عِمَادُ الدِّين أَبُو الْفِدَاء إِسْمَاعِيلُ بْنُ كَثِيرٍ الْقُرَشِيُّ الدِّمَشْقِيُّ

# ƏZƏMƏTLİ QURANIN TƏFSİRİ


**İmadəddin Əbul-Fidə İsmail ibn Kəsir əl-Quraşi əd-Diməşqi**
(700-774 hicri / 1300-1372 miladi)


# IV

**CİLD**

**Əzəmətli Quranın təfsiri,**
**İmadəddin Əbul-Fidə İsmail ibn Kəsir əl-Quraşi əd-Diməşqi**
**(700-774 hicri / 1300-1372 miladi), IV cild**
**Bakı, 2023, 496 səh.**

**Tərcümə edən: Elşən Şəkərov**
**Redaktorlar: Vüsalə Lətifqızı,**
**Ramin İsbarxanlı**

**Kitabda Qurani-Kərimin əl-Ənfal, ət-Tövbə, Yunus, Hud, Yusuf və ər-Rad surələrinin İsmail ibn Kəsir tərəfindən təfsirinin Azərbaycan dilində tərcüməsi verilmişdir.**
**Şübhəsiz ki, bu tərcümə insan əməyinin bəhrəsidir.**

**Deməк, burada xətaların olması da labüddür. Odur ki, öz düzəlişlərini, qeyd və mülahizələrini aşağıdakı elektron ünvana göndərəcək oxuculara əvvəlcədən təşəkkürümüzü bildiririk. Sizin dəyərli məsləhətləriniz bu kitabın gələcək nəşrlərində mütləq nəzərə alınacaqdır.**

**tafsirazeri@gmail.com**

**KİTABIN SATIŞI QADAĞANDIR.**

Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə çap edilmişdir. **№ 3-32/2-970/2023 07.06.2023**

## Mərhəmətli və Rəhmli Allahın adı ilə!

مُقَدِّمَة

## Müqəddimə

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanmağımızı və bizi doğru yola yönəltməsini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan məbud yoxdur, Onun şəriki də yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Ona, ailəsinə, səhabələrinə və Qiyamətə qədər onun ardınca gedənlərə Allahın salavatı və salamı olsun!

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"** ("Ali-İmran", 102).

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, ondan zövcəsini yaradan və o ikisindən də bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Xatirinə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".** ("ən-Nisa", 1).

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".** ("əl-Əhzab", 70-71).

Uca Allahın Öz qullarına olan ən böyük neməti onlara Quranı nazil etməsidir. Uca Allah Quranı aləmlərə bərəkət, hidayət və qəlblərə şəfa olaraq ən şərəfli peyğəmbəri Muhəmmədə ﷺ nazil etmişdir. Quran Allahın Kəlamıdır, ən əzəmətli Kitabdır və Uca Allahın varlığını sübut edən ən böyük dəlildir. Quran haqq və doğru Kitabdır, onda heç bir nöqsan yoxdur. Uca Allah buyurur: **"Kitabı Öz quluna nazil edən və onda heç bir nöqsana yol verməyən Allaha həmd olsun!"** ("əl-Kəhf", 1). Quranı göndərdiyinə və bizi ona iman gətirən qullarından etdiyinə görə Rəbbimizə sonsuz həmd-səna olsun! Quran ən bəlağətli nəsihətdir. Quran şəfadır. O, qəlblərdə olan bütün şübhələri aparır, bədəndə olan bütün xəstəlikləri müalicə edir. Uca Allah buyurur: **"O, iman gətirənlərə doğru yol göstəricisi və şəfadır"** ("Fussilət", 44). Həmçinin buyurur: **"Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik"** ("əl-İsra", 82); **"Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir"** ("Yunus", 57). Quran xeyiri bol olan bərəkətli Kitabdır. Onun vasitəsilə Allahdan bərəkət umulur. İnsan Allahın Kəlamını oxumaqla Onun bərəkətinə nail olur. Uca Allah Quran oxuyanın vaxtına və ömrünə bərəkət verir. Uca Allah buyurur: **"Bu, Bizim nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə sizə rəhm oluna"** ("əl-Ənam", 155).

Bilmək lazımdır ki, Quranın bərəkətinə, onda olan hidayətə və şəfaya nail olmaq üçün onu tələsmədən, doğru şəkildə oxumaq, ayələrini düşünüb mənasını düzgün başa düşmək lazımdır. Uca Allah Quranı bunun üçün nazil etmişdir və məhz buna əməl edənlər Qurana layiqincə iman gətirmiş sayılırlar. Uca Allah buyurur: **"Kitab verdiyimiz kəslərdən onu layiqincə oxuyanlar ona iman gətirənlərdir. Onu inkar**

**edənlər isə ziyana uğrayanlardır"** ("əl-Bəqərə", 121). İbn Məsud ﵁ demişdir: "Canım Əlində olan Allaha and olsun ki, Kitabı layiqincə oxumaq onun halal etdiyini halal, haram etdiyini isə haram etməkdir. Habelə, Kitabı Allahın nazil etdiyi şəkildə oxuyub, sözlərinin yerini dəyişdirməmək və heç bir sözü Allahın nəzərdə tutduğu mənadan başqa məna ilə şərh etməməkdir". Hədislərdə Peyğəmbərin ﷺ Quranı necə oxuduğuna dair bir çox nümunələr vardır. Hüzeyfə ﵁ rəvayət edir ki, bir gecə Peyğəmbərlə ﷺ (gecə namazı) qıldım. Peyğəmbər ﷺ namazında ("əl-Fatihə" surəsindən sonra) "əl-Bəqərə" surəsinə başladı..., (surəni bitirdikdən) sonra "ən-Nisa" surəsinə başladı..., (surəni bitirdikdən) sonra "Ali-İmran" surəsinə başladı.... Oxuduğu ayələrdə Allaha tərif keçdikdə Allahı tərifləyər, dua keçdikdə Allaha dua edər, Allaha sığınmaq keçdikdə isə Allaha sığınardı".[1] Bu hədis Peyğəmbərin ﷺ necə Quran oxuduğunu göstərir; əvvəl oxuyar, sonra başa düşər, sonra ayə barədə düşünər, sonra ayəyə əməl edərdi. Bu mənada rəvayət olunan hədislər göstərir ki, Quranı layiqincə oxumaq dedikdə onun ayələrini düzgün oxuyub başa düşmək, mənası barədə düşünmək və ona əməl etməkdir. Quran ayələrini ərəb dilində mənasını başa düşmədən oxuyan, həmçinin mənaca tərcüməsini oxuyan da savab qazanır. Lakin daha kamil olanı yuxarıda qeyd etdiyimiz şəkildə oxumaqdır.

Həmçinin bilmək lazımdır ki, Quran ayələrini düzgün başa düşmək üçün Peyğəmbərin ﷺ hədislərinin böyük rolu vardır. Uca Allah Quranı Peyğəmbər ﷺ vasitəsilə bizə nazil etmiş və ona Quranı insanlara açıqlamağı buyurmuşdur: **"Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr"** ("ən-Nəhl", 44). Bu izah Peyğəmbərimizin ﷺ hədisləri, yəni sözləri, feilləri və ya görüb təsdiqlədikləri ilə olur. Məsələn, Uca Allah Quranda namaz qılmağı, zəkat verməyi, oruc tutmağı, həcc etməyi və digər əməlləri yerinə yetirməyi buyurur. Hədislər olmadan bu ibadətlərin şərtlərini, necə yerinə yetiriləcəklərini, vaciblərini və bu ibadətləri batil edən əməlləri bilmək qeyri-mümkündür. Uca Allah buyurduğu ibadətləri yalnız iki şərtlə qəbul edir. Birinci şərt: ibadətin xalis Allah üçün edilməsi, ikinci şərt: bu ibadətin Peyğəmbərin ﷺ sünnəsinə müvafiq olmasıdır.

## Əziz oxucu!

Əlinizdə olan bu kitab İbn Kəsirin Əhməd Şakir tərəfindən ixtisar edilmiş variantının 4-cü cildidir. Bu cilddə "əl-Ənfal", "ət-Tövbə", "Yunus", "Hud", "Yusuf" və "ər-Rad" surələrinin təfsiri verilmişdir. Uca Allah bu kitabın hazırlanmasında zəhməti keçən hər kəsdən razı olsun!

*Elşən Şəkərov*

[1] Muslim, 772.

الْكَلاَمُ عَلَى تَفْسِيرِهَا

# “əl-Ənfal”

## surəsinin təfsiri

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**
**Müvəffəqiyyət yalnız Allahdandır**

## تَفْسِيرُ سُورَةِ الأَنْفَالِ

## "əl-Ənfal" surəsinin təfsiri

əl-Ənfal surəsi Mədinədə nazil olmuşdur. Yetmiş altı ayədən, min altı yüz otuz bir sözdən və beş min iki yüz doxsan dörd hərfdən ibarətdir. Ən doğrusunu Allah bilir.

﴿يَسْـَٔلُونَكَ عَنِ ٱلْأَنفَالِ ۖ قُلِ ٱلْأَنفَالُ لِلَّهِ وَٱلرَّسُولِ ۖ فَٱتَّقُوا۟ ٱللَّهَ وَأَصْلِحُوا۟ ذَاتَ بَيْنِكُمْ ۖ وَأَطِيعُوا۟ ٱللَّهَ وَرَسُولَهُۥٓ إِن كُنتُم مُّؤْمِنِينَ ﴿١﴾﴾

**1. Səndən qənimətlər haqqında soruşurlar. De: "Qənimətlər Allaha və Peyğəmbərə aiddir". Elə isə Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin. Əgər möminsinizsə, Allaha və Onun Rəsuluna itaət edin.**

əl-Buxari رحمه الله demişdir: "İbn Abbas ayədə keçən **الأنفَالُ** [əl-Ənfal] sözünü "qənimətlər" kimi təfsir etmişdir". Rəvayət olunur ki, Səid ibn Cubeyr رحمه الله belə demişdir: "İbn Abbasdan "əl-Ənfal" surəsi barədə soruşdum və o: "Bədr döyüşü barədə nazil olmuşdur" – dedi".[1] əl-Buxarinin رحمه الله İbn Abbasdan رضي الله عنهما "muəlləq" olaraq rəvayət etdiyi hədisi Əli ibn Əbu Talha da İbn Abbasdan رضي الله عنهما rəvayət etmiş və bildirmişdir ki, o, **الأنفَالُ** [əl-Ənfal] sözünü "qənimətlər" kimi təfsir etmişdir. Qənimətlər Allah Elçisinə ﷺ xas idi, ondan başqasına heç bir şey verilmirdi. Mucahid, İkrimə, Əta, əd-Dahhək, Qatədə və bir çoxları da **الأنفَالُ** [əl-Ənfal] sözünü "qənimətlər" kimi təfsir etmişlər.

İbn Cərir əl-Qasim ibn Muhəmmədin رحمه الله belə dediyini rəvayət etmişdir: "Bir kişinin İbn Abbasdan رضي الله عنهما qənimətlər barədə soruşduğunu eşitdim. İbn Abbas رضي الله عنهما dedi: "Döyüşdən əldə olunan atlar qənimət sayılır, öldürülən şəxslərin üzərindən çıxan əşyalar qənimət sayılır". Kişi sualını təkrarladıqda İbn Abbas رضي الله عنهما eyni cavabı verdi. Sonra kişi yenə: "Uca

[1] əl-Buxari, 4278, 6545.

Allahın Kitabında zikr etdiyi qənimətlər nədir?" – deyə soruşdu. Bu söhbətin şahidi olan əl-Qasim dedi: "Kişi İbn Abbasa o qədər sual verdi ki, az qala onu çətinliyə salacaqdı". İbn Abbas ﵄ üzünü hamıya tutub dedi: "Bunun məsəli bilirsinizmi kimin məsəlinə bənzəyir? Ömər ibn əl-Xattabın şallaqladığı Subeyğin[1] məsəlinə bənzəyir".[2]

Abdur-Razzəq ﵀ əl-Qasim ibn Muhəmməddən ﵀ rəvayət etmişdir ki, İbn Abbas belə demişdir: "Ömər ibn əl-Xattabdan bir şey barədə soruşulduqda o: "Mən sənə bunu əmr etmirəm, lakin qadağan da etmirəm" – deyərdi. Sonra İbn Abbas dedi: "Allaha and olsun ki, Uca Allah Peyğəmbərini ﷺ müəyyən şeyləri qadağan edən, müəyyən şeyləri isə əmr edən, bəzi şeyləri halal, bəzi şeyləri isə haram edən olaraq göndərmişdir". əl-Qasim dedi: "Bir dəfə bir kişi İbn Abbasdan israrla "ənfal" (qənimətlər) barədə soruşdu. İbn Abbas ona dedi: "Bir kişi cihadda düşmən tərəfdən öldürdüyü şəxsin atını və silahını qənimət olaraq götürərdi". Kişi sualını təkrarladı və İbn Abbas ona eyni cavabı verdi. Kişi sualını yenə təkrarladı və nəhayət, İbn Abbas qəzəblənib dedi: "Bilirsinizmi bu kimə bənzəyir? Ömər İbn əl-Xattabın döydüyü Subeyğə bənzəyir. Ömər onu topuqlarından və ya ayaqlarından qan axana qədər vurdu". Kişi dedi: "Sənə gəlincə, Allah Ömərin intiqamını səndən almışdır".[3] Bu hədisin isnadı İbn Abbasa ﵄ kimi səhihdir. İbn Abbas ﵄ ayədə keçən "ənfal" sözünü "döyüşdən əldə edilən qənimətin əsas hissəsi bölündükdən sonra başçının bəzi döyüşçülərə verdiyi, ölmüş düşmənin üzərindən çıxan əşya və mallar" kimi təfsir etmişdir. "Ənfal" dedikdə bir çox fiqh alimlərinin ağlına gələn ilk məna da məhz bu olmuşdur. Ən doğrusunu isə Allah bilir.

İbn əl-Mubərak və bir çoxları rəvayət etmişlər ki, Əta ibn Əbu Rabəh ﵀ Uca Allahın "**Səndən qənimətlər haqqında soruşurlar**" ayəsi barədə belə demişdir: "Yəni müşriklərdən müsəlmanlar tərəfə döyüşsüz keçən heyvan, kölə kişi və ya qadın, yaxud düşməndən əldə olunan mal barəsində

[1] Suleyman ibn Yəsar ﵀ rəvayət edir ki, Ömər ibn əl-Xattabın ﵁ xəlifəliyi dövründə Subeyğ adlı bir kişi Mədinəyə gəlib Quranda mənası aydın olmayan ayələr barədə suallar verməyə başladı. Ömər ibn əl-Xattab ﵁ bunu eşitdikdə kişini yanına çağırtdırdı və onun üçün xurma ağacının yarpaqlarından çubuqlar hazırlatdı. Ömər ﵁ kişidən soruşdu: "Sən kimsən?" Kişi: "Allahın qulu Subeyğ" – deyə cavab verdi. Ömər hazırlatdığı çubuqlardan birini götürüb kişini vurmağa başladı və dedi: "Mən isə Allahın qulu Ömərəm". Ömər ﵁ kişini o qədər vurdu ki, başı qanadı. Kişi dedi: "Ey möminlərin əmiri, kifayətdir, artıq başımdakı şübhələr yox oldu". Hekayəni əl-Əcurri "Şəriət" (səh. 73) əsərində, İbn Batta "əl-İbənə" (789) əsərində, əl-Hafiz Əbul-Qasim əl-Əsfəhani "əl-Huccə" əsərində (1/193) və Məri əl-Məqdisi isə "Əqavilus-Siqat" (1/58) əsərində rəvayət etmişlər.

[2] ət-Tabəri, 15646, 15719.

[3] ət-Tabəri, 15647, 15720.

səndən soruşurlar. Bunlar Peyğəmbərə ﷺ aid olan qənimətlərdir və o, onları istədiyi kimi sərf edər”.[1] Bu izaha görə Əta ibn Əbu Rabəh ﵀ “ənfal” sözünü “kafirlərdən döyüşsüz əldə olunan qənimət” kimi təfsir etmişdir. İbn Cərir ﵀ demişdir: “Digər alimlər ayədəki “qənimətlər” sözünü “əsgərlər arasında bölüşdürülən qənimətlər” kimi təfsir etmişlər”. əş-Şabi ﵀ də bunu demişdir. İbn Cərir ﵀ ayədə əsgərlər arasında bölüşdürülən qənimətdən artıq qalanının nəzərdə tutulduğunu deyənlərin rəyini seçmişdir. Bu ayənin nazilolma səbəbi barədə İmam Əhmədin ﵀ Sad ibn Əbu Vəqqasdan ﵁ rəvayət etdiyi hədis də bu rəyi təsdiqləyir. Sad ibn Əbu Vəqqas ﵁ demişdir: “Bədr döyüşü günü qardaşım Umeyr öldürüldü. Mən bu döyüşdə Səid ibn əl-Ası öldürüb qılıncını götürmüşdüm. Bu qılınc “Zul-Kətifə” adlanırdı. Mən qılıncı Peyğəmbərin ﷺ yanına gətirdim. Peyğəmbər ﷺ: “Get, onu toplanan qənimətlərin içinə at!” – deyə buyurdu. Mən qayıtdım, lakin qardaşımın öldürülməsinə və öldürdüyüm Səid ibn əl-Asdan götürdüyüm qılıncın məndən alınmasına görə içimdə keçirtdiyim hissləri yalnız Allah bilirdi. Peyğəmbərin ﷺ yanından təzəcə ayrılmışdım ki “əl-Ənfal” surəsi nazil oldu. Peyğəmbər ﷺ mənə: “Get, qılıncını götür!” – buyurdu.[2] Həmçinin İmam Əhməd ﵀ rəvayət etmişdir ki, (Bədr döyüşü günü) Sad ibn Malik ﵁ Peyğəmbərə ﷺ belə dedi: “Ey Allahın Elçisi, Allah bu gün müşriklərdən intiqamımı aldı və qəlbimi sevindirdi. Odur ki, bu qılıncı mənə bağışla”. Peyğəmbər ﷺ dedi: “Bu qılınc nə sənə, nə də mənə məxsusdur. Onu qənimətlərin içinə qoy!” Sad dedi: “Mən qılıncı qoyub qayıtdım və öz-özümə fikirləşdim: “Qorxuram bu qılınc, bu gün döyüşdə mənim kimi fəal iştirak etməyən və məndən daha az əziyyət çəkən birinə verilsin”. Birdən arxamdan bir nəfər məni çağırdı. Mən düşündüm: “Görəsən, Uca Allah mənim barəmdə bir şeymi nazil etdi?” Peyğəmbər ﷺ dedi: “Sən bu qılıncı məndən istədiyin vaxt o mənə məxsus deyildi. İndi isə o mənimdir və mən onu sənə hədiyyə edirəm!” Uca Allah “**Səndən qənimətlər haqqında soruşurlar. De: “Qənimətlər Allaha və Peyğəmbərə aiddir**” ayəsini nazil etdi”.[3] Hədisi Əbu Davud, ət-Tirmizi və ən-Nəsəi ﵏ rəvayət etmişlər. ət-Tirmizi ﵀ hədisin “həsən-səhih” olduğunu demişdir. Hədisi Əbu Davud ət-Tayəlisi ﵀ Saddan ﵁ bu şəkildə rəvayət etmişdir: “Mənim barəmdə dörd ayə nazil olmuşdur: Bədr döyüşü günü bir qılınc əldə etmişdim. Mən Peyğəmbərin ﷺ yanına gəldim və: “(Ey Allahın Elçisi!) Onu mənə qənimət kimi ver!” – dedim. Peyğəmbər

---

[1] ət-Təbəri, 15647, 15721.

[2] Əhməd (1556). Əhməd Şakir ﵀ hədis barədə demişdir: “Hədisin isnadı kəsik olduğu üçün zəifdir. “Zul-Kətifə” sözünün mənası isə “enli qılınc” deməkdir”.

[3] Əhməd, 1538; ət-Tirmizi, 3079, 3359; Əbu Davud, 2742. Hədis həsən səhihdir. Bax: Səhih Sunən Əbu Davud, 2747.

ﷺ mənə iki dəfə: "Onu götürdüyün yerə qoy!" – buyurdu. Mən istəyimi təkrarladım və Peyğəmbər ﷺ: "Onu götürdüyün yerə qoy!" – buyurdu. Bu səbəbdən: "**Səndən qənimətlər haqqında soruşurlar...**" ayəsi nazil oldu". Hədisin ardı bu ayələrin nazilolma səbəblərində yer almışdır: **"Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq"** ("əl-Ənkəbut", 8); **"Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran!"** ("Loğman", 15)"; **"Şərab da** (içki də)**, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin!"** ("əl-Maidə", 90). Hədisi Muslim رحمه الله də "Səhih" əsərində rəvayət etmişdir.

Bu ayənin digər bir nazilolma səbəbi barədə İmam Əhməd رحمه الله Əbu Umamənin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Ubədədən "ənfal" (qənimətlər) barədə soruşdum. O dedi: "Bu ayə bizim – Bədr döyüşündə iştirak edənlər barədə nazil olmuşdur. Biz qənimətlərin bölüşdürülməsində fikir ayrılığına düşdük və bu məsələdə pis əxlaq nümayiş etdirdik. Uca Allah da qənimətləri bizim əlimizdən alıb Öz Elçisinə ﷺ xas etdi. Peyğəmbər ﷺ də onları müsəlmanlar arasında bərabər olaraq bölüşdürdü".[1]

Yenə İmam Əhməd رحمه الله rəvayət edir ki, Ubədə ibn əs-Samit رضي الله عنه demişdir: "Peyğəmbərlə ﷺ birlikdə bir çox döyüşlərə çıxdıq. Onunla birlikdə Bədr döyüşündə iştirak etdim. Müsəlman və müşrik orduları qarşılaşdı, Uca Allah da düşməni məğlub etdi. Bizdən bir qrup düşməni təqib etdi, onları məğlubiyyətə uğratdı və öldürdü. Digər qrup düşərgədə qaldı və əldə edilən qənimətləri topladı. Bir qrup isə düşmənin Peyğəmbərə ﷺ qəflətən hücum edib bir zərər verməməsi üçün onu əhatəyə aldı. Gecə düşdükdə insanlar bir yerə toplaşdılar və qənimətləri toplayanlar: "Bunları biz yığmışıq, bundan heç kimə pay yoxdur" – dedilər. Düşməni təqib etmək üçün çıxanlar: "Siz onlara bizdən daha layiq deyilsiniz. Biz düşməni qənimətlərdən uzaqlaşdırdıq və onları məğlubiyyətə uğratdıq" – dedilər. Peyğəmbərin ﷺ ətrafında olanlar isə: "Sizlər onlara bizdən daha haqlı deyilsiniz. Biz Peyğəmbərin ﷺ ətrafında idik, düşmənin ona qəflətən hücum edib bir zərər verməsindən qorxaraq bunun qarşısını aldıq. Bu da bizi qənimət yığmaqdan yayındırdı, başımız buna qarışmışdı" – dedilər. Bu səbəbdən "**Səndən qənimətlər haqqında soruşurlar. De: "Qənimətlər Allaha və Peyğəmbərə aiddir". Elə isə Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin!**" ayəsi nazil oldu. Peyğəmbər ﷺ qənimətləri müsəlmanlar arasında bölüşdürdü. Peyğəmbər ﷺ düşmən torpaqlarında döyüşdüyü zaman qənimətin dörddəbirini paylayardı. Geri qayıdarkən

[1] Əhməd, 22747, 22799, 23127. Şueyb əl-Arnavut həsən li-ğeyrihi olduğunu bildirmişdir.

yerdə qalan üçdəbirini paylayardı. Peyğəmbər ﷺ qənimətləri sevməzdi və deyərdi: "Qoy möminlərdən qüvvətli olanlar (qəniməti) zəif olanlara versinlər". Oxşar hədisi ət-Tirmizi və İbn Məcə ﷺ rəvayət etmişlər. ət-Tirmizi hədisin həsən olduğunu demişdir. Hədisi, həmçinin İbn Hibban "Səhih" əsərində və əl-Hakim "Mustədrək" əsərində rəvayət etmişlər. əl-Hakim ﷺ demişdir: "Hədisin isnadı Muslimin şərtlərinə görə səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər".[1]

Əbu Davud, ən-Nəsəi, İbn Cərir, İbn Mərdəveyh (hədisin mətni İbn Mərdəveyhə aiddir), İbn Hibban və əl-Hakim ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişlər ki, Bədr döyüşü günü Peyğəmbər ﷺ dedi: "Kim filan əməli etsə, qənimətdən ona filan qədər düşəcək!" Cavanlar bunu eşidən kimi düşmənin üzərinə hücuma atıldılar, yaşlılar isə bayraqların yanında qaldılar. Müsəlmanlar qalib gəldikdən sonra qənimətlər bölüşdürüldüyü zaman gənclər onlara vəd edilənləri almağa gəldilər. Yaşlılar dedilər: "Biz arxada dayanıb sizə dayaq olmuşuq ki, məğlub olsanız, qayıtmağa yeriniz olsun". Bu vaxt aralarında mübahisə yarandı və Uca Allah "**Səndən qənimətlər haqqında soruşurlar. De: "Qənimətlər Allaha və Peyğəmbərə aiddir". Elə isə Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin. Əgər möminsinizsə, Allaha və Onun Rəsuluna itaət edin**" ayəsini nazil etdi".[2]

İmam Əbu Ubeyd əl-Qasim ibn Səlləm ﷺ özünün "əl-Əmvəl əş-Şəriyyə və Bəyən Cihətihə" (Şəri mallar və onların sərf olunan yerləri) adlı əsərində demişdir: "Ənfal – həm döyüş zamanı əldə olunan qənimətlər, həm də müsəlmanların döyüşdükləri düşmənlərin mallarından ələ keçirdikləri hər şeydir. İlk dövrlərdə qənimətlər Peyğəmbərə ﷺ aid idi. Uca Allah bu xüsusda buyurur: "**Səndən qənimətlər haqqında soruşurlar. De: "Qənimətlər Allaha və Peyğəmbərə aiddir**". Sadın ﷺ hədisində qeyd etdiyimiz kimi Peyğəmbər ﷺ Bədr döyüşü günü qənimətləri beş yerə bölmədən Allahın ona göstərdiyi kimi müsəlmanlar arasında paylamışdır. Sonra qənimətlərin beş yerə bölünməsinə dair ayə nazil oldu və birinci ayənin hökmünü ləğv etdi".

Mən deyirəm: "Eyni rəyi Əli ibn Əbu Talha ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir. Mucahid, İkrimə və əs-Suddi də belə demişlər. İbn Zeyd isə bu ayənin hökmünün qüvvədə qaldığını və ləğv olunmadığını söyləmişdir".

---

[1] Əhməd, 22762, 22814, 23142; əl-Hakim, 4370. Şueyb əl-Arnavut həsən li-ğeyrihi olduğunu bildirmişdir.

[2] ət-Təbəri, 15651, 15725; İbn Əbu Şeybə, 37816.

Əbu Ubeyd ﷺ demişdir: "Bu barədə hədislər vardır... "Ənfal" sözünün əsl mənası "toplanmış qənimət" deməkdir. Lakin bu qənimətlərin beşdəbiri Quranda bəyan edildiyi və hədislərdə təsdiqini tapdığı kimi öz sahiblərinə məxsusdur. "Ənfal" sözünün ərəb dilində lüğəvi mənası "bir insanın üzərinə vacib olmayan hər hansı bir yaxşılığı lütfkarlığından etməsidir. Allahın möminlərə düşmənlərinin mallarından halal etdiyi qənimət də belədir. Onlardan əvvəlki ümmətlərə qənimətlər haram olduğu halda, Uca Allah lütf və yaxşılıq olaraq müsəlmanlara qənimətləri xas etmişdir. Uca Allah bu ümmətə qənimətləri halal etmişdir. "Ənfal"ın (qənimətin) əsli məhz budur".

Mən deyirəm: "əl-Buxari və Muslimin "Səhih" əsərlərində Cabirdən ﷺ rəvayət etdikləri hədis bu deyilənləri təsdiqləyir. Hədisdə Peyğəmbər ﷺ demişdir: "Məndən əvvəl heç bir peyğəmbərə verilməmiş beş xislət mənə verildi....". Hədisin davamında Peyğəmbər ﷺ belə buyurdu: "Qənimətlər də mənə halal edildi, halbuki, bu, məndən əvvəl heç bir peyğəmbərə halal olmamışdır". Sonra Cabir ﷺ hədisin davamını qeyd etmişdir.[1]

Sonra Əbu Ubeyd ﷺ demişdir: "Bu səbəbdən dövlət başçısının döyüşçülərə verdiyi mal "ənfal" adlanır. Bu, dövlət başçısının ordunun bir hissəsinə layiq olduqları paydan artıq mal verməsidir. Dövlət başçısı bu malı onların imanlarına və düşmənə vurduqları zərərə görə müəyyən edir".[2]

Uca Allah buyurur: "**Elə isə Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin**", yəni işlərinizdə Allahdan qorxun, aranızda olan münasibətləri düzəldin, bir-birinizə qarşı haqsızlıq etməyin, bir-birinizlə mübahisə etməyin, bir-birinizlə düşmənçilik etməyin. Uca Allahın sizə verdiyi hidayət və elm neməti mübahisənizə səbəb olan şeylərdən daha xeyirlidir. "**Əgər möminsinizsə, Allaha və Onun Rəsuluna itaət edin**", yəni aranızdakı bölgünü Allahın istədiyi kimi aparmaq xüsusunda Onun Peyğəmbərinə ﷺ itaət edin, çünki o, Allahın ona əmr etdiyi kimi – ədalət və insafla bölgü aparmışdır.

İbn Abbas ﷺ demişdir: "Bu ayə Allah və Onun Elçisi ﷺ tərəfindən möminlərə sərt xəbərdarlıqdır ki, Allahdan qorxub aralarındakı münasibətləri düzəltsinlər". Mucahid ﷺ də belə demişdir.[3] əs-Suddi ﷺ isə demişdir: "**Elə isə Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin**", yəni bir-birinizi söyməyin".[4]

[1] əl-Buxari, 323, 335; Muslim, 810, 1191.
[2] İbn Əbu Hatim, 8757.
[3] İbn Əbu Hatim, 8767; ət-Təbəri, 15681, 15755.
[4] ət-Təbəri, 15682, 15756.

﴿إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ ٱلَّذِينَ إِذَا ذُكِرَ ٱللَّهُ وَجِلَتۡ قُلُوبُهُمۡ وَإِذَا تُلِيَتۡ عَلَيۡهِمۡ ءَايَٰتُهُۥ زَادَتۡهُمۡ إِيمَٰنٗا وَعَلَىٰ رَبِّهِمۡ
يَتَوَكَّلُونَ ٢ ٱلَّذِينَ يُقِيمُونَ ٱلصَّلَوٰةَ وَمِمَّا رَزَقۡنَٰهُمۡ يُنفِقُونَ ٣ أُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُؤۡمِنُونَ حَقّٗاۚ لَّهُمۡ دَرَجَٰتٌ
عِندَ رَبِّهِمۡ وَمَغۡفِرَةٞ وَرِزۡقٞ كَرِيمٞ ٤﴾

**2. Möminlər, ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edərlər.**

**3. Onlar namaz qılar və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər.**

**4. Məhz belələri həqiqi möminlərdir. Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır.**

İbn Abbas Uca Allahın "**Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər**..." ayəsi barədə belə demişdir: "Münafiqlər Allahın fərz buyurduğu ibadətləri yerinə yetirən zaman Allahı zikr edərkən qəlblərinə heç bir şey daxil olmaz. Onlar Allahın heç bir ayəsinə iman gətirməz, Ona təvəkkül etməz, tək olduqda namaz qılmaz və mallarının zəkatını verməzlər. Uca Allah onların mömin olmadıqlarını bildirir, sonra həqiqi möminləri vəsf edərək belə buyurur: "**Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər**", yəni Allahın fərz buyurduğu ibadətləri yerinə yetirərlər, "**Onun ayələri onlara oxunduqda imanları artar**", yəni yəqinlikləri artar və "**yalnız öz Rəbbinə təvəkkül edərlər**", yəni Ondan başqasına ümid etməzlər".[1] Mucahid ayədə keçən وَجِلَتْ [vəcilət] feilini "qorxuya düşər" şəklində təfsir etmişdir. əs-Suddi və başqaları da belə demişlər.[2]

Bu, həqiqi mömininin vəsfidir. Allah yad edildiyi zaman onun qəlbi titrəyər, yəni qorxar, Allahın əmrlərini yerinə yetirər və qadağalarından çəkinər. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri pis işlərdə bilə-bilə israr etməzlər**" ("Ali-İmran", 135); "**Ancaq kim Rəbbinin hüzuruna gələcəyindən qorxmuş və nəfsinə ehtirası yasaq etmişsə, həqiqətən, onun gedəcəyi yer Cənnətdir**" ("ən-Naziat", 40-41). əs-Sufyan əs-Səuri

[1] İbn Əbu Hatim, 8777; ət-Təbəri, 15684, 15758.

[2] ət-Təbəri, 15685, 15759.

demişdir: "Uca Allahın "**Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər**" ayəsi barədə əs-Suddinin belə dediyini eşitmişəm: "O, elə bir adamdır ki, haqsızlıq etmək istədikdə və ya bir günah etməyə niyyət etdikdə ona: "Allahdan qorx!" – deyilər və onun qəlbi qorxudan titrəyər".[1]

Uca Allah buyurur: "**Onun ayələri onlara oxunduqda imanları artar**". Ayə Uca Allahın bu ayəsinə bənzəyir: "**Bir surə nazil edildiyi zaman onlardan istehza ilə: "Bu, hansınızın imanını artırdı?" – deyənlər də var. İman gətirənlərə gəldikdə isə o surə onların imanını artırır və onlar bir-birlərini müjdələyirlər**" ("ət-Tövbə", 124).

əl-Buxari və başqa alimlər ﷺ bu kimi ayələri imanın artmasına, qəlblərdə dərəcə-dərəcə olub bir-birindən fərqlənməsinə dəlil gətirmişlər. Ümmətin əksər alimlərinin rəyi də budur. Belə ki, əş-Şafii, Əhməd ibn Hənbəl və Əbu Ubeyd ﷺ kimi bir çox alimlər bu barədə alimlər arasında yekdil rəyin olduğunu nəql etmişlər. əl-Buxarinin "Səhih" əsərinin şərhinin əvvəlində bu barədə geniş məlumat vermişik. Həmd və nemət Allaha məxsusdur.

Uca Allah buyurur: "**yalnız öz Rəbbinə təvəkkül edərlər**", yəni Allahdan başqa heç kəsdən bir şey ummazlar, yalnız Ona yönələrlər və yalnız Ona sığınarlar. Ehtiyaclarını yalnız Ondan istəyərlər və yalnız Ona üz tutarlar. Onlar yəqinliklə bilərlər ki, Allahın istədiyi mütləq baş verər, istəmədiyi isə baş verməz. Mülkünü yalnız Özü idarə edir, O Təkdir, Onun şəriki də yoxdur. Heç kim Onun hökmünü ləğv edə bilməz, O, tez haqq-hesab çəkəndir. Bu səbəbdən Səid ibn Cubeyr ﷺ demişdir: "Allaha təvəkkül etmək imanın əslidir, təməlidir".[2]

"**Onlar namaz qılar və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər**". Uca Allah əvvəlki ayədə həqiqi möminlərin inanclarını zikr etdikdən sonra bu ayədə onların etdikləri əməlləri bildirir. Bu əməllər hər növ xeyiri özündə cəm edir. Namaz qılmaq bu əməllərdəndir və Allahın haqqıdır. Qatədə ﷺ demişdir: "Namaz qılmaq dedikdə namazı vaxtlı-vaxtında, dəstəmazına, rükusuna və səcdələrinə düzgün riayət etməklə yerinə yetirmək nəzərdə tutulur".[3] Muqatil ibn Həyyan ﷺ demişdir: "Namaz qılmaq – namazı vaxtlı-vaxtında, gözəl şəkildə dəstəmaz almaqla, rüku və səcdəsini tam yerinə yetirməklə, qiyamda Quran oxumaqla, təşəhhüddə Peyğəmbərə ﷺ salavat deməklə yerinə

[1] İbn Əbu Hatim, 8778; ət-Təbəri, 15690, 15764.
[2] İbn Əbu Hatim, 8784.
[3] İbn Əbu Hatim, 75.

yetirməkdir. Namazı doğru-düzgün qılmaq budur”.[1] Allahın verdiyi ruzidən Onun yolunda xərcləmək həm zəkat verməyi, həm də qulların digər vacib və müstəhəb haqlarını özündə cəm edir. Bütün varlıqlar Allaha möhtacdırlar. Allaha ən sevimli olanlar Onun varlıqlarına qarşı ən faydalı olanlardır. Qatədə ﷺ Uca Allahın “**Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyərlər**” ayəsi barədə belə demişdir: “Allahın sizə verdiyi ruzidən Onun yolunda xərcləyin! Ey Adəm oğlu, bil ki, bu mal-dövlət sənə müvəqqəti verilmiş əmanətdən başqa bir şey deyil. Onu tərk etməyinə çox az qalıb”.[2]

Uca Allah buyurur: “**Məhz beləlləri həqiqi möminlərdir**”, yəni bu vəsflərə sahib olanlar həqiqi iman gətirmiş möminlərdir. Amr ibn Murra ﷺ Uca Allahın “**Məhz beləlləri həqiqi möminlərdir**” ayəsi barədə belə demişdir: “Quran ancaq ərəb dilində nazil olmuşdur. Sən: “Filankəs həqiqi ağadır” – deyirsən. Halbuki insanların içində digər ağalar da vardır. İnsanların içində tacirlər varkən sən: “Filankəs həqiqi tacirdir” – deyirsən. Həmçinin onların içində şairlər varkən sən: “Filankəs həqiqi şairdir” – deyirsən”.[3]

Uca Allah buyurur: “**Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır**”, yəni onlar üçün Cənnətdə yüksək dərəcələr, məqamlar və evlər vardır. Uca Allah başqa bir ayədə belə buyurur: “**Onlar Allah yanında ayrı-ayrı dərəcələrdə olacaqlar. Allah onların nə etdiklərini görür!**”(“Ali-İmran”, 163); “**Onlar üçün Rəbbi yanında... bağışlanma və bolluca ruzi vardır**”, yəni Uca Allah onların günahlarını bağışlayacaq və yaxşılıqlarının qarşılığını verəcək. əd-Dahhək ﷺ Uca Allahın “**Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır**” ayəsi barədə belə demişdir: “Cənnət əhli bir-birlərindən yüksəkdə olacaqlar. Üst qatda olan özündən aşağı qatda olandan üstün olduğunu görəcək. Aşağı qatda olan isə kiminsə ondan üstün olduğunu görməyəcək”.[4] əl-Buxari və Muslimin “Səhih” əsərlərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Həqiqətən, İlliyyun Cənnətlərinin sakinləri onlardan daha aşağı mərtəbədə olanları göy üfüqündə axan bir ulduzu gördüyünüz kimi görərlər”. Səhabələr dedilər: “Ey Allahın Elçisi, yəqin ki, bu mərtəbələr peyğəmbərlərə ayrılmış yerdir və onlardan başqa heç kəs orada sakin ola bilməyəcək”. Peyğəmbər ﷺ dedi: “Xeyr, canım

---

[1] İbn Əbu Hatim, 76.
[2] İbn Əbu Hatim, 79.
[3] İbn Əbu Hatim, 8796.
[4] İbn Əbu Hatim, 8799, 13599.

Əlində olan Allaha and olsun ki, bu mərtəbələr Allaha iman gətirmiş və peyğəmbərləri təsdiq edən kimsələr üçündür”.[1]

İmam Əhmədin və “Sunən” müəlliflərinin Əbu Səiddən ﵁ rəvayət etdikləri başqa bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: “Həqiqətən, Cənnət sakinləri bir-birlərindən üstün olduqları üçün (onların alt mərtəbədə olanları) üst mərtəbədə[2] olan möminləri sizin göy üfüqündə axan ulduzu gördüyünüz kimi görəcəklər. Həqiqətən, Əbu Bəkr və Ömər onlardandır, hətta onlardan da üstündür”.[3]

﴿كَمَآ أَخۡرَجَكَ رَبُّكَ مِنۢ بَيۡتِكَ بِٱلۡحَقِّ وَإِنَّ فَرِيقٗا مِّنَ ٱلۡمُؤۡمِنِينَ لَكَٰرِهُونَ ٥ يُجَٰدِلُونَكَ فِي ٱلۡحَقِّ بَعۡدَ مَا
تَبَيَّنَ كَأَنَّمَا يُسَاقُونَ إِلَى ٱلۡمَوۡتِ وَهُمۡ يَنظُرُونَ ٦ وَإِذۡ يَعِدُكُمُ ٱللَّهُ إِحۡدَى ٱلطَّآئِفَتَيۡنِ أَنَّهَا لَكُمۡ وَتَوَدُّونَ
أَنَّ غَيۡرَ ذَاتِ ٱلشَّوۡكَةِ تَكُونُ لَكُمۡ وَيُرِيدُ ٱللَّهُ أَن يُحِقَّ ٱلۡحَقَّ بِكَلِمَٰتِهِۦ وَيَقۡطَعَ دَابِرَ ٱلۡكَٰفِرِينَ ٧ لِيُحِقَّ
ٱلۡحَقَّ وَيُبۡطِلَ ٱلۡبَٰطِلَ وَلَوۡ كَرِهَ ٱلۡمُجۡرِمُونَ ٨﴾

**5. Möminlərdən bir dəstənin xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq-ədalət uğrunda öz evindən çıxartması da buna bənzəyir!**

**6. Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər, sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər.**

**7. O vaxt Allah sizə, iki dəstədən birinin (karvanın və yaxud kafirlərin qoşununun) sizin olacağını vəd edirdi. Siz silahsız dəstənin sizin olmasını arzulayırdınız. Allah isə Öz Kəlmələri ilə haqqı gerçəkləşdirmək və kafirlərin kökünü kəsmək istəyirdi.**

**8. O bununla günahkarların xoşuna gəlməsə də, haqqı gerçəkləşdirmək və batili puç etmək istəyirdi.**

İmam Əbu Cəfər ət-Təbəri ﵀ demişdir: “Təfsir alimləri Uca Allahın “**Möminlərdən bir dəstənin xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq-ədalət uğrunda öz evindən çıxartması da buna bənzəyir!**” ayəsində

[1] əl-Buxari (6/233-234 Fəthul-Bari); Muslim (2/349). (Əhməd Şakir). əl-Buxari, 3016, 3256; Muslim, 5059, 7322.

[2] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Cənnətdə yüz mərtəbə vardır. Bu mərtəbələr arasındakı məsafə yerlə göy arasındakı məsafə qədərdir. Firdovs onun ən yüksək mərtəbəsidir. Oradan Cənnətin dörd çayı axır. Onun üstündə isə Ərş yerləşir. Odur ki, Allahdan dilədikdə Firdovs bağını diləyin!” (ət-Tirmizi, 3174. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1811).

[3] Əhməd (3/93); ət-Tirmizi (3658); İbn Məcə (96). Hədis səhihdir. Bax: Səhih əl-Cami, 3793.

keçən və bənzətmə bildirən كَ [kə] (“**bənzəyir**”) ədatının burada gəlməsinin səbəbi barədə ixtilaf etmişlər. Bəziləri demişlər: “Burada Peyğəmbərin ﷺ evindən çıxarılmasının möminlərə olan faydası, onların Rəbbindən qorxmalarına, aralarındakı münasibətləri düzəltmələrinə, Allaha və Onun Elçisinə ﷺ itaət etmələrinə bənzədilmişdir”. Sonra ət-Təbəri oxşar təfsiri İkrimədən رحمه الله də rəvayət etmişdir.[1]

Bu təfsirə görə Uca Allah belə buyurur: “Qənimətlərin bölüşdürülməsi barədə fikir ayrılığına düşüb mübahisə etdiyiniz və bir-birinizə qarşı xəsisləşdiyiniz zaman Uca Allah onları sizdən alıb Özünə və Öz Elçisinə ﷺ həvalə etdi. Peyğəmbər ﷺ də onları sizin aranızda ədalətli və bərabər şəkildə bölüşdürdü. Sizin üçün ən uyğun olanı da bu idi. Dinlərinə yardım etmək üçün karvanlarını qorumaq məqsədilə çıxan güclü və silahlı dəstə ilə (Qureyş müirikləri ilə) döyüşmək və düşməninizə qarşı çıxmaq da sizə xoş gəlməmişdi. Sizin döyüşmək istəməməyinizə baxmayaraq, Allah bu döyüşü sizin qədərinizə yazdı. Nəhayət, əvvəlcədən təyin edilməmiş bir vaxtda sizi doğru yola və hidayətə çatdırmaq, sizə zəfəri və fəthi nəsib etmək üçün düşməninizlə sizi bir araya gətirdi. Necə ki Uca Allah bu xüsusda başqa bir ayədə belə buyurur: “**Sizin xoşunuza gəlməsə də, cihad sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz**” (“əl-Bəqərə”, 216).

İbn Cəririn رحمه الله nəql etdiyinə görə digər alimlər belə demişlər: “Ayənin mənası belədir: “Rəbbinin haqq-ədalət uğrunda səni evindən çıxartması möminlərdən bir dəstənin xoşuna gəlmədiyi kimi, bir dəstənin də döyüşmək xoşuna gəlməz. Onlara haqq açıq-aşkar bəlli olduqdan sonra belə səninlə bu barədə mübahisə edərlər”.[2] Sonra İbn Cərir رحمه الله oxşar rəyi Mucahiddən rəvayət etmişdir. Mucahid رحمه الله belə demişdir: “Rəbbinin haqq-ədalət uğrunda səni evindən çıxartması möminlərdən bir dəstənin xoşuna gəlmədiyi kimi, bir dəstə də haqq-ədalət barəsində səninlə mübahisə edər”.[3] əs-Suddi رحمه الله demişdir: “Uca Allah Peyğəmbərin ﷺ Bədr döyüşünə çıxması və möminlərdən bir dəstənin onunla bu barədə mübahisə etməsi[4] barədə bu ayəni nazil etmişdir: “**Möminlərdən bir dəstənin**” müşriklərlə

[1] ət-Təbəri, 15699, 15773.

[2] ət-Təbəri, 15705, 15779.

[3] ət-Təbəri, 15701, 15775.

[4] Bəzi möminlər müsəlmanların sayca az, güc baxımından zəif olduqları üçün Bədr döyüşünə getməyi Peyğəmbərə ﷺ məsləhət görməmiş, özləri də orada iştirak etmək istəməmişdilər. Lakin Peyğəmbər ﷺ onların sözünə baxmayıb ən yaxın səhabələri ilə döyüşə yollanmış və düşməni məğlub edərək xeyli qənimət əldə etmişdi.

döyüşmək “**xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq-ədalət uğrunda öz evindən çıxartması da buna bənzəyir! Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər**”. Bəzi alimlər demişlər: “Onlar mübahisə edərək səndən qənimətlər barədə soruşurlar, necə ki Bədr döyüşü günü səninlə mübahisə edərək: “Bizi karvanı ələ keçirmək üçün çıxardın. Əgər döyüş olacağını əvvəlcədən xəbər vermiş olsaydın, biz döyüşə hazırlaşardıq” – deyirdilər”.[1]

Mən deyirəm: “Peyğəmbərə ﷺ Əbu Sufyana aid karvanının Şamdan qayıtdığı barədə xəbər çatanda onun arxasınca düşmək üçün Mədinədən çıxdı. Bu karvanda Qureyşə aid külli miqdarda mal var idi. Peyğəmbər ﷺ müsəlmanlardan çevik olanları götürərək üç yüz on nəfərdən artıq adamla yola çıxdı və Bədr yolu üzərindən sahilə doğru karvanın arxasınca getdi. Əbu Sufyan Peyğəmbərin ﷺ onun arxasınca gəldiyini bilən kimi Damdam ibn Amrı Məkkəyə kömək dalınca göndərdi. Məkkəlilər ona kömək etmək üçün doqquz yüz yaxud min nəfər silahlı və hazırlıqlı adamla yola çıxdılar. Əbu Sufyan isə karvanla dəniz sahili boyunca sağ tərəfə üz tutdu və xilas oldu. Məkkəlilər gəlib Bədr quyularına çatdılar. Uca Allah müsəlmanlarla kafirləri bir-birlərindən xəbərsiz bir araya gətirdi, çünki O, müsəlmanların sözünü ucaldıb onları düşmən üzərində müzəffər etmək, haqq ilə batili bir-birindən ayırmaq istəyirdi. Bunun açıqlaması qarşıda gələcəkdir”.

Nəticə: Peyğəmbərə ﷺ Məkkəlilərin döyüş üçün ona tərəf gəldikləri barədə xəbər çatdıqda, Uca Allah ona vəhy edərək iki dəstədən birinin – karvanın və yaxud müsəlmanlarla döyüşmək üçün gələn Məkkəli kafirlər üzərində qələbənin onların olacağını vəd etdi. Müsəlmanlardan bir çoxu karvanı ələ keçirmək istəyirdi, çünki bunda döyüşsüz qazanc vardı. Uca Allah bunu bəyan edərək buyurur: “**Siz silahsız dəstənin sizin olmasını arzulayırdınız. Allah isə Öz Kəlmələri ilə haqqı gerçəkləşdirmək və kafirlərin kökünü kəsmək istəyirdi**”.

əl-Hafiz Əbu Bəkr ibn Mərdəveyh رحمه الله Əbu Əyyub əl-Ənsarinin رضي الله عنه belə dediyini rəvayət etmişdir: “Biz Mədinədə ikən Peyğəmbər ﷺ dedi: “Mənə xəbər verildi ki, Əbu Sufyanın karvanı (Şamdan) gəlir. Bu karvana qarşı çıxarsınızmı? Ola bilsin, Allah onu bizə qənimət olaraq verər”. Biz: “Bəli” – dedik. Peyğəmbər ﷺ karvana tərəf çıxdı və biz də onunla çıxdıq. Bir və ya iki gün yol getdikdən sonra Peyğəmbər ﷺ dedi: “Bu qövmlə döyüşmək barədə nə düşünürsünüz? Onlar sizin çıxdığınızı bilirlər”. Biz: “Xeyr, Allaha and olsun ki, düşmənlə döyüşməyə heç gücümüz yoxdur. Biz yalnız karvana görə çıxmışdıq” – dedik. Peyğəmbər ﷺ bir

[1] ət-Təbəri, 15704, 15778.

daha soruşdu: "Bu qövmlə döyüşmək barədə nə düşünürsünüz?" Biz eyni cavabı verdik. Miqdad ibn Amr dedi: "Ey Allahın Elçisi, biz sənə Musanın qövmünün ona: "**Sən get Rəbbinlə birlikdə onlara qarşı vuruş. Biz isə burada oturacağıq**" ("əl-Maidə", 24) – dediyi kimi deməyəcəyik". Biz ənsarlar dediyimizə peşman olduq və: "Çoxlu mala sahib olmaqdansa, kaş ki Miqdadın dediyi kimi deyərdik və bu bizə çoxlu maldan daha sevimli olardı" – deyə təmənna etdik. Uca Allah Elçisinə ﷺ: "**Möminlərdən bir dəstənin xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq-ədalət uğrunda öz evindən çıxartması da buna bənzəyir!**" ayəsini nazil etdi". Sonra Əbu Əyyub hədisin davamını qeyd etdi.[1] Oxşar hədisi İbn Əbu Hatim ﷺ də rəvayət etmişdir. İbn Mərdəveyh ﷺ eyni hədisi Əlqamə ibn Vəqqas əl-Leysidən ﷺ bu şəkildə rəvayət etmişdir: "Peyğəmbər ﷺ Bədr quyularına tərəf yola çıxdı. ər-Ravhə adlanan yerə çatanda insanlara müraciət edərək: "Nə düşünürsünüz?" – deyə soruşdu. Əbu Bəkr dedi: "Ey Allahın Elçisi, bizə çatan məlumata görə onlar filan-filan yerdədirlər". Peyğəmbər ﷺ insanlara təkrar xitab edərək: "Nə düşünürsünüz?" – deyə soruşdu. Ömər Əbu Bəkrin dediyi kimi cavab verdi. Sonra Peyğəmbər ﷺ insanlara bir daha xitab edərək: "Nə düşünürsünüz?" – deyə soruşdu. Sad ibn Muaz dedi: "Ey Allahın Elçisi, bizim nə düşündüyümüzü bilmək istəyirsən? Səni (peyğəmbərliklə) şərəfləndirən, sənə Kitabı nazil edən Allaha and olsun ki, sənin nə etmək istədiyini bilmirəm və getmək istədiyin yol barədə mənim heç bir məlumatım yoxdur. Əgər sən Yəməndəki Bərkul-Ğimədə[2] getmək istəsən belə, yenə səninlə birlikdə gedərik və Musaya "**Sən get Rəbbinlə birlikdə onlara qarşı vuruş. Biz isə burada oturacağıq**" ("əl-Maidə", 24)" deyənlər kimi olmayacağıq. Əksinə, biz: "Sən get Rəbbinlə birlikdə onlara qarşı vuruş. Biz də sizinlə birlikdə vuruşacağıq və sizə tabe olacağıq" – deyirik. Bəlkə sən bir iş üçün çıxmışdın, lakin Allah sənə başqa bir şey vəhy etmişdir. Allahın sənə göstərdiyi kimi et. İstədiyin qəbilə ilə müqavilə bağla, istədiyinlə müqaviləni poz. İstədiyini düşmən qəbul et, istədiyinlə sülhə razılaş. Malımızdan istədiyini götür". Sadın bu sözünə görə Uca Allahın "**Möminlərdən bir dəstənin xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq-ədalət uğrunda öz evindən çıxartması da buna bənzəyir!...**" ayələri nazil oldu".[3]

əl-Əufi ﷺ İbn Abbasın ﷺ belə dediyini rəvayət etmişdir: "Peyğəmbər ﷺ Bədr döyüşü günü düşmənlə qarşılaşmaq barədə səhabələri ilə

[1] ət-Təbərani "Mucəmul-Kəbir" 3950, 4057; İbn Mərdəveyh, 2/299; İbn Əbu Hatim, 8805, 8814. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3340.

[2] Bərkul-Ğiməd – Məkkədən beş günlük məsafədə yerləşən ərazidir. Ərəblər bu şəhərin adını uzaq məsafəyə məsəl kimi çəkirdilər.

[3] İbn Əbu Şeybə, 36660, 37815.

məsləhətləşdikdən və Sad ibn Ubadə öz sözünü[1] dedikdən sonra Peyğəmbər ﷺ insanlara döyüşə hazırlaşmağı və silah-sursat götürməyi əmr etdi. Bu qərar iman əhlinin xoşuna gəlmədi və Uca Allah bu ayələri nazil etdi: "**Möminlərdən bir dəstənin xoşuna gəlmədiyi halda, Rəbbinin səni haqq-ədalət uğrunda öz evindən çıxartması da buna bənzəyir! Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər, sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər**". Mucahid ayəni təfsir edərək belə demişdir: "**Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər**", yəni döyüş barəsində səninlə mübahisə edirdilər".[2] İbn Cərir ﷺ demişdir: "Digər alimlər burada müşriklərin nəzərdə tutulduğunu demişlər". Sonra İbn Cərir İbn Zeydin ﷺ belə dediyini rəvayət etmişdir: "Ayədə müşriklər nəzərdə tutulur. Peyğəmbər ﷺ onları İslama dəvət etdikdə onunla mübahisə edirdilər, "**sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər**". İbn Zeyd ﷺ demişdir: "Bu, digərlərinin (möminlərin) sifətlərindən deyil. Bu, küfr əhlinin yeni sifətidir". Daha sonra isə İbn Cərir ﷺ belə demişdir: "İbn Zeydin bu dediyinin heç bir mənası yoxdur, çünki Uca Allahın "**Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər**" ayəsi iman əhli barəsindədir. Bunun ardınca gələnlər də yenə onlara aiddir. Belə olan halda, doğru rəy İbn Abbas və İbn İshaqın dedikləridir ki, bu ayədə möminlər barədə xəbər verilir".[3] İbn Cəririn ﷺ dəstəklədiyi bu rəy doğru rəydir. Ayənin məzmunu da buna dəlalət edir. Ən doğrusunu Allah bilir.

İmam Əhməd ﷺ rəvayət edir ki, İbn Abbas ﷺ demişdir: "Bədr döyüşü bitdikdən sonra Peyğəmbərə ﷺ dedilər: "Karvanın arxasınca get, artıq onu əldə etməyə bir maneə yoxdur". Əli-qolu bağlı əsir olan Abbas ibn Abdulmuttalib belə səsləndi: "Bu, sənin üçün doğru olmaz". Peyğəmbər ﷺ: "Nə üçün?" – deyə soruşduqda o belə dedi: "Çünki Uca Allah sənə iki dəstədən birinin (karvanın və yaxud kafirlərin qoşununun) sizin olacağını vəd etmiş və artıq vəd etdiyini sənə vermişdi" – dedi". Hədisin isnadı yaxşıdır, lakin digər hədis alimləri onu rəvayət etməmişlər.[4]

Uca Allah buyurur: "**Siz silahsız dəstənin sizin olmasını arzulayırdınız**", yəni onlar güc-qüvvəti olmayan, onlarla döyüşməyəcək dəstənin onların olmasını istəyirdilər ki, bu, karvandır. "**Allah isə Öz Kəlmələri**

[1] Əvvəlki hədisdə qeyd olunanlar.
[2] ət-Təbəri, 15712, 15786.
[3] ət-Təbəri, 15714-15715, 15787-15788.
[4] Əhməd (2022). (Əhməd Şakir). əl-Hakim, 3261; ət-Tirmizi, 3080, 3360. Hədis zəifdir. Bax: Daif Sunən ət-Tirmizi, 596.

**ilə haqqı gerçəkləşdirmək və kafirlərin kökünü kəsmək istəyirdi**”, yəni Allah güc-qüvvət sahibi olan və döyüşə biləcək dəstəni sizinlə bir araya gətirməyi istəyirdi, çünki O, sizi onlar üzərində müzəffər edəcək, onlara qarşı sizə yardım edəcək və Öz dinini qalib edəcəkdi. İslam (Lə iləhə İllallah) kəlməsini ucaldacaq, İslam dinini digər dinlər üzərində qalib edəcəkdi. Həqiqətən, Allah bütün işlərin aqibətini ən yaxşı biləndir. Sizi ən gözəl şəkildə idarə edən də Odur. Baxmayaraq ki, qulları zahirə görə bunun əksini istəyirlər. Necə ki başqa bir ayədə Uca Allah belə buyurur: “**Sizin xoşunuza gəlməsə də, cihad sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz**” (“əl-Bəqərə”, 216).

Muhəmməd ibn İshaq ﷺ demişdir: “Muhəmməd ibn Muslim əz-Zuhri, Asim ibn Ömər ibn Qatədə, Abdullah ibn Əbu Bəkr və Yəzid ibn Ruman mənə Urvə ibn əz-Zubeyrdən və digər alimlərdən Abdullah ibn Abbasdan hədis rəvayət etmişlər. Bu ravilərin hər biri mənə hədisin bir hissəsini rəvayət etmişdir. Həmin hissələr Bədr döyüşü barədə olan hədisin bu hissəsində birləşir. Onlar belə demişlər: “Peyğəmbər ﷺ Əbu Sufyanın (karvanla) Şamdan gəldiyini eşitdikdə müsəlmanları ona tərəf çıxmağa çağırdı və dedi: “Bu, Qureyşin karvanıdır. Bu karvanda onların malları var. Ona tərəf çıxın. Ola bilsin, Uca Allah onu sizə qənimət olaraq versin”. İnsanlar bu çağırışa cavab verdilər. Bir qismi yüngül, bir qismi isə ağır silahlandı. Onlar Peyğəmbərin ﷺ qoşunla döyüşəyəcəyini sanmırdılar. Əbu Sufyan Hicaza (Ərəbistan yarımadasına) yaxınlaşdıqda xəbər toplamaq üçün ətrafa dəstələr göndərmişdi. Müsəlmanların hücumundan qorxduğu üçün rast gəldiyi yolçulardan onlar barədə soruşurdu. Nəhayət, yolçuların birindən: “Muhəmməd və onun səhabələri səni və karvanını ələ keçirmək üçün yola çıxmışlar”, – xəbərini aldı. Bu zaman o, ehtiyat üçün Damdam ibn Amr əl-Ğifərini məvacib qarşılığında Məkkə əhlinin yanına göndərdi. Ona Qureyş qəbiləsinin yanına gedib onlara Muhəmmədin öz səhabələri ilə karvanın qarşısını kəsmək istədiyini və mallarını qorumaq üçün dəstə göndərmələrini xəbər verməyi əmr etdi. Damdam ibn Amr tez Məkkəyə doğru yola çıxdı. Peyğəmbər ﷺ səhabələri ilə Mədinədən çıxıb Zəfiran adlanan vadiyə çatdı. Vadidən çıxıb onun bir hissəsini qət etdikdən sonra dincəlmək üçün düşərgə saldı. Bu vaxt ona Qureyşin öz karvanını qorumaq üçün yola çıxması xəbəri çatdı və o, səhabələrinə Qureyşin gəldiyini xəbər verib onlarla məsləhətləşdi. Əbu Bəkr qalxıb gözəl çıxış etdi. Sonra Ömər qalxdı, o da gözəl çıxış etdi. Sonra Miqdəd ibn Amr qalxdı və dedi: “Ey Allahın Elçisi, Allahın sənə əmr etdiyini yerinə yetir, biz səninləyik. Allaha and olsun ki, İsrail oğullarının Musaya:

**"Sən get Rəbbinlə birlikdə onlara qarşı vuruş. Biz isə burada oturacağıq"** ("əl-Maidə", 24) dedikləri kimi deməyəcəyik. Əksinə, biz: "Sən get Rəbbinlə birlikdə onlara qarşı vuruş. Biz də sizinlə birlikdə vuruşacağıq" – deyirik. Səni haqq ilə göndərən Allaha and olsun ki, bizi Bərkul-Ğimədə (həbəşilərin şəhərinə) aparsan belə, ora çatmaq üçün səninlə birlikdə səndən öndə döyüşərik". Peyğəmbər ﷺ ona xeyirli sözlər söyləyib xeyir-dua etdi, çünki səhabələrin əksəriyyəti ənsarlardan ibarət idi. Onlar Əqabə adlanan yerdə Peyğəmbərə ﷺ beyət edərkən belə demişdilər: "Ey Allahın Elçisi, sən bizim yurdumuza (Mədinəyə) gəlməyənə qədər bizim himayəmizdə deyildin. Bizim yurdumuza çatdıqda artıq sən bizim himayəmiz altındasan. Övladlarımızı və qadınlarımızı qoruduğumuz kimi səni də qoruyarıq". Peyğəmbəri ﷺ narahat edən bu idi ki, ənsarlar Peyğəmbəri ﷺ yalnız Mədinədə hücum edən düşməndən qorumalı olduqlarını düşünər və elə bilərlər ki, Peyğəmbərin ﷺ onları yurdlarından çıxarıb düşmənə qarşı döyüşdürmək haqqı yoxdur. Peyğəmbər ﷺ belə dedikdə, Sad ibn Muaz: "Ey Allahın Elçisi, Allaha and olsun ki, sanki sən bizi nəzərdə tutursan" – dedi. Peyğəmbər ﷺ: "Bəli" – deyə cavab verdi. Sad dedi: "Həqiqətən, biz sənə iman gətirdik, sənin peyğəmbər olduğunu təsdiqlədik, sənin gətirdiyin dinin haqq olduğuna şahidlik etdik. Buna görə sənə eşidib itaət edəcəyimizə dair söz və əhd vermişik. Ey Allahın Elçisi, Allah sənə nə əmr edirsə, onu da et! Səni haqq ilə göndərən Allaha and olsun ki, bizə bu dənizi göstərib ora girsən belə, biz də səninlə birlikdə girərik və bizdən heç kəs arxada qalmaz. Biz sabah düşmənlə qarşılaşmaqdan çəkinmirik. Həqiqətən, biz döyüş zamanı səbirli, düşmənlə qarşılaşdıqda isə sədaqətliyik. Ümid edirik ki, Uca Allah bizimlə sənin gözünü aydın edəcək. Bizi Allahın bərəkəti ilə düşmənə qarşı apar". Peyğəmbər ﷺ Sadın dediklərinə çox sevindi və bu onu daha da ruhlandırdı. Sonra Peyğəmbər ﷺ dedi: "Allahın bərəkəti ilə irəli gedin, sizə müjdələr olsun! Həqiqətən, Uca Allah mənə iki dəstədən birini vəd etmişdir. Allaha and olsun ki, sanki düşmənin məğlub olduğu yeri görürəm".[1] Oxşar hədisi əl-Əufi رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir. əs-Suddi, Qatədə, Abdur-Rahmən ibn Zeyd ibn Əsləm, habelə bir çox sələf və xələf alimləri də belə demişlər. Muhəmməd ibn İshaqın رحمه الله hədisi ilə kifayətlənərək onların dediklərini rəvayət etmədik.

[1] İbn Hişam "Sira" 1/190, 3/152.

﴿إِذۡ تَسۡتَغِيثُونَ رَبَّكُمۡ فَٱسۡتَجَابَ لَكُمۡ أَنِّي مُمِدُّكُم بِأَلۡفٖ مِّنَ ٱلۡمَلَٰٓئِكَةِ مُرۡدِفِينَ ۝٩ وَمَا جَعَلَهُ ٱللَّهُ إِلَّا بُشۡرَىٰ وَلِتَطۡمَئِنَّ بِهِۦ قُلُوبُكُمۡۚ وَمَا ٱلنَّصۡرُ إِلَّا مِنۡ عِندِ ٱللَّهِۚ إِنَّ ٱللَّهَ عَزِيزٌ حَكِيمٌ ۝١٠﴾

**9. O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" – deyə duanızı qəbul etmişdi.**

**10. Allah bunu yalnız bir müjdə və onunla qəlbiniz rahatlıq tapsın deyə belə etdi. Qələbə yalnız Allahdandır. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir.**

İmam Əhməd ﷺ Ömər ibn əl-Xəttabın ﷺ belə dediyini rəvayət etmişdir: "Bədr döyüşündə Peyğəmbər ﷺ nəzər salıb gördü ki, səhabələrinin sayı üç yüzdən bir az çox, müşriklərin sayı isə min nəfərdən artıqdır. Sonra o, üzünü qibləyə tərəf çevirdi və əllərini açıb dua etdi: "Allahım, mənə verdiyin vəd haradadır? Allahım, mənə verdiyin vədi yerinə yetir! Allahım, əgər bu müsəlman dəstə həlak olsa, yer üzündə Sənə ibadət edən olmaz!" Peyğəmbər ﷺ uzun müddət bu duanı edərək Rəbbindən kömək istədi, hətta üst geyimi belə çiynindən yerə düşdü. Əbu Bəkr onu götürüb yenidən Peyğəmbərin ﷺ çiyninə atdı və onu arxadan qucaqlayıb dedi: "Ey Allahın Elçisi! Sən ki, bu qədər dua edirsən, Rəbbin sənə verdiyi vədi doğruldacaq və sənə kömək edəcək!" Uca Allah da bu ayəni nazil etdi: "**O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" – deyə duanızı qəbul etmişdi**". ("əl-Ənfal", 9). Həmin gün yetişdikdə iki dəstə qarşılaşdı və Allah müşrikləri məğlub etdi. Onlardan yetmiş nəfər öldürüldü, yetmiş nəfər də əsir götürüldü. Peyğəmbər ﷺ əsirlər barəsində Əbu Bəkr, Ömər və Əli ilə məsləhətləşdi. Əbu Bəkr dedi: "Ey Allahın Elçisi! Bu əsirlərin hamısı bizim qardaşlarımız, qohum-əqrəbalarımız və yaxınlarımızdır. Mən təklif edirəm ki, fidyə alıb onları azad edək. Bununla da qüvvəmizi artıraq. Ola bilsin ki, Allah onlara hidayət versin və onlar da gələcəkdə bizə dayaq olsunlar". Peyğəmbər ﷺ Ömərdən soruşdu: "Ey əl-Xəttabın oğlu, sən nə təklif edirsən?" Ömər dedi: "Mən Əbu Bəkrin dediyi ilə razı deyiləm. Mənə izin ver, filan qohumumun boynunu vurum, Əliyə izin ver Aqilin boynunu vursun. Həmzəyə də izin ver filan qardaşının boynunu vursun və beləliklə də, qəlbimizdə onların başçılarına, sərkərdələrinə və qəhrəmanlarına qarşı mərhəmət olmadığını Allaha göstərək". Peyğəmbər ﷺ Əbu Bəkr ilə razılaşdı, mənimlə razılaşmadı və fidyə alıb onları azad etdi. Ertəsi gün mən, Peyğəmbərin ﷺ yanına gəldim və Əbu Bəkrlə onun ağladığını

görüb dedim: “Ey Allahın Elçisi! Sizi ağladan nədir? Deyin, əgər ağlamağa səbəb tapsam, mən də sizinlə birlikdə ağlayaram. Əgər səbəb tapmasam, özümü buna məcbur edərəm[1]”. Peyğəmbər ﷺ yaxınlığındakı ağaca işarə edərək dedi: “Mənə əsirlərin müqabilində götürülmüş fidyəyə görə üz verəcək əzabın bu ağacdan daha yaxın olduğu göstərildi”. Uca Allah bu ayələri nazil etdi: “**Peyğəmbərə yer üzündə çoxlu kafir qırmayınca əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə axirəti qazanmağınızı istəyir. Allah Qüdrətlidir, Hikmət sahibidir. Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı, aldığınız fidyə müqabilində sizə böyük bir əzab toxunardı. Ələ keçirdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin və Allahdan qorxun. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir**”. (“əl-Ənfal”, 67-68). Uca Allah əldə olunan qənimətləri halal buyurdu. Bədr döyüşündə aldığımız bu fidyəyə görə növbəti il Uhud döyüşündə müsəlmanlar bəlaya düçar oldular. Bu döyüşdə yetmiş nəfər şəhid oldu, səhabələr Peyğəmbəri ﷺ qoyub qaçdı, Peyğəmbərin ﷺ qabaq dişlərindən biri sındı, başındakı dəbilqə zərbədən parçalandı (başı yaralandı), üz-gözü başından axan qana bulandı. Uca Allah da bu ayəni nazil etdi: “**Başınıza bir müsibət gəldiyi zaman, halbuki siz onların başına ikiqat müsibət gətirmişdiniz: “Bu haradan gəldi?” – söylədiniz. De: “Bu sizin özünüzdəndir!” Həqiqətən, Allah hər şeyə qadirdir**” (“Ali-İmran”, 165). Yəni fidyə aldığınıza görədir”.[2] Hədisi Muslim, Əbu Davud, ət-Tirmizi, İbn Cərir və İbn Mərdəveyh رحمه الله rəvayət etmişlər. Əli ibn əl-Mədini və ət-Tirmizi رحمه الله hədisin səhih olduğunu və yalnız İkrimə ibn Ammar əl-Yəmənidən rəvayət olunduğunu bildirmişlər. əl-Buxari رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir ki, Bədr döyüşündən bir az əvvəl Peyğəmbər ﷺ çadırda ikən (dua edib) dedi: “Allahım, Səndən kafirlərə qalib gələcəyimizə dair verdiyin sözü və vədi gerçəkləşdirməyini diləyirəm! Allahım, əgər Sən möminlərin həlak olmağını istəsən, bu gündən sonra artıq Sənə ibadət edən qalmayacaq!” Bu vaxt Əbu Bəkr Peyğəmbərin ﷺ əlindən tutub dedi: “Yetər, ey Allahın Elçisi! Sən artıq Rəbbinə təkidlə dua etdin!” Sonra Peyğəmbər ﷺ çölə çıxdı və bu ayələri oxudu: “**Bu dəstə mütləq məğlub olacaq və arxaya dönüb qaçacaqdır**” (“əl-Qəmər”, 45). Hədisi ən-Nəsəi رحمه الله də rəvayət etmişdir.[3]

[1] Burada Ömərin رضي الله عنه hər bir şeydə, hətta ağlamaqda belə, Peyğəmbərə ﷺ və Əbu Bəkrə رضي الله عنه tabe olmağa həirsliyi görsənir.

[2] Əhməd, 208. Şeyx Muqbil və Şueyb əl-Arnavut səhih olduğunu bildirmişlər.

[3] əl-Buxari, 3659, 3953; ən-Nəsəi “Sunənul-Kubra” 11557.

Uca Allah buyurur: "**O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm" – deyə duanızı qəbul etmişdi**". İbn Abbas رضي الله عنهما demişdir: "**bir-birinin ardınca gələn**", yəni bir-birini təqib edən".[1] Bu ifadənin "sizə yardım edən" mənasını verməsi də mümkündür. Necə ki başqa bir rəvayətdə İbn Abbas رضي الله عنهما bu ifadəni "yardım edən" şəklində təfsir etmişdir. Mucahid, Qari İbn Kəsir və İbn Zeyd رحمهم الله də bunu belə açıqlamışlar. Əbu Kudeynə Qabus vasitəsi ilə rəvayət etmişdir ki, İbn Abbas رضي الله عنهما Uca Allahın "**Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm**" ayəsi barədə belə demişdir: "Hər bir mələyin ardınca gələn bir mələklə yardım edəcəyəm". Eyni isnadla rəvayət olunur ki, İbn Abbas رضي الله عنهما bu ayə barədə belə demişdir: "Bir-birinin ardınca gələn min mələklə".[2] Əbu Zibyan, əd-Dahhək və Qatədə رحمهم الله də ayəni belə açıqlamışlar.

İbn Cərir رحمه الله Əlinin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Cəbrail min mələklə Peyğəmbərin ﷺ sağ tərəfinə endi. Əbu Bəkr də bu tərəfdə idi. Mikail isə min mələklə Peyğəmbərin sol tərəfinə endi. Mən Peyğəmbərin ﷺ sol tərəfində idim".[3] Əgər bu rəvayətin isnadı səhihdirsə, o zaman bu min mələyin ardınca min mələk də gəlmişdir. Bu səbəbdən, bəziləri ayədə keçən مُرْدِفِينَ [murdifi:n] "**bir-birinin ardınca**" ifadəsini ikilikdə مُرْدِفِيْنِ [murdifeyni] "bir-birinin ardınca ikiqat gələn min mələklə" şəklində oxumuşlar. Ən doğrusunu Allah bilir. Məşhur olan İbn Abbasın رضي الله عنهما rəvayət etdiyi bu təfsirdir: "Uca Allah Bədr döyüşündə Peyğəmbərinə ﷺ və möminlərə min mələklə yardım etmişdir. Cəbrail beş yüz mələklə ordunun bir cinahında, Mikail isə beş yüz mələklə ordunun digər cinahında idi".[4]

əl-Buxari رحمه الله Bədr döyüşünün iştirakçısı olan Rifəa ibn Rafi əz-Zuraqinin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Cəbrail Peyğəmbərin ﷺ yanına gəlib soruşdu: "Siz Bədr döyüşündə iştirak etmiş səhabələri nə sayırsınız?" Peyğəmbər ﷺ: "Müsəlmanların ən fəzilətlisi" – deyə cavab verdi və ya buna bənzər bir söz söylədi. Cəbrail dedi: "Bədr döyüşündə iştirak etmiş mələklər də belədir".[5] Hədisi yalnız əl-Buxari رحمه الله rəvayət etmişdir.[6]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ Hatib ibn Əbu Bəltənin رضي الله عنه öldürülməsi barədə Ömərlə رضي الله عنه

---

[1] İbn Əbu Hatim, 8828; ət-Tabəri, 15743, 15821.

[2] ət-Tabəri, 15745, 15820.

[3] ət-Tabəri, 15756, 15832.

[4] ət-Tabəri, 15770, 15846.

[5] Yəni Bədr döyüşündə iştirak etmiş mələklər də digər mələklər arasında sayılıb seçilirlər. Ətraflı "Ali-İmran" surəsi, 123-127-ci ayələrin təfsirinə bax.

[6] əl-Buxari, 3692, 3992.

məşvərət etdikdə ona dedi: “Axı o, Bədr döyüşündə iştirak edib. Məlumun olsun ki, qüdrətli və əzəmətli Allah Bədrdə döyüşənlərə baxıb demişdir: “İstədiyinizi edin, artıq Mən sizi bağışlamışam!”[1]

Uca Allah buyurur: “**Allah bunu yalnız bir müjdə və onunla qəlbiniz rahatlıq tapsın deyə belə etdi**”, yəni Uca Allah sizə bir müjdə olsun və onunla qəlbiniz rahatlıq tapsın deyə, mələkləri kömək olaraq göndərdi və bunu sizə bildirdi. Halbuki Uca Allah bunsuz da düşmənlərinizə qarşı sizə kömək etməyə Qadirdir. Odur ki, Uca Allah ayənin davamında: “**Qələbə yalnız Allahdandır**” – deyə buyurur. Necə ki başqa ayələrdə belə buyurur: “**Döyüşdə kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman onların boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə əsirlərə bağladığınız kəndirləri bərk çəkin. Sonra da onları ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin. Müharibəyə son qoyulanadək kafirlərlə belə rəftar edin. Bax belə! Əgər Allah istəsəydi, onlardan döyüşsüz də intiqam alardı. Lakin O sizi biri-birinizlə sınağa çəkmək üçün belə etdi. Allah Öz yolunda öldürülənlərin əməllərini heç vaxt boşa çıxartmaz. Allah onları doğru yola yönəldəcək, onların halını yaxşılaşdıracaq və onları özlərinə tanıtmış olduğu Cənnətə daxil edəcək**” (“Muhəmməd”, 4-6); “**Biz bu günləri – qalibiyyəti və məğlubiyyəti, insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirənləri üzə çıxarsın və aranızdan şəhidlər seçsin. Allah zalımları sevməz. Həm də ona görə belə edirik ki, Allah möminləri təmizə çıxarsın və kafirləri məhv etsin**”

---

[1] əl-Buxari, 3983; Muslim, 2494. Hədisin tam mətni belədir: Əli ibn Əbu Talib ﷺ demişdir: “Bir dəfə Peyğəmbər ﷺ mənə, Zubeyrə və Miqdada dedi: “Rovdətu Xaxa (Mədinə ilə Məkkə arasında yerləşən yer adıdır) gedin! Orada kəcavənin içində gedən, özü ilə məktub aparan bir qadına rast gələcəksiniz. Məktubu ondan götürərsiniz”. Biz yola düşdük və atlarımızı dörd nala çapdıq. Nəhayət, gəlib Rovdəyə çatdıq və orada kəcavəni gördük. Biz onun içindəki qadına: “Məktubu çıxart!” – dedik. Qadın: “Nə məktub?” – deyə soruşdu. Biz dedik: “Ya məktubu verəcəksən, ya da səni soyunduracağıq”. Bizdən qorxan qadın saçlarının arasından məktubu çıxartdı və biz onu Peyğəmbərə ﷺ gətirdik. Məktubda yazılmışdı: “Hatib ibn Əbu Bəltədən...” Məktubda Hatib Məkkə müşriklərindən olan bir dəstəyə Peyğəmbərin ﷺ işləri barədə xəbər verirdi. Peyğəmbər ﷺ dedi: “Bu nədir, ey Hatib?!” Hatib dedi: “Məni qınamağa tələsmə, ey Allahın Elçisi! Mən qureyşdən idim, lakin onların nəslindən deyildim. Səninlə birlikdə hicrət etmiş mühacirlərin qohum-əqrəbası onların Məkkədəki ailələrini və mallarını himayə edir. Onların arasında mənim qohumlarım yoxdur deyə, mən onları qorumaq üçün belə etmək istəyirdim. Mən bunu kafir olmaq və ya dindən dönmək məqsədilə etmədim”. Peyğəmbər ﷺ buyurdu: “Həqiqətən, o, sizə düz deyib”. Bu vaxt Ömər dedi: “Ey Allahın Elçisi, mənə izin ver, onun boynunu vurum”. Peyğəmbər ﷺ buyurdu: “Axı o, Bədr döyüşündə iştirak edib. Məlumun olsun ki, qüdrətli və əzəmətli Allah Bədrdə döyüşənlərə baxıb demişdir: “İstədiyinizi edin, artıq Mən sizi bağışlamışam!” Amr demişdir: “Hatibin barəsində bu ayə nazil oldu: **“Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!”** (“əl-Mumtəhinə”, 1)”. (əl-Buxari, 4511, 4890).

("Ali-İmran", 140-141). Uca Allahın möminlərə kafirlərlə vuruşmağı fərz etməsinin hikmətlərindən biri də elə budur. Uca Allah əvvəlki ümmətlərdə peyğəmbərləri yalan sayanları bütünlüklə məhv edən müsibətlərlə və bəlalarla cəzalandırırdı. Necə ki Nuhun qövmünü tufan ilə, Ad qövmünü soyuq və şiddətli küləklə, Səmud qövmünü səslə, Lut qövmünü yerə batırmaqla, habelə torpağın altını üstünə çevirib onların üzərinə yanar daş yağdırmaqla, Şueybin qövmünü isə kölgəli günün əzabı ilə[1] həlak etmişdir. Uca Allah Musanı ﷵ peyğəmbər olaraq göndərdikdən sonra düşməni olan Fironu və onun qövmünü dənizdə boğaraq həlak etdi. Sonra Musaya ﷵ Tövratı nazil etdi və orada Musaya ﷵ kafirlərlə döyüşməyi fərz etdi. Bu hökm (kafirlərə qarşı döyüşmək) Musadan ﷵ sonrakı şəriətlərdə də davam etdi. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Biz əvvəlki nəsilləri məhv etdikdən sonra Musaya insanlar üçün açıq-aydın dəlillər, doğru yol göstəricisi və rəhmət olaraq Kitab verdik ki, bəlkə, düşünüb ibrət alsınlar**" ("əl-Qəsəs", 43). Möminlərin kafirləri öldürməsi kafirlər üçün ən pis rəzillik və təhqirdir, möminlərin qəlblərini isə ən çox sevindirən bir haldır. Necə ki Uca Allah bu ümmətin möminlərinə xitab edərək buyurur: "**Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin**" ("ət-Tövbə", 14). Bu səbəbdən Qureyşin başçılarının özlərindən aşağı gördükləri düşmənlərinin əlləri ilə öldürülməsi onlar üçün ən pis rəzillik, mömin dəstənin qəlbləri üçün isə eyni dərəcədə ən sevindirici hal olmuşdu. Məsələn, Əbu Cəhlin döyüş meydanında, döyüşün qızğın vaxtında öldürülməsi onun üçün yataqda ikən baş verən bir fəlakətlə, bir ildırım vurması ilə və ya buna bənzər bir şeylə ölməkdən daha şiddətli, daha alçaldıcı bir ölüm idi. Necə ki Əbu Ləhəb – Allah ona lənət etsin – qızılcadan ölmüşdü. Qohumlarından heç kəs ona yaxınlaşa bilmədi, uzaqdan üzərinə su atmaqla onu yudular və üzərinə daşlar atmaqla dəfn etdilər. Bu səbəbdən Uca Allah ayənin sonunda: "**Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir**" – deyə buyurur. Yəni dünya və axirətdə izzət yalnız Allaha, Onun Elçisinə ﷺ və iman gətirənlərə məxsusdur. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Şübhəsiz ki, Biz Öz elçilərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik**" ("Ğafir", 51). Uca Allah "**Hikmət sahibidir**", yəni kafirləri Öz gücü və qüvvəti ilə məhv etməyə, yox etməyə qadir olduğu halda, onlarla döyüşməyi müsəlmanlara fərz etməsində, əlbəttə ki, hikmət sahibidir. O, hər bir nöqsandan uzaqdır, pakdır və ucadır.

[1] Uca Allah onlara bulud göndərmişdi. Onlar bu buludun kölgəsində kölgələnmək üçün onun altına yığışdılar. Bu vaxt onları alov yandırdı. Bax: "əş-Şuəra" surəsi, 189.

﴿إِذۡ يُغَشِّيكُمُ ٱلنُّعَاسَ أَمَنَةٗ مِّنۡهُ وَيُنَزِّلُ عَلَيۡكُم مِّنَ ٱلسَّمَآءِ مَآءٗ لِّيُطَهِّرَكُم بِهِۦ وَيُذۡهِبَ عَنكُمۡ رِجۡزَ
ٱلشَّيۡطَٰنِ وَلِيَرۡبِطَ عَلَىٰ قُلُوبِكُمۡ وَيُثَبِّتَ بِهِ ٱلۡأَقۡدَامَ ١١ إِذۡ يُوحِي رَبُّكَ إِلَى ٱلۡمَلَٰٓئِكَةِ أَنِّي مَعَكُمۡ فَثَبِّتُواْ ٱلَّذِينَ
ءَامَنُواْۚ سَأُلۡقِي فِي قُلُوبِ ٱلَّذِينَ كَفَرُواْ ٱلرُّعۡبَ فَٱضۡرِبُواْ فَوۡقَ ٱلۡأَعۡنَاقِ وَٱضۡرِبُواْ مِنۡهُمۡ كُلَّ بَنَانٖ ١٢ ذَٰلِكَ
بِأَنَّهُمۡ شَآقُّواْ ٱللَّهَ وَرَسُولَهُۥۚ وَمَن يُشَاقِقِ ٱللَّهَ وَرَسُولَهُۥ فَإِنَّ ٱللَّهَ شَدِيدُ ٱلۡعِقَابِ ١٣ ذَٰلِكُمۡ فَذُوقُوهُ وَأَنَّ
لِلۡكَٰفِرِينَ عَذَابَ ٱلنَّارِ ١٤﴾

**11. O zaman Allah Öz tərəfindən bir təskinlik olsun deyə, sizə yüngül bir mürgü göndərmiş, göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin, şeytanın vəsvəsəsini sizdən uzaq etsin, qəlbinizi möhkəmləndirsin və onunla qədəmlərinizi sabit etsin.**

**12. O zaman Rəbbin mələklərə: "Mən sizinləyəm! İman gətirənləri gücləndirin! Mən kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!" – deyə vəhy etmişdi.**

**13. Bu, onların Allaha və Onun Elçisinə qarşı çıxmalarına görədir. Allaha və Onun Elçisinə qarşı çıxan kimsəyə Allah şiddətli əzab verər.**

**14. Bax belə! İndi dadın onu! Kafirlər üçün Cəhənnəm odunun əzabı da hazırlanmışdır.**

Uca Allah bu ayədə möminlərə verdiyi neməti xatırladır. Belə ki, düşmənlərinin sayının çox, öz saylarının isə az olmasından qəlblərində yaranan qorxu hissini arxayınçılıq əvəz etsin deyə, Uca Allah onlara yüngül bir mürgü göndərdi. Uhud döyüşü günü də onlara belə etmişdi. Uca Allah bu xüsusda belə buyurur: "**Sonra bu qəm-qüssənin ardınca Allah sizə bir təskinlik – bir qisminizi bürüyən mürgü nazil etdi. Bir dəstə də öz canlarının hayına qalaraq "Bu işdə bizim üçün bir xeyir varmı?" deyə Allah barəsində haqsız yerə, cahiliyyə dövründəkinə bənzər zənnə qapıldılar**" ("Ali-İmran", 154). Əbu Talhə ﵁ demişdir: "Uhud döyüşü günü mürgüləyənlərdən biri də mən idim. Qılınc əlimdən dəfələrlə düşmüşdü. Qılınc düşür, mən onu götürürdüm, o düşür, mən yenə onu götürürdüm. Möminlərə baxdım ki, mürgüdən qalxanları altında səndələyirlər".[1]

[1] əl-Buxari, 3761, 4068.

Əbu Yalə ﷺ Əlidən ﷺ rəvayət etmişdir ki, Bədr döyüşü günü aramızda Miqdaddan başqa atlı yox idi. O gün döyüşdən qabaq hamımızı Peyğəmbərdən ﷺ əvvəl yatmış görərdin. Peyğəmbər ﷺ bir ağacın altında səhərə qədər namaz qılıb ağlayırdı”.[1]

Mən deyirəm: “Uhud döyüşü günü müsəlmanlara Allah tərəfindən mürgü göndərilməsi, həqiqətən, məşhurdur. Bu ayə isə Bədr döyüşü barədədir və bu dəlalət edir ki, Bədr döyüşündə də müsəlmanlara mürgü gəlmişdir. Sanki bu mürgü möminlərə qəlbləri çətinlik anında Allahın yardımı ilə rahatlıq və sakitlik tapsın deyə göndərilmişdir. Bu, Allahın onlara bir lütfü və nemətidir. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: “**Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir**” (“əş-Şərh”, 5-6). “Səhih” əsərində rəvayət edilir ki, Bədr döyüşü günü (döyüşdən əvvəl) Peyğəmbər ﷺ əs-Siddiqlə (Əbu Bəkrlə) birlikdə çadırda idi. Onlar Allaha dua edərkən Peyğəmbəri ﷺ yüngül bir mürgü tutdu. Sonra o, təbəssüm edərək oyandı və dedi: “Sevin, ey Əbu Bəkr! Bu Cəbraildir, döyüşə gəlmişdir”. Sonra Peyğəmbər ﷺ Uca Allahın “**Bu dəstə mütləq məğlub olacaq və arxaya dönüb qaçacaqdır**” (“əl-Qəmər”, 45) ayəsini oxuyaraq çadırın qapısından çıxdı”.[2]

Uca Allah buyurur: “...**göydən sizin üzərinizə yağmur endirmişdi ki...**”. İbn Abbas ﷺ demişdir: “Peyğəmbər ﷺ Bədrə doğru gedərkən bir yerdə düşərgə saldı. Müşriklər də Bədr quyularına tərəf üz tutmuşdular. Müsəlmanlarla Bədr quyuları arasında ayaq altından qaçan qumluq bir ərazi vardı. Müsəlmanlara zəiflik və yorğunluq hakim olmuşdu. Bu arada şeytan müsəlmanların qəlblərinə bir kin saldı və onlara belə bir vəsvəsə verdi: “Siz, aranızda Allahın Elçisi ﷺ olduğu üçün özünüzü Allahın sevib yardım etdiyi qulları sanırsınız? Halbuki, müşriklər suya sizdən daha əvvəl çatdılar. Siz qüslsüz namaz qılırsınız”. Uca Allah onlara bol yağış endirdi. Müsəlmanlar bu sudan içdilər və təmizləndilər. Uca Allah bu yağışla şeytanın pisliyini (vəsvəsəsini) onlardan uzaqlaşdırdı və yağış yeri islatdıqdan sonra qum ayaqlarının altında bərkidi. İnsanlar və minik heyvanları qumun üzərində rahat hərəkət etməyə başladı və onlar müşriklərə tərəf irəlilədilər. Üstəlik Uca Allah Peyğəmbərinə ﷺ və müsəlmanlara yardım üçün min mələk göndərdi. Cəbrail beş yüz mələklə ordunun bir cinahında, Mikail isə beş yüz mələklə ordunun digər cinahında idi”.[3]

---

[1] Əbu Yalə (280); Əhməd (1023). Əhməd Şakir ﷺ demişdir: “Hədisin isnadı səhihdir. Hədisi İbn Kəsir Əbu Yaləyə nisbət etmişdir. Ola bilsin, əl-Hafiz hədisin “əl-Musnəd” əsərində olduğunu unutmuşdur və bu səbəbdən hədisi Əhmədə nisbət etməmişdir”. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 545.

[2] “əd-Durrul-Mənsur” (3/168). Hədisin bir hissəsini əl-Buxari (2915) rəvayət etmişdir.

[3] ət-Tabəri, 15770, 15846.

İbn Abbas belə demişdir: "Qureyş müşrikləri karvana yardım etmək və onu qorumaq üçün döyüşməyə çıxdıqda Bədr döyüşü günü möminləri qabaqladılar və su quyularını ələ keçirdilər. Möminlər susuz qaldılar və qüslsüz, dəstəmazsız (təyəmmüm edərək) namaz qılmağa başladılar. Bu hal onların qəlblərində vəsvəsəyə səbəb oldu. Bu vaxt Uca Allah göydən yağış endirdi və vadi su ilə doldu, inananlar bu sudan içdilər, su qablarını doldurdular, miniklərinə su içirtdilər, qüslsüz olanlar qüsl aldılar. Uca Allah bu yağışı onlar üçün bir təmizlik vasitəsi etdi. Müsəlmanların qədəmləri (qum üzərində) sabit oldu, çünki müşriklərlə onlar arasında qumluq ərazi vardı. Uca Allah həmin qumluq əraziyə yağış yağdırdı ki, yağış oranı bərkitsin və qədəmlər qumluq ərazinin üzərində sabit olsun". Oxşar təfsir Qatədə, əd-Dahhək və əs-Suddidən də rəvayət edilmişdir.[1]

Məlum olan odur ki, Peyğəmbər ﷺ Bədrə doğru gedərkən yolunun üstündə olan ən yaxın suyun, yəni tapdığı ilk su quyusunun başında düşərgə saldı. Həbbab ibn Munzir Peyğəmbərə ﷺ yaxınlaşıb soruşdu: "Ey Allahın Elçisi, düşərgə saldığın bu yer Allahın sənə əmr etdiyi və bizim bu yeri tərk etməyə haqqımız olmayan bir yerdir, yoxsa döyüşmək, düşmənə hiylə işlətmək üçün dayandığın bir yerdir?" Peyğəmbər ﷺ dedi: "Xeyr, döyüşmək, düşmənə hiylə işlətmək məqsədilə dayanığım bir yerdir". Həbbab dedi: "Ey Allahın Elçisi, bura uyğun bir düşərgə deyil. Bizi müşriklərin yolları üstündə olan ən yaxın su yerinə apar, oradakı quyuları bağlayaq, suyu hovuzlara dolduraq. Beləcə, bizim suyumuz olsun, onların isə olmasın". Peyğəmbər ﷺ də onun dediyi kimi etdi.

Bu mövzuda rəvayət edilən ən gözəl hədis Muhəmməd ibn İshaqın Urvə ibn əz-Zubeyrdən rəvayət etdiyi bu hədisdir: "Urvə ibn əz-Zubeyr demişdir: "Uca Allah göydən yağış endirdi. Vadi ayaq altından qaçan qumdan ibarət idi. Peyğəmbər ﷺ və onun səhabələri üçün yeri sərtləşdirəcək, hərəkət etmələrinə maneə törətməyəcək bir yağış yağdı. Qureyş üçün isə elə bir yağış yağdı ki, bu yağış onlara yerlərindən tərpənməyə imkan vermədi".[2] Mucahid demişdir: "Uca Allah möminlərə yüngül yuxu göndərməzdən əvvəl yağış endirdi. Bu yağışla toz-torpağı aradan qaldırdı və yeri sərtləşdirdi. Beləcə, onların könülləri xoş, qədəmləri sabit oldu".[3]

[1] ət-Təbəri, 15771, 15847.
[2] İbn Hişam "Sira" (2/269).
[3] İbn Əbu Hatim, 8845; ət-Təbəri, 15774, 15850.

Uca Allah buyurur: “**...onunla sizi təmizləsin**”, yəni sizi namaz qılmağa mane olan kiçik və ya böyük hədəsdən[1] təmizləsin. Bu, zahiri təmizlikdir. “...**şeytanın vəsvəsəsini sizdən uzaq etsin**”, yəni sizi vəsvəsədən və pis fikirlərdən təmizləsin. Bu isə daxili təmizlikdir. Necə ki Uca Allah Cənnət əhli barədə belə buyurur: “**Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər taxılacaq**”, bu, zahiri bəzəkdir, “**Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcək**” (“əl-İnsan”, 21), yəni onları kin, həsəd və düşmənçilik hisslərindən təmizləyəcəkdir. Bu isə daxili bəzək və təmizlikdir. Uca Allah buyurur: “...**qəlbinizi möhkəmləndirsin**”, yəni düşmən qarşısında səbir edib döyüşə qatılasınız deyə qəlblərinizi möhkəmləndirsin. Bu, daxili cəsarətdir. “...**və onunla qədəmlərinizi sabit etsin**”, bu isə xarici cəsarətdir. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: “**O zaman Rəbbin mələklərə: “Mən sizinləyəm! İman gətirənləri gücləndirin...” – deyə vəhy etmişdi**”. Bu, Uca Allahın Ona şükür etsinlər deyə möminlərə göstərdiyi gizli bir nemətdir. Uca Allah Peyğəmbərinə ﷺ, dininə və ordusu olan möminlərə yardım etmək üçün endirdiyi mələklərə vəhy etdi ki, iman gətirənləri gücləndirsinlər. İbn İshaq ﷬ demişdir: “Yəni onları qüvvətləndirin”. Başqaları isə demişlər: “Yəni onlarla birlikdə döyüşün”. Bəzi alimlər isə demişlər: “Onların sayını çoxaldın”. Deyilənə görə mələk Peyğəmbərin ﷺ səhabələrindən birinin yanına gəlib deyirdi: “Müşriklər deyirlər ki: “Allaha and olsun ki, əgər onlar bizim üzərimizə hücuma keçsələr, biz geriyə dönüb qaçarıq”. Müsəlmanlar da bunu bir-birlərinə xəbər verirdilər və beləcə, şücaətlənirdilər”. Bu təfsiri İbn Cərir ﷬ nəql etmişdir. Bu, eynilə onun dedikləridir.[2]

Uca Allah buyurur: “**Mən kafirlərin qəlbinə qorxu salacağam**”, yəni (ey mələklər!) siz möminləri gücləndirin, əmrimlə onları düşmənlərinə qarşı ürəkləndirin. Mən əmrlərimə qarşı çıxanların, Peyğəmbərimi ﷺ yalan sayanların qəlblərinə qorxu salacağam, onlara rəzillik və alçaqlıq damğası vuracağam. “**Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!**” Yəni onların başlarını vurub yarın, boyunlarını, əllərini və ayaqlarını kəsin! Təfsir alimləri ayədə keçən “**boyunlarını vurun**” cümləsinin mənasında ixtilaf etmişlər. İkrimənin ﷬ dediyinə görə burada “başlarına vurun” nəzərdə tutulur. əd-Dahhək ﷬ isə demişdir: “Burada “boğazlarını kəsin” nəzərdə tutulur”. Uca Allahın

[1] Hədəs – namaz qılmağa mane olan hallardır. Kiçik hədəs dedikdə dəstəmazın olmaması, böyük hədəs dedikdə isə qüslün olmaması nəzərdə tutulur.

[2] ət-Təbəri, 15782, 15858.

başqa bir ayədə möminlərə “**Döyüşdə kafirlərlə qarşı-qarşıya gəldiyiniz zaman boyunlarını vurun. Nəhayət, onları qırıb zəiflətdikdə əsirlərə bağladığınız kəndirləri bərk çəkin**” (“Muhəmməd”, 4) buyurması əd-Dahhəkin ﷫ təfsirini qüvvətləndirir. İbn Cərir ﷫ ayədə həm boyunlarının vurulmasının, həm də başlarının yarılmasının nəzərdə tutulduğu rəyini seçmişdir.

Uca Allah buyurur: “**...və barmaqlarının hamısını kəsin!**” İbn Cərir ﷫ demişdir: “Ayənin mənası belədir: “Ey möminlər, düşmənlərinizin əl-ayaqlarını, əl və ayaq oynaqlarını kəsin”. Ayədə keçən الْبَنَانُ [əl-bənə:n] sözü ərəbcə بَنَانَةٌ [bənə:nə] “barmaq ucu” sözünün cəmidir. İbn Abbas ﵄ ayədə الْبَنَانُ [əl-bənə:n] “barmaq ucları” dedikdə əl və ayaqların nəzərdə tutulduğunu demişdir. əd-Dahhək və İbn Cureyc ﷫ də belə demişlər. əs-Suddi ﷫ bu sözü “əl və ayaqda olan hər bir oynaq” kimi təfsir etmişdir. əl-Əufi ﷫ İbn Abbasın ﵄ Bədr hadisəsi barədə dediklərini rəvayət edərək demişdir: “Əbu Cəhl dedi: “Onları (möminləri) öldürməyin. Onları əsir götürün ki, sizin dininizə tənə edib Lat və Uzzadan üz çevirməyin aqibətinin necə olacağını onlara göstərəsiniz”. Bu səbəbdən Uca Allah mələklərə: “**Mən sizinləyəm! İman gətirənləri gücləndirin. Mən kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını vurun və barmaqlarının hamısını kəsin!**” – deyə vəhy etmişdi. Əbu Cəhl (Allahın lənəti onun üzərinə olsun) daxil olmaqla altmış doqquz adam öldürüldü. Uqbə ibn Əbu Muayt əsir alındı və əzab verilərək öldürüldü. Beləcə, ölənlərin sayı yetmişə çatdı”. Bu səbəbdən Uca Allah buyurdu: “**Bu, onların Allaha və Onun Elçisinə qarşı çıxmalarına görədir**”, yəni onlar Allaha və Elçisinə qarşı çıxaraq bir tərəfə keçmiş, Allahın şəriətini, ona iman gətirməyi və tabe olmağı isə digər tərəfdə buraxmışlar. Ayədə keçən الشَّقُّ [əş-şəqqu] sözü, həmçinin “çubuğu sındırıb iki hissəyə bölmək” mənasında da işlənir. “**Allaha və Onun Elçisinə qarşı çıxan kimsəyə Allah şiddətli əzab verər**”, yəni Allah Ona qarşı çıxanı, Onunla mübarizə aparanı yaxalamağa, ona qalib gəlməyə qadirdir. Heç bir şey Ondan yaxa qurtara bilməz. Onun qəzəbi qarşısında heç bir şey dayana bilməz. O, Müqəddəsdir, Ucadır, Ondan başqa ibadətə layiq məbud yoxdur, Ondan başqa rəbb yoxdur.

“**Bax belə! İndi dadın onu! Kafirlər üçün Cəhənnəm odunun əzabı da hazırlanmışdır**”. Uca Allah bu ayə ilə kafirlərə xitab edir. Yəni dünyada bu əzabı və cəzanı dadın. Həmçinin bilin ki, üstəlik kafirlər üçün Axirətdə Cəhənnəm əzabı da vardır.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا لَقِيتُمُ ٱلَّذِينَ كَفَرُواْ زَحۡفٗا فَلَا تُوَلُّوهُمُ ٱلۡأَدۡبَارَ ١٥ وَمَن يُوَلِّهِمۡ يَوۡمَئِذٖ دُبُرَهُۥٓ إِلَّا
مُتَحَرِّفٗا لِّقِتَالٍ أَوۡ مُتَحَيِّزًا إِلَىٰ فِئَةٖ فَقَدۡ بَآءَ بِغَضَبٖ مِّنَ ٱللَّهِ وَمَأۡوَىٰهُ جَهَنَّمُۖ وَبِئۡسَ ٱلۡمَصِيرُ ١٦﴾

**15. Ey iman gətirənlər! Kafirlərlə döyüş meydanında qarşı-qarşıya gəlsəniz, dönüb onlardan qaçmayın.**

**16. Təkrar döyüşə qatılmaq üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun gedəcəyi yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir.**

Uca Allah döyüşdən qaçanları Cəhənnəm odu ilə təhdid edərək buyurur: "**Ey iman gətirənlər! Kafirlərlə döyüş meydanında qarşı-qarşıya gəlsəniz**", yəni onlara yaxınlaşsanız, "**dönüb onlardan qaçmayın**", yəni yoldaşlarınızı qoyub qaçmayın. "**Təkrar döyüşə qatılmaq üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə**", yəni hiylə işlədərək düşmən onun arxasınca düşsün deyə, yalandan özünü qorxub qaçan kimi göstərən, sonra təkrar düşmənin üzərinə hücuma keçib onları öldürən kəs istisnadır, belə etməkdə bir qəbahət yoxdur. Səid ibn Cubeyr və əs-Suddi رحمه الله ayəni belə təfsir etmişlər. əd-Dahhək رحمه الله demişdir: "Bu, düşmənin səfdə bir boşluğunu görüb ora sızmaq üçün yoldaşlarından önə çıxandır".[1] "... **və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla**", yəni bir yerdən qaçıb müsəlmanlardan ibarət digər bir dəstəyə qatılaraq onlara yardım edən və ya onlardan yardım istəyənlər istisnadır, belə etmək icazəlidir. Hətta bir dəstədə olan, sonra oradan ayrılıb əmirin (komandirin) yanına gedən və ya daha böyük rəhbərin yanına gedən də bu rüsxətə daxildir. İmam Əhməd رحمه الله Abdullah ibn Ömərin رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Mən Peyğəmbərin ﷺ döyüşə göndərdiyi dəstələrdən birində idim. Bir qrup insan məğlubiyyətə uğrayıb qaçdı, mən də qaçanların içində idim. Biz: "Döyüşdən qaçdıq və Allahın qəzəbinə düçar olduq, nə edəcəyik!?" – dedik. Sonra: "Mədinəyə girib orada gecələsək, necə olar?" – dedik. Daha sonra: "Bəlkə, Peyğəmbərin ﷺ yanına gedib halımızı ona bildirək, əgər bizə tövbə varsa, tövbə edək, yoxsa çıxaq gedək" – dedik. Sübh namazından əvvəl Peyğəmbərin ﷺ yanına gəldik. O evindən çıxıb: "Siz kimsiniz?" – deyə soruşdu. Biz: "Biz döyüşdən qaçanlarıq" – dedik. Peyğəmbər ﷺ dedi: "Xeyr, əksinə, siz kömək istəmək üçün imamınızın (rəhbərinizin) yanına dönənlərsiniz və mən sizin dönüb qatıldığınız dəstəyəm. Mən

[1] ət-Təbəri, 15795, 15871.

müsəlmanların qayıdıb qoşulacaqları dəstəyəm". Biz Peyğəmbərə ﷺ yaxınlaşıb onun əlini öpdük". Hədisi bu şəkildə Əbu Davud, ət-Tirmizi və İbn Məcə رحمه الله Yəzid ibn Əbu Ziyaddan müxtəlif yollarla rəvayət etmişlər. ət-Tirmizi رحمه الله demişdir: "Hədis həsəndir, onun yalnız Yəzid ibn Əbu Ziyaddan rəvayət olunduğunu bilirik".[1]

Alimlər İbn Ömərin رضي الله عنهما hədisində keçən الْعَكَّارُونَ [əl-əkkə:ru:nə] sözünü "meyil edənlər" şəklində açıqlamışlar. Həmçinin Ömər ibn əl-Xattab رضي الله عنه məcusilərin ordusu çox olduğu üçün İran ərazisində bir körpü üzərində öldürülən Əbu Ubeyd رضي الله عنه barədə belə demişdir: "Əgər mənə tərəf gəlsəydi, mən onun qoşulacağı dəstə olardım". Mucahid رحمه الله Ömərin رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Mən hər bir müsəlmanın dönüb qatılacağı dəstəyəm".[2]

əd-Dahhək رحمه الله Uca Allahın: "**başqa bir dəstəyə qoşulanlar istisna olmaqla...**" ayəsi barədə demişdir: "Başqa dəstəyə qoşulanlar, Peyğəmbərin ﷺ və onun səhabələrinin yanına qaçanlardır. Bu gün əmirinə və ya yoldaşlarına tərəf qaçanlar da belədir".[3] Yuxarıda qeyd etdiyimiz səbəblərdən hər hansı biri olmadan qaçmaq isə şübhəsiz, haramdır və böyük günahlardan sayılır. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan رضي الله عنه rəvayət etdikləri hədis də buna dəlildir. Bu hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Həlakedici yeddi günahdan çəkinin!" Səhabələr soruşdular: "Nədir onlar, ey Allahın Elçisi?" Peyğəmbər ﷺ buyurdu: "Allaha şərik qoşmaq, sehrbazlıq etmək, şəriətin buyurduğu hallar (cana-can və evli zinakarın daşqalaq edilməsi) istisna olmaqla, Allahın haram buyurduğu cana qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və zinadan xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək".[4] Bu səbəbdən Uca Allah ayənin davamında belə buyurur: "...**kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun gedəcəyi yer**", yəni Qiyamət günü dönəcəyi yer "**Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir**". Bəzi alimlər döyüşdən qaçmağın yalnız səhabələrə haram olduğunu demişlər, çünki cihad onlara vacib idi. Bəzi alimlərə görə isə döyüşdən qaçmaq xüsusi olaraq ənsarlara (Mədinə əhalisinə) haram idi, çünki onlar həm xoş günlərində, həm də sıxıntılı anlarında əmrləri dinləyib itaət edəcəklərinə dair Peyğəmbərə ﷺ beyət etmişdilər.

[1] Əhməd (5384). Əhməd Şakir رحمه الله demişdir: "Hədisin isnadı səhihdir". Əbu Davud, 2647; ət-Tirmizi, 1716; İbn Məcə, 3704. Hədis zəifdir. Bax: İrvaul-Ğalil, 1203.

[2] ət-Təbəri, 15815, 15891.

[3] ət-Təbəri, 15795, 15871.

[4] əl-Buxari, 2560, 2766; Muslim, 129, 272.

Bu ayədə yalnız Bədr döyüşündə iştirak edənlərin nəzərdə tutulduğu da deyilmişdir ki, bu rəy Ömər, İbn Ömər, İbn Abbas ﷺ, İkrimə, Qatədə, əd-Dahhək və başqalarından rəvayət edilmişdir. Bu rəyi deyənlərin dəlili budur ki, Bədr döyüşündə səhabələrin öz dəstələrindən savayı sığına biləcəkləri başqa bir güc-qüvvətə sahib dəstə yox idi. Necə ki Peyğəmbər ﷺ Bədr döyüşü günü dua edərək belə demişdi: “Allahım, əgər bu müsəlman dəstə həlak olsa, yer üzündə Sənə ibadət edən olmaz!” Bu səbəbdən əl-Həsən ﷺ Uca Allahın “...**kim belə bir gündə onlara arxa çevirərsə...**” ayəsi barədə belə demişdir: “Bu, Bədr döyüşü gününə aiddir. Günümüzdə isə kim bir dəstəyə və ya bir şəhərə sığınarsa, bunda bir qəbahət yoxdur”.[1]

Yəzid ibn Əbu Hubeyb ﷺ demişdir: “Uca Allah Bədr döyüşü günü döyüşdən qaçanlara Cəhənnəm odunu vacib etdiyini bildirərək buyurmuşdur: “...**kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun gedəcəyi yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir**”. Bundan sonra Uhud döyüşü günü belə buyurdu: “**Uhudda iki qoşun qarşılaşdığı gün içərinizdən geri dönənləri şeytan qazandıqları bəzi günahlar üzündən səhv etməyə sövq etdi. Buna baxmayaraq, Allah onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir**” (“Ali-İmran”, 155). Bundan yeddi il sonra Huneyn döyüşü olduqda isə belə buyurdu: “**Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma bu sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız. Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası. Bundan sonra isə Allah istədiyinin tövbəsini qəbul edər. Çünki Allah Bağışlayandır, Rəhmlidir**” (“ət-Tövbə”, 25-27)”.[2] Ayə Bədr döyüşündə iştirak edənlər barədə nazil olsa da, bu, Bədr döyüşündə iştirak edənlərdən başqalarına döyüşdən qaçmağın haram olmaması anlamına gəlmir. Az əvvəl qeyd etdiyimiz Əbu Hureyranın ﷺ hədisi də döyüşdən qaçmağın həlakedici günahlardan biri olduğuna dəlalət edir. Əksər alimlərin rəyi də məhz budur. Ən doğrusunu isə Allah bilir.

[1] ət-Təbəri, 15809, 15885.

[2] ət-Təbəri, 15811, 15887.

﴿فَلَمْ تَقْتُلُوهُمْ وَلَٰكِنَّ ٱللَّهَ قَتَلَهُمْ ۚ وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَٰكِنَّ ٱللَّهَ رَمَىٰ وَلِيُبْلِىَ ٱلْمُؤْمِنِينَ مِنْهُ بَلَآءً حَسَنًا ۚ إِنَّ ٱللَّهَ سَمِيعٌ عَلِيمٌ ﴿١٧﴾ ذَٰلِكُمْ وَأَنَّ ٱللَّهَ مُوهِنُ كَيْدِ ٱلْكَٰفِرِينَ ﴿١٨﴾﴾

**17. Onları siz öldürmədiniz, onları Allah öldürdü. (Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirsin. Həqiqətən, Allah hər şeyi eşidəndir, hər şeyi biləndir.**

**18. Bax belə! Həqiqətən də, Allah kafirlərin hiyləsini zəiflədər.**

Uca Allah bu ayələrdə bildirir ki, qullarının etdiyi əməlləri O yaratmışdır və qulların etdikləri hər bir xeyir əmələ görə O tərifəlayiqdir, çünki qullarını bütün bu xeyir əməllərə müvəffəq edən və bu əməlləri yerinə yetirməkdə onlara yardım edən Odur. Bu səbəbdən Uca Allah "**Onları siz öldürmədiniz, onları Allah öldürdü**" – deyə buyurur. Yəni siz düşmənlərinizi öz güc və qüvvətinizlə öldürmədiniz, düşmənlərinizin sayı çox, sizin sayınız isə az idi. Onlara qarşı sizi müzəffər edən Allahdır. Necə ki başqa ayələrdə Uca Allah belə buyurur: "**Siz zəif olduğunuz halda Allah Bədrdə sizə yardım etdi. Elə isə Allahdan qorxun ki, bəlkə şükür edəsiniz**" ("Ali-İmran", 123); "**Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma bu sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız**" ("ət-Tövbə", 25). Beləcə, Uca Allah qələbənin say çoxluğu, zireh və silah-sursat və hazırlıqlı olmaqla deyil, yalnız Allah tərəfindən verildiyini bildirir. Necə ki başqa bir ayədə belə buyurur: "**Neçə-neçə azsaylı dəstə olub ki, Allahın izni ilə çox saylı dəstəyə qalib gəlib! Allah səbir edənlərlədir**" ("əl-Bəqərə", 249).

Sonra Uca Allah Peyğəmbərinə ﷺ Bədr döyüşü günü müşriklərin üzlərinə atdığı bir ovuc torpaq barədə buyurur. Peyğəmbər ﷺ Allaha dua edib yalvardıqdan sonra çadırdan çıxdı və bir ovuc torpaq götürüb müşriklərə tərəf ataraq "Allah onların üzlərini qaraltsın!" – dedi. Bunun ardından səhabələrinə düşmənə hücum etməyi əmr etdi və onlar hücuma keçdilər. Uca Allah bu kiçik toz hissəciklərini müşriklərin gözlərinə çatdırdı. Toz hissəcikləri onların hər birinin gözünə düşüb onları yayındırdı. Bu səbəbdən Uca Allah ayədə "(**Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı**" – deyə buyurur. Yəni torpağı onların gözlərinə dolduran və bununla onları məşğul edib alçaldan sən deyildin.

İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Bədr döyüşü günü Peyğəmbər ﷺ əllərini açıb belə dua etdi: "Allahım, əgər bu müsəlman dəstə həlak olsa, yer üzündə Sənə ibadət edən olmaz!" Cəbrail ona dedi: "Bir ovuc torpaq götür və onlara tərəf at!" Peyğəmbər ﷺ bir ovuc torpaq götürüb müşriklərə tərəf atdı. Onlardan elə bir kəs qalmadı ki, gözlərinə, burun dəliklərinə və ağızlarına bu torpaqdan dolmuş olmasın. Onlar geriyə çevrilib qaçdılar.[1]

Abdur-Rahmən ibn Zeyd ibn Əsləm رحمه الله Uca Allahın "(**Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı**" ayəsi barədə belə demişdir: "Bu, Bədr döyüşü günü olmuşdur. Peyğəmbər ﷺ üç ovuc torpaq götürdü və bir ovucunu müşriklərin sağ cinahına, bir ovucunu sol cinahına, bir ovucunu da ortalarına tərəf atdı və "Allah onların üzlərini qaraltsın!" – dedi, onlar da məğlubiyyətə uğradılar".[2]

Urvə ibn Zubeyr, Mucahid, İkrimə, Qatədə və bir çox alimlərdən rəvayət olunduğuna görə bu ayə Peyğəmbərin ﷺ Bədr döyüşü günü müşriklərin olduqları tərəfə torpaq atması barədə nazil olmuşdur. Baxmayaraq ki, Peyğəmbər ﷺ eyni əməli Huneyn döyüşü günü də etmişdir.

Muhəmməd ibn İshaq رحمه الله rəvayət etmişdir ki, Urvə ibn Zubeyr رحمه الله Uca Allahın "**... möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirsin**" ayəsi barədə belə demişdir: "Yəni Allah möminlərin sayca az, düşmənlərinin isə çox olmalarına baxmayaraq, möminləri düşmənləri üzərində qalib etməklə onlara bəxş etdiyi neməti bildirsin. Allah bunu onlara beləcə bildirir ki, Allahın haqqını bilib Onu tanısınlar və nemətlərinə şükür etsinlər".[3] İbn Cərir رحمه الله də ayəni bu şəkildə təfsir etmişdir.

Uca Allah buyurur: "**Həqiqətən, Allah hər şeyi eşidəndir, hər şeyi biləndir**", yəni Allah duaları eşidəndir, kimin yardım edilməyə və qələbəyə haqlı olduğunu ən yaxşı biləndir.

Uca Allah buyurur: "**Bax belə! Həqiqətən də, Allah kafirlərin hiyləsini zəiflədər**". Bu ayə möminlər üçün Allahın yardımı və zəfəri ilə yanaşı, əlavə bir müjdədir. Uca Allah möminlərə bildirir ki, qarşıda kafirlərin hiyləsini zəiflədəcək, onları alçaldacaq və işlərini darmadağın edəcək. Onlara məxsus hər şeyi məhv edəcək. Həmd Allaha məxsusdur, nemət Allahdandır.

---

[1] Hədisin mənbələri barədə məlumat bu surənin 9-cu ayəsinin təfsirində keçmişdir.

[2] İbn Əbu Hatim, 8908; ət-Tabəri, 15826, 15902.

[3] İbn Əbu Hatim, 8914.

﴿إِن تَسْتَفْتِحُوا۟ فَقَدْ جَآءَكُمُ ٱلْفَتْحُ ۖ وَإِن تَنتَهُوا۟ فَهُوَ خَيْرٌ لَّكُمْ ۖ وَإِن تَعُودُوا۟ نَعُدْ وَلَن تُغْنِىَ عَنكُمْ فِئَتُكُمْ شَيْـًٔا وَلَوْ كَثُرَتْ وَأَنَّ ٱللَّهَ مَعَ ٱلْمُؤْمِنِينَ ﴿١٩﴾﴾

**19. Əgər siz kafirlər ədalətli hökm diləyirsinizsə, artıq sizə hökm gəlmişdir. Əgər küfrə son qoysanız, bu, sizin üçün xeyirli olar. Yox, əgər qayıtsanız, Biz də qayıdarıq (möminlərə qarşı vuruşsanız, Biz də sizi məğlub edərik). Dəstəniz nə qədər çox olsa da, bu sizi heç bir şeydən qurtara bilməz. Şübhəsiz ki, Allah möminlərlədir.**

Uca Allah bu ayədə kafirlərə müraciət edərək buyurur: "**Əgər siz kafirlər ədalətli hökm diləyirsinizsə, artıq sizə hökm gəlmişdir**", yəni əgər Allahdan yardım diləyib, düşmənləriniz olan möminlərlə sizin aranızda hökm verməsini istəyirdinizsə, artıq sizə istədiyiniz gəlmişdir. Muhəmməd ibn İshaq رحمه الله Abdullah ibn Sələbədən رضي الله عنه rəvayət etmişdir ki, Bədr döyüşü günü Əbu Cəhl dua edərək dedi: "Allahım, bizdən (özünü və Muhəmmədi nəzərdə tutur) kim qohumluq əlaqələrini kəsmişsə və ata-babalarımızın bilmədiyi bir dini gətirmişsə, səhər onu həlak et!" Bu, Əbu Cəhlin Allahdan ədalətli bir hökm istəməsi idi. Bu səbəbdən Uca Allahın "**Əgər siz kafirlər ədalətli hökm diləyirsinizsə, artıq sizə hökm gəlmişdir...**" ayəsi sonuna qədər nazil oldu. əl-Hakim رحمه الله də hədisi bu şəkildə rəvayət etmiş və demişdir: "əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər".[1]

əs-Suddi رحمه الله demişdir: "Müşriklər Məkkədən Bədrə doğru çıxdıqda Kəbənin örtüyündən yapışıb Allahdan kömək istəmiş və "Allahım, iki ordudan ən üstün olana, iki dəstədən ən şərəfli olana və iki qəbilədən ən xeyirli olana yardım et!" – demişlər. Uca Allah da "**Əgər siz kafirlər ədalətli hökm diləyirsinizsə, artıq sizə hökm gəlmişdir...**" ayəsi ilə "Artıq istədiyinizə yardım etdim. O da Muhəmməddir" – deyə buyurdu".[2] Abdur-Rahmən ibn Zeyd ibn Əsləm رحمه الله demişdir: "Burada Uca Allah müşriklərin bu sözünü nəzərdə tutur: "**O zaman onlar "Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda üstümüzə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab göndər" – demişdilər**" ("əl-Ənfal", 32)".[3]

---

[1] Əhməd (5/431); əl-Hakim (2/328). ət-Təbəri, 15847, 15923; ən-Nəsəi "Sunənul-Kubra" 11137, 11201. əl-Hakim, əz-Zəhəbi, Muqbil və Ali Nasr səhih olduğunu bildirmişlər.

[2] ət-Təbəri, 15841, 15917.

[3] ət-Təbəri, 15843, 15919.

Uca Allah buyurur: "**Əgər küfrə son qoysanız**", yəni əgər Allaha küfr etməkdən və Onun Elçisini yalan saymaqdan imtina etsəniz, "**bu, sizin üçün xeyirli olar**", yəni bu sizin üçün dünyada və Axirətdə daha xeyirlidir. "**Yox, əgər qayıtsanız, Biz də qayıdarıq (möminlərə qarşı vuruşsanız, Biz də sizi məğlub edərik)**". Başqa bir ayədə Uca Allah belə buyurur: "**Əgər siz fəsad törətməyə qayıtsanız, Biz də sizi cəzalandırmağa qayıdarıq**" ("əl-İsra", 8). Bu ayənin mənası belədir: "Əgər siz, küfr və azğınlığınıza qayıtsanız, biz də eyni hadisəni təkrar başınıza gətirərik".

"**Dəstəniz nə qədər çox olsa da, bu sizi heç bir şeydən qurtara bilməz**", yəni istədiyiniz qədər dəstə yığsanız belə, Allah hansı toplumla birlikdədirsə, ona qalib gələn tapılmaz. "**Şübhəsiz ki, Allah möminlərlədir**", onlar Peyğəmbərin ﷺ dəstəsidir, Muhəmməd Mustafanın ﷺ tərəfdarlarıdır.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَطِيعُواْ ٱللَّهَ وَرَسُولَهُۥ وَلَا تَوَلَّوۡاْ عَنۡهُ وَأَنتُمۡ تَسۡمَعُونَ ٢٠ وَلَا تَكُونُواْ كَٱلَّذِينَ قَالُواْ
سَمِعۡنَا وَهُمۡ لَا يَسۡمَعُونَ ٢١ ۞إِنَّ شَرَّ ٱلدَّوَآبِّ عِندَ ٱللَّهِ ٱلصُّمُّ ٱلۡبُكۡمُ ٱلَّذِينَ لَا يَعۡقِلُونَ ٢٢ وَلَوۡ عَلِمَ ٱللَّهُ
فِيهِمۡ خَيۡرٗا لَّأَسۡمَعَهُمۡۖ وَلَوۡ أَسۡمَعَهُمۡ لَتَوَلَّواْ وَّهُم مُّعۡرِضُونَ ٢٣﴾

**20. Ey iman gətirənlər! Allaha və Onun Rəsuluna itaət edin, eşitdiyiniz halda ondan üz döndərməyin.**

**21. Eşitmədikləri halda "Eşitdik!" deyənlər kimi olmayın.**

**22. Şübhəsiz ki, Allah yanında canlıların ən pisi haqqı anlamayan karlar və lallardır.**

**23. Əgər Allah onlarda bir xeyir olduğunu bilsəydi, əlbəttə, onlara eşitdirərdi. Əgər onlara eşitdirsəydi belə, yenə də üz çevirərək dönərdilər.**

Bu ayələrdə Uca Allah mömin qullarına Ona və Elçisinə ﷺ itaət etməyi əmr edərək, Ona qarşı çıxmaqdan, Ona küfr edənlərə və Ona qarşı inadkarlıq edənlərə bənzəməkdən çəkindirir. Bu səbəbdən Uca Allah ayədə "**...eşitdiyiniz halda ondan üz döndərməyin**" – deyə buyurur. Yəni Allahın sizi nəyə çağırdığını bildikdən sonra Ona itaət etməyi, əmrlərinə tabe olmağı və qadağalarından çəkinməyi tərk etməyin.

Uca Allah buyurur: "**Eşitmədikləri halda "Eşitdik!" deyənlər kimi olmayın**". Bəzi alimlər bu ayədə müşriklərin nəzərdə tutulduğunu demişlər. İbn Cərir ﵀ də bu rəyi seçmişdir. İbn İshaq ﵀ isə demişdir: "Bunlar münafiqlərdir. Onlar özlərini Peyğəmbərin ﷺ çağırışını eşidib onu qəbul etmiş kimi göstərsələr də, əslində, belə deyillər".

Sonra Uca Allah Adəm övladlarının bu qisminin əxlaq və yaradılış baxımından ən pis insanlar olduğunu xəbər verərək buyurur: "**Şübhəsiz ki, Allah yanında canlıların ən pisi haqqı anlamayan karlar və lallardır**", yəni haqqı eşitməyən karlar və onu başa düşməyən lallardır. Bu qisim insanlar canlıların ən pisidir, çünki onlardan başqa bütün canlılar yaradıldıqları məqsəd xüsusunda Allaha itaət edirlər. Bunlar isə ibadət üçün yaradıldıqları halda Allahı inkar edirlər. Bu səbəbdən Uca Allah onları heyvana bənzətmişdir: "**Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları) haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar**" ("əl-Bəqərə", 171). Uca Allah başqa bir ayədə yenə onlar barədə belə buyurur: "**Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır**" ("əl-Əraf", 179). Bəzi alimlər ayədə zikr edilənlərin Qureyş qəbiləsindən olan Abdud-Dər oğullarından bir qrup olduğunu demişlər. Bu rəy İbn Abbas ﵄ və Mucahiddən rəvayət edilmişdir. İbn Cərir ﵀ də bu rəyi seçmişdir. Muhəmməd ibn İshaq ﵀ isə bunların münafiqlər olduğunu demişdir.

Mən deyirəm: "Bu ayədə müşriklərin yoxsa münafiqlərin nəzərdə tutulduğunu bildirən rəylər arasında heç bir ziddiyyət yoxdur, çünki hər iki dəstə sağlam anlayış və saleh əməllərə yönəlməkdən məhrumdur".

Sonra Uca Allah bildirir ki, onların anlayışlarının və düşüncələrinin olduğu fərz edilsə belə, bu anlayış və düşüncə sağlam deyil. Uca Allah buyurur: "**Əgər Allah onlarda bir xeyir olduğunu bilsəydi, əlbəttə, onlara eşitdirərdi**", yəni onlara haqqı anladardı. Ayənin mənası belədir: "Lakin onlarda xeyir yoxdur və bu səbəbdən onlara düşüncə verməmişdir, çünki Uca Allah bilir ki "**Əgər onlara eşitdirsəydi belə**", yəni əgər onlara düşüncə versəydi belə, "**yenə də üz çevirərək dönərdilər**", yəni başa düşdükdən sonra da inadkarlıqları üzündən bu məqsəddən üz çevirib dönərdilər.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱسۡتَجِيبُواْ لِلَّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُمۡ لِمَا يُحۡيِيكُمۡۖ وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ يَحُولُ بَيۡنَ
ٱلۡمَرۡءِ وَقَلۡبِهِۦ وَأَنَّهُۥٓ إِلَيۡهِ تُحۡشَرُونَ ٢٤﴾

**24. Ey iman gətirənlər! Peyğəmbər sizi həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin. Bilin ki, Allah insanla onun qəlbi arasındadır və siz Onun hüzuruna toplanacaqsınız.**

əl-Buxari demişdir: "**Peyğəmbər sizi həyat verəcək şeylərə**", yəni sizi islah edəcək şeylərə "**çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin**", yəni dəvətini qəbul edin". Sonra əl-Buxari Əbu Səid ibn əl-Muəllanın belə dediyini rəvayət etmişdir: "Bir dəfə mən məsciddə namaz qılarkən Peyğəmbər yanımdan keçdi və məni çağırdı, lakin mən ona cavab vermədim. Namazımı bitirdikdən sonra onun yanına gəldim. Peyğəmbər buyurdu: "Səni çağırdığım zaman niyə yanıma gəlmədin? Məgər Uca Allah "**Peyğəmbər sizi həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin**" – deyə buyurmayıbmı?" Sonra o mənə dedi: "Məsciddən çıxmazdan əvvəl sənə Quranda olan ən əzəmətli surəni öyrədəcəyəm!" Bir müddətdən sonra Peyğəmbər məsciddən çıxmaq istəyəndə ona dediyini xatırlatdım. O buyurdu: "Bu, "**Həmd olsun aləmlərin Rəbbi Allaha...**" ("əl-Fatihə") surəsidir. Bu, mənə verilmiş təkrarlanan yeddi ayədir".[1]

Mucahid demişdir: "...**həyat verəcək şeylərə çağırdığı zaman**", yəni haqqa çağırdığı zaman. Qatədə isə demişdir: "Həyat verəcək şey Qurandır. Onda qurtuluş, təqva və həyat vardır".[2] əs-Suddi isə Uca Allahın "...**həyat verəcək şeylərə çağırdığı zaman**" ayəsi barədə belə demişdir: "Küfr içində olduqlarına görə ölü sayıldıqdan sonra İslamı qəbul etmələri həyata gəlmələridir". Urvə ibn əz-Zubeyr Uca Allahın "**Ey iman gətirənlər! Peyğəmbər sizi həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin**" ayəsi barədə belə demişdir: "Yəni Peyğəmbər sizi döyüşə çağırdığı zaman onun çağırışına cavab verin. Bu döyüş ilə Allah sizi zillətdən sonra izzətləndirdi, zəiflikdən sonra gücləndirdi, düşmənlərinizin sizi məğlub etməsinin qarşısını aldı".[3]

[1] əl-Buxari, 4280, 4647.
[2] ət-Təbəri, 15872, 15949.
[3] İbn Əbu Hatim, 8948; ət-Təbəri, 15873, 15950.

Uca Allah buyurur: "**Bilin ki, Allah insanla onun qəlbi arasındadır**". İbn Abbas demişdir: "Allah mömin ilə küfr arasına, kafir ilə iman arasına girər və (mömininin kafir olmasına, kafirin isə mömin olmasına) mane olar". İbn Abbasın bu sözünü əl-Hakim rəvayət etmiş və "Səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər" – demişdir.[1] Mucahid, Səid, İkrimə və başqaları da belə demişlər. əs-Suddi demişdir: "Allah insanla onun qəlbi arasına girər, insan Onun izni olmadan nə iman gətirə bilər, nə də kafir ola bilər".[2] Qatədə demişdir: "Bu ayə Uca Allahın "**Biz ona (insana) şah damarından da yaxınıq**" ("Qaf", 16) ayəsinə bənzəyir". Peyğəmbərdən bu ayəyə uyğun bir çox hədislər rəvayət edilmişdir.

İmam Əhməd Ənəs ibn Malikdən rəvayət etmişdir ki, Peyğəmbər çox vaxt dua edib deyərdi: "Ey qəlbləri çevirən Allahım! Qəlbimi dinin üzərində sabit et!" Biz soruşduq: "Ey Allahın Elçisi, biz sənə və sənin gətirdiyinə iman gətirmişik. Bizə görə qorxursanmı?" Peyğəmbər: "Bəli, həqiqətən, qəlblər Allahın barmaqlarından ikisinin arasındadır, onları (hikmətinə uyğun istədiyi kimi) çevirər" – deyə cavab verdi". Hədisi ət-Tirmizi də rəvayət etmiş və "Həsən hədisdir" – demişdir.[3]

İmam Əhməd Ummu Sələmədən rəvayət etmişdir ki, Peyğəmbər duasında çox vaxt belə deyərdi: "Allahım, ey qəlbləri çevirən! Qəlbimi dinin üzərində sabit et!" Mən soruşdum: "Ey Allahın Elçisi, qəlblər çevrilə bilərmi?" Peyğəmbər dedi: "Bəli, Allahın yaratdığı elə bir Adəm övladı yoxdur ki, qəlbi Allahın barmaqlarından ikisinin arasında olmasın. Allah istəsə, onu doğru yolda sabit edər, istəsə, azdırar. Rəbbimiz olan Allahdan diləyirik ki, bizi hidayət yoluna yönəltdikdən sonra qəlblərimizi sapdırmasın, bizə Öz tərəfindən bir mərhəmət bəxş etsin! Həqiqətən, O, Bəxşedəndir". Mən dedim: "Ey Allahın Elçisi, mənə özüm üçün edəcəyim bir dua öyrədərsənmi?" Peyğəmbər dedi: "Bəli, öyrədərəm. De: "Ey Muhəmməd peyğəmbərin Rəbbi olan Allahım! Günahımı bağışla, qəlbimi kindən təmizlə, məni yaşatdığın müddətcə azdırıcı fitnələrdən qoru!"[4]

---

[1] əl-Hakim "Mustədrək" əsəri (2/328). ət-Tabəri, 15879, 15956.

[2] ət-Tabəri, 15901, 15978.

[3] Əhməd (3/112); ət-Tirmizi (2140). Əhməd, 12107, 12128; ət-Tirmizi, 2290. Hədis səhihdir. Bax: "Mişkətul-Məsabih", 102.

[4] Əhməd (6/301); ət-Tirmizi (3522). Əhməd, 17111, 26576, 26618. Şueyb əl-Arnavut hədisin səhih olduğunu bildirmişdir.

İmam Əhməd ﵀ rəvayət etmişdir ki, Abdullah ibn Amr ﵄ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: “Həqiqətən, Adəm övladlarının qəlbləri bir qəlb kimi ər-Rahmənin (Mərhəmətli Allahın) barmaqlarından ikisinin arasındadır, onları istədiyi kimi çevirər”. Sonra Peyğəmbər ﷺ dua edərək dedi: “Allahım, ey qəlbləri çevirən! Qəlblərimizi Sənə itaət üçün çevir”. Bu hədisi Muslimlə ﵀ birlikdə ən-Nəsəi ﵀ də rəvayət etmişdir. əl-Buxari ﵀ isə rəvayət etməmişdir.[1]

﴿وَٱتَّقُواْ فِتۡنَةٗ لَّا تُصِيبَنَّ ٱلَّذِينَ ظَلَمُواْ مِنكُمۡ خَآصَّةٗۖ وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ شَدِيدُ ٱلۡعِقَابِ ٢٥﴾

**25. Sizdən təkcə zalımlara toxunmayacaq (hamınızı bürüyəcək) fitnədən qorxun. Bilin ki, Allah şiddətli cəza verəndir.**

Uca Allah bu ayədə mömin qullarını yalnız günahkarlara xas olmayacaq, həm pis iş görənləri, həm də başqalarını əhatə edəcək “**fitnədən**”, yəni bəladan və sınaqdan çəkindirir. Bu bəla gəldiyi zaman əsla dəf olunmaz və qalxmaz. İmam Əhməd ﵀ Mutarrifin belə dediyini rəvayət etmişdir: “Bir dəfə əz-Zubeyrdən soruşduq: “Ey Əbu Abdullah, sizə nə oldu axı? Öldürülən xəlifəni itirdiniz, sonra qanını istəməyə gəldiniz?” əz-Zubeyr dedi: “Biz Allah Elçisinin ﷺ, Əbu Bəkrin, Ömərin və Osmanın zamanında “**Sizdən təkcə zalımlara toxunmayacaq (hamınızı bürüyəcək) fitnədən qorxun**” ayəsini oxuyardıq, lakin özümüzün bu ayənin hökmü altına girəcəyimizi heç sanmazdıq. Sonra başımıza gələnlər gəldi”.[2]

Rəvayət edilir ki, əl-Həsən ﵀ bu ayə barədə belə demişdir: “Bu ayə Əli, Osman, Talhə və əz-Zubeyr (Allah onların hamısından razı olsun) barədə nazil olmuşdur”.[3] əs-Suddi ﵀ demişdir: “Bu ayə xüsusi olaraq Bədr əhli barədə nazil olmuşdur. Cəməl döyüşü günü fitnəyə düşdülər və bir-birlərini öldürdülər”.[4]

İbn Abbas ﵁ bu ayənin təfsirində belə demişdir: “Uca Allah möminlərə əmr edir ki, aralarında baş verən asiliklərə susaraq bu əməllərlə razılaşmasınlar. Əgər bir-birlərini aralarında baş verən günah əməllərdən çəkindirməyib bu günahlara sussalar, Uca Allah onların hamısına əzab

[1] Əhməd (6569); Muslim (2654); ən-Nəsəi “Sunən əl-Kubra” (7861). Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1689.
[2] Əhməd (4/165). Əhməd, 1414. Şueyb əl-Arnavut isnadının yaxşı olduğunu bildirmişdir.
[3] ət-Tabəri, 15903, 15980.
[4] ət-Tabəri, 15907, 15984.

göndərər".[1] Bu, həqiqətən, gözəl təfsirdir. Bu səbəbdən Mucahid ﷺ Uca Allahın "**Sizdən təkcə zalımlara toxunmayacaq (hamınızı bürüyəcək) fitnədən qorxun**" ayəsi barədə belə demişdir: "Yəni bu bəla, həmçinin sizin üçündür". əd-Dahhək, Yəzid ibn Əbu Həbib və bir çoxları da belə demişlər. İbn Məsud ﷺ demişdir: "Sizdən elə bir kəs yoxdur ki, fitnəyə düşməsin (imtahan olunmasın), çünki Uca Allah "**Həqiqətən, var-dövlətiniz və övladlarınız ancaq bir fitnədir (sınaqdır)**" ("ət-Təğabun", 28) – deyə buyurur. Kim fitnələrdən Allaha sığınmaq istəyirsə, qoy azdırıcı fitnələrdən (sınaqlardan) Ona sığınsın".[2] İbn Məsudun ﷺ bu sözünü İbn Cərir ﷺ rəvayət etmişdir.

Ayədə səhabələrə xitab olunmasına baxmayaraq, bu fitnədən çəkindirmə hamıya – həm səhabələrə, həm də başqalarına aiddir deyənlərin rəyi daha doğrudur. Fitnələrdən çəkindirən hədislər də buna dəlalət edir. İmam Əhməd ﷺ Huzeyfə ibn Yəməndən ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Canım Əlində olan Allaha and olsun ki, ya yaxşı işləri əmr edib pis işlərdən çəkindirəcəksiniz, ya da Allah Öz tərəfindən sizə cəza göndərəcək. Bundan sonra Ona dua etsəniz də, dualarınız qəbul olunmaz".[3]

Yenə İmam Əhməd ﷺ rəvayət etmişdir ki, bir dəfə Amir iki barmağı ilə qulaqlarına işarə edərək dedi: "Numan ibn Bəşirin ﷺ bir xütbəsində belə dediyini qulaqlarımla eşitmişəm: "Allahın qoyduğu hüdudları qoruyanların (qadağalarına riayət edənlərin) və onu aşanların halı, gəmiyə minən bir toplumun halına bənzəyir. Onların bir qismi gəminin aşağı mərtəbəsinə, digərləri isə göyərtəsinə yerləşir. Onlar dənizdə olduqları zaman aşağıdakılar su istədikdə gəminin göyərtəsinə qalxıb yuxarıdakıların arasından keçir və onları narahat edirlər. Onda aşağıdakılar deyirlər: "Gəlin, gəmini deşib buradan su götürək və yuxarıdakılara əziyyət verməyək". Əgər yuxarıdakılar onların özbaşınalıq etməsinə göz yumsalar, gəmi batacaq və hamısı həlak olacaq; yox, əgər bunun qarşısını alsalar, onda həm özləri, həm də aşağıdakılar xilas olacaqlar". Hədisi, həmçinin əl-Buxari ﷺ də rəvayət etmişdir. Muslim ﷺ rəvayət etməmişdir.[4]

[1] İbn Əbu Hatim, 8964; ət-Tabəri, 15909, 15981, 15986.
[2] ət-Tabəri, 15912, 15934, 15989, 16011.
[3] Əhməd, 23349, 23690; ət-Tirmizi, 2169, 2323. Hədis həsəndir. Bax: "Mişkətul-Məsabih", 5140.
[4] Əhməd (4/269); əl-Buxari, 2493, 2686.

İmam Əhməd ﷺ rəvayət etmişdir ki, Peyğəmbərin ﷺ zövcəsi Ummu Sələmə ﵂ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Ümmətim arasında günah işlər artdığı zaman Allah Öz tərəfindən onların hamısına əzab göndərəcək". Mən dedim: "Ey Allahın Elçisi! Məgər o gün onların arasında əməlisaleh insanlar olmayacaqmı?" Peyğəmbər ﷺ dedi: "Əlbəttə ki, olacaq". Mən dedim: "Bəs onların aqibəti necə olacaq?" Peyğəmbər ﷺ dedi: "Hamıya gələn əzab onları da bürüyəcək. Sonra əməlisaleh insanlar Allahın mərhəmətinə və rizasına qovuşacaqlar".[1]

﴿وَٱذْكُرُوٓا۟ إِذْ أَنتُمْ قَلِيلٌ مُّسْتَضْعَفُونَ فِى ٱلْأَرْضِ تَخَافُونَ أَن يَتَخَطَّفَكُمُ ٱلنَّاسُ فَـَٔاوَىٰكُمْ وَأَيَّدَكُم بِنَصْرِهِۦ
وَرَزَقَكُم مِّنَ ٱلطَّيِّبَـٰتِ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴿٢٦﴾﴾

**26. Yadınıza salın ki, bir zaman siz az idiniz, yer üzündə zəif sayılırdınız; kafir adamların sizi ələ keçirəcəyindən qorxurdunuz. Allah sizə sığınacaq verdi, Öz köməyi ilə sizi qüvvətləndirdi və sizə pak ruzilərdən verdi ki, bəlkə şükür edəsiniz.**

Bu ayədə Uca Allah mömin qullarına onlara verdiyi nemətlərini və lütfünü xatırladır. Belə ki, onlar sayca az idilər, Allah onları çoxaltdı. Yer üzündə zəif sayılırdılar və qorxurdular, Allah onları gücləndirdi və onlara yardım etdi. Kasıb və ehtiyac içində idilər, Allah onlara pak ruzi verdi, onlardan bu nemətlərə şükür etmələrini istədi. Onlar da Allaha itaət etdilər və Onun bütün əmrlərinə tabe oldular. Bu, möminlərin Məkkədə qaldıqları zaman olan hallarıdır. Orada sayca azlıq təşkil edirdilər, qorxu içində yaşayırdılar və çətin vəziyyətdə idilər. Digər ölkələrdə yaşayan müşriklərin, atəşpərəstlərin və rumluların onları yaxalamasından qorxurdular. Möminlər sayca az və zəif olduqları üçün bu sadalananların hamısı (müşriklər, məcusilər və rumlular) onlara düşmən idi. Mədinəyə hicrət etmək onlara icazə veriləna qədər möminlər bu halda idilər. Nəhayət, Uca Allah onları Mədinəyə sığındırdı. Mədinə əhalisini onlara yardımçı seçdi, onlar da möminlərə sığınacaq verdilər. Həm Bədr döyüşündə, həm də başqa döyüşlərdə onlara yardım etdilər, malları ilə onları dəstəklədilər, Allaha və Elçisinə ﷺ itaət yolunda canlarını fəda etdilər.

[1] Əhməd (6/304). Əhməd, 24133, 24179, 24634. Hədisin isnadı səhihdir. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3156.

Qatədə رحمه الله Uca Allahın "**Yadınıza salın ki, bir zaman siz az idiniz, yer üzündə zəif sayılırdınız...**" ayəsi barədə belə demişdir: "Ərəblərin bu qəbiləsi insanlar arasında ən zəlil, ən pis yaşayışa sahib olan, yeməyə və geyinməyə heç bir şeyləri olmayan, ən çox azğınlıqda olan bir tayfa idilər. Onlardan yaşayanlar bədbəxt olaraq yaşayar, ölənlər isə odda yandırılaraq yox edilərdi. Allaha and olsun ki, o gün üçün yer üzündə onlardan daha şər bir qəbilə olduğunu bilmirdik. Nəhayət, Uca Allah İslam dinini göndərdi və bu dini ölkələrə yaydı, bu din sayəsində onların ruzisini çoxaltdı və onları insanların üzərində hakim etdi. Uca Allah İslam dini ilə onlara gördüklərinizi verdi. Uca Allahın bu nemətlərinə şükür edin! Həqiqətən, sizin Rəbbiniz nemət bəxş edəndir və bu nemətlərə şükür edilməsini sevir. Şübhəsiz ki, şükür edənlər Allah tərəfindən nemətlərin artırılmasına layiqdirlər".[1]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَخُونُواْ ٱللَّهَ وَٱلرَّسُولَ وَتَخُونُوٓاْ أَمَٰنَٰتِكُمۡ وَأَنتُمۡ تَعۡلَمُونَ ٢٧ وَٱعۡلَمُوٓاْ أَنَّمَآ أَمۡوَٰلُكُمۡ
وَأَوۡلَٰدُكُمۡ فِتۡنَةٞ وَأَنَّ ٱللَّهَ عِندَهُۥٓ أَجۡرٌ عَظِيمٞ ٢٨﴾

**27. Ey iman gətirənlər! Allaha və Onun Rəsuluna xəyanətkarlıq göstərməyin ki, bilə-bilə öz əmanətinizə (dinə) xəyanət etmiş olmayasınız.**

**28. Bilin ki, var-dövlətiniz də, övladlarınız da ancaq bir imtahandır. Böyük mükafat isə Allah yanındadır.**

əz-Zuhri رحمه الله demişdir: "Bu ayə, Əbu Lubabə ibn Abdulmunzir barədə nazil olmuşdur. Peyğəmbər ﷺ onu Allah Elçisinə təslim olmaları üçün Bənu Qureyza qəbiləsinə elçi göndərmişdi. Onlar bu mövzuda (Peyğəmbərə ﷺ təslim olacaqları təqdirdə aqibətlərinin nə olacaqları barədə) Əbu Lubabə ilə məşvərət etdikdə o, əli ilə boynuna işarə edərək öldürüləcəklərini bildirdi. Sonra belə etməklə Allaha və Onun Elçisinə ﷺ xəyanət etmiş olduğunu anladı. Bu səbəbdən ölənə qədər və ya Allah onun tövbəsini qəbul edənə qədər heç nə dadmayacağına dair and içdi. O, Mədinə məscidinə gəlib özünü məsciddəki dirəklərdən birinə bağladı və bu vəziyyətdə doqquz gün qaldı. Nəhayət, taqətsizlikdən huşunu itirib yıxıldı. Sonda Uca Allah Peyğəmbərə ﷺ onun tövbəsini qəbul etdiyini bildirdi. İnsanlar onun yanına gəlib Allahın onun tövbəsini qəbul etməsi ilə müjdələyib dirəkdən açmaq istədilər. Lakin Əbu Lubabə Peyğəmbər ﷺ gəlib onu bu dirəkdən şəxsən öz əlləri ilə açmayana qədər heç kimin

[1] ət-Təbəri, 15919, 15996.

onu açmasına izin verməyəcəyinə and içdi. Peyğəmbər ﷺ gəlib onu öz əlləri ilə dirəkdən açdı. Əbu Lubabə dedi: "Ey Allahın Elçisi, mən nəzir etmişdim ki, Allah tövbəmi qəbul etsə, bütün malımı Onun yolunda sədəqə verəcəyəm". Peyğəmbər ﷺ dedi: "Üçdəbiri kifayətdir[1]".[2]

İbn Cərir rəhiməhullah rəvayət edir ki, Muğira ibn Şöbə رضي الله عنه demişdir: "Uca Allahın "**Ey iman gətirənlər! Allaha və Onun Rəsuluna xəyanətkarlıq göstərməyin ki, bilə-bilə öz əmanətinizə (dinə) xəyanət etmiş olmayasınız**" ayəsi Osmanın رضي الله عنه qətlə yetirilməsi barədə nazil olmuşdur".[3]

əl-Buxari və Muslimin "Səhih" əsərlərində Hatib ibn Əbu Bəltənin hadisəsi belə rəvayət edilir: "Məkkənin fəth edildiyi il Hatib ibn Əbu Bəltə Qureyşə məktub yazaraq Peyğəmbərin ﷺ onlara doğru yürüş etmək istədiyini bildirdi. Uca Allah bunu Peyğəmbərinə ﷺ agah etdi və Peyğəmbər ﷺ məktubun arxasınca adam (Əli ibn Əbu Talibi) göndərib onu geri gətirtdi. Peyğəmbər ﷺ Hatibi hüzuruna çağırdı və o, əməlini etiraf etdi. Ömər ibn Xattab رضي الله عنه qalxıb "Ey Allahın Elçisi, onun boyunu vurmayımmı? Həqiqətən, o, Allaha, Onun Elçisinə və möminlərə xəyanət etmişdir" – dedi. Peyğəmbər ﷺ dedi: "Axı o, Bədr döyüşündə iştirak edib. Nə bilirsən, bəlkə Allah Bədrdə döyüşənlərə baxıb demişdir: "İstədiyinizi edin, artıq Mən sizi bağışlamışam!"[4]

[1] Burada söhbət Xəndək döyüşündə müsəlmanlara qarşı döyüşməyəcəkləri barədə Peyğəmbərlə ﷺ bağladıqları əhdi pozaraq Mədinəyə hücum etmiş müşriklərə yardım edən Bənu Qureyza qəbiləsindən gedir. Uca Allah bunu Peyğəmbərə ﷺ bildirdikdə o, üç min nəfərdən ibarət ordu ilə bu qəbiləni mühasirəyə aldı və onlardan təslim olmağı tələb etdi. Onlar xəbər göndərərək Əbu Lubabə ilə məsləhətləşmək istədilər. Peyğəmbər ﷺ Əbu Lubabəni onların yanına elçi göndərdi. Əbu Lubabə cahillikdə onların müttəfiqi idi. Bənu Qureyza qəbiləsinin yaşadığı ərazidə onun da malı-mülkü vardı. Əbu Lubabə gəldikdə Bənu Qureyza qəbiləsinin qadınları ağlamağa başladılar və Əbu Lubabə bundan təsirləndi. Onlar Əbu Lubabədən Peyğəmbərə ﷺ təslim olacaqları təqdirdə aqibətlərinin nə olacaqlarını soruşdular. Bu vaxt Əbu Lubabə əli ilə boğazına işarə etdi, lakin sonra bu əməllə Peyğəmbərə ﷺ xəyanət etdiyini anlayıb tövbə etdi və Allah onun tövbəsini qəbul etdi. Başqa bir rəvayətdə Əbu Lubabə Peyğəmbərə ﷺ dedi: "Tövbəmin səmimiliyinin əlaməti olaraq bir daha günah işlədiyim yerə (Bənu Qureyza qəbiləsinin yaşadığı yerə) getməyəcəm və malımın hamısını sədəqə verirəm". Peyğəmbər ﷺ dedi: "Üçdəbiri kifayətdir". (Əbu Davud, 3319, 3321. Hədis səhihdir. Bax: "Mişkətul-Məsabih", 3439).

[2] "Subulul-Hudə vər-Raşəd" (5/16-17); "Fəthul-Bari" (7/413).

[3] ət-Təbəri, 15925, 16002.

[4] əl-Buxari, 3684, 3983; Muslim, 2494, 4550, 6557. Hədisin tam mətni bu surənin 9-cu ayəsinin təfsirində keçmişdir.

Mən deyirəm: "Ayənin xüsusi bir səbəbə görə nazil olmasına baxmayaraq, doğru olan budur ki, ayə ümumidir. Əksər alimlərə görə səbəbin xüsusiliyi deyil, dəlilin ümumi olması əsas götürülür. Allaha xəyanət etmək həm kiçik, həm də böyük günahları əhatə edir. Fərq etməz – istər bu günahın zərəri yalnız onu edənə, istərsə də, ətrafdakılara dəymiş olsun".

İbn Abbas ﵄ Uca Allahın "...**bilə-bilə öz əmanətinizə (dinə) xəyanət etmiş olmayasınız**" ayəsi barədə belə demişdir: "Əmanət Allahın qullarına fərz etdiyi əməllərdir. Uca Allah ayədə "...**xəyanətkarlıq göstərməyin**" – deyə buyurur, yəni onları pozmayın".[1] Başqa bir rəvayətdə Uca Allahın "**Allaha və Onun Rəsuluna xəyanətkarlıq göstərməyin**" ayəsi barədə belə demişdir: "Allah Elçisinin ﷺ sünnəsini tərk etməklə və günah əməllər işlətməklə Allaha və Onun Elçisinə ﷺ xəyanət etməyin".[2] əs-Suddi ﵀ demişdir: "Allaha və Elçisinə ﷺ xəyanət etsələr, artıq öz əmanətlərinə xəyanət etmiş olarlar".[3] Həmçinin belə demişdir: "Peyğəmbərdən ﷺ bir söz eşitdikdə, onu yayardılar və bu da müşriklərə çatardı".[4]

Uca Allah buyurur: "**Bilin ki, var-dövlətiniz də, övladlarınız da ancaq bir imtahandır**", yəni bunlar sizin üçün Allah tərəfindən bir imtahan, bir sınaqdır, çünki Uca Allah bunları sizə ona görə vermişdir ki, bu nemətlərə görə Ona şükür edib onları Allaha itaətdə sərf edəcəyinizi, yoxsa Allahı unudub onlarla məşğul olacağınızı bilsin. Necə ki başqa ayələrdə belə buyurur: "**Həqiqətən, var-dövlətiniz və övladlarınız ancaq bir sınaqdır. Böyük mükafat isə Allah yanındadır**" ("ət-Təğabun", 15); "**Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik**" ("əl-Ənbiya", 35); "**Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır**" ("əl-Munəfiqun", 9); "**Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladlarınızdan sizə düşmən olanlar da vardır. Onlardan özünüzü qoruyun!**" ("ət-Təğabun", 14).

Uca Allah buyurur: "**Böyük mükafat isə Allah yanındadır**", yəni Allahın savabı, sovqatı və Cənnətləri sizin üçün mal-dövlətdən, oğul-uşaqdan daha xeyirlidir, çünki övladlardan sizə düşmən də çıxa bilər. Bir çoxu onsuz da sizə heç bir fayda verməz. Dünya və Axirətdə tam hakim, dünya və Axirətin sahibi Odur. Qiyamət günü bol savab Onun

[1] ət-Təbəri, 15931, 16008.
[2] İbn Əbu Hatim, 8978.
[3] ət-Təbəri, 15928, 16005.
[4] ət-Təbəri, 15927, 16004.

dərgahındadır. "Səhih" əsərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə buyurur: "Kimdə bu üç xislət olsa, imanın ləzzətini dadmış olar: Allahı və Onun Elçisini başqalarından daha çox sevmək, sevdiyini ancaq Allah üçün sevmək, Allah onu küfrdən qurtardıqdan sonra atəşə atılmağı təkrar küfrə qayıtmaqdan üstün saymaq".[1]

Hətta müsəlmanın Peyğəmbərə ﷺ olan sevgisi övlada, mal-dövlətə və özünə olan sevgidən daha çox olmalıdır. Necə ki "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni özündən, ailəsindən, mal-dövlətindən və bütün insanlardan çox istəməyincə, (haqqı ilə) iman gətirmiş olmaz".[2]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِن تَتَّقُواْ ٱللَّهَ يَجۡعَل لَّكُمۡ فُرۡقَانٗا وَيُكَفِّرۡ عَنكُمۡ سَيِّـَٔاتِكُمۡ وَيَغۡفِرۡ لَكُمۡۗ
وَٱللَّهُ ذُو ٱلۡفَضۡلِ ٱلۡعَظِيمِ ٢٩﴾

**29. Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla batili ayırdetmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.**

İbn Abbas, əs-Suddi, Mucahid və başqaları ayədə keçən فُرۡقَانٗا [furqan] sözünü "çıxış yolu" kimi təfsir etmişlər. Mucahid "Dünyada və axirətdə çıxış yolu göstərər" kimi təfsir etmişdir. Bu söz İbn Abbasdan رضي الله عنهما gələn bir rəvayətdə "qurtuluş", başqa bir rəvayətdə isə "yardım" kimi təfsir edilmişdir. Muhəmməd ibn İshaq رحمه الله bu sözü "**haqla batili ayırdetmə bacarığı**" kimi təfsir etmişdir. İbn İshaqın رحمه الله bu təfsiri əvvəl keçən təfsirlərdən daha ümumidir və əvvəlki təfsirlərin hamısını özündə cəm edir. Çünki kim Allahın əmrlərini yerinə yetirib, qadağalarından çəkinməklə Allahdan qorxarsa, haqqı batildən ayırdetmə bacarığına sahib olar. Bu isə Allahın ona dünya işlərində yardım etməsinə, çətinliklərdən qurtulmasına və çıxış yolunu tapmasına səbəbdir. Qiyamət günü isə xoşbəxt olmasına, günahlarının silinməsinə və bağışlanmasına, yəni insanlardan gizlədilməsinə, bununla da Allahın bol savabına nail olmasına bir səbəbdir. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə düz yolla getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah bağışlayandır, rəhmlidir**" ("əl-Hədid", 28).

---

[1] əl-Buxari, 16, 5581, 6041; Muslim, 43.

[2] əl-Buxari, 14-15, Muslim, 63, 178.

﴿وَإِذْ يَمْكُرُ بِكَ ٱلَّذِينَ كَفَرُوا۟ لِيُثْبِتُوكَ أَوْ يَقْتُلُوكَ أَوْ يُخْرِجُوكَ ۚ وَيَمْكُرُونَ وَيَمْكُرُ ٱللَّهُ ۖ وَٱللَّهُ خَيْرُ ٱلْمَٰكِرِينَ ﴿٣٠﴾﴾

**30. Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır.**

İbn Abbas, Mucahid və Qatədə رحمهم الله ayədə keçən لِيُثْبِتُوكَ [liyusbitu:kə] feilini "səni bağlamaq... üçün" kimi təfsir etmişlər. Əta və İbn Zeyd رحمهما الله isə bu feili "səni həbs etmək... üçün" kimi təfsir etmişlər. əs-Suddi رحمه الله demişdir: "Bu feilin kökü "həbs edib bağlamaq" mənasını verir".[1] əs-Suddinin رحمه الله sözü digər alimlərinin dediklərini əhatə edir və bu feilin mənası barədə deyilən digər rəyləri bir yerə cəmləyir. Adətən, başqasına pislik etmək istəyən bu cür edir.

Qureyşin bir yerə toplaşıb Peyğəmbəri ﷺ həbs etmək, yaşadığı yerdən qovmaq və ya öldürmək barədə məşvərət etməsi və qərara gəlməsi Peyğəmbərin ﷺ hicrət etdiyi gecə baş vermişdir. Bu hadisə Əbu Talibin ölümündən təxminən üç il sonra baş vermişdir, çünki Əbu Talib Peyğəmbərin ﷺ çətin günlərində onu himayə edər, qoruyar və ona yardım edərdi. Bu dediklərimizin doğru olmasına dəlil isə İmam Muhəmməd ibn İshaqın رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etdiyi bu hədisdir: "İbn Abbas rəvayət etmişdir ki, hər qəbilənin adlı-sanlılarından ibarət bir qrup qureyşli Darun-Nədvaya[2] (Məşvərət evinə) daxil olmaq üçün toplaşmışdı. İblis yaşlı və möhtərəm bir qoca surətində onların qarşısına çıxdı. Onlar onu gördükdə: "Sən kimsən?" – deyə soruşdular. İblis: "Nəcd diyarından gəlmiş bir qocayam, sizin toplanacağınızı eşitdim. İstədim sizinlə birlikdə bu yığıncaqda iştirak edim ki, mənim rəyimdən və nəsihətimdən faydalanmaq fürsətini əldən verməyəsiniz" – dedi. Onlar: "Yaxşı, içəri gir!" – dedilər və o, onlarla birlikdə içəri daxil oldu. İblis dedi: "Bu kişinin (Peyğəmbəri ﷺ nəzərdə tutur) qarşısını almaq üçün bir çarə düşünün. Allaha and olsun ki, az qala o sizə qalib gəlsin". İştirak edənlərdən biri dedi: "Onun əl-qolunu bağlayıb həbs edin, sonra ölümünü gözləyin. Ondan əvvəlki şairlər – Zuheyr və ən-Nəbiğa həlak olduqları kimi, onu da həlak olana qədər saxlayın. O, ancaq onlar kimi bir şairdir". Bu vaxt Allahın düşməni Nəcdli qoca qışqıraraq dedi: "Allaha and olsun ki, bu,

[1] ət-Təbəri, 15960, 16037.

[2] Darun-Nədva "Məşvərət evi" deməkdir. Bu ev Məkkədə yerləşirdi və cahiliyyə dövründə Qureyş qəbiləsinin başçıları və adlı-sanlı insanları öz aralarında məsləhətləşmək istədikdə məhz bura toplaşardılar. Bu evin əsasını Qusey ibn Kiləb qoymuşdur.

doğru seçim deyil. Allaha and olsun ki, Rəbbi onu mütləq həbs edildiyi yerdən çıxarıb öz səhabələrinə qovuşduracaq. Çox keçməz, insanlar onun ətrafına toplaşar və onu sizin əlinizdən alıb qoruyarlar. Əgər belə olsa, onların sizi öz yurdunuzdan çıxarmayacağından əmin deyiləm". Sonra "Bundan başqa bir çarə düşünün" – deyə əlavə etdi. İştirak edənlərdən başqa biri dedi: "Onu yaşadığınız şəhərdən çıxarın ki, rahatlıq tapasınız. Əgər çıxıb getsə, harada baş verirsə versin, edəcəyi şeylər sizə heç bir zərər verə bilməz. Əgər əziyyəti sizdən uzaqlaşarsa, rahatlıq taparsınız və işi başqaları ilə olar". Nəcdli qoca dedi: "Allaha and olsun ki, bu, heç də doğru rəy deyil. Onun xoş danışığını, şirin dilini, dediyi sözlərlə qəlbləri necə fəth etdiyini görmürsünüzmü? Allaha and olsun ki, əgər belə etsəniz, o, öz dinini ərəblər arasında yayar, onlar da sizin əleyhinizə toplaşar, sizin üzərinizə hücum edər, sonda sizi yurdunuzdan çıxarar və başçılarınızı öldürərlər". Onlar "Allaha and olsun ki, doğru söylədi. Bundan başqa bir çarə düşünək" – dedilər. Əbu Cəhl (Allah ona lənət etsin) dedi: "Allaha and olsun ki, sizə elə bir rəy bildirəcəm ki, başqa bir rəyə ehtiyac duymayacaqsınız. Bundan başqa bir çarənin olduğunu da görmürəm". Onlar: "O nədir?" – deyə soruşdular. Əbu Cəhl dedi: "Hər tayfadan güclü və adlı-sanlı bir gənc götürək. Onların hər birinə iti bir qılınc verilsin və hamısı bir nəfər kimi onu eyni anda vursunlar. Onu öldürdükləri zaman qanı qəbilələr arasında bölüşdürülmüş olar. Bənu Haşim qəbiləsinin bütün Qureyş qəbilələri ilə mübarizə aparmağa gücü çatacağını sanmıram. Onlar vəziyyətin belə olduğunu gördükdə məcbur olub qanbahasını qəbul edərlər. Biz də rahatlığa çıxarıq və o, daha bizə əziyyət verə bilməz". Nəcdli qoca dedi: "Allaha and olsun ki, doğru rəy budur. Bu gəncin söylədiyindən başqa bir rəyin doğru olduğunu görmürəm". Onlar bu rəylə razılaşaraq ayrıldılar. O gecə Cəbrail Peyğəmbərin ﷺ yanına gəlib əvvəl yatdığı yatağında yatmamasını ona əmr etdi və qövmün hiyləsi barədə ona xəbər verdi. Peyğəmbər ﷺ o gecə evində yatmadı. O zaman Uca Allah ona şəhərdən çıxmağa icazə verdi. Mədinəyə gəldikdən sonra isə ona "əl-Ənfal" surəsini nazil edib bu surədə ona bəxş etdiyi nemətlərini və imtahanı zikr edərək belə buyurdu: "**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır**". Həmçinin onların "Onun əl-qolunu bağlayıb həbs edin, sonra ölümünü gözləyin. Ondan əvvəlki şairlər həlak olduğu kimi onu da həlak olana qədər saxlayın" sözləri barədə "**Yoxsa onlar "O bir şairdir. Biz onun ölümünü gözləyirik!" – deyirlər...**" ("ət-Tur", 30) ayəsini nazil etdi. O gün Qureyşin başçıları Peyğəmbərə ﷺ qarşı hiylə qurmaq məqsədilə toplaşıb bir rəy üzərində həmfikir olduqları üçün həmin gün "Yəumuz-Zəhfə" (Toplantı günü) adlandırıldı.

Uca Allah onların Peyğəmbəri ﷺ yurdundan çıxarmaq istədiklərini bildirərək bu ayəni nazil etdi: "**Müşriklər az qala səni bu torpaqdan sıxışdırıb çıxaracaqdılar. Lakin səni qovduqdan sonra özləri də orada ancaq az bir müddət qala bilərdilər**" ("əl-İsra", 76).

İbn İshaq رحمه الله demişdir: "Peyğəmbər ﷺ Məkkədə qaldığı müddətdə Allahın əmrini gözləyirdi. Nəhayət, Qureyş başçıları toplaşıb hiylə quraraq ona pislik etməyi qərarlaşdırdıqda Cəbrail gəlib Peyğəmbərə ﷺ əvvəl yatdığı yerində yatmamağı əmr etdi. Peyğəmbər ﷺ Əli ibn Əbu Talibi رضي الله عنه çağırıb onun yatağında yatmasını, ona aid yaşıl bürüncəyi örtməsini əmr etdi. O da bunu etdi. Sonra Peyğəmbər ﷺ müşriklərdən onu öldürməyə gələnlərin qapıda gözlədikləri vaxt onların qarşısına çıxdı. Əlindəki bir ovuc torpağı onların başlarına səpdi. Uca Allah Öz elçisi Muhəmmədi ﷺ onların gözündə görünməz etdi. Peyğəmbər ﷺ çıxarkən bu ayələri oxuyurdu: "**Ya. Sin. ... Biz onların önlərindən bir sədd, arxalarından da başqa bir sədd çəkdik və gözlərinə pərdə saldıq. Buna görə də onlar haqqı görmürlər**" ("Yasin", 1, 9). əl-Hafiz Əbu Bəkr əl-Beyhəqi رحمه الله demişdir: "İkrimədən bu hədisi gücləndirən bir rəvayət nəql olunur".[1]

İbn Hibban "Səhih" əsərində və əl-Hakim رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişlər ki, bir dəfə Fatimə ağlaya-ağlaya Peyğəmbərin ﷺ yanına daxil oldu. Peyğəmbər ﷺ soruşdu: "Əziz qızım, nə üçün ağlayırsan?" Fatimə dedi: "Atacan, necə ağlamayım ki, Qureyşdən bir toplum adam Hicrdə[2] Lata, Uzzaya və üçüncü olan Mənata (bütlərə) and içərək qərar verdilər ki, əgər səni görsələr, üzərinə hücum edib öldürəcəklər. Onların hər biri artıq sənin qanından payına düşəni bilir". Peyğəmbər ﷺ dedi: "Ey əziz qızım, mənə dəstəmaz almaq üçün su gətir!" Peyğəmbər ﷺ dəstəmaz alıb məscidə yollandı. Onlar onu gördükdə: "Budur o!" – dedilər və başlarını önlərinə əydilər, çənələri önlərinə düşdü, gözlərini qaldırmadılar. Peyğəmbər ﷺ bir ovuc torpaq götürüb onlara ataraq "Allah onların üzlərini qaraltsın!" – dedi. Peyğəmbərin ﷺ atdığı torpaq hansına dəydisə, Bədr döyüşü günü kafir olaraq öldürüldü". əl-Hakim رحمه الله demişdir: "Hədis Muslimin şərtlərinə görə səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər. Bu hədisin səhihliyinə xələl gətirən hər hansı bir amilin olduğunu bilmirəm".[3]

---

[1] Dəlailun-Nubuvvə (2/469-472). ət-Təbəri, 15965, 16042.

[2] Kəbənin yanında yerləşən yarımdairəvi şəkilli, hündür olmayan divar.

[3] İbn Hibban "əl-Məvərid", 6191; əl-Hakim (3/157). İbn Hibban, 6502; əl-Hakim, 583. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 6/323.

Urvə ibn əz-Zubeyr ﵀ Uca Allahın "**Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır**" ayəsi barədə belə demişdir: "Yəni onların hiyləsinə qarşı Öz sarsılmaz hiyləmi qurdum və səni onlardan xilas etdim".

﴿وَإِذَا تُتۡلَىٰ عَلَيۡهِمۡ ءَايَٰتُنَا قَالُواْ قَدۡ سَمِعۡنَا لَوۡ نَشَآءُ لَقُلۡنَا مِثۡلَ هَٰذَآ إِنۡ هَٰذَآ إِلَّآ أَسَٰطِيرُ ٱلۡأَوَّلِينَ ٣١ وَإِذۡ قَالُواْ
ٱللَّهُمَّ إِن كَانَ هَٰذَا هُوَ ٱلۡحَقَّ مِنۡ عِندِكَ فَأَمۡطِرۡ عَلَيۡنَا حِجَارَةٗ مِّنَ ٱلسَّمَآءِ أَوِ ٱئۡتِنَا بِعَذَابٍ أَلِيمٖ ٣٢ وَمَا
كَانَ ٱللَّهُ لِيُعَذِّبَهُمۡ وَأَنتَ فِيهِمۡۚ وَمَا كَانَ ٱللَّهُ مُعَذِّبَهُمۡ وَهُمۡ يَسۡتَغۡفِرُونَ ٣٣﴾

**31. Ayələrimiz onlara oxunduğu zaman deyərlər: "Artıq eşitdik. İstəsək, biz də buna bənzərini deyə bilərik. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir".**

**32. O zaman onlar: "Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda üstümüzə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab göndər" – demişdilər.**

**33. Sən onların arasında olduğun halda, Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir.**

Uca Allah bu ayələrdə Qureyş kafirlərinin küfrlərini, azğınlıqlarını, inadkarlıqlarını, ayələri eşitdikləri zaman batil iddia irəli sürdüklərini bildirir. Belə ki, onlara Allahın ayələri oxunduqda və onu eşitdikdə: "**Artıq eşitdik. İstəsək, biz də buna bənzərini deyə bilərik**" – deyərdilər. Lakin bu, onların yerinə yetirə bilməyəcəkləri bir sözdür, çünki onlar dəfələrlə Quran surələrinə bənzər bir surə gətirməyə cəhd etmiş, lakin bunu bacarmamışlar. Onlar bu sözləri ilə özlərini və batil inanclarında onlara tabe olanları aldadırlar. Bunu deyən adamın Nadr ibn əl-Həris (Allah ona lənət etsin) olduğu da deyilmişdir. Səid ibn Cubeyr, əs-Suddi, İbn Cureyc və başqaları ﵏ da bunu demişlər. Nadr ibn əl-Həris (Allah ona lənət etsin) fars ölkəsinə (İrana) getmiş, onların hökmdarları Rüstəm və İsfəndiyarın hekayələrini öyrənmişdi. Öz ölkəsinə qayıtdıqda Peyğəmbərin ﷺ Allah tərəfindən göndərildiyini və onun insanlara Quran oxuduğunu görmüşdü. Peyğəmbər ﷺ bir məclisdən qalxıb getdiyi zaman Nadr orada oturar, İran hökmdarlarının hekayələrini rəvayət edər, sonra deyərdi: "Allah xatirinə, deyin görək hansı daha yaxşıdır? Mənim danışdıqlarım, yoxsa Muhəmmədin danışdıqları?" Bədr döyüşü günü Uca Allah onun ələ keçməsinə və əsir düşməsinə imkan verdi. Peyğəmbər ﷺ onun

əli-qolu bağlı vəziyyətdə qarşısında boynunun vurulmasını əmr etdi və əmri yerinə yetirildi. Həmd Allaha məxsusdur. Onu Miqdad ibn əl-Əsvəd ﷺ əsir götürmüşdü. İbn Cərir ﷺ hadisəni Səid ibn Cubeyrdən ﷺ belə rəvayət etmişdir: "Peyğəmbər ﷺ Bədr döyüşü günü Uqbə ibn Əbu Mueytin, Tueymə ibn Adiyin və Nadr ibn əl-Hərisin əlləri bağlı vəziyyətdə öldürülməsini əmr etdi. Nadrı Miqdad əsir almışdı. Peyğəmbər ﷺ Nadrın öldürülməsini əmr etdikdə, Miqdad dedi: "Ey Allahın Elçisi, o mənim əsirimdir".[1] Peyğəmbər ﷺ: "O, Allahın Kitabı barədə xoşagəlməz sözlər deyirdi" – dedi və onun öldürülməsini əmr etdi. Miqdad təkrar: "Ey Allahın Elçisi, axı o mənim əsirim idi" – dedikdə, Peyğəmbər ﷺ: "Allahım, Miqdadı Öz lütfünlə zəngin et!" – deyə dua etdi. Miqdad dedi: "Mənim istədiyim də elə bu idi". Uca Allahın "**Ayələrimiz onlara oxunduğu zaman deyərlər: "Artıq eşitdik. İstəsək, biz də buna bənzərini deyə bilərik. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir**" ayəsi Nadr barədə nazil olmuşdur".[2]

Qureyş kafirləri "**Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir**" deməklə keçmişdəkilərin kitablarını nəzərdə tuturlar. Onlara görə Peyğəmbər ﷺ dediklərini onlardan götürmüşdür və onlardan öyrənib insanlara oxuyur. Bu isə ağ yalandır. Necə ki Uca Allah başqa bir ayədə onlar barədə belə buyurur: "**Onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır. O bunları başqasına yazdırmışdır. Bunlar səhər-axşam onun özünə oxunur" – dedilər. De: "Onu göylərdə və yerdə olan sirləri bilən Allah nazil etmişdir. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir!**" ("əl-Furqan", 5-6), yəni Uca Allah tövbə edib Ona üz tutanların tövbəsini qəbul edir və onları bağışlayır.

Uca Allah buyurur: "O zaman onlar: "**Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda üstümüzə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab göndər" – demişdilər**". Bu, onların cahilliklərinin, haqqı yalan saymalarının, azğınlıqlarının və inadkarlıqlarının çoxluğundan irəli gəlir. Bu, həmçinin onların məzəmmət olunduqları xüsuslardan biridir. Halbuki, onlar: "Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda bizi ona yönəlt və bizi ona tabe olmağa müvəffəq et!" – deməli idilər. Lakin onlar özlərinə Allahdan hidayət əvəzinə, əzabın və cəzanın tez gəlməsini istədilər. Necə ki başqa ayələrdə belə buyurur: "**Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Əgər artıq müəyyən etdiyimiz bir vaxt olmasaydı, əzab onlara gələrdi. O əzab onlara qəflətən, özləri də hiss etmədən gələcək**" ("əl-Ənkəbut", 53);

[1] Yəni ona qarşılıq ailəsindən fidyə alacaqdım.
[2] ət-Təbəri, 19/238, 26483.

"**Onlar istehza edərək: "Ey Rəbbimiz! Bizim payımızı Haqq-hesab günü gəlməmişdən əvvəl tezliklə ver!" – dedilər**" ("Sad", 16); "**İstəyən kimsə baş verəcək əzabı istədi – bunu kafirlər üçün dilədi. O əzabın qarşısını alan tapılmayacaq. O, dərəcələr sahibi olan Allahdandır**" ("əl-Məaric", 1-3). Keçmiş ümmətlərin cahilləri də belə demişlər. Necə ki Şueybin ﷺ qövmü ona: "**Əgər doğru danışanlardansansa, göyün bir parçasını üstümüzə endir**" ("əş-Şuəra", 187) – demişdir. Bunlar isə: "**Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda üstümüzə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab göndər**" – demişlər. əl-Buxari Ənəs ibn Malikin belə dediyini rəvayət etmişdir: "**Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda üstümüzə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab göndər**" – deyən Əbu Cəhl ibn Hişam olmuşdur. Bu səbəbdən "**Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" ayəsi nazil oldu".[1]

Qatədə Uca Allahın "**Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, ...**" ayəsi barədə demişdir: "Bu sözü bu ümmətin səfehləri və cahilləri demişlər. Uca Allah da bu ümmətin səfehlərinə və cahillərinə rəhməti və lütfkarlığı ilə cavab vermişdir".[2]

Uca Allah buyurur: "**Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**". İbn Abbas demişdir: "Müşriklər Kəbəni təvaf etdikdə belə deyərdilər: "Ey Allah! Sənin dəvətini qəbul edib hüzuruna gəlmişik. Sənin heç bir şərikin yoxdur". Peyğəmbər ﷺ belə deyərdi: "Bu sizə yetər, bu sizə yetər". Sonra onlar: "Ey Allah! Sənin dəvətini qəbul edib hüzuruna gəlmişik. Sənin heç bir şərikin yoxdur! Yalnız Sənin o şərikindən başqa ki, Sən ona və onun mülkünə sahibsən!" – deyərdilər və "Ey Allah! Bizi bağışla! Ey Allah! Bizi bağışla!" sözlərini əlavə edərdilər. Uca Allah da bu ayəni nazil etdi: "**Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**". İbn Abbas demişdir: "Onları Allahın əzabından qoruyan iki səbəb vardı: Peyğəmbərin ﷺ onların arasında olması və onların bağışlanma diləmələri. Peyğəmbər ﷺ onların aralarından getdi, bağışlanma diləmələri isə qaldı".[3]

[1] əl-Buxari, 4648, 4649.
[2] İbn Əbu Hatim, 9010; ət-Təbəri, 16066.
[3] İbn Əbu Hatim, 9017; ət-Təbəri, 16000, 16078, 9/154.

əd-Dahhək və Əbu Malik isə "...**bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" ayəsində Məkkədə olan möminlərin nəzərdə tutulduğunu demişlər.[1] İbn Abbas demişdir: "Həqiqətən, Uca Allah bu ümmətə əzabdan qorunmaq üçün iki səbəb vermişdir. Bu iki səbəb ümmətdə olduğu müddət ərzində əzabdan xilas olmuş və qorunmuş olarlar. Səbəblərdən birini Uca Allah (Peyğəmbərin ﷺ vəfat etməsi ilə) almışdır. Digəri isə qalmışdır. Bu, Uca Allahın "**Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" ayəsində öz təsdiqini tapmışdır".[2]

İmam Əhməd və əl-Hakim Əbu Səid əl-Xudrinin belə dediyini rəvayət etmişlər: "Mən Allah Elçisinin ﷺ belə dediyini eşitdim: "İblis Rəbbinə dedi: "İzzətinə və Ucalığına and olsun! Nə qədər ki, Adəm övladlarının ruhları bədənlərindədir, mən onları azdırmaqdan əl çəkməyəcəyəm". Allah buyurdu: "İzzətimə və Ucalığıma and olsun! Nə qədər ki, onlar Məndən bağışlanma diləyəcək, Mən onları bağışlayacağam!" əl-Hakim hədisi rəvayət etdikdən sonra demişdir: "Hədisin isnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər".[3]

﴿وَمَا لَهُمْ أَلَّا يُعَذِّبَهُمُ ٱللَّهُ وَهُمْ يَصُدُّونَ عَنِ ٱلْمَسْجِدِ ٱلْحَرَامِ وَمَا كَانُوٓا۟ أَوْلِيَآءَهُۥٓ ۚ إِنْ أَوْلِيَآؤُهُۥٓ إِلَّا ٱلْمُتَّقُونَ وَلَٰكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ ﴿٣٤﴾ وَمَا كَانَ صَلَاتُهُمْ عِندَ ٱلْبَيْتِ إِلَّا مُكَآءً وَتَصْدِيَةً ۚ فَذُوقُوا۟ ٱلْعَذَابَ بِمَا كُنتُمْ تَكْفُرُونَ ﴿٣٥﴾﴾

**34. Onlar (müşriklər) möminləri Məscidul-Harama buraxmadıqlarına görə Allah nə üçün onlara əzab verməsin? Halbuki, onlar özləri ora (Məscidul-Harama) layiq deyillər, ora layiq olanlar yalnız müttəqilərdir. Lakin onların çoxu bunu bilmir.**

**35. Onların müqəddəs Evin yanındakı ibadətləri fit vermək və əl çalmaqdan başqa bir şey deyil. Küfr etdiyinizə görə dadın əzabı!**

[1] İbn Əbu Hatim, 9024.
[2] İbn Əbu Hatim, 9025.
[3] Əhməd, 11240, 11262, 11548, 11677; əl-Hakim, 4/261. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 104.

Uca Allah bu ayələrdə, əslində, kafirlərin əzaba layiq olduqlarını, lakin Peyğəmbərin ﷺ onların arasında olmasının bərəkəti sayəsində onlara əzabı endirmədiyini bildirir. Bu səbəbdən Peyğəmbər ﷺ onların arasından çıxdığı zaman Uca Allah Bədr döyüşü günü əzabını onlara endirmiş, başçıları öldürülmüş, adlı-sanlıları əsir edilmişdi. Uca Allah onlara tövsiyə edir ki, etdikləri günahlardan, şirk və fəsaddan tövbə edib bağışlanma diləsinlər. Qatədə, əs-Suddi və başqaları demişlər: "Qureyş kafirləri Allahdan bağışlanma diləmirdilər. Əgər bağışlanma diləsəydilər, əzaba düçar olmazdılar".[1] Bu rəyi İbn Cərir ﷷ də seçmişdir. Əgər aralarında Allahdan bağışlanma diləyən zəif möminlər olmasaydı, Uca Allah dəf edilməyəcək əzabını onlara endirərdi. Lakin bağışlanma diləyən möminlərə görə Uca Allah əzabını onlardan uzaqlaşdırdı. Necə ki Uca Allah Hüdeybiyyə sülhü bağlanan gün barədə belə buyurur: "**O kafirlər, sizi Məscidul-Harama buraxmayan və qurbanlıq heyvanlarını qurbangaha gedib çatmağa qoymayan kimsələrdir. Əgər Məkkədə tanımadığınız mömin kişiləri və mömin qadınları bilmədən tapdalayıb əzmək və onların ucbatından günaha batmaq təhlükəsi ilə qarşılaşmasaydınız, Allah ora zorla girməyinizə izin verərdi. Lakin Allah istədiyini Öz mərhəmətinə qovuşdursun deyə buna izin vermədi. Əgər onlar bir-birindən seçilsəydilər, Biz onlardan kafir olanlara ağrılı-acılı bir əzab verərdik**" ("əl-Fəth", 25).

İbn Cərir ﷷ rəvayət edir ki, İbn Əbzə ؓ demişdir: "Peyğəmbər ﷺ Məkkədə ikən Uca Allah "**Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək**" ayəsini nazil etdi. Mədinəyə yola düşdükdə isə Uca Allah "**Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" ayəsini nazil etdi. Ayədə Məkkədə qalan zəif möminlər nəzərdə tutulur və onlar orada, yəni Məkkədə Allahdan bağışlanma diləyirdilər. Onlar da Məkkəni tərk etdikdə Uca Allah "**Onlar (müşriklər) möminləri Məscidul-Harama buraxmadıqlarına görə Allah nə üçün onlara əzab verməsin?**" ayəsini nazil edərək Məkkəni fəth etməyə icazə verdi. Uca Allahın ayədə onlara vəd etdiyi əzab da məhz budur". Oxşar təfsir İbn Abbas, əd-Dahhək və bir çoxlarından rəvayət edilmişdir.[2]

Bəzi təfsir alimləri bu ayənin "**Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" ("əl-Ənfal", 33) ayəsini nəsx etdiyini (hökmünü ləğv etdiyini) demişlər. Bu rəyə görə burada onların (müşriklərin) özlərinin bağışlanma diləmələri qəsd edilir. İkrimə və əl-Həsən əl-Bəsri demişlər: "Uca Allah "əl-Ənfal" surəsində:

[1] ət-Təbəri, 16005, 16083.

[2] ət-Təbəri, 15992, 16068. Ali-Nasr zəif olduğunu bildirmişdir.

"**Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" – deyə buyurur. Bu ayənin ardınca gələn iki ayə: "**Onlar (müşriklər) möminləri Məscidul-Harama buraxmadıqlarına görə Allah nə üçün onlara əzab verməsin? Halbuki, onlar özləri ora (Məscidul-Harama) layiq deyillər, ora layiq olanlar yalnız müttəqilərdir. Lakin onların çoxu bunu bilmir**... "**Küfr etdiyinizə görə dadın əzabı!**" əvvəlki ayəni nəsx etmişdir". Odur ki Peyğəmbər ﷺ Məkkədə onlarla döyüşdü, həmçinin orada onlara aclıq və bəla üz verdi". İbn Abbas ؓ demişdir: "Uca Allah əvvəl: "**Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir**" – deyə buyurmuş, sonra müşrikləri buradan istisna edərək "**Onlar (müşriklər) möminləri Məscidul-Harama buraxmadıqlarına görə Allah nə üçün onlara əzab verməsin?**" – deyə buyurmuşdur".[1]

Uca Allah buyurur: "**Onlar (müşriklər) möminləri Məscidul-Harama buraxmadıqlarına görə Allah nə üçün onlara əzab verməsin? Halbuki, onlar özləri ora (Məscidul-Harama) layiq deyillər, ora layiq olanlar yalnız müttəqilərdir. Lakin onların çoxu bunu bilmir**", yəni onlar möminlərə Məkkədə yerləşən Məscidul-Harama girməyə mane olduqları halda Allah onlara necə əzab verməsin? Məscidul-Harama layiq olan möminləri orada namaz qılmağa, Kəbəni təvaf etməyə buraxmadıqları halda Allah onlara necə əzab verməsin? Bu səbəbdən Uca Allah "**Halbuki, onlar özləri ora (Məscidul-Harama) layiq deyillər, ora layiq olanlar yalnız müttəqilərdir**" – deyə buyurur. Yəni onlar Məscidul-Harama layiq deyillər, ora layiq olanlar yalnız Peyğəmbər ﷺ və onun səhabələridir. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Müşriklər küfr etdiklərini bildikləri halda onlara Allahın məscidlərini abadlaşdırmaq yaramaz. Onların əməlləri puça çıxmışdır. Onlar Odda əbədi qalacaqlar. Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolla gedənlərdən olsunlar**" ("ət-Tövbə", 17-18); "**Lakin insanları Allah yolundan sapdırmaq, Ona küfr etmək, müsəlmanları Məscidul-Harama buraxmamaq və onun sakinlərini oradan çıxartmaq Allah yanında daha böyük günahdır**" ("əl-Bəqərə", 217).

əl-Hakim ؒ İsmail ibn Ubeyd ibn Rifəadan, o da atasından, o da İsmailin babasından (Rifəadan) rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ qureyşliləri bir yerə yığdı və "Aranızda sizdən olmayan bir kəs varmı?" – deyə soruşdu. Onlar "Aramızda bacımız oğulları, müttəfiqlərimiz və azad etdiyimiz kölələr var" – dedilər. Peyğəmbər ﷺ dedi: "Müttəfiqlərimiz

[1] İbn Əbu Hatim, 9029.

bizdəndir, bacımız oğulları bizdəndir, azad etdiyimiz kölələr bizdəndir. Sizdən yalnız müttəqilər mənim dostlarımdır". əl-Hakim ﷺ sonra demişdir: "Hədis səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər".[1] əs-Suddi ﷺ Uca Allahın "...**ora layiq olanlar yalnız müttəqilərdir**" ayəsi barədə demişdir: "Onlar Muhəmməd və onun səhabələridir".[2] Mucahid ﷺ isə demişdir: "Onlar kimliyindən və harada olmağından asılı olmayaraq Allah yolunda cihad edənlərdir".[3]

Sonra Uca Allah onların Məscidul-Haramın yanında etdikləri əsas əməllərini, Məscidul-Harama göstərdikləri münasibəti zikr edərək buyurur: "**Onların müqəddəs Evin yanındakı ibadətləri fit vermək və əl çalmaqdan başqa bir şey deyil**". İbn Abbas, Mucahid, İkrimə və başqaları ayədə keçən مُكَاءً [mukə:un] sözünün "fit çalmaq" mənasında olduğunu demişlər. Mucahid ﷺ əlavə olaraq demişdir: "Onlar barmaqlarını ağızlarına salıb fit çalırdılar".[4] əs-Suddi ﷺ demişdir: "Ayədə keçən مُكَاءً [mukə:un] sözünün mənası Hicaz ərazisində olan və "Mukə" adlanan ağ bir quş kimi fit çalmaq deməkdir".[5] İbn Abbas ﷺ Uca Allahın "**Onların müqəddəs Evin yanındakı ibadətləri fit vermək və əl çalmaqdan başqa bir şey deyil**" ayəsi barədə belə demişdir: "Qureyş Kəbəni çılpaq təvaf edər, fit verər və əl çalardılar. Ayədə keçən مُكَاءً [mukə:un] sözü "fit çalmaq", تَصْدِيَةً [təsdiyə] sözü isə "əl çalmaq" deməkdir".[6] İbn Ömər, Mucahid, Qatədə və başqalarından da oxşar təfsir rəvayət edilmişdir. Həmçinin İbn Ömər ﷺ demişdir: "Onlar yanaqlarını yerə qoyar, əl çalıb fit verərədilər".[7] Mucahid ﷺ demişdir: "Onlar bunu Peyğəmbəri ﷺ namazda çaşdırmaq üçün edərdilər". əz-Zuhri ﷺ demişdir: "Onlar bu hərəkətləri ilə möminləri lağa qoyardılar".[8]

Uca Allah buyurur: "**Küfr etdiyinizə görə dadın əzabı!**". əd-Dahhək ﷺ demişdir: "Bu əzab onların Bədr döyüşü günü möminlər tərəfindən qətlə yetirilmələri və əsir alınmalarıdır". İbn Cərir ﷺ də bu təfsiri seçmiş və bu ayənin təfsirində başqa bir rəy rəvayət etməmişdir.[9]

---

[1] əl-Hakim, 2/328, 3266; əl-Buxari "Ədəbul-Mufrad" 75. Hədis həsəndir. Bax: Səhih Ədəbul-Mufrad, 55.
[2] ət-Tabəri, 16018, 16096.
[3] ət-Tabəri, 16019, 16097.
[4] İbn Əbu Hatim, 9042; ət-Tabəri, 16037, 16115.
[5] İbn Əbu Hatim, 9041; ət-Tabəri, 16047, 16125.
[6] İbn Əbu Hatim, 9045.
[7] İbn Əbu Hatim, 9045.
[8] İbn Əbu Hatim, 9047.
[9] ət-Tabəri, 16587, 16664.

﴿إِنَّ ٱلَّذِينَ كَفَرُواْ يُنفِقُونَ أَمْوَٰلَهُمْ لِيَصُدُّواْ عَن سَبِيلِ ٱللَّهِۚ فَسَيُنفِقُونَهَا ثُمَّ تَكُونُ عَلَيْهِمْ حَسْرَةً ثُمَّ
يُغْلَبُونَۗ وَٱلَّذِينَ كَفَرُوٓاْ إِلَىٰ جَهَنَّمَ يُحْشَرُونَ ﴿٣٦﴾ لِيَمِيزَ ٱللَّهُ ٱلْخَبِيثَ مِنَ ٱلطَّيِّبِ وَيَجْعَلَ ٱلْخَبِيثَ
بَعْضَهُۥ عَلَىٰ بَعْضٍ فَيَرْكُمَهُۥ جَمِيعًا فَيَجْعَلَهُۥ فِي جَهَنَّمَۚ أُوْلَٰٓئِكَ هُمُ ٱلْخَٰسِرُونَ ﴿٣٧﴾﴾

**36. Şübhəsiz ki, kafir olanlar insanları Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər. Onlar onu sərf edəcək, sonra bunun peşmançılığını çəkəcək, daha sonra isə məğlub ediləcəklər. Kafir olanlar Cəhənnəmə toplanılacaqlar ki,**

**37. Allah murdarı pakdan ayırsın, murdarları bir-birinin üstünə qoyub bir yerə yığsın və onları Cəhənnəmdə yerləşdirsin. Ziyana uğrayanlar da məhz onlardır.**

Muhəmməd ibn İshaq ﷺ demişdir: "əz-Zuhri, Muhəmməd ibn Yəhya ibn Hibban, Asim ibn Ömər ibn Qatədə və əl-Husayn ibn Abdur-Rahmən ibn Amr ibn Sad ibn Muaz mənə rəvayət etmişlər ki, Qureyş müşrikləri Bədr döyüşü günü məğlubiyyətə uğradıqdan sonra sağ qalanlar Məkkəyə döndü. Əbu Süfyan da öz karvanı ilə qayıtdıqdan sonra Abdullah ibn Əbu Rabia, İkrimə ibn Əbu Cəhl və Safvan ibn Umeyyə Bədrdə ataları, oğulları və qardaşları öldürülmüş qureyşlilərin yanına gəldilər. Onlar Əbu Süfyan ibn Hərb və bu karvanda ticarət malı olan qureyşlilərlə danışaraq "Ey Qureyş camaatı, Muhəmməd sizin heysiyyətinizə toxunub ən şərəflilərinizi öldürdü. Bu mal ilə ona qarşı döyüşməyimiz üçün bizə yardım edin. Bəlkə bizdən öldürülənlərin intiqamını ondan aldıq" – dedilər və belə də etdilər. İbn Abbasdan ﷺ nəql edildiyinə görə Uca Allah onlar barədə "**Şübhəsiz ki, kafir olanlar insanları Allah yolundan sapdırmaq üçün öz mallarını sərf edirlər**" ayəsini "**Kafir olanlar Cəhənnəmə toplanılacaqlar**" hissəsinə qədər nazil etdi.[1] Mucahid, Qatədə, əs-Suddi və başqalarından rəvayət edildiyinə görə bu ayə Əbu Süfyanın Uhud döyüşündə Peyğəmbərə ﷺ qarşı döyüşmək üçün malını sərf etməsi barədə nazil olmuşdur. əd-Dahhək ﷺ isə bu ayənin Bədr döyüşündə iştirak edənlər barədə nazil olduğunu demişdir.

Hər bir halda, ayənin nazilolma səbəbi xüsusi olsa da, mənası ümumidir. Uca Allah bildirir ki, kafirlər öz mallarını insanları haqq yoluna tabe olmaqdan yayındırmaq üçün xərcləyirlər. Onlar mallarını sərf edəcəklər, lakin "**sonra bunun peşmançılığını çəkəcəklər**", yəni malları onlara

[1] İbn Əbu Hatim, 9055; ət-Təbəri, 16063, 16141. Ali-Nasr zəif olduğunu bildirmişdir.

heç bir fayda verməyəcəyi üçün içləri yanacaq, peşman olacaqlar. Çünki onlar Allahın nurunu söndürmək, öz sözləri ilə haqq sözə qalib gəlmək istəmişlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayacaq, dininə yardım edəcək, Öz tövhid (lə iləhə illəllah) kəlməsini ucaldacaq, dinini bütün dinlərdən üstün edəcək. Bu onların dünyadakı rüsvayçılıqlarıdır, Axirətdə isə onları Cəhənnəm əzabı gözləyir. Onlardan sağ qalan onu üzəcək şeyləri gözləri ilə görəcək, qulağı ilə eşidəcək, öldürülən və ya ölən isə əbədi rüsvayçılığa və əzaba düçar olacaq. Bu səbəbdən Uca Allah “**Onlar onu sərf edəcək, sonra bunun peşmançılığını çəkəcək, daha sonra isə məğlub ediləcəklər. Kafir olanlar Cəhənnəmə toplanılacaqlar**” – deyə buyurur.

Uca Allah buyurur: “**Allah murdarı pakdan ayırsın**”. İbn Abbas ﵄ bu ayə barədə demişdir: “Yəni xoşbəxt olanları bədbəxt olanlardan ayırsın”.[1] əs-Suddi ﵀ demişdir: “Yəni mömini kafirdən ayırsın”.[2] Ola bilsin, bu ayırma axirətdə olsun. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: “**O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: “Siz də, şərikləriniz də öz yerinizdə qalın!” – deyəcəyik. Biz onları ayıracağıq**” (“Yunus”, 28); “**Məhz Qiyamət saatının gələcəyi gün möminlərlə kafirlər ayrılacaqlar**” (“ər-Rum”, 14); “**O gün onlar iki dəstəyə bölünəcəklər**” (“ər-Rum”, 43); “**Bu gün möminlərdən ayrılın, ey günahkarlar!**” (“Yasin”, 59).

Ola da bilsin, bu ayırma dünyada onların əməllərini möminlərə göstərməklə olsun. Bu təqdirdə ayənin əvvəlində keçən لِ “ləm” ədatı səbəb bildirmiş olur və kafirlərin Allah yolundan sapdırmaq üçün öz mallarını sərf etmələrinin səbəbini açıqlayır. Yəni biz onları ona görə buna qadir etdik ki, “**Allah murdarı pakdan ayırsın**”. Yəni kimin Allaha itaət edib Onun düşməni olan kafirlərlə döyüşəcəyini, kimin isə bundan üz çevirib Ona asi olacağını ayırd edək. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: “**Uhudda iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Münafiqlərə “Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa, müdafiədə durun!” deyildi. Onlar: “Döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik” – dedilər**” (“Ali-İmran”, 166-167). Həmçinin buyurur: “**Allah möminləri sizin hazırda olduğunuz vəziyyətdə tərk edən deyil, sonda murdarı təmizdən ayıracaqdır. Allah sizə qeybi də bildirən deyildir**” (“Ali-İmran”, 179); “**Yoxsa Allah içərinizdən cihad edənləri və səbir edənləri bəlli etmədən Cənnətə daxil**

[1] İbn Əbu Hatim, 4562.
[2] İbn Əbu Hatim, 9061.

**olacağınızımı güman edirsiniz?!**" ("Ali-İmran", 142). Oxşar ayələr "ət-Tövbə" surəsində də vardır. Buna görə ayənin mənası belə olacaq: "Sizi sizə qarşı döyüşən kafirlərlə imtahan etməyimiz, onlara bu yolda mallarını sərf etmək imkanı verməyimiz ona görədir ki, "**Allah murdarı pakdan ayırsın, murdarları bir-birinin üstünə qoyub bir yerə yığsın**", yəni üst-üstə qoyub bir yerə toplasın "**və onları Cəhənnəmdə yerləşdirsin. Ziyana uğrayanlar da məhz onlardır**", yəni dünya və axirətdə xəsarətə uğrayanlar məhz onlardır.

﴿قُل لِّلَّذِينَ كَفَرُوٓاْ إِن يَنتَهُواْ يُغۡفَرۡ لَهُم مَّا قَدۡ سَلَفَ وَإِن يَعُودُواْ فَقَدۡ مَضَتۡ سُنَّتُ ٱلۡأَوَّلِينَ ٣٨
وَقَٰتِلُوهُمۡ حَتَّىٰ لَا تَكُونَ فِتۡنَةٞ وَيَكُونَ ٱلدِّينُ كُلُّهُۥ لِلَّهِۚ فَإِنِ ٱنتَهَوۡاْ فَإِنَّ ٱللَّهَ بِمَا يَعۡمَلُونَ
بَصِيرٞ ٣٩ وَإِن تَوَلَّوۡاْ فَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ مَوۡلَىٰكُمۡۚ نِعۡمَ ٱلۡمَوۡلَىٰ وَنِعۡمَ ٱلنَّصِيرُ ٤٠﴾

**38. Kafir olanlara de ki, əgər küfrə son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər küfrə qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər.**

**39. Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun! Əgər son qoysalar, bilsinlər ki, Allah onların etdiklərini görür.**

**40. Əgər onlar üz döndərsələr, bilin ki, Allah sizin Himayədarınızdır. O, nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!**

Uca Allah elçisi Muhəmmədə ﷺ xitab edərək buyurur: "**Kafir olanlara de ki, əgər küfrə son qoysalar**", yəni əgər düşdükləri küfrdən, möminlərə qarşı düşmənçilikdən və inadkarlıqdan imtina edib İslamı qəbul etsələr, Allaha itaət edib Ona tərəf dönsələr, keçmiş küfrləri, günahları və səhvləri onlara bağışlanacaq. "Səhih" əsərində İbn Məsuddan ؓ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə buyurur: "Kim səmimi olaraq ixlasla İslama daxil olarsa, cahiliyyə dövründə etdiyi əməllərə görə cəzalandırılmaz. İslama qəlbən daxil olmayan kəsə (münafiqə) gəldikdə isə o, həm keçmiş, həm də gələcək günahlarına görə cəzalandırılar".[1] Yenə "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İslam özündən əvvəl edilən günahları silər, habelə, tövbə özündən əvvəl edilən günahları silər".[2]

[1] əl-Buxari, 6410, 6921; Muslim, 172, 334.
[2] Əhməd (4/198).

Uca Allah buyurur: “**Yox, əgər küfrə qayıtsalar**”, yəni olduqları vəziyyətdə qalmağa davam etsələr, “**əvvəlkilərin başına gələn aqibəti gözləsinlər**”, yəni öncə gəlib-gedənlər haqqında Allahın qayda-qanunu belə olmuşdur ki, onlardan haqqı yalan sayıb inadkarlıq göstərənlərin əzabı və cəzası tezləşər. Ayədə “**əvvəlkilərin başına gələn aqibəti**” dedikdə, Bədr döyüşü günü Qureyş müşriklərinin başına gələnlər və digər ümmətlərin aqibəti nəzərdə tutulur. əs-Suddi və Muhəmməd ibn İshaq ﵏ demişlər: “Yəni Bədr döyüşü günü olanlar”.

Uca Allah buyurur: “**Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun!**” əl-Buxari ﵀ İbn Ömərdən ﵄ rəvayət etmişdir ki, bir kişi onun yanına gəlib[1] dedi: “Ey Əbu Abdur-Rahmən, Uca Allahın Öz Kitabında “**Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək, vuruşun**” (“əl-Hucurat”, 9) buyurduğunu eşitməmisən? Uca Allah Kitabında zikr etdiyi kimi, sənə döyüşməyə mane olan nədir?” İbn Ömər ﵄ dedi: “Ey qardaşoğlu, mənə, dediyin ayəyə əməl etməyib döyüşməkdən imtina etməyimə görə qınanmağım, Uca Allahın “**Kim bir mömini qəsdən öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəm olar. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar**” (“ən-Nisa”, 93) ayəsinə əməl etməyib döyüşdüyümə görə qınanmaqdan daha sevimlidir”. Kişi dedi: “Uca Allah “**Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun!**” – deyə buyurur”. İbn Ömər ﵄ dedi: “Biz Peyğəmbərin ﷺ dövründə vuruşduq. O zaman müsəlmanlar az idi, müsəlman dinində fitnəyə düşürdü, ya onu öldürər, ya da tutub bağlayardılar. Nəhayət, müsəlmanlar çoxaldı və artıq fitnə qalmadı”. Kişi İbn Ömərin ﵄ onunla razılaşmayacağını gördükdə “Əli və Osman barədə nə deyə bilərsən?” – deyə soruşdu. İbn Ömər ﵄ dedi: “Əli və Osman haqqında nə deyim? Osmana gəlincə, Allah onu bağışlamışdır, lakin siz, Allahın onu bağışlamasını istəmirsiniz. Əliyə gəlincə isə, o, Allah Elçisinin ﷺ əmisi oğlu və kürəkənidir”. İbn Ömər ﵄ əli ilə (Fatimənin evinə) işarə edərək dedi: “Bu da onun qızıdır, siz onu görürsünüz”.[2]

əl-Buxari ﵀ rəvayət etmişdir ki, bir dəfə Abdullah ibn Ömərdən ﵄ soruşdular: “Fitnəni aradan qaldırmaq üçün döyüşmək barədə nə deyə bilərsən?” İbn Ömər ﵄ dedi: “Sən heç fitnənin nə olduğunu bilirsən?! Muhəmməd ﷺ fitnəni aradan qaldırmaq üçün müşriklərlə döyüşdü, çünki

[1] Bu hadisə Abdullah ibn əz-Zubeyrin ﵄ fitnəsi zamanında baş vermişdir.

[2] əl-Buxari, 4283, 4650.

o vaxt müşriklərlə bir yerdə yaşamaq fitnə idi. Daha sizin kimi hakimiyyət uğrunda döyüşmək fitnəni aradan qaldırmaq üçün döyüşmək deyil".[1]

İbn Abbas ﷺ Uca Allahın "**Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun!**" ayəsi barədə demişdir: "Yəni şirk aradan qalxana qədər onlarla vuruşun". Mucahid, əl-Həsən, Qatədə və əs-Suddi ﷺ də belə demişlər.[2] Urvə ibn əz-Zubeyr və digər alimlərimiz demişlər: "Yəni onlarla o vaxta qədər vuruşun ki, artıq müsəlman öz dinində fitnəyə düşməyəcək".

Uca Allah buyurur: "...**və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun!**" İbn Abbas ﷺ demişdir: "Yəni ibadətlər xalis Allah üçün olana qədər onlarla vuruşun". əl-Həsən və Qatədə ﷺ demişlər: "Yəni "Lə iləhə İlləllah" (Allahdan başqa ibadətə layiq məbud yoxdur) deyilənə qədər onlarla vuruşun". İbn İshaq ﷺ demişdir: "İbadətlər xalis Allah üçün olub, şirk qalmayana və Allahdan başqa ibadət olunanlar tərk edilməyənə qədər onlarla vuruşun". Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ Uca Allahın "...**və din tamamilə yalnız Allaha həsr edilənədək...**" ayəsini "Sizin dininizlə yanaşı, küfr qalmayanadək" şəklində təfsir etmişdir. Peyğəmbərin ﷺ əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan bu sözü bunu təsdiqləyir: "İnsanlar "Lə iləhə İlləllah" (Allahdan başqa ibadətə ibadətə layiq məbud yoxdur) deyənə qədər onlarla vuruşmaq mənə əmr edildi. Əgər (aşkarda) bunu desələr, İslam haqqı (cinayətə görə veriləcək cəza) istisna olmaqla, canlarını və mallarını məndən qorumuş olarlar. Onların (gizli əməllərinin) haqq-hesabı isə Allaha aiddir".[3]

Yenə əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın Elçisi! Allah yolunda vuruşmaq nə deməkdir? Axı bizdən kimisi şücaətinə görə, kimisi namusuna görə, kimisi də riyakarlıqdan vuruşur. Bunlardan hansı Allah yolunda vuruşmaq sayılır?" Peyğəmbər ﷺ buyurdu: "Hər kim Allahın Kəlməsi hər şeydən uca olsun deyə vuruşarsa, Allah yolunda vuruşmuş olar".[4]

Uca Allah buyurur: "**Əgər son qoysalar...**", yəni küfrlərinə və sizə qarşı vuruşmağa son qoysalar və bundan imtina etsələr, siz onların qəlblərində olanları bilməsəniz də, "...**bilsinlər ki, Allah onların etdiklərini görür**". Necə ki başqa ayədə belə buyurur: "**Əgər tövbə etsələr, namaz qılıb**

[1] əl-Buxari, 4284, 4651.
[2] ət-Tabəri, 3135, 16076, 16154.
[3] əl-Buxari, 1312, 1399, 2727, 2946; Muslim, 133-134.
[4] əl-Buxari, 2599, 2810; Muslim, 3525, 5029.

**zəkat versələr, onları sərbəst buraxın**" ("ət-Tövbə", 5); Başqa bir ayədə isə belə buyurur: "**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır**" ("ət-Tövbə", 11); "**Fitnə aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək onlara qarşı vuruşun! Əgər bu savaşa son qoysalar, bilin ki, düşmənçilik ancaq zalımlara qarşı olur**" ("əl-Bəqərə", 193). "Səhih" əsərində rəvayət olunur ki, bir dəfə Usamə ؓ döyüş zamanı bir kafiri vurmaq üçün qılıncını qaldırdıqda, o "Lə iləhə İlləllah" – dedi, lakin buna rəğmən Usamə ؓ onu vurub öldürdü. Peyğəmbərə ﷺ bu barədə xəbər verdikdə, Peyğəmbər ﷺ Usaməyə dedi: "Lə iləhə İlləllah" dedikdən sonra onu öldürdünmü? Qiyamət günü "Lə iləhə İlləllah" sözü ilə gəlsə, nə edəcəksən?" Usamə dedi: "Ey Allahın Elçisi, o bunu ancaq qorunmaq üçün dedi". Peyğəmbər ﷺ: "Məgər onun qəlbini yarıb baxmışdın?" – deyə cavab verdi və dəfələrlə: "Qiyamət günü o, "Lə iləhə İlləllah" sözü ilə gəlsə, nə edəcəksən?" – dedi. Usamə deyirdi: "Peyğəmbər ﷺ bunu o qədər təkrar etdi ki, mən həmin günədək müsəlman olduğuma peşman oldum".[1]

Uca Allah buyurur: "**Əgər onlar üz döndərsələr, bilin ki, Allah sizin Himayədarınızdır. O, nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!**" Yəni əgər sizə qarşı çıxmağa və döyüşməyə davam etsələr, "**bilin ki, Allah sizin Himayədarınızdır**", yəni sizin sahibinizdir, düşmənlərinizə qarşı sizə yardım edəndir. "**O, nə gözəl Himayədar, nə gözəl Yardımçıdır!**"

﴿۞ وَٱعۡلَمُوٓاْ أَنَّمَا غَنِمۡتُم مِّن شَيۡءٖ فَأَنَّ لِلَّهِ خُمُسَهُۥ وَلِلرَّسُولِ وَلِذِي ٱلۡقُرۡبَىٰ وَٱلۡيَتَٰمَىٰ وَٱلۡمَسَٰكِينِ وَٱبۡنِ
ٱلسَّبِيلِ إِن كُنتُمۡ ءَامَنتُم بِٱللَّهِ وَمَآ أَنزَلۡنَا عَلَىٰ عَبۡدِنَا يَوۡمَ ٱلۡفُرۡقَانِ يَوۡمَ ٱلۡتَقَى ٱلۡجَمۡعَانِۗ وَٱللَّهُ عَلَىٰ كُلِّ
شَيۡءٖ قَدِيرٌ ٤١﴾

**41. Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir.**

Uca Allah bu ayədə keçmiş ümmətlər arasından yalnız bu şərəfli ümmətə halal edilmiş qənimətləri təfsilatı ilə bəyan edir. الْغَنِيمَةُ [əl-Ğani:mə] "qənimət" – döyüş yoluyla kafirlərdən əldə edilən mallardır. الْفَيْءُ [əl-Fey]

[1] əl-Buxari, 3935, 4269; Muslim, 96/159, 141, 288.

isə – kafirlərdən döyüşsüz alınan mallardır.[1] Müqavilə yolu ilə alınan mallar, varis qoymadan ölən kafirlərin malları, cizyə, xərac və buna bənzər vergilərlə alınan mallar da "fey"ə daxildir. Bu rəy İmam əş-Şafiinin və bir çox alimlərin fikridir. Bəzi alimlər isə "fey" dedikdə "qənimətin", "qənimət" dedikdə isə "fey"in nəzərdə tutulduğunu demişlər.

Uca Allah buyurur: "**Bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, ...məxsusdur**". Bu ayə iynədən sapa qədər, az və çox olan hər şeyin beş yerə bölünməsinin vacib olduğunu qəti şəkildə bildirir. Necə ki başqa bir ayədə belə buyurur: "**Əmanətə xəyanət edən kimsə Qiyamət günü xəyanət etdiyi şeylə gələr. Sonra isə hər kəsə əməllərinin əvəzi tam verilər və onlara zülm edilməz**" ("Ali-İmran", 161).

Uca Allah buyurur: "**Beşdə biri Allaha, Onun Elçisinə, ...məxsusdur**". Təfsir alimləri burada ixtilaf etmişlər. Bəziləri qənimətin beşdə birinin Allaha məxsus olduğunu və bu payın Kəbə üçün ayrıldığını demişlər, bəziləri isə cümlənin bərəkət diləmək məqsədilə Allahın adı ilə başlandığını demişlər. Allahın payı Peyğəmbərə ﷺ verilir.

İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ döyüşə dəstə göndərdikdə və onlar qənimətlə qayıtdıqda qəniməti beş yerə bölərdi, bir hissəsini də ayədə zikr edildiyi kimi beş qrup insana verərdi. Sonra İbn Abbas رضي الله عنهما Uca Allahın "**Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir**" ayəsini oxudu. "**Beşdə biri Allaha... məxsusdur**" qisminə gəlincə, bu, cümlənin başlanğıcıdır. Göylərdə və yerdə olanların hamısı Allahındır. Beləcə, Allahın payı ilə Peyğəmbərin ﷺ payı bir edilmişdir".[2] İmam əl-Beyhəqinin رحمه الله səhih isnadla Abdullah ibn Şəqiqdən, onun da bir kişidən rəvayət etdiyi hədis bu rəyi qüvvətləndirir. Hədisdə kişi belə demişdir: "Peyğəmbər ﷺ "Vadi əl-Qura" adlanan yerdə bir ata baxıb onu nəzərdən keçirərkən yanına gəlib soruşdum: "Ey Allahın Elçisi, qənimətin bölgüsü barədə nə deyə bilərsən?" Peyğəmbər ﷺ dedi:

[1] "əl-Həşr" surəsinin 7-ci ayəsində məhz bu növ qənimət nəzərdə tutulur. Uca Allah buyurur: "**Allahın Öz rəsuluna şəhərlərin əhalisindən verdiyi qənimətlər Allaha, Peyğəmbərə, onun əqrəbasına, yetimlərə, yoxsullara və müsafirlərə məxsus edilmişdir ki, o mallar aranızdakı zənginlərin var-dövləti olub qalmasın. Allahın rəsulu sizə nəyi əmr edirsə, onu yerinə yetirin, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir**" ("əl-Həşr", 7).

[2] ət-Təbəri, 16095, 16172.

“Beşdə biri Allaha məxsusdur, beşdə dördü isə ordunundur”. Mən soruşdum: “Bu bölgüdə kimsə kimsədən üstün və daha çox haqq sahibi deyilmi?” Peyğəmbər ﷺ dedi: “Xeyr, sənin öz qabından çıxartdığın bir ox olsa belə, sən ona müsəlman qardaşından daha çox haqq sahibi deyilsən”.[1]

İbn Cərir ﵀ əl-Həsəndən rəvayət etmişdir ki, Əbu Bəkr ﵁ malının beşdə birinin kasıblara sədəqə verilməsini vəsiyyət etdi və dedi: “Allahın Özünə məxsus etdiyi və kasıblara verilməsini istədiyi payı, mən nə üçün öz malımdan ayırmayım?!”[2]

Əta ﵀ demişdir: “Allaha və Peyğəmbərə ﷺ məxsus olan beşdə bir eynidir. Peyğəmbər ﷺ onu götürər və istədiyi kimi sərf edərdi”.[3] Bu rəy daha ümumidir. Peyğəmbər ﷺ Allahın ona ayırdığı qənimətin beşdə birini istədiyi kimi sərf edər və bu paydan ümmətinin mənafeyi üçün istədiyi qədər işlədərdi.

İmam Əhməd ﵀ Miqdəd ibn Mədikərib əl-Kindidən ﵁ rəvayət etmişdir ki, bir dəfə o, Ubadə ibn əs-Samit, Əbu əd-Dərdə və əl-Həris ibn Muaviyə əl-Kindinin yanında oturmuşdu. Onlar Peyğəmbərdən ﷺ hədislər rəvayət edirdilər. Əbu əd-Dərdə Ubadəyə dedi: “Ey Ubadə, filan-filan döyüşdə qənimətin beş yerə bölünməsi barədə Peyğəmbərin ﷺ nə dediyini xatırlayırsanmı?” Ubadə dedi: “Bir dəfə Peyğəmbər ﷺ döyüşlərin birində səhabələri ilə birlikdə qənimətdən əldə olunmuş dəvəyə tərəf namaz qıldı. Salam verib namazı bitirdikdən sonra qalxdı və barmaqlarının ucunda bir ip parçası götürüb dedi: “Bu ip parçası sizin əldə etdiyiniz qənimətdəndir. Sizin kimi mənə də bu qənimətdən yalnız beşdə biri çatacaq. Bu beşdə bir pay yenidən sizə qayıdacaq. Odur ki əldə etdiyiniz ipi də, iynəni də, bundan daha kiçik və ya daha böyük nə varsa, hamısını təhvil verin və xəyanət etməyin. Çünki xəyanət öz sahibi üçün dünya və axirətdə ar və oddur. Qohum və ya yad olmasından asılı olmayaraq, Allah yolunda insanlarla cihad edin və tənə edənin tənəsinə fikir verməyin. Səfərdə olsanız da, olmasanız da Allahın qoyduğu hüdudları yerinə yetirin. Həqiqətən, cihad Cənnətin əzəmətli qapılarından biridir. Uca Allah onun vasitəsilə ümməti kədərdən və sıxıntıdan qurtarar”. Bu, gözəl və əzəmətli bir hədisdir.[4]

Peyğəmbər ﷺ qənimətdən (ona düşən paydan əlavə) özünə kölə bir kişi və ya qadın, bir at, bir qılınc, ya da bunlara bənzər bir şey götürərdi və onun buna haqqı da vardı. Bu rəyi Muhəmməd ibn Sirin və Amir

[1] əl-Beyhəqi “Sunənul-Kubra” 12641, 13241, 18471.
[2] ət-Tabəri, 16099, 16176.
[3] ət-Tabəri, 16100, 16177.
[4] Əhməd, 22776, 22828, 23157. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1972.

əş-Şabi رحمه الله bildirmiş, alimlərin əksəriyyəti də bu məsələdə onlara tabe olmuşlar. İmam Əhməd və ət-Tirmizi رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişlər ki, Peyğəmbər ﷺ Bədr döyüşü günü Zülfüqar[1] adlı qılıncını qənimətdən ona düşən paydan əlavə olaraq götürmüşdü. Uhud döyüşü günü yuxuda gördüyü[2] qılınc da budur.[3] ət-Tirmizi رحمه الله hədisin həsən olduğunu bildirmişdir.

Rəvayət olunur ki, Aişə رضي الله عنها belə demişdir: "Safiyyə, Peyğəmbərin ﷺ Xeybər döyüşündə əldə olunan qənimətdən özünə götürdüyü kəniz idi". Hədisi Əbu Davud رحمه الله rəvayət etmişdir.[4]

Həmçinin Əbu Davud və ən-Nəsəi رحمه الله rəvayət etmişlər ki, Yəzid ibn Abdullah demişdir: "Mirbəd" adlanan yerdəykən əlində dəri parçası olan bir kişi içəri daxil oldu. Biz bu dəri parçasının üzərində yazılanları oxuduq. Orada belə yazılmışdı: "Allahın Elçisi Muhəmmməddən Zuheyr ibn Uqqeyş qəbiləsinə: "Əgər siz, Allahdan başqa ibadətə layiq məbudun olmadığına, Muhəmmədin Allahın elçisi olduğuna şahidlik etsəniz, namaz qılıb zəkat versəniz, əldə etdiyiniz qənimətin beşdə birini, Peyğəmbərin payını və bu paydan əlavə ona düşəni versəniz, siz, Allah və Onun Elçisinin əmin-amanlığı altındasınız". Biz soruşduq: "Bunu sənə kim yazıb?" Kişi "Peyğəmbər ﷺ yazmışdır" – deyə cavab verdi".[5] Bütün bu hədislər bunun sabit olduğuna dəlalət edir. Odur ki, bir çox alimlər bunun (beşdə birdən əlavə götürməyin) Peyğəmbərə ﷺ xas olduğunu qəbul etmişlər. Ona və ailəsinə Allahın salavatı və salamı olsun!

---

[1] "Zülfüqar" sözünün mənası "dəlikli" deməkdir. Bu qılıncın üstü kiçik dəliklərlə bəzədilmiş olduğu üçün belə adlandırılmışdır.

[2] İmam Əhməd رحمه الله hədisi başqa bir rəvayətdə daha geniş şəkildə nəql etmiş və Peyğəmbərin ﷺ gördüyü yuxunu bildirmişdir. İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ "Zülfüqar" adlı qılıncını Bədr döyüşü günü qənimətdən ona düşən paydan əlavə olaraq götürmüşdü. Uhud döyüşü günü bu qılıncla əlaqəli bir yuxu görmüşdü. Peyğəmbər ﷺ demişdir: "Yuxumda "Zülfüqar" adlı qılıncımda sınıq olduğunu gördüm və bunu sizin aranızda parçalanma olacağına yozdum. Yuxuda bir qoçu tərkimə aldığımı gördüm və bunu qarşılaşacağımız böyük bir ordunun başçısına yozdum. Yuxuda möhkəm bir qalxanla qorunduğumu gördüm və bunu Mədinə şəhərinə yozdum. Həmçinin bir inəyin kəsildiyini gördüm. Allaha and olsun ki, bu xeyirdir, Allaha and olsun ki, inəyin kəsilməsi xeyirdir". Peyğəmbərin ﷺ dediyi kimi də oldu". (Əhməd, 2441. Şueyb əl-Arnavut hədisin həsən olduğunu bildirmişdir). Hədisi şərh edən alimlər kəsilən inəyin döyüşdə şəhidlərin olması kimi şərh etmişlər. Peyğəmbər ﷺ: "Allaha and olsun ki, bu xeyirdir" deməklə bu şəhidliyin ölənlər üçün xeyirli olmasını nəzərdə tutmuş, yaxud bundan sonra xeyirli illərin olmasını qəsd etmişdir.

[3] Əhməd, 2445; ət-Tirmizi, 1561, 1653. Hədisin isnadı həsəndir. Bax: Səhih İbn Məcə, 2808.

[4] Əbu Davud, 2994. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən Əbu Davud, 2994.

[5] Əbu Davud, 2999; ən-Nəsəi "Sunən" 4146, 4163. Hədisin isnadı səhihdir. Bax: Silsilə əs-Səhihə, 2857.

Digər alimlər isə belə demişlər: "Kafirlərdən döyüşsüz əldə olunan mal (fey) kimi, qənimətin beşdə biri də imam (dövlət başçısı) tərəfindən müsəlmanların mənafeyi üçün istifadə edilir". Şeyximiz, böyük alim İmam İbn Teymiyyə رحمه الله demişdir: "Bu, Malik və əksər sələf alimlərinin rəyidir və bu, ən doğru görüşdür".

Bu, təsdiq olunub bilindikdən sonra alimlər beşdə birdən Peyğəmbərə ﷺ düşən hissənin ondan sonra hara sərf ediləcəyi barədə ixtilaf etmişlər. Bəzi alimlər bu payın ondan sonrakı xəlifəyə verildiyini demişlər. Bəzi alimlər bu payın müsəlmanların mənafeyi üçün sərf edildiyini demişlər. Bəzi alimlər isə bu payın ayədə qeyd olunan digər qruplara – Peyğəmbərin ﷺ qohumlarına, yetimlərə, kasıblara və müsafirlərə verildiyini demişlər. İbn Cərir رحمه الله də bu rəyi seçmişdir. Digər alimlər isə demişlər: "Peyğəmbərin ﷺ və onun qohumlarının payı yetimlərə, yoxsullara və müsafirlərə verilir".

Beşdə birin hamısının Peyğəmbərin ﷺ qohumlarına verildiyi də deyilmişdir. İnsanlar Peyğəmbərin ﷺ vəfatından sonra bu iki payın (Peyğəmbərə ﷺ və onun qohumlarına düşən payın) hara sərf olunacağı barədə ixtilaf etmişlər. Bəziləri Peyğəmbərin ﷺ payının ondan sonrakı xəlifəyə verildiyini demişlər. Bəziləri isə Peyğəmbərin ﷺ qohumlarının payının xəlifənin qohumlarına verildiyini demişlər. Bir çox alim bu iki payın Allah yolunda döyüşmək üçün at bəsləmək və döyüşə hazırlıq görmək üçün sərf olmasında ittifaq etmişdir. Əbu Bəkr və Ömərin رضي الله عنهما xəlifəlikləri dövründə həmin iki pay məhz bu məqsəd üçün istifadə edilərdi.

Qənimətdən Peyğəmbərin ﷺ qohumlarına düşən paya gəlincə, bu, Bənu Haşim və Bənu Muttalib qəbilələrinə sərf edilir. Çünki Bənu Muttalib qəbiləsi həm cahiliyyə dövründə, həm də İslamı qəbul etdikdən sonra Bənu Haşim qəbiləsinə yardım etmişdir. Onlardan müsəlman olanlar Allaha və Onun Elçisinə ﷺ itaət etdikləri üçün, kafir olanlar isə Peyğəmbərin ﷺ əmisi Əbu Talibə itaət edib qəbilə şərəfini qorumaq üçün Allah Elçisini ﷺ müdafiə etmişlər. Bənu Abduş-şəms və Bənu Nəufəl qəbilələrinə gəlincə, onlar əmiuşaqları olmalarına baxmayaraq, bu işdə onlarla razılaşmamış, onlarla müharibə etmiş və Qureyşi Peyğəmbərə ﷺ qarşı döyüşməyə rəğbətləndirmişlər.

Cubeyr ibn Mutim ibn Adiy رضي الله عنه demişdir: "Bir dəfə mən və Osman ibn Affan Peyğəmbərin ﷺ yanına gedib dedik: "Ey Allahın Elçisi, Xeybərdə əldə olunan qənimətin beşdə birindən Bənu Muttalib qəbiləsinə verdin, lakin bizə vermədin. Halbuki, bizim də, onların da sənə eyni qohumluğumuz çatır". Peyğəmbər ﷺ dedi: "Bənu Haşim və Bənu Muttalib

qəbilələri eynidir”. Hədisi Muslim ﷺ rəvayət etmişdir.[1] Hədisin bəzi rəvayətlərində belə deyilir: “Onlar nə cahiliyyə dövründə, nə də İslamı qəbul etdikdən sonra bizdən ayrılmadılar”.[2] Peyğəmbərin ﷺ beşdə birdən pay alan qohumlarının Bənu Haşim və Bənu Muttalib olması əksər alimlərin fikridir. İbn Cərir ﷺ demişdir: “Bəzi alimlərə görə isə Peyğəmbərin ﷺ beşdə birdən pay alan qohumları yalnız Bənu Haşim qəbiləsidir”. Sonra İbn Cərir ﷺ Mucahidin belə dediyini rəvayət etmişdir: “Uca Allah Bənu Haşim qəbiləsində kasıbların olduğunu bilirdi və zəkat əvəzinə, qənimətin beşdə birini onlara məxsus etdi”. Başqa bir rəvayətdə Mucahid ﷺ belə demişdir: “Çünki Bənu Haşim qəbiləsi Peyğəmbərin ﷺ qohumlarıdır və onlara zəkat halal deyil”.[3]

Uca Allah buyurur: “**...yetimlərə... məxsusdur**”, yəni yetim müsləmanlara məxsusdur. Alimlər ayədə kasıb yetimlərin nəzərdə tutulması, yoxsa ayənin ümumi olub həm varlı, həm də kasıb yetimləri əhatə etməsi barədə ixtilaf etmişlər. Bu məsələdə iki rəy var: “...**kasıblara**”, kasıblar – ehtiyaclarını aradan qaldıracaq bir şey tapa bilməyən ehtiyac sahibləridir, “**və müsafirlərə məxsusdur**”, müsafirlər – yolçular və ya namazın qısaldılacağı bir məsafəyə səfər etmək istəyən və səfər boyu xərcləyəcək bir şeyi olmayan kəslərdir. Bu barədə Allahın izni ilə daha ətraflı “Bəraət” (“ət-Tövbə”) surəsinin zəkat ayəsində (60-cı ayə) məlumat gələcəkdir. Allaha təvəkkül edir və Ona arxalanırıq.

Uca Allah buyurur: “**Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə**”, yəni əgər Allaha, Axirət gününə və Allahın Öz Elçisinə nazil etdiyinə iman gətirmisinizsə, qənimətin beşdə biri barədə sizə fərz etdiyimizə tabe olun. əl-Buxari və Muslimin “Səhih” əsərlərində Abdullah ibn Abbasdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ Abdulqeys qəbiləsinin nümayəndələrinə belə dedi: “Sizə dörd şeyi əmr edirəm və dörd şeyi qadağan edirəm: sizə Allaha iman gətirməyi əmr edirəm”. Sonra Peyğəmbər ﷺ bunu onlara izah edərək soruşdu: “Allaha iman gətirməyin nə olduğunu bilirsinizmi? Allaha iman gətirmək, Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək və əldə etdiyiniz qənimətlərin beşdə birini verməkdir...”. Sonra hədisi sonuna qədər zikr etdi.[4] Hədisdə Peyğəmbər ﷺ qənimətin beşdə birini verməyi imandan saymışdır.

[1] Hədis əl-Buxarinin “Səhih” əsərindədir (2907, 3140). Hədisi Muslimin “Səhih” əsərində tapa bilmədim.

[2] ən-Nəsəi “Sunən” 4068, 4137, 4154. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 1242.

[3] Peyğəmbər ﷺ demişdir: “Həqiqətən, Peyğəmbərin ailəsinə zəkat götürmək yaraşmaz, çünki o, insanların mallarının kiridir”. (Muslim, 1784).

[4] əl-Buxari, 57; Muslim (17/23).

Uca Allah buyurur: “**Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün...**”. Uca Allah bu ayədə diqqəti Bədr döyüşündə haqla batili ayırd etməklə bəndələrinə verdiyi nemətə və lütfə yönəldir. Bu gün “Furqan” adlanır, çünki Uca Allah o gün iman kəlməsini batildən uca etmiş, dinini qalib etmiş, Peyğəmbərinə ﷺ və onun tərəfdarlarına yardım etmişdir. İbn Abbas رضي الله عنهما demişdir: “Bədr döyüşü günü Allah haqla batili ayırd etmişdir”.[1]

Urvə ibn əz-Zubeyr رضي الله عنهما Uca Allahın “**haqla batilin ayırd edildiyi gün**” ayəsi barədə belə demişdir: “Uca Allahın haqla batili ayırd etdiyi gün Bədr döyüşü günüdür. Bu, Peyğəmbərin ﷺ iştirak etdiyi ilk döyüşdür. Müşriklərin başçıları Utbə ibn Rabia idi. Ramazan ayının on doqquzu və ya on yeddisi, cümə günü müsəlmanlarla müşriklər qarşılaşdı. O gün Peyğəmbərin ﷺ səhabələrinin sayı üç yüzdən artıq idi. Müşriklərin sayı isə doqquz yüz-min arası idi. Uca Allah müşrikləri məğlubiyyətə uğratdı. Onlardan yetmişdən çoxu öldürüldü və bir o qədəri də əsir alındı”.[2]

Əli رضي الله عنه demişdir: “Haqla batilin ayırd edildiyi, iki ordunun qarşılaşdığı gecənin səhəri, cümə günü, Ramazan ayının on yeddisi idi”.[3] İslam döyüşlərini təhqiq edən alimlərə və tarixçilərə görə doğru olan rəy də budur.

﴿إِذۡ أَنتُم بِٱلۡعُدۡوَةِ ٱلدُّنۡيَا وَهُم بِٱلۡعُدۡوَةِ ٱلۡقُصۡوَىٰ وَٱلرَّكۡبُ أَسۡفَلَ مِنكُمۡۚ وَلَوۡ تَوَاعَدتُّمۡ لَٱخۡتَلَفۡتُمۡ فِي ٱلۡمِيعَٰدِ وَلَٰكِن لِّيَقۡضِيَ ٱللَّهُ أَمۡرٗا كَانَ مَفۡعُولٗا لِّيَهۡلِكَ مَنۡ هَلَكَ عَنۢ بَيِّنَةٖ وَيَحۡيَىٰ مَنۡ حَيَّ عَنۢ بَيِّنَةٖۗ وَإِنَّ ٱللَّهَ لَسَمِيعٌ عَلِيمٌ ٤٢﴾

**42. O zaman siz vadinin yaxın tərəfində, onlar uzaq tərəfində, karvan isə sizdən aşağıda idi. Əgər siz vədələşsəydiniz, həmin vaxt və yer barəsində ixtilafa düşərdiniz. Lakin Allah olacaq işi həyata keçirmək üçün belə etdi ki, həlak olan açıq-aydın bir dəlillə həlak olsun, sağ qalan da açıq-aydın bir dəlillə sağ qalsın. Həqiqətən, Allah hər şeyi eşidəndir, hər şeyi biləndir.**

Uca Allah haqla batilin ayırd edildiyi “Furqan” günündən (Bədr döyüşü günündən) bəhs edərək buyurur: “**O zaman siz vadinin yaxın tərəfində**”, yəni siz vadinin Mədinəyə yaxın olan aşağı tərəfində idiniz,

[1] ət-Tabəri, 16130, 16207.
[2] ət-Tabəri, 16132, 16209.
[3] ət-Tabəri, 16135, 16213.

"**onlar uzaq tərəfində**", yəni onlar (müşriklər) vadinin Mədinədən uzaq olan tərəfində – Məkkə istiqamətində idilər, "**karvan isə**", yəni Əbu Süfyanın müşaiyət etdiyi üzərində ticarət malı olan karvan isə "**sizdən aşağıda idi**", yəni sizdən daha aşağıda, dənizin sahilində idi. "**Əgər siz vədələşsəydiniz**", yəni əgər siz və müşriklər bir yerdə görüşmək üçün vədələşsəydiniz, "**həmin vaxt və yer barəsində ixtilafa düşərdiniz**".

Abdullah ibn əz-Zubeyr ﷺ atasından rəvayət edərək bu ayə barədə belə demişdir: "Əgər bu qarşılaşma sizinlə onlar arasında əvvəlcədən razılaşdırılsaydı, sonra onların sayının sizdən çox, sizin sayınızın isə onlardan az olması sizə çatsaydı, onlarla qarşılaşmazdınız. "**Lakin Allah olacaq işi həyata keçirmək üçün belə etdi**", yəni Uca Allah Öz qüdrəti ilə bunu sizin tərəfinizdən bir məşvərət olmadan, Öz lütfü sayəsində, İslamı və onun əhlini ucaltmaq, şirki və onun əhlini isə alçaltmaq istəyini həyata keçirmək üçün etdi".[1]

Kəb ibn Malikin ﷺ hədisində deyilir ki, Peyğəmbər ﷺ və müsəlmanlar döyüş üçün yox, Qureyş karvanının yolunu kəsmək üçün çıxmışdılar. Allah da onları vədələşmədikləri bir yerdə düşmənlə üz-üzə gətirdi.[2] İbn Cərir ﷺ Umeyr ibn İshaqdan rəvayət etmişdir ki, Əbu Süfyan Şamdan karvanla gəlirdi. Əbu Cəhl onu Peyğəmbərdən ﷺ və onun səhabələrindən qorumaq üçün yola çıxdı. Bədrdə müsəlmanlarla qarşılaşdılar. Onlar bunların gəlişindən, bunlar isə onların gəlişindən xəbərsiz idilər. Nəhayət, su götürməyə gələnlər quyu başında qarşılaşdılar və iki dəstə bir-birinə hücum etdi.[3]

Muhəmməd ibn İshaq ﷺ demişdir: "Əbu Süfyan karvanını qoruya bildiyini gördükdə Qureyşə xəbər göndərərək dedi: "Artıq Allah sizin karvanınızı, mallarınızı və adamlarınızı xilas etdi. Odur ki, geri qayıdın!" Əbu Cəhl dedi: "Allaha and olsun ki, Bədrə çatmayana qədər geri qayıtmayacağıq. Bədr ərəblərin bazarlarından biridir. Orada üç gün qalacaq, yeyib-içib heyvanlar kəsəcək, şərab içəcək və müğənniləri dinləyəcəyik. Bütün ərəblər bizim gəlişimizdən xəbərdar olacaq və bundan sonra həmişə bizdən qorxacaqlar".[4]

---

[1] ət-Tabəri, 16146, 16224; İbn Əbu Hatim, 9113.
[2] əl-Buxari, 3657, 3951.
[3] ət-Tabəri, 16148,16226.
[4] ət-Tabəri, 16173,16251; əl-Beyhəqi "Dəlailun-Nubuvvə" 3/33. Hədis səhihdir. Bax: Fiqhus-Sira, 223-225.

Muhəmməd ibn İshaq demişdir: "Peyğəmbər ﷺ Bədrə yaxınlaşdıqda məlumat əldə etmək üçün Əli ibn Əbu Talibi, Sad ibn Əbu Vaqqası və Zubeyr ibn əl-Əvvamı bir dəstə səhabə ilə birlikdə kəşfiyyata göndərdi. Onlar Qureyşin su paylayan iki nökərini yaxalayaraq Peyğəmbərin ﷺ yanına gətirdilər. Onlardan biri Bənu Sad ibn əl-As qəbiləsindən, digəri isə Bənu əl-Həccəc qəbiləsindən idi. Peyğəmbər ﷺ bu vaxt namaz qılırdı. Səhabələr onlardan: "Siz kimlərin kölələrisiniz?" – deyə soruşdular. Onlar: "Biz Qureyşin su paylayan nökərləriyik, su gətirmək üçün bizi göndərdilər" – deyə cavab verdilər. Onların dedikləri səhabələrin xoşuna gəlmədi və bu iki nökərin Əbu Süfyan tərəfindən göndərildiyini sanaraq onları döyməyə və sıxışdırmağa başladılar. Onlar da döyülməmək üçün "Bizi Əbu Süfyan göndərdi" – dedilər. Belə dedikdə səhabələr əl saxladılar. Peyğəmbər ﷺ rüku və iki səcdə etdikdən sonra salam verib dedi: "Sizə doğru söylədikdə onları döydünüz, yalan söylədikdə isə buraxdınız. Onlar doğru söylədilər. Allaha and olsun ki, onlar Qureyşin nökərləridir. (Nökərlərə xitab edərək) Mənə Qureyş barədə xəbər verin!" Onlar "Qureyşlilər vadinin uzaq tərəfində gördüyünüz o qum təpəsinin arxasındadırlar" – dedilər. Peyğəmbər ﷺ "Sayları nə qədərdir?" – deyə soruşdu. Onlar "Çoxdurlar" – deyə cavab verdilər. Peyğəmbər ﷺ "Sayları nə qədərdir?" – deyə təkrar soruşdu. Onlar "Bilmirik" – deyə cavab verdilər. Peyğəmbər ﷺ soruşdu: "Hər gün neçə dəvə kəsirlər?" Onlar "Bir gün doqquz, bir gün on" – deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Qureyşlilərin sayı doqquz yüz-min arasıdır". Sonra Peyğəmbər ﷺ onlardan "Aralarında Qureyşin adlı-sanlı insanlarından kimlər var?" – deyə soruşdu. Onlar "Utbə ibn Rabia, Şeybə ibn Rabia, Əbul-Buxtəri ibn Hişam, Həkim ibn Hizam, Nofəl ibn Xuveylid, Haris ibn Amir ibn Nofəl, Tueymə ibn Adiy ibn Nofəl, Nadr ibn Haris, Zəməa ibn əl-Əsvəd, Əbu Cəhl ibn Hişam, Umeyyə ibn Xələf, əl-Həccacın iki oğlu Nubeyh və Munəbbih, Suheyl ibn Amr və Amr ibn Abduvədd" – deyə cavab verdilər. Peyğəmbər ﷺ üzünü insanlara tutub dedi: "Budur, Məkkə özünün ən seçmə insanlarını sizə göndərmişdir".[1]

Muhəmməd ibn İshaq رحمه الله demişdir: "Bədr döyüşü günü müsəlmanlarla müşriklər qarşılaşdıqda Sad ibn Muaz Peyğəmbərə ﷺ belə dedi: "Ey Allahın Elçisi, bəlkə sənə dayanmaq üçün və dəvələrini otuzdurmaq üçün kölgələnəcək bir yer hazırlayaq? Biz düşmənlə qarşılaşacağıq, əgər Allah bizi onların üzərində qalib etsə, bil ki, istədiyimiz də elə budur. Əgər məğlub olsaq, dəvələrinə minib arxada qalanlara qoşularsan. Allaha and olsun ki, sənin arxanda olan qövmün sənə olan sevgiləri bizim sənə olan

[1] əl-Beyhəqi "Dəlailun-Nubuvvə" 3/22, 42-43. Hədis səhihdir. Bax: Fiqhus-Sira, 222.

sevgimizdən daha çoxdur. Əgər sənin döyüşə qatıldığını bilsələr, əsla səndən arxada qalmazdılar, mütləq səni müdafiə edər və sənə yardım edərdilər". Peyğəmbər ﷺ bu sözlərinə görə onu təriflədi və ona xeyir-dua etdi. Beləliklə, ona kölgələnəcək bir yer düzəldildi. Bu kölgəlikdə yalnız Peyğəmbər ﷺ və Əbu Bəkr vardı, onlardan başqa heç kim yox idi".[1]

İbn İshaq رحمه الله demişdir: "Səhər açıldıqda Qureyş müşrikləri yola düşdülər. Peyğəmbər ﷺ onların vadidən aşağı doğru gəldiklərini gördükdə belə dua etdi: "Allahım, bu Qureyş müşrikləridir, öyünərək, qürurlanaraq, Sənə qarşı düşmənçilik edib Sənin Elçini yalan sayaraq gəlmişlər. Allahım, səhər onları həlak et!"[2]

Uca Allah buyurur: "**həlak olan açıq-aydın bir dəlillə həlak olsun, sağ qalan da açıq-aydın bir dəlillə sağ qalsın**". Muhəmməd ibn İshaq رحمه الله bu ayə barədə demişdir: "Yəni ayə və ibrətləri gördükdən sonra açıq-aydın bir dəlillə kafir olan kafir olsun, iman gətirən isə iman gətirsin". Bu, yaxşı bir şərhdir. Bunu bir az daha açıqlasaq, Uca Allah belə buyurur: "Uca Allah sizi vədələşmədiyiniz bir yerdə düşməninizlə ona görə cəm etdi ki, sizi onların üzərində qalib etsin, haqq kəlməsini batil üzərində ucaltsın, İslam dinini digər dinlərdən üstün etsin, müsəlmanların hüccəti qəti, dəlili aydın olsun, bundan sonra müsəlmanlara qarşı heç kimin nə bir dəlili, nə də bir şübhəsi qalmasın. Məhz bu zaman "**həlak olan açıq-aydın bir dəlillə həlak olsun**", yəni özünün batil üzərində olduğunu açıq-aydın görə-görə küfr içində qalmağa davam etsin, çünki əleyhinə hüccət qalxmışdır, "**sağ qalan da**", yəni iman gətirən də "**açıq-aydın bir dəlillə sağ qalsın**", yəni iman gətirsin, çünki iman qəlblərə həyat verir.

Uca Allah başqa bir ayədə buyurur: "**Məgər ölü ikən dirildiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi?**" ("əl-Ənam", 122). Aişə رضي الله عنها ona atılan böhtan hadisəsində belə demişdir: "Mənə görə həlak olan həlak olmuşdur". Yəni bu hadisədə ona yalan və böhtan deyənlər həlak oldular.

Uca Allah buyurur: "**Həqiqətən, Allah hər şeyi eşidəndir**", yəni sizin dualarınızı, yalvarışlarınızı və yardım diləməyinizi eşidir, "**hər şeyi biləndir**", yəni sizin kim olduğunuzu və inadkar kafir düşmənlərinizə qarşı yardıma layiq olduğunuzu yaxşı bilir.

[1] əl-Beyhəqi "Dəlâilun-Nubuvvə" 3/44.
[2] əl-Beyhəqi "Dəlâilun-Nubuvvə" 3/35.

﴿إِذْ يُرِيكَهُمُ ٱللَّهُ فِى مَنَامِكَ قَلِيلًا ۖ وَلَوْ أَرَىٰكَهُمْ كَثِيرًا لَّفَشِلْتُمْ وَلَتَنَٰزَعْتُمْ فِى ٱلْأَمْرِ وَلَٰكِنَّ
ٱللَّهَ سَلَّمَ ۗ إِنَّهُۥ عَلِيمٌۢ بِذَاتِ ٱلصُّدُورِ ﴿٤٣﴾ وَإِذْ يُرِيكُمُوهُمْ إِذِ ٱلْتَقَيْتُمْ فِىٓ أَعْيُنِكُمْ قَلِيلًا وَيُقَلِّلُكُمْ فِىٓ
أَعْيُنِهِمْ لِيَقْضِىَ ٱللَّهُ أَمْرًا كَانَ مَفْعُولًا ۗ وَإِلَى ٱللَّهِ تُرْجَعُ ٱلْأُمُورُ ﴿٤٤﴾﴾

**43. O zaman Allah yuxunda sənə onları az göstərdi. Əgər onları sənə çox göstərsəydi, ruhdan düşər və döyüş barəsində bir-birinizlə mübahisə edərdiniz. Lakin Allah sizi qorudu. Şübhəsiz ki, O, kökslərdə olanları bilir.**

**44. O vaxt qarşı-qarşıya gəldiyiniz zaman Allah onları sizin gözünüzə az göstərdi, sizi də onların gözündə azaltdı ki, olacaq işi yerinə yetirsin. Bütün işlər Allaha qayıdır.**

Mucahid ﵀ demişdir: “Uca Allah Peyğəmbərə ﷺ yuxusunda onları az göstərmiş, Peyğəmbər ﷺ də səhabələrinə bunu xəbər vermiş və bu yuxu onları möhkəmlətmişdi”.[1]

Uca Allah buyurur: “**Əgər onları sənə çox göstərsəydi, ruhdan düşər və döyüş barəsində bir-birinizlə mübahisə edərdiniz**”, yəni əgər sənə onları çox göstərsəydi, onlardan çəkinib döyüşmək barədə fikir ayrılığına düşərdiniz. “**Lakin Allah sizi qorudu**”, yəni Allah onları sənə yuxuda az göstərməklə sizi bundan qurtardı. “**Şübhəsiz ki, O, kökslərdə olanları bilir**”, yəni gizli fikirləri, qəlbdən keçənləri bilir. “**Allah gözlərin xaincəsinə baxışını və kökslərin nələr gizlətdiyini bilir**” (“Ğafir”, 19).

Uca Allah buyurur: “**O vaxt qarşı-qarşıya gəldiyiniz zaman Allah onları sizin gözünüzə az göstərdi**”. Bu da Uca Allahın möminlərə göstərdiyi lütfü idi. Belə ki, düşməni onların gözündə az göstərdi. Bu onları döyüşə daha da rəğbətləndirir və qələbəyə ümidləndirirdi. “**... sizi də onların gözündə azaltdı ki**”, İbn Əbu Hatim ﵀ bu ayə barədə İkrimənin ﵀ belə dediyini rəvayət etmişdir: “Uca Allah onları bir-biriləri ilə döyüşməyə təhrik etmişdir”. Bu hədisin isnadı səhihdir.[2]

Ayənin mənası belədir: “Uca Allah hər iki dəstəni bir-birinə qarşı döyüşməyə təhrik etmiş və döyüşə həvəslənsinlər deyə hər dəstənin gözündə qarşı tərəfi az göstərmişdi. Bu, iki dəstə qarşı-qarşıya gəldikləri anda baş vermişdi. Lakin döyüş qızışdığı zaman Uca Allah möminlərə

[1] ət-Tabəri, 16150, 16228.
[2] İbn Əbu Hatim, 9128.

ard-arda gələn min mələklə yardım etdikdə, kafir dəstə mömin dəstəni özlərindən iki dəfə artıq görməyə başladı. Necə ki Uca Allah bu barədə belə buyurur: "**Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi. Dəstələrdən biri Allah yolunda vuruşurdu, digəri isə kafirlər idi. Möminlər kafirlərin sayca onlardan ikiqat artıq olduqlarını öz gözləri ilə görürdülər. Allah istədiyi kəsi Öz köməyi ilə qüvvətləndirir. Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət vardır**" ("Ali-İmran", 13). Bu iki ayəni belə yekunlaşdırmaq olar. Bu iki ayənin hər biri haqq və doğrudur. Həmd və şükür Allaha məxsusdur.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا لَقِيتُمۡ فِئَةٗ فَٱثۡبُتُواْ وَٱذۡكُرُواْ ٱللَّهَ كَثِيرٗا لَّعَلَّكُمۡ تُفۡلِحُونَ ٤٥ وَأَطِيعُواْ ٱللَّهَ
وَرَسُولَهُۥ وَلَا تَنَٰزَعُواْ فَتَفۡشَلُواْ وَتَذۡهَبَ رِيحُكُمۡۖ وَٱصۡبِرُوٓاْۚ إِنَّ ٱللَّهَ مَعَ ٱلصَّٰبِرِينَ ٤٦﴾

**45. Ey iman gətirənlər! Kafir bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız.**

**46. Allaha və Onun Rəsuluna itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir.**

Uca Allah bu ayədə mömin qullarına düşmənlə qarşılaşma ədəbini və düşmənlə qarşılaşarkən şücaət göstərməyin yolunu öyrədərək buyurur: "**Ey iman gətirənlər! Kafir bir dəstə ilə üz-üzə gəldikdə möhkəm durun və Allahı çox yad edin ki, bəlkə nicat tapasınız**". əl-Buxari və Muslimin "Səhih" əsərlərində Abdullah ibn Əbu Əufədən ﵁ rəvayət edilir ki, döyüşlərin birində Peyğəmbər ﷺ düşmənlə qarşılaşdığı vaxt, gün batmağa meyil edənədək gözlədi, sonra camaatın qarşısında ayağa qalxdı və onlara xitab edərək dedi: "Ey insanlar, düşmənlə qarşı-qarşıya gəlməyi arzulamayın və Allahdan salamatlıq diləyin! Hərgah onlarla qarşı-qarşıya gəlsəniz, səbirli olun və bilin ki, Cənnət qılıncların kölgəsi altındadır". Sonra dua edib dedi: "Ey Kitabı nazil edən, buludları hərəkətə gətirən və (Xəndək döyüşündə möminlərə qarşı toplaşan) dəstələri darmadağın edən Allahım, onları darmadağın et və onlara qələbə çalmaqda bizə kömək et![1]"[2]

[1] Transkripsiyası: Alla:hummə munziləl-kitə:bi və mucriyəs-səhə:bi və hə:ziməl-əhzə:bi, ihzimhum vənsurnə: aleyhim!

[2] əl-Buxari, 2744, 2966, 3025; Muslim, 1742, 3276, 4640.

Qatədə ﵀ bu ayə barədə belə demişdir: "Uca Allah başınızın ən qarışıq olduğu – qılınclarla vuruşduğunuz halda belə sizə Onu yad etməyi vacib etmişdir".[1] İbn Əbu Hatim ﵀ İbn Cureycdən Ətanın belə dediyini rəvayət etmişdir: "Düşmənin üstünə getdikdə, susmaq və zikr etmək vacibdir". Sonra Əta bu ayəni oxudu. Mən (İbn Cureyc): "Zikri səslə edirdinizmi?" – deyə soruşdum. O "Bəli" – deyə cavab verdi".[2]

Uca Allah müsəlmanlara düşmənlə döyüşərkən möhkəm durmağı, onların müqavimətinə səbir etməyi, döyüş meydanından qaçmamağı, geri dönməməyi, qorxaq olmamağı, bu vəziyyətdə Allahı unutmayıb, əksinə çox zikr etməyi, Ondan yardım diləyib Ona təvəkkül etməyi, Ondan düşmənlərinə qarşı qələbə çalmağı diləməyi, bu halda Allaha və Onun Elçisinə ﷺ itaət etməyi əmr etmişdir. Onlara Allahın əmrlərinə tabe olmağı, qadağalarından çəkinməyi, zəifləmələrinə və gücdən düşmələrinə səbəb olacaq ixtilafdan və aralarında fikir ayrılığına düşməkdən çəkinməyi əmr edərək buyurur: "**yoxsa ruhdan düşər və zəifləyərsiniz**", yəni gücünüz, birliyiniz və müvəffəqiyyətiniz əldən gedər. "**Səbir edin, çünki Allah səbir edənlərlədir**".

Səhabələr cəsarət, Allahın əmrinə tabe olmaq və Allahın onlara göstərdiyi yolla getmək xüsuslarında nə özlərindən əvvəlki, nə də sonrakı ümmət və nəsillərdən heç kimə nəsib olmayan bir məziyyətə sahib idilər. Onlar Allah Elçisinin ﷺ bərəkəti və ona itaətləri sayəsində həm qəlbləri, həm də şərqdən qərbə kimi dünyanı fəth etmiş, sayca az olmalarına baxmayaraq qısa bir müddətdə rum, fars, türk, ispan, barbar, həbəşi, sudan, qibti ordularına və digər Adəm oğullarının tayfalarına qalib gəlmişlər. Nəticədə Allahın Kəlməsi ucalmış, Allahın dini digər dinlərdən üstün olmuş, İslam ölkələrinin sərhədləri otuz ildən daha az bir müddətdə dünyanın hər yerinə çatmışdır. Uca Allah onların hamısından razı olsun, onları (Öz Cənnəti ilə) razı salsın və bizi də onların zümrəsində həşr etsin. Həqiqətən, O, Səxavətlidir, Bəxşedəndir.

---

[1] ət-Təbəri, 16161, 16239.

[2] İbn Əbu Hatim, 9133.

﴿وَلَا تَكُونُوا۟ كَٱلَّذِينَ خَرَجُوا۟ مِن دِيَـٰرِهِم بَطَرًا وَرِئَآءَ ٱلنَّاسِ وَيَصُدُّونَ عَن سَبِيلِ ٱللَّهِ ۚ وَٱللَّهُ بِمَا يَعْمَلُونَ
مُحِيطٌ ﴿٤٧﴾ وَإِذْ زَيَّنَ لَهُمُ ٱلشَّيْطَـٰنُ أَعْمَـٰلَهُمْ وَقَالَ لَا غَالِبَ لَكُمُ ٱلْيَوْمَ مِنَ ٱلنَّاسِ وَإِنِّى جَارٌ لَّكُمْ ۖ فَلَمَّا
تَرَآءَتِ ٱلْفِئَتَانِ نَكَصَ عَلَىٰ عَقِبَيْهِ وَقَالَ إِنِّى بَرِىٓءٌ مِّنكُمْ إِنِّىٓ أَرَىٰ مَا لَا تَرَوْنَ إِنِّىٓ أَخَافُ ٱللَّهَ ۚ
وَٱللَّهُ شَدِيدُ ٱلْعِقَابِ ﴿٤٨﴾ إِذْ يَقُولُ ٱلْمُنَـٰفِقُونَ وَٱلَّذِينَ فِى قُلُوبِهِم مَّرَضٌ غَرَّ هَـٰٓؤُلَآءِ دِينُهُمْ ۗ وَمَن يَتَوَكَّلْ
عَلَى ٱللَّهِ فَإِنَّ ٱللَّهَ عَزِيزٌ حَكِيمٌ ﴿٤٩﴾﴾

**47. Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən əhatə etmişdir.**

**48. O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: "Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!" – demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: "Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!" – demişdi.**

**49. O zaman münafiqlər və qəlbində xəstəlik olanlar dedilər: "Bunları öz dinləri aldatdı!" Kim Allaha təvəkkül etsə, bilsin ki, Allah Qüdrətlidir, Hikmət sahibidir!**



Uca Allah möminlərə Onun yolunda cihad edərkən ixlaslı olmağı və Onu çox zikr etməyi əmr etdikdən sonra yurdlarından "**təkəbbürlə**", yəni haqqı inkar edərək və "**özlərini camaata göstərmək üçün çıxan**", yəni insanlar arasında lovğalanaraq yurdlarından çıxan müşriklərə bənzəməkdən çəkindirir. Necə ki Əbu Cəhlə: "Karvan xilas oldu, geri dönün!" – deyildikdə, o "Xeyr, Bədr quyularına çatıb dəvələrimizi kəsməyənə, içki içməyənə, nökərlər bizə mahnı oxumayana, ərəblər daim bu günümüzdən danışmayana qədər geri dönmərik" – demişdi. Lakin hər şey onun dediklərinin tam əksinə oldu, halbuki, onlar Bədr quyularına ölməyə gəlmişdilər. Bədrin ortasında alçalmış, zəlil, bədbəxt və əbədi olaraq Cəhənnəm əzabına düçar olmuş halda qaldılar. Bu səbəbdən Uca Allah "**Allah onların əməllərini hər tərəfdən əhatə etmişdir**" – deyə buyurur. Yəni Uca Allah onların necə və nə üçün gəldiklərini yaxşı bilirdi və buna qarşılıq olaraq onları ən pis cəza ilə cəzalandırdı. İbn Abbas رضي الله عنهما Uca Allahın "**Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın**" ayəsi

barədə demişdir: “Onlar Bədr döyüşü günü Peyğəmbərə ﷺ qarşı vuruşan müşriklərdir”.[1] Muhəmməd ibn Kəb ﵀ demişdir: “Qureyş müşrikləri Məkkədən Bədr quyularına tərəf yola çıxdıqda özləri ilə müğənni nökərlər və dəf aləti götürmüşdülər. Uca Allah onlar barədə “**Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və insanları Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən əhatə etmişdir**” ayəsini nazil etdi”.[2]

Uca Allah buyurur: “**O zaman şeytan onların əməllərini özlərinə gözəl göstərib: “Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!” – demişdi, iki dəstə bir-birini gördükdə isə geri çəkilib: “Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!” – demişdi**”. Şeytan (Allah ona lənət etsin) onlara yurdlarından çıxmağı və etmək istədikləri əməlləri gözəl göstərmiş, həmin gün insanlardan heç kəsin onlara qalib gələ bilməyəcəyinə ümidləndirmiş, (Məkkədən çıxdıqdan sonra) düşmənləri olan Bənu Bəkr qəbiləsinin yurdlarına basqın edə biləcəyi qorxusunu onlardan qaldıraraq “**Axı mən sizə yardım edən bir qonşuyam!**” – demişdi. Şeytan onlara (Bənu Mədləc qəbiləsinin başçısı) Suraqa ibn Malik surətində görünmüşdü. Başqa bir ayədə Uca Allah şeytan barədə belə buyurur: “**Şeytan onlara vədlər verir və onları xülyalara salır. Halbuki şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyil**” (“ən-Nisa”, 120). İbn Abbas ﵄ bu ayə barədə belə demişdir: “Bədr döyüşü günü İblis, şeytanlardan ibarət bir ordu ilə yanında bayrağı, Bənu Mədləc qəbiləsindən olan bir kişi – Suraqa ibn Malik ibn Cuşum surətində gələrək müşriklərə “**Bu gün insanlardan heç kəs sizə qalib gələ bilməz. Axı mən sizə yardım edən bir qonşuyam!**” – demişdi. Dəstələr döyüş üçün səf-səf durduqda Peyğəmbər ﷺ bir ovuc torpaq götürüb müşriklərə tərəf atdı və onlar dönüb qaçmağa başladılar. Cəbrail İblisə tərəf gəldi. İblis onu görəndə tez əlini müşriklərdən olan bir kişinin əlindən çəkdi və tərəfdarları ilə birlikdə dönüb qaçmağa başladı. Kişi “Ey Suraqa, sən bizə yardım edən bir qonşu olduğunu iddia edirdin axı?” – dedi. İblis cavabında “**Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Çünki Allah şiddətli cəza verəndir!**” – demişdir. Bu, mələkləri gördüyü vaxt olmuşdur”.[3]

[1] ət-Tabəri, 16177, 16255.
[2] ət-Tabəri, 16182, 16260.
[3] ət-Tabəri, 16183, 16261.

Muhəmməd ibn İshaq ﷺ Urvə ibn əz-Zubeyrdən ﷺ rəvayət etmişdir ki, Qureyş müşrikləri yola çıxmaq barədə yekdil qərara gəldikdə, Bənu Bəkr qəbiləsi ilə aralarında olan döyüşü xatırladılar. Bu fikir az qala onları yoldan saxlayacaqdı. Bu vaxt İblis, Bənu Kinənə qəbiləsinin hörmətli adamlarından biri olan Suraqa ibn Malik ibn Cuşum əl-Mudlici surətində onlara görünərək “Sizə zəmanət verirəm ki, yola çıxdıqdan sonra Kinənə qəbiləsi sizə qarşı xoşunuza gəlməyən bir şey etməyəcək” – dedi və onlar dərhal yola düşdülər”.[1]

Muhəmməd ibn İshaq ﷺ demişdir: “Mənə bildirildiyinə görə onlar hər düşərgə qurduqda İblisi Suraqa ibn Malikin surətində görürdülər, lakin bunu qəribə sanmırdılar. Nəhayət, Bədr döyüşü günü yetişdikdə və iki ordu qarşılaşdıqda, Həris ibn Hişam və ya Umeyr ibn Vəhb onun geri dönüb qaçdığını gördü və “Ey Suraqa, hara gedirsən?” – deyə soruşdu. Allahın düşməni gözə görsəndi, sonra çıxıb getdi. Onları gətirdi, sonra isə təslim etdi. Allahın düşməni Allahın ordularını və Allahın bu ordu ilə Elçisini və möminləri qüvvətləndirdiyini görüb geri çəkilərək “**Mən sizdən uzağam. Mən sizin görmədiklərinizi görürəm**” – dedi. Allahın düşməni doğru söyləyirdi. “**Mən Allahdan qorxuram, çünki Allah şiddətli cəza verəndir!**”[2] Qatədə ﷺ demişdir: “Bizə bildirilənə görə İblis Cəbrailin mələklərlə birlikdə endiyini gördükdə mələklərə gücü çatmayacağını anladı və “**Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram**” – dedi. Allahın düşməni belə deməklə yalan danışırdı. Allaha and olsun ki, onun Allahdan qorxusu yoxdur, lakin o, Allahın ordusuna qarşı güc və qüvvətinin olmadığını anlamışdı. Allahın düşməni ona itaət edənlərlə və ona tabe olanlarla, adətən, belə davranır. Haqq ilə batil qarşı-qarşıya gəldikdə onları ən pis vəziyyətdə buraxar və o əsnada onlardan uzaqlaşıb gedər”.[3]

Mən deyirəm: “Qatədə “Allahın düşməninin ona itaət edənlərlə davranışı” dedikdə Uca Allahın bu ayələrini nəzərdə tutur: “**Münafiqlər şeytana bənzəyirlər. Şeytan insana: “Kafir ol!” – deyir. İnsan kafir olan kimi: “Mən səndən uzağam. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!” – deyir**”. (“əl-Həşr”, 16); “**İş bitdikdə şeytan deyəcək: “Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın. Nə**

[1] ət-Təbəri, 16185, 16263.
[2] ət-Təbəri, 16186, 16264.
[3] ət-Təbəri, 16187, 16265.

**mən sizin köməyinizə çata bilərəm, nə də siz mənim köməyimə çata bilərsiniz. Heç şübhəsiz ki, mən əvvəllər də sizin məni Allaha şərik qoşmağınızı rədd etmişdim". Həqiqətən, zalımlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır**" ("İbrahim", 22).

Uca Allah buyurur: "**O zaman münafiqlər və qəlbində xəstəlik olanlar dedilər: "Bunları öz dinləri aldatdı!**" İbn Abbas ﵄ bu ayə barədə belə demişdir: "İki dəstə (möminlərlə kafirlər) bir-birinə yaxınlaşdıqda Uca Allah müşriklərin gözlərində müsəlmanları, müsəlmanların gözlərində isə müşrikləri az göstərdi və müşriklər: "**Bunları öz dinləri aldatdı!**" – dedilər. Belə deməklərinin səbəbi müsəlmanları sayca özlərindən az görmələri idi. Onlar müsəlmanları məğlub edəcəklərini sanırdılar və buna şübhə etmirdilər. Uca Allah isə belə buyurur: "**Kim Allaha təvəkkül etsə, bilsin ki, Allah Qüdrətlidir, Hikmət sahibidir!**"

Qatədə ﵀ demişdir: "Onlar möminlərdən bir qrupunun Allahın əmrini yerinə yetirdiklərini (namaza durduqlarını) gördülər. Bizə bildirildiyinə görə Allahın düşməni Əbu Cəhl, Muhəmməd ﷺ və onun səhabələrinə baxıb təkəbbürlə "Allaha and olsun ki, bu gündən sonra Allaha ibadət edə bilməyəcəklər" – demişdi".[1]

Mucahid ﵀ Uca Allahın "**O zaman münafiqlər və qəlbində xəstəlik olanlar dedilər: "Bunları öz dinləri aldatdı!**" ayəsi barədə belə demişdir: "Bunu bir qrup qureyşli demişdir. Onlar Qureyş müşrikləri ilə birlikdə Məkkədən (döyüşə qatılıb-qatılmayacaqları barədə) şübhə içində çıxmışdılar, lakin Peyğəmbərin ﷺ səhabələrinin az olduqlarını gördükdə: "**Bunları öz dinləri aldatdı!**" – dedilər. Sayca az olmalarına, düşmənlərinin isə çox olmalarına baxmayaraq möminlər qalib gəldilər".[2]

Uca Allah buyurur: "**Kim Allaha təvəkkül etsə**", yəni kim Allaha etimad etsə, "**bilsin ki, Allah Qüdrətlidir**", yəni Ona sığınan məğlub olmaz. Uca Allah qüvvət və əzəmətli səltənət sahibidir. "**Hikmət sahibidir!**", yəni etdiklərində Hikmət sahibidir, hər şeyi lazım olan yerə qoyar. Yardım edilməyə layiq olana yardım edər, köməksiz tərk edilməyə layiq olanı da tərk edər.

[1] ət-Təbəri, 16197, 16275.
[2] ət-Təbəri, 16195, 16273.

﴿وَلَوۡ تَرَىٰٓ إِذۡ يَتَوَفَّى ٱلَّذِينَ كَفَرُواْ ٱلۡمَلَٰٓئِكَةُ يَضۡرِبُونَ وُجُوهَهُمۡ وَأَدۡبَٰرَهُمۡ وَذُوقُواْ عَذَابَ
ٱلۡحَرِيقِ ٥٠ ذَٰلِكَ بِمَا قَدَّمَتۡ أَيۡدِيكُمۡ وَأَنَّ ٱللَّهَ لَيۡسَ بِظَلَّٰمٖ لِّلۡعَبِيدِ ٥١﴾

**50. Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. Mələklər onların üzünə və yanlarına vura-vura deyirdilər: "Dadın yandırıcı odun əzabını!**

**51. Bu, öz əllərinizlə etdiyiniz əməllərə görədir. Yoxsa Allah qullarına zülm edən deyildir".**

Uca Allah buyurur ki, Ey Muhəmməd, əgər mələklərin kafirlərin canını aldığı halı görsəydin, o zaman böyük, dəhşətli, pis və xoş olmayan bir hadisənin şahidi olardın. Çünki mələklər kafirlərin üzünə və yanlarına vura-vura "**Dadın yandırıcı odun əzabını!**" – deyərək canlarını alırlar. Mucahid ﷺ demişdir: "Yanlarına, yəni oturacaq hissələrinə". O, həmçinin bunun Bədr döyüşü günü olduğunu demişdir. İbn Abbas ﷺ demişdir: "Müşriklər müsləmanların üstünə getdikdə, müsəlmanlar onların üzlərinə qılıncla vururdular, geri döndükdə isə mələklər onlara yetişib arxalarından vururdular".[1]

Bu ayədə Bədr döyüşündə iştirak edən kafirlər nəzərdə tutulsa da, ayə ümumi olub bütün kafirlərə şamil edilir. Bu səbəbdən Uca Allah ayədə Bədr döyüşündə iştirak edən kafirləri xüsusi olaraq qeyd etməyərək "**Kaş sən kafirləri mələklər onların canını alarkən görəydin. Mələklər onların üzünə və yanlarına vura-vura deyirdilər: "Dadın yandırıcı odun əzabını!**" – deyə buyurur. Oxşar ayə "Muhəmməd" surəsindədir ("Muhəmməd", 27). Daha əvvəl "əl-Ənam" surəsində Uca Allahın bu ayəsi keçdi: "**Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb onlara: "Canınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaqsınız!" – dediklərini bircə görəydin**" ("əl-Ənam", 93), yəni mələklər onlara əllərini uzadaraq vururlar və canları cəsədlərini tərk etməkistəmədikdə onlara zorla çıxmağı əmr edirlər. Mələklər kafirlərin canını alarkən onları əzaba və Allahın qəzəbinə düçar olmaqla müjdələdikləri üçün canları bədənlərini tərk etmək istəmir. Odur ki, Uca Allah mələklərin onlara "**Dadın yandırıcı odun əzabını!**" – dediklərini buyurur.

[1] ət-Təbəri, 16204, 16282.

Uca Allah buyurur: "**Bu, öz əllərinizlə etdiyiniz əməllərə görədir**", yəni bu cəza, dünyada etdiyiniz pis əməllərinizə görədir. Uca Allah bu əməllərin qarşılığında sizə bu cəzanı vermişdir. "**Yoxsa Allah qullarına zülm edən deyildir**", yəni Allah yaratdıqlarından heç kəsə zülm etməz. O, heç kəsə zülm etməyən ədalətli Hakimdir. O, xeyiri və bərəkəti bol olan, Uca, Müqəddəs, Pak, Varlı və Tərifəlayiqdir. Muslimin "Səhih" əsərində Əbu Zərdən رضي الله عنه rəvayət edilən səhih bir hədisdə Peyğəmbər ﷺ Uca Allahın belə buyurduğunu bildirir: "Ey Mənim qullarım! Mən zülm etməyi Özümə haram saydım və onu sizin aranızda da haram etdim. Elə isə bir-birinizə zülm etməyin! Ey Mənim qullarım! Bu sizin əməllərinizdir. Onları sizin üçün hesaba alıram, sonra əvəzini verəcəyəm. Odur ki, kim (Qiyamət günü əməlləri arasında) xeyir tapsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey tapsa, özündən başqa heç kəsi qınamasın".[1] Bu səbəbdən Uca Allah növbəti ayədə belə buyurur:

﴿ كَدَأْبِ ءَالِ فِرْعَوْنَ وَٱلَّذِينَ مِن قَبْلِهِمْ ۚ كَفَرُوا۟ بِـَٔايَٰتِ ٱللَّهِ فَأَخَذَهُمُ ٱللَّهُ بِذُنُوبِهِمْ ۗ إِنَّ ٱللَّهَ قَوِىٌّ شَدِيدُ ٱلْعِقَابِ ﴿٥٢﴾ ﴾

**52. Bunların əməli Firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Allahın ayələrini inkar etdilər, Allah da onları günahlarına görə yaxaladı. Şübhəsiz ki, Allah Qüvvətlidir, cəzalandırması da şiddətlidir.**

Uca Allah bu ayədə buyurur ki, ey Muhəmməd, səninlə göndərilən Quranı yalan sayan bu müşriklərin əməlləri, onlardan əvvəl peyğəmbərlərinin gətirdiklərini yalan sayan ümmətlərin əməllərinə bənzəyir. Onlarla adətimiz üzrə davrandıq, yəni peyğəmbərləri yalançı sayan Firon ailəsi, onlardan əvvəl Allahın ayələrini inkar edən kafirlər və onlara bənzəyənlər barədə adətimiz və qanunumuz nə idisə, bunlara da eynisini etdik. "**Allah da onları günahlarına görə yaxaladı**", yəni Uca Allah onları günahlarına görə həlak etdi, qüvvət və qüdrətinə layiq olan bir şəkildə əzabla yaxaladı. "**Şübhəsiz ki, Allah Qüvvətlidir, cəzalandırması da şiddətlidir**", yəni heç bir şey Ona qalib gələ bilməz və heç bir şey Ondan qaça bilməz.

[1] Muslim, 2577, 4674, 6737.

﴿ذَٰلِكَ بِأَنَّ ٱللَّهَ لَمۡ يَكُ مُغَيِّرٗا نِّعۡمَةً أَنۡعَمَهَا عَلَىٰ قَوۡمٍ حَتَّىٰ يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمۡ وَأَنَّ ٱللَّهَ سَمِيعٌ عَلِيمٞ ٥٣
كَدَأۡبِ ءَالِ فِرۡعَوۡنَ وَٱلَّذِينَ مِن قَبۡلِهِمۡۚ كَذَّبُواْ بِـَٔايَٰتِ رَبِّهِمۡ فَأَهۡلَكۡنَٰهُم بِذُنُوبِهِمۡ وَأَغۡرَقۡنَآ ءَالَ فِرۡعَوۡنَۚ وَكُلّٞ
كَانُواْ ظَٰلِمِينَ ٥٤﴾

**53. Bu, ona görədir ki, bir camaat nəfslərində olanı dəyişməyincə, Allah da onlara verdiyi neməti dəyişən deyildir. Şübhəsiz ki, Allah hər şeyi eşidəndir, hər şeyi biləndir.**

**54. Bunların halı Firon nəslinin və onlardan əvvəlkilərin halına bənzəyir. Onlar Rəbbinin ayələrini yalan hesab etdilər, Biz də onları günahlarına görə məhv etdik. Firon nəslini dənizdə qərq etdik. Onların hamısı zalım idi.**

Uca Allah bu ayələrdə ədalətinin kamilliyindən, hökmünün adilliyindən xəbər verərək, kiməsə verdiyi neməti yalnız onun etdiyi günaha görə dəyişdirdiyini bildirir. Necə ki başqa bir ayədə belə buyurur: **"Həqiqətən də, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir qövmə pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur**" ("ər-Rəd", 11).

Uca Allah buyurur: "**Bunların halı Firon nəslinin və onlardan əvvəlkilərin halına bənzəyir**", yəni Uca Allah Onun ayələrini yalan saydıqlarına görə onları və bənzərlərini həlak etdiyi kimi, onları da günahlarına görə həlak etmiş, onlara verdiyi bağları, çeşmələri, əkinləri, xəzinələri, gözəl yerləri və ləzzət aldıqları neçə-neçə nemətləri onlardan almışdır. Uca Allah bununla onlara zülm etməmişdir, əksinə, onlar özləri özlərinə zülm etmişlər.

﴿إِنَّ شَرَّ ٱلدَّوَآبِّ عِندَ ٱللَّهِ ٱلَّذِينَ كَفَرُواْ فَهُمۡ لَا يُؤۡمِنُونَ ٥٥ ٱلَّذِينَ عَٰهَدتَّ مِنۡهُمۡ ثُمَّ يَنقُضُونَ عَهۡدَهُمۡ
فِي كُلِّ مَرَّةٖ وَهُمۡ لَا يَتَّقُونَ ٥٦ فَإِمَّا تَثۡقَفَنَّهُمۡ فِي ٱلۡحَرۡبِ فَشَرِّدۡ بِهِم مَّنۡ خَلۡفَهُمۡ لَعَلَّهُمۡ يَذَّكَّرُونَ ٥٧﴾

**55. Şübhəsiz ki, Allah yanında canlıların ən pisi kafir olanlardır. Onlar iman gətirməzlər.**

**56. Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz əhdlərini pozur və heç nədən çəkinmirlər.**

**57. Əgər döyüşdə onları yaxalasan, onları cəzalandırmaqla arxalarında olanları qaçmağa vadar et ki, bəlkə ibrət alsınlar.**

Uca Allah bu ayələrdə bildirir ki, yer üzündə hərəkət edənlərin (gedənlərin) ən şər olanları iman gətirməyən kafirlərdir. Onlar hər dəfə əhd bağladıqdan sonra onu pozar, hər dəfə əhdlərini and içməklə gücləndirdikdən sonra andlarından dönər "**və heç nədən çəkinmirlər**", yəni etdikləri heç bir günaha görə Allahdan qorxmazlar.

"**Əgər döyüşdə onları yaxalasan**", yəni əgər döyüşdə onlara qalib gəlib zəfər çalsan, "**onları cəzalandırmaqla arxalarında olanları qaçmağa vadar et**". İbn Abbas رضي الله عنهما demişdir: "Yəni onları cəzalandır". Onları sərt şəkildə cəzalandır və öldür ki, ərəblərdən və qeyri-ərəblərdən ibarət digər düşmənlər qorxsunlar və "**bəlkə ibrət alsınlar**". əs-Suddi رحمه الله demişdir: "Yəni bəlkə eyni aqibətlə üzləşməkdən qorxub andlarını pozmaqdan çəkinsinlər".

﴿وَإِمَّا تَخَافَنَّ مِن قَوۡمٍ خِيَانَةً فَٱنۢبِذۡ إِلَيۡهِمۡ عَلَىٰ سَوَآءٍۚ إِنَّ ٱللَّهَ لَا يُحِبُّ ٱلۡخَآئِنِينَ ٥٨﴾

**58. Əgər bir qövmün əhdi pozacağı ilə xəyanət etməsindən qorxsan, sən də onlara onu pozduğunu bildir. Şübhəsiz ki, Allah xainləri sevmir.**

Uca Allah bu ayədə Öz Elçisinə ﷺ xitab edərək buyurur: "**Əgər bir qövmün**", yəni əhd bağladığın bir qövmün "**əhdi pozacağı ilə xəyanət etməsindən qorxsan**", yəni səninlə aralarında olan razılaşmanı və əhdi pozmalarından qorxsan, "**sən də onlara onu**", yəni aranızda olan əhdi "**pozduğunu bildir**", yəni sən də onlara əhdi pozduğunu xəbər ver ki, səninlə onların arasında əhd qalmadığını və sənin onlarla, onların da səninlə döyüş halında olduğunu bilsinlər. Bilsinlər ki, bu məsələdə sən də, onlar da bərabərdirlər. əl-Valid ibn Muslim رحمه الله ayədə keçən **عَلَى سَوَاءٍ** [alə səvə:in] sözünü "tələsmədən" kimi təfsir etmişdir. "**Şübhəsiz ki, Allah xainləri sevmir**", yəni bu, kafirlər barədə olsa da, Allah xainliyi əsla sevməz.

İmam Əhməd رحمه الله Səlim ibn Amirin belə dediyini rəvayət etmişdir: "Muaviyə Rum torpaqlarına yürüş edirdi. Rumlularla (bir-biriləri ilə döyüşməyəcəklərinə dair) aralarında bir möhlət qoyulmuşdu. Muaviyə möhlət bitdikdə döyüşmək üçün onlara yaxınlaşmaq istəyirdi. Bu vaxt miniyinin üzərində olan bir qocanın belə dediyini eşitdilər: "Allah Ən böyükdür, Allah Ən böyükdür. Əhdə vəfa etmək lazımdır, xəyanət etmək olmaz. Həqiqətən, Peyğəmbər ﷺ demişdir: "Bir qövmlə arasında əhd olan şəxs bu müddət bitməyənə qədər və ya onlar xəyanət edib əhdi pozmayana qədər əhdi pozmasın". Kişinin bu sözü Muaviyəyə çatdıqda geri qayıtdı. Bir də gördülər ki, bu qoca Amr ibn Əbəsədir[1]". Bu hədisi ət-Tirmizi رحمه الله rəvayət etmiş və həsən-səhih olduğunu demişdir.[2]

[1] Amr ibn Əbəsə İslamı ilk qəbul edən səhabələrdən biridir. Allah ondan razı olsun!

[2] Əhməd (4/111); ət-Tirmizi, 1580, 1676. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2357.

﴿وَلَا يَحۡسَبَنَّ ٱلَّذِينَ كَفَرُواْ سَبَقُوٓاْۚ إِنَّهُمۡ لَا يُعۡجِزُونَ ٥٩ وَأَعِدُّواْ لَهُم مَّا ٱسۡتَطَعۡتُم مِّن قُوَّةٖ وَمِن رِّبَاطِ
ٱلۡخَيۡلِ تُرۡهِبُونَ بِهِۦ عَدُوَّ ٱللَّهِ وَعَدُوَّكُمۡ وَءَاخَرِينَ مِن دُونِهِمۡ لَا تَعۡلَمُونَهُمُ ٱللَّهُ يَعۡلَمُهُمۡۚ وَمَا تُنفِقُواْ مِن
شَيۡءٖ فِي سَبِيلِ ٱللَّهِ يُوَفَّ إِلَيۡكُمۡ وَأَنتُمۡ لَا تُظۡلَمُونَ ٦٠﴾

**59. Qoy kafirlər əzabdan qaça biləcəklərini zənn etməsinlər. Çünki onlar ondan yaxa qurtara bilməzlər.**

**60. Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz.**

Uca Allah Öz Elçisinə ﷺ xitab edərək belə buyurur: “Ey Muhəmməd, “**Kafirlərin əzabdan qaça biləcəklərini zənn etmə**[1]”, yəni elə zənn etmə ki, onlar Bizdən yan keçə biləcəklər və Biz onlara əzəb verə bilməyəcəyik. Əksinə, onlar Bizim qüdrətimizə tabedirlər, istəyimiz altındadırlar və Bizdən qaçıb xilas ola bilməyəcəklər. Uca Allah başqa ayələrdə belə buyurur: “**Yoxsa yaramaz işlərə yol verənlər Bizdən gizlənib özlərini xilas edəcəklərini zənn edirlər? Onlar nə yarıtmaz düşüncələrə dalırlar**” (“əl-Ənkəbut”, 4); “**Kafirlərin yer üzündə Allahdan yaxa qurtara biləcəklərini zənn etmə. Onların gedəcəkləri yer Oddur. Ora nə pis dönüş yeridir!**” (“ən-Nur”, 57); “**Qoy kafirlərin rifah içində diyarbədiyar gəzib-dolaşması səni aldatmasın! Bu, az bir mənfəətdir. Sonra isə onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis yataqdır!**” (“Ali-İmran”, 196-197).

Sonra Uca Allah kafirlərlə döyüşmək üçün güc, imkan və bacarıqdan asılı olaraq döyüş ləvazimatları hazırlamağı əmr edərək buyurur: “**Düşmənlərə qarşı bacardığınız qədər**”, yəni imkanınız olan qədər “**qüvvə və döyüş atları hazırlayın**”. İmam Əhməd رحمه الله Uqbə ibn Amirin رضي الله عنه belə dediyini rəvayət etmişdir: “Mən, Peyğəmbərin ﷺ minbərdə belə dediyini eşitdim: “**Düşmənlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın**”. Bilin ki, qüvvə atıcılıqdır, bilin ki, qüvvə atıcılıqdır”. Hədisi Muslim رحمه الله rəvayət etmişdir.[2]

[1] İbn Kəsirin رحمه الله əlyazmasında və çap olunmuş nüsxələrdə belə yazılıb. Bu, yeddi qiraətdən biridir.
[2] Əhməd (4/156); Muslim, 167/1917, 3541, 5055,

İmam Malik ﷺ Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "At saxlamaq üç cür olur; kimisinə savab qazandırar, kimisinin kasıblığını ört-basdır edər, kimisinə də günah qazandırar. Savab qazanan adama gəlincə, bu o kimsədir ki, atını otlaqda və ya bağ-bağatlı yerdə uzun kəndirlə bağlayıb Allah yolunda döyüşmək üçün saxlamışdır. At otlaqda və ya bağçada otladığı müddət ərzində ona savab yazılar. Hərgah atın kəndiri qırılarsa və at qaçıb bir, yaxud iki təpə aşarsa, onun qoyduğu ləpirlərə və ifraz etdiyi peyinə görə yiyəsinə savab yazılar və əgər bir çaydan keçib ondan su içərsə, yiyəsinin onu sulamaq istəyi olmasa belə, buna görə ona savab yazılar. Beləliklə də, bu at ona savab qazandırar. Digəri isə atını, insanlara möhtac olmasın və dilənməsin deyə qazanc məqsədilə saxlayan, üstəlik onu bəslədikdə Allahın haqqını unutmayan kimsədir. Bu at onun üçün (ehtiyaclarından) örtük olar. Üçüncüsü isə atını lovğalıq etmək, özünü göstərmək və ya onu müsəlmanların əleyhinə istifadə etmək məqsədilə saxlayan kimsədir. Bu at ona günah qazandırar". Peyğəmbərdən ﷺ eşşəklər barədə (atlar kimi onları bəsləməyin də savabı olub-olmaması barədə) soruşdular. O buyurdu: "Uca Allah mənə bu xüsusda hər şeyi əhatə edən, müstəsna sayılan bu ayələrdən başqa bir ayə nazil etməmişdir: "**Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır. Zərrə qədər pislik edən də əvəzini alacaqdı**r" ("əz-Zəlzələ", 7-8). Hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər. Hədisin mətni əl-Buxariyə ﷺ aiddir.[1]

Əksər alimlərə görə atıcılıq sənətini öyrənmək at minmədən daha əfzəldir. İmam Malikə ﷺ görə isə atminmə atıcılıqdan daha əfzəldir. Əvvəl qeyd etdiyimiz hədisə əsasən əksər alimlərin rəyi (atıcılığın daha əfzəl olması) daha qüvvətlidir. Ən doğrusunu Allah bilir.

Allah yolunda döyüşmək üçün at bəsləməyin fəzilətinə dair bir çox hədislər varid olmuşdur. əl-Buxari "Səhih" əsərində Urvə ibn Əbul-Caddan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Qiyamət gününədək atların yüyənində xeyir qalacaqdır. İnsanlar onların sayəsində çoxlu savab və qənimətlər əldə edəcəklər".[2]

Uca Allah buyurur: "...**bununla Allahın düşmənini, öz düşməninizi**", yəni kafirləri "**və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız**". Mucahid ﷺ demişdir: "Yəni Bənu Qureyza qəbiləsini qorxudasınız". əs-Suddi ﷺ isə burada farsların nəzərdə tutulduğunu demişdir. Muqatil və Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ isə ayədə münafiqlərin nəzərdə tutulduğunu demişlər və bu

[1] Muvatta, 2/444, 964; əl-Buxari, 2198, 2371, 4580, 4962; Muslim, 987/24, 1648, 2339.
[2] əl-Buxari, 2640, 2852; Muslim, 3480, 4957.

rəy əvvəl qeyd etdiyimiz rəylərdən həqiqətə daha yaxındır. Uca Allahın bu ayəsi də bu rəyi təsdiqləyir: "**Çevrənizdəki bədəvilərdən və Mədinə əhalisi arasında münafiqlər var. Onlar münafiqlikdə inadkarlıq edir, sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq**" ("ət-Tövbə", 101).

Uca Allah buyurur: "**Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz**", yəni Allah yolunda cihad etmək üçün nə xərcləsəniz, onun əvəzi sizə tam və kamil şəkildə ödənilər.

﴿وَإِن جَنَحُوا۟ لِلسَّلْمِ فَٱجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى ٱللَّهِ ۚ إِنَّهُۥ هُوَ ٱلسَّمِيعُ ٱلْعَلِيمُ ﴿٦١﴾ وَإِن يُرِيدُوٓا۟ أَن يَخْدَعُوكَ فَإِنَّ
حَسْبَكَ ٱللَّهُ ۚ هُوَ ٱلَّذِىٓ أَيَّدَكَ بِنَصْرِهِۦ وَبِٱلْمُؤْمِنِينَ ﴿٦٢﴾ وَأَلَّفَ بَيْنَ قُلُوبِهِمْ ۚ لَوْ أَنفَقْتَ مَا فِى ٱلْأَرْضِ جَمِيعًا
مَّآ أَلَّفْتَ بَيْنَ قُلُوبِهِمْ وَلَٰكِنَّ ٱللَّهَ أَلَّفَ بَيْنَهُمْ ۚ إِنَّهُۥ عَزِيزٌ حَكِيمٌ ﴿٦٣﴾﴾

**61. Əgər onlar sülhə meyil etsələr, sən də ona meyil et və Allaha təvəkkül et! Həqiqətən, O, Eşidəndir, Biləndir.**

**62. Əgər onlar səni aldatmaq istəsələr, bil ki, sənə Allah yetər. O, səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi.**

**63. Allah onların qəlblərini birləşdirdi. Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə onların qəlblərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Həqiqətən, O, Qüdrətlidir, Hikmət sahibidir.**

Uca Allah buyurur ki, bir qövmün əhdi pozacağı ilə xəyanət etməsindən qorxsan, sən də onlara onu pozduğunu bildir. Əgər səninlə döyüşməyə və səninlə mübarizə aparmağa davam etsələr, sən də onlarla döyüş. "**Əgər onlar sülhə meyil etsələr, sən də ona meyil et**" və onlardan bunu qəbul et. Bu səbəbdən müşriklər Hudeybiyyə sülhü bağlanan ili Peyğəmbərlə ﷺ aralarındakı döyüşü doqquz il saxlayıb sülh müqaviləsi bağlamaq istədikdə tələb etdikləri digər şərtlərlə birlikdə Peyğəmbər ﷺ bunu qəbul edi.

Uca Allah buyurur: "**...ona meyil et və Allaha təvəkkül et!**", yəni onlarla sülh müqaviləsi bağla və Allaha təvəkkül et. Həqiqətən, Allah sənə yetər və sənə yardım edəcək. Əgər onlar hiylə işlədib sülh müqaviləsi bağlamaqla sənə qarşı qüvvətlənmək və səninlə döyüşə hazırlıq görmək istəsələr, "**bil ki, sənə Allah yetər**", yəni tək Allah sənə yetər.

Sonra Uca Allah Peyğəmbəri ﷺ mühacir və ənsarlardan ibarət olan möminlər vasitəsilə qüvvətləndirməklə ona verdiyi neməti xatırladaraq buyurur: "**O, səni həm Öz köməyi ilə, həm də möminlərlə qüvvətləndirdi. Allah onların qəlblərini birləşdirdi**", yəni onları sənə iman gətirməkdə, sənə itaət və yardım etməkdə birləşdirdi. "**Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə, onların qəlblərini birləşdirə bilməzdin**", yəni aralarında olan düşmənçilik və kin-küdurətə görə onların qəlblərini birləşdirə bilməzdin. Cahiliyyə dövründə ənsarlardan Əus və Xazrəc qəbilələri arasında bir çox döyüşlər və pis nəticələrə gətirib çıxaran əməllər vardı. Nəhayət, Uca Allah bütün bunlara iman nuru ilə son qoydu. Uca Allah başqa bir ayədə belə buyurur: "**Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir çuxurun lap kənarında ikən O sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola yönələsiniz**" ("Ali-İmran", 103). əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ Huneyndə ələ keçirilən qənimətlərin bölüşdürülməsində yaranan narazılığa görə ənsarlar arasında xütbə verərək dedi: "Ey ənsarlar, sizinlə rastlaşanda azmış halda deyildinizmi?! Allah mənim sayəmdə sizi doğru yola yönəltdi. Sizinlə rastlaşanda kasıb deyildinizmi?! Uca Allah mənim sayəmdə sizə bolluq nəsib etdi. Siz parçalanmış halda idiniz, Uca Allah mənim sayəmdə sizi birləşdirdi". Peyğəmbər ﷺ hər dediyində ənsarlar: "Allah və Onun Elçisi şükür edilməyə daha layiqdirlər" – deyə cavab verirdilər".[1]

Bu səbəbdən Uca Allah ayənin davamında "**Lakin Allah onları birləşdirdi. Həqiqətən, O, Qüdrətlidir, Hikmət sahibidir**" – deyə buyurur. Yəni Ona təvəkkül edənin ümidini boşa çıxarmaz. Etdiklərində və hökmlərində hikmət sahibidir. ən-Nəsəi və əl-Hakim ﷺ rəvayət etmişlər ki, Abdullah ibn Məsud ﷺ Uca Allahın "**Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə onların qəlblərini birləşdirə bilməzdin**" ayəsi barədə belə demişdir: "Onlar bir-birini Allah üçün sevənlərdir". Başqa bir rəvayətdə isə belə demişdir: "Bu ayə bir-birini Allah üçün sevənlər barədə nazil olmuşdur". əl-Hakim ﷺ hədisin səhih olduğunu demişdir.[2]

[1] əl-Buxari, 3985, 4330; Muslim, 1061/139, 1758, 2493.
[2] ən-Nəsəi "Sunənul-Kubra" 11210; əl-Hakim (2/329).

Mucahid ﷺ demişdir: "Bir-birini Allah üçün sevən iki adam görüşdükdə, onlardan biri digərinin əlini tutub onun üzünə gülümsədikdə hər ikisinin günahları ağac yarpaqlarının töküldüyü kimi tökülər". Abdə (hədisi Mucahiddən eşidən ravi) dedi: "Mən dedim: "Bu ki çox asandır". Mucahid dedi: "Elə demə! Uca Allah buyurur: "**Əgər sən yer üzündə olanların hamısını sərf etsəydin belə onların qəlblərini birləşdirə bilməzdin**". Abdə dedi: "Anladım ki, o, məndən daha anlayışlı və daha elmlidir".[1]

ət-Təbərani ﷺ Salman əl-Farisidən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Bir müsəlman başqa bir müsləman qardaşı ilə rastlaşıb (salamlaşmaq üçün) onun əlini tutarsa, günahları fırtınalı bir gündə quru ağacdan yarpaqların töküldüyü kimi tökülər. Sonda günahları dənizlərin köpükləri qədər olsa belə, bağışlanarlar".[2]

﴿يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ حَسْبُكَ ٱللَّهُ وَمَنِ ٱتَّبَعَكَ مِنَ ٱلْمُؤْمِنِينَ ﴿٦٤﴾ يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ حَرِّضِ ٱلْمُؤْمِنِينَ عَلَى ٱلْقِتَالِۚ
إِن يَكُن مِّنكُمْ عِشْرُونَ صَٰبِرُونَ يَغْلِبُوا۟ مِا۟ئَتَيْنِۚ وَإِن يَكُن مِّنكُم مِّا۟ئَةٌ يَغْلِبُوٓا۟ أَلْفًا مِّنَ ٱلَّذِينَ كَفَرُوا۟
بِأَنَّهُمْ قَوْمٌ لَّا يَفْقَهُونَ ﴿٦٥﴾ ٱلْـَٔـٰنَ خَفَّفَ ٱللَّهُ عَنكُمْ وَعَلِمَ أَنَّ فِيكُمْ ضَعْفًاۚ فَإِن يَكُن مِّنكُم مِّا۟ئَةٌ صَابِرَةٌ
يَغْلِبُوا۟ مِا۟ئَتَيْنِۚ وَإِن يَكُن مِّنكُمْ أَلْفٌ يَغْلِبُوٓا۟ أَلْفَيْنِ بِإِذْنِ ٱللَّهِۗ وَٱللَّهُ مَعَ ٱلصَّٰبِرِينَ ﴿٦٦﴾﴾

**64. Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə Allah kifayət edər.**

**65. Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır. Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən fminine qalib gələr. Çünki onlar anlamayan adamlardır.**

**66. İndi Allah sizin yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi. Əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda min səbirli kişi olsa, Allahın izni ilə kafirlərdən iki mininə qalib gələr. Allah səbir edənlərlədir.**

---

[1] ət-Təbəri, 16259, 16336.

[2] ət-Təbərani "əl-Kəbir" əsəri, 6027, 6150. əl-Heysəmi "əz-Zəvaid" (8/40) əsərində demişdir: "Hədisin raviləri "Səhih" əsərinin hədislərini rəvayət edənlərdir, yalnız Səlim ibn Ğayləndən başqa, o da mötəbər ravidir". Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 6663.

Uca Allah bu ayələrdə Öz Peyğəmbərini ﷺ və möminləri döyüşə, düşmənlərinə və əleyhdarlarına qarşı mübarizəyə təşviq edərək Allahın onlara kifayət edəcəyini, yəni möminlərin sayı az, düşmənlərin sayı çox olub bir-birinin ardınca gəlsələr belə onlara yardım edəcəyini, onları düşmənlərinə qarşı qüvvətləndirəcəyini xəbər verir. əş-Şabi ﷺ Uca Allahın “**Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə Allah kifayət edər**” ayəsi barədə belə demişdir: “Allah sənə və səninlə birlikdə döyüşdə iştirak edənlərə yetər”. Əta əl-Xorasani və Abdur-Rahmən ibn Zeyddən ﷺ də oxşar təfsir rəvayət edilmişdir.

Uca Allah buyurur: “**Ey Peyğəmbər! Möminləri döyüşə ruhlandır**”, yəni möminləri döyüşə rəğbətləndir, onları döyüşə çağır. Buna görə də Peyğəmbər ﷺ düşmənlə qarşılaşdıqda səhabələrini səflərə düzərkən onları döyüşə təşviq edərdi. Necə ki Bədr döyüşü günü müşriklər çox sayda və hazırlıqlı vəziyyətdə möminlərin qarşısında dayandığı zaman Peyğəmbər ﷺ səhabələrinə belə dedi: “Genişliyi göylər və yer qədər olan Cənnətə tələsin!” Umeyr ibn əl-Huməm: “Genişliyi göylər və yer qədərmi?” – deyə soruşdu. Peyğəmbər ﷺ: “Bəli” – dedikdə, Umeyr: “Bəh-bəh” – dedi. Peyğəmbər ﷺ: “Səni “bəh-bəh” deməyə vadar edən nədir?” – deyə soruşduqda, Umeyr: “Onun əhlindən olmaq ümidi” – dedi. Peyğəmbər ﷺ: “Sən, həqiqətən, onun əhlindənsən” – dedi. Umeyr düşmənə tərəf irəlilədi və qılıncının qınını qırdı. Bir az xurma çıxarıb onlardan yeməyə başladı. Bir-iki xurma yedikdən sonra qalanlarını qabı ilə birlikdə əlindən atıb “Bu xurmaların hamısını yemək üçün yaşamaq uzun bir həyatdır” – deyərək düşmənin üzərinə getdi və öldürülənə qədər döyüşdü. Allah ondan razı olsun![1]

Sonra Uca Allah möminləri müjdələyərək belə əmr edir: “**Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən mininə qalib gələr**”, yəni bir möminə qarşılıq on kafir. Sonra Uca Allah bu əmri nəsx (ləğv) etmiş, lakin müjdə qalmışdır. İbn Abbas ﷺ rəvayət edir ki, Uca Allahın “**Əgər aranızda iyirmi səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr...**” ayəsi nazil olduqda hər on nəfər müşrikin müqabilində bir nəfər müsəlmanın olması fərz buyuruldu və bu əmr müsəlmanlara çox ağır gəldi. Bu vaxt Uca Allah bu əmri onlara asanlaşdırmaq üçün bu ayəni nazil etdi: “**İndi Allah sizin yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə zəiflik olduğunu bilirdi. Əgər aranızda yüz səbirli kişi olsa, kafirlərdən iki yüzünə qalib gələr; əgər aranızda min səbirli kişi olsa, Allahın izni**

[1] Muslim, 1901/145, 3520, 5024.

**ilə kafirlərdən iki mininə qalib gələr. Allah səbir edənlərlədir**". Uca Allah möminlərə sayı yüngülləşdirdi, yüngülləşdirilən say qədər də səbri azaltdı.[1]

﴿مَا كَانَ لِنَبِيٍّ أَن يَكُونَ لَهُۥٓ أَسْرَىٰ حَتَّىٰ يُثْخِنَ فِى ٱلْأَرْضِ ۚ تُرِيدُونَ عَرَضَ ٱلدُّنْيَا وَٱللَّهُ يُرِيدُ ٱلْـَٔاخِرَةَ ۗ وَٱللَّهُ
عَزِيزٌ حَكِيمٌ ﴿٦٧﴾ لَّوْلَا كِتَٰبٌ مِّنَ ٱللَّهِ سَبَقَ لَمَسَّكُمْ فِيمَآ أَخَذْتُمْ عَذَابٌ عَظِيمٌ ﴿٦٨﴾ فَكُلُوا۟ مِمَّا غَنِمْتُمْ حَلَٰلًا طَيِّبًا ۚ
وَٱتَّقُوا۟ ٱللَّهَ ۚ إِنَّ ٱللَّهَ غَفُورٌ رَّحِيمٌ ﴿٦٩﴾﴾

**67. Peyğəmbərə yer üzündə çoxlu kafir qırmayınca əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə axirəti qazanmağınızı istəyir. Allah Qüdrətlidir, Hikmət sahibidir.**

**68. Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı, aldığınız fidyə müqabilində sizə böyük bir əzab toxunardı.**

**69. Ələ keçirdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin və Allahdan qorxun. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.**

İmam Əhməd ﵀ Ənəsdən ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Bədr döyüşündə əsir götürülənlər barədə səhabələrlə məsləhətləşdi və dedi: "Allah onları sizin ixtiyarınıza vermişdir". Ömər ibn əl-Xattab ﵁ qalxıb dedi: "Ey Allahın Elçisi, onların boyunlarını vur!" Peyğəmbər ﷺ onun sözünə məhəl qoymadı və bir daha mürciət edərək dedi: "Ey insanlar, onlar sizin dünənki qardaşlarınızdır, bu gün Allah onları sizdən asılı vəziyyətə salmışdır". Ömər ﵁ yenə "Ey Allahın Elçisi, onların boyunlarını vur!" – dedi. Peyğəmbər ﷺ bu dəfə də ona məhəl qoymadı və dediyini səhabələrə bir daha təkrarladı. Əbu Bəkr ﵁ dedi: "Ey Allahın Elçisi! Mən təklif edirəm ki, onları əfv edəsən və fidyə qarşılığında azad edəsən". Əbu Bəkrin ﵁ sözündən sonra Peyğəmbərin ﷺ üzündəki kədər keçdi və onları əfv edib fidyə qarşılığında azad etdi. Uca Allah da bu ayəni nazil etdi: "**Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı, aldığınız fidyə müqabilində sizə böyük bir əzab toxunardı**". Bu surənin əvvəlində Muslimin "Səhih" əsərində İbn Abbasdan ﵄ rəvayət olunan oxşar hədis keçmişdir.[2]

---

[1] əl-Buxari (4653) oxşar mətnlə rəvayət etmişdir. **əl-Buxari, 4286, 4653.**

[2] "əl-Ənfal" surəsinin 10-cu ayəsinin təfsirinə bax. Əhməd, 13555, 13580, 13590. Şueyb əl-Arnavut hədisin "həsən li-ğeyrihi" olduğunu bildirmişdir.

Rəvayət edilir ki, bir dəfə İbn Abbas ﵄ Uca Allahın "**Peyğəmbərə yer üzündə çoxlu kafir qırmayınca əsir götürmək yaraşmaz**" ayəsini "**aldığınız fidyə müqabilində sizə böyük bir əzab toxunardı**" hissəsinə çatana qədər oxudu və belə dedi: "Burada qənimət halal edilməzdən əvvəl Bədr döyüşündə əldə olunan qənimətlər nəzərdə tutulur. Uca Allah buyurur: "Mənə asi olan qula yaxınlaşmamış (yəni qulun tövbə etməsinə fürsət və möhlət verməmiş) ona əzab verməyəcəyimə dair bir vədim olmasaydı, götürdüyünüz fidyəyə görə sizə böyük bir əzab toxunardı".[1] Mucahid ﵀ də belə demişdir. əl-Əmaş ﵀ demişdir: "Uca Allah Bədr döyüşündə iştirak edənlərə əzab verməyəcəyinə əzəldən hökm vermişdir". Oxşar rəvayət Sad ibn Əbu Vəqqas, Səid ibn Cubeyr və Ətadan da nəql edilmişdir. Rəvayət edilir ki, İbn Abbas ﵄ Uca Allahın "**Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı**" ayəsi barədə belə demişdir: "Yəni qənimətlərin və əsirlərin sizə halal olduğuna dair Lövhi-Məhfuzda bir hökm olmasaydı, götürdüyünüz əsirlərə görə "**sizə böyük bir əzab toxunardı**". Uca Allah buyurur: "**Ələ keçirdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin və Allahdan qorxun. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir**".[2] Əbu Hureyra, İbn Məsud, Səid ibn Cubeyr, Əta və başqalarından da eyni təfsir rəvayət edilmişdir. İbn Cərir ﵀ də bu rəyi seçmişdir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Cabir ibn Abdullahdan ﵄ rəvayət edilən bu hədis bu rəyin doğruluğuna dəlil olaraq gətirilir: "Peyğəmbər ﷺ demişdir: "Mənə beş xislət verilib ki, bunlar məndən əvvəl heç bir kəsə verilməmişdir: "Bir ay əvvəldən düşmənin qəlbinə qorxu salaraq ona qalib gəlməyim; yer üzünün mənim üçün pak və namazgah olması, belə ki, ümmətimdən olan hər bir kəs istənilən yerdə vaxtı girmiş namazı qılmalıdır; qənimətlərin mənə halal olması, belə ki, bu, məndən qabaq heç bir peyğəmbərə halal olmamışdır; Qiyamət günü tərifəlayiq məqamda şəfaət verməyim; və bir də hər bir peyğəmbər yalnız öz qövmünə göndərilərdi, mən isə bütün insanlara göndərilmişəm".[3]

Bu səbəbdən Uca Allah: "**Ələ keçirdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin və Allahdan qorxun. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir**" – deyə buyurur. Bu ayədən sonra müsəlmanlar əsirlərin azad edilməsi müqabilində fidyə almağa başladılar. Əbu Davud ﵀ İbn Abbasdan ﵄ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Bədr döyüşü günü ələ keçirilən hər bir əsirin azad edilməsi müqabilində alınan fidyənin miqdarını dörd yüz dinar müəyyən etdi.[4]

---

[1] İbn Əbu Hatim, 9172.

[2] ət-Tabəri, 16296, 16373.

[3] əl-Buxari, 323, 335; Muslim, 3/521, 810, 1191.

[4] Əbu Davud, 2691. Hədis "dörd yüz" sayının zikr olunması istisna olmaqla, səhihdir. Bax:

Əksər alimlərə görə əsirlər barədə hökm belədir ki, imam (dövlət başçısı) onlar haqqında seçim etmək ixtiyarına malikdir. İstəsə, Bənu Qureyza qəbiləsinə edildiyi kimi, onları öldürər, istəsə, Bədr döyüşündə əsir alınanlara edildiyi kimi onları fidyə qarşılığında və ya müsəlmanlardan əsir olanlar qarşılığında sərbəst buraxar. Necə ki Peyğəmbər ﷺ Sələmə ibn Əkva qəbiləsindən olan kölə bir qadınla onun qızını qaytarıb qarşılığında müşriklərin əlində olan müsəlmanları almışdı. İmam istəsə, əsir alınanlardan bəzilərini kölə kimi saxlaya bilər. Bu, İmam əş-Şafiinin və bir çox alimlərin məzhəbidir. Bu məsələdə alimlər arasında başqa bir ixtilaf da var. Bu mövzu fiqh kitablarında təfsilatlı şəkildə izah edilmişdir.

﴿يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ قُل لِّمَن فِيٓ أَيۡدِيكُم مِّنَ ٱلۡأَسۡرَىٰٓ إِن يَعۡلَمِ ٱللَّهُ فِي قُلُوبِكُمۡ خَيۡرٗا يُؤۡتِكُمۡ خَيۡرٗا مِّمَّآ أُخِذَ مِنكُمۡ
وَيَغۡفِرۡ لَكُمۡۚ وَٱللَّهُ غَفُورٞ رَّحِيمٞ ٧٠ وَإِن يُرِيدُواْ خِيَانَتَكَ فَقَدۡ خَانُواْ ٱللَّهَ مِن قَبۡلُ فَأَمۡكَنَ مِنۡهُمۡۗ وَٱللَّهُ
عَلِيمٌ حَكِيمٌ ٧١﴾

**70. Ey Peyğəmbər! Əlinizdə olan əsirlərə de: "Əgər Allah qəlbinizdə xeyir olduğunu bilsə, sizdən alınan fidyədən daha xeyirlisini sizə verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir".**

**71. Əgər əsirlər sənə xəyanət etmək istəsələr, bilin ki, onlar bundan əvvəl Allaha xəyanət etmişdilər. Allah möminlərə onların öhdəsindən gəlməyə imkan vermişdi. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

İbn İshaq رحمه الله Abdullah ibn Abbasdan رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Bədr döyüşü günü belə dedi: "Mən bilirəm ki, Bənu Haşim qəbiləsindən və başqa qəbilələrdən bəzi insanlar bizimlə döyüşə istəmədən, məcbur edilərək evlərindən çıxarılmışlar. Sizdən kim döyüşdə onlardan, yəni Bənu Haşim qəbiləsindən birinə rast gəlsə, onu öldürməsin. Kim Əbul-Bəxtəri ibn Hişamla qarşılaşsa, onu öldürməsin. Kim Abbas ibn Abdulmuttaliblə qarşılaşsa, onu öldürməsin. Çünki o, evindən məcbur edilərək çıxarılmışdır. Əbu Huzeyfə ibn Utbə belə dedi: "Atalarımızı, övladlarımızı, qardaşlarımızı və həmqəbilələrimizi öldürüb Abbası sağ buraxacağıqmı? Allaha and olsun ki, qarşıma çıxsa, onu qılıncla öldürəcəyəm". Əbu Huzeyfənin bu sözü Peyğəmbərə ﷺ çatdıqda, o, Ömər ibn əl-Xattabdan: "Ey Əbu Hafs, (Ömər dedi: "Allaha and olsun ki,

İrvaul-Ğalil, 1218.

Peyğəmbər məni ilk dəfə künyəm[1] ilə çağırırdı") heç Peyğəmbərin əmisinin üzünə qılıncla vurularmı?" – deyə soruşdu. Ömər dedi: "Ey Allahın Elçisi, mənə izin ver, bu adamın boynunu vurum. Allaha and olsun ki, o, münafiqdir". Əbu Huzeyfə bundan sonra belə deyərdi: "Allaha and olsun ki, dediyim bu sözdən sonra heç vaxt əmin-amanlıqda olmadım və Allah kəffarə olaraq mənə şəhidliyi nəsib edənə qədər bu dediyim sözdən qorxmağa davam edəcəyəm". Nəhayət, o, Yəmamə döyüşündə şəhid oldu. Allah ondan razı olsun.[2]

İbn İshaq ﷫ demişdir: "Bədr döyüşündə əsir alınanlar içərisində azad olunması qarşılığında ən çox fidyə ödəyən Abbas ibn Abdulmuttalib ﷛ olmuşdu. Çünki o, zəngin idi və azad olunması qarşılığında yüz övqiyə[3] qızıl vermişdi. əl-Buxarinin "Səhih" əsərində Ənəs ibn Malikdən ﷛ rəvayət edilir ki, ənsardan olan bəzi adamlar Peyğəmbərdən ﷺ izin istəyib dedilər: "Ey Allahın Elçisi, izin ver, bacımız oğlu Abbasa görə verilmiş fidyəni götürməyək". Peyğəmbər ﷺ buyurdu: "Onun azad edilməsi üçün verilmiş fidyədən bir dirhəm belə olsun, saxlamayın!"[4]

Muhəmməd ibn İshaq ﷫ demişdir: "Qureyş əsirlərin azad olunması müqabilində verilən fidyələri Peyğəmbərə ﷺ göndərdi. Hər qəbilə razılaşdıqları qədər fidyə vermişdi. Abbas ﷛ dedi: "Ey Allahın Elçisi, mən müsəlman idim". Peyğəmbər ﷺ dedi: "Sənin müsəlman olduğunu Allah bilir. Əgər dediyin kimidirsə, şübhəsiz, Allah sənə bunun mükafatını verəcək. Lakin zahirən sən bizim əleyhimizə idin. Odur ki, özünün, qardaşının iki oğlu – Nofəl ibn Həris ibn Abdulmuttalib və Əqil ibn Əbu Talib ibn Abdulmuttalibin, bir də müttəfiqin Bənu Həris ibn Fihr qəbiləsindən Utbə ibn Amrın fidyələrini ödə!" Abbas ﷛ dedi: "Ey Allahın Elçisi, bu qədər mal mənim üstümdə yoxdur". Peyğəmbər ﷺ dedi: "Sən və (zövcən) Ummul-Fadlın basdırdığınız mal haradadır? Sən ona "Bu mal oğullarım Fadl, Abdullah və Qusəmindir" – demişdin". Abbas dedi: "Allaha and olsun ki, ey Allahın Elçisi, mən sənin, həqiqətən, Allahın Elçisi olduğunu yəqinliklə bilirəm. Bu elə bir şey idi ki, bunu mən və zövcəm Ummul-Fadldan başqa heç kim bilmirdi. Ey Allahın Elçisi, üstümdən qənimət kimi götürdüyünüz iyirmi övqiyəni mənim üçün fidyədən

---

[1] Künyə – övlad atası və ya anası olmasına görə verilərək kişilərdə əsasən أَبُو [əbu] (ata), qadınlarda isə أُمُّ [ummu] (ana) sözləri ilə başlanan izafə şəkilli xüsusi isimlərdir. Məsələn: Əbu Xalid (Xalidin atası).

[2] İbn Hişamın "əs-Sira ən-Nəbəviyyə" əsəri (2/271); əl-Beyhəqi "Dəlailun-Nubuvvə" 3/141.

[3] Bir övqiyə 40 dirhəmə, bu isə təqribən 250 qram qızıla bərabər idi. 100 övqiyə 4000 dirhəmə bərabərdir.

[4] əl-Buxari, 2821, 3048.

hesablayın". Peyğəmbər ﷺ dedi: "Xeyr, bu Allahın səndən bizə verdiyi qənimətdir". Abbas özü, qardaşlarının oğulları və müttəfiqi üçün tələb olunan fidyələri ödədi. Uca Allah bu xüsusda "**Ey Peyğəmbər! Əlinizdə olan əsirlərə de: "Əgər Allah qəlbinizdə xeyir olduğunu bilsə, sizdən alınan fidyədən daha xeyirlisini sizə verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir**" ayəsini nazil etdi. Abbas ﷺ dedi: "Uca Allah iyirmi övqiyənin əvəzinə, mənə iyirmi kölə verdi. Onların hər birinin də əlində işlədəcəyi malı vardı. Üstəlik mən Uca Allahın məni bağışlayacağına da ümid edirəm".[1]

İbn Abbas ﷺ Uca Allahın "**Ey Peyğəmbər! Əlinizdə olan əsirlərə de**" ayəsində Abbas və yoldaşlarının nəzərdə tutulduğunu bildirmişdir. İbn Abbas ﷺ demişdir: "Onlar Peyğəmbərə ﷺ: "Biz sənin gətirdiyinə iman gətirdik, sənin Allahın Elçisi olduğuna şahidlik edirik və qövmümüzə qarşı sənə sadiq olacağıq" – dedilər. Uca Allah da bu ayəni nazil etdi: "**Əgər Allah qəlbinizdə xeyir olduğunu bilsə, sizdən alınan fidyədən daha xeyirlisini sizə verər**", yəni sizə iman və təsdiq verər. Sizdən alınan maldan daha xeyirlisini sizə bəxş edər "**və sizi bağışlayar**", yəni bundan əvvəl Allaha şərik qoşmağınızı sizə bağışlayar. Abbas ﷺ belə deyərdi: "Bu ayə bizim barəmizdə nazil olmasaydı və əvəzində dünya mənim olsaydı, bunu istəməzdim. Həqiqətən, Uca Allah: "**sizdən alınan fidyədən daha xeyirlisini sizə verər**" – deyə buyurur. Uca Allah məndən alınan maldan yüz qat daha xeyirlisini mənə vermişdir. Həmçinin "**və sizi bağışlayar**" buyurur ki, mən bağışlanacağıma ümid edirəm".[2]

Uca Allah buyurur: "**Əgər əsirlər sənə xəyanət etmək istəsələr**", yəni əgər sənə dedikləri sözlərlə sənə xainlik etmək istəsələr, "**bilin ki, onlar bundan əvvəl Allaha xəyanət etmişdilər**", yəni Bədr döyüşündə əsir düşməzdən əvvəl küfr etməklə Allaha xəyanət etmişdilər. "**Allah möminlərə onların öhdəsindən gəlməyə imkan vermişdi**", yəni Bədr döyüşündə onları əsir almağa imkan vermişdi. "**Allah hər şeyi biləndir, hikmət sahibidir**", yəni Allah etdiklərini ən yaxşı biləndir və etdiklərində hikmət sahibidir. Qatədə ﷺ demişdir: "Bu ayə dindən dönüb müşriklərə qoşulan, Peyğəmbərə ﷺ nazil olan vəhyi yazanlardan biri olan Abdullah ibn Sad ibn Əbu Sərh barədə nazil olmuşdur". İbn Abbas ﷺ demişdir: "Bu ayə Abbas və onun yoldaşları barədə nazil olmuşdur. O vaxt onlar Peyğəmbərə ﷺ: "Qövmümüzə qarşı sənə sadiq olacağıq" – demişdilər". əs-Suddi ﷺ isə bu ayəni daha geniş mənada, yəni daha ümumi və daha aydın təfsir etmişdir. Ən doğrusunu Allah bilir.

[1] əl-Beyhəqi "Sunənul-Kubra" 12628, 13229; əl-Hakim, 5409.
[2] ət-Təbəri, 15326, 15328, 16403, 16405.

﴿إِنَّ ٱلَّذِينَ ءَامَنُوا۟ وَهَاجَرُوا۟ وَجَٰهَدُوا۟ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ فِى سَبِيلِ ٱللَّهِ وَٱلَّذِينَ ءَاوَوا۟ وَّنَصَرُوٓا۟ أُو۟لَٰٓئِكَ
بَعْضُهُمْ أَوْلِيَآءُ بَعْضٍ ۚ وَٱلَّذِينَ ءَامَنُوا۟ وَلَمْ يُهَاجِرُوا۟ مَا لَكُم مِّن وَلَٰيَتِهِم مِّن شَىْءٍ حَتَّىٰ يُهَاجِرُوا۟ ۚ وَإِنِ ٱسْتَنصَرُوكُمْ فِى
ٱلدِّينِ فَعَلَيْكُمُ ٱلنَّصْرُ إِلَّا عَلَىٰ قَوْمٍۭ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَٰقٌ ۗ وَٱللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ ٧٢﴾

**72. Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsar – məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür.**

Bu ayədə Uca Allah (Peyğəmbərin ﷺ dövründə yaşayan) möminlərin qisimlərini zikr edib onları sihiflərə bölür. **Birincisi,** yurdlarını və mal-dövlətlərini tərk edib Allaha və Onun Elçisinə ﷺ yardım etmək, Allahın dinini yaşatmaq üçün gələn və bu yolda mallarını və canlarını fəda edən mühacirlərdir. **İkincisi,** ənsarlardır. Ənsarlar Mədinə əhalisindən olan, hicrət edən qardaşlarını evlərində saxlayıb onlara mallarından xərcləyən, onlarla birlikdə döyüşməklə Allaha və Onun Elçisinə ﷺ yardım edən müsəlmanlardır. “**Məhz onlar bir-birinin dostlarıdır**”, yəni onlar bir-birlərinə başqalarından daha çox layiqdirlər. Bu səbəbdən Peyğəmbər ﷺ mühacir və ənsarları bir-birinə, yəni bir mühaciri bir ənsarla qardaş etdi. Onlar bir-birinin varisi olurdular və bu qardaşlıq sayəsində mirasa qohumlardan daha çox haqları çatırdı. Nəhayət, miras ayəsinin[1] nazil olması ilə bu vərəsəlik Uca Allah tərəfindən qaldırıldı. Bu xüsus əl-Buxarinin “Səhih” əsərində İbn Abbasdan rəvayət edilir.[2] Mucahid, İkrimə, əl-Həsən, Qatədə və başqaları da belə demişlər.

Uca Allah Quranın bir çox ayələrində, Onun Elçisi ﷺ isə bir çox hədislərdə mühacirlərlə ənsarları tərifləmişlər. Necə ki Uca Allah bu ayələrdə belə buyurur: “**Dində hamını ötüb-keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır.**

---

[1] “**Hər kəs üçün valideynlərin və yaxın qohumların qoyub getdikləri maldan öz paylarını alacaq varislər təyin etdik**” (“ən-Nisa”, 33).

[2] əl-Buxari, 6250, 6747. Bu hədis “ən-Nisa” surəsinin 33-cü ayəsinin təfsirində keçmişdir.

**Bu, böyük uğurdur**" ("ət-Tövbə", 100); "**Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarın da əvvəlcə tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir**" ("ət-Tövbə", 117); "**Qənimət, həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun rəsuluna kömək edirlər. Doğru olanlar da məhz onlardır. Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır**" ("əl-Həşr", 8-9).

Uca Allahın "...**onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar**" ("əl-Həşr", 9) ayəsi barədə deyilən ən gözəl təfsir budur: "Mühacirlər hicrət etdiklərinə və Allahın onlara verdiyi üstünlüyə görə ənsarlar onlara həsəd aparmazlar". Ayələrin zahirindən aydın olur ki, mühacirlər ənsardan üstün tutulmuşlar. Bu, alimlər arasında yekdilliklə qəbul olunan bir xüsusdur və alimlər bu məsələdə fikir ayrılığına düşməmişlər.

Uca Allah buyurur: "**İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə, onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz**". Bunlar, **üçüncü** qisim möminlərdir ki, onlar iman gətirmiş, lakin hicrət etməyərək öz yurdlarında qalmışlar. Bu qisim möminlərin, döyüşdə iştirak edənlər istisna olmaqla, nə qənimətdən, nə də qənimətin beşdə birindən payları yoxdur. Necə ki İmam Əhməd ﷺ Bureydə ibn əl-Huseyb əl-Əsləmidən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ döyüşə göndərmək üçün ayırdığı dəstəyə və ya orduya başçı təyin etdikdə, ilk növbədə, ona Allahdan qorxmağı, onunla birlikdə olan müsəlmanlara isə xeyirli işlər görməyi tövsiyə edər və belə deyərdi: "Allah yolunda Allahın adı ilə döyüşün! Allahı inkar edənlərə qarşı döyüşün! Müşriklərdən ibarət düşmənlə qarşılaşsan, onları bu üç şeydən birinə dəvət et. Hansı biri ilə razılaşsalar, bunu onlardan qəbul et və onları burax. Əvvəlcə, onlara İslamı qəbul etməyi təklif et. Əgər razılaşsalar, onlardan bunu qəbul et və onları burax. Sonra onlara öz yurdlarından çıxıb mühacirlərin yurduna (Mədinəyə) köçməyi təklif et və onlara bildir ki, bunu etsələr, mühacirlərin xeyrinə olanlar onların da xeyrinə, mühacirlərin əleyhinə olanlar isə onların da əleyhinə olacaq. Bunu qəbul etməyib öz yurdlarında qalmağı seçsələr, onlara müsəlman bədəvilər kimi olacaqlarını bildir. Belə olan

təqdirdə Allahın digər möminlərə tətbiq olunan hökmü onlara da tətbiq olunacaq və müsəlmanlarla cihadda iştirak edənlər istisna olmaqla, kafirlərdən əldə olunan qənimətdən payları olmayacaq. Əgər onlar bunu da qəbul etməsələr, onları cizyə (can vergisi) verməyə çağır. Əgər razılaşsalar, bunu onlardan qəbul et və onları burax. Əgər bunu da qəbul etməsələr, Allahdan yardım diləyərək onlarla döyüş". Hədisi Muslim də rəvayət etmişdir, onun rəvayətində başqa əlavələr də vardır.[1]

Uca Allah buyurur: "**Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə yardım istisna olmaqla, kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür**". Uca Allah bu ayədə belə buyurur: "Əgər hicrət etməyən bədəvi ərəblər Mənim dinim uğrunda döyüşmək üçün düşmənlərinə qarşı sizdən yardım istəsələr, onlara yardım edin. Onlara yardım etmək sizə vacibdir, çünki onlar sizin din qardaşlarınızdır. Lakin əgər "**sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə**", yəni sizinlə aralarında müəyyən bir müddətə sülh müqaviləsi olan kafirlərdən bir qövm əleyhinə sizdən yardım istəsələr, siz əhd bağladığınız kəslərlə əhdinizi pozmayın". Bu təfsir İbn Abbasdan rəvayət edilmişdir.

﴿وَٱلَّذِينَ كَفَرُواْ بَعۡضُهُمۡ أَوۡلِيَآءُ بَعۡضٍۚ إِلَّا تَفۡعَلُوهُ تَكُن فِتۡنَةٞ فِي ٱلۡأَرۡضِ وَفَسَادٞ كَبِيرٞ ٧٣﴾

**73. Kafirlər də bir-birinə dostdurlar. Əgər siz buna əməl etməsəniz, yer üzündə fitnə və böyük bir fəsad baş verər.**

Uca Allah əvvəlki ayədə möminlərin bir-birinin dostu olduğunu zikr etdikdən sonra bu ayədə möminlərlə kafirlər arasında dostluğun olmadığını bildirir. əl-Hakim Usamədən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ: "İki müxtəlif din mənsubları bir-birinin varisi ola bilməz. Müsəlman kafirin, kafir isə müsəlmanın varis ola bilməz" – dedi, sonra isə Uca Allahın "**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bir-birinizə yardımçı olmasanız, yer üzündə fitnə və böyük bir fəsad baş verər**" ayəsini oxudu. Sonra əl-Hakim demişdir: "Hədisin isnadı səhihdir, lakin əl-Buxari və Muslim rəvayət etməmişlər".[2]

Mən deyirəm: "Hədis əl-Buxari və Muslimin "Səhih" əsərlərində Usamə ibn Zeyddən bu şəkildə rəvayət olunur: "Peyğəmbər ﷺ demişdir: "Müsəlman kafirin, kafir isə müsəlmanın varis olmaz".[3]

[1] Əhməd, 5/352, 23028, 23366; Muslim, 1731/3, 3261, 4619.
[2] əl-Hakim, 2/240, 2944. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 7613.
[3] əl-Buxari, 6267, 6764; Muslim, 1614/1, 3027, 4225.

Uca Allah buyurur: "**Əgər siz buna əməl etməsəniz, yer üzündə fitnə və böyük bir fəsad baş verər**", yəni əgər siz müşriklərdən uzaq durub möminləri özünüzə dost tutmasanız, insanlar arasında fitnə baş verər. Bu fitnə isə haqla batili ayırd etməyin mümkün olmaması və möminlə kafirin qarışmasıdır. Bununla da insanlar arasında çox yayılan və uzun-uzadı davam edən böyük bir fəsad meydana gələr.

﴿وَٱلَّذِينَ ءَامَنُواْ وَهَاجَرُواْ وَجَٰهَدُواْ فِي سَبِيلِ ٱللَّهِ وَٱلَّذِينَ ءَاوَواْ وَّنَصَرُوٓاْ أُوْلَٰٓئِكَ هُمُ ٱلۡمُؤۡمِنُونَ حَقّٗاۚ لَّهُم مَّغۡفِرَةٞ
وَرِزۡقٞ كَرِيمٞ ٧٤ وَٱلَّذِينَ ءَامَنُواْ مِنۢ بَعۡدُ وَهَاجَرُواْ وَجَٰهَدُواْ مَعَكُمۡ فَأُوْلَٰٓئِكَ مِنكُمۡۚ وَأُوْلُواْ ٱلۡأَرۡحَامِ بَعۡضُهُمۡ
أَوۡلَىٰ بِبَعۡضٖ فِي كِتَٰبِ ٱللَّهِۚ إِنَّ ٱللَّهَ بِكُلِّ شَيۡءٍ عَلِيمُۢ ٧٥﴾

**74. İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər və sığınacaq verib köməklik göstərənlər – məhz onlar həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bolluca ruzi vardır.**

**75. Sonradan iman gətirənlər, hicrət edib sizinlə bərabər cihad edənlər də sizdəndirlər. Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar. Həqiqətən, Allah hər şeyi bilir.**

Uca Allah əvvəlki ayələrdə möminlərin dünyadakı hökmünü zikr etdikdən sonra bu ayələrdə Axirətdə onlar üçün nələr olacağını zikr etmiş və onların həqiqi imana sahib olduqlarını bildirmişdir. Bu xüsus, surənin əvvəlində də keçmişdir. Uca Allah onları bağışlanma və əgər günahları varsa, əfv etməklə mükafatlandıracağını, onlara gözəl, bol, təmiz, şərəfli, davamlı, əbədi olan, tükənməyən, bitməyən, gözəl və növbənöv olduğu üçün Cənnət əhlinin bezməyəcəyi ruzilər bəxş edəcəyini xəbər verir. Sonra Uca Allah dünyada ikən iman və saleh əməllərdə möminlərə tabe olanların Axirətdə də onlarla birlikdə olacağını xəbər verir. Necə ki başqa ayələrdə belə buyurmuşdur: "**Dində hamını ötüb-keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur**" ("ət-Tövbə", 100); "**Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!**" ("əl-Həşr", 10). əl-Buxari və Muslimin ﵄ rəvayət etdiyi mutəvatir bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İnsan Qiyamət günü dünyada sevdikləri ilə birlikdə olacaq".[1]

[1] əl-Buxari, 5702, 6168; Muslim, 2640/165, 4779, 6888.

Uca Allah buyurur: “**Qohumlar Allahın Kitabına görə bir-birinə varis olmağa daha yaxındırlar**”, yəni Allahın hökmündə qohumlar bir-birinə varis olmağa daha yaxındırlar. Ayədə أُولُو الأَرْحَامِ [ulul-ərhəm] “**qohumlar**” dedikdə, “əl-Fəraid” [1] alimlərinin nəzərdə tutduqları xala, dayı, bibi, qız övladlarının uşaqları, bacıların uşaqları və s. bu kimi mirasdan payı olmayan və əsabə yolu ilə[2] varis olmayan varisin qohumları nəzərdə tutulmur.[3] Bəziləri bu ayənin bu məsələdə (bütün qohumlara mirasdan pay düşməsinə) açıq-aydın dəlil olduğunu iddia etmişlər və bu ayənin ümumi olub bütün qohumluqları əhatə etdiyini demişlər. Necə ki İbn Abbas, Mucahid, İkrimə, əl-Həsən, Qatədə və digərləri bu ayənin İslamın əvvəlində əhd bağlamaq və qardaşlıqla (Peyğəmbər ﷺ Mədinəyə gəldikdə ənsarlarla mühacirləri qardaş etməsi ilə) bir-birinə varis olmağı nəsx (ləğv) etdiyini bildirmişlər. Buna əsasən ayə bütün qohumları əhatə edir, şəriətdə payı olmayan qohumları varis etməyənlər isə başqa dəlillərə əsaslanmışlar. Bu dəlillərin ən qüvvətlisi Peyğəmbərin ﷺ bu sözüdür: “Həqiqətən, Allah hər pay sahibinə mirasdan payını vermişdir. Odur ki, varisə vəsiyyət olunmaz”.[4] Onlar demişlər: “Əgər digər qohumlar pay sahibi olsaydılar, Allahın Kitabında müəyyən edilmiş bir payları olardı. Quranda payları olmadığına görə, demək ki, varis deyillər. Ən doğrusunu isə Allah bilir.

“əl-Ənfal” surəsinin təfsiri bitdi.
Həmd olsun aləmlərin Rəbbinə!

---

[1] «əl-Fəraid» sözünün ərəbcə lüğəvi mənası “miqdar”, “pay” deməkdir. Şəriət terminologiyasında isə ”əl-Fəraid“ – “varis üçün təyin olunmuş miras payı” deməkdir.

[2] Varislər iki qisimdir: **Birincisi**, Şəriət tərəfindən payı müəyyən olunmuş varislər, bunlara pay sahibləri deyilir. Məsələn, ata-ana, ər-arvad kimi; **ikincisi,** payı müəyyən olunmayan varislərdir. Bunlara əsabə yolu ilə varis olanlar deyilir. Məsələn, doğma qardaş kimi. Əsabə yolu ilə varis olanlar tək varis olduqda mirasın hamısına sahib olurlar, pay sahibləri ilə şərik olduqda isə pay sahibləri onlara müəyyən olunmuş payı alır, yerdə qalan hissəni əsabə yolu ilə varis olan alır. Məsələn, əgər vəfat edənin doğma qardaşından başqa varisi olmazsa, mirasın hamısı doğma qardaşa düşür. Əgər vəfat edənin qızı və doğma qardaşı olarsa, mirasın yarısı qızın, qalan yarısı isə doğma qardaşa düşür.

[3] Çünki “əl-Fəraid” (miras payını öyrənən) alimlər أُولُو الأَرْحَامِ [ulul-ərhəm] “**qohumlar**” dedikdə, mirasdan payı olmayan, əsabə yolu ilə də varis olmayan qohumlar nəzərdə tutulur.

[4] Əbu Davud, 2870; ət-Tirmizi, 2120; İbn Məcə, 2713. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 3073.

الْكَلاَمُ عَلَى تفْسِيرِهَا

# “ət-Tövbə”

## surəsinin təfsiri

## Mərhəmətli və Rəhmli Allahın adı ilə
## Müvəffəqiyyət yalnız Allahdandır

## تَفْسِيرُ سُورَةِ التَّوْبَةِ

## "ət-Tövbə" surəsinin təfsiri

بَرَآءَةٌ مِّنَ ٱللَّهِ وَرَسُولِهِۦٓ إِلَى ٱلَّذِينَ عَٰهَدتُّم مِّنَ ٱلْمُشْرِكِينَ ﴿١﴾ فَسِيحُوا۟ فِى ٱلْأَرْضِ أَرْبَعَةَ أَشْهُرٍ وَٱعْلَمُوٓا۟ أَنَّكُمْ غَيْرُ مُعْجِزِى ٱللَّهِ وَأَنَّ ٱللَّهَ مُخْزِى ٱلْكَٰفِرِينَ ﴿٢﴾

**1. Bu, Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə onlarla olan əhdlərin pozulması barədə bir xəbərdarlıqdır.**

**2. Elə isə yer üzündə dörd ay gəzib dolaşın və bilin ki, siz – müşriklər Allahdan yaxa qurtara bilməyəcəksiniz və Allah kafirləri rüsvay edəcəkdir.**

Bu, Peyğəmbərə ﷺ nazil olan son surələrdən biridir. əl-Buxari ﵀ Əbu İshaqın belə dediyini rəvayət etmişdir: "Mən əl-Bəranın belə dediyini eşitmişəm: "Quranda ən son nazil olan "**Səndən fətva istəyirlər. De: "Atası və övladı olmayan kəsin mirası barəsində fətvanı sizə Allah verir...**" ("ən-Nisa", 176) ayəsidir. Ən son nazil olan surə isə "Bəraət" ("ət-Tövbə") surəsidir".[1]

Bu surənin əvvəlində "Bismilləhir-Rahmənir-Rahim" (Mərhəmətli və Rəhmli Allahın adı ilə) deyilmir, çünki səhabələr "Mushaful-İmam"da[2] bu surənin əvvəlinə "Bismilləhir-Rahmənir-Rahim" yazmamışlar. Bu məsələdə tabe olduqları şəxs möminlərin əmiri Osman ibn Əffandır (Allah ondan razı olsun). ət-Tirmizi ﵀ İbn Abbasın ﵄ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Osman ibn Əffandan ﵁ soruşdum: "əl-Ənfal" surəsinin ayələrinin sayı yüzdən az olduğu halda, nə üçün onu ayələrinin sayı yüzdən daha çox olan "ət-Tövbə" surəsi ilə yanaşı yazıb aralarına "Bismilləhir-Rahmənir-Rahim" (Mərhəmətli və Rəhmli Allahın adı ilə) yazmadan

[1] əl-Buxari, 4287, 4654.

[2] "Mushaful-İmam" Osmanın ﵁ ilk dəfə kitab halına saldığı beş nüsxə Quran kitabıdır. Osman ﵁ bu Quran nüsxələrini müsəlman əyalətlərinin hər tərəfinə göndərmiş, birini isə özündə saxlamışdı.

("əl-Ənfal" surəsini) ilk yeddi uzun surələrin arasına qoymusunuz?" Osman ﷺ belə cavab verdi: "Bəzən Peyğəmbərə ﷺ xeyli müddət vəhy nazil olmurdu, bəzən isə əksinə, uzun zaman vəhy nazil olurdu. Peyğəmbərə ﷺ Qurandan bir ayə nazil olduqda vəhy yazan səhabələrdən[1] birini çağırıb: "Bu ayələri filan-filan mövzular zikr edilən surəyə qoyun" – deyərdi. "əl-Ənfal" surəsi Mədinədə nazil olan ilk surələrdən biri idi. "ət-Tövbə" isə ən son nazil olan surələrdən biridir. "əl-Ənfal" surəsinin məzmunu "ət-Tövbə" surəsinin məzmununa bənzəyirdi.[2] Bu səbəbdən bu surənin digərinin davamı olmasından qorxdum. Peyğəmbər ﷺ bu surənin digərindən olub-olmaması barədə bizə bildirmədən vəfat etdi. Odur ki, mən bu iki surəni yanaşı yazdırdım, aralarına "Bismilləhir-Rahmənir-Rahim" (Mərhəmətli və Rəhmli Allahın adı ilə) cümləsini yazdırmadım və "əl-Ənfal" surəsini yeddi uzun surədən biri etdim". Hədisi Əhməd, Əbu Davud, ən-Nəsəi, İbn Hibban ("Səhih" əsərində) və əl-Hakim ﷺ rəvayət etmişlər. əl-Hakim ﷺ hədisin isnadının səhih olduğunu, lakin əl-Buxari və Muslimin rəvayət etmədiklərini demişdir.[3]

Bu surənin əvvəli Peyğəmbərə ﷺ Təbuk döyüşündən qayıtdıqdan sonra nazil olmuşdur. Peyğəmbər ﷺ həcc ziyarətinə getməyi niyyət edirdi, lakin ona müşriklərin də adətləri üzrə həmin il həcc mövsümündə iştirak edib Kəbəni çılpaq təvaf edəcəkləri bildirildi. Peyğəmbər ﷺ onlarla birlikdə olmağı istəmədi. Həmin il insanlara həcc ərkanlarını göstərmək, gələn ildən etibarən müşriklərin həcc etməyəcəklərini bildirmək və insanlara səslənərək: "**Bu, Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə onlarla olan əhdlərin pozulması barədə bir xəbərdarlıqdır**" demək üçün Əbu Bəkr əs-Siddiqi ﷺ rəhbər təyin edib həccə göndərdi. Onlar yola çıxdıqdan sonra Peyğəmbər ﷺ ata tərəfdən qohumu Əli ibn Əbu Talibi ﷺ onun dediklərini insanlara çatdırmaq üçün Əbu Bəkrin ﷺ arxasınca göndərdi.

Uca Allah buyurur: "**Bu, Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə onlarla olan əhdlərin pozulması barədə bir xəbərdarlıqdır**", yəni bu, Allah və Onun Elçisi tərəfindən müriklərlə bağlanmış əhddən bir imtinadır. "**Elə isə yer üzündə dörd ay gəzib dolaşın**". Təfsir alimləri bu ayə barədə ixtilaf etmişlər. Bəziləri belə demişlər: "Bu ayə, müəyyən müddət təyin edilmədən əhd bağlanmış

[1] Peyğəmbərə ﷺ nazil olan vəhyi yazan xüsusi səhabələr vardı. Bu səhabələrin sayı iyirmi üç nəfərə çatırdı. Əbu Bəkr, Ömər, Osman, Əli, Ubey ibn Kəb, Zeyd ibn Sabit, Muaz ibn Cəbəl, Muaviyə ibn Əbu Sufyan və başqaları belə səhabələrdən idilər. Allah onlardan razı olsun.

[2] Çünki hər iki surədə əhdlər və kafirlərin əhdi pozmaları barədə danışılır.

[3] ət-Tirmizi, 3086, 3366. Hədis zəifdir. Bax: Daif Sunən ət-Tirmizi, 599.

və ya dörd aydan az müddətə əhd bağlanmış müşriklərə aiddir. Bunların müddəti dörd aya tamamlanmış olur. Müəyyən müddətə əhd bağlanmış müşriklərin əhdlərinə isə istənilən halda müddət bitənədək vəfa edilir. Çünki Uca Allah növbəti ayələrdə belə buyurur: “**Onlarla olan müqavilənizi müddəti bitənədək yerinə yetirin**” (“ət-Tövbə”, 4). Həmçinin qarşıda qeyd edəcəyimiz: “Kimin Peyğəmbərlə bir müqaviləsi olmuşsa, bu müqaviləyə müddət bitənə qədər əməl olunacaq” hədisi də buna dəlalət edir. Bu, ən yaxşı və ən qüvvətli rəydir. İbn Cərir ﷺ də bu rəyi seçmişdir. Bu rəy bir çox alimlərdən rəvayət edilmişdir.

İbn Abbas ﷺ Uca Allahın “**Bu, Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə onlarla olan əhdlərin pozulması barədə bir xəbərdarlıqdır. Elə isə yer üzündə dörd ay gəzib dolaşın**” ayəsi barədə belə demişdir: “Uca Allah Peyğəmbərlə əhd bağlamış müşriklərə dörd ay müddət qoymuşdur. Onlar bu müddətdə yer üzündə istədikləri kimi gəzib dolaşa bilərlər. Peyğəmbərlə ﷺ əhd bağlamayanlar üçün isə haram aylar bitənə qədər, yəni Qurban bayramından başlayaraq Məhərrəm ayı bitənə qədər müddət qoymuşdur. Bu da ümumilikdə əlli gecə edir. Haram aylar çıxdıqdan sonra isə Peyğəmbərə ﷺ onunla əhd bağlamayan müşriklərə qarşı vuruşmağı əmr etmişdir”.[1] əd-Dahhək ﷺ İbn Abbasın ﷺ: “Bu da ümumilikdə əlli gecə edir” sözündən sonra demişdir: “Uca Allah Məhərrəm ayı çıxdıqdan sonra Peyğəmbərə ﷺ onunla əhd bağlamamış müşriklərə qarşı vuruşmağı və İslama daxil olana qədər onlarla döyüşməyi əmr etmişdir. Peyğəmbərlə ﷺ əhd bağlamış müşriklər barədə isə Qurban bayramından başlayaraq Rabiul-Axir ayının sonuna qədər olmaqla, dörd ay bitdikdən sonra İslamı qəbul edənə qədər, onlarla vuruşmağı əmr etmişdir”.[2]

Mucahid ﷺ demişdir: “**Bu, Allah və Onun Elçisi tərəfindən əhd bağladığınız müşriklərə onlarla olan əhdlərin pozulması barədə bir xəbərdarlıqdır**”. Bunlar Xuzəa, Mudləc və Peyğəmbərlə ﷺ əhd bağlamış digər qəbilələrdir. Peyğəmbər ﷺ Təbuk döyüşündən qayıtdıqdan sonra həcc ziyarətinə getmək istədi, sonra isə belə dedi: “Müşriklər də bu ziyarətdə iştirak edəcəklər və Kəbəni çılpaq halda təvaf edəcəklər. Bu batil əməllər ləğv olunmayana qədər mən həcc etmək istəmirəm”. Odur ki, Əbu Bəkr və Əlini ﷺ qabaqcadan göndərdi, onlar da Zul-Məcəz adlanan yerdə, həmçinin həcc mövsümündə insanların ən çox alış-veriş etdikləri məkanlarda gəzib-dolaşaraq Peyğəmbərlə ﷺ aralarında əhd bağlanmış

[1] ət-Təbəri, 16357, 16434; İbn Əbu Hatim, 9218.
[2] ət-Təbəri, 16359, 16436.

müşriklərin daha dörd ay əmin-amanlıq içində olacaqlarını elan etdilər. Bu dörd ay ard-arda gələn aylar olub Zul-Hiccə ayının iyirmisindən başlayaraq, Rabiul-Axir ayının onuna qədər olan vaxtı əhatə edirdi. Bu müddət bitdikdən sonra müşriklərlə heç bir anlaşma qalmayacaqdı. İnsanların hamısına elan edildi ki, iman gətirmədikləri təqdirdə onlara qarşı döyüşüləcək".[1] əs-Suddi və Qatədədən də belə rəvayət edilmişdir.

﴿وَأَذَٰنٌ مِّنَ ٱللَّهِ وَرَسُولِهِۦٓ إِلَى ٱلنَّاسِ يَوْمَ ٱلْحَجِّ ٱلْأَكْبَرِ أَنَّ ٱللَّهَ بَرِىٓءٌ مِّنَ ٱلْمُشْرِكِينَ ۙ وَرَسُولُهُۥ ۚ فَإِن تُبْتُمْ فَهُوَ خَيْرٌ
لَّكُمْ ۖ وَإِن تَوَلَّيْتُمْ فَٱعْلَمُوٓا۟ أَنَّكُمْ غَيْرُ مُعْجِزِى ٱللَّهِ ۗ وَبَشِّرِ ٱلَّذِينَ كَفَرُوا۟ بِعَذَابٍ أَلِيمٍ ﴿٣﴾﴾

**3. Bu, Allah və Onun Elçisi tərəfindən ən böyük həcc günü insanlara Allahın və Onun Elçisinin müşriklərdən uzaq olmasını elan edəcək bir bildirişdir. Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Yox, əgər üz döndərsəniz, bilin ki, siz Allahdan yaxa qurtara bilməyəcəksiniz. Kafirləri ağrılı-acılı bir əzabla müjdələ.**

Uca Allah buyurur: "**Bu, Allah və Onun Elçisi tərəfindən ən böyük həcc günü**", yəni həcc əməllərinin icra edildiyi günlərin ən fəzilətlisi, ən üstünü və insanların ən çox toplaşdığı qurban kəsilən gün "**insanlara Allahın və Onun Elçisinin müşriklərdən uzaq olmasını elan edəcək bir bildirişdir**", yəni xəbərdarlıqdır.

Sonra Uca Allah insanları Ona tövbə etməyə çağıraraq belə buyurur: "**Əgər tövbə etsəniz**", yəni Allaha şərik qoşmaqdan və içində olduğunuz azğınlıqdan tövbə etsəniz, "**bu sizin üçün xeyirli olar. Yox, əgər üz döndərsəniz**", yəni bu halda qalmağa davam etsəniz, "**bilin ki, siz Allahdan yaxa qurtara bilməyəcəksiniz**". O, sizə əzab verməyə qadirdir, siz Onun əlindəsiniz, Onun tabeçiliyi və istəyi altındasınız. "**Kafirləri ağrılı-acılı bir əzabla müjdələ**", yəni dünyada rüsvayçılıq və əzabla, Axirətdə isə dəmir toppuzlarla və zəncirlərlə müjdələ.

əl-Buxari Əbu Hureyradan rəvayət etmişdir ki, Əbu Bəkr həmin həcc ziyarəti əsnasında Qurban bayramı günü məni Peyğəmbərin ﷺ əmrini insanlara elan edən müəzzinlərlə birlikdə göndərdi ki, Mina vadisinə gedib orada insanlara elan edək ki, gələn ildən etibarən heç bir müşrik həcc ziyarətinə gəlməyəcək və heç kim Kəbəni lüt-üryan təvaf etməyəcək. Bunun ardınca Peyğəmbər ﷺ Əli ibn Əbu Talibi Əbu Bəkrin yanına göndərib tapşırdı ki, "Bəraət" ("ət-Tövbə") surəsinin nazil olduğunu camaata elan etsin. Əbu Hureyra demişdir: "Qurban kəsilən gün Əli ibn Əbu Talib bizimlə birlikdə Minada olan zəvvarlara "Bəraət" ("ət-Tövbə")

[1] ət-Təbəri, 16365, 16442.

surəsinin nazil olduğunu, gələn ildən heç bir müşrikin həcc ziyarətinə gəlməyəcəyini və heç kimin lüt-üryan şəkildə Kəbəni təvaf etməyəcəyini elan etdi".[1]

əl-Buxari ﷺ eyni hədisi Əbu Hureyradan ﷺ bu şəkildə rəvayət etmişdir: "Əbu Bəkr məni Qurban kəsilən gün Minada camaata səslənərək: "Gələn ildən etibarən heç bir müşrik həcc ziyarətinə gəlməyəcək və heç kim Kəbəni lüt-üryan təvaf etməyəcəkdir" – deyə elan edənlərlə birlikdə göndərdi. Ən böyük həcc günü Qurban bayramı günüdür. İnsanlar Arafa gününü (və ya ümrə ziyarətini) "Kiçik həcc günü" adlandırdıqları üçün qurban kəsilən günə "Ən böyük həcc günü"[2] deyirdilər. Həmin il Əbu Bəkr insanlara Peyğəmbərin ﷺ buyurduqlarını çatdırdı və Peyğəmbər ﷺ vida həcci etdiyi il artıq heç bir müşrik həcc etmədi". əl-Buxarinin "Cihad" bölməsində rəvayət etdiyi hədisin mətni belədir.[3]

İmam Əhməd ﷺ Əbu Hureyranın oğlu Muhərrirdən, o da atası Əbu Hureyradan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Əli ibn Əbu Talibi Məkkə əhalisinə "Bəraət" ("ət-Tövbə") surəsini elan etmək üçün göndərdikdə mən onunla birlikdə idim. Muhərrir atasından soruşdu: "Siz nəyi elan edirdiniz?" Əbu Hureyra ﷺ dedi: "Biz elan edirdik ki, Cənnətə ancaq mömin girəcək; Kəbəni heç kəs çılpaq təvaf etməyəcək; Peyğəmbərlə ﷺ arasında müqaviləsi olan hər bir kəsin dörd ay müddəti vardır. Dörd ay keçdikdən sonra Allah və Onun Elçisi ﷺ müşriklərdən uzaqdır; gələn ildən etibarən heç bir müşrik həcc ziyarəti üçün bu Evə (Kəbəyə) gəlməyəcək". Əbu Hureyra dedi: "Mən səsim batana qədər qışqırırdım".[4]

İmam Əhməd ﷺ Həmədandan olan Zeyd ibn Yusey adlı bir kişinin belə dediyini rəvayət etmişdir: "Bir dəfə Əlidən: "Peyğəmbər ﷺ səni Əbu Bəkrlə birlikdə həccə göndərdiyi gün sənə nə tapşırmışdı?" – deyə soruşduq. Əli dedi: "Dörd şey tapşırmışdı: Cənnətə ancaq mömin kəslər girəcək; Kəbəni heç kəs çılpaq təvaf etməyəcək; Peyğəmbərlə ﷺ aralarında əhd bağlanmış müşriklərin əhdləri müddəti bitənədək qüvvədədir; gələn ildən etibarən müşriklərlə müsəlmanlar birlikdə həcc etməyəcəklər". Hədisi ət-Tirmizi ﷺ də rəvayət etmiş və "həsən-səhih" olduğunu demişdir.[5]

[1] əl-Buxari, 4289, 4656.

[2] Çünki bayram günü qurban kəsmək, Kəbəni təvaf etmək, Səfa və Mərva dağları arasında səy etmək, saçı kəsmək kimi həccin ən böyük ərkanları yerinə yetirilir.

[3] əl-Buxari, 2941, 3177.

[4] Əhməd (7964). Əhməd Şakir ﷺ demişdir: "Hədisin isnadı səhihdir". ən-Nəsəi "Sunən" 2909, 2958, 2971. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 4/301.

[5] Əhməd (594). Əhməd Şakir ﷺ demişdir: "Hədisin isnadı səhihdir". ət-Tirmizi, 3372. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən ət-Tirmizi, 3092.

Əta ﵀ demişdir: "Ən böyük həcc günü Arafa günüdür".[1]

İkinci rəyə görə "Ən böyük həcc günü" qurban kəsilən gündür (Qurban bayramı günüdür). Əli ﵁ demişdir: "Ən böyük həcc günü Qurban bayramı günüdür".[2] İbn Abbas, Səid ibn Cubeyr, əz-Zuhri, Abdur-Rahmən ibn Zeyd ibn Əsləm və başqalarından da rəvayət olunur ki, onlar Ən böyük həcc gününün Qurban kəsilən gün olduğunu demişlər. İbn Cərir ﵀ də bu rəyi seçmişdir.

İbn Cərir ﵀ Abdur-Rahmən ibn Əbu Bəkradan, o da atası Əbu Bəkradan ﵁ rəvayət etmişdir ki, (vida həccində) Peyğəmbər ﷺ qurban kəsilən gün dəvəsinə mindi. Bir nəfər dəvənin noxtasından tutmuşdu. Peyğəmbər ﷺ: "Bu, hansı gündür?" – deyə soruşdu. Biz susduq, hətta onun başqa bir ad deyəcəyini zənn etdik. O dedi: "Məgər (bu gün) Ən böyük həcc günü deyilmi?" Bu hədisin isnadı səhihdir. Hədisin əsli əl-Buxarinin "Səhih" əsərində rəvayət edilmişdir.[3]

﴿إِلَّا ٱلَّذِينَ عَٰهَدتُّم مِّنَ ٱلۡمُشۡرِكِينَ ثُمَّ لَمۡ يَنقُصُوكُمۡ شَيۡـٔٗا وَلَمۡ يُظَٰهِرُواْ عَلَيۡكُمۡ أَحَدٗا فَأَتِمُّوٓاْ إِلَيۡهِمۡ عَهۡدَهُمۡ إِلَىٰ مُدَّتِهِمۡۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلۡمُتَّقِينَ ٤﴾

**4. Saziş bağladıqdan sonra onu pozmamış və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla olan müqavilənizi müddəti bitənədək yerinə yetirin. Həqiqətən, Allah müttəqiləri sevir.**

Bu ayədə qeyd olunanlar dörd ay müddət qoyulmuş müşriklərdən istisna edilənlərdir. Müəyyən bir müddət təyin edilmədən əhd bağlanmış müşriklərin müddəti dörd aydır. Onlar bu müddət ərzində yer üzündə gəzib dolaşaraq canlarını qurtarmaq üçün istədikləri yerə gedə bilərlər. Müəyyən bir müddətə əhd bağlanmış kəslərin müddəti isə əhddə nəzərdə tutulan müddətə qədərdir. Lakin bir şərtlə, bağlanmış əhdi pozmayacaq və heç kəsə müsəlmanların əleyhinə yardım etməyəcəklər, yəni müsəlmanlara qarşı vuruşanların tərəfini tutmayacaqlar. Məhz belələrinin əhdləri müddəti bitənə qədər yerinə yetirilir. Bu səbəbdən Uca Allah bu cür əhdləri yerinə yetirməyə təşviq edərək buyurur: "**Həqiqətən, Allah müttəqiləri sevir**", yəni əhdlərini yerinə yetirənləri sevir.

[1] ət-Təbəri, 16451, 16461, 16528.
[2] ət-Təbəri, 16394, 16471.
[3] əl-Buxari, 1626, 1742; Muslim (1679/29).

﴿فَإِذَا ٱنسَلَخَ ٱلۡأَشۡهُرُ ٱلۡحُرُمُ فَٱقۡتُلُواْ ٱلۡمُشۡرِكِينَ حَيۡثُ وَجَدتُّمُوهُمۡ وَخُذُوهُمۡ وَٱحۡصُرُوهُمۡ وَٱقۡعُدُواْ لَهُمۡ
كُلَّ مَرۡصَدٖۚ فَإِن تَابُواْ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَءَاتَوُاْ ٱلزَّكَوٰةَ فَخَلُّواْ سَبِيلَهُمۡۚ إِنَّ ٱللَّهَ غَفُورٞ رَّحِيمٞ ٥﴾

**5. Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir.**

Təfsir alimləri bu ayədə qeyd edilən haram ayların hansı aylar olduğu barədə ixtilaf etmişlər. İbn Cərir رحمه الله bu ayların Uca Allahın "**Həqiqətən, Allah yanında ayların sayı on ikidir. Bunu da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır. Doğru din budur. Odur ki, bu aylarda özünüzə zülm etməyin**" ("ət-Tövbə", 36) ayəsində qeyd edilən aylar olduğunu bildirmişdir. Əbu Cəfər əl-Baqir رحمه الله də belə demişdir, lakin İbn Cərir رحمه الله bu haram ayların sonuncusunun Məhərrəm ayı olduğunu demişdir. İbn Cəririn رحمه الله bu rəyini Əli ibn Əbu Talha İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir. əd-Dahhək رحمه الله də bu rəydədir, lakin bu rəyə bir daha nəzər yetirmək lazımdır. Ayənin məzmunundan görünür ki, əl-Əufinin İbn Abbasdan رضي الله عنهما rəvayət etdiyi rəy daha doğrudur. Mucahid, Amr ibn Şueyb və başqaları da bu rəyi demişlər. Bu rəyə görə ayədə nəzərdə tutulan aylar Uca Allahın "**Elə isə yer üzündə dörd ay gəzib dolaşın**..." ("ət-Tövbə, 2) ayəsində qeyd edilən dörd aylıq müddətdir ki, bu müddətdə müşriklər yer üzündə sərbəst gəzib-dolaşa bilərlər. Sonra isə Uca Allah: "**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün**" – deyə buyurur. Yəni müşriklərlə döyüşməyi sizə haram etdiyimiz, onlara isə möhlət verdiyimiz dörd ay bitdikdə müşriklərə harada rast gəlsəniz öldürün. Çünki nəzərdə tutulan haram ayları əvvəlki ayədə qeyd olunan dörd aya aid etmək bu ayların başqa aylar olduğunu təxmin etməkdən daha üstündür. Həmçinin haram olan dörd ayın hökmünün açıqlanması bu surənin başqa bir ayəsinin (36-cı ayənin) təfsirində gələcəkdir.

Uca Allahın "**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün**" ayəsi ümumidir (həm Haram ərazisinə, həm də digər yerlərə aiddir). Lakin məşhur olan rəyə görə Haram ərazisində döyüşün haram edilməsi ilə əlaqədar olan "**Onlar sizinlə Məscidul-Haramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın**" ("əl-Bəqərə", 191) ayəsi Uca Allahın "**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün**" ayəsini xüsusiləşdirir. Uca Allah buyurur: "...**onları... əsir tutun**", yəni istəsəniz öldürün, istəsəniz əsir tutun,

"**mühasirəyə alın və onlara hər yerdə pusqu qurun**", yəni onların yerini müəyyən etməklə kifayətlənməyin, əksinə, onları qaldıqları yurdlarında və qalalarında mühasirəyə alın, geniş olan yer üzünü onlara dar edin, ölmək və ya İslamı qəbul etmək məcburiyyətində qalana qədər yollarda, keçəcəkləri yerlərdə onlara pusqu qurun. "**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir**".

Bu səbəbdən Əbu Bəkr əs-Siddiq ﷺ bu və buna bənzər ayələrə əsaslanaraq zəkat verməkdən imtina edənlərə qarşı döyüşmüşdür. Çünki bu ayələrdə müşriklərlə döyüşmək yalnız bu əməlləri etdikləri təqdirdə haram edilmişdir. Bu əməllər isə İslama daxil olmaq və üzərlərinə düşən vacibləri yerinə yetirməkdir. Uca Allah ayəni bu əməllərdən ən üstünü ilə başlamış, sonra daha aşağı olanlara keçmişdir. Kəlmeyi-şəhadətdən sonra ən şərəfli fərz əməl – Allahın haqqı olan namazdır. Namazdan sonra ən şərəfli əməl – kasıb və yoxsullara daha çox faydası olan zəkat verməkdir. Zəkat insanlarla əlaqəli olan ən şərəfli əməldir. Odur ki, Uca Allah Quranın bir çox ayəsində namazla zəkatı yanaşı zikr etmişdir. əl-Buxari və Muslimin "Səhih" əsərində İbn Ömərdən ﷺ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İnsanlar Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, namaz qılıb zəkat verməyincə, mənə onlarla vuruşmaq əmr edildi...".[1] Abdullah ibn Məsud ﷺ demişdir: "Sizə namaz qılmaq və zəkat vermək əmr olunmuşdur. Kim zəkat verməzsə, onun namazı da yoxdur (namazı kamil deyil)".[2] Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ demişdir: "Uca Allah namazı yalnız zəkat ilə birlikdə qəbul edər". Həmçinin demişdir: "Allah Əbu Bəkrə rəhmət etsin, o, (zəkat verməkdən imtina edənlərə qarşı vuruşmaqla) necə də dini anlayan bir şəxs olmuşdur".[3] İmam Əhməd ﷺ Ənəsdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlar Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyincə, mənə onlarla vuruşmaq əmr edildi. Əgər onlar (aşkarda) Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirsələr, – İslam haqqı (cinayətə görə veriləcək cəza) istisna olmaqla, – canları və malları bizə haram olar. Müsəlmanların lehinə olan onların da lehinə, müsəlmanların əleyhinə olan onların da əleyhinədir". Hədisi əl-Buxari və İbn Məcə ﷺ istisna olmaqla, "Sunən" əsərlərinin müəllifləri rəvayət etmişlər.[4]

---

[1] əl-Buxari, 25; Muslim (21/34).

[2] ət-Tabəri, 16519, 16596.

[3] ət-Tabəri, 16518, 16595.

[4] Əhməd (3/199); əl-Buxari, 379, 392; Əbu Davud, 2641.

Bu ayə "Qılınc ayəsi" adlanır. əd-Dahhək ibn Muzəhim رحمه الله bu ayə barədə belə demişdir: "Həqiqətən, bu ayə Peyğəmbərlə ﷺ müşriklər arasında bağlanmış bütün əhdləri, qoyulmuş bütün müddətləri ləğv edən ayədir". İbn Abbas رضي الله عنهما bu ayə barədə belə demişdir: "Bəraət" ("ət-Tövbə") surəsi nazil olduqdan və haram aylar çıxdıqdan sonra heç bir müşriklə nə bir əhd, nə də bir müqavilə qalmamışdır. Bu ayə nazil olmazdan əvvəl Peyğəmbərlə ﷺ aralarında əhd bağlanmış müşriklərə dörd ay müddət qoyuldu. Bu müddət "Bəraət" ("ət-Tövbə") surəsi elan edildiyi gündən Rabiul-Axir ayının onuna qədər idi". Həmçinin İbn Abbas رضي الله عنهما demişdir: "Uca Allah Peyğəmbərə ﷺ (müddətsiz) əhd bağladığı müşriklərlə, İslamı qəbul etmədikləri təqdirdə vuruşmağı əmr etdi. Həmçinin müəyyən müddətə bağlanmış əhdi pozaraq birinci şərtə əməl etməyənlərə qarşı vuruşmağı da əmr etdi".[1] Sonra təfsir alimləri, "Qılınc ayəsi"nin hökmünün nəsx (ləğv) olub-olmaması məsələsində də ixtilaf etmişlər. əd-Dahhək və əs-Suddi رحمه الله bu ayənin "**Sonra da onları (müşrikləri) ya rəhm edib fidyəsiz, ya da fidyə alıb azad edin**" ("Muhəmməd", 4) ayəsi ilə nəsx olunduğunu demişlər. Qatədə رحمه الله isə bunun əksini (nəsx olunmadığını) demişdir.

﴿وَإِنْ أَحَدٌ مِّنَ ٱلْمُشْرِكِينَ ٱسْتَجَارَكَ فَأَجِرْهُ حَتَّىٰ يَسْمَعَ كَلَٰمَ ٱللَّهِ ثُمَّ أَبْلِغْهُ مَأْمَنَهُۥ ۚ ذَٰلِكَ بِأَنَّهُمْ قَوْمٌ لَّا يَعْلَمُونَ ٦﴾

**6. Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın Kəlamını eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki onlar haqqı bilməyən bir qövmdür.**

Uca Allah bu ayədə Öz peyğəmbərinə ﷺ xitab edərək belə buyurur: "**Əgər müşriklərdən biri**", yəni sənə döyüşməyi əmr etdiyimiz, canlarını və mallarını halal etdiyimiz müşriklərdən biri "**səndən aman diləsə**", yəni səndən əmin-amanlıq istəsə, "**ona aman ver ki**", yəni onun bu istəyini qəbul et ki, "**Allahın Kəlamını eşitsin**", yəni ona Quran oxumaqla və dinə aid bəzi şeyləri izah etməklə Allahın dəlillərini bildir. "**Sonra onu özünün xatircəm olduğu yerə çatdır**", yəni sonra onu əmin-amanlıq içində olacağı məkana çatdır ki, ölkəsinə, evinə və özünü arxayın hiss edə biləcəyi yerə qayıda bilsin. "**Çünki onlar haqqı bilməyən bir qövmdür**", yəni ona görə beləlmin aman verməyi buyurduq ki, onlar Allahın dinini öyrənsinlər və Allahın dininə dəvət qullar arasında yayılsın. Mucahid رحمه الله

[1] ət-Təbəri, 16358, 16435.

bu ayənin təfsirində belə demişdir: "Bir insan sənin dediklərini və sənə nazil olan Quranı dinləmək üçün yanına gəlirsə, bu insan sənin yanına gəlib Allahın Kəlamını eşitdiyi müddətdə və gəldiyi yerdəki kimi özünü əmin-amanlıqda hiss edə biləcəyi yerə çatana qədər təhlükəsizlikdədir".[1]

Məhz buna görə Peyğəmbər ﷺ haqqı axtarmaq üçün və ya elçi olaraq onun yanına gələnlərə aman verərdi. Necə ki Hudeybiyyə müqaviləsi bağlanan gün Qureyş qəbiləsindən bir qrup elçi onun yanına gəlmişdi. Bu elçilər arasında Urvə ibn Məsud, Mikrəz ibn Hafs, Suheyl ibn Amr və başqaları var idi. Onların hər biri tək-tək Peyğəmbərlə ﷺ müşriklər arasında olan bir məsələ üçün gəlib gedirdilər. Bu əsnada müsəlmanların Peyğəmbərə ﷺ göstərdikləri hörməti görmüşdülər və bu, onları son dərəcə heyrətləndirmişdi. Çünki burada müşahidə etdikləri şeyləri heç bir hökmdar və imperatorun hüzurunda görməmişdilər. Onlar qövmlərinin yanına qayıdıb bu barədə onlara xəbər vermişdilər. Bu və buna oxşar hallar onlardan bir çoxunun hidayət olunmasının ən böyük səbəblərindən olmuşdur. Həmçinin Museylimə əl-Kəzzəbin (yalançı peyğəmbərin) elçisi Peyğəmbərin ﷺ yanına gəldikdə Peyğəmbər ﷺ ondan "Museyliməni̇n Allahın elçisi olduğuna şahidlik edirsənmi?" – deyə soruşdu və o: "Bəli" – dedi. Peyğəmbər ﷺ: "Əgər elçiləri öldürmək qadağan olmasaydı, sənin boynunu vurardım" – dedi.[2]

Ayədə nəzərdə tutulan məna belədir: "Kim qeyri-müsəlman ölkəsindən İslam ölkəsinə elçi kimi vəzifəsini yerinə yetirməyə, ticarət etməyə, sülh müqaviləsi bağlamağa, cizyə[3] vergisi gətirməyə və ya buna oxşar başqa bir səbəblə gəlib dövlət başçısından və ya onu əvəz edən şəxsdən aman diləyərsə, İslam ölkəsində olduğu müddətdə və vətəninə, özünü təhlükəsizlikdə hesab edəcəyi yerə dönənə qədər ona aman verilir". Lakin alimlər demişlər: "İslam ölkəsində ona bir il qalmağa icazə verilməməlidir. Dörd ay müddətinə qalması isə icazəlidir". Dörd aydan çox, bir ildən az müddətə qalmasının icazəli olub-olmamasında İmam əş-Şafii və digər alimlərdən iki rəy rəvayət edilmişdir.



[1] ət-Təbəri, 16483, 16560.
[2] Əhməd (3/487); Əbu Davud, 2761. Hədis səhihdir. Bax: Səhih və Daif Sunən Əbu Davud, 2761.
[3] Müsəlman dövlətinin himayəsi altında yaşayan qeyri-müsəlmanlardan alınan mal və ya can vergisi.

﴿كَيْفَ يَكُونُ لِلْمُشْرِكِينَ عَهْدٌ عِندَ ٱللَّهِ وَعِندَ رَسُولِهِۦٓ إِلَّا ٱلَّذِينَ عَٰهَدتُّمْ عِندَ ٱلْمَسْجِدِ ٱلْحَرَامِ ۖ فَمَا ٱسْتَقَٰمُوا۟ لَكُمْ فَٱسْتَقِيمُوا۟ لَهُمْ ۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَّقِينَ ٧﴾

**7. Məscidul-Haramın yanında saziş bağladığınız kəslər istisna olmaqla, müşriklərin Allah və Onun Elçisi yanında nə əhdi ola bilər? Nə qədər ki, onlar sizinlə düzgün davranır, siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir.**

Uca Allah bu ayədə müşriklərə xəbərdarlıq etməsinin, onlara dörd ay möhlət verib sonra ələ keçdikləri yerdə öldürülmələrinin hikmətini bəyan edərək buyurur: “**Məscidul-Haramın yanında saziş bağladığınız kəslər**”, yəni Məscidul-Haramın yanında Hudeybiyyə günü müqavilə bağladığınız kəslər “**istisna olmaqla, müşriklərin Allah və Onun Elçisi yanında nə əhdi ola bilər?**” Yəni onlar Allaha şərik qoşarkən, Allahı və Onun Elçisini inkar edərkən Allah və Onun Elçisinin yanında necə əmin-amanlıqda ola bilərlər, onlar olduqları bu vəziyyətdə necə tərk edilə bilərlər? Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: “**O kafirlər, sizi Məscidul-Harama buraxmayan və qurbanlıq heyvanlarını qurbangaha gedib çatmağa qoymayan kimsələrdir. Əgər Məkkədə tanımadığınız mömin kişiləri və mömin qadınları bilmədən tapdalayıb əzmək və onların ucbatından günaha batmaq təhlükəsi ilə qarşılaşmasaydınız, Allah ora zorla girməyinizə izin verərdi. Lakin Allah istədiyini Öz mərhəmətinə qovuşdursun deyə buna izin vermədi. Əgər onlar bir-birindən seçilsəydilər, Biz onlardan kafir olanlara ağrılı-acılı bir əzab verərdik**” (“əl-Fəth”, 25).

Uca Allah buyurur: “**Nə qədər ki, onlar sizinlə düzgün davranır, siz də onlarla düzgün davranın**”, yəni nə qədər ki, onlar əhdlərinə sadiq qalıb on il döyüşməyəcəyiniz barədə bağladığınız müqaviləyə əməl edirlər, “**siz də onlarla düzgün davranın. Həqiqətən, Allah müttəqiləri sevir**”. Peyğəmbər ﷺ və müsəlmanlar belə də etmişlər. Məkkə əhalisi ilə bağlanan sülh müqaviləsi hicri təqvimi ilə altıncı ilin Zül-Qadə ayından başlayaraq Qureyşin əhdi pozmasına qədər davam etmişdir. Qureyş əhdi pozaraq müttəfiqləri olan Bənu Bəkr qəbiləsinə Peyğəmbərin ﷺ müttəfiqi olan Xuzəa qəbiləsinə qarşı yardım etmişlər və onlarla birlikdə Haram ərazisində Xuzəaya qarşı döyüşmüşlər. Peyğəmbər ﷺ də hicrətin səkkizinci ilinin Ramazan ayında onlarla döyüşdü, Uca Allah ona Haram diyarını

(Məkkəni) fəth etməyi nəsib etdi, düşmənlərinə qarşı ona güc, qüvvət və imkan verdi. Həmd və şükür Allaha məxsusdur. Peyğəmbər ﷺ bu qələbə və üstünlükdən sonra onlardan İslamı qəbul edənləri sərbəst buraxdı. Onlar, "Tuləqa" (azad edilmişlər) adlandırdılar. Sayları təxminən iki min nəfər olardı. Kafir olaraq qalmağa davam edənlərə və Peyğəmbərdən ﷺ qaçanlara isə Peyğəmbər ﷺ xəbər göndərərək onlara aman verdiyini və dörd ay müddətinə istədikləri yerə getmələrinə icazə verdiyini bildirmişdi. Safvən ibn Umeyyə, İkrimə ibn Əbu Cəhl və başqaları da belələrindən idilər. Bu amandan sonra Uca Allah onları tam olaraq İslama yönəltdi. Uca Allah müəyyən etdiyi hər bir müqəddərata görə və etdiyi hər bir işə görə tərifəlayiqdir.

﴿كَيْفَ وَإِن يَظْهَرُوا۟ عَلَيْكُمْ لَا يَرْقُبُوا۟ فِيكُمْ إِلًّا وَلَا ذِمَّةً ۚ يُرْضُونَكُم بِأَفْوَٰهِهِمْ وَتَأْبَىٰ قُلُوبُهُمْ وَأَكْثَرُهُمْ فَٰسِقُونَ ﴿٨﴾﴾

**8. Necə ola bilər?! Əgər onlar sizə qalib gəlsələr, nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etməzlər. Onların qəlbində nifrət olduğu halda, dildə sizi razı salmağa çalışarlar. Onların çoxu fasiqlərdir.**

Uca Allah bu ayədə möminləri müşriklərlə düşmən olmağa və onlardan uzaqlaşmağa təşviq edərək Allaha şərik qoşduqları və Allahın Elçisini ﷺ inkar etdikləri üçün onların müsəlmanlarla heç bir əhdə layiq olmadıqlarını bildirir. Əgər onlar müsəlmanlara qalib gəlsəydilər, onlardan heç kəsi sağ buraxmazdılar, nə qohumluq əlaqəsinə, nə də əhdə riayət edərdilər.

İbn Abbas رضي الله عنهما ayədə keçən الإِلُّ [əl-illu] sözünü "qohumluq", الذِّمَّةُ [əz-zimmə] sözünü isə "əhd" kimi təfsir etmişdir. əd-Dahhək və əs-Suddi رحمه الله də belə demişlər.

Mucahid رحمه الله isə ayəni "Əgər onlar sizə qalib gəlsələr, nə Allahın haqqına, nə də əhdə riayət edərlər" kimi təfsir etmişdir. Başqa bir rəvayətdə isə: "Nə Allahın haqqını, nə də başqasının haqqını gözləyərlər"[1] kimi təfsir etmişdir. Lakin birinci rəy daha məşhur və daha doğrudur. Əksər təfsir alimləri də bunu demişlər.

[1] ət-Təbəri, 16501, 16578.

﴿ٱشْتَرَوْاْ بِـَٔايَٰتِ ٱللَّهِ ثَمَنًا قَلِيلًا فَصَدُّواْ عَن سَبِيلِهِۦٓۚ إِنَّهُمْ سَآءَ مَا كَانُواْ يَعْمَلُونَ ﴿٩﴾ لَا يَرْقُبُونَ فِى
مُؤْمِنٍ إِلًّا وَلَا ذِمَّةًۚ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلْمُعْتَدُونَ ﴿١٠﴾ فَإِن تَابُواْ وَأَقَامُواْ ٱلصَّلَوٰةَ وَءَاتَوُاْ ٱلزَّكَوٰةَ فَإِخْوَٰنُكُمْ
فِى ٱلدِّينِۗ وَنُفَصِّلُ ٱلْـَٔايَٰتِ لِقَوْمٍ يَعْلَمُونَ ﴿١١﴾﴾

**9. Onlar Allahın ayələrini ucuz qiymətə satır və insanları Onun yolundan döndərirdilər. Onların tutduqları iş necə də pisdir!**

**10. Onlar mömінlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər. Onlar həddi aşanlardır.**

**11. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələri bilən adamlara beləcə izah edirik.**

Uca Allah bu ayələrdə müşrikləri məzəmmət edərək, möminləri isə onlarla döyüşməyə rəğbətləndirərək buyurur: “**Onlar Allahın ayələrini ucuz qiymətə satır**”, yəni onlar dəyərsiz dünya işləri ilə məşğul olmağı Allahın ayələrinə dəyişir “**və insanları Onun yolundan döndərirdilər**”, yəni möminlərə haqqa tabe olmağa mane olurdular. “**Onların tutduqları iş necə də pisdir! Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər**”. Bu və bu ayədən sonra gələn “**Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələri bilən adamlara beləcə izah edirik**” ayəsinin təfsirini əvvəl qeyd etdik.

﴿وَإِن نَّكَثُوٓاْ أَيْمَٰنَهُم مِّنۢ بَعْدِ عَهْدِهِمْ وَطَعَنُواْ فِى دِينِكُمْ فَقَٰتِلُوٓاْ أَئِمَّةَ ٱلْكُفْرِ إِنَّهُمْ لَآ أَيْمَٰنَ
لَهُمْ لَعَلَّهُمْ يَنتَهُونَ ﴿١٢﴾﴾

**12. Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə küfrdən əl çəkələr.**

Uca Allah buyurur ki, “Əgər müəyyən bir müddətə əhd bağladığınız müşriklər andlarını, yəni əhdlərini pozub “**dininizə böhtan atsalar**”, yəni dininizi pisləyib alçaltsalar, “**onlarla vuruşun**”. Alimlər bu ayəyə əsaslanaraq Peyğəmbəri ﷺ söyən və ya İslam dininə böhtan atan, yaxud onu naqislikdə ittiham edənin öldürüldüyünü demişlər. Bu səbəbdən Uca Allah “**onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər.**

**Bəlkə küfrdən əl çəkələr**", – deyə buyurur. Yəni bəlkə küfrlərindən, inadkarlıqlarından və azğınlıqlarından dönərlər. Qatədə və başqaları ayə barədə: "Kafir başçılar olan Əbu Cəhl, Utbə, Umeyyə ibn Xələf ..." – demiş, sonra daha bir neçəsinin adını çəkmişlər. Lakin doğru olan budur ki, ayə Qureyş müşrikləri barədə nazil olsa da, həm onlara, həm də başqalarına şamil edilir. Ən doğrusunu isə Allah bilir.

﴿أَلَا تُقَٰتِلُونَ قَوْمٗا نَّكَثُوٓاْ أَيْمَٰنَهُمْ وَهَمُّواْ بِإِخْرَاجِ ٱلرَّسُولِ وَهُم بَدَءُوكُمْ أَوَّلَ مَرَّةٍۚ
أَتَخْشَوْنَهُمْۚ فَٱللَّهُ أَحَقُّ أَن تَخْشَوْهُ إِن كُنتُم مُّؤْمِنِينَ ١٣ قَٰتِلُوهُمْ يُعَذِّبْهُمُ ٱللَّهُ بِأَيْدِيكُمْ وَيُخْزِهِمْ
وَيَنصُرْكُمْ عَلَيْهِمْ وَيَشْفِ صُدُورَ قَوْمٖ مُّؤْمِنِينَ ١٤ وَيُذْهِبْ غَيْظَ قُلُوبِهِمْۗ وَيَتُوبُ ٱللَّهُ عَلَىٰ مَن يَشَآءُۗ وَٱللَّهُ
عَلِيمٌ حَكِيمٌ ١٥﴾

**13. Məgər siz andlarını pozan, Peyğəmbəri öz yurdundan qovmaq fikrində olan, özləri də sizinlə döyüşü birinci başlayan bir camaatla vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər möminsinizsə, daha çox Allahdan qorxmalısınız.**

**14. Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin**

**15. və möminlərin qəlbindən qəzəbi silib aparsın. Allah istədiyi kəsin tövbəsini qəbul edər. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Bu ayələrdə də Uca Allah möminləri andlarını pozan və Onun Elçisini ﷺ Məkkədən çıxarmağa təşəbbüs göstərən müşriklərlə döyüşməyə təşviq edir. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır**" ("əl-Ənfal", 30); "**Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar**" ("əl-Mumtəhənə", 1); "**Müşriklər az qala səni bu torpaqdan sıxışdırıb çıxaracaqdılar. Lakin səni qovduqdan sonra özləri də orada ancaq az bir müddət qala bilərdilər**" ("əl-İsra", 76).

Uca Allah buyurur: "...**özləri də sizinlə döyüşü birinci başlayan**...". Bəzi alimlər bu ayədə Bədr döyüşünün nəzərdə tutulduğunu demişlər. O vaxt müşriklər öz karvanlarını qurtarmaq üçün çıxmışdılar. Karvanın xilas olduğundan xəbərdar olmalarına baxmayaraq təkəbbürlük və azğınlıqlarından döyüşməyi arzu edərək irəliləməyə davam etdilər. Bu barədə ətraflı izah əvvəldə qeyd olunmuşdu. Bəzi alimlərə görə isə bu ayədə müşriklərin əhdlərini pozub müttəfiqləri olan Bənu Bəkr qəbiləsi ilə birlikdə Peyğəmbərin ﷺ müttəfiqi olan Xuzəa qəbiləsinə qarşı döyüşmələri nəzərdə tutulur. Bu səbəbdən Peyğəmbər ﷺ Məkkə fəth edildiyi il onların üzərinə yürüş etdi və olanlar oldu. Həmd və şükür Allaha məxsusdur. Uca Allah buyurur: "**Məgər onlardan qorxursunuz? Əgər möminsinizsə, daha çox Allahdan qorxmalısınız**". Uca Allah buyurur: "Onlardan deyil, Məndən qorxun. Qullar ən çox Mənim gücümdən və əzabımdan qorxmalıdırlar. Hər iş Mənim Əlimdədir, Mənim istədiyim olur, istəmədiyim isə olmur".

Sonra Uca Allah möminləri cihada cəsarətləndirb düşmənləri Özü həlak etməyə qadir olduğu halda, möminlərə cihadı fərz etməyinin hikmətini bəyan edərək belə buyurur: "**Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin**". Bu ayə ümumi olub bütün möminlərə aiddir. Mucahid, İkrimə və əs-Suddi رحمهم الله "**mömin camaatın qəlbini sevindirsin**" ayəsində Xuzəa qəbiləsinin nəzərdə tutulduğunu demişlər. Həmçinin "**və möminlərin qəlbindən qəzəbi silib aparsın**" ayəsini də bu qəbiləyə aid etmişlər.

Uca Allah buyurur: "**Allah istədiyi kəsin tövbəsini qəbul edər**", yəni Allah qullarından istədiyinə tövbə nəsib edər. "**Allah hər şeyi biləndir**", yəni qullarına faydalı olan şeyləri ən yaxşı biləndir, "**hikmət sahibidir**", yəni dində buyurduğu əmrlərində və kainatda etdiyi işlərdə hikmət sahibidir. O, istədiyini edir, istədiyi hökmü verir. O, əsla zülm etməyən, ədalətli hakimdir. Qulların etdiyi xeyir və şər əməllərdən zərrə qədər itirməz, bu əməllərin qarşılığını həm dünyada, həm də Axirətdə verəcəkdir.

﴿أَمْ حَسِبْتُمْ أَن تُتْرَكُوا وَلَمَّا يَعْلَمِ اللَّهُ الَّذِينَ جَاهَدُوا مِنكُمْ وَلَمْ يَتَّخِذُوا مِن دُونِ اللَّهِ وَلَا رَسُولِهِ وَلَا الْمُؤْمِنِينَ
وَلِيجَةً ۚ وَاللَّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ ﴿١٦﴾﴾

**16. Yoxsa elə hesab edirsiniz ki, Allah sizlərdən cihad edənləri, Allahdan, Onun Elçisindən və möminlərdən başqasını özlərinə sirdaş tutmayanları sınamadan siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır.**

Uca Allah buyurur: "Ey möminlər! "**Yoxsa elə hesab edirsiniz ki**" Biz sizi – həqiqi iradə sahiblərini yalançılarından ayıracaq və ortaya çıxaracaq işlərlə imtahan etmədən başlı-başına buraxacağıq? Bu səbəbdən Uca Allah belə buyurur: "**Allah sizlərdən cihad edənləri, Allahdan, Onun Elçisindən və möminlərdən başqasını özlərinə sirdaş tutmayanları sınamadan siz sərbəst buraxılacaqsınız?**" Onlar zahirdə də, batində də Allaha və Onun Elçisinə ﷺ olan sevgilərində səmimi və ixlaslıdırlar. Uca Allah ayədə iki qrupdan yalnız birini zikr etməklə kifayətlənmişdir. Uca Allah başqa ayələrdə belə buyurur: "**İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaq**" ("əl-Ənkəbut", 2-3); "**Yoxsa Allah içərinizdən cihad edənləri və səbir edənləri bəlli etmədən Cənnətə daxil olacağınızımı güman edirsiniz?!**" ("Ali-İmran", 142). Həmçinin buyurur: "**Allah möminləri sizin hazırda olduğunuz vəziyyətdə tərk edən deyil, sonda murdarı təmizdən ayıracaqdır. Allah sizə qeybi də bildirən deyildir. Lakin Allah Öz elçilərindən istədiyini seçər. Elə isə Allaha və Onun elçilərinə iman gətirin!**"("Ali-İmran", 179).

Nəticə olaraq, Uca Allah qullarına cihadı fərz buyurduğu zaman bunda Öz hikmətinin olmasını bəyan etmişdir. Bu hikmət qullarını imtahan edərək kimin Ona itaət edəcəyini, kimin isə asi olacağını üzə çıxarmaqdır. Uca Allah olub keçənləri də, gələcəkdə olacaqları da, olmayacaqları da, əgər olsaydı, necə olacağını da ən yaxşı biləndir. Hər bir şeyi baş verməzdən əvvəl və baş verdiyi halda bilir. Ondan başqa ibadətə layiq məbud yoxdur, Ondan başqa rəbb yoxdur. Heç nə Onun müəyyən etdiyi qəzavü-qədərin və həyata keçməsinə hökm etdiyi işlərin qarşısını ala bilməz.

﴿مَا كَانَ لِلْمُشْرِكِينَ أَن يَعْمُرُوا مَسَاجِدَ اللَّهِ شَاهِدِينَ عَلَىٰ أَنفُسِهِم بِالْكُفْرِ ۚ أُولَٰئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ وَفِي النَّارِ
هُمْ خَالِدُونَ ﴿١٧﴾ إِنَّمَا يَعْمُرُ مَسَاجِدَ اللَّهِ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَأَقَامَ الصَّلَاةَ وَآتَى الزَّكَاةَ وَلَمْ
يَخْشَ إِلَّا اللَّهَ ۖ فَعَسَىٰ أُولَٰئِكَ أَن يَكُونُوا مِنَ الْمُهْتَدِينَ ﴿١٨﴾﴾

**17. Müşriklər küfr etdikləri barədə öz-özlərinə şahid olduqları halda, onlara Allahın məscidlərini abadlaşdırmaq yaramaz. Onların əməlləri puça çıxmışdır. Onlar Odda əbədi qalacaqlar.**

**18. Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolla gedənlərdən olsunlar.**

Uca Allah buyurur: "Allaha şərik qoşan müşriklər özlərinin kafir olduqlarına şəxsən şahidlik etdikləri halda, Tək və şəriki olmayan Allahın adına tikilən Allahın məscidlərini təmir etməyə layiq deyillər". Necə ki əs-Suddi ﷺ demişdir: "Əgər bir xaçpərəstdən: "Dinin nədir?" – deyə soruşsan, o: "Nəsrani" – deyə cavab verəcək, bir yəhudidən: "Dinin nədir?" – deyə soruşsan, o: "Yəhudi" – deyə cavab verəcək, bir sabiidən: "Dinin nədir?" – deyə soruşsan, o: "Sabii" – deyə cavab verəcək. Əgər bir müşrikdən (bütpərəstdən): "Dinin nədir?" – deyə soruşsan, o: "Müşrik" – deyə cavab verəcək".[1] Uca Allah buyurur: "**Onların əməlləri**" Allaha şərik qoşduqları üçün "**puça çıxmışdır. Onlar Odda əbədi qalacaqlar**". Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Onlar** (müşriklər) **möminləri Məscidul-Harama buraxmadıqlarına görə Allah nə üçün onlara əzab verməsin? Halbuki onlar özləri ora** (Məscidul-Harama) **layiq deyillər, ora layiq olanlar yalnız müttəqilərdir. Lakin onların çoxu bunu bilmir**" ("əl-Ənfal", 34). Burada isə Uca Allah "**Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar**" buyurmaqla məscidləri təmir edənlərin iman sahibləri olduqlarına şahidlik edir.

Uca Allah buyurur: "**Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan**", çünki namaz bədən əzaları ilə yerinə yetirilə bilən ən böyük ibadətdir; "**zəkat verən**", çünki zəkat məxluqlara yaxşılıq baxımından yerinə yetirilən ən fəzilətli əməldir; "**və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar**", yəni onlar yalnız Allahdan qorxar və Ondan savayı heç kəsdən qorxmazlar. "**Ola bilsin**

[1] İbn Əbu Hatim, 10052.

**ki, onlar doğru yolla gedənlərdən olsunlar**". İbn Abbas رضي الله عنهما demişdir: "Bunlar, şübhəsiz ki, nicat tapanlardır".[1] Necə ki Uca Allah Peyğəmbər ﷺ barədə belə buyurur: "**Ola bilsin ki, buna görə Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin**" ("əl-İsra", 79). Tərifəlayiq məqam Peyğəmbərə ﷺ verilən şəfaətdir. Quranda keçən "ola bilsin" ifadəsi "vacibdir" mənasındadır. İbn İshaq رحمه الله demişdir: "Uca Allahın "ola bilsin" ifadəsi "haqdır" mənasındadır".[2]

﴿۞ أَجَعَلْتُمْ سِقَايَةَ ٱلْحَآجِّ وَعِمَارَةَ ٱلْمَسْجِدِ ٱلْحَرَامِ كَمَنْ ءَامَنَ بِٱللَّهِ وَٱلْيَوْمِ ٱلْءَاخِرِ وَجَٰهَدَ فِى سَبِيلِ
ٱللَّهِ ۚ لَا يَسْتَوُۥنَ عِندَ ٱللَّهِ ۗ وَٱللَّهُ لَا يَهْدِى ٱلْقَوْمَ ٱلظَّٰلِمِينَ ﴿١٩﴾ ٱلَّذِينَ ءَامَنُوا۟ وَهَاجَرُوا۟ وَجَٰهَدُوا۟ فِى سَبِيلِ
ٱللَّهِ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ أَعْظَمُ دَرَجَةً عِندَ ٱللَّهِ ۚ وَأُو۟لَٰٓئِكَ هُمُ ٱلْفَآئِزُونَ ﴿٢٠﴾ يُبَشِّرُهُمْ رَبُّهُم بِرَحْمَةٍ مِّنْهُ
وَرِضْوَٰنٍ وَجَنَّٰتٍ لَّهُمْ فِيهَا نَعِيمٌ مُّقِيمٌ ﴿٢١﴾ خَٰلِدِينَ فِيهَآ أَبَدًا ۚ إِنَّ ٱللَّهَ عِندَهُۥٓ أَجْرٌ عَظِيمٌ ﴿٢٢﴾﴾

**19. Doğrudanmı siz hacılara su verməyi və Məscidul-Haramı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz.**

**20. İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır.**

**21. Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və onlar üçün içərisində tükənməz nemətlər olan cənnətlərlə müjdələyir.**

**22. Onlar orada əbədi qalacaqlar. Şübhəsiz ki, ən böyük mükafat Allah yanındadır.**

İbn Abbas رضي الله عنهما bu ayənin təfsirində belə demişdir: "Müşriklər: "Allahın Evini abadlaşdıran və zəvvarlara su paylayan kəs, iman gətirib cihad edən kəsdən daha xeyirlidir" – dedilər. Onlar Məscidul-Haramla özlərini öyür, ona layiq və onu abadlaşdıran kəslər olduqlarını sanaraq təkəbbürlük edirdilər. Uca Allah onların bu təkəbbürlüklərini və haqdan üz çevirdiklərini zikr edərək Haram ərazisində yaşayan müşriklərə belə buyurmuşdur: "**Ayələrim sizə oxunurdu, siz isə arxa çevirirdiniz. Həm də Kəbə ilə təkəbbürlük edir, gecələr toplanıb yaramaz sözlər danışırdınız**"

[1] ət-Təbəri, 16555, 16632.
[2] ət-Təbəri, 16556, 16663.

(“əl-Muminun”, 66-67). Yəni onlar Haram ərazisində yaşadıqları üçün təkəbbürlük edirdilər, “**gecələr toplanıb yaramaz sözlər danışırdınız**”, yəni onlar səhərə qədər oyaq qalıb Quran və Peyğəmbər ﷺ barədə nalayiq sözlər danışırdılar. Uca Allah da iman gətirib Peyğəmbərlə ﷺ birlikdə cihad etməyi müşriklərin Kəbəni təmir etmələrindən və zəvvarlara su vermələrindən üstün və xeyirli olduğunu bildirmişdir. Allaha şərik qoşduqları üçün Onun evini təmir edib ona xidmət göstərmələri onlara Allah dərgahında bir fayda verməyəcək”.

Uca Allah buyurur: “**Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz**”. Burada özlərini Allahın Evini abadlaşdıran kəslər olduğunu sananlar nəzərdə tutulur. Allaha şərik qoşduqları üçün Uca Allah onları “zalım qövm” adlandırmışdır. Bu abadlıq onlara heç bir fayda verməyəcək.

İmam Muslim və İbn Cərir ﷺ (hədisin mətni İbn Cərirə aiddir) rəvayət etmişlər ki, Numən ibn Bəşir əl-Ənsari ﷺ demişdir: “Bir dəfə mən cümə günü bir neçə səhabə ilə Peyğəmbərin ﷺ minbərinin yanında olarkən bir kişi dedi: “Mən İslamın ərkanlarından sonra hacılara su paylamağı ən gözəl əməl hesab edirəm”. Digər bir kişi isə: “Mənim üçün İslamın ərkanlarını yerinə yetirdikdən sonra ən gözəl əməl Məscidul-Haramı təmir etməkdir” – dedi. Üçüncü kişi isə: “Allah yolunda cihad sizin dediklərinizdən də [hacılara su paylamaqdan və Məscidul-Haramı təmir etməkdən] üstün sayılır” – dedikdə, Ömər ibn əl-Xattab ﷺ onları danlayıb dedi: “Peyğəmbərin ﷺ minbərinin yanında səsinizi qaldırmayın! (Bu hadisə cümə günü olmuşdu.) Cümə namazını qılıb qurtardıqdan sonra Peyğəmbərin ﷺ yanına daxil olub ondan mübahisə etdiyiniz məsələ barəsində soruşacağam”. Ömər ﷺ belə də etdi və Uca Allah bu ayəni nazil etdi: “**Doğrudanmı siz hacılara su verməyi və Məscidul-Haramı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz**”.[1]

[1] Muslim (1879/111); İbn Cərir “Təfsir” (10/67).

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَتَّخِذُوٓاْ ءَابَآءَكُمۡ وَإِخۡوَٰنَكُمۡ أَوۡلِيَآءَ إِنِ ٱسۡتَحَبُّواْ ٱلۡكُفۡرَ عَلَى ٱلۡإِيمَٰنِۚ وَمَن
يَتَوَلَّهُم مِّنكُمۡ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلظَّٰلِمُونَ ٢٣ قُلۡ إِن كَانَ ءَابَآؤُكُمۡ وَأَبۡنَآؤُكُمۡ وَإِخۡوَٰنُكُمۡ وَأَزۡوَٰجُكُمۡ
وَعَشِيرَتُكُمۡ وَأَمۡوَٰلٌ ٱقۡتَرَفۡتُمُوهَا وَتِجَٰرَةٞ تَخۡشَوۡنَ كَسَادَهَا وَمَسَٰكِنُ تَرۡضَوۡنَهَآ أَحَبَّ إِلَيۡكُم مِّنَ
ٱللَّهِ وَرَسُولِهِۦ وَجِهَادٖ فِي سَبِيلِهِۦ فَتَرَبَّصُواْ حَتَّىٰ يَأۡتِيَ ٱللَّهُ بِأَمۡرِهِۦۗ وَٱللَّهُ لَا يَهۡدِي ٱلۡقَوۡمَ ٱلۡفَٰسِقِينَ ٢٤﴾

**23. Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır.**

**24. De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".**

Uca Allah bu ayələrdə möminlərə ataları və oğulları olsalar belə, kafirlərdən ayrılmağı əmr edərək, küfrü imandan "**üstün sayırlarsa**", yəni imanı tərk edib küfrü seçdikləri təqdirdə onlarla dostluq etməyi qadağan edir və belə edənləri təhdid edir. Necə ki başqa bir ayədə belə buyurur: "**Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Rəsuluna düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə dostluq etsinlər. Allah onların qəlbinə iman yerləşdirmiş və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları altından çaylar axan cənnətlərə daxil edəcək. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidir. Şübhəsiz ki, məhz Allahın firqəsi nicat tapanlardır**" ("əl-Mucadilə", 22).

Sonra Uca Allah Peyğəmbərə ﷺ ailəsini, qohumlarını və qəbiləsini Allah və Onun Elçisindən, Allah yolunda cihaddan üstün tutanları təhdid etməyi əmr edərək belə buyurur: "**De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar**", yəni əldə etdiyiniz mallar, "**iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər**", yəni gözəlliyi və təmizliyi xoşunuza gələn evlər, bütün bunlar "**sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin**", yəni başınıza gələcək Allahın əzabını və müsibətini gözləyin. "**Allah günahkarları doğru yola yönəltməz**".

İmam Əhməd ؒ Zuhra ibn Məbəddən, o da babasından (Abdullah ibn Hişamdan ؓ) rəvayət etmişdir ki: "Bir dəfə Peyğəmbərlə ﷺ bərabər yol gedərkən o, Ömər ibn Xəttabın əlindən tutdu və Ömər ؓ ona dedi: "Ey Allahın Elçisi, Allaha and olsun ki, mən səni özümdən başqa hamıdan çox sevirəm". Peyğəmbər ﷺ buyurdu: "Sizdən biri məni özündən çox sevməyənə qədər (kamil) iman gətirmiş olmaz". Ömər ؓ ona dedi: "Allaha and olsun ki, indi mən səni hamıdan, hətta özümdən də çox sevirəm". Peyğəmbər ﷺ dedi: "Bax, indi (sən imanı tamamladın), ey Ömər!" Hədisi yalnız əl-Buxari ؒ rəvayət etmişdir.[1] əl-Buxarinin "Səhih" əsərində Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynlərindən və övladından çox istəməyincə, (kamil) iman gətirmiş olmaz".[2]

﴿لَقَدْ نَصَرَكُمُ ٱللَّهُ فِي مَوَاطِنَ كَثِيرَةٍ وَيَوْمَ حُنَيْنٍ إِذْ أَعْجَبَتْكُمْ كَثْرَتُكُمْ فَلَمْ تُغْنِ عَنكُمْ شَيْـًٔا
وَضَاقَتْ عَلَيْكُمُ ٱلْأَرْضُ بِمَا رَحُبَتْ ثُمَّ وَلَّيْتُم مُّدْبِرِينَ ﴿٢٥﴾ ثُمَّ أَنزَلَ ٱللَّهُ سَكِينَتَهُۥ عَلَىٰ رَسُولِهِۦ وَعَلَى
ٱلْمُؤْمِنِينَ وَأَنزَلَ جُنُودًا لَّمْ تَرَوْهَا وَعَذَّبَ ٱلَّذِينَ كَفَرُوا۟ ۚ وَذَٰلِكَ جَزَآءُ ٱلْكَٰفِرِينَ ﴿٢٦﴾ ثُمَّ يَتُوبُ ٱللَّهُ مِنۢ بَعْدِ
ذَٰلِكَ عَلَىٰ مَن يَشَآءُ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴿٢٧﴾﴾

**25. Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma bu sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız.**

**26. Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası.**

**27. Bundan sonra isə Allah istədiyinin tövbəsini qəbul edər. Çünki Allah Bağışlayandır, Rəhmlidir.**

Uca Allah bu ayələrdə möminlərə Peyğəmbərlə ﷺ birlikdə qatıldıqları bir çox döyüşdə yardım etməklə onlara göstərdiyi lütfünü və yaxşılığını zikr edir. Bu qələbə onlara saylarının çoxluğu və ya döyüş hazırlıqları ilə deyil, Allah tərəfindən, Onun dəstəyi və qəzavü-qədəri ilə verilmişdi. Uca Allah bu ayələrdə bildirir ki, sayın azlığından və ya çoxluğundan asılı olmayaraq, qələbə yalnız Allahdandır. Huneyn döyüşü günü sayca

[1] əl-Buxari, 6142, 6632; Əhməd, 22503, 22556, 22870.

[2] əl-Buxari, 14.

çox olmaları möminlərin xoşuna gəlmişdi, buna baxmayaraq, bu, onlara heç bir fayda vermədi. Peyğəmbərlə ﷺ birlikdə sabitqədəm olan çox az bir hissə istisna olmaqla, möminlərin çoxu düşmənlə qarşılaşdıqda dönüb geri qaçdılar. Sonra Uca Allah Peyğəmbərə ﷺ və onunla birlikdə olan möminlərə yardımını və dəstəyini endirdi ki, sayca az olsalar da, qələbənin yalnız və yalnız Allah tərəfindən və Onun yardımı ilə olduğunu onlara bildirsin. Neçə-neçə azsaylı dəstə olub ki, Allahın izni ilə çoxsaylı dəstəyə qalib gəlib. Allah səbir edənlərlədir.

Huneyn hadisəsi Məkkənin fəthindən sonra hicrətin səkkizinci ili Şəvval ayında baş vermişdir. Peyğəmbər ﷺ Məkkəni fəth edib işlərini sahmana saldıqdan sonra oranın bütün əhalisi İslamı qəbul etdi və Peyğəmbər ﷺ onları sərbəst buraxdı. Bu vaxt ona xəbər gəldi ki, Həvazin qəbiləsi ona qarşı ordu toplamışdır. Başçıları Malik ibn Auf ən-Nədri idi. Səqif qəbiləsinin hamısı, Bənu Cuşəm, Bənu Sad ibn Bəkr və Bənu Hilal qəbiləsindən bəzi qruplar – bunlar ordunun az bir hissəsini təşkil edirdilər – Bənu Amr ibn Amir və Bənu Auf ibn Amir qəbilələrindən bəziləri onunla (Malik ibn Auf ilə) birlikdə idilər. Onlar qadınlarını, uşaqlarını, qoyunlarını, dəvələrini və bütün mal-dövlətlərini özləri ilə gətirmişdilər. Peyğəmbər ﷺ Məkkənin fəthi üçün gətirdiyi ordu ilə onlara qarşı döyüşə çıxdı. Onlar mühacirlər, ənsar və ərəb qəbilələrindən ibarət on min nəfər idi. Məkkə əhalisindən İslamı qəbul edənlər də olanlarla birlikdə idilər. Bunlar Məkkənin fəthindən sonra İslamı qəbul etdikləri üçün Peyğəmbərin ﷺ sərbəst buraxdığı iki min nəfər idi. Peyğəmbər ﷺ onlarla birlikdə düşmənin üzərinə yeridi və Məkkə ilə Taif arasında yerləşən Huneyn adlanan bir vadidə qarşılaşdılar. Döyüş səhərin alaqaranlığında baş verdi. Müsəlmanlar vadiyə endikdə Həvazin qəbiləsi artıq orada pusqu qurmuşdu. Müsəlmanlar onların yaxınlaşdığını hələ hiss etməmiş onlar müsəlmanların üzərinə atıldılar, üzərilərinə ox yağdırdılar, qılınclarını çəkib başçılarının onlara əmr etdiyi kimi bir yerdə hücuma keçdilər. Bu vaxt müsəlmanlar Uca Allahın buyurduğu kimi geriyə çevrilib qaçdılar. Peyğəmbər ﷺ yerində qaldı. O gün o, ağ qatırına minmişdi və onu düşmənin üstünə sürürdü. Əmisi Abbas sağ üzəngisini, Əbu Süfyan ibn Haris ibn Abdulmuttalib sol üzəngisini tutmuş, qatır sürətlə getməsin deyə onu yavaşlatmağa çalışırdılar. Peyğəmbər ﷺ yüksək səslə adını söyləyir, müsəlmanları geri dönməyə çağıraraq: “Ey Allahın qulları, hara? Mənə tərəf gəlin, mən Allahın Elçisiyəm”, – deyirdi. Peyğəmbər ﷺ bu vəziyyətdə ikən yüksəkdən deyirdi:

“Mən Peyğəmbərəm, bu yalan deyil,
Mən Abdulmuttalibin nəslindənəm”.

Yüzə yaxın səhabə də Peyğəmbərlə ﷺ birlikdə qaldı – Əbu Bəkr, Ömər, Abbas, Əli, Fadl ibn Abbas, Əbu Süfyan ibn Haris, Əymən ibn Ummu Əymən, Usamə ibn Zeyd və başqaları. Allah onların hamısından razı olsun. Sonra Peyğəmbər ﷺ əmisi Abbasa gursəsli olduğu üçün yüksək səslə: "Ey ağac altında beyət edən səhabələr!" – deyə səslənməsini əmr etdi. Belə deməklə o, Ridvan beyətində[1] ağacın altında beyət edənləri nəzərdə tuturdu. Bu beyətdə mühacir və ənsardan ibarət müsəlmanlar çətin anlarda Peyğəmbəri ﷺ qoyub qaçmayacaqları barədə ona sadiqlik andı içmişdilər. Abbas onlara bəzən: "Ey səmra (akasiya)[2] ağacı altında beyət edən səhabələr", bəzən isə: "Ey "əl-Bəqərə"[3] surəsini bilən səhabələr" – deyə səslənirdi. Onlar "Ləbbeyk, ləbbeyk (Biz hüzurundayıq)" deyərək Peyğəmbərə ﷺ tərəf gəlməyə başladılar. Hətta onlardan birinin dəvəsi ona tabe olmayıb geri dönmək istəmədikdə zirehini geyinib dəvəsindən enirdi və onu sərbəst buraxıb özü Peyğəmbərin ﷺ yanına gəlirdi. Səhabələrdən kiçik bir qrup geri döndükdə Peyğəmbər ﷺ onlara yenidən hücum etmək əmrini verdi. Rəbbinə dua edib Ondan yardım istədikdən sonra bir ovuc torpaq götürüb belə dedi: "Allahım, mənə vəd etdiyini yerinə yetir". Sonra əlindəki torpağı düşmənə tərəf atdı. Onlardan elə bir kəs qalmadı ki, bu torpaqdan gözünə və ya ağzına düşüb döyüşməyə mane olmasın. Sonra onlar məğlubiyyətə uğradılar. Müsəlmanlar onları təqib edib bəzilərini öldürdülər, bəzilərini isə əsir götürdülər. Yerdə qalan səhabələr geri qayıtdıqda artıq əsirlər Peyğəmbərin ﷺ qarşısında yerə sərilmiş vəziyyətdə idilər.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, bir nəfər Bəra ibn Azibdən ؓ soruşdu: "Siz Huneyn döyüşündə Allahın Elçisini ﷺ qoyub qaçmısınızmı?" Bəra dedi: "Düzdür, lakin Allahın Elçisi ﷺ qaçmadı. Həvazin qəbiləsi sərrast ox atmaqda məşhur idi. Biz qarşı-qarşıya gəldikdə onların üzərinə hücum etdik və onlar dağılıb geri çəkildilər. Müsəlmanlar qənimət toplamağa başladıqda onlar bizi ox atəşinə tutdular. Allahın Elçisinə ﷺ gəlincə, o, bu həngamədə heç yerə qaçmadı. Mən onu ağ qatırının üstündə oturan gördüm. Həmin vaxt Əbu Süfyan qatırın yüyənindən tutmuşdu. Peyğəmbər ﷺ isə deyirdi:

"Yalan deyil, mən peyğəmbərəm! Mən Abdulmuttəlibin oğluyam!"[4]

Mən deyirəm: "Bu, cəsarətin ən yüksək mərtəbəsidir. Ordusu ətrafından dağılmış, qızğın döyüş getdiyi bir anda, belə bir gündə bütün

[1] Ridvan beyəti – Hudeybiyyədə ağac altında baş verən beyətdir.

[2] Ridvan beyəti baş verən ağac səmra (akasiya) ağacı olduğu üçün Abbas ؓ belə səslənirdi.

[3] Çünki "əl-Bəqərə" surəsində döyüşdən qaçmağın haram olduğu və kafirlərlə vuruşmağın vacib olduğu bildirilir. Bu hədis, həmçinin "əl-Bəqərə" surəsinin fəzilətinə dəlalət edir. Abbas ؓ belə deməklə bildirirdi ki, bu surəni bilənə döyüşdən qaçmaq yaraşmaz.

[4] əl-Buxari, 2652, 2864; Muslim, (1776/78), 3325, 3327, 4715, 4717.

baş verənlərə baxmayaraq Peyğəmbər ﷺ sürətlə gedə bilməyən, nə hücum etməyə, nə də qaçmağa yaramayan bir qatırın üzərində oturub onu düşmənin üzərinə sürürdü. Onu tanımayanlar tanısınlar deyə yüksək səslə öz adını elan edirdi. Allahın salavatı və salamı Qiyamət gününə qədər onun üzərinə olsun. Bütün bunlar onun Allaha etibarından, Ona təvəkkülündən, Allahın ona yardım edəcəyini, ona göndərdiyi dini tamamlayacağını və dinini digər dinlərdən üstün edəcəyini yəqin bilməsindən irəli gəlirdi. Bu səbəbdən Uca Allah belə buyurur: "**Sonra Allah Öz Elçisinə və möminlərə**", yəni onunla birlikdə olan möminlərə "**əminlik nazil etdi**", yəni arxayınlıq, sükunət və sabitlik nazil etdi, "**görə bilmədiyiniz döyüşçülər göndərdi**" – bunlar mələklərdir.

əl-Hafiz Əbu Bəkr əl-Beyhəqi رحمه الله rəvayət edir ki, İbn Məsud رضي الله عنه demişdir: "Huneyn döyüşü günü mən Peyğəmbərlə ﷺ birlikdə idim. Döyüş başlayanda insanlar onu qoyub qaçdılar. Mən onunla birlikdə qalan mühacir və ənsardan ibarət səksən nəfərin içində idim. Biz düşmənə tərəf getdik, düşmənə arxamızı çevirib qaçmadıq. Uca Allahın əminlik nazil etdiyi kəslər də məhz bunlardır. Peyğəmbər ﷺ ağ qatırı üstündə irəliyə doğru gedirdi. Birdən qatırı yana meyil etdi və Peyğəmbər ﷺ yəhərdən yana əyildi. Mən: "Qalx, Allah səni ucaltsın!" – dedim. Peyğəmbər ﷺ dedi: "Mənə bir ovuc torpaq ver!" Mən Peyğəmbərə ﷺ bir ovuc torpaq verdim və Peyğəmbər ﷺ onu düşmənə tərəf atdı. Düşmənin gözləri torpaqla doldu. Peyğəmbər ﷺ soruşdu: "Mühacir və ənsarlar haradadırlar?" Mən: "Orada" – deyə cavab verdim. Peyğəmbər ﷺ dedi: "Onları səslə!" Mən onları səslədim. Onlar qılıncları sağ əllərində yanar bir ulduz kimi gəldilər və müşriklər geri çevrilib qaçdılar". Oxşar hədisi İmam Əhməd رحمه الله də rəvayət etmişdir.[1]

Rəvayət edilir ki, Cubeyr ibn Mutim رضي الله عنه demişdir: "Huneyn döyüşü günü biz Peyğəmbərlə ﷺ birlikdə idik. İnsanlar döyüşərkən birdən göydən enən qara, zolaqlı əbaya bənzər bir şey gördüm. O, bizimlə döyüşdüyümüz qövmün arasına düşdü. Bir də gördüm ki, qarışqalar vadini doldurdu. Bu, düşmənin məğlub olması ilə nəticələndi. Bunun mələklər olduğundan əsla şübhə etmədik".[2]

Səid ibn Saib ibn Yəsar atasından rəvayət etmişdir ki, biz Huneyn döyüşündə müşriklər tərəfdən döyüşmüş, sonradan İslamı qəbul etmiş Yəzid ibn Amir əs-Suvaidən Huneyn döyüşü günü müşriklərin qəlblərinə

[1] əl-Beyhəqi "Dəlail ən-Nubuvvə" (5/142); Əhməd (4336). Əhməd Şakir رحمه الله demişdir: "Hədisin isnadı səhihdir".

[2] əl-Beyhəqi "Dəlail ən-Nubuvvə" 5/146.

düşən qorxu barədə soruşduqda, o, daş parçalarını götürüb bir tasın içinə atar və o cingildədikdə deyərdi: "Daxilimizdə buna bənzər bir səs duyurduq".[1] Muslimin "Səhih" əsərində Əbu Hureyradan ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Düşmənimin qəlbinə qorxu salmaqla Allah mənə yardım edir. Həmçinin mənə (çoxmənalı) yığcam kəlmələr[2] verilmişdir".[3] Bu səbəbdən Uca Allah: "**Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası**" – deyə buyurur.

Uca Allah buyurur: "**Bundan sonra isə Allah istədiyinin tövbəsini qəbul edər. Çünki Allah Bağışlayandır, Rəhmlidir**". Uca Allah Həvazin qəbiləsindən yerdə qalanların tövbəsini qəbul etdi. Onlar müsəlman olaraq Peyğəmbərin ﷺ hüzuruna gəldilər və Peyğəmbər ﷺ Məkkəyə yaxınlaşarkən əl-Ciranə adlanan yerdə gəlib ona yetişdilər. Bu, Huneyn döyüşündən təxminən iyirmi gün sonra baş verdi. Bu vaxt Peyğəmbər ﷺ onlara əsirləri ilə malları arasında seçim təklif etdi, onlar da öz əsirlərini seçdilər. Əsirlərin sayı qadın və uşaq olmaqla altı min nəfər idi və Peyğəmbər ﷺ əsirlərin hamısını onlara geri qaytardı, mallarını isə qənimət kimi səhabələr arasında bölüşdürdü. Peyğəmbər ﷺ Qureyşdən İslamı qəbul etdiklərinə görə azad etdiyi bəzi kəslərin qəlblərini İslam dininə isinişdirmək üçün əlavə olaraq onlara yüz-yüz dəvə verdi. Yüz dəvə verdikləri şəxslər arasında Malik ibn Əuf ən-Nadri də vardı. Onu əvvəl olduğu kimi öz qövmü üzərində başçı təyin etdi. Malik öz şeirlərində Peyğəmbəri ﷺ tərifləyərək belə deyərdi:

İnsanlar içində Muhəmməd kimisini
nə gördüm, nə də haqqında eşitdim.

---

[1] əl-Beyhəqi "Dəlail ən-Nubuvvə" 5/144; Abd ibn Humeyd "Muntəxəb" 439; əl-Heysəmi "Məcməuz-Zəvaid" 10279.

[2] Hərəvi ﷺ demişdir: "Burada "yığcam kəlmələr" deyildikdə Quran və hədis nəzərdə tutulur. Uca Allahın Öz Kitabında cəm etdiyi, habelə Peyğəmbərimizin ﷺ hədislərində varid olan kəlmələr yığcam olmasına baxmayaraq, çoxmənalı kəlmələrdir". (Şərhu Səhih Muslim, 2/280).

[3] Muslim, 523, 815, 1200.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِنَّمَا ٱلۡمُشۡرِكُونَ نَجَسٞ فَلَا يَقۡرَبُواْ ٱلۡمَسۡجِدَ ٱلۡحَرَامَ بَعۡدَ عَامِهِمۡ هَٰذَاۚ وَإِنۡ
خِفۡتُمۡ عَيۡلَةٗ فَسَوۡفَ يُغۡنِيكُمُ ٱللَّهُ مِن فَضۡلِهِۦٓ إِن شَآءَۚ إِنَّ ٱللَّهَ عَلِيمٌ حَكِيمٞ ٢٨ قَٰتِلُواْ
ٱلَّذِينَ لَا يُؤۡمِنُونَ بِٱللَّهِ وَلَا بِٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَلَا يُحَرِّمُونَ مَا حَرَّمَ ٱللَّهُ وَرَسُولُهُۥ وَلَا يَدِينُونَ
دِينَ ٱلۡحَقِّ مِنَ ٱلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ حَتَّىٰ يُعۡطُواْ ٱلۡجِزۡيَةَ عَن يَدٖ وَهُمۡ صَٰغِرُونَ ٢٩﴾

**28. Ey iman gətirənlər! Həqiqətən də, müşriklər murdardırlar. Odur ki, özlərinin bu ilindən sonra Məscidul-Harama yaxınlaşmasınlar. Əgər kasıblıqdan qorxursunuzsa, bilin ki, Allah istəsə, Öz lütfündən bəxş etməklə sizi varlandırar. Həqiqətən, Allah hər şeyi biləndir, hikmət sahibidir.**

**29. Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun.**

Uca Allah bu ayələrdə həm dinləri, həm də özləri pak olan mömin qullarına dinləri murdar olan müşrikləri Məscidul-Harama buraxmamağı, bu ayə nazil olduqdan sonra onların oraya yaxınlaşmalarına izin verməməyi əmr edir. Bu ayə hicrətin doqquzuncu ilində nazil olmuşdur. Peyğəmbər ﷺ həmin il Əlini Əbu Bəkrlə رضي الله عنهما birlikdə Məkkəyə göndərərək müşriklərin arasında belə elan etməsini əmr etmişdi: “Gələn ildən etibarən bu Evi (Kəbəni) heç bir müşrik həcc etməyəcək və heç kəs Kəbəni çılpaq vəziyyətdə təvaf etməyəcək”.[1] Uca Allah bunu tamamlamış, həm şəriət qanunu, həm də qəzavü-qədər olaraq belə hökm etmişdir. İmam əl-Əuzai رحمه الله demişdir: “Ömər ibn Abdul-Əziz Məkkə əmirinə belə bir məktub yazmışdır: “Yəhudi və xaçpərəstlərə müsəlmanların məscidlərinə daxil olmağı qadağan edin!” Sonra Uca Allahın “**Həqiqətən də, müşriklər murdardırlar**” ayəsini yazmışdır”.[2] Əta رحمه الله demişdir: “Uca Allahın “**Odur ki, özlərinin bu ilindən sonra Məscidul-Harama yaxınlaşmasınlar**” ayəsinə əsasən Haram ərazisinin hamısı məscid sayılır”.[3]

[1] əl-Buxari, 1517, 1622; Muslim, 1348/435, 1918, 2724.
[2] ət-Təbəri, 16595, 16672.
[3] İbn Əbu Hatim, 10016.

“Səhih” əsərində rəvayət edilən “Mömin murdar olmaz”[1] hədisi möminlərin paklığına dəlalət etdiyi kimi, bu ayə də müşriklərin murdar olmasına dəlalət edir. Müşriklərin bədənlərinin murdar olmasına gəlincə, əksər alimlərə görə, müşrikin bədəni murdar deyil, çünki Uca Allah Kitab əhlinin yeməyini müsəlmanlara halal etmişdir. Bəzi zahiri məzhəbinin mənsublarına görə isə onların bədənləri də murdardır.

İbn İshaq ﷺ Uca Allahın “**Əgər kasıblıqdan qorxursunuzsa, bilin ki, Allah istəsə, Öz lütfündən bəxş etməklə sizi varlandırar**” ayəsi barədə belə demişdir: “Çünki insanlar: “Bazarlarımız bağlanacaq, ticarətimiz məhv olacaq, əldə etdiyimiz mənfəət əldən gedəcək”, – dedilər. Uca Allah da “**Əgər kasıblıqdan qorxursunuzsa, bilin ki, Allah istəsə,** (başqa bir yolla) **Öz lütfündən bəxş etməklə sizi varlandırar**” ayəsini “**zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun**” sözünə qədər nazil etdi. Yəni bu (cizyə), sizin qorxduğunuz bazarların bağlanmasının əvəzidir. Uca Allah möminlərin müşriklərlə ticarətdə şərik olduqlarına görə məruz qaldıqları ziyana qarşılıq olaraq Kitab əhlinin boyunlarına cizyə (can vergisini) qoymuşdur. Bu görüş İbn Abbas, Mucahid, Qatədə, əd-Dahhək və başqalarından da rəvayət edilmişdir. “**Həqiqətən, Allah hər şeyi biləndir**”, yəni sizin üçün nəyin faydalı olduğunu ən yaxşı biləndir, “**hikmət sahibidir**”, yəni sizə əmr və qadağan etdiklərində hikmət sahibidir. Çünki O, etdiklərində və dediklərində kamildir, yaratmaqda və əmr etməkdə ədalətlidir. O, mübarək və ucadır. Bu səbəbdən onlara itirdikləri qazancların əvəzinə, Kitab əhlindən alacaqları cizyəni vermişdir. Uca Allah buyurur: “**Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun**”. Onlar Muhəmmədi ﷺ inkar etdikləri üçün heç bir peyğəmbərə və onların gətirdiklərinə düzgün iman gətirmiş sayılmırlar. Onlar Allahın şəriətinə və dininə deyil, yalnız öz rəylərinə, nəfsi istəklərinə və atalarının getdiyi yola tabe olurlar. Əgər onlar əllərində olana düzgün şəkildə iman gətirmiş olsaydılar, bu onları Muhəmmədə ﷺ iman gətirməyə aparardı. Çünki bütün peyğəmbərlər öz ümmətlərini onun gəlişi ilə müjdələmiş və öz ümmətlərinə ona tabe olmağı əmr etmişlər. Peyğəmbərlərin ən şərəflisi olan Muhəmməd ﷺ gəldikdə isə onu

[1] Hədisin tam mətni belədir: Əbu Hureyra ؓ rəvayət edir ki, bir gün o, cənabətli olduğu halda Mədinənin küçələrindən birində Peyğəmbərlə ﷺ rastlaşdı. O, Peyğəmbərdən ﷺ aralanıb getdi, sonra qüsl alıb geri qayıtdı. Peyğəmbər ﷺ: “Harada idin, ey Əbu Hureyra?” – deyə soruşdu. (Əbu Hureyra): “Cənabətli idim. Odur ki, təmiz olmadığım halda sənin yanında oturmaq istəmədim” – deyə cavab verdi. Peyğəmbər ﷺ: “Subhən-Allah! (Allah Pak və Müqəddəsdir) Mömin murdar olmaz” – dedi. (əl-Buxari, 283).

inkar etdilər. Bununla da onların keçmiş peyğəmbərlərin şəriətlərinə tabe olmadıqları bilindi, çünki onlar öz dinlərinə Allah tərəfindən gəldiyinə görə deyil, zövqləri və nəfsi istəklərinə uyduqları üçün tabe olmuşlar. Məhz buna görə digər peyğəmbərlərə iman gətirmələri onlara fayda verməyəcək, çünki onlar peyğəmbərlərin ən şərəflisini, ən üstününü, sonuncusunu və ən mükəmməlini inkar etmişlər. Bu səbəbdən Uca Allah: "**Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun**" – deyə buyurur.

Bu ayə ilk növbədə Ərəb yarımadasında müşriklər tam məğlub edilib haqq din bərqərar olduqdan və insanlar dəstə-dəstə Allahın dininə daxil olduqdan sonra Kitab əhli ilə döyüşmək barədə nazil olmuşdur. Uca Allah Öz Elçisinə ﷺ Kitab əhlindən olan yəhudi və xaçpərəstlərlə döyüşməyi əmr etmişdir. Bu, hicrətin doqquzuncu ilində olmuşdur. Bu ərəfədə Peyğəmbər ﷺ Bizansla (Rum) döyüşə hazırlıq görürdü, insanları döyüşə çağırır və bunun səbəbini onlara açıqlayaraq Mədinə ətrafında yaşayan ərəb qəbilələrindən ona qoşulmağı tələb edirdi. Onlar da Peyğəmbərin ﷺ çağırışını qəbul edib ona qoşuldular və nəticədə onun ətrafına təxminən otuz min döyüşçü toplaşdı. Mədinə və onun ətrafında olan münafiqlər və başqaları bu çağırışa qoşulmadılar. Bu hadisə quraqlıq və qıtlıq olan bir ildə, son dərəcə isti bir vaxtda olmuşdu. Peyğəmbər ﷺ rumlularla döyüşmək üçün Şama doğru yola çıxdı və Təbuka çatıb orada düşərgə qurdu. Təbuk quyularının yanında təxminən iyirmi gün qaldı. Sonra istixarə namazı qılıb Allahdan qayıtmaq barədə onu doğru olan rəyə yönəltməsini dilədi. Peyğəmbər ﷺ həmin ildəki sıxıntını və insanların zəifliyini nəzərə alaraq geri döndü. Bu barədə ətraflı açıqlama Allahın izni ilə daha sonra gələcəkdir.

Cizyənin yalnız Kitab əhli və ya atəşpərəstlərdən alındığını deyən alimlər bu ayəni dəlil gətirmişlər. Həmçinin səhih hədisdə Peyğəmbərin ﷺ Həcərdə yaşayan məcusilərdən cizyə aldığına əsaslanmışlar. Bu rəy İmam əş-Şafii və (məşhur rəvayətə görə) İmam Əhmədin رحمه الله məzhəbidir. Əbu Hənifə رحمه الله isə istər Kitab əhli olsun, istər müşrik, qeyri-ərəblərin bütün kafirlərindən, ərəblərdən isə yalnız Kitab əhli olanlardan cizyə alındığını demişdir. İmam Malik رحمه الله isə: "Kitab əhli, atəşpərəst, bütpərəst və digər bütün kafirlərdən cizyə almaq icazəlidir" – demişdir. Bu məzhəblərin əsaslandıqları qaynaqlar və onların dəlilləri başqa yerdə (fiqh kitablarında) qeyd edilmişdir. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**...zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun**", yəni İslamı qəbul etməsələr, alçalmış və zəlil halda öz əlləri ilə cizyə verənə qədər onlarla vuruşun. Bu səbəbdən zimmi kafirlərə[1] həddən artıq ehtiram göstərib onları müsəlmanlardan yüksək tutmaq icazəli deyil. Əksinə, onlar (İslamı qəbul etmədiklərinə görə) zəlil, alçaq və bədbəxtdirlər. Necə ki Muslimin "Səhih" əsərində Əbu Hureyradan ﵁ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Yəhudi və xaçpərəstlərə ilk salam verən siz olmayın. Onlarla bir yolda rastlaşdıqda onları yolun ən dar hissəsinə sıxışdırın!"[2] Möminlərin əmiri Ömər ibn əl-Xattab ﵁ onları rəzil etmək və alçaltmaq üçün ciddi şərtlər qoymuşdu. Hədis alimləri Abdur-Rahmən ibn Ğanm əl-Əşarinin ﵀ belə dediyini rəvayət etmişlər: "Ömər ibn əl-Xattab Şamda yaşayan xaçpərəstlərlə sülh müqaviləsi bağladıqda xaçpərəstlər ona belə bir məktub göndərdilər:

"Mərhəmətli və Rəhmli Allahın adı ilə! Bu, Möminlərin əmri, Allahın qulu Ömərə filan-filan şəhərlərin xaçpərəstləri tərəfindən yazılmış bir məktubdur. Həqiqətən, siz bizim ölkəyə gəldikdə biz canlarımız, övladlarımız, mallarımız və din mənsublarımız üçün sizdən aman dilədik. Sizə şərt olaraq söz verdik ki, şəhərimizdə və onun ətrafında yeni monastır[3], kilsə, hücrə (xüsusi ibadət yerləri) və rahib monastırları inşa etməyəcək, xarab olanları yeniləməyəcək, müsəlmanların əraziləri hesab olunan yerləri dirçəltməyəcəyik. Səhər-axşam kilsələrimizə müsəlmanlardan gəlmək istəyənlərə maneçilik törətməyəcək, qapılarını yoldan keçənlər və müsafirlər üçün daim açıq saxlayacağıq. Kilsəyə gələn yolçu müsəlmanları üç gün saxlayıb yedirəcəyik. Kilsələrimizdə və evlərimizdə casusa sığınacaq verməyəcək, müsəlmanlara qarşı xainlik edənləri gizlətməyəcəyik. Uşaqlarımıza Quranı öyrətməyəcəyik. Şirk əməllərimizi aşkar etməyəcək və heç kimi buna dəvət etməyəcəyik. İslamı qəbul etmək istəyən qohum-əqrabamızdan heç kimi bu fikrindən daşınmağa çağırmayacağıq. Müsəlmanlara hörmət edəcək, onlar oturmaq istədikdə oturduğumuz yerdən onlar üçün qalxacağıq. Libaslarında, baş geyimlərində, əmmamələrində, ayaqqabılarında və saç düzümlərində onlara heç bir şəkildə bənzəməyəcəyik. Onların danışdığı tərzdə danışmayacaq, onların künyələrini[4] özümüzə künyə seçməyəcəyik.

---

[1] Zimmi kafir – cizyə (vergi) ödəməklə müsəlman ölkəsində yaşayan kafirlərdir.

[2] Muslim, 4030, 5789.

[3] Rahib və rahibələrin, torpaq və kapitala malik kilsə-təsərrüfat təşkilatından ibarət dini icması. (Azərbaycan dilinin izahlı lüğəti).

[4] Künyə – övlad atası və ya anası olmasına görə insana verilərək əsasən أَبُو [əbu] "ata" və ya أُمُّ [ummu] "ana" sözləri ilə başlanan adlardır. Məsələn, Peyğəmbərimizin ﷺ künyəsi "Əbul-Qasim" (Qasimin atası) olmuşdur.

Yəhərli heyvana minməyəcək, üzərimizdə nə qılınc, nə də başqa bir silah daşımayacağıq. Üzüklərimizə ərəbcə naxış vurmayacağıq. Səraxoşedici içkilər satmayacağıq. Başlarımızın ön hissəsindəki saçları qısaldacağıq. Harada olsaq paltarlarımıza bürünəcək və bellərimizə kəmər bağlayacağıq. Kilsələrimizin üzərinə açıqda xaç qoymayacağıq. Müsəlmanların yol və bazarlarında, heç bir yerdə xaçlarımızı və kitablarımızı göstərməyəcəyik. Kilsələrdə zəngləri yalnız alçaq səslə vuracağıq. Müsəlmanlar iştirak etdikləri zaman kilsələrimizdə yüksək səslə oxumayacağıq. Bayram və mərasimlərə çıxmayacağıq. Ölülərimizi dəfn edərkən səslərimizi yüksəltməyəcəyik. Müsəlmanların yol və bazarlarında onlarla birlikdə oddan istifadə etməyəcəyik. Ölülərimizi onlara yaxın olan yerdə dəfn etməyəcəyik. Müsəlmanların döyüşdə əldə etdikləri kölələrdən istifadə etməyəcəyik. Müsəlmanlara məsləhət verməyə cürət etməyəcəyik. Onların ailə işləri ilə maraqlanmayacağıq". Ravi demişdir: "Bu məktubu Ömərə gətirdikdə bunu əlavə etdi: "Müsəlmanlardan heç kimə əl qaldırmayacağıq. Bu qeyd olunanları özümüzə və dinimizin mənsublarına şərt olaraq qəbul etdik. Bu şərtlərlə əmin-amanlığı qəbul etdik. Əgər biz üzərimizə götürdüyümüz bu şərtlərdən hər hansı birinə əməl etməsək, bizə əmin-amanlıq yoxdur və belə olan halda, inadkarlıq edib sizə qarşı çıxanlara verdiyiniz cəzaya biz də layiq olarıq".

﴿وَقَالَتِ ٱلۡيَهُودُ عُزَيۡرٌ ٱبۡنُ ٱللَّهِ وَقَالَتِ ٱلنَّصَٰرَى ٱلۡمَسِيحُ ٱبۡنُ ٱللَّهِۖ ذَٰلِكَ قَوۡلُهُم بِأَفۡوَٰهِهِمۡۖ
يُضَٰهِـُٔونَ قَوۡلَ ٱلَّذِينَ كَفَرُواْ مِن قَبۡلُۚ قَٰتَلَهُمُ ٱللَّهُۖ أَنَّىٰ يُؤۡفَكُونَ ٣٠ ٱتَّخَذُوٓاْ أَحۡبَارَهُمۡ
وَرُهۡبَٰنَهُمۡ أَرۡبَابٗا مِّن دُونِ ٱللَّهِ وَٱلۡمَسِيحَ ٱبۡنَ مَرۡيَمَ وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُوٓاْ إِلَٰهٗا
وَٰحِدٗاۖ لَّآ إِلَٰهَ إِلَّا هُوَۚ سُبۡحَٰنَهُۥ عَمَّا يُشۡرِكُونَ ٣١﴾

**30. Yəhudilər: "Üzeyir Allahın oğludur" – dedilər. Xaçpərəstlər də: "Məsih Allahın oğludur" – dedilər. Bu onların ağızlarından çıxan sözlərdir. Bu, daha əvvəlki kafirlərin sözlərinə oxşayır. Allah onları məhv etsin! Necə olur ki, haqdan döndərilirlər?**

**31. Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. O, bunların şərik qoşduqları şeylərdən uzaqdır.**

Uca Allah bu ayədə möminləri Ona qarşı yalan və böhtan olan bu pis sözləri dedikləri üçün kafir müşriklərlə – yəhudi və xaçpərəstlərlə döyüşməyə təşviq edir. Yəhudilər Üzeyir ﷺ barədə: “Həqiqətən, o, Allahın oğludur”, – dedilər. Uca Allah onların dedikləri bu sözdən çox ucadır. Xristianların Məsih ﷺ barədə azğınlıqları isə açıq-aydındır. Bu səbəbdən Uca Allah hər iki qrupun yalan dediyini bildirərək: “**Bu onların ağızlarından çıxan sözlərdir**” – buyurur. Yəni onların iddialarının heç bir əsası yoxdur, bu, böhtan və uydurmadan başqa bir şey deyil. “**Bu, daha əvvəlki kafirlərin sözlərinə oxşayır**”, yəni əvvəlki ümmətlərdən kafir olanlar necə azmışdılarsa, bunlar da elə azdılar. “**Allah onları məhv etsin!**” İbn Abbas رضي الله عنهما demişdir: “Yəni Allah onlara lənət etsin!” “**Necə olur ki, haqdan döndərilirlər?**” Yəni haqq açıq-aydın olduğu halda ondan necə üz döndərib batilə yönəlirlər?

Uca Allah buyurur: “**Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər**”. İmam Əhməd və ət-Tirmizi رحمه الله Adiy ibn Hatimdən رضي الله عنه rəvayət etmişlər ki, Peyğəmbərin ﷺ İslam dininə dəvəti ona çatdıqda o, Şama qaçdı. O, cahiliyyə dövründə xristian idi. Bacısı və qövmündən bir qrup insan müsəlmanlar tərəfindən əsir alındı. Sonra Peyğəmbər ﷺ onun bacısına lütf göstərərək onu sərbəst buraxdı və o, qardaşının yanına dönərək onu İslamı qəbul etməyə və Peyğəmbərin ﷺ yanına gəlməyə təşviq etdi. Adiy Mədinəyə gəldi. O, mənsub olduğu Tay qəbiləsində çox böyük hörmətə malik insan idi, atası Hatim ət-Tai də adlı-sanlı insan idi. İnsanlar Adiyin gəldiyini Peyğəmbərə ﷺ xəbər verdilər. Adiy boynunda gümüş bir xaçla Peyğəmbərin ﷺ yanına daxil oldu. Peyğəmbər ﷺ ona: “**Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər**” ayəsini oxudu. Adiy dedi: “Axı xaçpərəstlər onlara ibadət etmirlər”. Peyğəmbər ﷺ dedi: “Xeyr, ibadət etdilər. Elm adamları və rahibləri onlara halalı haram, haramı halal etdilər. Onlar da bu işdə elm adamlarına və rahiblərinə tabe oldular. Onlara ibadət etmələri də budur”. Sonra Peyğəmbər ﷺ dedi: “Ey Adiy, nə deyirsən? Allahu Əkbər (Allah ən Böyükdür) deməkdən qaçmağa səni nə vadar etdi? Allahdan daha böyük bir şey varmı? Səni qaçmağa nə vadar etdi? Lə iləhə illəllah (Allahdan başqa ibadətə layiq məbud yoxdur) deməkdən niyə qaçdın? Allahdan başqa ibadətə layiq məbud varmı?” Peyğəmbər ﷺ onu İslama dəvət etdi. Adiy İslamı qəbul etdi və haqq şəhadəti dilə gətirdi. Adiy dedi: “Peyğəmbərin ﷺ üzünün güldüyünü gördüm. Peyğəmbər ﷺ dedi: “Həqiqətən, yəhudilər qəzəbə uğrayanlar, xaçpərəstlər isə azmışlardır”.[1] Huzeyfə ibn əl-Yəmən, Abdullah ibn Abbas və başqaları da Uca Allahın

[1] Əhməd, 19381, 19400, 19600; ət-Tirmizi, 2953, 3211. Hədis səhihdir. Bax; Səhih əl-Cami, 8202.

"**Onlar Allahı qoyub baş elm adamlarını və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər**" ayəsi barədə belə demişlər: "Həqiqətən, yəhudi və xristianlar elm adamları və rahibləri halalı haram, haramı isə halal etdiklərində onlara tabe olmuşlar".

Bu səbəbdən Uca Allah buyurur: "**Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu**", yəni Allah bir şeyi haram etmişsə, o, haramdır, Onun halal etdiyi isə halaldır. Qoyduğu qanuna tabe olunar, hökm etdiyi şey tətbiq olunar, yerinə yetirilər. "**Ondan başqa ibadətə layiq olan məbud yoxdur. O, bunların şərik qoşduqları şeylərdən uzaqdır**", yəni Allah Ona qoşulan şəriklərdən, tay tutulan şeylərdən, köməkçilərdən, rəqiblərdən, övladlardan pak, müqəddəs və ucadır. Ondan başqa ilah, Ondan başqa rəbb yoxdur.

﴿يُرِيدُونَ أَن يُطۡفِـُٔواْ نُورَ ٱللَّهِ بِأَفۡوَٰهِهِمۡ وَيَأۡبَى ٱللَّهُ إِلَّآ أَن يُتِمَّ نُورَهُۥ وَلَوۡ كَرِهَ ٱلۡكَٰفِرُونَ ٣٢ هُوَ ٱلَّذِيٓ
أَرۡسَلَ رَسُولَهُۥ بِٱلۡهُدَىٰ وَدِينِ ٱلۡحَقِّ لِيُظۡهِرَهُۥ عَلَى ٱلدِّينِ كُلِّهِۦ وَلَوۡ كَرِهَ ٱلۡمُشۡرِكُونَ ٣٣﴾

**32. Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar.**

**33. Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur.**

Uca Allah bu ayələrdə bildirir ki, Kitab əhli və müşriklərdən ibarət olan bu kafirlər "**Allahın nurunu**", yəni Uca Allahın Peyğəmbər ﷺ vasitəsilə göndərdiyi doğru yolu və haqq dini mübahisə etmək və böhtan atmaqla "**söndürmək istəyirlər**". Onların məsəli Günəşin şüasını və ya Ayın işığını üfürməklə söndürmək istəyənin məsəlinə bənzəyir. Bu, mümkün olmayan bir şeydir. Həmçinin Allahın Peyğəmbər ﷺ vasitəsilə göndərdiyi din mütləq tamamlanacaq və bütün dinlərdən üstün olacaq. Bu səbəbdən Uca Allah onların məqsədlərinə və istəklərinə qarşılıq olaraq: "**Allah isə buna yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar**" – buyurur. "Kafir" sözünün (lüğəvi) mənası "bir şeyi örtüb bağlayan" deməkdir. Bu səbəbdən gecəyə hər şeyi örtdüyü üçün "kafir" deyilir. Əkinçilərə də "kafir" deyilir, çünki onlar toxumu torpağa qoyub üstünü örtməklə əkirlər.[1]

[1] Uca Allah Quranda əkinçiləri "kuffər" adlandıraraq buyurur: "Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir" ("əl-Hədid", 20).

Sonra Uca Allah buyurur: "**Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur**". Doğru yol – Peyğəmbərin ﷺ gətirdiyi doğru xəbərlər, doğru iman və faydalı elmdir. Haqq din isə dünya və axirətdə fayda verəcək doğru və saleh əməllərdir. "**İslamı bütün dinlərdən üstün etmək üçün...**", yəni İslamı digər bütün dinlərdən üstün etmək üçün. "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Həqiqətən, Uca Allah yer üzünün gündoğandan günbatana qədər hər yerini mənim üçün yığdı (mənə göstərdi). Ümmətimin hökmranlığı mənə göstərilən yerlərə qədər çatacaq".[1] İmam Əhməd ﵀ rəvayət edir ki, Təmim əd-Dəri ﵁ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Həqiqətən, bu din gecə və gündüzün çatdığı hər yerə çatacaq. Palçıqdan və ya yundan düzəlmiş elə bir ev olmayacaq ki, Uca Allah bu dini ora daxil etməsin. Kimisini (onu qəbul edəni) onunla izzətləndirəcək, kimisini də (qəbul etməyəni) zəlil edəcək. Elə bir izzət ki, Uca Allah onunla İslamı izzətləndirəcək, elə bir zillət ki, Uca Allah bununla küfrü zəlil edəcək". Təmim əd-Dəri belə deyərdi: "Həqiqətən, mən öz ailəmdə bunun şahidi oldum. Onlardan müsəlman olanlara xeyir, şərəf və izzət nəsib oldu. Kafir olanlar isə zillətə, alçaqlığa və cizyəyə (can vergisinə) düçar oldular".[2]

Muslim ﵀ rəvayət etmişdir ki, Aişə ﵂ demişdir: "Bir dəfə Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Lat və Uzzaya ibadət olunmadıqca gecə ilə gündüz getməyəcək (Qiyamət qopmayacaq)". Mən dedim: "Ey Allahın Elçisi! Uca Allah "**Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur**" ayəsini nazil etdikdə, mən bu işin tamamlandığını sanmışdım". Peyğəmbər ﷺ dedi: "Həqiqətən, Allahın istədiyi mütləq olacaq. Sonra Allah xoş bir külək göndərəcək və qəlbində zərrə qədər iman olan hər kəsin canını alacaq, sonra yer üzündə yalnız xeyirsiz insanlar qalacaq və onlar ata-babalarının dininə dönəcəklər".[3]



---

[1] Muslim, 2889/19, 5144, 7440.

[2] Əhməd (4/103). əl-Heysəmi "əz-Zəvaid" (6/14) əsərində demişdir: "Əhmədin rəvayət etdiyi hədisin raviləri "Səhih" əsərinin hədislərini rəvayət edənlərdir". Əhməd, 16998, 17082. Şueyb əl-Arnavut isnadının Muslimin şərtlərinə görə səhih olduğunu bildirmişdir.

[3] Muslim, 52/2907, 5174, 7483.

﴿ ۞ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِنَّ كَثِيرٗا مِّنَ ٱلۡأَحۡبَارِ وَٱلرُّهۡبَانِ لَيَأۡكُلُونَ أَمۡوَٰلَ ٱلنَّاسِ بِٱلۡبَٰطِلِ وَيَصُدُّونَ
عَن سَبِيلِ ٱللَّهِۗ وَٱلَّذِينَ يَكۡنِزُونَ ٱلذَّهَبَ وَٱلۡفِضَّةَ وَلَا يُنفِقُونَهَا فِي سَبِيلِ ٱللَّهِ فَبَشِّرۡهُم
بِعَذَابٍ أَلِيمٖ ٣٤ يَوۡمَ يُحۡمَىٰ عَلَيۡهَا فِي نَارِ جَهَنَّمَ فَتُكۡوَىٰ بِهَا جِبَاهُهُمۡ وَجُنُوبُهُمۡ وَظُهُورُهُمۡۖ هَٰذَا
مَا كَنَزۡتُمۡ لِأَنفُسِكُمۡ فَذُوقُواْ مَا كُنتُمۡ تَكۡنِزُونَ ٣٥ ﴾

**34. Ey iman gətirənlər! Ravvinlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və onları Allah yolundan döndərirlər. Qızıl-gümüşü xəzinəyə yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ.**

**35. O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: “Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!” – deyiləcəkdir.**

əs-Suddi ﷺ demişdir: “Ravvinlər yəhudilərdən, rahiblər isə xristianlardan olur”. Bu onun dediyi kimidir. Ravvinlər yəhudilərin elm adamlarıdır. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: “**Məgər din xadimləri və elm adamları onlara günah sözlər danışmağı və haram yeməyi qadağan etməli deyildilərmi?! Onların törətdikləri əməllər necə də pisdir!**” (“əl-Maidə”, 63). Rahiblər xristianların çox ibadət edənləri, keşişlər isə alimləridir. Necə ki Uca Allah bir ayədə belə buyurur: “**Çünki onların arasında keşişlər və rahiblər var və onlar təkəbbürlük göstərmirlər**” (“əl-Maidə”, 82). Burada məqsəd pis alimlərdən və azmış abidlərdən çəkindirməkdir. Necə ki Süfyan ibn Uyeynə ﷺ demişdir: “Alimlərimizdən azanların yəhudilərə, abidlərimizdən azanların isə xristianlara bir bənzərlikləri var”. Səhih bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: “Oxun lələkləri eyni olduğu kimi, siz də mütləq özünüzdən əvvəlkilərin yolunu eynilə onlar kimi tutub gedəcəksiniz”. Səhabələr soruşdular: “Yəhudi və xaçpərəstləri nəzərdə tutursan?” Peyğəmbər ﷺ dedi: “Başqa kim ola bilər ki?!” Başqa bir rəvayətdə isə səhabələr: “Fars və rumları nəzərdə tutursan?” – deyə soruşmuş, Peyğəmbər ﷺ: “Onlardan başqa kim olacaq?!” – deyə cavab vermişdir.[1]

Nəticə olaraq, bu ayə kafirlərə həm əməldə, həm də sözdə bənzəməkdən çəkinməyi əmr edir. Bu səbəbdən Uca Allah ayədə: “**Ravvinlərdən və rahiblərdən çoxu insanların mallarını haqsız olaraq yeyir və onları Allah yolundan döndərirlər**” – deyə buyurur. Yəni onlar insanlar arasında tutduqları mövqe və vəzifədən istifadə edərək dinlərini satıb

[1] əl-Buxari, 3197, 3456, 6775, 7320; Muslim, 2669, 4822, 6952.

dünya malı əldə edən və insanların mallarını yeyən kəslərdir. Necə ki cahiliyyə dövründə yəhudi ravvinlərin böyük hörməti vardı. İnsanlar onlara xərac, hədiyyələr və vergilər verərdilər. Uca Allah onlara Öz Elçisini ﷺ göndərdikdə insanlar arasında başçı olmaq istəyi onları azğınlıqlarını, küfrlərini və inadkarlıqlarını davam etdirməyə vadar etdi. Uca Allah onların bu istəyini peyğəmbərlik nuru ilə söndürdü, onlardan bu izzəti alıb yerinə zillət və miskinlik verdi, üstəlik, onlar Allahın qəzəbinə düçar oldular.

Uca Allah buyurur: "**...və onları Allah yolundan döndərirlər**", yəni onlar haram yeməklə yanaşı, insanları haqqa tabe olmaqdan yayındırıb, haqqa batil donu geyindirirlər və cahil insanlardan onlara tabe olanlara özlərini xeyirə çağıranlar kimi göstərirlər. Halbuki onlar özlərinin iddia etdikləri kimi xeyirə deyil, atəşə çağırırlar. Qiyamət günü onlara yardım olunmayacaq.

Uca Allah buyurur: "**Qızıl-gümüşü xəzinəyə yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ**". Burada nəzərdə tutulanlar başçıların üçüncü qismidir. Həqiqətən, insanlar alimlərə, abidlərə və mal-dövlət sahiblərinə möhtacdırlar. Bu üç qisim insan korlandıqda, əlbəttə, ətrafdakı insanlar da korlanırlar. Necə ki şairlərdən biri belə demişdir:

Dini hökmdarlardan, pis ravvinlərdən
və rahiblərdən başqası korlayarmı?

Ayədə keçən الْكَنْز [əl-kənz] "xəzinəyə yığmaq" feilinə gəlincə, İbn Ömər رضي الله عنهما bu barədə belə demişdir: "O, zəkatı verilməyən maldır". Həmçinin demişdir: "Zəkatı verilən mal yeddi qat yerin altında olsa belə, xəzinəyə yığılan mal sayılmır. Açıqda olub zəkatı verilməyən mal isə xəzinəyə yığılan maldır".[1]

əl-Buxari رحمه الله rəvayət edir ki, Xalid ibn Əsləm رحمه الله demişdir: "Bir dəfə Abdullah ibn Ömərlə birlikdə gedirdik. İbn Ömər belə dedi: "Bu, ("ət-Tövbə", 60) zəkat ayəsi nazil olmazdan əvvəl idi. Zəkat ayəsi nazil olduqda Uca Allah onu mallar üçün bir təmizlik etdi".[2] Ömər ibn Abdul-Əziz və İrak ibn Malik[3] də belə demişlər. Onlara görə, bu ayəni Uca Allahın "**Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan**" ("ət-Tövbə", 103) ayəsi nəsx (hökmünü ləğv) etmişdir.

[1] İbn Əbu Hatim, 10081.
[2] əl-Buxari, 4293, 4661.
[3] İrak ibn Malik əl-Ğifəri əl-Mədini böyük tabiinlərdən biridir. Əbu Hureyra, Abdullah ibn Ömər, Urvə ibn əz-Zubeyr və başqalarından hədislər rəvayət etmişdir. Hicri təqvimlə 102-ci ildə vəfat etmişdir.

İmam Əhməd ﵀ Səubəndən rəvayət etmişdir ki, qızıl və gümüş barədə ayə nazil olduqda səhabələr: "Hansı malı saxlayaq?" – dedilər. Ömər: "Mən bunu sizin üçün öyrənəcəyəm", – deyib dəvəsinə mindi və sürətlə irəliləyib Peyğəmbərə ﷺ yetişdi. Mən onun arxasınca gəlirdim. Ömər: "Ey Allahın Elçisi, hansı malı saxlayaq?" – deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Qoy sizdən biri şükür edən qəlbə, zikr edən dilə və Axirəti qazanmaqda ona yardım edəcək zövcəyə sahib olsun!" Hədisi ət-Tirmizi və İbn Məcə ﵀ də rəvayət etmişlər. ət-Tirmizi ﵀ hədisin həsən olduğunu bildirmişdir.[1]

Uca Allah buyurur: "**O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!" – deyiləcəkdir**". Bu söz onlara məzəmmət üçün deyiləcək. Necə ki başqa bir ayədə Uca Allah belə buyurur: "**Sonra əzab vermək üçün başına qaynar su tökün! Dad bu əzabı! Sən ki qüdrətli və hörmətli birisi idin**" ("əd-Duxan", 49). Yəni bu, onun qarşılığıdır. Bu sizin özünüz üçün yığdığınız şeylərdir. Belə bir deyim var: "Kim bir şeyi sevər və onu Allaha itaətdən üstün edərsə, onunla əzab olunar". Bu insanlar yığdıqları malları Allahın rizasından üstün saydıqları üçün onlara bu mallarla əzab veriləcək. Necə ki Əbu Ləhəb (Allah ona lənət etsin) Allah Elçisi ﷺ ilə düşmənçilik aparar, arvadı da bu işdə ona yardım edərdi. Qiyamət günü də arvadı ona əzab verilməsində yardımçı olacaq. "**Arvadının boynunda xurma liflərindən kəndir olacaq**" ("əl-Məsəd", 5). Yəni dünyada ona ən çox şəfqət bəsləyən bir insanın (zövcəsinin) Cəhənnəmdə odun toplayaraq onun üzərinə atması daha şiddətli əzabdır. Həmçinin bu mallar da dünyada sahibləri üçün ən dəyərli olduğuna görə Axirətdə onlara ən zərərli olacaq və Cəhənnəm atəşində bunlarla dağlanacaqlar. Alınlarının, böyürlərinin və kürəklərinin bunlarla dağlanması zərər olaraq kifayət edər.

Abdullah ibn Məsud ؓ demişdir: "Özündən başqa ibadətə layiq məbud olmayan Allaha and olsun ki, qul (zəkatını vermədən) yığdığı mal-dövləti ilə dağlandıqda dinar dinara, dirhəm dirhəmə toxunmayacaq. Onun dərisi genişləndiriləcək və hər bir dinar və dirhəm qızmış halda bir-bir dərisinin üzərinə qoyulacaq".[2]

[1] Əhməd, 23101, 23150, 23489; ət-Tirmizi, 3094, 3377; İbn Məcə, 1856. Hədis səhih li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 1499, 1913.

[2] ət-Təbəri, 16682, 16760.

Muslimin "Səhih" əsərində Əbu Hureyradan ﵁ rəvayət edilən hədisdə Peyğəmbər ﷺ demişdir: "Malının zəkatını verməyən elə bir kəs yoxdur ki, Qiyamət günü malı oddan lövhələrə çevrilib onunla böyrü, alnı və kürəyi damğalanmasın. Bu əzab, sayı əlli min ilə bərabər olan bir gündə insanlar arasında hökm edilənə qədər davam edəcək. Sonra ya (bağışlanıb) Cənnətə, ya da (əzabının davamını çəkmək üçün) Cəhənnəmə salınacaq". Sonra ravi hədisin tamamını zikr etdi.[1]

əl-Buxari ﵀ bu ayənin təfsirində Əbu Zərin ﵁ belə dediyini rəvayət etmişdir: "Bir dəfə biz Şamda olarkən mən Uca Allahın "**Qızıl-gümüşü xəzinəyə yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ**" ayəsini oxudum və bu ayə barədə Muaviyə ﵁ ilə mübahisə etdim. Muaviyə ﵁: "Bu ayə bizim (müsəlmanlar) barəmizdə nazil olmamışdır. Bu, yalnız Kitab əhli barədə nazil olmuşdur", – dedi. Mən isə: "Həqiqətən, bu ayə həm bizim, həm də onların barəsində nazil olmuşdur", – dedim".[2]

Mən deyirəm: "Əbu Zərr ﵁ ailənin ehtiyaclarından artıq olan malı yığmağı haram sayırdı. O, soruşulduqda bu cür fətva verər, insanları buna rəğbətləndirər və onlara bunu əmr edərdi. Bu rəyin əleyhinə çıxanlara çox sərt qarşılıq verərdi. Muaviyə ﵁ onu bu rəydən daşınmağa çağırmış, lakin o, bu rəydən daşınmamışdı. Muaviyə ﵁ Əbu Zərrin bu rəylə insanlara zərər verəcəyindən qorxurdu. O, möminlərin əmiri Osmana ﵁ məktub yazaraq Əbu Zərdən şikayət etdi və onu yanına çağırmasını istədi. Osman ﵁ Əbu Zərrin Mədinəyə gəlməsini tələb etdi və ər-Rabzə adlanan yerdə tək məskunlaşdırdı. Əbu Zərr Osmanın ﵄ xəlifəliyi dövründə məskunlaşdığı yerdə vəfat etmişdir. Muaviyə Əbu Zərr ﵄ yanında olarkən onu sınağa çəkmişdi ki, görsün dediyi ilə əməli eyni olacaqmı? Ona min dinar göndərmiş və o da həmin gün pulu kasıblara paylamışdı. Sonra Muaviyə ﵁ pul gətirən şəxsi təkrar onun yanına göndərərək: "Qızılları geri qaytar! Muaviyə məni başqa adamın yanına göndəribmiş, mən səhvən sənə gətirmişəm", – demişdi. Əbu Zərr ﵁ isə belə cavab vermişdi: "Vay sənin halına! Həqiqətən, o mal artıq məndən çıxdı. Lakin mənim malım gəlsə, səninlə hesablaşarıq".

[1] Muslim (987/26), 1647, 2337.

[2] Hədisin davamı belədir: "Əbu Zərr ﵁ dedi: "Elə buna görə də aramızda narazıçılıq əmələ gəldi. Muaviyə Osmana məktub yazıb mənim barəmdə ona şikayət etdi. Osman da məndən Mədinəyə gəlməyimi tələb etdi. Mən Mədinəyə gəldiyim zaman ətrafıma çoxlu adam toplaşdı, sanki məni birinci dəfə görürdülər. Bu barədə Osmana xəbər verdikdə, o dedi: "İstəyirsənsə, kənara çəkil, yaxın bir yerdə məskunlaş!" Bura gəlməyimin səbəbi də budur. Əgər mənim üzərimə həbəşini əmir təyin etsəydilər belə, onu eşidib ona itaət edərdim". (əl-Buxari, 4293, 4660).

əl-Buxarinin "Səhih" əsərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ Əbu Zərə رضي الله عنه belə demişdir: "Mən istəməzdim ki, bu dağ mənim üçün qızıla çevrilsin və mən bu qızıllardan bir dinarı belə üç gündən artıq özümdə saxlayım. Yalnız borcumu ödəmək üçün saxlayacağım dinardan başqa".[1] Əbu Zərr رضي الله عنه məhz bu hədisə əsaslanaraq belə bir rəy tutmuşdur. Ən doğrusunu Allah bilir.

﴿إِنَّ عِدَّةَ ٱلشُّهُورِ عِندَ ٱللَّهِ ٱثۡنَا عَشَرَ شَهۡرٗا فِي كِتَٰبِ ٱللَّهِ يَوۡمَ خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَ مِنۡهَآ أَرۡبَعَةٌ
حُرُمٞۚ ذَٰلِكَ ٱلدِّينُ ٱلۡقَيِّمُۚ فَلَا تَظۡلِمُواْ فِيهِنَّ أَنفُسَكُمۡۚ وَقَٰتِلُواْ ٱلۡمُشۡرِكِينَ كَآفَّةٗ كَمَا
يُقَٰتِلُونَكُمۡ كَآفَّةٗۚ وَٱعۡلَمُوٓاْ أَنَّ ٱللَّهَ مَعَ ٱلۡمُتَّقِينَ ٣٦﴾

**36. Həqiqətən, Allah yanında ayların sayı on ikidir. Bunu da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır. Doğru din budur. Odur ki, bu aylarda özünüzə zülm etməyin. Müşriklər hamılıqla sizinlə vuruşduqları kimi, siz də hamılıqla onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir.**

İmam Əhməd رحمه الله Əbu Bəkradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ vida həccində xütbə verdi və xütbəsində belə dedi: "Bilin ki, zaman, Allah yerləri və göyü yaratdığı gündən bəri heç dəyişmədən dövran etməkdədir. İl on iki aydan ibarətdir. Bunlardan dördü haram aylardır. Haram aylardan üçü – Zül-Qadə, Zül-Hiccə və Məhərrəm ard-arda gəlir. Dördüncüsü isə Mudər qəbiləsinin dediyi kimi, Cümədəl-Axir ilə Şaban ayları arasında keçən Rəcəb ayıdır". Hədisi əl-Buxari və Muslim رحمه الله də rəvayət etmişlər.[2] İbn Abbas رضي الله عنهما Uca Allahın "**Bunlardan dördü haram aylardır**" ayəsi barədə belə demişdir: "Məhərrəm, Rəcəb, Zül-Qadə və Zül-Hiccə".

Peyğəmbərin ﷺ hədisdə: "Bilin ki, zaman, Allah yerləri və göyü yaratdığı gündən bəri heç dəyişmədən dövran etməkdədir" deməsi zamanın ilk yaradılışdan Allahın yaratdığı kimi, tezləşmə və ya gecikmə, artma və ya azalma, təxirəsalma və ya dəyişmə olmadan qalmasını təsdiq edir.



[1] əl-Buxari, 5963, 6444.
[2] əl-Buxari, 2958, 3197.

**Fəsil**

Şeyx İlmuddin əs-Səxavi “əl-Məşhur fi Əsməil-Əyyəmi vəş-Şuhur” (Gün və ayların məşhur adları) adlandırdığı kitabında belə demişdir: “**Məhərrəm** ayı haram ay olduğuna görə belə adlanmışdır”. Mənə görə isə bu ayın belə adlanmasına səbəb onun haram edildiyini qüvvətləndirmək üçündür, çünki ərəblər bu ayı istədikləri kimi dəyişirdilər, bir il halal, bir il isə haram sayırdılar.

**Səfər** ayının belə adlandırılmasının səbəbi ərəblərin bu ayda döyüş və səfərə çıxıb evlərini boş qoymalarıdır. Ərəblər صَفِرَ الْمَكَانُ [safiral-məkə:n] “yer boşaldı” deyirlər.[1]

**Rabiül-Əvvəl** ayının belə adlandırılmasına səbəb bu ayda ərəblərin bahar fəslində yaşadıqları evlərinə qayıtmaqlarıdır.

**Rabiül-Axir** də Rabiül-Əvvəl kimidir.

**Cümədəl-Əvvəl** ayının belə adlandırılmasına səbəb isə bu ayda suların donmasıdır.[2]

**“Rəcəb”** sözünün mənası “təzim etmək” deməkdir.[3]

**Şaban** ayının belə adlandırılmasına səbəb bu ayda düşmən üzərinə hücuma keçmək üçün qəbilələrin dəstə-dəstə olmasıdır.

**“Ramazan”** sözünün mənası “şiddətli isti” deməkdir. “Ramazan” sözünün Allahın adlarından biri olduğunu deyənlər səhv edirlər və bu rəyə əhəmiyyət verilmir.

**“Şəvval”** sözü شَالَ [şə:lə] “quyruğunu qaldırmaq” feilindən götürülüb. Cütləşmək üçün dişi dəvənin quyruğunu qaldırması deməkdir.

**“Zül-Qadə”** sözündəki “qadə” və ya “qidə” (hər ikisi deyilir) sözünün mənası “oturmaq” deməkdir. Bu ayın belə adlandırılmasına səbəb ərəblərin bu ayda döyüş və səfər etməmələridir.

**Zül-Hiccə** ayında həcc ziyarəti yerinə yetirildiyinə görə belə adlandırılmışdır.

Uca Allah buyurur: “**Bunlardan dördü haram aylardır**”. Ərəblər cahiliyyə dövründə də bu ayları haram sayırdılar. “əl-Bəsl” adlanan bir

[1] “Sıfır” sözü də məhz bu kökdəndir. Mənası “boşluq” deməkdir.

[2] “Cəmədə” feilinin mənası “donmaq” deməkdir.

[3] “Tərcib” sözündəndir, mənası “hörmət etmək” deməkdir. Ərəblər bu aya hörmətlə yanaşdıqlarına görə belə adlandırılmışdır.

qrup insan istisna olmaqla, ərəblərin əksəriyyəti dörd ayı haram sayırdı. “əl-Bəsl” adlı qrup isə dinlərini çətinləşdirərək ildə səkkiz ayı haram sayırdılar.

Peyğəmbər ﷺ hədisdə “Bunlardan dördü haram aylardır. Haram aylardan üçü – Zül-Qadə, Zül-Hiccə və Məhərrəm ard-arda gəlir. Dördüncüsü isə Mudar qəbiləsinin dediyi kimi, Cümədəl-Axir ilə Şaban ayları arasında keçən Rəcəb ayıdır” deməklə Rəcəb ayını Mudar qəbiləsinə nisbət etmişdir. Bununla da Peyğəmbər ﷺ Rəcəb ayının Cümədəl-Axir ilə Şaban ayları arasında olduğunu deyən Mudar qəbiləsinin doğru dediyini bəyan etmişdir. Halbuki Rabiyə qəbiləsi haram ay olan Rəcəb ayının Şaban ilə Şəvval ayları arasında olduğunu sanırdılar. Günümüzdə Şaban ayı ilə Şəvval ayı arasında Ramazan ayı yerləşir. Peyğəmbər ﷺ belə deməklə bildirmişdir ki, haram olan ay Rəbiyə qəbiləsinin nəzərdə tutduğu Rəcəb ayı deyil, Mudar qəbiləsinin nəzərdə tutduğu Rəcəb ayıdır. Haram aylar dörddür. Üçü ardıcıl gəlir, biri isə təkdir. Bu üç ayın ardıcıl gəlməsinə səbəb həcc və ümrə ziyarətlərini yerinə yetirmək idi. Həcc ayından əvvəl gələn Zül-Qadə ayı haram edilib, çünki ərəblər bu ayda döyüşməzdilər. Zül-Hiccə ayı da haram edilmişdir, çünki ərəblər bu ayda həcc əməllərini yerinə yetirməklə məşğul olardılar. Həcc ayından sonra gələn Məhərrəm ayı da haram edilmişdir. Bu isə uzaq ölkələrdən gələn zəvvarların əmin-amanlıqla geri dönə bilmələri üçün idi. İlin ortasında gələn Rəcəb ayının haram olması isə Allahın Evinə Ərəb yarımadasının ən uzaq yerlərindən gələnlərin Kəbəni ziyarət edib ümrə etmələri, ziyarətdən sonra bu ayda ölkələrinə əmin-amanlıqla dönə bilmələri üçündür.

Uca Allah buyurur: “**Doğru din budur**”, yəni Uca Allahın əmrinə tabe olub Onun Lövhi-Məhfuzda aylar içərisindən bəzilərini haram etdiyini qəbul etmək doğru şəriətdir.

Uca Allah buyurur: “**Odur ki, bu aylarda özünüzə zülm etməyin**”, yəni bu haram aylarda özünüzə zülm etməyin, çünki bu aylarda zülm etmək günah baxımından digər aylarda zülm etməkdən daha ağırdır. Necə ki haram ərazisində günah etməyin cəzası qat-qat artıqdır. Uca Allah bir ayədə buyurur: “**Məscidul-Haramdan sapdıranlara və orada zülm etməklə haqdan dönmək istəyənlərə ağrılı-acılı bir əzab daddıracağıq**” (“əl-Həcc”, 25). Haram ayda günah etmək də belədir. Bu aylarda edilən günahlar daha ağırdır. Bu səbəbdən İmam əş-Şafii və bir çox alimə görə, haram aylarda törədilmiş cinayət üçün qanbahası artırılır. Haram ərazisində qətl törədənin və ya ihramlı birini öldürənin hökmü də belədir.

İbn Abbas ﷺ Uca Allahın "**Odur ki, bu aylarda özünüzə zülm etməyin**" ayəsi barədə belə demişdir: "Yəni bütün aylarda özünüzə zülm etməyin. Sonra bu aylardan dördünü ayıraraq onları haram etmişdir. Bu ayların hörmətini artırmış, bu aylarda edilən günahın daha böyük olduğunu, saleh əməlin isə savabının böyük olduğunu bildirmişdir".[1] Qatədə ﷺ demişdir: "Zülm etməyin hər bir halda böyük günah olmasına baxmayaraq, haram aylarda edilən zülm günah baxımından digər aylarda edilən zülmdən daha böyükdür. Uca Allah yaratdıqlarından istədiyini seçib üstün edir. Mələklərdən elçiləri, insanlardan elçiləri, kəlamlardan Onu zikr etməyi, yer üzündən məscidləri, aylardan Ramazan və haram ayları, günlərdən cümə gününü, gecələrdən Qədr gecəsini seçərək üstün etmişdir. Allahın üstün etdiyini siz də üstün edin! Anlayış və ağıl sahibləri bilirlər ki, yalnız Uca Allahın seçib üstün etdiyi şeylərə hörmət olunur".[2]

İbn İshaq ﷺ Uca Allahın "**Odur ki, bu aylarda özünüzə zülm etməyin**" ayəsini belə açıqlamışdır: "Allaha şərik qoşanların etdiyi kimi, haramlarını halal, halallarını haram etməyin. Onlar haram ayları gecikdirməklə yalnız küfrlərini artırırlar ki, **"bununla kafir olanlar azdırılırlar. Onlar bunu bir il halal sayır, bir il də haram sayırlar ki, Allahın haram etdiyi ayların sayını uyğunlaşdırsınlar və Allahın haram buyurduğunu halal etsinlər. Beləcə, onların pis əməlləri özlərinə gözəl göstərildi. Allah kafir adamları doğru yola yönəltməz**" ("ət-Tövbə", 37). İbn Cərir ﷺ də bu təfsiri seçmişdir.[3]

Uca Allahın "**Müşriklər hamılıqla sizinlə vuruşduqları kimi, siz də hamılıqla onlarla vuruşun**" ayəsinə gəlincə, ola bilsin, bu cümlə əvvəlki cümlə ilə əlaqəsi olmayan yeni bir cümlədir və yeni bir hökm bildirməklə müsəlmanları müşriklərlə döyüşməyə təşviq edir. Yəni necə ki onlar sizinlə döyüşmək üçün toplaşırlar, siz də onlarla döyüşmək üçün toplaşın və onların etdiklərinə eyni ilə qarşılıq verin. Ola da bilsin, Uca Allah ayədə müşriklər haram aylarda döyüşə başladıqları halda möminlərə onlarla döyüşməyə izn vermişdir. Necə ki Uca Allah başqa ayələrdə buyurur: "**Haram ay haram aya görədir. Haram olanları pozmağın cəzası qisas almaqdır. Kim sizə qarşı təcavüz etsə, siz də ona qarşı onun təcavüz etdiyi qədər təcavüz edin. Allahdan qorxun və bilin ki, Allah müttəqilərlədir**" ("əl-Bəqərə", 194); "**Onlar sizinlə Məscidul-Haramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası belədir**" ("əl-Bəqərə", 191).

[1] ət-Təbəri, 16696, 16775.
[2] ət-Təbəri, 16698, 16777.
[3] ət-Təbəri, 16699, 16778.

﴿إِنَّمَا ٱلنَّسِيٓءُ زِيَادَةٞ فِي ٱلۡكُفۡرِۖ يُضَلُّ بِهِ ٱلَّذِينَ كَفَرُواْ يُحِلُّونَهُۥ عَامٗا وَيُحَرِّمُونَهُۥ عَامٗا
لِّيُوَاطِـُٔواْ عِدَّةَ مَا حَرَّمَ ٱللَّهُ فَيُحِلُّواْ مَا حَرَّمَ ٱللَّهُۚ زُيِّنَ لَهُمۡ سُوٓءُ أَعۡمَٰلِهِمۡۗ وَٱللَّهُ لَا يَهۡدِي ٱلۡقَوۡمَ
ٱلۡكَٰفِرِينَ ٣٧﴾

**37. Haram ayı təxirə salmaq ancaq küfrü artırır. Bununla da kafirlər azdırılırlar. Onlar bunu bir il halal sayır, bir il də haram sayırlar ki, Allahın haram etdiyi ayların sayını uyğunlaşdırsınlar və Allahın haram buyurduğunu halal etsinlər. Beləcə, onların pis əməlləri özlərinə gözəl göstərildi. Allah kafir adamları doğru yola yönəltməz.**

Uca Allah bu ayədə Onun şəriətini öz yanlış düşüncələrinə uyğun idarə edən, Onun hökmlərini öz mənasız istəklərinə uyğun dəyişən, Onun haram etdiklərini halal, halal etdiklərini isə haram edən müşrikləri məzəmmət edir. Onlarda düşmənlərinə qarşı elə bir qəzəb və elə bir qəbilə təəssübkeşliyi vardı ki, düşmənləri ilə döyüşmək istəklərini yerinə yetirməyə mane olan üç haram ayı gözləməyi çox uzun müddət hesab edirdilər. Bu səbəbdən İslamdan bir müddət əvvəl Məhərrəm ayını halal ay edib bu ayın haramlığını Səfər ayına keçirtməklə, haram ayı halal, halal ayı isə haram sayırdılar. Beləcə, Allahın haram etdiyi ayların sayını (dörd haram ayın sayını) da qorumuş olurdular.

İbn Abbas رضي الله عنهما Uca Allahın "**Haram ayı təxirə salmaq ancaq küfrü artırır**" ayəsi barədə belə demişdir: "Cunadə ibn Auf ibn Umeyyə əl-Kinəni hər il həcc mövsümünü müəyyən edərdi. Onun künyəsi Əbu Sumamə idi. O, insanlar içində: "Bilin ki, Əbu Sumamə günah işlətməz, məzəmmət olunmaz. Bilin ki, ilk ilin Səfər ayı halal aydır", – deyə səslənərək bir il Səfər ayını insanlara halal ay edərdi. Beləcə, o, bir il Səfər ayını haram edər, bir il də Məhərrəm ayını haram edərdi. Uca Allahın "**Haram ayı təxirə salmaq ancaq küfrü artırır**" ayəsi də bu barədədir. Uca Allah bildirir ki, onlar bir il Məhərrəm ayını halal, bir il də haram ay edərdilər".[1]

Mucahid رحمه الله demişdir: "Bənu Kinanə qəbiləsindən bir kişi hər il uzunqulağına minib həcc ziyarətinə gələr və: "Ey insanlar, mən məzəmmət olunmaram və günah işlətmərəm. Mənim dediyim rədd olunmaz. Həqiqətən, biz Muhərrəm ayını haram etdik, Səfər ayının haramlığını isə təxirə saldıq", – deyərdi. Sonra növbəti il gəlib əvvəl dediyi sözləri təkrarlayar və: "Həqiqətən, biz Səfər ayını haram etdik, Muhərrəm ayının

[1] əl-Beyhəqi "Sunənul-Kubra" 9555, 9774, 10056; ət-Təbəri, 16706, 16785.

haramlığını təxirə saldıq”, – deyərdi. Uca Allah buyurur: “**Onlar bunu bir il halal sayır, bir il də haram sayırlar ki, Allahın haram etdiyi ayların sayını**”, yəni haram olan dörd aya “**uyğunlaşdırsınlar və**” haram ayı təxirə salmaqla “**Allahın haram buyurduğunu halal etsinlər**”.[1]

Onlar bir il Məhərrəm ayını halal sayar və onun əvəzinə Səfər ayını haram edərdilər. İlin sonuna qədər ayların tərtibini, sayını və adlarını dəyişdirmədən saxlayardılar. Növbəti il Məhərrəm ayını haram sayardılar və bu ayı haram olaraq saxlayardılar. Ondan sonra Səfər, Rabiül-Əvvəl, Rabiül-Axir və s. bu şəklində sonuna qədər davam edərdi. Allahın haram etdiyi ayların sayına uyğun gəlsin deyə Məhərrəm ayını bir il halal, bir il haram sayardılar. Beləcə, Allahın haram etdiyini halal etmiş olardılar. Onlar bir ildə dörd ayın haram edilməsinə sayca uyğun gəlmiş olurdular, lakin gah ardıcıl gələn üç haram aydan üçüncüsü olan Məhərrəm ayını haram sayar, gah da bu ayın haramlığını Səfər ayına keçirərdilər. Əvvəlki ayənin təfsirində Peyğəmbərin ﷺ “Bilin ki, zaman, Allah yerləri və göyü yaratdığı gündən bəri heç dəyişmədən dövran etməkdədir. İl on iki aydan ibarətdir. Bunlardan dördü haram aylardır. Haram aylardan üçü – Zül-Qadə, Zül-Hiccə və Məhərrəm ard-arda gəlir. Dördüncüsü isə Mudar qəbiləsinin dediyi kimi, Cümədəl-Axir ilə Şaban ayları arasında keçən Rəcəb ayıdır” hədisi barədə danışmışdıq. Yəni ayların sayları və haramlığı Allahın Kitabında bildirildiyi kimi dörd haram aydan ibarətdir və bu aylardan üçü ardıcıl gəlir, cahil ərəblərin bu ardıcıl gələn üç aydan birini başqa aya keçitdikləri kimi deyil. Ən doğrusunu Allah bilir.

İbn İshaq ﵀ demişdir: “Ərəblər üçün haram ayları dəyişib Allahın haram etdiyi ayı halal, halal etdiyini isə haram edən ilk şəxs əl-Qələmməs olmuşdur. Onun adı Huzeyfə ibn Abdufuqeym idi. Ondan sonra bu işi oğlu Abbad, Abbaddan sonra oğlu Qala ibn Abbad, ondan sonra oğlu Umeyyə ibn Qala, ondan sonra oğlu Auf ibn Umeyyə, ondan sonra isə oğlu Əbu Sumamə Cunədə ibn Auf davam etmişdir. Əbu Sumamə sonuncu olmuş və onun dövründə İslam dini gəlmişdir. Ərəblər həcc ziyarətini bitirdikdən sonra onun ətrafında toplaşar və o, onlara xütbə verərək Rəcəb, Zül-Qadə və Zül-Hiccə aylarını haram edər, bir il Məhərrəm ayını halal edib onun yerinə Səfər ayını qoyaraq sayca Allahın haram etdiyinə uyğun gəlsin deyə, bir il onu haram edərdilər. Beləcə, Allahın haram etdiyini halal, halal etdiyini isə haram etmiş olardılar”.[2] Ən doğrusunu isə Allah bilir.

---

[1] ət-Tabəri, 16710, 16789.

[2] İbn İshaq “Sira” 1/161-162.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ مَا لَكُمۡ إِذَا قِيلَ لَكُمُ ٱنفِرُواْ فِي سَبِيلِ ٱللَّهِ ٱثَّاقَلۡتُمۡ إِلَى ٱلۡأَرۡضِۚ
أَرَضِيتُم بِٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا مِنَ ٱلۡأٓخِرَةِۚ فَمَا مَتَٰعُ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا فِي ٱلۡأٓخِرَةِ إِلَّا قَلِيلٌ ﴿٣٨﴾ إِلَّا تَنفِرُواْ
يُعَذِّبۡكُمۡ عَذَابًا أَلِيمٗا وَيَسۡتَبۡدِلۡ قَوۡمًا غَيۡرَكُمۡ وَلَا تَضُرُّوهُ شَيۡـٔٗاۗ وَٱللَّهُ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٌ ﴿٣٩﴾﴾

**38. Ey iman gətirənlər! Sizə nə olub ki, “Allah yolunda döyüşə çıxın!” – deyildikdə yerinizdə qaxılıb qalırsınız? Olmaya, axirətdən daha çox dünya həyatından razısınız? Halbuki dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir.**

**39. Əgər döyüşə çıxmasanız, Allah sizi ağrılı-acılı bir əzaba düçar edər və sizi başqa bir qövmlə əvəz edər. Siz isə Ona heç bir zərər yetirə bilməzsiniz, çünki Allah hər şeyə qadirdir.**

Uca Allah bu ayələrdə meyvələrin yetişdiyi və ağac kölgələrinin xoş olduğu şiddətli bir yay istisində Peyğəmbərlə ﷺ Təbuk döyüşündə iştirak etməyənləri məzəmmət edərək belə buyurur: “**Ey iman gətirənlər! Sizə nə olub ki, “Allah yolunda döyüşə çıxın!” – deyildikdə**”, yəni Allah yolunda cihad etməyə çağırıldıqda “**yerinizdə qaxılıb qalırsınız**”, yəni tənbəlləşib rahatlığa, əziyyət çəkməməyə və meyvələrin yetişməsini gözləməyə meyil edirsiniz. “**Olmaya, axirətdən daha çox dünya həyatından razısınız?**” Yəni nə üçün belə edirsiniz? Axirət yurdunun əvəzinə, dünya həyatından razı qaldığınız üçünmü belə edirsiniz?

Sonra Uca Allah qullarını dünyanın fani ləzzətlərindən çəkindirib Axirət yurduna təşviq edərək: “**Halbuki dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir**” – deyə buyurur. İmam Əhməd رحمه الله əl-Mustəuridin رضي الله عنه belə dediyini rəvayət etmişdir: “Peyğəmbər ﷺ şəhadət barmağını göstərərək belə buyurdu: “Axirət nemətləri ilə müqayisədə dünya nemətləri sizlərdən birinin barmağını dənizə batırması kimidir. Bir baxsın, (barmağını dənizə salmaqla) oradan nə götürəcək?” Hədisi Muslim رحمه الله də rəvayət etmişdir.[1]

İbn Əbu Hatim رحمه الله Əbu Osman ən-Nəhdinin belə dediyini rəvayət etmişdir: “Bir dəfə mən Əbu Hureyranın yanına gəlib dedim: “Ey Əbu Hureyra, Bəsrədəki qardaşlarımdan eşitdim ki, sən Peyğəmbərin ﷺ belə dediyini eşitmisən: “Həqiqətən, Uca Allah yaxşılığın mükafatını min-min qat artıq verir”. Əbu Hureyra: “Bəli, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Həqiqətən, Allah yaxşılığı iki min dəfə min qat artırar” – dedi və bu ayəni oxudu: “**Halbuki dünya həyatının keçici zövqü axirətlə**

[1] Əhməd, 18007, 18037, 18171; Muslim, 2858/55, 5101, 7376.

**müqayisədə çox dəyərsiz bir şeydir**".[1] Dünya nemətlərindən olub keçən və qalan (şeylər) Allah dərgahında olan nemətlərlə müqayisədə çox azdır. Abdul-Əziz ibn Mərvana ﷺ ölüm yetişdikdə: "Kəfənlənəcəyim kəfəni mənim yanıma gətirin, ona baxım!" – dedi. Kəfəni onun qarşısına qoyduqda ona baxdı və belə dedi: "Dünyada qoyub getdiklərimdən mənə bundan başqa nə qaldı?" Sonra üzünü çevirib ağladı və dedi: "Ey dünya, təəssüflər olsun sənə! Çoxun necə də az, azın necə də qısadır. Biz sənə necə də aldanmışıq!"[2]

Sonra Uca Allah Onun yolunda döyüşməyi tərk edənləri hədələyərək buyurur: "**Əgər döyüşə çıxmasanız, Allah sizi ağrılı-acılı bir əzaba düçar edər**". İbn Abbas ﷺ demişdir: "Peyğəmbər ﷺ insanları bir ərəb qəbiləsinə qarşı döyüşmək üçün səslədi, lakin bu onlara ağır gəldi. Bu səbəbdən Uca Allah onlara yağış endirmədi və bu onların əzabı oldu".[3] "...**və sizi başqa bir qövmlə əvəz edər**", yəni Allahın Peyğəmbərinə ﷺ və Onun dininə yardım etməsəniz, sizi başqa bir qövmlə əvəz edər. Necə ki başqa bir ayədə belə buyurur: "**Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər**" ("Muhəmməd", 38). "**Siz isə Ona heç bir zərər yetirə bilməzsiniz**", yəni cihaddan üz çevirib döyüşdən imtina etməklə Allaha heç bir zərər verə bilməzsiniz, "**çünki Allah hər şeyə qadirdir**", yəni Allah düşmənlərə qarşı öz Peyğəmbərinə ﷺ siz olmadan da yardım etməyə və zəfər nəsib etməyə qadirdir.

﴿إِلَّا تَنصُرُوهُ فَقَدْ نَصَرَهُ ٱللَّهُ إِذْ أَخْرَجَهُ ٱلَّذِينَ كَفَرُوا۟ ثَانِىَ ٱثْنَيْنِ إِذْ هُمَا فِى ٱلْغَارِ إِذْ يَقُولُ
لِصَـٰحِبِهِۦ لَا تَحْزَنْ إِنَّ ٱللَّهَ مَعَنَا ۖ فَأَنزَلَ ٱللَّهُ سَكِينَتَهُۥ عَلَيْهِ وَأَيَّدَهُۥ بِجُنُودٍ لَّمْ تَرَوْهَا وَجَعَلَ
كَلِمَةَ ٱلَّذِينَ كَفَرُوا۟ ٱلسُّفْلَىٰ ۗ وَكَلِمَةُ ٱللَّهِ هِىَ ٱلْعُلْيَا ۗ وَٱللَّهُ عَزِيزٌ حَكِيمٌ ﴿٤٠﴾﴾

**40. Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın sözü ucadır. Allah Qüdrətlidir, Hikmət sahibidir.**

[1] Əhməd, 7932, 7945; əl-Bəzzər, 9525. Hədis zəifdir. Bax: Silsilə əd-Daifə, 3975.
[2] İbn Əbu Hatim, 10032.
[3] İbn Əbu Hatim, 10033.

Uca Allah buyurur: "**Əgər siz Peyğəmbərə kömək etməsəniz**", yəni əgər siz Allah Elçisinə ﷺ yardım etməsəniz belə, şübhəsiz ki, Allah ona yardım edəcək, onu qüvvətləndirəcək və düşmənlərdən qoruyacaq. Allah ona kifayət edər. "**O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar**", yəni Mədinəyə hicrət etdiyi il müşriklər Peyğəmbəri ﷺ öldürməyə və ya həbs etməyə, yaxud qovmağa cəhd etdikdə o, onlardan qaçaraq sadiq yoldaşı Əbu Bəkr ibn Əbu Quhəfə ؓ ilə birlikdə Məkkədən çıxmış və onları axtarmaq üçün arxaları ilə gələnlər geri qayıtsınlar deyə üç gün Səur mağarasına sığınmışdı. Sonra onlar Mədinəyə doğru getmişlər. Əbu Bəkr ؓ bu əsnada müşriklərdən birinin onları görüb Peyğəmbərə ﷺ əziyyət verə biləcəyindən narahat olmağa başlamışdı. Bu səbəbdən Peyğəmbər ﷺ onu sakitləşdirib: "Ey Əbu Bəkr, üçüncüsü Allah olan iki adam barədə nə düşünürsən?" – deyə buyurmuşdu. Necə ki İmam Əhməd ؒ Əbu Bəkrin ؓ belə dediyini rəvayət etmişdir: "Mağarada ikən Peyğəmbərə ﷺ: "Əgər onlardan biri ayaqlarının altına baxsa, şübhəsiz, bizi ayaqları altında görər", – dedim və o: "Ey Əbu Bəkr, üçüncüsü Allah olan iki adam barədə nə düşünürsən?" – deyə buyurdu". Hədisi əl-Buxari və Muslim "Səhih" əsərlərində rəvayət etmişlər.[1]

Bu səbəbdən Uca Allah ayənin davamında: "**Bundan sonra Allah ona arxayınlıq nazil etdi**" – deyə buyurur. Yəni iki rəydən məşhur olana görə, Peyğəmbərə ﷺ yardımını nazil etdi. Əbu Bəkrə ؓ arxayınlıq nazil olduğu da deyilmişdir. Bu rəy İbn Abbas və başqalarından rəvayət edilmişdir. Bu rəydə olanlar demişlər: "Çünki Peyğəmbər ﷺ onsuz da arxayın idi". Lakin bu, Peyğəmbərə ﷺ o vəziyyətdə yenidən arxayınlıq nazil olmasını inkar etmir. Bu səbəbdən Uca Allah ayənin davamında belə buyurur: "...**sizin görmədiyiniz döyüşçülərlə**", yəni mələklərlə "**ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın sözü ucadır**". İbn Abbas ؓ demişdir: "...**kafirlərin sözünü alçaltdı**", yəni şirki alçaltdı, "**Allahın sözü**" isə "Lə iləhə illəllah" (Allahdan başqa ibadətə layiq olan məbud yoxdur) kəlməsidir". əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Musa əl-Əşaridən ؓ rəvayət olunan hədisdə Peyğəmbərdən ﷺ qəhrəmanlıq, qəbilə təəssübkeşliyi və özünü göstərmək üçün döyüşənlərdən hansının Allah yolunda olduğu barədə soruşulmuşdu. Peyğəmbər ﷺ belə cavab vermişdi: "Kim Allahın Kəlməsi hər şeydən uca olsun deyə vuruşarsa, Allah yolunda (vuruşmuş) olar".[2]

---

[1] Əhməd, 11; əl-Buxari, 3380, 3653; Muslim, 2381, 4389, 6319.
[2] əl-Buxari, 2599, 2810; Muslim, 1904, 3524, 5028.

Uca Allah buyurur: "**Allah Qüdrətlidir**", yəni intiqam almaqda, yardım etməkdə Qüdrətlidir, güclüdür. Ona sığınan, Ona üz tutan və Onun ipinə sarılaraq qorunan heç vaxt haqsızlığa uğramaz. "**Hikmət sahibidir**", yəni dediklərində və etdiklərində Hikmət sahibidir.

﴿انفِرُوا خِفَافًا وَثِقَالًا وَجَاهِدُوا بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ فِي سَبِيلِ اللَّهِ ذَٰلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ ٤١﴾

**41. Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir.**

Uca Allah bu ayədə Təbuk döyüşü baş verən il möminlərə Peyğəmbərlə ﷺ birlikdə Allahın düşmənləri, Kitab əhlinin kafirlərindən olan rumlularla döyüşmək üçün hamılıqla səfərbər olmağı əmr edir. Uca Allah möminlərə hər bir halda, xoş gündə də, sıxıntı halında da, çətinlikdə də, rahatlıqda da Allah Elçisi ﷺ ilə birlikdə döyüşə çıxmağı vacib edərək: "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın**" – deyə buyurmuşdur. Əbu Talhə رضي الله عنه ayənin təfsirində belə demişdir: "Yəni orta yaşda olanlarınız və gənclərinizlə birlikdə döyüşə çıxın. Allah ayədə heç kimi üzrlü hesab etməmişdir".[1] Əbu Talhə رضي الله عنه özü döyüşmək üçün Şama getmiş və öldürülənə qədər orada döyüşmüşdür. Bir rəvayətə görə isə Əbu Talhə رضي الله عنه "Bəraət" ("ət-Tövbə") surəsini oxumuş və Uca Allahın "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin!**" ayəsinə çatdıqda: "Görürəm Rəbbimiz qocalı-cavanlı hamımıza döyüşə çıxmağı əmr edir. Ey əziz oğlum, mənim yükümü hazırlayın!" – demişdir. Oğulları ona: "Allah sənə rəhm etsin! Sən Allah Elçisi ﷺ vəfat edənə qədər onunla birlikdə döyüşdün. Əbu Bəkr vəfat edənə qədər onunla birlikdə döyüşdün. Ömər ölənə qədər onunla birlikdə döyüşdün. İndi biz sənin əvəzinə döyüşərik" – desələr də, o, bunu qəbul etmədi, dəniz döyüşünə çıxdı və öldü. Yoldaşları doqquz gün sonra onu dəfn edə biləcək bir ada tapa bildilər. Buna baxmayaraq, onun cəsədi heç dəyişməmişdi. Onu qarşılarına çıxan bir adada dəfn etdilər".[2] İbn Abbas, İkrimə, əl-Həsən əl-Bəsri və digərlərindən nəql olunan rəvayətə görə onlar Uca Allahın "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın**" ayəsinin təfsirində belə demişlər: "Yəni orta yaşlılar və gənclər". İkrimə, əd-Dahhək, Muqatil ibn Həyyan və bir çoxu da belə demişdir. Mucahid رحمه الله demişdir: "Yəni cavan-qoca, varlı və kasıb". əl-Həkəm ibn Uteybə رحمه الله demişdir: "Yəni işi olanlar və olmayanlar". əl-Həsən əl-Bəsri رحمه الله demişdir: "Yəni çətinlikdə və asanlıqda". Ayənin mənasının ümumi olması bütün bu rəyləri tələb edir. İbn Cərir رحمه الله də bu fikri seçmişdir.[3]

[1] ət-Təbəri, 16815.
[2] İbn Əbu Hatim, 10055.
[3] ət-Təbəri, 16819-16822.

İmam əl-Əuzai ﷺ demişdir: "Əgər yürüş Rum istiqamətinə olardısa, insanlar ora həm piyada, həm də miniklə, əgər sahillərə tərəf olardısa, həm orta yaşlılar, həm də cavanlar miniklə və piyada çıxardılar".[1] Bu şərh məsələyə təfsilatı ilə aydınlıq gətirir. əs-Suddi ﷺ Uca Allahın "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın**" ayəsi barədə belə demişdir: "Yəni varlı-kasıb, güclü-zəif döyüşə çıxın". Bir gün Peyğəmbərin ﷺ yanına bir kişi gəlmişdi. Deyilənə görə bu kişi əl-Miqdad idi. O, iri gövdəli və kök idi. O öz halından şikayətlənərək Peyğəmbərdən ﷺ döyüşə getməyə izin istədi, lakin Peyğəmbər ﷺ ona izin vermədi. Həmin gün Uca Allahın "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın**" ayəsi nazil oldu. Bu ayənin nazil olması səhabələrə ağır gəldi. Uca Allah da "**Allaha və Onun Elçisinə sadiq qalacaqları təqdirdə acizlərə, xəstələrə və döyüşdə vuruşmağa vəsait tapa bilməyənlərə evdə qalmaqda heç bir günah yoxdur**" ("ət-Tövbə", 91) buyurmaqla bu ayənin hökmünü nəsx (ləğv) etdi".[2]

Əbu Raşid əl-Hubrani ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ cəsur atlısı Miqdəd ibn əl-Əsvədi Homs şəhərində (bazarda) sərraf sandıqlarından birinin üzərində oturmuş gördüm. Cüssəsi böyük olduğu üçün bədəninin bir hissəsi sandıqdan çölə sallanırdı. O, döyüşə getmək istəyirdi. Mən ona: "Allah səni (yaşlı olduğun üçün)[3] üzrlü saymışdır" – dedim. O, belə cavab verdi: "Bizə "əl-Buhus" ("ət-Tövbə") surəsində: "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın**" – deyə buyurulmuşdur".[4]

Sonra Uca Allah möminləri mallarını Onun yolunda sərf etməyə, Onun və Elçisinin ﷺ razılığını qazanmaq üçün canlarını fəda etməyə təşviq edərək: **"...malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir**" – buyurur. Yəni dünya və axirətdə sizin üçün ən xeyirli olan budur. Çünki siz mallarınızı Allah yolunda xərcləməklə bir az maddi sıxıntıya düşəcəksiniz. Lakin Uca Allah bunun əvəzinə dünyada düşmənlərinizin mallarını sizə qənimət olaraq verəcəkdir. Üstəlik axirətdə sizin üçün böyük nemət hazırlamışdır. Necə ki Peyğəmbər ﷺ demişdir: "Allah Onun yolunda cihad edən kimsəyə zəmanət vermişdir ki, onu öldüyü təqdirdə Cənnətə daxil edəcək, ya da sağ-salamat, savab və ya qənimətlə geri qaytaracaq".[5] Uca Allah başqa bir ayədə belə buyurur: "**Sizin xoşunuza gəlməsə də, cihad sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz**" ("əl-Bəqərə", 216).

[1] İbn əl-Arabi "Əhkəmul-Quran" 4/312.
[2] İbn Əbu Hatim, 10063. Ali Nasr zəif olduğunu bildirmişdir.
[3] Başqa bir rəvayətdə həmin vaxt onun yetmiş yaşı olduğu bildirilir.
[4] ət-Təbəri, 16755.
[5] əl-Buxari, 6909, 7463; Muslim, 1876, 3485, 4969.

﴿لَوْ كَانَ عَرَضًا قَرِيبًا وَسَفَرًا قَاصِدًا لَّاتَّبَعُوكَ وَلَٰكِن بَعُدَتْ عَلَيْهِمُ الشُّقَّةُ ۚ
وَسَيَحْلِفُونَ بِاللَّهِ لَوِ اسْتَطَعْنَا لَخَرَجْنَا مَعَكُمْ يُهْلِكُونَ أَنفُسَهُمْ وَاللَّهُ يَعْلَمُ إِنَّهُمْ لَكَاذِبُونَ ﴿٤٢﴾﴾

**42. Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin əziyyətli yol onlara çətin gəldi. Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər. Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir.**

Uca Allah bu ayədə Təbuk döyüşündə izin istədikdən sonra Peyğəmbərlə ﷺ yürüşdə iştirak etməyən və üzrlü olmadıqları halda, üzrlü olduqlarını deyib geridə qalanları məzəmmət edərək buyurur: "**Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı...**". İbn Abbas رضي الله عنهما demişdir: "Yəni yaxın bir qənimət və yaxın bir səfər olsaydı".[1] "**... onlar mütləq sənin ardınca gedərdilər**", yəni buna görə səninlə birlikdə gedərdilər. "**Lakin əziyyətli yol onlara çətin gəldi**", yəni Şama qədər olan məsafə onlara uzaq gəldi. "**Onlar: "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" – deyə Allaha and içəcəklər**", yəni siz onların yanına qayıtdıqda, sizin üçün Allaha and içəcəklər ki, əgər üzrlü səbəbimiz olmasaydı, biz də sizinlə birlikdə səfərə çıxardıq. "**Onlar özlərini həlak edirlər. Çünki Allah onların yalançı olduqlarını bilir**".

﴿عَفَا اللَّهُ عَنكَ لِمَ أَذِنتَ لَهُمْ حَتَّىٰ يَتَبَيَّنَ لَكَ الَّذِينَ صَدَقُوا وَتَعْلَمَ الْكَاذِبِينَ ﴿٤٣﴾ لَا يَسْتَأْذِنُكَ
الَّذِينَ يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ أَن يُجَاهِدُوا بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ ۗ وَاللَّهُ عَلِيمٌ بِالْمُتَّقِينَ ﴿٤٤﴾ إِنَّمَا
يَسْتَأْذِنُكَ الَّذِينَ لَا يُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَارْتَابَتْ قُلُوبُهُمْ فَهُمْ فِي رَيْبِهِمْ يَتَرَدَّدُونَ ﴿٤٥﴾﴾

**43. Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları da tanımamış nə üçün onlara cihaddan yayınmağa izin verdin?**

**44. Allaha və Axirət gününə iman gətirənlər Allah yolunda malları və canları ilə cihad etmək üçün səndən izin istəməzlər. Allah müttəqiləri tanıyır.**

**45. Ancaq Allaha və Axirət gününə iman gətirməyən və qəlbi şəkk-şübhəyə düşənlər döyüşə getməmək məqsədilə səndən izin istəyirlər. Onlar öz şübhələri içində tərəddüd edirlər.**

---

[1] İbn Əbu Hatim, 10066.

Əun ﷺ demişdir: "Siz bundan daha gözəl bir qınaq eşitdinizmi? Qınamazdan əvvəl bağışlama ilə başlayır və buyurur: "**Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmamış, yalançıları da tanımamış nə üçün onlara cihaddan yayınmağa izin verdin?**"[1] Qatədə ﷺ demişdir: "Uca Allah Öz peyğəmbərini eşitdiyiniz kimi danlamış, sonra "ən-Nur" surəsində "**Əgər onlar bəzi işləri üçün səndən izin istəsələr, onlardan istədiyin kəsə izin ver**" ("ən-Nur", 62) ayəsini nazil edərək istədiyi şəxslərə izin verməsinə icazə vermişdir".[2] Mucahid ﷺ demişdir: "Bu ayə: "Peyğəmbərdən ﷺ cihada getməmək üçün izin istəyin. Əgər sizə icazə versə, qalın, icazə verməsə, yenə qalın", – deyən bir qrup insan barədə nazil olmuşdur".[3] Bu səbəbdən Uca Allah ayədə: "**Doğru danışanlar sənə bəlli olmamış**", yəni üzr gətirməkdə doğru danışanlar bəlli olmamış, "**yalançıları da tanımamış nə üçün onlara cihaddan yayınmağa izin verdin?**" – deyə buyurur. Uca Allah buyurur ki, "Gərək onlar səndən qalmağa izin istədikdə sənə itaətdə doğru danışanlarla yalançıları ayırd edə bilməyin üçün onlardan heç kəsə qalmağa izin verməzdin. Çünki onsuz da onlar sən icazə verməsən belə, döyüşə getməyib qalmaqda israrlı idilər". Bu səbəbdən Uca Allah ayənin davamında Allaha və Onun Elçisinə ﷺ iman gətirən heç kəsin döyüşə getməmək üçün icazə istəməyəcəyini bildirərək belə buyurur: "**Allaha və Axirət gününə iman gətirənlər Allah yolunda malları və canları ilə cihad etmək üçün**", yəni döyüşə getməmək üçün "**səndən izin istəməzlər**". Çünki onlar cihadı Allaha yaxınlaşdıran bir ibadət olaraq görər və bu ibadəti yerinə yetirməyə çağırıldıqları zaman tələsərək əmrə tabe olarlar. "**Allah müttəqiləri tanıyır. Ancaq Allaha və Axirət gününə iman gətirməyən və qəlbi şəkk-şübhəyə düşənlər döyüşə getməmək məqsədilə səndən izin istəyirlər**", yəni Axirət yurdunda əməlləri üçün Allahın savabına ümid etməyənlər, qəlbləri şübhəyə düşüb sənin onlara gətirdiyin dinin haqq olmasında tərəddüd edənlər, bir addım irəli, bir addım geriyə ataraq heç bir şeydə sabitqədəm olmayanlar izin istəyərlər. Onlar çaşqınlığa düşərək həlak olmuş bir qövmdür. Onlar möminlərlə kafirlərin arasında tərəddüd edir, nə bunlara, nə də onlara tərəf olurlar. Allahın azdırdığı kəs üçün heç bir yol tapa bilməzsən.

[1] İbn Əbu Hatim, 10075.
[2] ət-Təbəri, 16764, 16843.
[3] ət-Təbəri, 16763, 16842.

﴿۞ وَلَوْ أَرَادُوا۟ ٱلْخُرُوجَ لَأَعَدُّوا۟ لَهُۥ عُدَّةً وَلَٰكِن كَرِهَ ٱللَّهُ ٱنۢبِعَاثَهُمْ فَثَبَّطَهُمْ وَقِيلَ ٱقْعُدُوا۟ مَعَ ٱلْقَٰعِدِينَ ﴿٤٦﴾
لَوْ خَرَجُوا۟ فِيكُم مَّا زَادُوكُمْ إِلَّا خَبَالًا وَلَأَوْضَعُوا۟ خِلَٰلَكُمْ يَبْغُونَكُمُ ٱلْفِتْنَةَ وَفِيكُمْ سَمَّٰعُونَ لَهُمْ ۗ
وَٱللَّهُ عَلِيمٌۢ بِٱلظَّٰلِمِينَ ﴿٤٧﴾﴾

**46. Əgər onlar döyüşə çıxmaq istəsəydilər, mütləq ona hazırlıq görərdilər. Lakin Allah onların döyüşə getməsini istəmədi və onları saxladı. Onlara: "Evdə oturanlarla bərabər, siz də oturun!" – deyildi.**

**47. Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər. İçinizdə onlara qulaq asanlar da var. Allah zalımları tanıyır.**

Uca Allah buyurur: "**Əgər onlar döyüşə çıxmaq istəsəydilər**", yəni səninlə birlikdə döyüşə çıxmaq istəsəydilər, "**mütləq ona hazırlıq görərdilər**", yəni mütləq bunun üçün hazırlıq görərdilər. "**Lakin Allah onların döyüşə getməsini istəmədi**", yəni Allah onların səninlə birlikdə döyüşə çıxmalarını istəməyib bunu onların qədərinə yazmadı "**və onları saxladı**". "**Onlara: "Evdə oturanlarla bərabər, siz də oturun!" – deyildi**", yəni qədər olaraq.

Sonra Uca Allah nə üçün onların möminlərlə birlikdə çıxmalarını istəmədiyini bəyan edərək belə buyurur: "**Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar**", çünki onlar aciz və qorxaqlardır, "**və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər**", yəni aranızda kin-küdurət, nifrət və fitnə yaratmaq üçün söz gəzdirməyə çalışardılar. "**İçinizdə onlara qulaq asanlar da var**", yəni içinizdən onlara itaət edən, məqsədlərini bilmədikləri halda, sözlərini qəbul edib onlardan məsləhət istəyənlər də var. Bu isə möminlər arasında şər və böyük bir fəsadın meydana gəlməsi ilə nəticələnə bilər. Mucahid, Zeyd ibn Əsləm və İbn Cərir ﷺ Uca Allahın "**İçinizdə onlara qulaq asanlar da var**" ayəsi barədə belə demişlər: "Yəni içinizdə onlar üçün xəbərləri dinləyib onlara çatdıran casuslar var". Bu şərhə görə ayə möminlərlə birlikdə çıxanlara xas deyil, bütün hallar üçün ümumidir. Lakin birinci məna ayənin məzmununa uyğun gəldiyi üçün daha qüvvətlidir. Qatədə və digər müfəssirlər də bu fikirdədirlər.

Muhəmməd ibn İshaq ﷺ demişdir: "Mənə çatan məlumata görə, Peyğəmbərdən ﷺ izin istəyənlər arasında Abdullah ibn Ubey ibn Səlul və əl-Cədd ibn Qeys də olmuşdur. Onlar öz qövmləri içərisində ən adlı-sanlı insanlar idilər. Uca Allah onların möminlərlə birlikdə döyüşə

çıxdıqları təqdirdə ordu içərisində fəsad törədəcəklərini bildiyi üçün onları saxladı. Peyğəmbərin ﷺ ordusunda şərəf sahibləri olduqları üçün qövmləri içərisində onlara sevgi bəsləyən və çağırışlarına itaət edəcək bir toplum vardı. Bu səbəbdən Uca Allah: “**İçinizdə onlara qulaq asanlar da var**” – deyə buyurur”.[1]

Sonra Uca Allah Öz elminin kamilliyini bildirərək: “**Allah zalımları tanıyır**” – deyə buyurur. Uca Allah onlara olub, keçən və gələcəkdə olacaq hər şeyi, baş verməyən hadisələr baş verərsə, nə olacağını ən yaxşı bildiyini xəbər vermişdir. Bu səbəbdən Uca Allah ayədə “**Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, ancaq işinizdə qarışıqlığı artırar və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər**” buyuraraq möminlərlə döyüşə çıxmış olsaydılar, hallarının necə olacağını bildiyini xəbər vermişdir. Buna baxmayaraq, yenə döyüşə çıxmamışlar. Uca Allah başqa ayələrdə belə buyurur: “**Əgər geri qaytarılsaydılar, yenə də özlərinə qadağan olunmuş şeylərə qayıdardılar. Şübhəsiz ki, onlar yalançıdırlar**” (“əl-Ənam”, 28); “**Əgər Allah onlarda bir xeyir olduğunu bilsəydi, əlbəttə, onlara eşitdirərdi. Əgər onlara eşitdirsəydi belə, yenə də üz çevirərək dönərdilər**” (“əl-Ənfal”, 23); “**Əgər onlara “Özünüzü öldürün, yaxud yurdlarınızdan çıxın!” deyə əmr etsəydik, içərilərindən az bir qismi istisna olmaqla, bunu yerinə yetirməzdilər. Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli və sabitlik baxımından daha güclü olardı. Onda Biz də onlara Öz tərəfimizdən böyük bir mükafat verər və onları doğru yola yönəldərdik**” (“ən-Nisa”, 66-68). Bu mənada ayələr çoxdur.

﴿لَقَدِ ٱبْتَغَوُا۟ ٱلْفِتْنَةَ مِن قَبْلُ وَقَلَّبُوا۟ لَكَ ٱلْأُمُورَ حَتَّىٰ جَآءَ ٱلْحَقُّ وَظَهَرَ أَمْرُ ٱللَّهِ وَهُمْ كَـٰرِهُونَ ﴿٤٨﴾﴾

**48. Onlar əvvəllər də fitnəkarlıq etməyə çalışmış və sənin əleyhinə hiylələr qurmuşdular. Axır ki, haqq öz yerini tapdı və onlar istəmədikləri halda, Allahın hökmü qələbə çaldı.**

Uca Allah bu ayədə Öz Elçisini ﷺ münafiqlərə qarşı çıxmağa təşviq edərək buyurur: “**Onlar əvvəllər də fitnəkarlıq etməyə çalışmış və sənin əleyhinə hiylələr qurmuşdular**”, yəni onlar sənin dinini köməksiz qoyub unutdurmaq, sənə və səhabələrinə qarşı hiylələr qurmaq üçün uzun müddət düşünüb daşınmışlar. Bu, Peyğəmbərin ﷺ Mədinəyə gəlişinin ilk dövrlərində idi. Bütün ərəblər ona qarşı birləşmiş, Mədinə yəhudiləri və münafiqləri ona qarşı mübarizə aparırdılar. Uca Allah Bədr döyüşü günü

[1] ət-Təbəri, 16770, 16781, 16849, 16860.

ona yardım edib Öz sözünü ucaltdıqda Abdullah ibn Ubey (münafiqlərin başçısı) və onun yoldaşları: "Bu iş artıq bitmişdir", – deyərək üzdə İslama daxil oldular. Bundan sonra hər dəfə Uca Allah İslamı və müsəlmanları izzətləndirdikdə bu onları qəzəbləndirər və onlara mənəvi əzab verərdi. Bu səbəbdən Uca Allah: "**Axır ki, haqq öz yerini tapdı və onlar istəmədikləri halda Allahın hökmü qələbə çaldı**" – deyə buyurur.

﴿وَمِنْهُم مَّن يَقُولُ ائْذَن لِّي وَلَا تَفْتِنِّي ۚ أَلَا فِي الْفِتْنَةِ سَقَطُوا ۗ وَإِنَّ جَهَنَّمَ لَمُحِيطَةٌ بِالْكَافِرِينَ ﴿٤٩﴾﴾

**49. Onlardan eləsi də var ki: "Mənə izin ver döyüşə getməyim, məni fitnəyə salma!" – deyir. Doğrusu, onlar artıq fitnəyə düşmüşlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri əhatə edəcəkdir.**

Uca Allah bu ayədə belə buyurur: "Ey Muhəmməd, münafiqlərdən bəziləri sənə müraciət edərək: "**Mənə izin ver döyüşə getməyim, məni fitnəyə salma!" – deyir**". Yəni rumlu qadınlardan əldə ediləcək kölələri xatırlamaqla məni fitnəyə salma. Uca Allah buyurur: "**Doğrusu, onlar artıq fitnəyə düşmüşlər**", yəni onlar belə deməklə artıq fitnəyə düşüblər. Muhəmməd ibn İshaq ﷺ rəvayət etmişdir ki, əz-Zuhri, Yəzid ibn Rumən, Abdullah ibn Əbu Bəkr, Asim ibn Qatədə və başqaları belə demişlər: "Bir gün Peyğəmbər ﷺ döyüş üçün hazırlıq görərkən Bənu Sələmə qəbiləsindən olan əl-Cədd ibn Qeysdən soruşdu: "Ey Cədd, bu il Bəni-Əsfarlarla (rumlularla) döyüşə çıxarsanmı?" O cavabında: "Ey Allahın Elçisi, mənə icazə verib məni fitnəyə salma. Allaha and olsun, qövmüm yaxşı bilir ki, məndən daha çox qadınlardan xoşlanan bir kəs yoxdur. Qorxuram, Bəni-Əsfarların (rumluların) qadınlarını görsəm, onlara səbir edə bilməyim" – dedi. Peyğəmbər ﷺ üzünü çevirib: "Sənə icazə verdim" – dedi. Uca Allahın "**Onlardan eləsi də var ki: "Mənə izin ver döyüşə getməyim, məni fitnəyə salma!" – deyir...**" ayəsi də əl-Cədd ibn Qeys barədə nazil olmuşdur".[1] Yəni əl-Cədd Bəni-Əsfarların (rumluların) qadınları ilə fitnəyə düşməkdən qorxduğunu söyləmişdir. Əslində isə belə deyildi. Peyğəmbərlə ﷺ döyüşə getməyib ondan uzaqlaşmaqla düşdüyü fitnə digərindən daha böyük idi. Bu ayənin əl-Cədd ibn Qeys barədə nazil olduğu İbn Abbas, Mucahid və bir çoxlarından da rəvayət edilmişdir. əl-Cədd ibn Qeys Bənu Sələmə qəbiləsinin adlı-sanlı şəxslərindən biri idi.

[1] ət-Təbəri, 16788, 16868. Oxşar hədisi İbn Əbu Hatim (9600) rəvayət etmişdir. Bax: Silsilə əs-Səhihə, 2988.

"Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ Bənu Sələmə qəbiləsindən: "Ey Sələmə oğulları, başçınız kimdir?" – deyə soruşduqda, onlar: "əl-Cədd ibn Qeysdir, lakin biz onu xəsis insan kimi tanıyırıq", – deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Xəsislikdən daha pis xəstəlik nə ola bilər? Sizin başçınız bu ağ qıvrımsaç gənc Bişr ibn əl-Bəra ibn Mərurdur".[1]

Uca Allah buyurur: "**Şübhəsiz ki, Cəhənnəm kafirləri əhatə edəcəkdir**", yəni onlar üçün oradan qaçacaq, sığınacaq başqa bir yer olmayacaq.

﴿إِن تُصِبْكَ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِن تُصِبْكَ مُصِيبَةٌ يَقُولُوا قَدْ أَخَذْنَا أَمْرَنَا مِن قَبْلُ وَيَتَوَلَّوا وَّهُمْ فَرِحُونَ ﴿٥٠﴾ قُل لَّن يُصِيبَنَا إِلَّا مَا كَتَبَ اللَّهُ لَنَا هُوَ مَوْلَانَا وَعَلَى اللَّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ ﴿٥١﴾﴾

**50. Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!" – deyər və sevinə-sevinə çıxıb gedərlər.**

**51. De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!"**

Uca Allah bu ayələrdə Öz Elçisinə ﷺ kafirlərin ona qarşı düşmənçilikləri barədə xəbər verir. Çünki nə vaxt ona "**bir uğur nəsib olsa**", yəni düşmənə qarşı bir qələbə, zəfər və ya Peyğəmbəri ﷺ və onun səhabələrini sevindirən bir hadisə baş versə, bu onları kədərləndirər. "**Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!" – deyər**", yəni "biz ona tabe olmaqdan çəkinməklə ehtiyat tədbirimizi görmüşük" – deyər "**və sevinə-sevinə çıxıb gedərlər**". Uca Allah Peyğəmbərinə ﷺ onların bu qatı düşmənçiliklərinə necə cavab verəcəyini bildirib belə buyurur: "Onlara "**De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz**", yəni biz Allahın istəyinə və qədərinə tabeyik. "**O bizim Himayədarımızdır**", yəni bizim ağamız və sığınacağımızdır. "**Qoy möminlər yalnız Allaha təvəkkül etsinlər!**" Yəni biz Ona təvəkkül edirik, O bizə yetər, O, nə gözəl Qoruyandır.

[1] əl-Buxari (5/178 Fəthul-Bari). əl-Buxari "Ədəbul-Mufrad", 296. Hədisin başqa bir rəvayətində bu şəxsin adının Amr ibn Cəmuh olduğu bildirilir. Bax: Səhih Ədəbul-Mufrad, 227.

﴿قُلْ هَلْ تَرَبَّصُونَ بِنَآ إِلَّآ إِحْدَى ٱلْحُسْنَيَيْنِ ۖ وَنَحْنُ نَتَرَبَّصُ بِكُمْ أَن يُصِيبَكُمُ ٱللَّهُ بِعَذَابٍ مِّنْ عِندِهِۦٓ
أَوْ بِأَيْدِينَا ۖ فَتَرَبَّصُوٓا۟ إِنَّا مَعَكُم مُّتَرَبِّصُونَ ﴿٥٢﴾ قُلْ أَنفِقُوا۟ طَوْعًا أَوْ كَرْهًا لَّن يُتَقَبَّلَ مِنكُمْ ۖ
إِنَّكُمْ كُنتُمْ قَوْمًا فَٰسِقِينَ ﴿٥٣﴾ وَمَا مَنَعَهُمْ أَن تُقْبَلَ مِنْهُمْ نَفَقَٰتُهُمْ إِلَّآ أَنَّهُمْ كَفَرُوا۟ بِٱللَّهِ
وَبِرَسُولِهِۦ وَلَا يَأْتُونَ ٱلصَّلَوٰةَ إِلَّا وَهُمْ كُسَالَىٰ وَلَا يُنفِقُونَ إِلَّا وَهُمْ كَٰرِهُونَ ﴿٥٤﴾﴾

**52. De: "Doğrudanmı siz bizlərə iki uğurdan (qələbədən və ya şəhidlikdən) birinin yetişməsini gözləyirsiniz? Biz isə ya Allahın Özü tərəfindən, yaxud da bizim əllərimizlə sizi əzaba düçar etməsini gözləyirik. Elə isə gözləyin; şübhəsiz ki, biz də sizinlə birlikdə gözləyirik".**

**53. De: "İstər könüllü, istərsəniz də könülsüz xərcləyin, onsuz da sizdən qəbul olunmayacaq. Çünki siz fasiq bir qövm oldunuz!"**

**54. Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir, namaza tənbəlliklə qalxır və mallarını könülsüz xərcləyirlər.**

Uca Allah buyurur: "Ey Muhəmməd, onlara "**De: "Doğrudanmı siz bizlərə iki uğurdan**", yəni qələbədən və ya şəhidlikdən "**birinin yetişməsini gözləyirsiniz?**" Bu təfsiri İbn Abbas, Mucahid, Qatədə və başqaları demişlər. "**Biz isə ya Allahın Özü tərəfindən, yaxud da bizim əllərimizlə sizi əzaba düçar etməsini gözləyirik**", yəni bu ikisindən biri ilə ya sizi əsir etməklə, ya da öldürməklə əzaba düçar etməsini gözləyirik. "**Elə isə gözləyin; şübhəsiz ki, biz də sizinlə birlikdə gözləyirik**".

Uca Allah buyurur: "**De: "İstər könüllü, istərsəniz də könülsüz xərcləyin**", yəni mallarınızı istər könül xoşluğu ilə, istər zorla xərcləyin, "**onsuz da sizdən qəbul olunmayacaq. Çünki siz fasiq bir qövm oldunuz!**"

Sonra Uca Allah bunun (onlardan niyə qəbul olunmadığının) səbəbini bəyan edərək buyurur: "**Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir**", çünki əməllər yalnız iman olduqda doğru sayılır, "**namaza tənbəlliklə qalxır**", yəni onların əməldə nə sağlam niyyətləri, nə də məqsədləri vardır. "...**və mallarını könülsüz xərcləyirlər**".

Peyğəmbər ﷺ bildirmişdir ki, qul usanmadıqca, Uca Allah usanmaz.[1] Uca Allah pakdır və yalnız təmiz və pak olanı qəbul edir. Bu səbəbdən Uca Allah onlardan nə bir əməl, nə də bir sədəqə qəbul etmir. Çünki O bunları yalnız müttəqilərdən qəbul edir.

﴿فَلَا تُعۡجِبۡكَ أَمۡوَٰلُهُمۡ وَلَآ أَوۡلَٰدُهُمۡۚ إِنَّمَا يُرِيدُ ٱللَّهُ لِيُعَذِّبَهُم بِهَا فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَتَزۡهَقَ أَنفُسُهُمۡ وَهُمۡ كَٰفِرُونَ ٥٥﴾

**55. Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla dünya həyatında onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir.**

Uca Allah bu ayədə Öz Peyğəmbərinə ﷺ xitab edərək buyurur: "**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin**". Başqa ayələrdə isə belə buyurur: "**Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bər-bəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin verdiyi ruzi daha xeyirli və daha davamlıdır**" ("Ta ha", 131); "**Yoxsa günahkarlar elə hesab edirlər ki, onlara var-dövlət və övlad verməklə onlara yaxşılıq etməyə tələsirik? Xeyr, onlar bu işin fərqinə varmırlar**" ("əl-Muminun", 55-56).

Uca Allah buyurur: "**Allah bunlarla dünya həyatında onlara əzab vermək...**". əl-Həsən əl-Bəsri ﵀ bu ayə barədə demişdir: "Yəni (könülsüz olaraq) zəkat vermələri və Allah yolunda xərcləmələri ilə dünya həyatında onlara əzab vermək istəyir".[2] İbn Cərir ﵀ də bu rəyi seçmişdir, bu, qüvvətli və gözəl bir təfsirdir. Uca Allah buyurur: **"...və onların kafir olaraq canlarının çıxmasını istəyir**", yəni Uca Allah onları kafir olaraq öldürmək istəyir ki, bu onlar üçün daha ağrıdıcı və əzab baxımından daha şiddətli olsun. Allah bizi belə sonluqdan qorusun! Bu onları bilmədikləri bir yöndən tədricən əzaba sürükləmək qəbilindəndir.



[1] Peyğəmbər ﷺ demişdir: "Gücünüz çatan əməlləri yerinə yetirin. Allaha and olsun ki, siz usanmadıqca, Allah usanmaz". (əl-Buxari, 43). Yəni siz əməl etməkdən usanmadıqca, Uca Allah sizə savab verməkdən usanmaz.

[2] ət-Təbəri, 16806, 16866.

﴿وَيَحْلِفُونَ بِاللَّهِ إِنَّهُمْ لَمِنكُمْ وَمَا هُم مِّنكُمْ وَلَٰكِنَّهُمْ قَوْمٌ يَفْرَقُونَ ﴿٥٦﴾ لَوْ يَجِدُونَ مَلْجَأً أَوْ مَغَارَاتٍ أَوْ
مُدَّخَلًا لَّوَلَّوْا إِلَيْهِ وَهُمْ يَجْمَحُونَ ﴿٥٧﴾﴾

**56. Onlar sizinlə həmrəy olduqlarına and içirlər. Halbuki onlar sizdən deyillər. Əslində, onlar qorxaq adamlardır.**

**57. Əgər onlar bir sığınacaq və ya daldalanmaq üçün mağaralar, yaxud gizlənməyə bir oyuq tapsaydılar, ləngimədən ora yönələrdilər.**

Uca Allah bu ayələrdə Öz Peyğəmbərinə ﷺ bildirir ki, onlar qorxularından “**sizinlə həmrəy olduqlarına**” təkidlə “**and içirlər. Halbuki onlar sizdən deyillər**”, yəni həqiqətdə isə sizinlə deyillər. “**Əslində, onlar qorxaq adamlardır**”, yəni onları and içməyə vadar edən də budur. “**Əgər onlar bir sığınacaq**”, yəni qorunmaq üçün bir qala “**və ya daldalanmaq üçün mağaralar**”, yəni dağlarda mağaralar “**yaxud gizlənməyə bir oyuq tapsaydılar**”, yəni yer altında bir yarıq və ya yeraltı yol tapsaydılar, “**ləngimədən ora yönələrdilər**”. Ayədə keçən sözlər barədə yuxarıda qeyd etdiyimiz açıqlamaları İbn Abbas, Mucahid və Qatədə رحمهم الله bildirmişlər. “**...ləngimədən ora yönələrdilər**”, yəni onlar sizdən ayrılıb tələsik bu yerlərə gedərdilər. Çünki onlar öz istəkləri ilə deyil, sizin içinizə məcburən, istəmədən qarışmışlar. Onlar sizinlə bir yerdə olmağı arzulamırlar. Vəziyyət bunu tələb etdiyi üçün bu hala düşmüşlər. İslam dini və müsəlmanlar izzət içində, qalib və yüksəklikdə olduğu müddətcə onlar kədər və qəm-qüssə içində olacaqlar.

﴿وَمِنْهُم مَّن يَلْمِزُكَ فِي الصَّدَقَاتِ فَإِنْ أُعْطُوا مِنْهَا رَضُوا وَإِن لَّمْ يُعْطَوْا مِنْهَا إِذَا هُمْ يَسْخَطُونَ ﴿٥٨﴾ وَلَوْ أَنَّهُمْ
رَضُوا مَا آتَاهُمُ اللَّهُ وَرَسُولُهُ وَقَالُوا حَسْبُنَا اللَّهُ سَيُؤْتِينَا اللَّهُ مِن فَضْلِهِ وَرَسُولُهُ إِنَّا إِلَى اللَّهِ رَاغِبُونَ ﴿٥٩﴾﴾

**58. Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər.**

**59. Əgər onlar Allahın və Onun Elçisinin onlara verdiyinə razı qalıb: “Allah bizə yetər. Allah da bizə Öz lütfündən verəcək, Onun Elçisi də. Həqiqətən də, biz Allaha rəğbət bəsləyirik” – desəydilər, bu onlar üçün daha xeyirli olardı.**

Uca Allah buyurur: "**Onlardan**", yəni münafiqlərdən "**elələri də var ki, sədəqələrlə bağlı**", yəni sədəqələri paylamağınla bağlı "**sənə nöqsan tuturlar**", yəni sədəqələri payladığın zaman sənə dil uzadırlar. Səni (sədəqələri düzgün paylamamaqda) ittiham edirlər. Halbuki ittiham olunacaq, nöqsan tutulacaq şəxslər onlar özləridir. Bununla belə, onlar bu etirazı dinə görə etmirlər, əksinə, öz paylarına görə edirlər. Bu səbəbdən "**Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər**", yəni öz paylarına görə qəzəblənərlər. Qatədə ﷺ Uca Allahın "**Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar**" ayəsi barədə belə demişdir: "Yəni münafiqlərdən elələri var ki, sədəqələr barədə sənə etiraz edirlər". Qatədənin ﷺ bu dediyi əl-Buxari ilə Muslimin ﷺ Əbu Səiddən ﷺ rəvayət etdiyi Zül-Xuveysiranın hadisəsinə bənzəyir. Onun adı Hurqus idi. Peyğəmbər ﷺ Huneyn döyüşündə əldə olunmuş qənimətləri böldükdə o, Peyğəmbərə ﷺ etiraz edərək: "Ədalətli ol, həqiqətən, sən ədalətli davranmadın" – demişdi. Peyğəmbər ﷺ dedi: "Ədalətli davranmasam, xəsarətə uğrayaram". Peyğəmbər ﷺ onun çönüb getdiyini gördükdə belə dedi: "Həqiqətən, bu adamın belindən elə insanlar gələcək ki, sizdən biriniz öz namazını onların namazı yanında, orucunu onların orucu yanında kiçik görəcək. Ox öz ovunu dəlib keçdiyi kimi onlar da İslamdan çıxacaqlar. Onlara harada rast gəlsəniz, öldürün. Onlar səma altında (yer üzündə) öldürülən ən şər insanlardır...". Sonra ravi hədisin tamamını zikr etdi.[1]

[1] əl-Buxari, 3341, 3610; Muslim, 1064; İbn Məcə, 176. Hədisin başqa bir rəvayəti belədir: Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ qənimətləri bölərkən Abdullah ibn Zül-Xuveysira gəlib ona dedi: "Ey Allahın Elçisi, qənimətləri ədalətlə böl!" Peyğəmbər ﷺ dedi: "Vay sənin halına! Əgər mən ədalətlə bölmürəmsə, bəs onda kim ədalətlə bölə bilər?" Bu zaman Ömər ibn əl-Xattab: "İzin ver, onun boynunu vurum" – deyə Peyğəmbərə ﷺ müraciət etdi. Peyğəmbər ﷺ dedi: "Ona toxunma! Vaxt gələcək, onun tərəfdarları olacaq və sizlərdən biri onların ibadətlərinə nisbətdə öz namazına və orucuna həqarətlə baxacaq. Onlar, ox şikara bir tərəfdən daxil olub, digər tərəfdən çıxdığı kimi dindən çıxacaqlar. Həmin oxa baxdıqda onun nə ucunda, nə gövdəsində, nə də arxasında ovun nə qanı, nə də başqa bir əlaməti görünməz. Onların əlamətləri bunlardır: əl ilə çiyin və ya çiyin ilə dirsək arasında olan əzələsi və ya sinəsi qadın sinəsinə bənzər, yaxud titrəyən, gedib-gələn ət parçası kimi olacaq. Onlar insanlar arasında ixtilaf olduğu zaman meydana çıxacaqlar". Əbu Səid əl-Xudri dedi ki, mən bütün bunları Peyğəmbərdən ﷺ eşitdiyimə və Əli ibn Əbu Talibin ﷺ onları məhv etdiyi zaman onun yanında olduğuma şəhadət verirəm. O vaxt onlardan birini Əlinin ﷺ yanına gətirdilər və Peyğəmbərin ﷺ vəsf etdiyi əlamətləri onun üzərində gördüm. Elə: "Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər" ayəsi də onlar barəsində nazil olmuşdur". (əl-Buxari, 6421, 6933; Əhməd, 11537, 11554; İbn Hibban, 6741).

Sonra Uca Allah onlar üçün bundan daha xeyirli olanı bildirərək buyurur: "**Əgər onlar Allahın və Onun Elçisinin onlara verdiyinə razı qalıb: "Allah bizə yetər. Allah da bizə Öz lütfündən verəcək, Onun Elçisi də. Həqiqətən də, biz Allaha rəğbət bəsləyirik" – desəydilər, bu onlar üçün daha xeyirli olardı**". Bu ayə özündə böyük bir ədəb və sirr daşıyır. Bu, Allah və Onun Elçisinin ﷺ verdikləri ilə razı qalmaq və yalnız Allaha təvəkkül etməkdir. Bu, Uca Allahın "**Allah bizə yetər**" sözüdür. Həmçinin bu ayə bildirir ki, Peyğəmbərə ﷺ itaət etməyə, Onun əmrlərinə tabe olmağa, qadağan etdiklərindən çəkinməyə, gətirdiyi xəbərləri təsdiqləməyə və onun ardınca getməyə müvəffəq olmaq yalnız Allaha üz tutmaqla mümkündür.

﴿۞إِنَّمَا ٱلصَّدَقَٰتُ لِلۡفُقَرَآءِ وَٱلۡمَسَٰكِينِ وَٱلۡعَٰمِلِينَ عَلَيۡهَا وَٱلۡمُؤَلَّفَةِ قُلُوبُهُمۡ وَفِي ٱلرِّقَابِ وَٱلۡغَٰرِمِينَ
وَفِي سَبِيلِ ٱللَّهِ وَٱبۡنِ ٱلسَّبِيلِۖ فَرِيضَةٗ مِّنَ ٱللَّهِۗ وَٱللَّهُ عَلِيمٌ حَكِيمٞ ٦٠﴾

**60. Zəkatlar yalnız fəqirlərə, miskinlərə, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Bu bölgü Allah tərəfindən fərz edilmişdir. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Uca Allah əvvəlki ayələrdə cahil münafiqlərin Peyğəmbərə ﷺ etiraz edib sədəqələrin bölünməsində ona dil uzatmalarını zikr etdikdən sonra bu ayədə bildirir ki, sədəqələri bölən, hökmünü bəyan edən yalnız Odur. Uca Allah sədəqələrin bölünməsini Özündən başqa heç kimə həvalə etməmiş və bu ayədə qeyd edilən insanlar arasında şəxsən Özü bölmüşdür.

Alimlər zəkatların ayədə qeyd edilən bu səkkiz sinif insanın hamısına, yoxsa mümkün olan siniflərə verilməsi barədə ixtilaf etmişlər. Bu məsələdə iki rəy var:

**Birinci görüş**: zəkatın səkkiz sinif insanın hamısına verilməsi vacibdir. Bu, əş-Şafii və bir çox alimin rəyidir.

**İkinci görüş**: zəkatın səkkiz sinif insanın hamısı arasında bölmək vacib deyil, onlardan yalnız birinə də vermək olar. Digər siniflərin mövcud olmasına baxmayaraq, bütün zəkatı bir sinfə vermək icazəlidir. Bu, İmam Malik və bir çox sələf və xələf alimin rəyidir. Ömər, Huzeyfə, İbn Abbas və Səid ibn Cubeyr رضي الله عنهم də bu rəydədirlər. İbn Cərir رحمه الله demişdir: "Bu, elm əhlinin hamısının fikridir". Bu rəyə görə səkkiz sinfin ayədə qeyd edilməsi zəkatların sərf ediləcəyi insanları bildirmək məqsədi daşıyır, səkkiz sinif insanın hamısını əhatə etməyin vacibliyini bildirmir.

Məşhur olan rəyə görə burada fəqirlərin əvvəl zikr edilməsi digər siniflərə nisbətən daha çox ehtiyac içində olmalarına görədir. Əbu Hənifəyə ﷺ görə isə miskin ehtiyac baxımından fəqirdən daha pis haldadır. İbn Abbas və digərlərindən rəvayət edilir ki, fəqir ehtiyac içində olub insanlardan heç bir şey istəməyənə, miskin isə insanların arasında dolaşıb onlardan istəyənə deyilir. Qatədə ﷺ demişdir: "Fəqir xroniki xəstəliyi olan, miskin isə bədəni sağlam olan kasıba deyilir".[1] İkrimə ﷺ demişdir: "Fəqir müsəlmanlara miskin deməyin. Miskinlər yalnız Kitab əhlinin kasıblarıdır".[2] İndi isə bu səkkiz siniflə əlaqəli hədisləri zikr edək:

**Fəqirlərə** gəlincə; İbn Amrdan ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Zəkat zənginə, güclü, qüvvətli və əzaları sağlam olana halal deyil". Hədisi Əhməd, Əbu Davud və ət-Tirmizi ﷺ rəvayət etmişlər.[3]

**Miskinlərə** gəlincə; Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "İnsanlar arasında gəzib-dolaşan, bir-iki loxma və ya bir-iki xurma ilə kifayətlənən adam heç də miskin deyil". Səhabələr soruşdular: "Bəs miskin kimə deyilir, ey Allahın Elçisi?" Peyğəmbər ﷺ dedi: "Miskin o adamdır ki, onun özünə bəs edəcək qədər malı yoxdur, vəziyyətinin ağır olduğunu heç kəsə bildirmir və buna görə də ona sədəqə verilmir, özü isə insanlardan heç bir şey istəmir". Hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər.[4]

**Zəkatı yığıb paylayanlara** gəlincə; onlar zəkatı yığmağa və onu paylamağa cəlb olunmuş şəxslərdir. Onların zəkatdan bir pay götürməyə haqqı çatır. Bu işdə çalışanların Peyğəmbərin ﷺ qohumlarından olması icazəli deyil, çünki onlara zəkat götürmək haramdır. Muslimin "Səhih" əsərində Abdulmuttalib ibn Rabiyə ibn əl-Hərisdən rəvayət edilir ki, bir dəfə o və Fadl ibn Abbas Peyğəmbərin ﷺ yanına gedib onları zəkat toplamağa göndərməsini istədilər. Peyğəmbər ﷺ dedi: "Zəkat nə Muhəmmədə, nə də Muhəmmədin ailəsinə halal deyil. O, ancaq insanların (mallarının) çirkləridir[5]".[6]

[1] ət-Təbəri, 16825, 16907.
[2] ət-Təbəri, 16835, 16917.
[3] Əhməd (6530). Əhməd Şakir demişdir: "İsnadı səhihdir". Əbu Davud (1634); ət-Tirmizi (652). ət-Tirmizi hədisin həsən olduğunu bildirmişdir. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 877.
[4] əl-Buxari, 1385, 1479; Muslim, 1039/101.
[5] Yəni özlərini təmizləmək üçün çıxartdıqları maldır. Uca Allah buyurur: "Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan" ("ət-Tövbə", 103).
[6] Muslim, 1072/167, 1784, 2531.

**Qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə** gəlincə; bunlar bir neçə qisimdir: bir qisminə İslamı qəbul etmələri üçün zəkatdan bir pay verilir. Necə ki Peyğəmbər ﷺ Safvan ibn Ümeyyəyə Huneyn qənimətlərindən pay vermişdir. O, Huneyn döyüşündə hələ müşrik idi. İmam Əhməd ﵀ rəvayət etmişdir ki, Safvan ibn Umeyyə ﵁ belə demişdir: "Huneyn döyüşü günü Peyğəmbər ﷺ mənə qənimətdən pay verdi. O, həmin vaxt ən çox nifrət etdiyim insan idi. Peyğəmbər ﷺ mənə qənimətdən o qədər pay verdi ki, sonunda mənə ən sevimli insan oldu". Hədisi Muslim və ət-Tirmizi ﵏ də rəvayət etmişlər.[1]

Onların bir qisminə İslam dinində möhkəmlənməsi və qəlbləri İslamda sabit qalması üçün verilir. Necə ki Peyğəmbər ﷺ Huneyn döyüşü günü Qureyş qəbiləsindən azad etdiyi bir qrup başçılara və adlı-sanlı şəxslərə yüz dəvə verərək belə buyurdu: "Bəzən bir adama Allah onu üzüqoylu Cəhənnəmə atmasın deyə qənimətdən pay verirəm, halbuki başqasına ondan da çox vermək istəyirəm".[2] Zəkatdan İslamı qəbul etməsi ümid edilən, habelə ətrafında olanlardan zəkat toplaması umulan kəslərə verilə bilər. Həmçinin ətraf ölkələrdən İslam ölkəsinə toxuna biləcək zərəri dəf etmək üçün sərf edilə bilər.

Alimlər Peyğəmbərin ﷺ vəfatından sonra qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə sədəqə verilib-verilməyəcəyi barədə ixtilaf etmişlər. Ömər, əş-Şabi və bir çoxlarından rəvayət olunur ki, Peyğəmbərin ﷺ vəfatından sonra onlara zəkat verilmir. Çünki Uca Allah İslamı və müsəlmanları izzətləndirmiş, onları ətraf ölkələrə sahib etmiş və onların qarşısında qulları (kafirləri) zəlil etmişdir. Digər alimlərə görə isə Peyğəmbərin ﷺ vəfatından sonra da onlara zəkat verilə bilər, çünki Peyğəmbər ﷺ onlara Məkkənin fəthindən və Həvazin hadisəsindən sonra zəkat vermişdir. Bəzən bu qisim insanlara zəkat vermək zərurəti yarana bilər və onlara sərf edilər.

**Kölələrə** gəlincə; əl-Həsən əl-Bəsri, Muqatil, Ömər ibn Abdul-Əziz və digərlərindən ﵏ rəvayət edildiyinə görə onlar "mukətəb"[3] kölələrdir. əş-Şafiinin rəyi də belədir. İbn Abbas və əl-Həsən demişlər: "Zəkat maldan kölə azad etməkdə bir qəbahət yoxdur".[4] Bu, İmam Əhməd ibn Hənbəl, Malik və İshaqın ﵏ da məzhəbidir. Yəni köləlik anlayışı ümumi olub "mukətəb" kölələrə zəkat verilməsi və ya kölə satın alıb azad edilməsi

[1] Əhməd, 15304, 27638, 28190; Muslim, 2313/59, 4277, 6192; ət-Tirmizi, 666.

[2] əl-Buxari, 1384, 1478.

[3] Mukətəb kölə – ağası ilə müəyyən məbləği ödəmək qarşılığında azad edilmək şərti ilə müqavilə bağlamış kölədir.

[4] ət-Təbəri, 16863, 16945.

ilə məhdudlaşmır. Kölə azad etməyin savabına dair bir çox hədislər rəvayət olunmuşdur. Hədislərdə bildirilir ki, Uca Allah azad edilmiş kölənin hər bir bədən üzvünün qarşılığında köləni azad edənin bədən üzvünü Cəhənnəmdən azad edər. Hətta cinsiyyət üzvünün qarşılığında cinsiyyət üzvünü Oddan azad edər, çünki mükafat, yerinə yetirilən əməllə eyni növdən olur. Uca Allah buyurur: "**Siz ancaq etdiyiniz əməllərin cəzasını alacaqsınız**" ("əs-Saffət", 39). Əbu Hureyra ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Üç növ insana yardım etmək Allah üzərində bir haqdır; Allah yolunda döyüşən qazi, üzərində olan borcu ödəmək istəyən mukətəb kölə, özünü haramdan (zinadan) qorumaq üçün evlənən şəxs". Hədisi İmam Əhməd və Əbu Davud ﵏ istisna olmaqla, digər "Sunən" əsərlərinin müəllifləri rəvayət etmişlər.[1]

**Borclulara** gəlincə; onların da müxtəlif qisimləri var. Onlardan kimisi cəriməni (və ya qanbahasını) üzərinə götürməklə və ya borca zamin durmaqla ziyana düşmüş, kimisi isə borcunu ödəyərək yenidən borca düşmüş və ya bir günah işdə (qumar, faiz və s.) borclanaraq sonra tövbə etmiş kəslərdir. Zəkatdan bu şəxslərə verilə bilər. Bu mövzuda əsas dəlil Qabisa ibn Məxariq əl-Hilalinin hədisidir. O, belə demişdir: "Bir qanbahasını üzərimə götürmüşdüm və onu ödəmək üçün Peyğəmbərdən ﷺ yardım istədim. Peyğəmbər ﷺ dedi: "Bizə sədəqə (zəkat) gələnə kimi gözlə, sədəqə gəldiyi vaxt sənə ondan verilməsini əmr edərəm". Sonra belə dedi: "Ey Qabisa, üç şəxsdən başqa heç kəsə zəkat istəmək halal deyil; cəriməni (və ya qanbahasını) üzərinə götürən şəxsə o malı əldə edincəyə qədər zəkat istəmək icazəlidir, sonra isə ondan əl çəkməlidir. Bəlaya düçar olub bütün malını itirən kəs özünün yaşamaq təminatını və ehtiyacını ödəyənə kimi zəkat istəyə bilər. Kasıblığa düçar olan və tayfasından üç ağıl sahibi onun kasıb olduğuna şəhadət verən kəsə yaşamaq təminatını və ehtiyacını ödəyənə kimi zəkatdan istəmək icazəlidir. Ey Qabisa, bundan başqa halda zəkat istəmək haramdır və onu yeyən haram yemiş olar". Hədisi Muslim ﵀ rəvayət etmişdir.[2]

**Allah yolunda cihad edənlərə** gəlincə; bura beytul-maldan (dövlət xəzinəsindən) payları olmayan qazilər daxildir.[3]

**Müsafirlər** isə səfərini davam etdirmək üçün bir ölkədən keçən və yollarına davam etmək üçün yanlarında kifayət qədər mal olmayan yolçulardır. Bu müsafirlərin müəyyən qədər malları olsa da, onlara

---

[1] Əhməd (7410). Əhməd Şakir isnadının səhih olduğunu demişdir. ət-Tirmizi (1655). ət-Tirmizi hədisin həsən olduğunu bildirmişdir. İbn Məcə, 2518. Hədis həsəndir. Bax: Səhih əl-Cami, 3050.

[2] Muslim, 1044/109, 1730, 2451.

[3] Yəni döyüşə dövlət tərəfindən çağırılmayıb könüllü olaraq qatıldıqlarına görə dövlət tərəfindən onlara maaş ayrılmamışdır.

məmləkətlərinə çata biləcəkləri qədər zəkat verilir. Bir şeyi olmayan və ölkəsindən səfərə çıxmaq niyyəti olan şəxs də bu hökmdədir. Ona da zəkat maldan gedişinə və dönüşünə çatacaq qədər verilir. Ayənin zahiri mənası buna dəlildir. Həmçinin İmam Əbu Davud və İbn Məcənin رحمهما الله Əbu Səiddən ؓ rəvayət etdikləri hədis də buna dəlildir. Əbu Səid ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Zəkat varlıya halal deyil. Yalnız bu beş qisim varlı istisnadır; zəkatı yığıb paylayan, (kasıba verildikdən sonra) zəkatı (zəkat verilən əşyanı) malı ilə (kasıbdan) satın alan, borclu, Allah yolunda döyüşən qazi və bir də ona verilən zəkatı varlıya hədiyyə edən kasıb".[1]

Uca Allah buyurur: "**Bu bölgü Allah tərəfindən fərz edilmişdir**", yəni zəkatın yalnız bu qisim insanlara verilməsi hökmü Allahın əzəldən müəyyən etdiyi qədəri, əmri və bölgüsü ilədir. "**Allah hər şeyi biləndir**", yəni işlərin zahirini və batinini, qullarına nəyin faydalı olduğunu ən yaxşı biləndir, etdiklərində, dediklərində, qanun qoymasında və hökm etməsində isə "**hikmət sahibidir**". Ondan başqa haqq məbud və Ondan başqa rəbb yoxdur.

﴿وَمِنْهُمُ ٱلَّذِينَ يُؤْذُونَ ٱلنَّبِيَّ وَيَقُولُونَ هُوَ أُذُنٌ ۚ قُلْ أُذُنُ خَيْرٍ لَّكُمْ يُؤْمِنُ بِٱللَّهِ وَيُؤْمِنُ لِلْمُؤْمِنِينَ
وَرَحْمَةٌ لِّلَّذِينَ ءَامَنُوا۟ مِنكُمْ ۚ وَٱلَّذِينَ يُؤْذُونَ رَسُولَ ٱللَّهِ لَهُمْ عَذَابٌ أَلِيمٌ ﴿٦١﴾﴾

**61. Onlardan elələri də var ki, Peyğəmbərə əziyyət verib: "O hər sözü eşidən bir qulaqdır!" – deyirlər. De: "O, sizin üçün ancaq xeyirli sözlər eşidir. O, Allaha iman gətirir, möminlərə də inanır. O, sizlərdən iman gətirənlər üçün bir rəhmətdir". Allahın Elçisinə əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır.**

Uca Allah bu ayədə bildirir ki, münafiqlərdən bir toplum Peyğəmbərə ﷺ sözləri ilə əziyyət verərək: "**O hər sözü eşidən bir qulaqdır!**" – deyirlər. Yəni bizim barəmizdə kim ona bir şey deyirsə, onu təsdiqləyir, kim ona bir şey danışsa, onu qəbul edir, biz gəlib ona and içdikdə isə bizə inanır. Oxşar təfsir İbn Abbas, Mucahid və Qatədədən رحمهم الله rəvayət edilmişdir. Uca Allah belə buyurur: "**De: "O, sizin üçün ancaq xeyirli sözlər eşidir**", yəni doğrunu yalandan ayıra bilir. "**O, Allaha iman gətirir, möminlərə də inanır**", yəni möminlərin dediklərini təsdiqləyir, "**O, sizlərdən iman gətirənlər üçün bir rəhmətdir**", yəni o, kafirlərə qarşı bir hüccətdir. Bu səbəbdən Uca Allah ayənin sonunda: "**Allahın Elçisinə əziyyət verənlər üçün isə ağrılı-acılı bir əzab vardır**" – deyə buyurur.

[1] Əbu Davud, 1635; İbn Məcə, 1841. Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 870.

﴿يَحْلِفُونَ بِٱللَّهِ لَكُمْ لِيُرْضُوكُمْ وَٱللَّهُ وَرَسُولُهُۥٓ أَحَقُّ أَن يُرْضُوهُ إِن كَانُوا۟ مُؤْمِنِينَ ﴿٦٢﴾ أَلَمْ
يَعْلَمُوٓا۟ أَنَّهُۥ مَن يُحَادِدِ ٱللَّهَ وَرَسُولَهُۥ فَأَنَّ لَهُۥ نَارَ جَهَنَّمَ خَٰلِدًا فِيهَا ۚ ذَٰلِكَ ٱلْخِزْىُ ٱلْعَظِيمُ ﴿٦٣﴾﴾

**62. Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər. Əgər mömindirlərsə, bilsinlər ki, Allahı və Onun Elçisini razı salmaları daha yaxşıdır.**

**63. Məgər bilmirdilərmi ki, Allaha və Onun Elçisinə qarşı çıxanlar üçün içində əbədi qalacaqları Cəhənnəm odu vardır? Bu isə böyük rüsvayçılıqdır.**

Qatədə ﷺ Uca Allahın “**Sizi razı salmaq üçün yanınızda Allaha and içirlər...**” ayəsi barədə belə demişdir: “Bizə bildirilmişdir ki, münafiqlərdən bir nəfər[1]: “Allaha and olsun ki, onlar (Peyğəmbərə ﷺ tən edənlər) bizim ən xeyirlilərimiz və ən şərəflilərimizdir. Əgər Muhəmmədin dedikləri haqdırsa, onlar uzunqulaqdan daha pisdirlər” – demiş və bunu müsəlmanlardan biri eşidərək ona: “Allaha and olsun ki, Muhəmmədin dedikləri haqdır və Allaha and olsun ki, sən uzunqulaqdan daha pissən” – deyə cavab vermişdir. Müsəlman kişi Peyğəmbərin ﷺ yanına gəlib bu barədə ona xəbər verdikdə, Peyğəmbər ﷺ o münafiqə xəbər göndərib onu yanına çağırtdırdı və ondan: “Səni belə söyləməyə nə vadar etdi?” – deyə soruşdu. Münafiq özü-özünə lənət etməyə və bunu söyləmədiyinə dair Allaha and içməyə başladı. Müsəlman kişi isə: “Allahım, doğru söyləyəni bildir, yalançını üzə çıxart!” – dedi və Uca Allah bu ayəni nazil etdi.[2]

Uca Allah buyurur: “**Məgər bilmirdilərmi ki, Allaha və Onun Elçisinə qarşı çıxanlar üçün**”, yəni məgər onlar yəqinliklə bilmirdilərmi ki, Allaha və Onun Elçisinə düşmən olanlar, onunla döyüşməyə və ona qarşı çıxmağa cəhd edənlər üçün “**içində əbədi qalacaqları**”, yəni içində zəlil və əzaba düçar olaraq qalacaqları “**Cəhənnəm odu vardır? Bu isə böyük rüsvayçılıqdır**”, yəni ən böyük zillət və ən böyük bədbəxtçilik elə budur.



[1] Bu surənin 74-cü ayəsinin təfsirində bildiriləcək ki, bu münafiq əl-Culləs ibn Suveyd ibn əs-Samit olmuşdur.

[2] İbn Əbu Hatim, 10041; ət-Tabəri, 16988. Ali Nasr zəif olduğunu bildirmişdir.

﴿يَحۡذَرُ ٱلۡمُنَٰفِقُونَ أَن تُنَزَّلَ عَلَيۡهِمۡ سُورَةٞ تُنَبِّئُهُم بِمَا فِي قُلُوبِهِمۡۚ قُلِ ٱسۡتَهۡزِءُوٓاْ إِنَّ ٱللَّهَ مُخۡرِجٞ مَّا
تَحۡذَرُونَ ٦٤﴾

**64. Münafiqlər, özlərinin qəlbində olanı xəbər verən bir surənin möminlərə nazil olmasından çəkinirlər. De: "Siz istehza edin! Şübhəsiz ki, Allah çəkindiyiniz şeyi üzə çıxaracaqdır".**

Mucahid ﷺ demişdir: "Onlar öz aralarında bir söz danışır, sonra da: "Ümid edirik ki, Allah bizim bu sirrimizi ifşa etməz" – deyirdilər".[1] Qeyd edilən ayə Uca Allahın bu ayəsinə bənzəyir: "**Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" – deyirlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir!**" ("əl-Mucadilə", 8). Bu ayədə isə belə buyurur: "**De: "Siz istehza edin! Şübhəsiz ki, Allah çəkindiyiniz şeyi üzə çıxaracaqdır**", yəni, həqiqətən, Uca Allah sizi rüsvay edəcək və Öz Elçisinə sizin halınızı açıqlayacaq ayələri nazil edəcəkdir. Necə ki başqa bir ayədə Uca Allah belə buyurur: "**Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?! Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir**" ("Muhəmməd", 29-30). Odur ki, Qatədə ﷺ bu surəni ("ət-Tövbə" surəsini) "əl-Fadihə" (Münafiqləri rüsvay edən surə) adlandırardı, çünki bu surə münafiqləri rüsvay edir.[2]

﴿وَلَئِن سَأَلۡتَهُمۡ لَيَقُولُنَّ إِنَّمَا كُنَّا نَخُوضُ وَنَلۡعَبُۚ قُلۡ أَبِٱللَّهِ وَءَايَٰتِهِۦ وَرَسُولِهِۦ كُنتُمۡ
تَسۡتَهۡزِءُونَ ٦٥ لَا تَعۡتَذِرُواْ قَدۡ كَفَرۡتُم بَعۡدَ إِيمَٰنِكُمۡۚ إِن نَّعۡفُ عَن طَآئِفَةٖ مِّنكُمۡ نُعَذِّبۡ طَآئِفَةَۢ بِأَنَّهُمۡ
كَانُواْ مُجۡرِمِينَ ٦٦﴾

**65. Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz?**

**66. Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz". Sizlərdən bir qismini bağışlasaq da, digərlərinə günahkar olduqlarına görə əzab verərik.**

---

[1] ət-Təbəri, 16907, 16989.

[2] İbn Əbu Hatim, 10045; ət-Təbəri, 16909, 16991.

İbn İshaq ﷬ demişdir: “Peyğəmbər ﷺ Təbuk döyüşünə gedərkən aralarında Amr ibn Auf qəbiləsindən Vədiə ibn Sabit və Əşcə qəbiləsindən (Bənu Sələmə qəbiləsinin müttəfiqi) Muxaşşin ibn Humeyyir də olan bir qrup münafiq ona işarə edərək bir-birinə: “Elə bilirsiz Bənu əsfərlarla (yəni rumlularla) döyüşmək ərəblərin öz aralarında olan döyüş kimidir? Allaha and olsun ki, sanki sabah sizi iplə bağlanmış (əsir götürülmüş) halda görürük”, – deyirdilər. Belə deməklə onlar mömінləri ruhdan salmaq və qorxutmaq istəyirdilər. Muxaşşin ibn Humeyyir dedi: “Allaha and olsun ki, bu dediyimizə görə barəmizdə Quran ayəsi nazil olmaqdansa, hər birimizə yüz çubuq vurulmasını daha çox istərdim”. Mənə çatan məlumata görə Peyğəmbər ﷺ Ammar ibn Yasirə dedi: “O camaata (münafiqlərdən ibarət olan topluma) yetiş və bildir ki, həqiqətən, onlar yandılar. Onlardan nə dediklərini soruş. Əgər inkar etsələr, onlara de ki: “Xeyr, siz belə-belə dediniz”. Ammar onların yanına getdi və Peyğəmbərin ﷺ dediklərini onlara çatdırdı. Onlar üzrxahlıq etmək üçün Peyğəmbərin ﷺ yanına gəldilər. Peyğəmbər ﷺ miniyinin üzərində ikən Vədiə ibn Sabit miniyin üzəngisini tutaraq: “Ey Allahın Elçisi, biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!” – dedi. Uca Allah da “**Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: “Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!” De: “Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz?**” ayəsini nazil etdi. Muxaşşin ibn Humeyyir: “Ey Allahın Elçisi, məni döyüşdən öz adım və atamın adı[1] saxladı”, – dedi və bu ayədə “**Sizlərdən bir qismini bağışlasaq da...**” deyilməklə bağışlanan adam oldu. Sonradan o özünə Abdur-Rahmən adını götürdü və Allahdan şəhid olaraq ölməsini, şəhid olduğu yerin isə bilinməməsini dilədi. O, Yəmamə döyüşü günü öldürüldü və ondan heç bir əsər qalmadı”.[2]

Uca Allah buyurur: “**Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz**”, yəni istehza ilə dediyiniz bu sözə görə kafir oldunuz. “**Sizlərdən bir qismini bağışlasaq da, digərlərinə günahkar olduqlarına görə əzab verərik**”, yəni hamınız bağışlanmayacaqsınız, bu günah və səhv sözə görə bir qisminizə mütləq əzab veriləcək.[3]

---

[1] “Muxaşşin” sözünün mənası “çox kobud”, “Humeyyir” sözünün mənası isə “kiçik uzunqulaq” deməkdir. Başqa bir rəvayətə görə onun adı “Məxşiyy” olmuşdur. Hərfi mənası “qorxaq” deməkdir. Belə deməklə o, bir növ günahını boynuna aldığını və tövbə etdiyini bildirmək istəmişdir.

[2] İbn Hişam “Sira ən-Nəbəviyyə” 2/524, 5/206.

[3] Bu ayənin nazilolma səbəbi barədə başqa bir hədis də rəvayət edilmişdir: İbn Əbi Hatim “Təfsir” kitabında (4/63) Abdullah ibn Ömərdən ﷠ rəvayət etmişdir ki, Təbuk döyüşündə olarkən bir kişi məclisdə dedi: “Bizim aramızdakı qarilərdən acgöz, yalançı və döyüşdə qorxaq olan bir kimsə görmədim”. Bu zaman səhabələrdən biri dedi: “Yalan danışırsan! Sən

﴿ٱلْمُنَٰفِقُونَ وَٱلْمُنَٰفِقَٰتُ بَعْضُهُم مِّنۢ بَعْضٍۚ يَأْمُرُونَ بِٱلْمُنكَرِ وَيَنْهَوْنَ عَنِ ٱلْمَعْرُوفِ وَيَقْبِضُونَ
أَيْدِيَهُمْۚ نَسُوا۟ ٱللَّهَ فَنَسِيَهُمْۗ إِنَّ ٱلْمُنَٰفِقِينَ هُمُ ٱلْفَٰسِقُونَ ﴿٦٧﴾ وَعَدَ ٱللَّهُ ٱلْمُنَٰفِقِينَ وَٱلْمُنَٰفِقَٰتِ
وَٱلْكُفَّارَ نَارَ جَهَنَّمَ خَٰلِدِينَ فِيهَاۚ هِىَ حَسْبُهُمْۚ وَلَعَنَهُمُ ٱللَّهُۖ وَلَهُمْ عَذَابٌ مُّقِيمٌ ﴿٦٨﴾﴾

**67. Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar insanları pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər. Onlar Allahı unutdular. Allah da onları unutdu. Həqiqətən, münafiqlər günahkardırlar.**

**68. Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır.**

Uca Allah möminlərin sifətlərinin əksinə sahib olan münafiqləri məzəmmət edərək bildirir ki, möminlər yaxşılığı əmr edib pislikdən çəkindirdikləri halda, "**Onlar insanları pis işlər görməyə vadar edir, yaxşı əməllərə qadağa qoyur və xəsislik göstərirlər**", yəni Allah yolunda xərcləməkdə xəsislik edirlər. "**Onlar Allahı unutdular**", yəni Allahı zikr etməyi unutdular. "**Allah da onları unutdu**", yəni onlarla unudulan kəslər kimi rəftar etdi. Uca Allah başqa bir ayədə belə buyurur: "**Siz bu gününüzə yetişəcəyinizi unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq**" ("əl-Casiyə", 34). "**Həqiqətən, münafiqlər günahkardırlar**", yəni haqq yolundan çıxıb zəlalət yoluna girmişlər.

Uca Allah buyurur: "**Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə**" əvvəl qeyd olunan əməllərinə görə "**içərisində əbədi qalacaqları Cəhənnəm odu vəd etmişdir**". "**Bu onlara kifayət edər!**" Yəni əzab olaraq bu onlara yetər. "**Allah onlara lənət etmişdir**", yəni onları Öz rəhmətindən qovmuş və uzaqlaşdırmışdır. "**Onlar üçün daimi bir əzab vardır**".

münafiqsən! Bu haqda mütləq Peyğəmbərə ﷺ xəbər verəcəyəm". Bu xəbər Peyğəmbərə ﷺ çatdıqda ayə ("ət-Tövbə" surəsi 65-ci ayə) nazil oldu. Abdullah ibn Ömər deyir ki, mən onu (bu sözü deyəni) Peyğəmbərin ﷺ dəvəsinin yüyəninə sarılıb yalvararaq: "Ey Allahın Elçisi, biz ancaq söhbət edib zarafatlaşır, əylənirdik!" – dediyini gördüm. Peyğəmbər ﷺ də ona bu ayəni oxudu: "De: "Allaha, Onun ayələrinə və Onun Elçisinəmi istehza edirsiniz?" Hədisi, həmçinin ət-Təbəri də (10/172) rəvayət etmişdir.

﴿كَٱلَّذِينَ مِن قَبۡلِكُمۡ كَانُوٓاْ أَشَدَّ مِنكُمۡ قُوَّةٗ وَأَكۡثَرَ أَمۡوَٰلٗا وَأَوۡلَٰدٗا فَٱسۡتَمۡتَعُواْ بِخَلَٰقِهِمۡ فَٱسۡتَمۡتَعۡتُم
بِخَلَٰقِكُمۡ كَمَا ٱسۡتَمۡتَعَ ٱلَّذِينَ مِن قَبۡلِكُم بِخَلَٰقِهِمۡ وَخُضۡتُمۡ كَٱلَّذِي خَاضُوٓاْۚ أُوْلَٰٓئِكَ حَبِطَتۡ
أَعۡمَٰلُهُمۡ فِي ٱلدُّنۡيَا وَٱلۡأٓخِرَةِۖ وَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡخَٰسِرُونَ ٦٩﴾

**69. Onlar da sizdən əvvəl yaşamış münafiqlər kimidirlər. Onlar sizdən qüvvədə daha üstün, mal-dövlət və övlad baxımından daha çox idilər. Onlar öz paylarından zövq aldılar. Sizdən əvvəlkilər öz paylarından zövq aldıqları kimi, siz də öz payınızdan zövq aldınız. Onlar batil fikirlərə daldıqları kimi, siz də daldınız. Onların əməlləri dünyada da, axirətdə də heçə getmişdir. Məhz onlar ziyana uğrayanlardır.**

Uca Allah bu ayədə buyurur ki, onlardan əvvəlkilər daha güclü, daha çox mal və övlad sahibi olmalarına baxmayaraq, dünya və axirətdə Allahın əzabına düçar olduqları kimi, onlar da dünya və axirətdə əzaba düçar oldular. əl-Həsən əl-Bəsri ﵀ ayədə keçən خَلَاقِهِم [xalə:qihim] “**paylarından zövq aldılar**” sözünü “dinlərindən faydalandılar” kimi təfsir etmişdir.

Uca Allah buyurur: “**Onlar batil fikirlərə daldıqları kimi, siz də daldınız**”, yəni yalana və batilə daldıqları kimi siz də daldınız. “**Onların əməlləri dünyada da, axirətdə də heçə getmişdir**”, yəni can atdıqları işlər dünya və axirətdə puç olmuşdur. Əməlləri batil olduğu üçün onlara heç bir savab yoxdur. “**Məhz onlar ziyana uğrayanlardır**”, çünki bu əməllərə görə onlar heç bir savaba nail olmamışlar.

﴿أَلَمۡ يَأۡتِهِمۡ نَبَأُ ٱلَّذِينَ مِن قَبۡلِهِمۡ قَوۡمِ نُوحٖ وَعَادٖ وَثَمُودَ وَقَوۡمِ إِبۡرَٰهِيمَ وَأَصۡحَٰبِ مَدۡيَنَ وَٱلۡمُؤۡتَفِكَٰتِۚ
أَتَتۡهُمۡ رُسُلُهُم بِٱلۡبَيِّنَٰتِۖ فَمَا كَانَ ٱللَّهُ لِيَظۡلِمَهُمۡ وَلَٰكِن كَانُوٓاْ أَنفُسَهُمۡ يَظۡلِمُونَ ٧٠﴾

**70. Məgər onlara özlərindən əvvəlkilərin – Nuh qövmünün, Ad və Səmud tayfalarının, İbrahim qövmünün, Mədyən əhalisinin və alt-üst edilmiş kəndin (Lut tayfasının) xəbərləri gəlib çatmayıb? Elçiləri onlara açıq-aydın dəlillər gətirmişdilər. Allah onlara zülm etmədi, lakin onlar özləri özlərinə zülm edirdilər.**

Uca Allah bu ayədə elçiləri yalançı sayan münafiqlərə nəsihət edərək buyurur: “**Məgər onlara özlərindən əvvəlkilərin... xəbərləri gəlib çatmayıb?**” Yəni məgər onlara özlərindən əvvəlki elçiləri yalançı saymış ümmətlərin xəbərləri gəlib çatmayıb? “**Nuh qövmünün**”, Allahın

qulu və elçisi Nuha عليه السلام iman gətirənlərdən başqa yer üzündə olanların hamısının suda necə qərq olduqları, “**Ad**” qövmü Hudu عليه السلام yalançı saydıqları üçün Uca Allahın onları xeyir-bərəkətsiz quru küləklə necə həlak etdiyi, “**Səmud tayfalarının**”, Salehi عليه السلام yalançı sayıb (Allahın möcüzə olaraq göndərdiyi) dəvəni kəsdikləri üçün qorxunc bir səsin onları necə yaxaladığı, “**İbrahim qövmünün**”, Uca Allahın İbrahimi عليه السلام açıq möcüzələrlə dəstəkləyib qövmünə göndərərək ona necə yardım etdiyi, qövmünün hökmdarı olan Nəmrud ibn Kənanı (ona Allahın lənəti olsun) necə həlak etdiyi, “**Mədyən əhalisinin**”, Şueybin عليه السلام qövmü olan Mədyən xalqını zəlzələ, qorxunc səs və kölgəli günün əzabının necə yaxaladığı “**və alt-üst edilmiş kəndin**” xəbərləri gəlib çatmayıb? Alt-üst edilmiş kənd Lut عليه السلام qövmüdür və onlar şəhərlərdə yaşayırdılar. Uca Allah başqa bir ayədə belə buyurur: “**Alt-üst olmuş kəndi də O, viran qoydu**” (“ən-Nəcm”, 53). Yəni alt-üst edilmiş qövmü Allah viran qoydu. Bəzi təfsir alimləri burada onların paytaxtları olan Sədum şəhərinin nəzərdə tutulduğunu demişlər. Ayədə nəzərdə tutulan məna budur ki, Uca Allah Lut peyğəmbəri yalançı saydıqlarına görə və özlərindən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli etdiklərinə görə onları son nəfərədək həlak etmişdir.

“**Elçiləri onlara açıq-aydın dəlillər gətirmişdilər**”, yəni elçiləri onlara inkaredilməz dəlillər gətirmişdilər. “**Allah onlara zülm etmədi**”, yəni Uca Allah onları həlak etməklə onlara zülm etmədi, çünki peyğəmbərlər göndərməklə onların öz əleyhinə hüccət qaldırmış və heç bir bəhanəyə yer qoymamışdır, “**lakin onlar**” peyğəmbərləri yalançı saymaqla, haqqa qarşı çıxmaqla “**özləri özlərinə zülm edirdilər**”. Beləcə, əzaba düçar olmuş və yerlə-yeksan olmuşlar.

﴿وَٱلْمُؤْمِنُونَ وَٱلْمُؤْمِنَٰتُ بَعْضُهُمْ أَوْلِيَآءُ بَعْضٍۚ يَأْمُرُونَ بِٱلْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ ٱلْمُنكَرِ وَيُقِيمُونَ
ٱلصَّلَوٰةَ وَيُؤْتُونَ ٱلزَّكَوٰةَ وَيُطِيعُونَ ٱللَّهَ وَرَسُولَهُۥٓۚ أُو۟لَٰٓئِكَ سَيَرْحَمُهُمُ ٱللَّهُۗ إِنَّ ٱللَّهَ عَزِيزٌ حَكِيمٌ ٧١﴾

**71. Mömin kişilərlə mömin qadınlar bir-birinin dostudur. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərdən çəkindirir, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir.**

Uca Allah əvvəlki ayələrdə münafiqlərin mənfur sifətlərini zikr etdikdən sonra ardınca dərhal möminlərin tərifəlayiq sifətlərini zikr edərək buyurur: "**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostudur**", yəni onlar bir-birinə yardım edər, bir-birinə dayaq olarlar. Necə ki "Səhih" əsərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ: "Möminlər bir bina kimidir, bir-birini dəstəkləyirlər" – demiş və barmaqlarını bir-birinə keçirmişdir.[1] Yenə "Səhih" əsərində rəvayət edilən başqa bir hədisdə belə buyurulur: "Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda bir bədən kimi olduğunu görürsən. Belə ki, bədənin bir əzasına xəstəlik üz verdikdə bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir".[2]

Uca Allah buyurur: "**Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərdən çəkindirir...**". Başqa bir ayədə Uca Allah belə buyurur: "**Qoy içinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır**" ("Ali-İmran", 104).

Uca Allah buyurur: "**...namaz qılır, zəkat verir...**", yəni namaz qılmaqla Allaha itaət edərlər, zəkat verməklə Allahın yaratdığı məxluqlara yaxşılıq edərlər. "**Allaha və Onun Elçisinə itaət edirlər**", yəni Allahın əmrlərini yerinə yetirməklə, qadağalarından çəkinməklə Allaha və Onun Elçisinə itaət edərlər. "**Allah onlara rəhm edəcəkdir**", yəni Allah bu sifətlərə sahib olanlara rəhm edəcəkdir. "**Həqiqətən, Allah Qüdrətlidir**", yəni Ona itaət edəni ucaldar. Həqiqətən, izzət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur. "**Hikmət sahibidir**", yəni sadalanan sifətləri bunlar arasında bölüşdürməkdə və əvvəl keçən münafiqlərə aid sifətləri onlara aid etməkdə hikmət sahibidir. Uca Allah bütün etdiklərində mütləq hikmət sahibidir.

﴿وَعَدَ ٱللَّهُ ٱلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَٰتِ جَنَّٰتٍ تَجْرِى مِن تَحْتِهَا ٱلْأَنْهَٰرُ خَٰلِدِينَ فِيهَا وَمَسَٰكِنَ طَيِّبَةً فِى جَنَّٰتِ عَدْنٍ ۚ وَرِضْوَٰنٌ مِّنَ ٱللَّهِ أَكْبَرُ ۚ ذَٰلِكَ هُوَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ ٧٢﴾

**72. Allah mömin kişilərə və mömin qadınlara altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Bu, böyük uğurdur.**

[1] əl-Buxari, 459, 481; Muslim, 2585/65, 4684, 6750.
[2] əl-Buxari, 5552, 6011; Muslim, 2586/66, 4685, 6751.

Uca Allah bu ayədə bildirir ki, O, mömin kişilərə və mömin qadınlara gözəl və əbədi nemətlər – "**altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl**", yəni rahat məskunlaşmaq üçün gözəl tikilmiş "**məskənlər vəd etmişdir**". Necə ki əl-Buxari və Muslimin "Səhih" əsərlərində Abdullah ibn Qeys əl-Əşaridən ﵁ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "İki cənnət vardır ki, onların içindəki qab-qacaqlar və başqa əşyalar qızıldandır. Digər iki cənnət də vardır ki, onların içindəki qab-qacaqlar və başqa əşyalar gümüşdəndir. Əzəmət pərdəsindən başqa heç bir şey Ədn cənnətində olan kimsələrə Rəbbinin Üzünü görməyə mane olmayacaq".[1] əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən başqa bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Kim Allaha və Onun Elçisinə iman gətirir, namaz qılır və ramazan orucunu tutursa, bundan sonra istər Allah yolunda hicrət etsin, istərsə də doğulduğu diyarda qalsın, Allah onu Cənnətə daxil etməyi Özünə vacib etmişdir". Səhabələr dedilər: "Ey Allahın Elçisi, insanları müjdələməyəkmi?" Peyğəmbər ﷺ dedi: "Cənnətdə Allahın, Onun yolunda cihad edənlər üçün hazırladığı yüz mərtəbə vardır. Bu mərtəbələrdən hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir. Allahdan bir şey dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs Cənnətin tam ortası (ən gözəl yeri) və ən yüksək mərtəbəsidir. Onun üstündə isə ər-Rahmənin Ərşi[2] yerləşir. Cənnət çayları oradan qaynayıb axır".[3] Səhl ibn Sad ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Həqiqətən, Cənnət sakinləri bir-birindən üstün olduqları üçün onların alt mərtəbədə olanları üst mərtəbədəki[4] otaqlarda yerləşmiş möminləri parlaq ulduzu seyr etdikləri kimi seyr edəcəklər". Hədisi əl-Buxari və Muslim "Səhih" əsərlərində rəvayət etmişlər.[5]

Muslimin "Səhih" əsərində rəvayət edilir ki, Abdullah ibn Amr ibn əl-As ﵄ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Müəzzinin azan verdiyini eşitdikdə, onun dediklərini təkrarlayın. Sonra mənə salavat deyin. Kim mənə bir dəfə salavat deyərsə, Allah bunun müqabilində

[1] əl-Buxari, 4500, 4878; Muslim, 265, 466.
[2] "əl-Bəqərə" surəsi, 255-ci ayənin təfsirinə bax.
[3] əl-Buxari, 6873, 7423.
[4] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Cənnətdə yüz mərtəbə vardır. Bu mərtəbələr arasındakı məsafə yerlə göy arasındakı məsafə qədərdir. Firdovs onun ən yüksək mərtəbəsidir. Oradan Cənnətin dörd çayı axır. Onun üstündə isə Ərş yerləşir. Odur ki, Allahdan dilədikdə Firdovs bağını diləyin!" (ət-Tirmizi, 2530, 2722. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 2126).
[5] əl-Buxari, 6071, 6555; Muslim, 5058, 7319.

ona on salavat deyər.[1] Sonra Allahdan mənə "Vəsilə" istəyin. "Vəsilə" Cənnətdə olan bir dərəcədir və bu dərəcəyə Allahın qullarından yalnız biri çatacaqdır. Mən ümid edirəm ki, bu dərəcəyə yetişən qul mən olacam. Kim Allahdan mənim üçün "Vəsilə" istəyərsə, Qiyamət günü şəfaətimə nail olar".[2]

Uca Allah buyurur: "**Allahın razılığı isə daha böyükdür**", yəni Allahın onlardan razılığı onların nail olduqları nemətlərdən daha böyük və daha üstündür. Necə ki İmam Malik ﷬ Əbu Səid əl-Xudridən ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Qüdrətli və Əzəmətli Allah Cənnət əhlini çağırıb buyuracaq: "Ey Cənnət əhli!" Onlar: "Buyur, ey Rəbbimiz, əmrinə müntəzirik! Xeyir yalnız Sənin Əlindədir!" – deyə cavab verəcəklər. Allah soruşacaq: "Razı qaldınızmı?" Onlar deyəcəklər: "Ey Rəbb, necə razı qalmayaq?! Axı Sən bizə, yaratdıqlarından heç kəsə vermədiyin nemətləri bəxş etmisən!" Allah buyuracaq: "Sizə bundan da yaxşısını verimmi?" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bundan yaxşı nə ola bilər ki?" Allah buyuracaq: "Mən Öz rizamı sizə halal edirəm və bundan sonra Mənim sizə heç vaxt qəzəbim tutmayacaq". Hədisi əl-Buxari və Muslim də rəvayət etmişlər.[3]



[1] Uca Allah buyurur: "Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə salavat (xeyir-dua) deyirlər. Ey iman gətirənlər! Siz də ona salavat deyib (xeyir-dua verib) kamil ədəb-ərkanla onu salamlayın" ("əl-Əhzab", 56). Peyğəmbərə ﷺ salavat demək, Peyğəmbərin ﷺ bizə öyrətdiyi şəkildə ona xeyir-dua vermək deməkdir. Kəb ibn Ucra ؓ rəvayət edir ki, bir dəfə Peyğəmbərdən ﷺ soruşdular: "Ey Allahın Elçisi, biz sənə necə salam verməyi bilirik. Bəs sənə salavatı necə deyək?" Peyğəmbər ﷺ buyurdu: "Deyin: "Alla:hummə salli alə: Muhəmmədin və alə: ə:li Muhəmməd, kəmə: salleytə alə: ə:li İbra:him, innəkə həmi:dun məci:d. Alla:hummə bə:rik alə: Muhəmmədin və alə: ə:li Muhəmməd, kəmə: bə:raktə alə: ə:li İbra:him, innəkə həmi:dun məci:d. (Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!)" (əl-Buxari, 4423, 4797). Alimlər bildirmişlər ki, Allahın quluna salavat deməsi, onu mələklərin toplumunda tərifləməsi və ona rəhm etməsidir.

[2] Əhməd (6568). (Əhməd Şakir). Muslim, 384, 875.

[3] əl-Buxari, 6067, 6549; Muslim, 5057, 7318.

﴿يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ جَٰهِدِ ٱلْكُفَّارَ وَٱلْمُنَٰفِقِينَ وَٱغْلُظْ عَلَيْهِمْ ۚ وَمَأْوَىٰهُمْ جَهَنَّمُ ۖ وَبِئْسَ ٱلْمَصِيرُ ﴿٧٣﴾ يَحْلِفُونَ
بِٱللَّهِ مَا قَالُوا۟ وَلَقَدْ قَالُوا۟ كَلِمَةَ ٱلْكُفْرِ وَكَفَرُوا۟ بَعْدَ إِسْلَٰمِهِمْ وَهَمُّوا۟ بِمَا لَمْ يَنَالُوا۟ ۚ وَمَا نَقَمُوٓا۟ إِلَّآ أَنْ
أَغْنَىٰهُمُ ٱللَّهُ وَرَسُولُهُۥ مِن فَضْلِهِۦ ۚ فَإِن يَتُوبُوا۟ يَكُ خَيْرًا لَّهُمْ ۖ وَإِن يَتَوَلَّوْا۟ يُعَذِّبْهُمُ ٱللَّهُ عَذَابًا أَلِيمًا فِى
ٱلدُّنْيَا وَٱلْءَاخِرَةِ ۚ وَمَا لَهُمْ فِى ٱلْأَرْضِ مِن وَلِىٍّ وَلَا نَصِيرٍ ﴿٧٤﴾﴾

**73. Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran. Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!**

**74. Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr danışmış, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar. Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir. Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr, Allah onları dünyada da, axirətdə də ağrılı-acılı bir əzaba düçar edər. Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi vardır.**

Uca Allah bu ayələrdə Öz Elçisinə ﷺ kafirlərlə və münafiqlərlə döyüşməyi, onlara qarşı sərt olmağı əmr edir. Necə ki (başqa ayələrdə) ona tabe olan möminlərlə əksinə, mülayim rəftar etməyi və onlara qarşı təvazökar olmağı əmr etmişdir.[1] Həmçinin kafir və münafiqlərin Axirət yurdunda dönəcəkləri yerin Cəhənnəm olduğunu xəbər verir. Əli ibn Əbu Talibin ؓ belə dediyi rəvayət edilir: "Peyğəmbər ﷺ dörd qılıncla göndərilmişdir[2]; bir qılınc müşriklər üçün: "**Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün**" ("ət-Tövbə", 5); bir qılınc Kitab əhlinin kafirləri üçün: "**Kitab verilənlərdən Allaha və Axirət gününə iman gətirməyən, Allahın və Onun Elçisinin haram buyurduğunu haram saymayan və həqiqi din olan İslama etiqad etməyənlərlə zəlil günə qalıb öz əlləri ilə cizyə verməyə məcbur oluncaya qədər vuruşun**" ("ət-Tövbə", 29); bir qılınc münafiqlər üçün: "**Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş**" ("ət-Tövbə", 73; "ət-Təhrim", 9); bir qılınc da həddi aşan təcavüzkarlar üçün: "**Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini yerinə yetirməyə**

---

[1] Uca Allah buyurur: "Onların bəzi təbəqələrinə verdiyimiz fani dünya malına gözünü dikmə, onlara görə kədərlənmə, möminlərlə yumşaq davran". ("əl-Hicr", 88). Həmçinin buyurur: "Sənə tabe olan möminləri qanadının altına al (onlara qarşı təvazökar ol)!" ("əş-Şuəra", 215).

[2] Yəni Peyğəmbərə ﷺ dörd qrup insanla vuruşmaq əmr olunmuşdur.

**qayıdanadək vuruşun**" ("əl-Hucurat", 9)".[1] Bu ayə münafiqliyini açıq-aydın bildirənlərlə döyüşməyi tələb edir. İbn Cərir ﷺ də bu rəyi seçmişdir. İbn Abbas ﷺ demişdir: "Uca Allah kafirlərlə qılıncla, münafiqlərlə isə dil ilə cihad etməyi əmr etmiş, onlarla yumşaq davranmağı qadağan etmişdir".[2] əd-Dahhək ﷺ demişdir: "Kafirlərə qarşı qılıncla cihad et, münafiqlərə qarşı sözlə sərt davran. Bu onlarla cihad etməkdir".[3] Muqatil və Rabidən ﷺ də oxşar rəy rəvayət edilmişdir. əl-Həsən və Qatədə ﷺ demişlər: "Onlarla (kafir və münafiqlərlə) döyüşmək, onlara hədlərin (şəriət qanunlarının) tətbiq olunmasıdır".[4] Bu rəylər arasında ziddiyyət yoxdur, çünki vəziyyətlərinə uyğun olaraq bəzən bununla, bəzən də digəri ilə cəzalandırıla bilərlər. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr danışmış, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar**". Qatədə ﷺ bu ayənin Abdullah ibn Ubey barəsində nazil olduğunu demişdir. Belə ki, Cuheynə qəbiləsindən olan bir kişi ilə ənsardan olan bir kişi dalaşdı. Abdullah ənsara səslənərək dedi: "Qardaşınıza yardım etməyəcəksinizmi? Allaha and olsun ki, bizimlə Muhəmmədin məsəli "İtini bəslə, səni yesin" məsəlinə bəzəyir". Sonra dedi: "**Əgər biz Mədinəyə qayıtsaq, ən qüdrətlilər ən alçaqları (münafiqlər müsəlmanları) mütləq oradan çıxardacaqlar!**" ("əl-Munəfiqun", 8). Müsəlmanlardan bir kişi qaçıb bunu Peyğəmbərə ﷺ xəbər verdi. Peyğəmbər ﷺ adam göndərib Abdullahı yanına çağırtdırdı və ondan nə üçün belə dediyini soruşdu. Abdullah belə demədiyinə dair Allaha and içməyə başladı. Uca Allah da onun barəsində bu ayəni nazil etdi.[5]

Urvə ibn əz-Zubeyr ﷺ demişdir: "Bu ayə Culləs ibn Suveyd ibn əs-Samit barədə nazil olmuşdur. Bir dəfə o, arvadının birinci ərindən olan oğlu Musab ilə Qubadan[6] gəlirdi. Culləs dedi: "Əgər Muhəmmədin gətirdiyi din haqdırsa, o halda biz mindiyimiz bu eşşəklərdən daha pisik". Musab dedi: "Ey Allahın düşməni, Allaha and olsun ki, dediklərini Allah Elçisinə ﷺ xəbər verəcəyəm". Musab dedi: "Mən Peyğəmbərin ﷺ yanına gəldim və mənim barəmdə Quran ayəsi nazil olmasından və ya mənə bir müsibət üz verməsindən, yaxud onun günahına şərik olmaqdan qorxub: "Ey Allahın Elçisi, mən və Culləs Qubadan gəlirdik və o belə-belə dedi!

[1] İbn Əbu Hatim, 9254.
[2] ət-Tabəri, 16963, 17043.
[3] İbn Əbu Hatim, 10307; ət-Tabəri, 16964, 17044.
[4] ət-Tabəri, 16965-17966, 17046-17047.
[5] İbn Əbu Hatim, 10110; ət-Tabəri, 16974, 17055. Ali Nasr isnadının mürsəl-səhih olduğunu bildirmişdir.
[6] Quba – Mədinənin cənubunda Peyğəmbər ﷺ məscidindən təqribən dörd kilometr aralıqda yerləşən qəsəbə adıdır. İslamda ilk məscid olan Quba məscidi də məhz burada yerləşir.

Onun günahına şərik olmaqdan və ya başıma bir müsibət gəlməsindən qorxmasaydım, sənə bunu xəbər verməzdim" – dedim. Peyğəmbər ﷺ Culləsi yanına çağırıb ondan: "Ey Culləs, Musabın xəbər verdiyi sözü dedinmi?" – deyə soruşdu. O, demədiyinə dair and içdi. Uca Allah da "**Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr danışmış, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar...**" ayəsini nazil etdi".[1]

Uca Allah buyurur: "**...və bacara bilmədikləri bir işə can atmışlar**". Bu ayənin Culləs ibn Suveyd barədə nazil olduğu deyilir. Belə ki, arvadının (əvvəlki ərindən olan) oğlu onun (Peyğəmbər ﷺ barəsində) dediyi sözü Peyğəmbərə ﷺ xəbər verəcəyini bildirdikdə, o, arvadının oğlunu öldürməyə çalışmışdı. Ayənin Abdullah ibn Ubey barədə nazil olduğu da deyilmişdir. Belə ki, o, Peyğəmbəri ﷺ öldürmək fikrinə düşmüşdü. əs-Suddi رحمه الله demişdir: "Bu ayə Peyğəmbər ﷺ razı olmasa da, Abdullah ibn Ubeyə tac qoymaq istəyən bir qrup insan barədə nazil olmuşdur". Rəvayətə görə Peyğəmbər ﷺ Təbuk döyüşünə gedərkən gecələrin birində yolda sayları on nəfərdən artıq olan bir qrup münafiq Peyğəmbərə ﷺ sui-qəsd təşkil etmək niyyətində olmuşlar. əd-Dahhək رحمه الله bu ayənin onlar barədə nazil olduğunu demişdir.

İmam Əhməd رحمه الله Əbu Tufeyldən رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Təbuk döyüşündən qayıdarkən bir carçıya belə səslənməsini əmr etdi: "Peyğəmbər yamac yolunu tutmuşdur. Heç kim bu yolu tutmasın!" Peyğəmbərin ﷺ miniyini Huzeyfə sürürdü, Ammar isə (üzəngisini) çəkib aparırdı. Birdən üzləri örtülü bir qrup atlı gəlib Peyğəmbərin ﷺ dəvəsini aparan Ammarı رضي الله عنه dövrəyə aldı. Ammar رضي الله عنه onların miniklərinin üzlərinə vurmağa başladı. Peyğəmbər ﷺ Huzeyfeyə: "Dayan, dayan!" – deyə buyurdu və miniyindən endi. Peyğəmbər ﷺ minikdən enəndə Huzeyfə də endi. Ammar qayıtdıqda Peyğəmbər ﷺ soruşdu: "Ey Ammar, o qövmü tanıdınmı?" Ammar رضي الله عنه: "Miniklərini yadımda saxladım, lakin insanların üzləri örtülü idi", – dedi. Peyğəmbər ﷺ: "Onların nə istədiklərini bilirsənmi?" – deyə soruşdu. Ammar رضي الله عنه: "Allah və Onun Elçisi daha yaxşı bilir" – dedi. Peyğəmbər ﷺ: "Miniyini hürküdüb Peyğəmbəri minikdən düşürmək istəyirdilər", – buyurdu. Ammar رضي الله عنه Peyğəmbərin ﷺ səhabələrindən birinin yanına getdi, səhabə dedi: "Səni Allaha and verirəm, yamacdan sizə tərəf gələnlər neçə nəfər idilər, bilirsənmi?" Ammar: "On dörd, əgər sən də onlardan biri idinsə, on beş nəfər idilər", – dedi. Peyğəmbər ﷺ onlardan "Allaha and olsun ki, biz Peyğəmbərin ﷺ carçısını eşitmədik və o toplumun nə istədiyini də bilmirdik" deyən üç

[1] ət-Təbəri, 16968, 17049.

nəfərin üzrxahlığını qəbul etdi. Ammar ﵁ dedi: “Mən şahidlik edərəm ki, qalan on iki nəfər dünya və Axirətdə Allah və Onun Elçisinin ﷺ düşməndirlər”.[1]

Muslimin ﵀ Əbu Tufeyldən ﵁ rəvayət etdiyi bu hədis qeyd etdiyimiz hekayənin doğruluğuna dəlalət edir. Əbu Tufeyl ﵁ belə demişdir: “Huzeyfə ilə (Təbuk döyüşündən qayıdarkən) yamac yolunda Peyğəmbərin ﷺ qarşısına çıxanlardan bir neçəsi arasında, adətən insanlar arasında olan şeylər (söz-söhbət, mübahisə) baş vermişdi. Kişi dedi: “Səni Allaha and verirəm, yamac yolunda neçə nəfər vardı?” Ətrafdakılar Huzeyfəyə: “Madam ki, soruşdu, cavab ver”, – dedilər. Huzeyfə ﵁ dedi: “Bizə onların on dörd nəfər olduğu xəbər verilmişdir. Əgər sən də onlardan birisənsə, deməli, on beş nəfər olmuşlar. Allaha şahidlik edərəm ki, onlardan on ikisi həm dünya həyatında, həm də şahidlərin şahidlik etmək üçün ayağa qalxacağı gün (Qiyamət günü) Allaha və Onun Elçisinə ﷺ düşməndirlər. Onlardan üç nəfərin üzrxahlığı qəbul olundu. Onlar: “Biz Allah Elçisinin ﷺ carçısını eşitmədik və o dəstənin nə etmək istədiyini də bilmirdik” – dedilər. Peyğəmbər ﷺ daşlıq ərazidə gedərkən: “Su az qalıb, məndən əvvəl heç kəs su olan yerə çatmasın”, – buyurmuşdu. Ora çatdıqda bir toplumun ondan qabaq gəldiyini gördü və həmin gün onları lənətlədi”.[2] Muslimin ﵀ Huzeyfədən ﵁ rəvayət etdiyi hədis də əvvəl qeyd etdiyimiz hekayənin doğruluğuna dəlalət edir. Huzeyfə ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Səhabələrim içində[3] on iki münafiq var ki, onlar Cənnətə girməyəcək və dəvə iynənin gözündən keçməyincə Cənnətin qoxusunu duymayacaqlar. Səkkizinin kürək sümükləri arasında əmələ gələn sızanaq onların şərlərini səndən uzaqlaşdıracaq. Bu sızanaq bellərindən girib sinələrindən çıxacaq bir atəş parçası olacaq”.[4] Bu səbəbdən Huzeyfə ﵁ “Sirr sahibi” adlanırdı. Bu sirri ondan başqa heç kəs bilmirdi. Yəni Peyğəmbərin ﷺ dövründə yaşayan münafiqlərdən bir qrupunu tanıyırdı. Peyğəmbər ﷺ bunu yalnız Huzeyfeyə ﵁ bildirmişdi. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: “**Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir**”, yəni Peyğəmbərin ﷺ onların yanında günahı yalnız budur ki, Allah bu Peyğəmbərin bərəkəti sayəsində onları zəngin etdi və onlara nemət verdi. Əgər onlar barədə

[1] Əhməd (5/453). əl-Heysəmi “əz-Zəvaid” əsərində (6/195) demişdir: “Hədisin raviləri “Səhih” əsərində adları keçən ravilərdir”. Əhməd, 23792, 23843, 24202. Şueyb əl-Arnavut Muslimin şərtlərinə görə isnadının qüvvətli olduğunu bildirmişdir.

[2] Muslim, 2779, 4985, 7214.

[3] Başqa bir rəvayətdə “Ümmətim içində on iki münafiq var” deyilir. (Səhih əl-Cami, 2131). Yəni bu on iki nəfər insanların gözündə səhabə olsalar da, həqiqətdə səhabə deyildilər.

[4] Muslim, 2779, 4983, 7212.

xoşbəxtlik tamamlanmış olsaydı, Uca Allah onları Peyğəmbərin ﷺ gətirdiyi hidayətə yönəldərdi. Necə ki Peyğəmbər ﷺ ənsarlara belə demişdir: "Ey ənsarlar, mən sizi azmış halda tapmadımmı və Allah mənim sayəmdə sizə hidayət bəxş etmədimi? Siz bölünmüşdünüz, Allah mənim sayəmdə sizi birləşdirmədimi? Kasıb idiniz, Allah mənim sayəmdə sizi zəngin etmədimi?" Peyğəmbərin ﷺ hər dediyinə ənsarlar: "Allah və Onun Elçisi ən çox lütf edəndir" – deyə cavab verirdilər".[1] Ayədə keçən bu ifadə yalnız heç bir günahın olmadığı halda deyilir. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Kafirlər onlardan yalnız Qüdrətli, Tərifəlayiq Allaha iman gətirdiklərinə görə intiqam alırdılar**". ("əl-Buruc", 8).

Sonra Uca Allah münafiqləri tövbə etməyə çağıraraq belə buyurur: "**Əgər tövbə etsələr, onlar üçün xeyirli olar. Əgər üz döndərsələr**", yəni öz yollarına davam etsələr, "**Allah onları dünyada da, axirətdə də ağrılı-acılı bir əzaba düçar edər**", yəni dünyada öldürülmək, kədər və qəm-qüssə ilə, axirətdə isə zillət, rəzillik və alçaqlıqla əzaba düçar edər. "**Yer üzündə onların nə bir dostu, nə də bir köməkçisi vardır**", yəni onları xoşbəxt edəcək, onların imdadına çatacaq heç kim yoxdur. Kimsə onlara xeyir verə bilməz və heç bir pisliyi onlardan dəf edə bilməz.

﴿۞ وَمِنْهُم مَّنْ عَٰهَدَ ٱللَّهَ لَئِنْ ءَاتَىٰنَا مِن فَضْلِهِۦ لَنَصَّدَّقَنَّ وَلَنَكُونَنَّ مِنَ ٱلصَّٰلِحِينَ ٧٥ فَلَمَّآ ءَاتَىٰهُم
مِّن فَضْلِهِۦ بَخِلُوا۟ بِهِۦ وَتَوَلَّوا۟ وَّهُم مُّعْرِضُونَ ٧٦ فَأَعْقَبَهُمْ نِفَاقًا فِى قُلُوبِهِمْ إِلَىٰ يَوْمِ يَلْقَوْنَهُۥ بِمَآ
أَخْلَفُوا۟ ٱللَّهَ مَا وَعَدُوهُ وَبِمَا كَانُوا۟ يَكْذِبُونَ ٧٧ أَلَمْ يَعْلَمُوٓا۟ أَنَّ ٱللَّهَ يَعْلَمُ سِرَّهُمْ وَنَجْوَىٰهُمْ وَأَنَّ
ٱللَّهَ عَلَّٰمُ ٱلْغُيُوبِ ٧٨﴾

**75. Onlardan: "Əgər Allah Öz lütfündən bizə bəxş etsə, əlbəttə, biz sədəqə verər və əməlisalehlərdən olarıq!" – deyə Allaha əhd edənləri də vardır.**

**76. Allah Öz lütfündən onlara verdikdə isə xəsislik edərək üz çevirib getdilər.**

**77. Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan söylədiklərinə görə Allah da onların qəlblərinə Onunla qarşılaşacaqları günədək nifaq saldı.**

**78. Məgər anlamırdılar ki, Allah onların sirlərindən də, xəlvəti danışıqlarından da agahdır və Allah qeybləri biləndir?**

[1] əl-Buxari, 3985, 4330; Muslim, 1758, 2493.

Uca Allah bu ayələrdə bildirir ki, münafiqlərdən, əgər Allah onlara öz lütfündən verib onları zəngin etsə, malından sədəqə verib salehlərdən olacağına dair Allaha əhd və söz verənlər də vardır. Halbuki onlar verdikləri əhdə sadiq çıxmayıb, iddia etdiklərini əməlləri ilə təsdiqləməyiblər. Uca Allah da onların bu əməllərinə qarşılıq olaraq Allaha qovuşacaqları Qiyamət gününə qədər qəlblərində nifaq yerləşdirəcək. Allah bizi belə aqibətdən qorusun!

Uca Allah buyurur: "**Allaha verdikləri vədə xilaf çıxdıqlarına və yalan söylədiklərinə görə Allah da onların qəlblərinə Onunla qarşılaşacaqları günədək nifaq saldı**", yəni verdikləri əhdə xilaf çıxdıqlarına və yalan danışdıqlarına görə Allah onları qəlblərinə nifaq salmaqla cəzalandırdı. əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar; vəd verdiyi zaman (vədinə) xilaf çıxar; ona əmanət verildiyi zaman xəyanət edər".[1]

Uca Allah buyurur: "**Məgər anlamırdılar ki, Allah onların sirlərindən də, xəlvəti danışıqlarından da agahdır və Allah qeybləri biləndir?**" Uca Allah bu ayədə bildirir ki, Allah sirri də, bundan daha gizli olanı da bilir. Münafiqlər malları olduğu təqdirdə sədəqə verib bu nemətə görə şükür edəcəklərini bildirsələr də, Uca Allah onların qəlblərindən keçənləri ən yaxşı bilir. Uca Allah onları özlərindən daha yaxşı tanıyır. Çünki O, qeybləri ən yaxşı biləndir. Qeybi də, aşkarı da, hər bir sirri də, gizli söhbətləri də, zahirdə və gizlində olan hər şeyi ən yaxşı O bilir.

﴿ٱلَّذِينَ يَلۡمِزُونَ ٱلۡمُطَّوِّعِينَ مِنَ ٱلۡمُؤۡمِنِينَ فِي ٱلصَّدَقَٰتِ وَٱلَّذِينَ لَا يَجِدُونَ إِلَّا جُهۡدَهُمۡ فَيَسۡخَرُونَ مِنۡهُمۡ سَخِرَ ٱللَّهُ مِنۡهُمۡ وَلَهُمۡ عَذَابٌ أَلِيمٌ ٧٩﴾

**79. Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir.**

Bunlar da münafiqlərin sifətlərindəndir. Heç kəs heç bir halda onların məzəmmətindən və tənəsindən qurtula bilmir. Hətta sədəqə verənlər də onların məzəmmətindən xilas ola bilmir. Əgər sədəqə verən (zəkat vermək üçün) çox sayda mal gətirsə: "Bu, riyakardır", – deyərlər. Az bir şey gətirsə: "Allah bunun sədəqəsinə möhtac deyil", – deyərlər. Necə ki əl-Buxari رحمه الله Əbu Məsuddan رضي الله عنه rəvayət etmişdir: "Sədəqə ayəsi nazil olduqda, biz sədəqə vermək üçün malı belimizdə gətirərdik. Bir kişi gəlib çox sayda

[1] əl-Buxari, 32-33; Muslim, 89, 220.

sədəqə verdi. Münafiqlər: "Riyakardır" – dedilər. Başqa bir kişi gəlib bir saa (dörd ovuc) miqdarında sədəqə verdi. Onun barəsində isə: "Allah bunun sədəqəsinə möhtac deyil", – dedilər. Bu zaman "**Möminlərdən könüllü surətdə sədəqə verənlərə və çətinliklə tapdıqlarını verənlərə eyib tutanları, onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır. Onları ağrılı-acılı bir əzab gözləyir**" ayəsi nazil oldu". Bu hədisi Muslim ﷺ də rəvayət etmişdir.[1]

İbn Abbas ﷺ bu ayə barədə belə demişdir: "Bir dəfə Abdur-Rahmən ibn Auf ﷺ qırx uqiyyə[2] qızılla Peyğəmbərin ﷺ yanına gəldi. Ənsardan olan bir kişi isə bir saa yemək gətirdi. Münafiqlərdən biri: "Allaha and olsun ki, Abdur-Rahmən gətirdiyini sadəcə özünü göstərmək üçün gətirmişdir" – dedi. Ənsarlı barədə isə: "Həqiqətən, Allah və Onun Elçisinin bu bir saa yeməyə ehtiyacı yoxdur" – dedi".[3]

İbn İshaq ﷺ demişdir: "Möminlərdən könüllü surətdə sədəqə verənlərdən biri Abdur-Rahmən ibn Auf ﷺ idi. O, dörd min dirhəm sədəqə vermişdi. Digəri isə Bənu Aclən qəbiləsindən olan Asim ibn Adiy idi. Bir dəfə Peyğəmbər ﷺ səhabələri sədəqə verməyə rəğbətləndirdi. Abdur-Rahmən ibn Auf qalxıb dörd min dirhəm sədəqə verdi. Asim ﷺ isə qalxıb yüz vəsq[4] xurma sədəqə verdi. Münafiqlər onların hər ikisinə dil uzadıb: "Bu, riyadan başqa bir şey deyil" – dedilər. Gücünün çata biləcəyi qədər sədəqə verən isə Bənu Amr ibn Auf qəbiləsinin müttəfiqi Bənu Uneyf əl-İraşi qəbiləsindən olan Əbu Əqil idi. O, bir saa xurma gətirmişdi və onu sədəqəlik malların üzərinə boşaltmışdı. Münafiqlər öz aralarında ona gülərək: "Həqiqətən, Allahın Əbu Əqilin gətirdiyi bir saa xurmaya ehtiyacı yoxdur" – dedilər".[5]

Uca Allah buyurur: "**...onları məsxərəyə qoyanları, Allah məsxərəyə qoyacaqdır**". Bu onların pis əməllərinə və möminlərə lağ etmələrinə qarşılıq qəbilindəndir, çünki cəza, edilən əməlin növündən olur. Uca Allah lağ edənin davranışına onun öz əməli ilə qarşılıq vermişdir. Möminlərə dünyada yardım etmiş, münafiqlərə isə axirətdə ağrılı-acılı bir əzab hazırlamışdır.

---

[1] əl-Buxari, 1326, 1415; Muslim, 1692, 2402.

[2] Bir qızıl uqiyyə 29,75 qram qızıla bərabərdir.

[3] ət-Təbəri, 17003, 17085.

[4] Bir vəsq 60 saaya, bir saa isə 2,40 kiloqrama bərabərdir. ("Şərh Zadul-Mustəğnə", 6/104). Beləliklə, 1 vəsq 144 kiloqrama bərabərdir.

[5] ət-Təbəri, 17012, 17094.

﴿ٱسْتَغْفِرْ لَهُمْ أَوْ لَا تَسْتَغْفِرْ لَهُمْ إِن تَسْتَغْفِرْ لَهُمْ سَبْعِينَ مَرَّةً فَلَن يَغْفِرَ ٱللَّهُ لَهُمْ ذَٰلِكَ بِأَنَّهُمْ كَفَرُوا۟ بِٱللَّهِ
وَرَسُولِهِۦ وَٱللَّهُ لَا يَهْدِى ٱلْقَوْمَ ٱلْفَٰسِقِينَ ﴿٨٠﴾﴾

**80. Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər. Allah günahkar insanları doğru yola yönəltməz.**

Uca Allah bu ayədə Peyğəmbərinə ﷺ bildirir ki, münafiqlər Allahdan onlar üçün bağışlanma istənilməsinə layiq deyillər. Peyğəmbər ﷺ onlar üçün yetmiş dəfə bağışlanma diləsə belə, Allah onları bağışlamayacaq. Ayədəki yetmiş sayının onlar üçün bağışlanma diləməyi kəsmək məqsədilə zikr edildiyi də deyilmişdir. Çünki ərəblərin danışığında yetmiş sayı mübaliğə məqsədilə işlədilir. Bu sayı qeyd etməkdə məqsəd sayı müəyyən etmək və bundan artıq sayı bu hökmdən kənarda saxlamaq üçün deyil. Bəzi alimlər isə bu ədədin sayı bildirmək üçün zikr edildiyini demişlər. Necə ki əl-Aufi رحمه الله İbn Abbasın رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Bu ayə nazil olduqda Peyğəmbər ﷺ dedi: "Rəbbimi eşitdim, mənə onlar barədə rüsxət verdi. Allaha and olsun ki, onlar üçün yetmiş dəfədən çox bağışlanma diləyəcəyəm. Ümid edirəm ki, Allah onları bağışlayar". Uca Allah münafiqlərə olan qəzəbinin şiddətindən belə buyurdu: "**Sən onlar üçün bağışlanma diləsən də, diləməsən də, fərqi yoxdur. Allah onları bağışlamayacaq. Şübhəsiz ki, Allah fasiq adamları doğru yola yönəltməz**" ("əl-Munəfiqun", 6)".[1]

﴿فَرِحَ ٱلْمُخَلَّفُونَ بِمَقْعَدِهِمْ خِلَٰفَ رَسُولِ ٱللَّهِ وَكَرِهُوٓا۟ أَن يُجَٰهِدُوا۟ بِأَمْوَٰلِهِمْ وَأَنفُسِهِمْ فِى سَبِيلِ ٱللَّهِ وَقَالُوا۟
لَا تَنفِرُوا۟ فِى ٱلْحَرِّ قُلْ نَارُ جَهَنَّمَ أَشَدُّ حَرًّا لَّوْ كَانُوا۟ يَفْقَهُونَ ﴿٨١﴾ فَلْيَضْحَكُوا۟ قَلِيلًا وَلْيَبْكُوا۟ كَثِيرًا جَزَآءًۢ بِمَا
كَانُوا۟ يَكْسِبُونَ ﴿٨٢﴾﴾

**81. Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" – dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar.**

**82. Qoy onlar etdikləri günahların cəzası olaraq az gülüb çox ağlasınlar.**

[1] ət-Təbəri, 17030, 17112.

Uca Allah Təbuk döyüşündə Peyğəmbərin ﷺ səhabələrindən geri qalan və Peyğəmbər ﷺ Mədinədən çıxdıqdan sonra evdə oturduqlarına görə sevinən münafiqləri tənqid edərək buyurur: “**Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda**” Peyğəmbərlə ﷺ birlikdə “**öz malları və canları ilə cihad etmək istəmədilər və**” bir-birinə “**Bu istidə döyüşə çıxmayın!” – dedilər**”. Çünki Təbuk döyüşü kölgənin xoş və meyvələrin bol olduğu şiddətli isti günlərdə olmuşdu. Bu səbəbdən onlar bir-birinə: “**Bu istidə döyüşə çıxmayın!**” – demişlər. Uca Allah Elçisinə ﷺ buyurdu: “**De**”, yəni onlara cavab olaraq de: “**Cəhənnəm odu bundan da hərarətlidir!**” Yəni Peyğəmbərə ﷺ qarşı çıxdığınıza görə girəcəyiniz Cəhənnəm odu qaçdığınız bu istidən, istifadə etdiyiniz oddan belə daha istidir. İmam Əhməd رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Adəm övladının istifadə etdiyi od, Cəhənnəm odunun yetmiş hissəsindən biridir”. Səhabələr dedilər: “Ey Allahın Elçisi, elə bu da bəs edər!” Peyğəmbər ﷺ dedi: “Cəhənnəm odu dünyadakı oddan altmış doqquz dəfə üstündür”. Hədisi əl-Buxari və Muslim “Səhih” əsərlərində rəvayət etmişlər.[1] İmam Əhməd رحمه الله Əbu Hureyradan رضي الله عنه Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Sizin istifadə etdiyiniz bu od Cəhənnəm odunun yetmiş hissəsindən biridir. O iki dəfə dəniz suyu ilə söndürülmüşdür. Əgər belə olmasaydı, Uca Allah bu odu heç kim üçün faydalı etməzdi”. Bu hədisin də isnadı səhihdir.[2]

Muslim رحمه الله Əbu Səid əl-Xudridən رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Cəhənnəmdə ən yüngül əzab çəkəcək kimsə alovdan iki başmaq geyinyəcək. Bu başmaqların hərarətindən onun beyni qaynayacaq”.[3]

İmam Əhməd رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Cəhənnəm əhlinin əzab baxımından ən yüngülü (oddan) iki başmaq geydirilən və onun istisindən beyni qaynayan kəs olacaqdır”. Bu hədisin isnadı yaxşı və qüvvətlidir. İsnadındakı ravilər Muslimin رحمه الله şərtlərinə uyğundur. Ən doğrusunu Allah bilir.[4]

Bu barədə rəvayət olunan hədislər çoxdur. Uca Allah izzətli Kitabında başqa ayələrdə belə buyurur: “**Xeyr! Bu, alovu şöləl追ənən Oddur – başın dərisini sıyırıb çıxaran bir od**” (“əl-Məaric”, 15-16); “**Onlar öz Rəbbi**

[1] əl-Muvatta, 2/991; əl-Buxari, 3025, 3265; Muslim, 2843, 5077, 7344; Əhməd, 10033.
[2] Əhməd, 7323. Əhməd Şakir رحمه الله demişdir: “Hədis iki isnadla rəvayət olunur. Biri bitişik səhihdir, digəri isə mürsəl zəifdir”. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 3666.
[3] Muslim, 314, 361, 539.
[4] Əhməd, 9658. Şueyb əl-Arnavut isnadının qüvvətli olduğunu bildirmişdir.

**barəsində höcətləşən iki dəstədir. Kafirlər üçün oddan paltar biçiləcək, başlarına da qaynar su töküləcəkdir. Bununla, onların bətnlərindəkiləri və dərisi əridiləcəkdir. Onlar üçün dəmir toppuzlar da hazırlanmışdır. Onlar hər dəfə oradan çıxmaq, qəmdən qurtarmaq istədikdə yenidən oraya qaytarılacaq və onlara: "Dadın odun əzabını!" – deyiləcəkdir**" ("əl-Həcc", 19-22); "**Şübhəsiz ki, ayələrimizi inkar edənləri oda atacağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik**" ("ən-Nisa", 56).

Bu ayədə isə Uca Allah belə buyurur: "**De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar**", yəni əgər onlar bilib anlasaydılar, istisi qat-qat artıq olan Cəhənnəm odundan qorunmaq üçün isti havada Peyğəmbərlə ﷺ birlikdə Allah yolunda cihada çıxardılar.

Sonra Uca Allah münafiqləri etdikləri əmələ görə təhdid edərək buyurur: "**Qoy onlar etdikləri günahların cəzası olaraq az gülüb çox ağlasınlar**". İbn Abbas رضي الله عنهما demişdir: "Yəni dünya həyatı azdır. Qoy orada istədikləri qədər gülsünlər. Dünya bitib Allaha döndükləri zaman isə ağlamağa başlayacaqlar və ağlamaqları heç vaxt kəsilməyəcək".[1] əl-Həsən və başqaları da belə demişlər.

﴿فَإِن رَّجَعَكَ ٱللَّهُ إِلَىٰ طَآئِفَةٍ مِّنْهُمْ فَٱسْتَـْٔذَنُوكَ لِلْخُرُوجِ فَقُل لَّن تَخْرُجُوا۟ مَعِىَ أَبَدًا وَلَن تُقَـٰتِلُوا۟ مَعِىَ عَدُوًّا ۖ إِنَّكُمْ رَضِيتُم بِٱلْقُعُودِ أَوَّلَ مَرَّةٍ فَٱقْعُدُوا۟ مَعَ ٱلْخَـٰلِفِينَ ٨٣﴾

**83. Əgər Allah səni onlardan bir zümrənin yanına qaytarsa və onlar döyüşə çıxmaq üçün səndən izin istəsələr, de: "Siz bir daha mənimlə döyüşə çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz birinci dəfə evdə oturmağa razı oldunuz. Elə isə arxada qalanlarla bərabər, siz də evdə oturun!"**

Uca Allah bu ayədə Öz Elçisinə ﷺ əmr edərək belə buyurur: "**Əgər Allah səni onlardan bir zümrənin yanına qaytarsa**", yəni bu döyüşdən sonra onlardan bir zümrənin yanına qaytarsa. Qatədənin رحمه الله dediyinə görə onlar on iki nəfərdən ibarət idilər. "**... və onlar döyüşə çıxmaq üçün səndən izin istəsələr**", yəni səninlə birlikdə başqa bir döyüşə çıxmaq üçün izin istəsələr, "**de: "Siz bir daha mənimlə döyüşə çıxmayacaq və mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız**", yəni cəza olaraq mənimlə heç bir zaman döyüşə çıxmayacaqsınız. Sonra Uca Allah bunun

[1] İbn Əbu Hatim, 10506.

səbəbini açıqlayaraq buyurur: "**Çünki siz birinci dəfə evdə oturmağa razı oldunuz**". Uca Allah başqa bir ayədə belə buyurur: "**Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi, tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik**" ("əl-Ənam", 110). Pisliyin cəzası ardından edilən başqa bir pislikdir. Eyni şəkildə yaxşılığın da mükafatı ardından edilən başqa bir yaxşılıqdır. Necə ki Uca Allah bir ayədə Hudeybiyyə ümrəsi barədə belə buyurur: "**Siz Xeybərə qənimətləri götürməyə getdiyiniz zaman Hudeybiyyə sülhündən geri qalanlar: "Qoyun biz də sizin arxanızca gələk!" – deyəcəklər. Onlar Allahın sözünü dəyişdirmək istəyirlər. De: "Siz heç vaxt bizim arxamızca gəlməyəcəksiniz. Allah əvvəldən sizin üçün belə demişdir". Onlar: "Xeyr, siz bizə həsəd aparırsınız" – deyəcəklər. Əksinə, onlar çox az anlayanlardır**" ("əl-Fəth", 15).

Uca Allah buyurur: "**Elə isə arxada qalanlarla bərabər, siz də evdə oturun!**" İbn Abbas رضي الله عنهما demişdir: "Yəni döyüşdən geri qalan kişilərlə birlikdə, siz də evdə oturun!"[1]

﴿وَلَا تُصَلِّ عَلَىٰٓ أَحَدٖ مِّنۡهُم مَّاتَ أَبَدٗا وَلَا تَقُمۡ عَلَىٰ قَبۡرِهِۦٓۖ إِنَّهُمۡ كَفَرُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ وَمَاتُواْ وَهُمۡ فَٰسِقُونَ ٨٤﴾

**84. Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər.**

Uca Allah bu ayədə Öz Elçisinə ﷺ münafiqlərdən uzaq olmağı, onlardan biri öldükdə ona cənazə namazı qılmamağı, dua edib bağışlanma diləmək üçün qəbrinin yanında dayanmamağı əmr edir. Çünki onlar Allahı və Onun Elçisini ﷺ inkar etmiş və bu inancla ölmüşlər. Ayənin nazilolma səbəbi münafiqlərin başçısı Abdullah ibn Ubey ibn Səlul olsa da, ayənin hökmü münafiqliyi bilinən hər kəs barədə ümumidir. əl-Buxari رحمه الله İbn Ömərin رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Abdullah ibn Ubey vəfat etdikdən sonra onun oğlu Abdullah ibn Abdullah Peyğəmbərin ﷺ yanına gəlib Peyğəmbərdən ﷺ atasına bürümək üçün köynəyini istədi. Peyğəmbər ﷺ köynəyini ona verdi. Sonra Peyğəmbərdən ﷺ atasına cənazə namazı qılmağı xahiş etdi. Peyğəmbər ﷺ ona namaz qılmaq istədikdə Ömər رضي الله عنه onun ətəyindən dartıb dedi: "Məgər Allah sənə onun cənazə namazını qılmağı qadağan etməyibmi?" Peyğəmbər ﷺ dedi: "Allah məni onların cənazə namazını qılmaqda ixtiyar sahibi edərək buyurmuşdur: "**Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş**

[1] ət-Tabəri, 17049, 17131.

**dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır**" ("ət-Tovbə", 80). Mən isə yetmiş dəfədən artıq bağışlanma diləyəcəyəm". Ömər ﷺ dedi: "Həqiqətən, o, münafiqdir". Peyğəmbər ﷺ onun cənazə namazını qıldı. Uca Allah da bu ayəni nazil etdi: "**Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər**". Hədisi Muslim ﷺ də belə rəvayət etmişdir.[1] Hədisi əl-Buxari ﷺ Ubeydullah ibn Ömər əl-Öməridən rəvayət etmiş və belə demişdir: "Peyğəmbər ﷺ onun cənazə namazını qıldı, onunla birlikdə biz də qıldıq. Uca Allah da "**Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma...**" ayəsini nazil etdi".[2] Hədisi bu şəkildə İmam Əhməd ﷺ də rəvayət etmişdir.[3]

Oxşar hədis Ömər ibn əl-Xattabdan ﷺ da rəvayət edilmişdir. İmam Əhməd ﷺ İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, Ömər ibn əl-Xattab ﷺ demişdir: "Abdullah ibn Ubey öldükdə Peyğəmbər ﷺ onun cənazə namazına çağırıldı. Peyğəmbər ﷺ onun cənazə namazını qılmaq üçün qalxdı. Namazını qılmaq üçün cənazənin baş tərəfinə keçdikdə mən çevrilib Peyğəmbərin ﷺ qarşısında dayandım və dedim: "Ey Allahın Elçisi, filan-filan günlərdə belə-belə deyən Allahın düşməni Abdullah ibn Ubeyin cənazə namazınımı qılacaqsan?" Peyğəmbər ﷺ gülümsədi. Mən bunu dəfələrlə təkrar etdikdə dedi: "Geri çəkil, ey Ömər, mənə seçim etmək haqqı verildi və mən onun cənazə namazını qılmağı seçdim. Mənə: "**Onların bağışlanması üçün dua etsən də, etməsən də, hətta onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır**" ("ət-Tovbə", 80)" – buyuruldu. Əgər yetmiş dəfədən artıq bağışlanma dilədiyim təqdirdə onun bağışlanacağını bilsəm, mütləq bağışlanma diləməyi artıraram". Sonra Peyğəmbər ﷺ onun cənazə namazını qıldı, onun cənazəsini müşaiyət etdi və dəfn işi bitənə qədər qəbrinin başında dayandı". Allah və Onun Elçisi ﷺ daha yaxşı bildiyi halda Peyğəmbərə ﷺ qarşı olan bu cürətimə təəccüblənirəm. Allaha and olsun ki, çox keçmədən bu iki ayə nazil oldu: "**Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər**". Bundan sonra Peyğəmbər ﷺ ömrünün sonuna qədər heç bir münafiqin cənazə namazını qılmadı və heç birinin qəbrinin başında dayanmadı". Hədisi bu şəkildə ət-Tirmizi ﷺ də rəvayət etmiş və "həsən-səhih" olduğunu bildirmişdir.[4] Eyni hədisi əl-Buxari də rəvayət etmişdir. Bu hədisin mətni belədir: "Peyğəmbər ﷺ dedi: "Ey Ömər, geri çəkil!" Mən israr etdikdə Peyğəmbər ﷺ dedi: "Mənə

[1] əl-Buxari, 4302, 4670; Muslim, 2774/3.
[2] əl-Buxari, 4304, 4672.
[3] Əhməd, 4680. Əhməd Şakir və Şueyb əl-Arnavut isnadının səhih olduğunu bildirmişlər.
[4] Əhməd, 95; ət-Tirmizi, 3097, 3380. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1131.

onların cənazə namazını qılıb-qılmamaqda seçim etmək ixtiyarı verildi və mən onlara namaz qılmağı seçdim. Əgər yetmiş dəfədən artıq bağışlanma dilədiyim təqdirdə onların bağışlanacağını bilsəm, mütləq yetmiş dəfədən çox bağışlanma diləyərdim". Peyğəmbər ﷺ onun cənazə namazını qılıb oradan ayrıldı. Çox keçməmişdi ki, "Bəraət" ("ət-Tövbə") surəsindən bu iki ayə nazil oldu: "**Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər**". Allah Elçisi daha yaxşı bildiyi halda ona etiraz etmək cürətimə sonralar çox təəccüblənirdim".[1]

əl-Buxari Cabir ibn Abdullahdan rəvayət etmişdir ki, Abdullah ibn Ubey dəfn edildikdən sonra Peyğəmbər ﷺ gəlib onun qəbirdən çıxarılmasını əmr etdi, onu dizlərinin üzərinə qoydu, üstünə yüngülcə tüpürdü və öz köynəyini ona geyindirdi".[2] Ən doğrusunu Allah bilir. Hədisi əl-Buxari bir çox yerdə rəvayət etmişdir. Həmçinin Muslim və ən-Nəsəi də rəvayət etmişlər.[3]

Bəzi sələf alimləri qeyd etmişlər ki, Peyğəmbərin ﷺ öz köynəyini ona geyindirməsinin səbəbi budur ki, Abbas Mədinəyə gəldikdə ona bir köynək axtarılmış, iri və uzunboylu olduğu üçün Abdullah ibn Ubeydən başqa heç kimin paltarı ona uyğun gəlməmiş və Abdullah ibn Ubey paltarını ona vermişdi. Peyğəmbər ﷺ bunu ona əvvəl etdiyi yaxşılığın əvəzinə bir qarşılıq olaraq mükafat kimi etmişdir. Ən doğrusunu Allah bilir. Odur ki, bu ayə nazil olduqdan sonra Peyğəmbər ﷺ heç bir münafiqin cənazə namazını qılmamış, qəbrinin başında dayanmamışdır. Necə ki İmam Əhməd Abdullah ibn Əbu Qatədədən, o da atasından belə rəvayət etmişdir: "Peyğəmbər ﷺ bir cənazə üçün çağırıldıqda onun barəsində soruşardı. Əgər xeyirlə yad edilərdisə, qalxıb onun cənazə namazını qılar, başqa şəkildə yad edilərdisə, cənazə sahiblərinə: "Onu siz götürün" – deyib cənazə namazını qılmazdı".[4]

Ömər ibn əl-Xattab (öz xilafəti dövründə) halı bilinməyən cənazənin namazını Huzeyfə ibn əl-Yəmən qılmayana qədər qılmazdı. Çünki o, münafiqlərin adlarını bilirdi. Peyğəmbər ﷺ bunu ona xəbər vermişdi. Bu səbəbdən ona "Sirr sahibi" deyilərdi, çünki başqa səhabələrin bilmədiyi bir şeyi o bilirdi.

---

[1] əl-Buxari, 4303, 4671.

[2] əl-Buxari, 5349, 5795.

[3] Muslim, 2773, 4977, 7201; ən-Nəsəi "Sunən əl-Kubra", 4/37-38.

[4] Əhməd, 22555, 22608, 22922; əl-Heysəmi "əz-Zəvaid" əsərində demişdir: "Hədisin raviləri "Səhih" əsərinin hədislərini rəvayət edənlərdir". Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 3517.

Uca Allah münafiqlərə cənazə namazı qılmağı, onlara bağışlanma diləmək üçün qəbirlərinin başında dayanmağı qadağan etmişdir, buna görə də bu əməllər (cənazə namazı qılmaq və ölən üçün Allahdan bağışlanma diləmək) möminləri Allaha ən çox yaxınlaşdıran əməllərdən hesab olunur. Bu səbəbdən Uca Allah bunu buyurmuş və bu əmələ görə böyük savab vermişdir. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim bir cənazənin yanında namazı qılınana qədər olarsa, ona bir qirat, dəfn edilənə qədər olarsa, iki qirat savab yazılar". Səhabələr soruşdular: "İki qirat nədir?" Peyğəmbər ﷺ buyurdu: "Ən kiçiyi Uhud dağı boydadır".[1]

Möminin qəbri başında dayanmağa gəlincə, Əbu Davud رحمه الله Osmandan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bir cənazə dəfn edildikdən sonra onun qəbrinin başında dayanar və: "Qardaşınız üçün Allahdan bağışlanma diləyin və dua edin ki, onu (qəbir sorğu-sualında) sabitqədəm etsin, çünki bu an o, sorğu-sual edilir" – buyurardı. Hədisi yalnız Əbu Davud رحمه الله rəvayət etmişdir.[2]

﴿وَلَا تُعۡجِبۡكَ أَمۡوَٰلُهُمۡ وَأَوۡلَٰدُهُمۡۚ إِنَّمَا يُرِيدُ ٱللَّهُ أَن يُعَذِّبَهُم بِهَا فِي ٱلدُّنۡيَا وَتَزۡهَقَ أَنفُسُهُمۡ وَهُمۡ كَٰفِرُونَ ٨٥﴾

**85. Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir.**

Oxşar ayənin təfsiri daha əvvəl keçmişdir.[3] Həmd, yalnız Allaha məxsusdur!

﴿وَإِذَآ أُنزِلَتۡ سُورَةٌ أَنۡ ءَامِنُواْ بِٱللَّهِ وَجَٰهِدُواْ مَعَ رَسُولِهِ ٱسۡتَـٔۡذَنَكَ أُوْلُواْ ٱلطَّوۡلِ مِنۡهُمۡ وَقَالُواْ ذَرۡنَا نَكُن مَّعَ ٱلۡقَٰعِدِينَ ٨٦ رَضُواْ بِأَن يَكُونُواْ مَعَ ٱلۡخَوَالِفِ وَطُبِعَ عَلَىٰ قُلُوبِهِمۡ فَهُمۡ لَا يَفۡقَهُونَ ٨٧﴾

**86. "Allaha iman gətirin və Onun Elçisi ilə birlikdə cihad edin!" – deyə bir surə nazil edildikdə onların var-dövlətə malik olanları səndən icazə istəyib dedilər: "Bizi burax, evdə oturanlarla birlikdə qalaq!"**

**87. Onlar arxada qalanlarla birgə olmağa razılaşdılar. Onların qəlblərinə möhür vuruldu. Buna görə də onlar haqqı anlamayacaqlar.**

---

[1] əl-Buxari, 1240, 1325; Muslim, 1571, 2235.

[2] Əbu Davud, 3221. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 3511.

[3] Bu surənin 55-ci ayəsində Uca Allah buyurur: "Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla dünya həyatında onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir" ("ət-Tövbə", 55).

Uca Allah bu ayələrdə gücləri çatdıqları və zəngin olduqları halda, döyüşdən yayınanları, Peyğəmbərdən ﷺ izin istəyib: “**Bizi burax, evdə oturanlarla birlikdə qalaq!**” – deyərək ordu döyüşə çıxdıqdan sonra geridə qalan qadınlarla birlikdə evdə qalmağı özlərinə rəva görənləri qınayır. Onlar döyüşdə iştirak etdikdə ən qorxaq, əmin-amanlıqda isə ən çox danışan insanlardır. Uca Allah başqa bir ayədə onlar barədə belə buyurur: “**Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görürsən. Qorxu keçib getdikdə isə qənimətdə xəsislik edib acı dilləri ilə səni sancırlar**” (“əl-Əhzab”, 19), yəni əmin-amanlıq gəldikdə iti və acı sözlərlə dilləri çıxan, döyüşdə isə ən qorxaq insanlardır. Uca Allah başqa bir ayədə belə buyurur: “**Möminlər: “Kaş cihada dair bir surə nazil olaydı!” – deyirlər. Hökmü bəlli bir surə nazil olub orada döyüş yada salınan kimi qəlbində xəstəlik olanların sənə ölüm ayağında bayılan kimsənin baxışı ilə baxdıqlarını görərsən. Onlar üçün daha yaxşı olardı ki, itaət etsinlər və xoş söz söyləsinlər. Cihada qəti əmr verildiyi zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı**” (“Muhəmməd”, 20-21).

Uca Allah buyurur: “**Onların qəlblərinə möhür vuruldu**”, yəni cihaddan və Allah Elçisi ﷺ ilə birlikdə Allah yolunda döyüşə çıxmaqdan boyun qaçırdıqlarına görə qəlblərinə möhür vurulmuşdur. “**Buna görə də onlar haqqı anlamayacaqlar**”, yəni özləri üçün faydalı olanı anlamazlar ki, onu etsinlər, özləri üçün zərərli olan şeyləri bilməzlər ki, ondan çəkinsinlər.

﴿لَٰكِنِ ٱلرَّسُولُ وَٱلَّذِينَ ءَامَنُواْ مَعَهُۥ جَٰهَدُواْ بِأَمۡوَٰلِهِمۡ وَأَنفُسِهِمۡۚ وَأُوْلَٰٓئِكَ لَهُمُ ٱلۡخَيۡرَٰتُۖ وَأُوْلَٰٓئِكَ
هُمُ ٱلۡمُفۡلِحُونَ ﴿٨٨﴾ أَعَدَّ ٱللَّهُ لَهُمۡ جَنَّٰتٖ تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُ خَٰلِدِينَ فِيهَاۚ ذَٰلِكَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ ﴿٨٩﴾﴾

**88. Lakin Allahın Elçisi və onunla birgə iman gətirənlər malları və canları ilə cihad etdilər. Onlar üçün nemətlər hazırlanmışdır. Məhz onlar uğur qazananlardır.**

**89. Allah onlar üçün altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur.**

Uca Allah əvvəlki ayələrdə münafiqləri qeyd etdikdən sonra bu ayələrdə möminləri tərifləyir və onların Axirətdə nələrə sahib olacağını, hallarını və aqibətlərini bildirərək: “**Lakin Allahın Elçisi və onunla birgə iman gətirənlər malları və canları ilə cihad etdilər. Onlar üçün nemətlər hazırlanmışdır. Məhz onlar uğur qazananlardır**” – deyə buyurur. “**Onlar üçün nemətlər hazırlanmışdır**”, yəni Axirət yurdunda, Firdovs cənnətlərində və ən yüksək dərəcələrdə nemətlər hazırlanmışdır.

﴿وَجَآءَ ٱلۡمُعَذِّرُونَ مِنَ ٱلۡأَعۡرَابِ لِيُؤۡذَنَ لَهُمۡ وَقَعَدَ ٱلَّذِينَ كَذَبُواْ ٱللَّهَ وَرَسُولَهُۥۚ سَيُصِيبُ ٱلَّذِينَ كَفَرُواْ مِنۡهُمۡ عَذَابٌ أَلِيمٞ ٩٠﴾

**90. Bədəvilərdən üzrlü olduqlarını iddia edənlər evdə qalmaq üçün onlara icazə verilsin deyə gəldilər. Allaha və Onun Elçisinə yalan danışanlar isə evdə oturdular. Onlardan kafir olanlara ağrılı-acılı bir əzab üz verəcəkdir.**

Sonra Uca Allah Peyğəmbərin ﷺ yanına gəlib üzrlü olduqlarını iddia edərək, cihadı tərk edənlərin, zəif olduqları üçün döyüşə çıxa bilməyəcəklərini bildirənlərin hallarını bəyan edir. Bunlar Mədinə ətrafında yaşayan ərəb qəbilələrindən idi.

Rəvayət olunur ki, İbn Abbas رضي الله عنهما ayədə keçən الْمُعَذِّرُونَ [əl-muazzirunə] “**üzrlü olduqlarını iddia edənlər**” sözünü الْمُعْذِرُونَ [əl-muazərunə] “üzrlü olanlar” şəklində oxumuş və: “Onlar üzrlü olanlardır” – demişdir.[1] Ayənin zahiri mənasına görə aydın olan görüş də budur.[2] Çünki Uca Allah bundan sonra: “**Allaha və Onun Elçisinə yalan danışanlar isə evdə oturdular**” – buyurur. Yəni onlar gəlib üzrlərini bəyan etmədilər. Mucahid və başqaları Uca Allahın “**Bədəvilərdən üzrlü olduqlarını iddia edənlər evdə qalmaq üçün onlara icazə verilsin deyə gəldilər**” ayəsi barədə belə demişlər: “Bunlar Bənu Ğifar qəbiləsindən olan bir qrup insandır. Onlar gəlib üzrlərini bəyan etdilər, lakin Uca Allah onların üzrlərini qəbul etmədi”. Ən doğrusunu Allah bilir, amma birinci rəy daha qüvvətlidir. Çünki Uca Allah bundan sonra “**Allaha və Onun Elçisinə yalan danışanlar isə evdə oturdular**” buyurur. Yəni bədəvilərdən digərləri isə üzrlərini bəyan etmək üçün gəlməmişlər. Sonra Uca Allah onları ağrılı-acılı əzabla təhdid edərək: “**Onlardan kafir olanlara ağrılı-acılı bir əzab üz verəcəkdir**” – deyə buyurur.



---

[1] ət-Təbəri, 17073, 17155.

[2] İbn Abbasın رضي الله عنهما təfsirinə görə ayənin mənası belə olacaq: “Bədəvilərdən üzrlü olanlar evdə qalmaq üçün onlara icazə verilsin deyə gəldilər. Allaha və Onun Elçisinə yalan danışanlar isə evdə oturdular. Onlardan kafir olanlara ağrılı-acılı bir əzab üz verəcəkdir”.

﴿لَّيۡسَ عَلَى ٱلضُّعَفَآءِ وَلَا عَلَى ٱلۡمَرۡضَىٰ وَلَا عَلَى ٱلَّذِينَ لَا يَجِدُونَ مَا يُنفِقُونَ حَرَجٌ إِذَا نَصَحُواْ لِلَّهِ وَرَسُولِهِۦۚ
مَا عَلَى ٱلۡمُحۡسِنِينَ مِن سَبِيلٖۚ وَٱللَّهُ غَفُورٞ رَّحِيمٞ ٩١ وَلَا عَلَى ٱلَّذِينَ إِذَا مَآ أَتَوۡكَ لِتَحۡمِلَهُمۡ قُلۡتَ
لَآ أَجِدُ مَآ أَحۡمِلُكُمۡ عَلَيۡهِ تَوَلَّواْ وَّأَعۡيُنُهُمۡ تَفِيضُ مِنَ ٱلدَّمۡعِ حَزَنًا أَلَّا يَجِدُواْ مَا يُنفِقُونَ ٩٢ ۞ إِنَّمَا
ٱلسَّبِيلُ عَلَى ٱلَّذِينَ يَسۡتَـٔۡذِنُونَكَ وَهُمۡ أَغۡنِيَآءُۚ رَضُواْ بِأَن يَكُونُواْ مَعَ ٱلۡخَوَالِفِ وَطَبَعَ ٱللَّهُ عَلَىٰ قُلُوبِهِمۡ
فَهُمۡ لَا يَعۡلَمُونَ ٩٣﴾

**91. Allaha və Onun Elçisinə qarşı səmimi olacaqları təqdirdə acizlərə, xəstələrə və döyüşdə vuruşmağa vəsait tapa bilməyənlərə evdə qalmaqda heç bir günah yoxdur. Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur. Allah Bağışlayandır, Rəhmlidir.**

**92. Miniklə təmin edəsən deyə sənin yanına gəldikdə: "Sizin üçün minik tapa bilmirəm" – dediyin zaman cihad üçün xərcləməyə bir şey tapa bilmədiklərindən ötrü kədərlənib gözləri dolmuş halda geri dönənlərin də heç bir günahı yoxdur.**

**93. Yalnız varlı olduqları halda, evdə qalmaq üçün səndən icazə almağa gələnlər danlanmalıdırlar. Onlar arxada qalanlarla birgə daldalanmağa razılaşdılar. Allah onların qəlbini möhürləmişdir. Məhz bu səbəbdən onlar özlərinin aqibətini bilməzlər.**

Uca Allah bu ayələrdə döyüşdə iştirak etməyib evdə qaldıqları üçün günah qazanmayan üzr sahiblərini bəyan edir. Əvvəlcə, Uca Allah insanda daimi olan və heç vaxt aradan qalxmayan üzrləri zikr edir. Bu üzrlər korluq, topallıq və buna bənzər xilqəti naqislikdir ki, bu üzr sahibləri cihadda mübarizə aparmağa qadir deyillər. Bu səbəbdən Uca Allah əvvəlcə bu üzrləri qeyd edir. Ardınca xəstəlik kimi insanın sonradan düçar olduğu üzrlər zikr edilir ki, bunlar da insanın Allah yolunda cihada çıxmasına mane olur. Habelə, kasıblıq səbəbindən döyüşə hazırlaşmağa gücü yetməmək də bu növ üzrə aiddir. Bu növ üzr sahibləri səmimi olacaqları, insanların sözlərinə görə əhvallarını pozmayacaqları, onları döyüşdən və Allah yolunda cihaddan yayındırmayacaqları təqdirdə günah qazanmazlar. Onlar bu hallarında belə yaxşılıq etmiş sayılırlar. Bu səbəbdən Uca Allah ayənin sonunda: "**Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur. Allah Bağışlayandır, Rəhmlidir**" – deyə buyurur.

əl-Əvzai ﷺ demişdir: "İnsanlar yağış diləmək üçün (namaz qılınan yerə) çıxmışdılar. Bilal ibn Sad qalxıb Allaha həmd-səna etdi, sonra: "Ey insanlar, günah etdiyinizi etiraf edirsinizmi?" – deyə soruşdu. Onlar: "Bəli" – deyə cavab verdilər. Bilal dedi: "Allahım, biz Sənin "**Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur**" buyurduğunu eşidirik. Allahım, günahımızı etiraf edirik. Bizi bağışla, bizə mərhəmət göstər və bizə yağış göndər" – deyib əllərini qaldırdı. İnsanlar da əllərini qaldırdılar və yağış yağdı".[1]

İbn Abbas ﷺ bu ayə barədə belə demişdir: "Peyğəmbər ﷺ insanlara onunla birlikdə döyüşə çıxmağı əmr etmişdi. Aralarında Abdullah ibn Muğaffəl əl-Muzəninin də olduğu bir qrup səhabə onun yanına gəlib: "Ey Allahın Elçisi, bizi miniklə təmin et!" – dedi. Peyğəmbər ﷺ onlara: "Allaha and olsun ki, sizin üçün minik tapa bilmirəm" – dedi. Onlar ağlaya-ağlaya geri döndülər. Cihad üçün xərcləməyə mal və minik tapa bilmədikləri üçün geri qalıb evdə oturmaq onlara ağır gəlirdi. Uca Allah onların Allaha və Onun Elçisinə ﷺ qarşı olan güclü sevgilərini gördükdə Öz Kitabında onların üzrlü olduqlarına dair "**Allaha və Onun Elçisinə qarşı səmimi olacaqları təqdirdə acizlərə, xəstələrə və döyüşdə vuruşmağa vəsait tapa bilməyənlərə evdə qalmaqda heç bir günah yoxdur... Məhz bu səbəbdən onlar özlərinin aqibətini bilməzlər**" ayələrini nazil etdi".[2]

Muhəmməd ibn İshaq ﷺ Təbuk döyüşü barədə danışarkən belə demişdir: "Sonra bəzi müsəlmanlar ağlaya-ağlaya Peyğəmbərin ﷺ yanına gəldilər. Onlar ənsar və digər qəbilələrdən olmaqla yeddi nəfər idilər; Amr ibn Auf qəbiləsindən Səlim ibn Umeyr, Bənu Hərisə qəbiləsindən Aliyə ibn Zeyd, Məzin ibn Nəccar qəbiləsindən Əbu Leyla Abdur-Rahmən ibn Kəb, Bənu Səlimə qəbiləsindən Amr ibn Həmmam ibn Cəmuh, Abdullah ibn Muğəffəl əl-Muzəni, Bənu Vaqif qəbiləsindən Hərami ibn Abdullah və İrbad ibn Səriyə əl-Fəzari. Onlar kasıb idilər və Allah Elçisindən ﷺ onlara minik verməsini istəmişdilər, o da: "Sizə bir minik tapa bilmirəm" – dedikdə xərcləyəcək bir şey tapmadıqlarına görə kədərdən gözləri yaşararaq geri qayıtmışdılar".[3]

İbn Əbu Hatim ﷺ əl-Həsəndən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən sonra Mədinədə qalan elə insanlar var ki, onlar xərclədiyiniz hər bir mala, keçdiyiniz hər bir vadiyə, düşmənə qarşı əldə etdiyiniz hər bir zəfərə görə qazandığınız savabda sizə ortaqdırlar". Sonra

[1] İbn Əbu Hatim, 6/1862.
[2] ət-Təbəri, 17079, 17161. Ali Nasr çox zəif olduğunu bildirmişdir.
[3] əl-Bəğavi "Mucəmus-Səhabə" 3/57; əl-Beyhəqi "Dəlailun-Nubuvvə" 5/218.

Peyğəmbər ﷺ bu ayəni oxudu: “**Miniklə təmin edəsən deyə sənin yanına gəldikdə: “Sizin üçün minik tapa bilmirəm” – dediyin zaman cihad üçün xərcləməyə bir şey tapa bilmədiklərindən ötrü kədərlənib gözləri dolmuş halda geri dönənlərin də heç bir günahı yoxdur**”.[1] Bu hədisin əsli əl-Buxari və Muslimin “Səhih” əsərlərində Peyğəmbərdən ﷺ bu şəkildə rəvayət olunur: “Bizdən sonra Mədinədə qalan elə insanlar var ki, onlar keçdiyiniz hər bir vadidə, qət etdiyiniz hər bir yolda sizinlədir”. Səhabələr soruşdular: “Onlar Mədinədə qala-qala bizimlədirlər?” Peyğəmbər ﷺ dedi: “Bəli. Onları üzr saxlamışdır (üzrlü səbəbə görə döyüşdən qalmışlar)”.[2] İmam Əhməd رحمه الله Cabirdən رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Həqiqətən, sizdən sonra Mədinədə elə kişilər qalıb ki, keçdiyiniz hər bir vadinin, qət etdiyiniz hər bir yolun savabında onlar sizə şərikdirlər. Onları döyüşdən xəstəlik saxlamışdır”. Hədisi Muslim və İbn Məcə رحمه الله də rəvayət etmişlər.[3]

Sonra Uca Allah zəngin olduqları halda, evdə qalmaq üçün izin istəyənləri qınayaraq, səfərə çıxarkən geridə qalan qadınlarla birlikdə qalmağa razı olduqlarına görə məzəmmət edərək: “**Allah onların qəlbini möhürləmişdir. Məhz bu səbəbdən onlar özlərinin aqibətini bilməzlər**” – deyə buyurur.

﴿يَعۡتَذِرُونَ إِلَيۡكُمۡ إِذَا رَجَعۡتُمۡ إِلَيۡهِمۡۚ قُل لَّا تَعۡتَذِرُواْ لَن نُّؤۡمِنَ لَكُمۡ قَدۡ نَبَّأَنَا ٱللَّهُ مِنۡ أَخۡبَارِكُمۡۚ
وَسَيَرَى ٱللَّهُ عَمَلَكُمۡ وَرَسُولُهُۥ ثُمَّ تُرَدُّونَ إِلَىٰ عَٰلِمِ ٱلۡغَيۡبِ وَٱلشَّهَٰدَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمۡ تَعۡمَلُونَ ﴿٩٤﴾
سَيَحۡلِفُونَ بِٱللَّهِ لَكُمۡ إِذَا ٱنقَلَبۡتُمۡ إِلَيۡهِمۡ لِتُعۡرِضُواْ عَنۡهُمۡۖ فَأَعۡرِضُواْ عَنۡهُمۡۖ إِنَّهُمۡ رِجۡسٞۖ وَمَأۡوَىٰهُمۡ
جَهَنَّمُ جَزَآءَۢ بِمَا كَانُواْ يَكۡسِبُونَ ﴿٩٥﴾ يَحۡلِفُونَ لَكُمۡ لِتَرۡضَوۡاْ عَنۡهُمۡۖ فَإِن تَرۡضَوۡاْ عَنۡهُمۡ فَإِنَّ ٱللَّهَ
لَا يَرۡضَىٰ عَنِ ٱلۡقَوۡمِ ٱلۡفَٰسِقِينَ ﴿٩٦﴾﴾

**94. Döyüşdən qayıtdığınız zaman sizdən üzr diləyəcəklər. De: “Üzr diləməyin. Sizə əsla inanmayacağıq. Allah sizin işlərinizdən bizi agah etmişdir. Sonrakı əməllərinizi Allah da görəcək, Onun Elçisi də”. Sonra isə qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir.**

---

[1] İbn Əbu Hatim, 6/1863.
[2] əl-Buxari, 2637, 2839; Muslim, 1911/159.
[3] Əhməd, 14208, 14246, 14257; Muslim, 1911/159; İbn Məcə, 2765.

**95. Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları günahların cəzası olaraq gedəcəkləri yer Cəhənnəm olacaqdır.**

**96. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq qövmdən razı qalmaz.**

Uca Allah bildirir ki, möminlər (döyüşdən) Mədinəyə qayıtdıqda münafiqlər onlardan üzr istəyəcəklər. "**De: "Üzr diləməyin. Sizə əsla inanmayacağıq**", yəni dediklərinizi əsla təsdiqləməyəcəyik. "**Allah sizin işlərinizdən bizi agah etmişdir**", yəni Allah əhvalınızdan bizi xəbərdar etmişdir. "**Sonrakı əməllərinizi Allah da görəcək, Onun Elçisi də**", yəni Allah əməllərinizi dünyada insanlara bildirəcək. "**Sonra isə qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir**", yəni xeyir və şər əməllərinizi sizə bildirəcək və bunun qarşılığını sizə verəcəkdir.

Sonra Uca Allah bildirir ki, siz onları danlamayıb əl çəkəsiniz deyə onlar sizdən üzr istəyərək Allaha and içəcəklər. "**Siz onlardan üz döndərin**", yəni onları alçaltmaq üçün onlardan üz çevirin. "**Çünki onlar murdardırlar**", yəni həm zahirləri, həm də etiqadları murdardır. "**Qazandıqları günahların cəzası olaraq gedəcəkləri yer Cəhənnəm olacaqdır**", yəni etdikləri günahların qarşılığı olaraq Axirətdə düşəcəkləri yer Cəhənnəm olacaqdır. Uca Allah bildirir ki, and içdiklərinə görə möminlər onlardan razı qalsalar da, "**Allah fasiq qövmdən razı qalmaz**", yəni Onun və Elçisinin ﷺ itaətindən çıxanlardan razı qalmaz.

﴿ٱلۡأَعۡرَابُ أَشَدُّ كُفۡرٗا وَنِفَاقٗا وَأَجۡدَرُ أَلَّا يَعۡلَمُواْ حُدُودَ مَآ أَنزَلَ ٱللَّهُ عَلَىٰ رَسُولِهِۦۗ وَٱللَّهُ عَلِيمٌ حَكِيمٞ ٩٧
وَمِنَ ٱلۡأَعۡرَابِ مَن يَتَّخِذُ مَا يُنفِقُ مَغۡرَمٗا وَيَتَرَبَّصُ بِكُمُ ٱلدَّوَآئِرَۚ عَلَيۡهِمۡ دَآئِرَةُ ٱلسَّوۡءِۗ وَٱللَّهُ سَمِيعٌ
عَلِيمٞ ٩٨ وَمِنَ ٱلۡأَعۡرَابِ مَن يُؤۡمِنُ بِٱللَّهِ وَٱلۡيَوۡمِ ٱلۡأٓخِرِ وَيَتَّخِذُ مَا يُنفِقُ قُرُبَٰتٍ عِندَ ٱللَّهِ وَصَلَوَٰتِ ٱلرَّسُولِۚ
أَلَآ إِنَّهَا قُرۡبَةٞ لَّهُمۡۚ سَيُدۡخِلُهُمُ ٱللَّهُ فِي رَحۡمَتِهِۦٓۚ إِنَّ ٱللَّهَ غَفُورٞ رَّحِيمٞ ٩٩﴾

**97. Bədəvilər kafirlik və münafiqlik baxımından daha betər olub, Allahın Öz Elçisinə nazil etdiyi qanunları bilməməyə daha meyillidirlər. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

**98. Bədəvilərdən eləsi də var ki, Allah yolunda xərclədiyini itki sayır və sizə bir bədbəxtlik üz verməsini gözləyir. Bədbəxtlik onların öz başlarına gələcək. Allah hər şeyi eşidəndir, biləndir.**

**99. Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah yanında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də, bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.**

Uca Allah bu ayələrdə bədəvi ərəblər arasında həm kafirlərin, həm münafiqlərin, həm də möminlərin olduğunu xəbər verir. Onların küfr və nifaqları digərlərindən daha böyük və daha şiddətlidir. Yəni cahillikləri üzündən Allahın Öz Elçisinə ﷺ nazil etdiyi hökmləri başa düşməməyə daha layiqdirlər. əl-Aməş İbrahimin belə dediyini rəvayət etmişdir: "Bir dəfə Zeyd ibn Savhan yoldaşları ilə söhbət edərkən bir bədəvi ərəb gəlib onun yanında oturdu. Zeydin əli Nəhavənd[1] döyüşündə yaralanmışdı. Bədəvi ərəb: "Allaha and olsun ki, sənin sözün xoşuma gəlir, amma əlin məni şübhələndirir". Zeyd dedi: "Əlimdə səni şübhələndirən nədir?" Yaralı olan sol əli idi. Bədəvi ərəb dedi: "Allaha and olsun ki, bilmirəm, sağ əli kəsirlər, yoxsa sol əli?" Zeyd ibn Savhan belə dedi: "Allah doğru buyurur: "**Bədəvilər kafirlik və münafiqlik baxımından daha betər olub, Allahın Öz Elçisinə nazil etdiyi qanunları bilməməyə daha meyillidirlər**".[2]

Bədəvilər sərt və kobud xislətli olduğu üçün Uca Allah Peyğəmbəri ﷺ onlardan etməmişdir. Uca Allahın Peyğəmbəri ﷺ şəhər əhalisindən (Məkkədən) çıxmışdır. Necə ki Uca Allah: "**Biz səndən əvvəl də şəhər əhlindən yalnız özlərinə vəhy etdiyimiz kişilərdən elçi göndərdik**" ("Yusuf", 109) – deyə buyurmuşdur. Muslim رحمه الله Aişədən رضي الله عنها rəvayət etmişdir ki, bir dəfə bədəvi ərəblərdən bir qrup Peyğəmbərin ﷺ yanına gəlib soruşdular: "Siz uşaqlarınızı öpürsünüzmü?" Səhabələr: "Bəli" – deyə cavab verdilər. Bədəvilər: "Lakin biz, Allaha and olsun ki, övladlarımızı öpmərik", – dedilər. Peyğəmbər ﷺ: "Allah sizdən mərhəməti götürmüşsə, mən sizə nə edə bilərəm?" – dedi.[3]

[1] Nəhavənd döyüşü Ömər ibn əl-Xattabın رضي الله عنه xəlifəliyi dövründə müsəlmanlarla Sasani Fars imperiyası arasında hicri təqvimlə 21-ci ildə (miladi təqvimlə 642-ci ildə) Nəhavənd şəhəri yaxınlığında baş vermişdir. Müsəlman ordusuna Numan ibn Muqrin rəhbərlik edirdi. Bu döyüşdə müsəlmanlar qələbə çaldılar və İranda Sasanilərin 400 ildən artıq sürən hakimiyyətinə son qoydular.

[2] ət-Təbəri, 17093, 17175.

[3] Muslim, 2317/64, 4281, 6169.

Uca Allah buyurur: "**Allah hər şeyi biləndir**", yəni kimin iman və elm öyrənməyə layiq olduğunu ən yaxşı biləndir, "**hikmət sahibidir**", yəni elmi, cəhaləti, imanı, küfrü və nifaqı qulları arasında bölməkdə hikmət sahibidir. Elm və hikmət sahibi olduğu üçün etdiyi əməllərə görə əsla sorğu-sual olunmaz.

Uca Allah növbəti ayədə yenə bədəvilərdən bəhs edərək belə buyurur: "**Bədəvilərdən eləsi də var ki, Allah yolunda xərclədiyini itki sayır**", yəni ziyan sayır "**və sizə bir bədbəxtlik üz verməsini gözləyir**", yəni başınıza bəla və müsibətlərin gəlməsini gözləyir. "**Bədbəxtlik onların öz başlarına gələcək**", yəni əksinə, bəla və müsibətlər onların öz başlarına gələcək. "**Allah hər şeyi eşidəndir, biləndir**", yəni Allah qullarının dualarını ən yaxşı eşidəndir və kimin qələbəyə, kimin isə məğlubiyyətə layiq olduğunu ən yaxşı biləndir.

Uca Allahın "**Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah yanında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır**" ayəsində zikr edilən bədəvilər onların tariflənən qismidir. Onlar Allah yolunda xərclədiklərini Allaha yaxınlaşmaq üçün bir vasitə edərlər və bununla Allah Elçisinin ﷺ onlar üçün dua etməsini istəyərlər. "**Həqiqətən də, bu, onlar üçün yaxınlaşmağa bir vasitədir**", yəni onlar buna nail olacaqlar. "**Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir**".

﴿وَٱلسَّٰبِقُونَ ٱلْأَوَّلُونَ مِنَ ٱلْمُهَٰجِرِينَ وَٱلْأَنصَارِ وَٱلَّذِينَ ٱتَّبَعُوهُم بِإِحْسَٰنٍ رَّضِىَ ٱللَّهُ عَنْهُمْ وَرَضُوا۟ عَنْهُ
وَأَعَدَّ لَهُمْ جَنَّٰتٍ تَجْرِى تَحْتَهَا ٱلْأَنْهَٰرُ خَٰلِدِينَ فِيهَآ أَبَدًا ۚ ذَٰلِكَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ ﴿١٠٠﴾﴾

**100. Dində hamını ötüb-keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur.**

Uca Allah bu ayədə İslamı ilk qəbul edərək bu işdə başqalarını qabaqlayan mühacir və ənsardan, habelə yaxşı işlər görməkdə onların ardınca gedən kəslərdən razı olduğunu, onlar üçün Nəim cənnətləri və əbədi nemətlər hazırladığına görə onların da Allahdan razı olduğunu xəbər verir. əş-Şabi ﵀ demişdir: "Dində hamını ötüb keçən ilk mühacir və

ənsar Hudeybiyyə sülhü bağlanan il Ridvan Beyətində iştirak edənlərdir”.[1] Əbu Musa əl-Əşari, əl-Həsən və Qatədə ﷺ demişlər: “Onlar Peyğəmbərlə ﷺ birlikdə hər iki qibləyə (Qüdsə və Kəbəyə) doğru namaz qılanlardır”.[2]

Uca Allah bu ayədə İslamı ilk qəbul edərək bu işdə başqalarını qabaqlayan mühacir və ənsardan, habelə yaxşı işlər görməkdə onların ardınca gedən kəslərdən artıq razı olduğunu xəbər vermişdir. Belə olan halda, onlara nifrət bəsləyən və ya söyənlərin, yaxud onlardan bəzilərinə nifrət bəsləyib söyənlərin vay halına! Xüsusilə, Allah Elçisindən ﷺ sonra səhabələrin ağası, ən xeyirlisi və ən üstünü əs-Siddiq, ən böyük xəlifə Əbu Bəkr ibn Əbu Quhafəni[3] (Allah ondan razı olsun) söyənlərin vay halına! Bir qrup

[1] ət-Təbəri, 17106, 17189.

[2] ət-Təbəri, 17108, 17191.

[3] Əbu Bəkr Abdullah ibn Osman ibn Amir əs-Siddiq ﷺ miladi təqvimlə 572-ci ildə Məkkədə anadan olmuşdur. Muhəmmədə ﷺ peyğəmbərlik verildiyi zaman o, Məkkə əhlini İslama dəvət etmiş və Əbu Bəkr ﷺ bu dəvəti qəbul edən ilk kişi olmuşdur. Peyğəmbər ﷺ əs-Siddiq ləqəbini Əbu Bəkrə ﷺ İsra və Merac səfərini şəkk-şübhə etmədən təsdiqlədiyi üçün vermişdir. O, Peyğəmbərin ﷺ ən yaxın səhabələrindən, hicrət yoldaşı və Cənnətlə müjdələnmiş on nəfərdən biridir. Bir çox döyüşdə iştirak etmiş, malı və canı ilə İslam dininə yardım etmişdir. Əbu Bəkrin ﷺ fəzilətinə dair bir çox ayə (ət-Tövbə, 40, əl-Leyl, 17-21 və s.) nazil olmuşdur. Onun fəzilətinə dəlalət edən bir çox hədis də rəvayət olunub: Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrə xitab edib dedi: “Həqiqətən, mənə ən yaxın yoldaş və mal-dövləti ilə ən çox qayğı göstərən Əbu Bəkrdir. Rəbbimdən qeyrisini (ifrata varmaqla) sevmiş olsaydım, Əbu Bəkri sevərdim. Lakin o mənim müsəlman qardaşımdır. Elə isə məscidə açılan Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlayın!” (əl-Buxari, 3381, 3654). Cubeyr bin Mutim ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ onun yanına gələn qadına bir müddət sonra gəlməyini bildirdi. Qadın: “Səni tapa bilməsəm necə?” – deyə soruşduqda, o dedi: “Məni tapmasan, Əbu Bəkrin yanına get!” (əl-Buxari, 3386, 3659). Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Kim Allah üçün saleh əməl edərsə, Cənnət qapılarından dəvət olunar; namaz əhli namaz qapısından, cihad əhli cihad qapısından, sədəqə əhli sədəqə qapısından və oruc əhli Rəyyan adlı oruc qapısından Cənnətə dəvət olunar”. Bunu eşidən Əbu Bəkr ﷺ dedi: “Ey Allahın Elçisi! O qapıların hamısından dəvət olunan olacaqmı?” Allahın Elçisi ﷺ: “Bəli və mən ümid edirəm ki, sən onlardansan, ey Əbu Bəkr!” – deyə cavab verdi” (əl-Buxari, 3393, 3666). Urva ibn əz-Zubeyr ﷺ rəvayət edir ki, mən Abdullah ibn Amrdan ﷺ müşriklərin Peyğəmbərə ﷺ nə etdikləri barəsində soruşduqda, o dedi: “Peyğəmbər ﷺ namaz qılarkən Uqbə ibn Əbu Muit gəlib dəsmalı onun boynuna sarıdı və boğmağa başladı. Bunu görən Əbu Bəkr gəlib onu kənara itələdi və Allahın bu kəlamını oxudu: “Siz bir adamı “Rəbbim Allahdır!” dediyinə görə öldürəcəksinizmi?! Halbuki o, Rəbbinizdən sizə açıq-aydın dəlillər gətirdi” (“Ğafir”, 28) (əl-Buxari, 3405, 3678). Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, bir dəfə Əbu Bəkr ﷺ Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə ﷺ çatdırdıqda, o dedi: “İzin ver, gəlsin və onu Cənnətlə müjdələ!” (əl-Buxari, 3398, 3674). İbn Abbas ﷺ rəvayət edir ki, mən Ömər ibn əl-Xəttabın ﷺ vəfatından sonra onun çarpayısının ətrafına toplaşıb dua edənlərin arasında dayanmışdım. Arxamda dayanan bir kişi dirsəyini çiynimə qoyub dedi: “Allah sənə rəhmət etsin! Allahdan istəyirəm ki, sən yoldaşlarınla (Muhəmməd ﷺ və Əbu Bəkrlə ﷺ bir yerdə olasan! Çünki mən çox vaxt Peyğəmbərin ﷺ belə

rafizi ən üstün səhabələrə qarşı düşmənçilik edir, onlara nifrət bəsləyir və onları söyürlər. Bu onların ağıllarının və qəlblərinin tərs çevrildiyinə dəlalət edir. Allahın razı qaldığı kəsləri söydüklərinə görə Qurana necə iman gətirmişlər? Əhli Sünnə isə Allahın razı qaldığı səhabələr üçün dua edərək: "Allah onlardan razı olsun!" – deyər, Allahın və Elçisinin ﷺ pislədiyi kəsləri isə pisləyər, Allahın sevdiyi kəslərə sevgi bəsləyər, Allaha düşmən olanlarla düşmən olarlar. Onlar Allaha və Onun Elçisinə ﷺ tabe olar, bidət əməllər (dində yeniliklər) etməzlər. Onlar Peyğəmbərin ﷺ yolu ilə gedər, bu yoldan kənara çıxmazlar. Odur ki, Allahın nicat tapmış firqəsi və mömin qulları məhz onlardır.

﴿وَمِمَّنْ حَوْلَكُم مِّنَ ٱلْأَعْرَابِ مُنَٰفِقُونَ ۖ وَمِنْ أَهْلِ ٱلْمَدِينَةِ ۖ مَرَدُوا۟ عَلَى ٱلنِّفَاقِ لَا تَعْلَمُهُمْ ۖ نَحْنُ نَعْلَمُهُمْ ۚ
سَنُعَذِّبُهُم مَّرَّتَيْنِ ثُمَّ يُرَدُّونَ إِلَىٰ عَذَابٍ عَظِيمٍ ١٠١﴾

**101. Çevrənizdəki bədəvilərin və Mədinə əhalisinin arasında münafiqlər var. Onlar münafiqlikdə inadkarlıq edir, sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq. Biz onlara iki dəfə əzab verəcəyik. Sonra isə böyük bir əzaba qaytarılacaqlar.**

Uca Allah bu ayədə Öz Elçisinə ﷺ bildirir ki, Mədinə ətrafındakı ərəb qəbilələri arasında olduğu kimi, Mədinə əhalisinin içərisində də münafiqlər vardır. "**Onlar münafiqlikdə inadkarlıq edir**", yəni münafiqliyə adət etmiş və bunda israr edirlər.

---

dediyini eşidirdim: "Mən, Əbu Bəkr və Ömər filan yerdə idik. Mən, Əbu Bəkr və Ömər filan əməli etdik. Mən, Əbu Bəkr və Ömər filan yerə getdik". Mən dönüb arxamda dayanan səhabənin kim olduğuna baxdım. Bu, Əli bin Əbu Talib ؓ idi" (əl-Buxari, 3401, 3677). Əbu Səid əl-Xudri ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə), hətta yarısına belə çata bilməz" (əl-Buxari, 3397, 3673). Əli ؓ iki şeyx – Əbu Bəkr və Ömər ؓ haqqında belə demişdir: "Müsəlmanların ən yaxşısı, Allaha və Onun Elçisinə ﷺ ən yaxını – xəlifə Siddiq (Əbu Bəkr) və xəlifə Faruq (Ömər) olmuşlar. And içirəm ki, onların İslamda yerləri, həqiqətən böyükdür. Onlardan bəhrələnən adam şiddətlə İslama sarılar (yəni onlardan ibrət götürənlər dinlərində daha möhkəm olarlar). Allah onlara rəhmət etsin və onları gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın" (Meysəm "Şərh Nəhcul-Bəlağə", 1/31, Tehran çapı). Məclisi istinadla Cəfər əs-Sadiqdən ؒ, o da babalarından, onlar da Əlidən ؓ belə rəvayət etmişlər: "Sizə Peyğəmbərimizin ﷺ səhabələrini söyməməyi vəsiyyət edirəm. Onlar Peyğəmbərdən ﷺ sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər ﷺ də belə vəsiyyət etmişdir". ("Biharul-Ənvar", 22/305, 306). Əbu Bəkr ؓ Peyğəmbərin ﷺ vəfatından sonra səhabələrin şurası tərəfindən seçilərək xilafətə gəlmiş və 2 il 3 ay xəlifə olmuşdur. Hicrətin 13-cü ilində 63 yaşında vəfat etmişdir.

Uca Allahın "...**sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq**" ayəsi Onun "**Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan**" ("Muhəmməd", 30) ayəsinə heç də zidd deyil. Çünki bu ayə, zahiri əlamətlərindən tanına bilən münafiqlərə aiddir. Peyğəmbərin ﷺ ətrafında olan münafiqlərin hamısını şəxsən tanıması anlamına gəlmir. Peyğəmbər ﷺ Mədinə əhalisindən səhər-axşam onunla birlikdə olanlardan bəzilərində münafiqlik olduğunu bilirdi. Rəvayət olunur ki, Qatədə  bu ayə barədə belə demişdir: "Bəzilərinə nə olub ki, insanları tanımaq mövzusunda özlərini yükləyirlər? "Filankəs Cənnətə, filankəs Cəhənnəmə düşəcək" – deyirlər? Halbuki onların birindən özü barədə soruşsan: "Bilmirəm", – deyər. And içərəm ki, sən öz halını insanların halından daha yaxşı bilirsən. Səndən əvvəl peyğəmbərlərin üzərlərinə götürmədikləri bir şeylə özünü yükləmisən. Allahın peyğəmbəri Nuh  belə demişdir: "**Mən onların nə etdiklərini bilmirəm!**" ("əş-Şuəra", 112); Allahın peyğəmbəri Şueyb  isə belə demişdir: "**Əgər möminsinizsə, bilin ki, Allahın saxladığı nemətlər sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm**" ("Hud", 86). Uca Allah Peyğəmbərinə ﷺ: "**Sən isə onları tanımırsan. Biz ki onları tanıyırıq**" – deyə buyurmuşdur".[1]

Mucahid  Uca Allahın "**Biz onlara iki dəfə əzab verəcəyik**" ayəsi barədə belə demişdir: "Yəni öldürülməklə və əsir edilməklə iki dəfə əzab verəcəyik". Başqa bir rəvayətdə isə belə demişdir: "Aclıq və qəbir əzabı ilə iki dəfə əzab verəcəyik. "**Sonra isə böyük bir əzaba qaytarılacaqlar**".[2] İbn Cureyc  demişdir: "Dünya əzabı, qəbir əzabı, sonra cəhənnəm əzabına qaytarılacaqlar".[3] Abdur-Rahmən ibn Zeyd  demişdir: "Dünyadakı əzab mal-dövlət və uşaqlardır". Sonra Uca Allahın "**Onların nə malları, nə də övladları səni təəccübləndirməsin. Allah bunlarla, bu dünyada onlara əzab vermək və onların kafir olaraq canlarının çıxmasını istəyir**" ("Tövbə", 85) ayəsini oxumuşdur. "Bu müsibətlər onlar üçün əzab, möminlər üçün isə əcr və savabdır. Axirətdəki əzabları isə Cəhənnəmdə olacaq. "**Sonra isə böyük bir əzaba qaytarılacaqlar**", yəni Cəhənnəmə qaytarılacaqlar".[4]

---

[1] ət-Təbəri, 17121, 17204.
[2] ət-Təbəri, 17124, 17207.
[3] ət-Təbəri, 17133, 17216.
[4] ət-Təbəri, 17134, 17217.

﴿وَءَاخَرُونَ ٱعۡتَرَفُواْ بِذُنُوبِهِمۡ خَلَطُواْ عَمَلٗا صَٰلِحٗا وَءَاخَرَ سَيِّئًا عَسَى ٱللَّهُ أَن يَتُوبَ عَلَيۡهِمۡۚ إِنَّ ٱللَّهَ غَفُورٞ رَّحِيمٌ ١٠٢﴾

**102. Digərləri isə günahlarını etiraf etdilər. Onlar yaxşı bir əməllə başqa bir pis əməli qarışdırdılar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.**

Uca Allah əvvəlki ayələrdə döyüşdən yalan və şübhə ilə üz çevirərək evdə qalan münafiqlərin halını bəyan etdikdən sonra bu ayədə mömin olduqları və haqqı təsdiqlədikləri halda, tənbəllikdən və rahatlığa meyil etdiklərindən evdə qalan günahkarların halını bəyan etməyə başlayaraq belə buyurur: "**Digərləri isə günahlarını etiraf etdilər**", yəni özləri ilə Rəbbləri arasında olan şeyləri etiraf etdilər. Onların bundan başqa əməlisaleh işləri də vardır. Lakin bununla onu (yaxşı işlərlə günahı) qarışdırmışlar. Belələrini Allah istəsə, əfv edər və bağışlayar. Bu ayə müəyyən bir qrup insan barədə nazil olsa da, bütün günahkarlar, səhv edənlər və yaxşı əməllərinə pis əməli qarışdıranlar barədə ümumidir. İbn Abbas ﵄ bu ayənin Əbu Lubəbə və bir qrup yoldaşı barədə nazil olduğunu demişdir. Onlar Təbuk döyüşündə iştirak etməyib evdə qalmışdılar. Peyğəmbər ﷺ bu döyüşdən qayıtdıqda özlərini məscidin dirəklərinə bağlamışdılar və Peyğəmbərdən ﷺ başqa heç kəsin onları açmayacaqlarına dair and içmişdilər. Uca Allah "**Digərləri isə günahlarını etiraf etdilər**" ayəsini nazil etdikdə Peyğəmbər ﷺ onları dirəkdən açdı və əfv etdi.[1]

əl-Buxari ﵀ Səmura ibn Cundubun ﵁ belə dediyini rəvayət etmişdir: "Bir dəfə Peyğəmbər ﷺ bizə dedi: "Bu gecə iki nəfər yanıma gəlib məni binaları qızıl və gümüş kərpiclərdən tikilmiş şəhərə apardılar. Orada bizi bədənlərinin yarısı gördüyün ən gözəl şəkildə, o biri yarısı isə gördüyün ən eybəcər şəkildə olan insanlar qarşıladı. Həmin iki nəfər onlara: "Gedin, o çaya girin!" – dedilər. Onlar gedib çaya girdilər, sonra bizim yanımıza qayıtdılar. Beləliklə, bu insanların eybəcərliyi yox oldu və onlar ən gözəl surəti aldılar". Həmin iki nəfər mənə dedi: "Bu, Ədn cənnətidir, bura sənin (əbədi) qalacağın yerdir. O ki qaldı yarıgözəl, yarıeybəcər adamlara, onlar yaxşı işləri pis əməllərlə qarışdıranlar idi. Lakin Allah onları bağışladı".[2]

[1] əl-Beyhəqi "Dəlailun-Nubuvvə" 5/272; ət-Təbəri, 17136, 17219.

[2] əl-Buxari, 4306, 4674.

﴿خُذْ مِنْ أَمْوَٰلِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ ۖ إِنَّ صَلَوٰتَكَ سَكَنٌ لَّهُمْ ۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٌ ﴿١٠٣﴾

أَلَمْ يَعْلَمُوٓا۟ أَنَّ ٱللَّهَ هُوَ يَقْبَلُ ٱلتَّوْبَةَ عَنْ عِبَادِهِۦ وَيَأْخُذُ ٱلصَّدَقَٰتِ وَأَنَّ ٱللَّهَ هُوَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ﴿١٠٤﴾﴾

**103. Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir. Allah hər şeyi eşidəndir, hər şeyi biləndir.**

**104. Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür və Allah tövbələri qəbul Edəndir, Rəhmlidir?**

Uca Allah bu ayələrdə Öz Elçisinə ﷺ möminlərin mallarından (sədəqə) zəkat götürüb bununla onları təmizləməyi əmr edir. Bəzi alimlər ayənin "**Onların mallarından**" qismindəki əvəzliyi (onların) əvvəlki ayədə günahlarını etiraf edən, yaxşı əməllə pis əməli qarışdıranlara aid etsələr də, ayənin hökmü ümumidir. Bu səbəbdən (Peyğəmbərin ﷺ vəfatından sonra) zəkat verməkdən imtina edən bəzi ərəb qəbilələri zəkatın imama (dövlət başçısına) verilmədiyini sanmışlar. Onlara görə zəkat yalnız Allah Elçisinə ﷺ xas idi. Onlar Uca Allahın "**Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan...**" ayəsini dəlil gətirmişlər. Əbu Bəkr əs-Siddiq və digər səhabələr رضي الله عنهم onların bu batil yozumlarını və səhv anlayışlarını rədd etmiş və Peyğəmbərə ﷺ verdikləri kimi zəkatı xəlifəyə verənə qədər onlarla döyüşmüşlər. Hətta Əbu Bəkr əs-Siddiq رضي الله عنه belə demişdir: "Allaha and olsun ki, Peyğəmbərə ﷺ verdikləri dəvənin dizinə bağlanan bir ipi belə", başqa bir rəvayətə görə "keçi balasını belə verməsələr, buna görə onlarla döyüşəcəyəm".[1]

Uca Allah buyurur: "**Onlar üçün dua et**", yəni onlar üçün dua edib bağışlanma dilə. Muslimin "Səhih" əsərində Abdullah ibn Əbu Əufənin رضي الله عنه belə dediyi rəvayət olunur: "Peyğəmbərə bir qövmün sədəqəsi (zəkatı) gəldikdə onlar üçün dua edərdi. Bir dəfə atam Peyğəmbərə ﷺ zəkat gətirdi və o: "Allahım, Əbu Əufənin ailəsinə xeyir-dua ver!" – deyə dua etdi".[2]

Uca Allah buyurur: "**Çünki sənin duan onlar üçün bir təskinlikdir**". İbn Abbas رضي الله عنهما demişdir: "Yəni onlar üçün bir rəhmətdir". Qatədə رحمه الله isə demişdir: "Yəni rahatlıqdır". Uca Allah buyurur: "**Allah hər şeyi eşidəndir**", yəni sənin duanı ən yaxşı eşidəndir, "**hər şeyi biləndir**", yəni sənin duana kimin layiq olduğunu ən yaxşı biləndir.

[1] əl-Buxari, 7284, 7285.

[2] Muslim, 1078/176, 1791, 2544; İbn Məcə, 1796.

Uca Allah buyurur: “**Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür...?**” Bu ayə günahları silən, təmizləyən və yox edən tövbə və sədəqəyə təşviq edir.

Uca Allah bildirir ki, həqiqətən O, tövbə edən istənilən kəsin tövbəsini qəbul edir, halal qazancdan sədəqə verənin sədəqəsini sağ Əli ilə qəbul edir, sədəqə verilmiş bir xurmanı Uhud dağı boyda olana qədər artırır. Necə ki bu xüsus bir hədisdə Peyğəmbərdən ﷺ rəvayət edilmişdir. Əbu Hureyra ؓ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Həqiqətən, Allah sədəqəni qəbul edib sağ Əli ilə götürər və sizdən birinizin dayçasını bəslədiyi kimi, bir loxma da Uhud dağı boyda olana qədər böyüyər”. Uca Allahın Kitabındakı bu ayələr bunu təsdiq edir: “**Məgər onlar bilmirlər ki, Allah qullarından tövbəni qəbul edir, sədəqələri götürür**”; “**Allah sələmi puç edir, sədəqələri isə artırır**” (“əl-Bəqərə”, 276).[1]

﴿وَقُلِ ٱعۡمَلُواْ فَسَيَرَى ٱللَّهُ عَمَلَكُمۡ وَرَسُولُهُۥ وَٱلۡمُؤۡمِنُونَۖ وَسَتُرَدُّونَ إِلَىٰ عَٰلِمِ ٱلۡغَيۡبِ وَٱلشَّهَٰدَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمۡ تَعۡمَلُونَ ١٠٥﴾

**105. De: “İşinizdə olun! Allah, Onun Elçisi və möminlər əməllərinizi görəcəklər. Sonra qeybi və aşkarı Bilənin yanına qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir”.**

Mucahid ؒ bu ayə barədə belə demişdir: “Bu, Allah tərəfindən Onun əmrlərinə qarşı çıxanlar üçün bir təhdiddir. Onların əməlləri Uca Allaha, Onun Elçisinə və möminlərə ərz olunacaq”. Şübhəsiz ki, bu, Qiyamət günü baş verəcəkdir. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: “**O gün siz məhşərə gətiriləcəksiniz və heç bir sirriniz gizlədilməyəcək**” (“əl-Haqqə”, 18); “**Sirlərin sınaqdan keçiriləcəyi (aşkara çıxarılacağı) gün**” (“ət-Tariq”, 9); “**Köksləردə olanlar aşkar ediləcəyi zaman – məhz o gün Rəbbi onlardan xəbərdar olacaq?**” (“əl-Adiyat”, 10). əl-Buxari ؒ Aişənin ؓ belə dediyini rəvayət etmişdir: “Əgər bir insanın əməlinin gözəlliyi sənin xoşuna gələrsə, belə de: “**İşinizdə olun! Allah, Onun Elçisi və möminlər əməllərinizi görəcəklər**”.[2]

[1] ət-Tirmizi (662). ət-Tirmizi hədisin “Həsən-Səhih” olduğunu bildirmişdir. Hədisdə “bunun təsdiqi...” əlavəsi səhih deyil. Bax: İrvaul-Ğalil, 3/394/886.

[2] əl-Buxari muəlləq olaraq (sənədin əvvəlindən bir neçə ravini düşürməklə) rəvayət etmişdir. Bax: “Fəthul-Bari” (13/503). əl-Buxari, 23/59, 24/406.

Başqa bir hədisdə buna oxşar məna rəvayət olunmuşdur. İmam Əhməd ﷺ Ənəsdən ﷺ rəvayət etmişdir ki, Allah Elçisi ﷺ belə buyurdu: “Bir insanın sonunun necə olacağını görmədən onun etdiyi əmələ heyran olmayın. İnsan ömrünün bir zamanında və ya müəyyən bir vaxt yaxşı iş görər. Əgər həmin əməl üzərində ölsəydi, mütləq Cənnətə girərdi. Lakin sonra o insan dəyişər və pis əməl edər. Elə insan da var ki, müəyyən bir vaxt pis iş görər. Əgər o əməl üzrə ölsəydi, mütləq Cəhənnəmə girərdi. Lakin sonra o dəyişər və yaxşı iş görər. Uca Allah bir qulu üçün xeyir istədikdə, ölümündən əvvəl ona xeyir əməl etdirər”. Səhabələr: “Ey Allahın Elçisi, ona xeyir əməli necə etdirər?” – deyə soruşduqda, Peyğəmbər ﷺ: “Onu yaxşı iş görməyə müvəffəq edər, sonra onun canını həmin əməl üzərində alar” – deyə cavab verdi”. Hədisi bu şəkildə yalnız Əhməd ﷺ rəvayət etmişdir.[1]

﴿وَءَاخَرُونَ مُرْجَوْنَ لِأَمْرِ ٱللَّهِ إِمَّا يُعَذِّبُهُمْ وَإِمَّا يَتُوبُ عَلَيْهِمْ ۗ وَٱللَّهُ عَلِيمٌ حَكِيمٌ ١٠٦﴾

**106. Döyüşə getməyənlərdən başqaları da var ki, onlar Allahın ixtiyarına buraxılmışlar. O, ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

İbn Abbas və başqaları demişlər: “Burada nəzərdə tutulanlar, döyüşdən geri qaldıqları üçün tövbələrinin qəbul olunması gecikdirilən üç nəfərdir. Bunlar Murara ibn ər-Rabi, Kəb ibn Malik və Hilal ibn Umeyyədir. Onların meyvələrin yetişdiyi və kölgənin xoş olduğu bir vaxtda (yayın istisində) Təbuk döyüşünə getməyib evdə qalanlarla birlikdə Mədinədə qalmalarına səbəb şəkk və nifaq deyil, tənbəllik, rahatlığa meyil və canlarını qorumaq olmuşdur. Onlardan bəziləri Əbu Lubəbə və yoldaşlarının etdiyi kimi – özlərini məsciddə dirəklərə bağlamışdı, digərləri isə belə etməmişdi. Məhz bunlar qeyd olunan üç nəfər idi. Özlərini dirəklərə bağlayanların tövbəsi digərlərindən daha əvvəl qəbul olmuş, bunların tövbəsi isə “**Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarın da əvvəlcə tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir. Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahın əzabından ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah**

[1] Əhməd (3/120). əl-Heysəmi “əz-Zəvaid” əsərində: “Hədisin raviləri “Səhih” əsərinin hədislərini rəvayət edənlərdir” – demişdir. Əhməd, 12214,12235, 12238. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1334.

**peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir**" ("ət-Tövbə", 117-118) ayələri nazil olana qədər gecikdirilmişdi".[1] Bu mövzunun açıqlaması qarşıda Kəb ibn Malikin ﷺ hədisində gələcəkdir.

Uca Allah buyurur: "**O, ya onlara əzab verəcək, ya da tövbələrini qəbul edəcək. Allah hər şeyi biləndir, hikmət sahibidir**", yəni onlar Allahın bağışlama istəyindən asılıdırlar. İstəsə, onlara bunu edər (bağışlayar), istəsə, digərini edər (əzab verər). Lakin Allahın rəhməti qəzəbinə üstün gəlmişdir. "**Allah hər şeyi biləndir, hikmət sahibidir**", yəni kimin əzaba, kimin də bağışlanmağa layiq olduğunu ən yaxşı biləndir. Etdiklərində və dediklərində hikmət sahibidir. Ondan başqa ibadətə layiq ilah və Ondan başqa rəbb yoxdur.

﴿وَٱلَّذِينَ ٱتَّخَذُواْ مَسۡجِدٗا ضِرَارٗا وَكُفۡرٗا وَتَفۡرِيقَۢا بَيۡنَ ٱلۡمُؤۡمِنِينَ وَإِرۡصَادٗا لِّمَنۡ حَارَبَ ٱللَّهَ وَرَسُولَهُۥ مِن
قَبۡلُۚ وَلَيَحۡلِفُنَّ إِنۡ أَرَدۡنَآ إِلَّا ٱلۡحُسۡنَىٰۖ وَٱللَّهُ يَشۡهَدُ إِنَّهُمۡ لَكَٰذِبُونَ ١٠٧ لَا تَقُمۡ فِيهِ أَبَدٗاۚ لَّمَسۡجِدٌ أُسِّسَ
عَلَى ٱلتَّقۡوَىٰ مِنۡ أَوَّلِ يَوۡمٍ أَحَقُّ أَن تَقُومَ فِيهِۚ فِيهِ رِجَالٞ يُحِبُّونَ أَن يَتَطَهَّرُواْۚ وَٱللَّهُ يُحِبُّ ٱلۡمُطَّهِّرِينَ ١٠٨﴾

**107. Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" – deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar.**

**108. Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir.**

Bu ayələrin nazilolma səbəbi belədir: Peyğəmbərin ﷺ Mədinəyə gəlişindən əvvəl orada Xəzrəc qəbiləsindən Əbu Amir ər-Rahib adında bir kişi var idi. O, cahiliyyə dövründə xristianlığı qəbul etmiş və Kitab əhlinin elminə yiyələnmişdi. Həmin dövrdə ibadətlə məşğul olurdu və Xəzrəc qəbiləsində böyük nüfuza sahibi idi. Peyğəmbərin ﷺ Mədinəyə hicrəti zamanı Uca Allah Bədr döyüşündə müsəlmanları qalib etdikdə və İslam dini ucaldıqda lənətə gəlmiş Əbu Amir hiddətindən boğulmağa başladı və düşmənçiliyini biruzə verdi. O, qaçıb Qureyşli müşriklərin – Məkkə kafirlərinin yanına getdi və onları Peyğəmbərə ﷺ qarşı döyüşməyə təşviq etdi. Ərəb qəbilələrindən onlara tabe olanlar bir yerə toplaşıb Uhud döyüşündə müsəlmanlara qarşı döyüşə çıxdılar və bu döyüşdə

[1] ət-Təbəri, 17176-17182, 17258-17264.

müsəlmanların başına gələnlər gəldi. Uca Allah müsəlmanları bu döyüşlə imtahan etdi və sonda gözəl aqibət müttəqilərin oldu. Bu fasiq (Əbu Amir) iki səf arasında çuxurlar qazmışdı. Peyğəmbər ﷺ o gün bu çuxurlardan birinə düşdü və xəsarət aldı. Peyğəmbərin ﷺ bu döyüşdə üzü yaralandı, sağ alt çənəsinin ön dişi qırıldı, başı yarıldı.

Əbu Amir mübarizəsinin əvvəlində qövmü olan ənsara üz tutdu, onlara müraciət edərək ona kömək etməyə və onunla razılaşmağa çağırdı. Onun nə qəsd etdiyini başa düşənlər isə: "Ey fasiq, ey Allahın düşməni! Allah sənin gözünü kor etsin", – deyib onu söydülər və onu döymək istədilər. O: "Allaha and olsun ki, məndən sonra qövmümə bir pislik toxunmuşdur", – deyərək geri qayıtdı. Məkkəyə qaçmazdan əvvəl Peyğəmbər ﷺ onu Allahın yoluna dəvət edib ona Quran oxuyardı. Lakin o, İslamı qəbul etməkdən imtina edib inadkarlıq göstərdi. Məkkəyə qaçdıqdan sonra isə Peyğəmbər ﷺ imandan uzaq, qovulmuş olaraq ölməsi üçün ona bəddua etdi və bu bəddua qəbul oldu.

Uhud döyüşü bitdikdən sonra Allahın Elçisinin ﷺ dəvətinin getdikcə artdığını görən Əbu Amir Peyğəmbərə ﷺ qarşı yardım istəmək üçün Rum imperatoru Heraklın yanına getdi. Herakl ona vədlər verib ümidləndirdi. O da Heraklın yanında bir müddət qaldı. Orada ikən qövmü olan ənsarda nifaq və şübhə içində olan bir qrupla yazışıb onlara Peyğəmbərə ﷺ qarşı vuruşacaq bir ordu ilə onların yanına qayıdacağını, ona qalib gələcəyini və onu bu dindən döndərəcəyinə vəd verərək ümidləndirdi. Məktublarını çatdırmaq üçün göndərdiyi adamların sığına bilməsi üçün bir yer düzəltmələrini əmr etdi. Bu yer onların yanına qayıtdıqdan sonra onun üçün bir müşahidə yeri (pusqu) olacaqdı. Onlar Quba məscidinin yanında bir məscid tikməyə başladılar. Peyğəmbər ﷺ Təbuk yürüşünə çıxmazdan əvvəl bu məscidi bitirdilər. Məscidin (müsəlmanlar arasında) məqbul sayılması və bundan dəlil kimi istifadə etmək üçün Peyğəmbərin ﷺ yanına gəlib ondan bu məsciddə namaz qılmasını xahiş etdilər. Onlar bu məscidi yalnız aralarında olan zəif və xəstələrin soyuq və yağışlı gecələrdə orada namaz qılmaları üçün tikdiklərini söylədilər. Lakin Uca Allah Peyğəmbərini ﷺ orada namaz qılmaqdan qorudu və o onların bu istəyinə: "İndi biz səfərə çıxmaq üzrəyik. Allah istəsə, qayıtdıqdan sonra qılarıq", – deyə cavab verdi.

Peyğəmbər ﷺ Təbukdan Mədinəyə dönmək üçün yola çıxdıqdan sonra Mədinəyə çatmağına bir gün və ya bir gündən daha az məsafə qalanda ona "Məscid əd-Dirar" (müsəlmanlara zərər vurmaq üçün tikilmiş məscid) barədə vəhy nazil oldu və bu məscidi inşa edənlərin məqsədlərinin ilk gündən təqva üzərinə qurulmuş Quba məscidindəki mömin camaatı bölmək və küfr etmək olduğu bildirildi. Peyğəmbər ﷺ

Mədinəyə çatmazdan əvvəl bu məscidi sökmək üçün adam göndərdi. İbn Abbas ﷺ Uca Allahın "**Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminlərin arasına təfriqə salmaq məqsədilə əvvəlcədən Allaha və Onun Elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər...**" ayəsi barədə belə demişdir: "Ayədə ənsardan ibarət bir qrup nəzərdə tutulur. Onlar bir məscid tikmək istəyirdilər. Əbu Amir onlara: "Bir məscid tikin. Bacardığınız qədər qüvvə və silah hazırlayın. Mən Rum imperatoru Qeysərin yanına gedirəm. Rum diyarından bir ordu gətirib Muhəmmədi və onun səhabələrini Mədinədən çıxaracağam" – deyə vəd vermişdi. Onlar məscidi tikib qurtardıqdan sonra Peyğəmbərin ﷺ yanına gəlib: "Biz məscidimizi tikib qurtardıq. İndi isə sənin orada namaz qılmağını və bizim üçün dua edərək Allahdan xeyir-bərəkət diləməyini istəyirik" – dedilər. Uca Allah da "**Heç vaxt orada namaz qılma. İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır. Allah da təmizlənənləri sevir. Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz**" ("ət-Tövbə", 108-109) ayələrini nazil etdi".[1] Səid ibn Cubeyr, Mucahid, Urvə ibn əz-Zubeyr, Qatədə və bir çox alimlərdən də belə rəvayət edilmişdir.

Uca Allah buyurur: "**...məscid tikənlər**", yəni bu məscidi tikənlər: "**Biz yaxşılıqdan başqa bir şey istəmədik" – deyə and içəcəklər**", yəni biz bu məscidi tikməklə yalnız xeyir və insanlara yaxşılıq etmək istədik. Uca Allah onların bu sözünə cavab olaraq buyurur: "**Allah şahiddir ki, onlar yalançıdırlar**", yəni onlar iddia etdikləri bu məqsədlərində və niyyətlərində yalançılardır. Onlar bu məscidi yalnız Quba məscidinə zərər vermək, Allaha küfr etmək, möminləri parçalamaq və "ər-Rahib" adlanan, əslində isə fasiq olub Allaha və Onun Elçisinə ﷺ qarşı müharibə edən Əbu Amir üçün (Allah ona lənət etsin) bir sığınacaq yeri düzəltmək məqsədilə tikmişdilər. Uca Allah "**Heç vaxt orada namaz qılma**" buyurmaqla Öz Elçisinə ﷺ orada namaz qılmağı qadağan edir. Ümməti də bu qadağada ona tabe olur.

Sonra Uca Allah ilk günündən təqva üzərində – Allaha və Onun Elçisinə ﷺ itaət üzərində tikilmiş, möminləri yığmaq, İslamı və müsəlmanları möhkəmləndirmək üçün inşa edilmiş Quba məscidində namaz qılmağa təşviq edərək buyurur: "**İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir**". Ayənin məzmunu Quba məscidi barədədir. Səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Quba

[1] ət-Təbəri, 17187, 17269; əl-Beyhəqi "Dəlailun-Nubuvvə" 5/263. Ali Nasr həsən olduğunu bildirmişdir.

məscidində namaz qılmaq ümrəyə bərabərdir".[1] "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbərin ﷺ Quba məscidini minikdə və piyada ziyarət etdiyi bildirilir.[2]

Bir çox sələflər ayədə nəzərdə tutulan məscidin Quba məscidi olduğuna açıq şəkildə işarə etmişlər. İbn Abbas, Urvə ibn Zubeyr, Abdur-Rahmən ibn Zeyd ibn Əsləm, əş-Şabi, Həsən əl-Bəsri, Səid ibn Cubeyr və Qatədə ﷺ belə demişlər. Səhih bir hədisdə təqva üzərində tikilmiş məscidin Mədinədəki Peyğəmbər ﷺ məscidinin olduğu da bildirilir. Bu səhihdir və ayə ilə bu hədis arasında heç bir ziddiyyət yoxdur. Çünki Quba məscidi ilk gündən təqva üzərində qurulmuş məsciddirsə, o zaman Peyğəmbərin ﷺ məscidi bu vəsfə daha layiqdir. İmam Əhməd ﷺ Səhl ibn Sad əs-Səiddən ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbərin ﷺ dövründə iki kişi təqva üzrə qurulmuş məscid barədə ixtilaf edirdilər. Onlardan biri: "O, Peyğəmbərin məscididir" – deyərkən, digəri: "O, Quba məscididir" – deyirdi. Peyğəmbərin ﷺ yanına gəlib ondan bu barədə soruşduqda, Peyğəmbər ﷺ: "O mənim bu məscidimdir" – deyə cavab verdi. Bu hədisi yalnız İmam Əhməd ﷺ rəvayət etmişdir.[3]

Sələf və xələf alimlərindən bir çoxu bu məscidin Peyğəmbərin ﷺ məscidi olduğunu demişlər. Bu rəy Ömər ibn əl-Xattab və oğlu Abdullah-dan, habelə Zeyd ibn Sabit və Səid ibn Museyyibdən ﷺ rəvayət edilmişdir. İbn Cərir ﷺ də bu rəyi seçmişdir.

Uca Allah buyurur: "**İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, içində namaz qılmağın üçün daha layiqdir. Orada təmizlənməyi sevən kişilər vardır**". Bu ayə ilk tikilişindən tək və şəriki olmayan Allaha ibadət üçün qurulmuş köhnə məscidlərdə namaz qılmağın müstəhəb olduğuna dəlalət edir. Habelə namazı əməlisaleh, yaxşı işlər görən, dəstəmazı mükəmməl şəkildə alan və şübhələrdən uzaq duran insanlarla birlikdə qılmağın müstəhəb olduğuna dəlalət edir.

Əbul-Aliyə ﷺ Uca Allahın "**Allah da təmizlənənləri sevir**" ayəsi barəsində belə demişdir: "Su ilə təmizlənmək, əlbəttə, gözəldir. Lakin onlar günahlardan təmizlənənlərdir".[4] Aməş ﷺ demişdir: "Bu, günahdan tövbə etmək və şirkdən təmizlənməkdir".[5]

---

[1] ət-Tirmizi, 324; İbn Məcə, 1411. ət-Tirmizi hədisin "həsən-səhih" olduğunu demişdir. Hədis səhih li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 1180.

[2] Muslim, 1399/515.

[3] Əhməd, 22805, 22857, 23191. Hədis səhih li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 1177.

[4] İbn Əbu Hatim, 2127.

[5] İbn Əbu Hatim, 2129.

﴿أَفَمَنْ أَسَّسَ بُنْيَـٰنَهُۥ عَلَىٰ تَقْوَىٰ مِنَ ٱللَّهِ وَرِضْوَٰنٍ خَيْرٌ أَم مَّنْ أَسَّسَ بُنْيَـٰنَهُۥ عَلَىٰ شَفَا جُرُفٍ هَارٍ فَٱنْهَارَ
بِهِۦ فِى نَارِ جَهَنَّمَ ۗ وَٱللَّهُ لَا يَهْدِى ٱلْقَوْمَ ٱلظَّـٰلِمِينَ ﴿١٠٩﴾ لَا يَزَالُ بُنْيَـٰنُهُمُ ٱلَّذِى بَنَوْا۟ رِيبَةً فِى قُلُوبِهِمْ إِلَّآ أَن
تَقَطَّعَ قُلُوبُهُمْ ۗ وَٱللَّهُ عَلِيمٌ حَكِيمٌ ﴿١١٠﴾﴾

**109. Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.**

**110. Onların ürəkləri parça-parça olana qədər tikdiyi bina qəlblərində bir şübhə olaraq qalacaqdır. Allah hər şeyi biləndir, hikmət sahibidir.**

Uca Allah bu ayələrdə buyurur ki, məscid binasını Allah qorxusu və Onun razılığını qazanmaq məqsədilə tikən kəslə, müsəlmanlara zərər vermək, küfr etmək, möminləri parçalamaq və daha əvvəl Allaha və Onun Elçisinə qarşı savaşan biri üçün sığınacaq yeri etmək məqsədilə tikən kəs, əlbəttə, eyni ola bilməz. Sözsüz ki, onlar öz binalarını (məscidlərini) “**dağılmaqda olan uçurumun lap kənarında**” tikmişlər və tikdikləri ilə “**birlikdə Cəhənnəm oduna**” yuvarlanacaqlar. “**Allah zalım qövmü doğru yola yönəltməz**”, yəni Allah fitnə-fəsad törədənlərin işini əsla düzəltməz.

Uca Allah buyurur: “**Onların ürəkləri parça-parça olana qədər tikdiyi bina qəlblərində bir şübhə olaraq qalacaqdır**”, yəni bu pis işi etdiklərinə görə qəlblərində nifaq və şübhə qalacaqdır. Necə ki (Musanın qövmündə) buzova sitayiş edənlərin qəlblərinə buzov sevgisi yeridilmişdi.

Uca Allah buyurur: “**Onların ürəkləri parça-parça olana qədər...**”, yəni ölənə qədər. İbn Abbas, Mucahid, Qatədə, Abdur-Rahmən ibn Zeyd ibn Əsləm və bir çox sələf alimləri ayəni bu cür şərh etmişlər. “**Allah hər şeyi biləndir**”, yəni yaratdıqlarının əməllərini ən yaxşı biləndir, “**hikmət sahibidir**”, yəni əməllərinin əvəzini xeyir və ya şərlə verməkdə hikmət sahibidir.

﴿۞ إِنَّ ٱللَّهَ ٱشْتَرَىٰ مِنَ ٱلْمُؤْمِنِينَ أَنفُسَهُمْ وَأَمْوَٰلَهُم بِأَنَّ لَهُمُ ٱلْجَنَّةَ ۚ يُقَٰتِلُونَ فِى سَبِيلِ ٱللَّهِ
فَيَقْتُلُونَ وَيُقْتَلُونَ ۖ وَعْدًا عَلَيْهِ حَقًّا فِى ٱلتَّوْرَىٰةِ وَٱلْإِنجِيلِ وَٱلْقُرْءَانِ ۚ وَمَنْ أَوْفَىٰ بِعَهْدِهِۦ مِنَ
ٱللَّهِ ۚ فَٱسْتَبْشِرُوا۟ بِبَيْعِكُمُ ٱلَّذِى بَايَعْتُم بِهِۦ ۚ وَذَٰلِكَ هُوَ ٱلْفَوْزُ ٱلْعَظِيمُ ﴿١١١﴾﴾

**111. Doğrudan da, Allah möminlərdən Cənnət müqabilində canlarını və mallarını satın almışdır. Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Əhdini Allahdan daha yaxşı yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur.**

Uca Allah bu ayədə bildirir ki, canlarını və mallarını Allah yolunda fəda edən mömin qullarına əvəz olaraq Cənnət verəcəkdir. Bu, Allahın qullarına olan lütfü, səxavəti və yaxşılığı sayəsindədir. Ona itaət edən qullarına lütf edərək onlardan Cənnətin qarşılığını qəbul etmişdir. Həsən əl-Bəsri və Qatədə ﷺ belə demişlər: “Allaha and olsun ki, Allah onlarla ticarət etmiş və əvəzini çox yüksək ödəmişdir”.

Uca Allah buyurur: “**Çünki onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər**”, yəni istər öldürsünlər, istər öldürülsünlər və ya həm öldürüb, həm də öldürülsünlər, hər üç halda Cənnət onlara vacib olmuşdur. əl-Buxari və Muslimin “Səhih” əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: “Uca Allah Onun yolunda cihada çıxanı mükafatlandıracağına zamin olmuşdur. (Allah buyurur): “Onu (evindən) çıxaran yalnız Mənə olan imanı və elçilərimə olan inamıdır. Əgər bu yolda ölərsə, onu Cənnətə daxil edəcəyəm və ya nail olduğu savab və qənimətlə (sağ-salamat yurduna) qaytaracağam”.[1]

Uca Allah buyurur: “**Bu, Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir**”. Bu cümlə əvvəl qeyd olunmuş vədi gücləndirir və bildirir ki, Uca Allah bunu Özünə vacib etmişdir. Uca Allah bu vədi barədə əvvəlki böyük Kitablarda elçilərinə xəbər vermişdir. Bu böyük Kitablar; Musaya عليه السلام nazil olmuş Tövrat, İsaya عليه السلام nazil olmuş İncil və Muhəmmədə ﷺ nazil olmuş Qurandır. Onların hamısına Allahın salavatı və salamı olsun!

Uca Allah buyurur: “Əhdini **Allahdan daha yaxşı yerinə yetirən kimdir?**” Allah vədinə əsla xilaf çıxmaz. Necə ki başqa ayələrdə belə buyurur: “**Allahdan daha doğru danışan kim ola bilər?**” (“ən-Nisa”, 87); “**Sözündə Allahdan daha doğruçu kim ola bilər?**” (“ən-Nisa”, 122).

[1] əl-Buxari, 2891, 3123; Muslim, 1876/103, 3485, 4969.

Bu səbəbdən Uca Allah burada: "**Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur**" – deyə buyurur. Yəni qoy bu əhdin tələbini yerinə yetirənlər, bu əhdə vəfa edənlər qarşılıq olaraq qazanacaqları böyük qurtuluşa və əbədi nemətə görə sevinsinlər.

﴿ٱلتَّٰٓئِبُونَ ٱلۡعَٰبِدُونَ ٱلۡحَٰمِدُونَ ٱلسَّٰٓئِحُونَ ٱلرَّٰكِعُونَ ٱلسَّٰجِدُونَ ٱلۡأٓمِرُونَ
بِٱلۡمَعۡرُوفِ وَٱلنَّاهُونَ عَنِ ٱلۡمُنكَرِ وَٱلۡحَٰفِظُونَ لِحُدُودِ ٱللَّهِۗ وَبَشِّرِ ٱلۡمُؤۡمِنِينَ ١١٢﴾

**112. Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudları qoruyan o möminləri müjdələ.**

Uca Allah bu ayədə Cənnət müqabilində canlarını və mallarını satın aldığı möminləri vəsf edir. Uca Allah məhz bu gözəl vəsflər və əxlaqi keyfiyyətlər müqabilində onlardan canlarını və mallarını satın almışdır. Bu vəsflər belədir: "**Tövbə edən**", yəni bütün günahlardan tövbə edib yaramaz əməlləri tərk edən, "**ibadət edən**", yəni Rəbbinə ibadət edən və ibadətlərində davamlı olan. İbadətlər söz və əməllərdən ibarətdir. Sözlə edilən ən fəzilətli ibadətlərdən biri də Allaha həmd etməkdir. Bu səbəbdən Uca Allah onu xüsusilə qeyd edərək: "**həmd edən**" – deyə buyurmuşdur. Əməllə edilən ən fəzilətli ibadət isə orucdur. Oruc – yemək, içmək və cinsi əlaqə kimi ləzzətləri (oruclu olarkən) tərk etməkdir. Ayədə **السَّائِحُونَ** [əs-sə:ihu:nə] dedikdə, məhz "**oruc tutan**" nəzərdə tutulur. Uca Allah başqa bir ayədə eyni sözü işlətməklə Peyğəmbərin ﷺ zövcələrini vəsf edərək: "...**oruc tutan...**" ("ət-Təhrim", 5) – deyə buyurur. Ayənin davamında Uca Allah: "**rüku və səcdə edən**" – deyə buyurur. Çünki rüku və səcdə namazın tərkib hissəsidir. Bu sadalanan vəsflərlə yanaşı, onlar Allahın yaratdığı məxluqlara fayda verər, insanlara yaxşı işlər görməyi əmr edib pis əməlləri qadağan etməklə, onları elmlə Allaha itaətə yönəldərlər. Çünki onlar nəyi etməyin vacib, nəyi etməyin isə qadağan olduğunu bilərlər. Bu isə Allahın halal və haramlarında Onun hüdudlarını qorumaqdır. Bu qoruma həm elm, həm də əməllə olmalıdır. Onlar həm Allaha ibadət edər, həm də insanlara nəsihət edərlər. Bu səbəbdən Uca Allah ayənin sonunda: "**...o möminləri müjdələ**" – deyə buyurur. Çünki iman bütün bu əməlləri özündə cəm edir. Bu vəsflərə sahib olanlar, məhz onlar xoşbəxtdirlər. Abdullah ibn Məsud رضي الله عنه ayədə keçən **السَّائِحُونَ** [əs-sə:ihu:nə] sözünün "oruc tutanlar" olduğunu demişdir. Eyni təfsir İbn Abbasdan رضي الله عنهما da rəvayət edilmişdir. Mucahid, Səid ibn Cubeyr, Əta və başqaları da belə demişlər. Ən üstün və ən məşhur

olan rəy də budur. Lakin السَّائِحُونَ [əs-sə:ihu:nə] sözünün "cihad etmək" mənasında olduğuna dəlalət edən hədislər də var. Əbu Davudun "Sunən" əsərində Əbu Umamədən rəvayət edilir ki, bir kişi Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, mənə səyahət etməyə izn ver". Peyğəmbər ﷺ dedi: "Ümmətimin səyahəti Allah yolunda cihad etməkdir".[1]

Hədisdə "səyahət etmək" dedikdə, bəzilərinin anladığı kimi, yer üzünü sadəcə gəzib-dolaşmaq və ya ibadət məqsədilə çöllərdə, mağaralarda, dağların ətəklərində tək qalmaq nəzərdə tutulmur. Çünki bu, yalnız fitnə baş verdikdə və ya dində sarsıntılar olduğu vaxtlarda edilir. əl-Buxarinin "Səhih" əsərində Əbu Səid əl-Xudridən rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Tezliklə elə qarışıqlıqlar baş verəcək ki, o zaman müsəlmanın ən xeyirli malı dininə görə fitnələrdən qaçaraq dağların başında və yağmur düşən vadilərdə otardığı qoyunları olacaqdır".[2]

İbn Abbas Uca Allahın "**Allahın qoyduğu hüdudları qoruyan o möminləri müjdələ**" ayəsi barədə belə demişdir: "Allaha daim itaət edərlər". Həsən əl-Bəsri də belə demişdir. İbn Abbasdan gələn rəvayətlərdən birində isə belə demişdir: "**Allahın qoyduğu hüdudları qoruyan**", yəni Allahın fərz buyurduğu ibadətləri qoruyanlar". Başqa bir rəvayətdə isə: "Allahın əmrlərini yerinə yetirərlər" – demişdir.[3]

﴿مَا كَانَ لِلنَّبِيِّ وَٱلَّذِينَ ءَامَنُوٓا۟ أَن يَسْتَغْفِرُوا۟ لِلْمُشْرِكِينَ وَلَوْ كَانُوٓا۟ أُو۟لِى قُرْبَىٰ مِنۢ بَعْدِ مَا
تَبَيَّنَ لَهُمْ أَنَّهُمْ أَصْحَٰبُ ٱلْجَحِيمِ ﴿١١٣﴾ وَمَا كَانَ ٱسْتِغْفَارُ إِبْرَٰهِيمَ لِأَبِيهِ إِلَّا عَن مَّوْعِدَةٍ وَعَدَهَآ إِيَّاهُ
فَلَمَّا تَبَيَّنَ لَهُۥٓ أَنَّهُۥ عَدُوٌّ لِّلَّهِ تَبَرَّأَ مِنْهُ ۚ إِنَّ إِبْرَٰهِيمَ لَأَوَّٰهٌ حَلِيمٌ ﴿١١٤﴾﴾

**113. Müşriklərin Cəhənnəm sakinləri olduqları müsəlmanlara bəlli olduqdan sonra onlarla qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz.**

**114. İbrahimin öz atası üçün bağışlanma diləməsi isə, sadəcə, ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı. Həqiqətən, İbrahim Allaha çox yalvaran və həlim xasiyyətli bir kimsə idi.**

[1] Əbu Davud (2486). Hədis səhihdir. Bax: Səhih əl-Cami, 2093.

[2] əl-Buxari, 19.

[3] ət-Təbəri, 17318-17321, 17401-17404.

İmam Əhməd ﷺ İbn Museyyibdən, o da atasından (Museyyib ibn Həzndən) rəvayət etmişdir ki, Əbu Talib[1] ölüm ayağında ikən Peyğəmbər ﷺ onun yanına daxil oldu. Orada Əbu Cəhl və Abdullah ibn Əbu Umeyyəni[2] gördü. Peyğəmbər ﷺ Əbu Talibə dedi: "Əmi, "Lə iləhə illəllah" kəlməsini de ki, Allah yanında sənin üçün şəfaətçi olum". Əbu Cəhl və Abdullah ibn Əbu Umeyyə dedilər: "Ey Əbu Talib, Abdul-muttəlibin[3] dinindən üz çevirməkmi istəyirsən?!" (Peyğəmbər ﷺ tövhid kəlməsini, onlar da öz dediklərini ta o vaxta qədər təkrar etdilər ki, axırda) Əbu Talib onlara: "Mən Abdul-muttəlibin dinində qalıram" – dedi. Peyğəmbər ﷺ dedi: "Allaha and olsun ki, mənə qadağan edilənədək sənin üçün bağışlanma diləyəcəyəm". Onda Uca Allah bu ayəni nazil etdi: "**Müşriklərin Cəhənnəm sakinləri olduqları müsəlmanlara bəlli olduqdan sonra onlarla qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz**". Həmçinin bu ayə nazil oldu: "**Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır**". ("əl-Qəsəs", 56). Hədisi əl-Buxari və Muslim ﷺ rəvayət etmişlər.[4]

İbn Abbas ﷺ bu ayənin təfsirində belə demişdir: "Səhabələr bu ayə nazil olana qədər müşrik olaraq ölən qohumları üçün bağışlanma diləyərdilər. Bu ayə nazil olduqda müşrik olaraq ölənlər üçün bağışlanma diləməkdən vaz keçdilər. Lakin bu ayə onlara sağ olan (müşrik) qohumları üçün bağışlanma diləməyi qadağan etmirdi. Sonra Uca Allah "**İbrahimin öz atası üçün bağışlanma diləməsi isə, sadəcə, ona verdiyi vədə görə idi**" ayəsini nazil etdi".[5]

Səid ibn Cubeyr ﷺ belə demişdir: "Yəhudi bir kişi ölmüşdü və onun müsəlman bir oğlu var idi. Müsəlman oğlu onun cənazəsini dəfn etmək üçün çıxmadı. İbn Abbasa bu barədə xəbər verdikdə belə dedi: "O, atasının cənazəsini müşayiət etməli və onu dəfn etməli idi. Sağ ikən onun islah olunması üçün dua etməli, öldükdə isə onu öz halına həvalə etməli idi". Sonra İbn Abbas ﷺ dedi: "**İbrahimin öz atası üçün bağışlanma diləməsi isə sadəcə ona verdiyi vədə görə idi. Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı**", yəni ona dua etmədi".[6] Əbu

[1] Əbu Talib Peyğəmbərin ﷺ əmisi və Əlinin ﷺ atası idi.
[2] Hər ikisi Peyğəmbərin ﷺ qatı düşməni idi.
[3] Abdul-muttəlib Peyğəmbərin ﷺ babası və Əbu Talibin atasıdır.
[4] Muslim, 35, 141; əl-Buxari, 1294, 1360; Əhməd, 9685; İbn Hibban, 982.
[5] ət-Təbəri, 17332, 17415.
[6] ət-Təbəri, 17336, 17419.

Davud və başqalarının Əli ibn Əbu Talibdən ﷺ rəvayət etdikləri bu hədis İbn Abbasın ﷺ dediklərinin səhih olduğunu təsdiqləyir. Bu hədisdə Əli ibn Əbu Talib ﷺ demişdir: "Əbu Talib (atası) vəfat etdikdə mən: "Ey Allahın Elçisi, zəlalətdə olan qoca əmin ölmüşdür" – dedim. Peyğəmbər ﷺ dedi: "Get və onu dəfn et! Mənim yanıma qayıdana qədər heç bir şey danışma". Sonra Əli ﷺ hədisin davamını qeyd etdi.[1]

Uca Allah buyurur: "**Atasının Allaha düşmən olduğu ona bəlli olduqdan sonra isə ondan uzaqlaşdı**". İbn Abbas ﷺ bu ayə barədə belə demişdir: "İbrahim atası ölənə qədər onun üçün bağışlanma diləməkdə davam edirdi. Atasının Allahın düşməni olduğu ona bəlli olduqda ondan uzaqlaşdı". Bir rəvayətdə isə belə demişdir: "Atası (şirk üzərində) öldükdə isə atasının Allahın düşməni olduğu ona bəlli oldu". Mucahid, əd-Dahhək, Qatədə və başqaları da belə demişlər.[2]

Uca Allah buyurur: "**Həqiqətən, İbrahim Allaha çox yalvaran və həlim xasiyyətli bir kimsə idi**". Abdullah ibn Məsud ﷺ ayədə keçən الأَوَّاهُ [əl-əvvə:h] sözünü "çox dua edən" kimi təfsir etmişdir. Mucahid, Həsən əl-Bəsri və Qatədə ﷺ isə bu sözün "çox mərhəmətli", yəni "Allahın qullarına qarşı şəfqətli" mənasında olduğunu demişlər. İbn Abbas ﷺ isə bu sözü "çox tövbə edən mömin" kimi təfsir etmişdir. əl-Aufi İbn Abbasdan ﷺ rəvayət etmişdir ki, bu söz həbəş dilində "mömin" mənasını verir. Mucahid ﷺ demişdir: "[əl-Əvvə:h] – özünü günahlardan qoruyan, Allahdan qorxan, gizlində günah edib yenə gizli olaraq ondan tövbə edəndir".[3] İbn Cərir ﷺ demişdir: "Bu rəylərin ən üstünü bu sözü "çox dua edən" kimi təfsir edənlərin rəyidir. Ayənin məzmununa münasib olan da budur. Çünki Uca Allah İbrahimin atasına verdiyi vəddən dolayı ona bağışlanma dilədiyini zikr etmişdir. İbrahim çox dua edərdi, ona haqsızlıq və pislik edən kimsəyə qarşı həlim xasiyyətli idi. Bu səbəbdən atasının ona çox əziyyət verməsinə baxmayaraq, onun üçün bağışlanma diləmiş və ona: "**Sənə salam olsun! Mən Rəbbimdən sənin üçün bağışlanma diləyəcəyəm. Həqiqətən, O mənə qarşı çox lütfkardır**" ("Məryəm", 47) – demişdir. Ona əziyyət verməsinə baxmayaraq, atasına qarşı həlim davranmış, ona dua etmiş, onun üçün bağışlanma diləmişdir. Odur ki, Uca Allah ayənin sonunda: "**Həqiqətən, İbrahim Allaha çox yalvaran və həlim xasiyyətli bir kimsə idi**" – deyə buyurur.

[1] Əbu Davud (3214). Hədis səhihdir. Bax: İrvaul-Ğalil, 717.
[2] ət-Təbəri, 17343-17353, 17440-17450.
[3] İbn Əbu Hatim, 10071.

﴿وَمَا كَانَ ٱللَّهُ لِيُضِلَّ قَوْمَۢا بَعْدَ إِذْ هَدَىٰهُمْ حَتَّىٰ يُبَيِّنَ لَهُم مَّا يَتَّقُونَۚ إِنَّ ٱللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ ١١٥

إِنَّ ٱللَّهَ لَهُۥ مُلْكُ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِۖ يُحْيِۦ وَيُمِيتُۚ وَمَا لَكُم مِّن دُونِ ٱللَّهِ مِن وَلِيٍّ وَلَا نَصِيرٍ ١١٦﴾

**115. Allah bir qövmü doğru yola yönəltdikdən sonra haram olan şeylərdən onları xəbərdar etməyincə onları həmin yoldan azdırmaz. Həqiqətən, Allah hər şeyi bilir.**

**116. Həqiqətən, göylərin və yerin mülkü Allaha məxsusdur. O həm dirildir, həm də öldürür. Sizin Allahdan başqa nə bir himayədarınız, nə də bir köməkçiniz var.**

Uca Allah bu ayələrdə Özü barədə – Öz ədalətli hökmündən xəbər verərək bildirir ki, O bir qövmə elçilər göndərib onların əleyhinə hüccət çatdırmamış onları zəlalətə uğratmaz. Necə ki başqa bir ayədə belə buyurur: "**Səmud qövmünə gəldikdə isə, Biz onlara doğru yol göstərdik, onlar isə korluğu doğru yoldan üstün tutdular. Odur ki, onları qazandıqları günahlar üzündən alçaldıcı əzab ildırımı yaxaladı**" ("Fussilət", 17).

İbn Cərir ﷬ bu ayələrin təfsirində belə demişdir: "Uca Allah buyurur ki, sizi doğru yola yönəldib Ona və Elçisinə iman gətirdikdən sonra müşrik halda ölən qohumlarınıza bağışlanma diləməyi tərk edəsiniz deyə bu əməli qadağan etməyincə bu əmələ görə sizə zəlalət hökmü verməyəcək. Uca Allah sizə bir şeyin haram olduğunu bəyan edib bu əməli qadağan etməzdən əvvəl siz bu əməli etsəniz, əlbəttə, Allah buna görə sizin zəlalətə düşmənizə hökm verməyəcək. Çünki itaət və günah yalnız əmr və qadağalara əməl etməklə müəyyən olur. Əmr edilməyən və ya qadağan edilməyən xüsuslarda isə qul nə itaətkar, nə də asi olmaz".[1]

Uca Allah buyurur: "**Həqiqətən, göylərin və yerin mülkü Allaha məxsusdur. O həm dirildir, həm də öldürür. Sizin Allahdan başqa nə bir himayədarınız, nə də bir köməkçiniz var**". İbn Cərir ﷬ demişdir: "Bu ayədə Uca Allah mömin qullarını müşriklər və kafirlərin başçıları ilə döyüşə rəğbətləndirir. Onları göylərin və yerin sahibi olan Allahın yardımına güvənməyə, Onun düşmənlərindən qorxmamağa təşviq edir. Çünki onların Allahdan başqa nə bir himayədarı, nə də bir köməkçisi var". Kəb əl-Əhbər ﷬ demişdir: "Yer üzündə iynə ucu qədər elə bir yer yoxdur ki, orada bir mələk olmasın. Bu mələklər həmin yer barədə məlumatı yüksəldərək Allaha çatdırırlar. Göyün mələkləri yer üzündə olan qum dənəciklərinin sayından daha çoxdur. Ərşi daşıyan mələklərdən birinin topuğu ilə başı arasındakı məsafə yüz il gedilən yol qədərdir".[2]

---

[1] ət-Təbəri, 12/46, 14/536.

[2] İbn Əbu Hatim, 1073, 6347, 8362.

﴿لَقَد تَّابَ ٱللَّهُ عَلَى ٱلنَّبِيِّ وَٱلۡمُهَٰجِرِينَ وَٱلۡأَنصَارِ ٱلَّذِينَ ٱتَّبَعُوهُ فِي سَاعَةِ ٱلۡعُسۡرَةِ مِنۢ بَعۡدِ مَا كَادَ يَزِيغُ
قُلُوبُ فَرِيقٖ مِّنۡهُمۡ ثُمَّ تَابَ عَلَيۡهِمۡۚ إِنَّهُۥ بِهِمۡ رَءُوفٞ رَّحِيمٞ ١١٧﴾

**117. Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarın da əvvəlcə tövbəsini qəbul etdi, sonra isə onları bağışladı. Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir.**

Mucahid və bir çox təfsir alimləri bu ayənin Təbuk döyüşü barədə nazil olduğunu demişlər. Səhabələr Təbuk döyüşünə şiddətli istinin və quraqlığın hökm sürdüyü, suyun və azuqənin az olduğu son dərəcə çətin bir dövrdə çıxmışdılar. Qatədə ﷺ demişdir: "Müsəlmanlar Təbuk döyüşünə boğucu isti və Allahın bildiyi çətinliklər içərisində Şama getdilər. Bu səfərdə onlar dəhşətli çətinliklərlə üzləşdilər. Bizə çatan rəvayətlərə görə, aclıq o dərəcəyə çatmışdı ki, iki kişi bir xurmanı ortadan bölüb paylaşırdı. Bir neçə adam bir xurmanı aralarında əldən ələ dolaşdırır, biri xurmanı sovurur, sonra üstündən su içir, sonra digəri həmin xurmanı sovurur və üstündən su içirdi. Bunun üçün Uca Allah onların tövbələrini qəbul etdi və bu döyüşdən onları sağ-salamat geri qaytardı".[1]

İbn Cərir ﷺ Ömər ibn əl-Xattabın ﷺ belə dediyini rəvayət etmişdir: "Peyğəmbərlə ﷺ birlikdə isti bürkülü havada Təbuka doğru yola çıxdıq. Yolda bir yerdə düşərgə saldıq və burada susuz qaldıq. O qədər susadıq ki, susuzluqdan boynumuzun qopacağını sandıq. Susuzluq o dərəcədə idi ki, bir adam dəvəsini kəsib qarınındakı peyini çıxarıb sıxır, ondan çıxan suyu içib qalanını isə sərinləmək üçün ciyərinin üzərinə qoyurdu. Əbu Bəkr əs-Siddiq ﷺ dedi: "Ey Allahın Elçisi, Uca Allah sənə xeyir-dua etməyi öyrətmişdir. Bizim üçün dua et!" Peyğəmbər ﷺ: "Bunu etməyimi istəyirsənmi?" – deyə soruşdu. Əbu Bəkr: "Bəli" – deyə cavab verdikdə Peyğəmbər ﷺ əllərini göyə qaldırdı, əllərini aşağı salmamışdı ki, göy üzü dəyişdi və qapqara buludla doldu, sonra yağış yağdı. Səhabələr yanlarında olan qabları doldurdular. Düşərgəni tərk etdikdən sonra baxıb gördük ki, yağış qaldığımız düşərgənin ətrafından kənara keçməmişdi".[2]

---

[1] ət-Təbəri, 17428, 17511.

[2] İbn Cərir "Təfsir" kitabı (11/40). Hədisi, həmçinin əl-Hakim "Mustədrək" əsərində (1/159) rəvayət etmiş və: "Hədis əl-Buxari və Muslimin şərtlərinə görə səhihdir, lakin onlar rəvayət etməmişlər" – demişdir. ət-Təbəri, 17429, 17512; əl-Hakim, 566; İbn Hibban, 1383. Hədis həsən və ya səhihdir. Bax: Fiqhus-Sira, 1/407.

İbn Cərir رحمه الله bu ayəni belə təfsir etmişdir: "**Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra**", yəni səfərdə başlarına gələn çətinliklərdən dolayı haqdan yayınıb Peyğəmbərin ﷺ dini barədə şübhəyə düşmək üzrə olduqdan sonra "**Peyğəmbərin də, çətin vaxtda**", yəni mal, minik, azuqə və su xüsusunda çətinlik yaranan bir vaxtda "**onun ardınca gedən mühacirlərin və ənsarın da əvvəlcə tövbəsini qəbul etdi**", yəni onları Rəbbinə dönüşə və dini üzərində sabit qalmağa müvəffəq etdi. "**Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir**".

﴿وَعَلَى ٱلثَّلَٰثَةِ ٱلَّذِينَ خُلِّفُواْ حَتَّىٰٓ إِذَا ضَاقَتۡ عَلَيۡهِمُ ٱلۡأَرۡضُ بِمَا رَحُبَتۡ وَضَاقَتۡ عَلَيۡهِمۡ أَنفُسُهُمۡ وَظَنُّوٓاْ أَن
لَّا مَلۡجَأَ مِنَ ٱللَّهِ إِلَّآ إِلَيۡهِ ثُمَّ تَابَ عَلَيۡهِمۡ لِيَتُوبُوٓاْۚ إِنَّ ٱللَّهَ هُوَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ ١١٨ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ
ٱللَّهَ وَكُونُواْ مَعَ ٱلصَّٰدِقِينَ ١١٩﴾

**118. Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq, onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahın əzabından, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir.**

**119. Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun.**

İmam Əhməd رحمه الله Abdullah ibn Kəb ibn Malikdən رضي الله عنه rəvayət etmişdir ki, Kəb ibn Malik رضي الله عنه Təbuk döyüşündə Peyğəmbərlə ﷺ birlikdə iştirak etməməsi barədə olan hadisəni belə izah eşitmişdir: "Təbuk döyüşündən başqa Peyğəmbərin ﷺ apardığı döyüşlərin heç birindən yayınmamışdım. Bədr döyüşündən yayınmağıma gəlincə, ondan yayınanları Peyğəmbər ﷺ qınamamışdı. Çünki o zaman Peyğəmbər ﷺ döyüş üçün yox, Qureyş karvanının yolunu kəsmək üçün çıxmışdı. Allah da onları vədələşmədikləri bir yerdə düşmənləri ilə üz-üzə gətirdi. Əqəbə beyətində hamımız İslamı yaşatmağa dair Peyğəmbərə ﷺ beyət etdik. İnsanlar arasında Bədr döyüşünün Əqəbə beyətindən daha üstün sayılmasına baxmayaraq, mənim üçün Əqəbə beyəti daha sevimli idi. Təbuk döyüşünə gəldikdə isə bu döyüşdən yayındığım zaman özümü başqa döyüşlərdə olduğumdan daha qüvvətli və daha gümrah hiss edirdim. Allaha and olsun ki, bundan öncə heç vaxt mənim bir dəvədən artıq miniyim olmamışdı. Bu döyüş

vaxtı isə mənim iki dəvəm var idi. Adətən, Peyğəmbər ﷺ döyüşə getmək istədikdə (münafiqlər bilməsinlər deyə) ikimənalı danışmaqla həqiqi məqsədini (hansı istiqamətə getmək istədiyini və ya hansı qövmlə döyüşmək istədiyini) bildirməzdi. Peyğəmbər ﷺ Təbuk döyüşünə şiddətli bir istidə yola düşdü. Bu səfər çox uzun və təhlükəli, (qarşılaşacaqları) düşmənin isə sayı çox olduğundan, Peyğəmbər ﷺ müsəlmanlara bütün bunları nəzərə alıb hazırlıq görsünlər deyə məqsədini açıqlayıb gedəcəyi istiqaməti xəbər verdi. O zaman Peyğəmbərin ﷺ yanında olan müsəlmanların sayı olduqca çox idi və o, bu müsəlmanların adlarını xüsusi bir kitabda qeyd etməmişdi. Heç kim döyüşdən yayınmaq istəmirdi. Yalnız döyüşdən yayınmaq istəyən az sayda müsəlman elə zənn edirdi ki, vəhy nazil olmayınca Peyğəmbər ﷺ onların bu hərəkətindən xəbər tutmayacaq. Peyğəmbər ﷺ müsəlmanlarla birgə hazırlıq görüb meyvələrin yetişdiyi və ağac kölgələrinin xoş olduğu yayın isti günündə bu döyüşə çıxdı. Mənim də nəfsim bu meyvələrə və kölgəyə meyil edirdi. O zaman onlar döyüşə hazırlaşarkən, mən də hər səhər döyüşə hazırlaşmaq məqsədilə evdən çıxır və hər axşam heç bir hazırlıq görmədən evə qayıdıb öz-özümə: “Hazırlıq görmək üçün hələ vaxt var. İstəsəm, tez bir zamanda hazırlaşaram” – deyirdim. Camaat döyüşə tam hazır olana qədər bu səhlənkarlıq məndə davam etdi. Səhəri gün Peyğəmbər ﷺ və müsəlmanlar artıq səfərə yola düşdülər. Mən isə hələ də hazırlıq görməmişdim. Mən yenə öz-özümə dedim: “Bir-iki günə hazırlıq gördükdən sonra gedib onlara çataram”. Onlar Mədinədən çıxdıqdan sonra mən yenə də hazırlıq görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. (Ertəsi gün yenə) hazırlıq görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. Bu hal onların tez bir zamanda uzaqlaşmalarına və döyüşün olub keçməsinə qədər davam etdi və mən bu döyüşdə iştirak etmək fürsətini əldən buraxdım. Bütün bunlara baxmayaraq, mən yenə də onlara çatmaq fikrində idim. Kaş ki, bu fikrimi doğruldaydım. Lakin bu mənə müyəssər olmadı. Peyğəmbər ﷺ Mədinədən çıxıb döyüşə getdikdən sonra insanlar arasına çıxdıqda məni ən çox kədərləndirən o idi ki, burada yalnız münafiqlikdə ittiham olunanlar və Allahın döyüşə getməməyə rüsxət verdiyi zəiflər qalmışdı. Peyğəmbər ﷺ Təbuka gəlib çatana qədər mənim barəmdə düşünmədi. Təbukda ikən səhabələr arasında olduqda məni xatırlayıb dedi: “Kəb ibn Malik nə qərara gəldi?” Bəni Sələmə qəbiləsindən olan bir nəfər dedi: “Ey Allahın Elçisi, Kəbi iki gözəl libası və yan-yörəsinə özündən razı halda baxması Mədinədə saxladı”. Muaz ibn Cəbəl dedi: “Sənin dediyin söz necə də pisdir! Vallahi, ey Allahın Elçisi, biz Kəbdən yaxşılıqdan başqa bir şey görməmişdik”. Peyğəmbər ﷺ heç nə demədi. Onların Mədinəyə qayıtma xəbərini eşitdikdə

kədər məni bürüdü, artıq yalan danışmaq barəsində düşünməyə başladım və öz-özümə dedim: "Mən nə edim ki, sabah onun qəzəbindən xilas olum?" Sonra mən bu iş barəsində təcrübəsi olan yaxınlarımla məsləhətləşdim. Peyğəmbərin ﷺ Mədinəyə yaxınlaşması xəbəri mənə yetişdikdə bütün batil fikirləri özümdən uzaqlaşdırdım və başa düşdüm ki, uydurduğum yalan fikirlərlə özümə bəraət qazandıra bilməyəcəyəm. Ona görə də qərara gəldim ki, hər şeyi olduğu kimi Peyğəmbərə ﷺ söyləyim. Səhəri gün Peyğəmbər ﷺ Mədinəyə gəldi və adəti üzrə məscidə daxil olub iki rükət namaz qıldı. Sonra da (hal-əhval tutmaq üçün) orada olan camaatla birgə oturdu. Bu vaxt Təbuk döyüşündən yayınan səksəndən artıq kişi gəlib Peyğəmbərə ﷺ müxtəlif bəhanələr gətirməklə və and içməklə üzrxahlıq etməyə başladılar. Allahın Elçisi ﷺ onların aşkarda dediklərini qəbul etdi, onlardan bir daha vəd aldı, onlar üçün bağışlanma dilədi, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etdi. Bu zaman mən də Peyğəmbərin ﷺ hüzuruna gəlib ona salam verdim. Peyğəmbər ﷺ məni görcək gülümsədi, lakin qəzəbli olduğu hiss olunurdu. Peyğəmbər ﷺ: "Gəl!" – deyə məni çağırdı. Mən yaxınlaşıb onun qarşısında oturdum və o mənə dedi: "Bu döyüşdən yayınmağının səbəbi nə idi? Məgər sən bundan öncə (İslamı yaşatmağa) söz verməmişdin?" Mən dedim: "Elədir, ey Allahın Elçisi, vallahi ki, mən başqa birisinin hüzurunda olsaydım, bir bəhanə gətirməklə onun qəzəbindən canımı necə qurtaracağımı görərdin. Doğrudan da, mənim çox bəlağətli danışıq qabiliyyətim var. Vallahi, mən başa düşdüm ki, əgər mən bu gün yalan danışmaqla səni razı salsam, sonra Allah sənə həqiqəti bildirdikdə mənə qəzəblənəcəksən, lakin sənə həqiqəti söyləsəm, sənin mənə qəzəbin tutsa da, doğru danışdığıma görə Allahın bunu gözəl sonluqla bitirəcəyinə ümid edirəm. Xeyr, vallahi ki, mənim bu döyüşdən yayınmağıma bəraət qazandıracaq heç bir üzrlü səbəbim yoxdur. Çünki mən heç vaxt özümü indiki kimi qüvvətli və gümrah hiss etməmişdim". Peyğəmbər ﷺ dedi: "Bu, doğru söylədi. Ey Kəb, get, Allah sənin barəndə hökm verənə qədər səbir et". Mən çıxıb getdikdə Bəni Sələmə qəbiləsindən olan bir dəstə kişi tələsik arxamca gəlib mənə dedi: "Vallahi, biz səni bundan əvvəl günahkar bir şəxs kimi tanımırdıq. Sən döyüşdən yayınan şəxslər kimi Peyğəmbərə ﷺ üzrxahlıq etməyib aciz qaldın. Halbuki sənin bu günahın üçün Peyğəmbərin ﷺ bağışlanma diləməyi kifayət edərdi". Vallahi, onlar məni o qədər qınadılar ki, qayıdıb yalan söylədiyimi bildirmək istədim. Sonra da: "Məndən başqa belə hərəkət edən bir kimsə varmı?" – deyə soruşdum. Onlar dedilər: "Bəli, iki nəfər də sən dediyin kimi həqiqəti söylədi və sənə deyilənlər onlara da deyildi". Mən onların kim olduğunu soruşduqda onlar: "Bunlar Murara ibn Rabi əl-Amiri və Hilal ibn Umeyyə əl-Vaqifidir"

– deyib, Bədr döyüşündə iştirak etmiş, nümunəvi iki səhabəni mənə bildirdilər. Onlar bunu mənə söylədikdən sonra (fikrimdən dönməyib) çıxıb getdim. Peyğəmbər ﷺ müsəlmanlara döyüşdən yayınanlar arasında yalnız bizim üçümüzlə danışmağı qadağan etdi. Camaat bizdən uzaqlaşdı və onların bizə qarşı olan münasibəti dəyişdi. Hətta bu yerlər mənim üçün qəribləşdi. Bu vəziyyət əlli gün davam etdi. Bu müddət ərzində Murara və Hilal Allahın qədərinə boyun əyməklə evlərində oturub ağlayırdılar. Mən isə onlardan daha gənc və daha dözümlü olduğum üçün müsəlmanlarla birlikdə namazlarda iştirak edir və bazarlarda gəzib-dolaşırdım, lakin heç kəs mənimlə danışmırdı. Namazdan sonra Peyğəmbərin ﷺ yanına gəlib salam verər və öz-özümə deyərdim: "Görəsən onun dodaqları tərpəndimi, mənim salamımı aldımı?" Sonra onun yaxınlığında namaz qılar və gizlincə ona nəzər salardım. Namaza gəldiyim zaman Peyğəmbər ﷺ mənə tərəf baxardı, ancaq mən ona tərəf baxdıqda o məndən üz çevirərdi. İnsanların məndən üz çevirməsi və mənə qarşı olan soyuq münasibətləri beləcə davam etdi. Bir gün mən əmim oğlu Əbu Qətadənin həyət divarını aşıb onun yanına gəldim. Əbu Qətadə ən çox sevdiyim insanlardan biri idi. Mən ona salam verdim, ancaq vallahi ki, o mənim salamımı almadı. Mən dedim: "Ey Əbu Qətadə! Səni Allaha and verirəm, de görüm, mənim Allahı və Onun Elçisini sevən bir bəndə olduğumu bilirsənmi?" O susdu. Mən bir daha Allaha and verib soruşduqda, o, yenə də cavab vermədi. Mən üçüncü dəfə Allaha and verib soruşdum. O dedi: "Allah və Onun Elçisi daha yaxşı bilir!" Bu cavabdan sonra gözlərim yaşla doldu, sonra hasarı aşıb oradan uzaqlaşdım.

Bir gün mən Mədinə bazarında gəzib dolaşdığım zaman ora ticarət üçün gəlmiş Şam əhlindən olan bir nəsrani əkinçi: "Mən Kəb ibn Maliki necə tapa bilərəm?" – deyə soruşduqda, bazardakılar işarə edib məni ona göstərdilər. O, yaxınlaşıb Ğəssan vilayətinin hökmdarının məktubunu mənə təqdim etdi. Mən yazıb-oxumağı bacarırdım. Orada bu sözlər yazılmışdı: "Sonrasına gəlincə... Məndə olan məlumatlara görə dostun səninlə çox sərt davranır. Doğrusu, Allah səni təhqir olunacağın və sıxıntı çəkəcəyin bir yerdə qalmaq üçün yaratmamışdır. Elə isə bizim yanımıza gəl, sənə layiqincə hörmət edək". Bu məktubu oxuduqdan sonra mən: "Bu da bir imtahandır", – deyib onu təndirə atıb yandırdım. Qırx gün keçdikdən sonra Peyğəmbərin ﷺ göndərdiyi adam (Xuzeymə ibn Sabit) gəlib mənə dedi: "Allahın elçisi sənə həyat yoldaşından uzaqlaşmağı əmr edir". Mən dedim: "Onu boşayım, ya yox?" Dedi: "Yox, (boşama), lakin ondan uzaq dur və onunla yaxınlıq etmə!" Peyğəmbər ﷺ bu xəbəri Murara və Hilala da göndərmişdi. Mən həyat yoldaşıma dedim: "Atanın evinə get və Allahın hökmü gələnə qədər orada qal!" Hilal ibn Umeyyənin zövcəsi

Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ey Allahın Elçisi, Hilal artıq qocalmış və əldən düşmüşdür. Ona xidmət edəcək bir kimsə yoxdur. Ona xidmət göstərməyimə də qadağa qoyursan?” O dedi: “Xeyr, lakin səninlə yaxınlıq etməsin”. Hilalın zövcəsi dedi: “Vallahi ki, onun heç hərəkət etməyə taqəti qalmayıb. Bu hadisə baş verəndən bəri o, dayanmadan ağlayır”. Mənim də yaxınlarımdan bəziləri mənə dedilər: “Bəlkə sən də Peyğəmbərdən ﷺ izn istəyəsən və o, Hilal ibn Umeyyənin zövcəsinə ona xidmət etmək üçün izn verdiyi kimi sənin zövcənə də izn versin”. Mən dedim: “Vallahi, mən bu barədə Peyğəmbərdən ﷺ izn istəməyəcəm. Mən nə bilim ki, o nə cavab verəcək. Üstəlik, mən hələ gəncəm”. Biz on gün də gözlədik və artıq Peyğəmbərin ﷺ qadağan etdiyi günlərin sayı əlliyə çatdı. Mən əllinci gün Sübh namazını evlərimizdən birinin damının üstündə qılıb Allahın ayədə zikr etdiyi vəziyyətdə, yəni ürəyim təngə gəlib sıxılmış və gen dünya mənə dar olmuş bir halda oturmuşdum ki, birdən Səl dağının üstünə çıxıb uca səslə çağıran carçının: “Ey Kəb ibn Malik, sevin!” – dediyini eşitdim. Mən dərhal səcdə etdim və anladım ki, artıq Allah tövbəmizi qəbul etmiş və bizi bu sıxıntıdan qurtarmışdır. Peyğəmbər ﷺ Sübh namazını qıldıqdan sonra Allahın bizim tövbələrimizi qəbul etdiyini insanlara bəyan etmiş və onlar da bu şad xəbəri bizə çatdırmağa tələsmişlər. Bəziləri Mураранı və Hilalı müjdələmək üçün onların yanına getmişlər. Onlardan biri atını çaparaq məni müjdələməyə gəlmiş, digəri isə Səl dağına qalxıb oradan bu müjdəni mənə daha tez çatdırmışdı. Çünki səsin sürəti atın sürətindən daha tez çatır. Səsini eşitdiyim müjdəçi mənim yanıma gəldikdə libasımı ona verdim. Vallahi, özümün bundan başqa libasım olmadığı üçün Əbu Qətadədən libas aldım və onu geyib Peyğəmbərin ﷺ yanına getdim. Səhabələr dəstə-dəstə məni qarşılayır və tövbəmin qəbul olunması münasibətilə məni təbrik edib deyirdilər: “Allah tərəfindən tövbənin qəbul edilməsi sənə xeyirli olsun!” Mən məscidə daxil olduqda, Peyğəmbər ﷺ orada oturmuş və camaat da onun ətrafına toplaşmışdı. Talhə ibn Ubeydullah qalxaraq sürətlə mənə tərəf gəlib əlimi sıxdı və məni təbrik etdi. Allaha and olsun ki, mühacirlərdən ondan başqa heç kəs məni təbrik etmək üçün ayağa qalxmadı. Mən onun bu münasibətini heç vaxt unutmaram. Mən Peyğəmbərə ﷺ salam verdikdə, o, sevinclə parlayan üzünü mənə tərəf çevirib dedi: “Anan səni dünyaya gətirdiyi gündən bəri sənin üçün ən xeyirli olan bu günün səadəti ilə sevin!” Mən: “Ey Allahın Elçisi, bu müjdə sənin tərəfindəndir, yoxsa Allahın?” – deyə soruşduqda o dedi: “Xeyr, əksinə, bu, Allah tərəfindən olan müjdədir”. Adətən, Peyğəmbər ﷺ sevindikdə onun üzü ay parçası kimi parlayırdı. Biz də onun sevindiyini simasından hiss edərdik. Mən Peyğəmbərin ﷺ qarşısında oturub dedim: “Ey Allahın Elçisi, tövbəm qəbul olunduğu üçün var-dövlətimi Allah və Onun Rəsuluna sədəqə etmək istəyirəm”.

Peyğəmbər ﷺ dedi: “Var-dövlətinin bir hissəsini özündə saxla. Bu sənin üçün daha xeyirlidir”. Mən dedim: “Xeybər döyüşündə əldə olunmuş qənimətdən payıma düşən hissəni özüm üçün saxlayıram. Ey Allahın Elçisi! Həqiqətən, Allah məni bu sıxıntıdan yalnız doğru danışdığım üçün qurtardı. Elə buna görə də bundan sonra yalnız doğru danışacağam”. Allaha and olsun ki, Peyğəmbərə ﷺ doğru söylədiyim vaxtdan bəri Allahın kimisə doğru danışmaqda məni imtahana çəkdiyindən daha gözəl imtahana çəkdiyini bilmirəm. Bütün bunları Peyğəmbərə ﷺ söylədikdən sonra bu günədək yalan danışmaq niyyətində olmadım və Allahdan istəyirəm ki, bundan sonra da bu işdən məni qorusun. Buna görə də Allah Peyğəmbərinə ﷺ bu ayəni nazil etdi: **“Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarın da əvvəlcə tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir. Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahın əzabından, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun**”. Kəb dedi: “Allaha and olsun ki, İslam nemətindən sonra Allahın mənə bəxş etdiyi nemətlərdən ən gözəli Peyğəmbərə ﷺ doğru danışmaqdır ki, yalan danışıb həlak olanlardan olmayım. Uca Allah yalan danışanları məzəmmət edərək onlar barəsində bu ayəni nazil etmişdir: “**Yanlarına qayıtdığınız zaman onlardan əl çəkəsiniz deyə qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları günahların cəzası olaraq gedəcəkləri yer Cəhənnəm olacaqdır. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq qövmdən razı qalmaz**” (“ət-Tövbə”, 95-96). Peyğəmbər ﷺ bizim üçümüzdən başqa döyüşdən yayınanların hər birindən and içib, üzr diləmələrini qəbul etdi, həmçinin onların beyətini qəbul edib onlar üçün bağışlanma dilədi. Lakin bizim barəmizdə olan hökmü Allahın əmri gələnə qədər təxirə saldı. Bu haqda Uca Allah belə buyurur: “**Geri qalmış üç nəfəri də bağışladı...**”. Bu ayədə qeyd olunmuş “**Geri qalmış**” ifadəsi heç də bizim Təbuk döyüşündən geri qalmağımıza işarə deyil. Əksinə, bu bizim barəmizdə olan hökmün, and içərək Peyğəmbərdən ﷺ üzr diləyənlər barəsində olan hökmdən (əlli gün) geri qalmasıdır”. Oxşar hədisi əl-Buxari və Muslim رحمهما الله də rəvayət etmişlər.[1]

[1] Əhməd, 3/456-459, 15182, 15882; əl-Buxari, 4066, 4418; Muslim 2769/53, 4973, 7192.

Uca Allah bu ayədə üç nəfəri sıxıntı və kədərdən qurtardığını zikr edir. Müsəlmanlar əlli gün, əlli gecə onlarla əlaqəni kəsmişdilər, kədərdən ürəkləri sıxılmış, yer üzü öz genişliyinə baxmayaraq, onlara dar gəlmiş, bütün yolları bağlanmışdı və nə edəcəklərini bilmirdilər. Bütün bu çətinliklərə baxmayaraq, onlar Allahın əmrinə boyun əyib səbir etdilər, döyüşdən yayınmalarının səbəbi barədə Peyğəmbərə ﷺ doğru söylədikləri üçün Uca Allah onları çətinlikdən qurtarana qədər sabit qaldılar. Onlar üzrsüz səbəbdən geri qaldıqlarını etiraf etdilər. Bu səbəbdən bir müddət cəzalandırıldılar, sonra Uca Allah onların tövbəsini qəbul etdi. Məhz doğru danışdıqlarına görə aqibətləri onlar üçün xeyirli oldu və tövbələri qəbul edildi. Bu səbəbdən Uca Allah növbəti ayədə: “**Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun**” – deyə buyurur. Yəni doğru olun və düzgünlükdən yapışın ki, doğru danışanlardan olasınız və həlak olmaqdan xilas olasınız, Uca Allah da işlərinizi asanlaşdırar və sizə hər bir sıxıntıdan bir çıxış yolu nəsib edər. İmam Əhməd ﵀ Abdullah ibn Məsuddan ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Doğru söz danışın! Çünki doğruluq adamı yaxşı işlər görməyə yönəldir. Yaxşı işlər isə adamı Cənnətə aparır. Həqiqətən, adam o qədər doğru danışır ki, nəhayət, Allah qatında doğruçu yazılır. Yalan danışmaqdan çəkinin! Çünki yalan adamı günah işlərə yönəldir. Günah işlər isə adamı Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışır ki, nəhayət, Allah qatında yalançı yazılır”.[1] Hədisi əl-Buxari və Muslim rəvayət etmişlər.[2] Rəvayət edilir ki, Abdullah ibn Ömər ﵄ Uca Allahın “**Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun**” ayəsini belə izah etmişdir: “Yəni Muhəmməd ﷺ və onun səhabələri ilə birlikdə olun”.[3] əd-Dahhək ﵀ isə bu ayənin təfsirində belə demişdir: “Yəni Əbu Bəkr, Ömər və onların yoldaşları ilə birlikdə olun”.[4] Həsən əl-Bəsri ﵀ demişdir: “Düz danışanlarla birlikdə olmaq istəyirsənsə, dünyada zahid kimi yaşa və müsəlmanlara zərər vermə (onlar barədə batil söz danışma)!”[5]

---

[1] Əbu Səid əl-Xudri ﵁ Peyğəmbərdən ﷺ belə rəvayət etmişdir: “Hər səhər Adəm övladı yuxudan oyandığı zaman onun bütün əzaları dili qınayıb deyir: “Bizə olan münasibətində Allahdan qorx! Çünki biz səndən asılıyıq. Sən düz olsan, biz də düzələrik, yox, əgər büdrəsən, biz də büdrəyərik” (ət-Tirmizi, 2407. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 351).

[2] Əhməd, 3638; əl-Buxari, 5629, 6094; Muslim, 2607/105, 4719, 6803.

[3] İbn Əbu Hatim, 10097.

[4] ət-Təbəri, 17453, 17537.

[5] İbn Əbu Hatim, 10100.

﴿مَا كَانَ لِأَهْلِ ٱلْمَدِينَةِ وَمَنْ حَوْلَهُم مِّنَ ٱلْأَعْرَابِ أَن يَتَخَلَّفُوا۟ عَن رَّسُولِ ٱللَّهِ وَلَا يَرْغَبُوا۟ بِأَنفُسِهِمْ
عَن نَّفْسِهِۦ ۚ ذَٰلِكَ بِأَنَّهُمْ لَا يُصِيبُهُمْ ظَمَأٌ وَلَا نَصَبٌ وَلَا مَخْمَصَةٌ فِى سَبِيلِ ٱللَّهِ وَلَا يَطَـُٔونَ مَوْطِئًا يَغِيظُ
ٱلْكُفَّارَ وَلَا يَنَالُونَ مِنْ عَدُوٍّ نَّيْلًا إِلَّا كُتِبَ لَهُم بِهِۦ عَمَلٌ صَٰلِحٌ ۚ إِنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجْرَ ٱلْمُحْسِنِينَ ١٢٠﴾

**120. Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.**

Uca Allah bu ayədə Mədinə əhalisindən və Mədinə ətrafındakı ərəb qəbilələrindən Təbuk döyüşündə Peyğəmbərdən ﷺ geri qalanları və baş verən çətinlikdə ona yardım etmək istəməyənləri məzəmmət edir. Həqiqətən, onlar belə etməklə özlərini böyük savabdan məhrum etmişlər. "**Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən**", yəni düşmənlərini qorxudacaq "**elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın**", yəni bu əməllərin həyata keçməsi onlardan asılı olmayan qəzavü-qədər deyil, onların öz ixtiyarları ilə edilən saleh əməllərdir ki, bu əməllərə görə onlara böyük mükafat vardır. "**Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz**". Uca Allah başqa bir ayədə belə buyurur: "**İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik**" ("əl-Kəhf", 30).

﴿وَلَا يُنفِقُونَ نَفَقَةً صَغِيرَةً وَلَا كَبِيرَةً وَلَا يَقْطَعُونَ وَادِيًا إِلَّا كُتِبَ لَهُمْ لِيَجْزِيَهُمُ ٱللَّهُ أَحْسَنَ
مَا كَانُوا۟ يَعْمَلُونَ ١٢١﴾

**121. Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, buna görə onlara savab yazılmasın.**

Uca Allah bu ayədə buyurur ki, "**Allah onları**", yəni Onun yolunda döyüşənləri "**etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə, xərclədikləri elə bir kiçik və ya böyük məsrəf**", yəni az və ya çox olmasından asılı olmayaraq xərclədikləri elə bir məsrəf, "**keçdikləri elə bir vadi yoxdur ki**", yəni düşmənin üzərinə gedərkən keçdikləri elə bir vadi yoxdur ki, "**buna görə onlara savab yazılmasın**". Qatədə رحمه الله Uca Allahın "**...keçdikləri elə bir vadi yoxdur ki, buna görə onlara savab yazılmasın**" ayəsi barədə belə demişdir: "Allah yolunda evindən çıxan bir qövmün ailəsindən uzaqlaşdığı qədər Allaha yaxınlığı artar".[1]

﴿۞ وَمَا كَانَ ٱلْمُؤْمِنُونَ لِيَنفِرُوا۟ كَآفَّةً ۚ فَلَوْلَا نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُوا۟ فِى ٱلدِّينِ وَلِيُنذِرُوا۟ قَوْمَهُمْ إِذَا رَجَعُوٓا۟ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ ﴿١٢٢﴾﴾

**122. Möminlərin hamısı eyni vaxtda döyüşə çıxmamalıdır. Hər qəbilədən bir dəstə qalmalıdır ki, dini dərindən öyrənsinlər və öz camaatı döyüşdən geri qayıtdıqları zaman onları xəbərdar etsinlər. Bəlkə, onlar pis işlərdən çəkinələr.**

Bu ayə qəbilələrin Peyğəmbərlə ﷺ birlikdə Təbuk döyüşünə çıxmalarının hökmünü açıqlayır. Bir qrup sələf aliminə görə Peyğəmbər ﷺ döyüşə çıxdıqda hər bir müsəlmana onunla birlikdə çıxmaq vacib idi. Çünki Uca Allah: "**Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın**" ("ət-Tövbə", 41) – deyə buyurur. Həmçinin buyurur: "**Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz**" ("ət-Tövbə", 120). Həmin alimlərə görə sonradan bu hökm (Peyğəmbərlə ﷺ birlikdə çıxmağın vacib olması) bu ayə ilə ("ət-Tövbə", 122) nəsx edildi. Belə də deyilə bilər: "Uca Allah qəbilələrin hamısını və ya hamısı döyüşə çıxmadığı təqdirdə hər qəbilədən kiçik bir qrupun döyüşə çıxmasını istəyir ki, Peyğəmbərlə ﷺ birlikdə döyüşə çıxanlar ona nazil olan vəhyi öyrənsinlər və qövmlərinin yanına qayıtdıqda düşmənlə əlaqəli baş verən şeylər barədə qövmlərini xəbərdar etsinlər. Beləcə müəyyən bir səfərdə hər iki işi (həm döyüşə çıxmağı, həm də Peyğəmbərə ﷺ nazil olan vəhyi öyrənməyi) cəm etmiş olacaqlar. Peyğəmbərdən ﷺ sonra isə qəbilələrdən səfərə çıxan qrup ya dini öyrənmək, ya da cihad etmək üçün çıxacaqlar. Bu, qəbilələr üçün "Fərdul-Kifəyə"[2] hökmündədir".

[1] ət-Təbəri, 17465, 17549.

[2] "Fərdul-Kifəyə" – bir qrup müsəlmanın şəriətdə buyurulmuş bir əməli etməsi ilə həmin

İbn Abbas ﵄ demişdir: "Uca Allah "**Möminlərin hamısı eyni vaxtda döyüşə çıxmamalıdır**" ayəsində belə buyurur: "Möminlərin hamısı birdən döyüşə çıxıb Peyğəmbəri ﷺ tək qoymamalıdırlar. "**Hər qəbilədən bir dəstə qalmalıdır ki**", yəni döyüşə çıxan hər dəstədən bir qrup dini öyrənmək üçün qalmalıdır. Onlar yalnız Peyğəmbərin ﷺ izni ilə döyüşə çıxmalıdırlar. Dəstə döyüşə çıxdıqdan sonra Quran nazil ola bilər və geridə qalanlar bunu Peyğəmbərdən ﷺ öyrənərək döyüşdən geri qayıdan dəstəyə: "Həqiqətən, Uca Allah Peyğəmbərə ﷺ Quran nazil etdi və biz bunu ondan öyrəndik", – deyərək bunu onlara öyrətməlidirlər. Döyüşə çıxan dəstə onlardan sonra Uca Allahın Öz Peyğəmbərinə ﷺ nazil etdiyini öyrənmək üçün qalmalı, digər dəstə isə döyüşə göndərilməlidir. Uca Allah "**...dini dərindən öyrənsinlər**" buyurmaqla, məhz bunu nəzərdə tutur. Yəni Uca Allahın Öz Peyğəmbərinə ﷺ nazil etdiyini öyrənsinlər və döyüşə göndərilən dəstə qayıtdığı zaman öyrəndiklərini onlara öyrətsinlər. "**Bəlkə, onlar pis işlərdən çəkinələr**".[1]

Qatədə ﵀ bu ayə barədə belə demişdir: "Peyğəmbər ﷺ döyüşə ordu göndərdiyi zaman, Uca Allah müsəlmanlara Peyğəmbəri ﷺ tək qoymamağı, bir qrup insanın dini yaxşı öyrənmək üçün Peyğəmbərin ﷺ yanında qalmağı, digər bir qrupun isə öz qövmünü İslama dəvət edib onları əvvəlki ümmətlərin başına gələnlərdən çəkindirmək üçün getməsini əmr etmişdir".

İkrimə ﵀ demişdir: "Uca Allahın "**Əgər döyüşə çıxmasanız, Allah sizi ağrılı-acılı bir əzaba düçar edər və sizi başqa bir qövmlə əvəz edər**" ("ət-Tövbə", 39) və "**Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz**" ("ət-Tövbə", 120) ayələri nazil olduqda münafiqlər dedilər: "Muhəmmədlə birlikdə döyüşə çıxmayan bədəvi ərəblər həlak oldular". Peyğəmbərin ﷺ bəzi səhabələri səhrada yaşayan qövmlərinə İslam dinini öyrətmək üçün onların yanına getmişdilər. Bu səbəbdən Uca Allah "**Möminlərin hamısı eyni vaxtda döyüşə çıxmamalıdır**" ayəsini nazil etdi. Həmçinin "**Allahın dəvəti qəbul olunduqdan sonra Onun barəsində mübahisəyə girişənlərin dəlili Rəbbinin yanında boş şeydir. Onlar dünyada qəzəbə düçar olacaqlar. Axirətdə isə onları şiddətli əzab gözləyir**" ("əş-Şura", 16) ayəsi nazil oldu".[2]

---

əməlin məsuliyyətinin digər müsəlmanların boynundan düşməsinə deyilir. Məsələn, ölmüş müsəlman üçün bir qrup müsəlmanın cənazə namazı qılması kifayət edir, hamının cənazə namazında iştirak etməsi vacib deyil.

[1] ət-Təbəri, 17474, 17558.

[2] ət-Təbəri, 17476-17477, 17561. Ali Nasr hədisin zəif olduğunu bildirmişdir.

Həsən əl-Bəsri ﵀ bu ayə barədə demişdir: “Döyüşə çıxanlar dinlərini yaxşı öyrənməlidirlər ki, Uca Allah onları müşriklərin üzərində qalib etsin, onlara yardım etsin və qövmləri onların yanına qayıtdıqda onları xəbərdar etsinlər”.[1]

﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ قَـٰتِلُوا۟ ٱلَّذِينَ يَلُونَكُم مِّنَ ٱلْكُفَّارِ وَلْيَجِدُوا۟ فِيكُمْ غِلْظَةً ۚ وَٱعْلَمُوٓا۟ أَنَّ ٱللَّهَ مَعَ ٱلْمُتَّقِينَ ﴿١٢٣﴾﴾

**123. Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun. Qoy onlar sizdə sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir.**

Uca Allah bu ayədə möminlərə ardıcıl olaraq, əvvəl İslam torpaqlarına ən yaxın olan kafirlərlə, sonra isə onların ardınca gələnlərlə döyüşməyi əmr edir. Odur ki, Peyğəmbər ﷺ ilk olaraq Ərəb yarımadasında yeləşən müşriklərlə döyüşməyə başlamışdır. Peyğəmbər ﷺ onların işini bitirib Məkkə, Mədinə, Taif, Yəmən və Ərəb yarımadasının digər bölgələrini fəth etdikdən və ərəb qəbilələrindən insanlar dəstə-dəstə Allahın dininə girdikdən sonra Kitab əhli ilə döyüşə başladı və Ərəb yarımadasına ən yaxın yerləşən, Kitab əhli olduqları üçün İslama dəvət edilməyə digər insanlardan daha çox layiq olan rumlularla döyüşmək üçün ordu hazırladı. O, Təbuka qədər getmiş, lakin düşdükləri çətinliklər, ölkənin quraqlığı və vəziyyətin ağırlığı onların geri dönmələrinə səbəb olmuşdur. Bu hadisə Peyğəmbərin ﷺ hicrətinin doqquzuncu ilində baş vermişdir. Hicrətin onuncu ilində isə Peyğəmbər ﷺ vida həccini yerinə yetirməklə məşğul olmuşdur. Vida həccindən səksən bir gün sonra Peyğəmbər ﷺ vəfat etmiş və Uca Allah onu öz dərgahında olan nemətlərə qovuşdurmuşdur”.

Peyğəmbər ﷺ vəfat etdikdən sonra İslam dini tənəzzülə meyil etdiyi bir vaxtda onun xəlifəsi Əbu Bəkr ﵁ bu vəzifəni (kafirlərə qarşı döyüşməyi) öz üzərinə götürmüş və Uca Allah onun vasitəsilə dini möhkəmlətmişdir. O, İslamın əsaslarını qorumuş və azaraq dindən çıxanlara (zəkat verməyi rədd edənlərə) haqqı bəyan edərək onları güc hesabına İslama geri qaytarmışdır. Daha sonra İslam ordusunu xaçpərəst rumlulara və atəşpərəst farslara qarşı döyüşə hazırlamağa başlamışdır. Uca Allah onun bərəkəti sayəsində müsəlmanlara ölkələri fəth etməyi nəsib etdi, Xosrovu, Qeysəri və onların ordularını məğlub etdi. Bu iş Əbu Bəkrdən ﵁ sonra xəlifə olan əl-Fəruq Ömər ibn əl-Xattabın ﵁ əli ilə tamamlandı. Uca Allah

[1] ət-Təbəri, 17480, 17564.

onun əli ilə kafirləri məğlub, azğın münafiqləri rəzil etdi. O, həm şərqdə, həm də qərbdə ölkələr fəth etdi, uzaqdan və yaxından digər ölkələrin xəzinələri onun hüzuruna gətirildi, o da şəriətə uyğun və Allahın razı qaldığı şəkildə bunları müsəlmanlar arasında payladı. Ömər ﷺ şəhid olaraq[1] vəfat etdikdə mühacir və ənsardan ibarət səhabələr möminlərin əmiri Osman ibn Əffanın ﷺ xəlifə olmasına yekdilliklə qərar verdilər. O, ən geniş mənada İslam ümmətinə gözəl rəhbər oldu, Allahın böyük hüccətini (dinini) yer üzünün digər bölgələrində yaşayan insanlara çatdırdı, onun dövründə İslam dini yer üzünün hər yerində üstün oldu. Onlar Uca Allahın "**Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun**" ayəsini rəhbər tutaraq (əməl edərək) zalım bir ümmətə qalib gəldikdən sonra başqa zalım bir ümmətə keçir və beləcə, zalım və günahkar ümmətlərlə vuruşmağa davam edirdilər.

Uca Allah buyurur: "**Qoy onlar sizdə sərtlik görsünlər**", yəni qoy kafirlər onlarla vuruşarkən sizdə özlərinə qarşı sərtlik görsünlər. Həqiqətən, kamil mömin öz mömin qardaşına qarşı yumşaq, kafir düşməninə qarşı isə sərt olan adamdır. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Ey iman gətirənlər! Sizlərdən kim dinindən dönərsə, bilsin ki, Allah onun əvəzinə Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər**" ("əl-Maidə", 54); "**Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər**" ("əl-Fəth", 29); "**Ey Peyğəmbər! Kafirlərlə və münafiqlərlə vuruş. Onlarla sərt davran**" ("ət-Tövbə", 73; "ət-Təhrim", 9).

Uca Allah buyurur: "**Bilin ki, Allah müttəqilərlədir**", yəni kafirlərlə döyüşün, bu işdə Allaha təvəkkül edin və bilin ki, Ondan qorxub, Ona

[1] Ömər ibn əl-Xattab hicrətin 13-cü ilinin Zul-Hiccə ayının 23-də fəcr (sübh) namazı vaxtı əslən məcusi (atəşpərəst) olan Əbu Lulu ləqəbli Feyruz adlı bir şəxs tərəfindən şəhid edildi. Əbu Lulu Muğirə ibn Şöbənin qulu idi. O, xəlifəni özünün düzəltdiyi ikibaşlı xəncərlə göbəyinin altından altı zərbə vuraraq ağır yaraladı. Feyruz onu tutmağa cəhd edən on üç nəfərə də zərbə endirə bildi. Onlardan demək olar ki, yarısı öldü. Əbu Lulu qaça bilməyib ələ keçəcəyini hiss etdikdə, öz xəncəri ilə intihar etdi. Yaralı xəlifəni evinə apardılar. O, üç gün yaşadı və çərşənbə günü vəfat etdi. Hətta son günlərində belə o öz müdrikliyini və əxlaqını əldən verməmişdi. Ölümünü hiss etdikdə isə Aişənin yanına adamlar göndərib onun Peyğəmbərin ﷺ və Əbu Bəkrin ﷺ yanında dəfn ediləməsinə icazə istədi. Bu xahişi eşidəndə Aişə ﷺ dedi: "Mən bu yeri özüm üçün saxlamışdım, amma Ömər ﷺ bu yerə məndən daha layiqdir!" Adamlar gəlib bu xoş xəbəri xəlifəyə çatdırdılar. Bunu eşidən Ömər ﷺ dedi: "Mən öləndən sonra ondan bir də soruşun, ola bilər ki, mən sağ ikən xətrimə dəymək istəməyib". İnsanlar belə də edirlər, lakin Aişə ﷺ öz sözlərini bir də təsdiqləyir. Uca Allah ondan və digər bütün səhabələrdən razı olsun!

itaət etdiyiniz təqdirdə Allah sizinlədir. Bu ümmətin ən xeyirliləri olan üç nəsil (səhabələr, tabiinlər və onlardan sonrakı nəsil) dinə doğru əməl edib Allaha itaət etdiklərinə görə düşmənlərinə qalib gəlir, çox sayda ölkələri fəth edirdilər, onların düşmənləri isə rəzil və ziyan içində olurdu. Fitnələr, bidətlər və hakimlər arasında ixtilaflar meydana gəldikdə, İslam ölkələrinin ətrafındakı düşmənlər İslam ölkələrinə doğru irəliləməyə tamah saldılar. Onlar İslam ölkələrinə doğru irəliləyib ətrafdakı bir çox əraziləri ələ keçirdilər. Sonra hücumlarını davam etdirərək İslam ölkələrindən bir çoxunu zəbt etdilər. Şübhəsiz ki, bundan əvvəl də, sonra da hökm Allaha aiddir. Müsəlman hakimlərindən biri Allahın əmrlərinə itaət edib Allaha təvəkkül etdiyi təqdirdə, Uca Allah ona ölkələri fəth etməyi nəsib etmiş və Allaha olan sevgisinə uyğun olaraq düşmənlərdən İslam torpaqlarını geri ala bilmişdir.

﴿وَإِذَا مَآ أُنزِلَتۡ سُورَةٞ فَمِنۡهُم مَّن يَقُولُ أَيُّكُمۡ زَادَتۡهُ هَٰذِهِۦٓ إِيمَٰنٗاۚ فَأَمَّا ٱلَّذِينَ ءَامَنُواْ
فَزَادَتۡهُمۡ إِيمَٰنٗا وَهُمۡ يَسۡتَبۡشِرُونَ ١٢٤ وَأَمَّا ٱلَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٞ فَزَادَتۡهُمۡ رِجۡسًا إِلَىٰ
رِجۡسِهِمۡ وَمَاتُواْ وَهُمۡ كَٰفِرُونَ ١٢٥﴾

**124. Bir surə nazil edildiyi zaman onlardan istehza ilə: “Bu, hansınızın imanını artırdı?” – deyənlər də var. İman gətirənlərə gəldikdə isə o surə onların imanını artırır və onlar bir-birini müjdələyirlər.**

**125. Qəlbində xəstəlik olanlara gəlincə, o surə onların murdarlığı üstünə bir murdarlıq da artırır və onlar kafir olaraq ölürlər.**

Uca Allah buyurur: “**Bir surə nazil edildiyi zaman onlardan**”, yəni münafiqlərdən: “**istehza ilə: “Bu, hansınızın imanını artırdı?” – deyənlər də var**”, yəni münafiqlər bir-birinə: “Bu surə hansınızın imanını artırdı?” – deyərlər. Uca Allah onlara cavab olaraq belə buyurur: “**İman gətirənlərə gəldikdə isə o surə onların imanını artırır və onlar bir-birini müjdələyirlər**”. Bu ayə imanın artıb azala biləcəyinə dəlalət edən ən böyük sübutlardan biridir. Sələf və xələf alimlərinin əksəriyyətinin rəyi budur. Bir çoxları isə bu məsələdə alimlər arasında yekdil rəyin olduğunu nəql etmişlər.

Uca Allah buyurur: “**Qəlbində xəstəlik olanlara gəlincə, o surə onların murdarlığı üstünə bir murdarlıq da artırır**”, yəni qəlblərindəki şübhəyə yeni şübhələr əlavə edir. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: “**Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. Bu ayələr zalımların ancaq ziyanını artırır**” (“əl-İsra”, 82);

"**De: "O (Quran), iman gətirənlərə doğru yol göstəricisi və şəfadır". İman gətirməyənlərin isə qulaqlarında tıxac var. Onlar ona qarşı kordurlar. Onlar sanki uzaq bir yerdən çağırılırlar**" ("Fussilət", 44). Qəlblərə hidayət bəxş edən bir Kitabın onların azmasına və həlak olmasına səbəb olması bədbəxtliyin növlərindən biridir. Necə ki pis xüsusiyyəti olan (acı) bir bitkini nə qədər yaxşı bəsləsən də, bu onun yalnız pisliyini (acılığını) artırar.

﴿أَوَلَا يَرَوۡنَ أَنَّهُمۡ يُفۡتَنُونَ فِي كُلِّ عَامٖ مَّرَّةً أَوۡ مَرَّتَيۡنِ ثُمَّ لَا يَتُوبُونَ وَلَا هُمۡ يَذَّكَّرُونَ ١٢٦
وَإِذَا مَآ أُنزِلَتۡ سُورَةٞ نَّظَرَ بَعۡضُهُمۡ إِلَىٰ بَعۡضٍ هَلۡ يَرَىٰكُم مِّنۡ أَحَدٖ ثُمَّ ٱنصَرَفُواْۚ صَرَفَ ٱللَّهُ
قُلُوبَهُم بِأَنَّهُمۡ قَوۡمٞ لَّا يَفۡقَهُونَ ١٢٧﴾

**126. Onlar ildə bir və ya iki dəfə bəlaya düşdüklərini görmürlərmi? Bununla belə, yenə tövbə edib ibrət almırlar!**

**127. Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" – deyə bir-birinə baxır, sonra da üz çevirib gedirlər. Allah da onların qəlblərini (haqdan) sapdırmışdır. Çünki onlar anlamayan bir qövmdür.**

Uca Allah buyurur ki, bu münafiqlər "**ildə bir və ya iki dəfə bəlaya düşdüklərini**", yəni imtahan olunduqlarını "**görmürlərmi? Bununla belə, yenə tövbə edib ibrət almırlar!**" Yəni yenə keçmiş günahlarından tövbə etmirlər və gələcək hallarını düşünmürlər. Mucahid ﷺ bu ayənin təfsirində demişdir: "Yəni onlar quraqlıq, qıtlıq və aclıqla imtahan olunurlar".[1] Qatədə ﷺ isə belə demişdir: "İldə bir və ya iki dəfə müharibə ilə imtahan olunurlar".[2]

Uca Allah buyurur: "**Bir surə nazil edildiyi zaman onlar: "Sizi kimsə görürmü?" – deyə bir-birinə baxır, sonra da üz çevirib gedirlər. Anlamayan bir qövm olduqlarına görə Allah onların qəlblərini imandan məhrum etmişdir**". Bu ayədə də Uca Allah münafiqlər barədə xəbər verərək bildirir ki, Peyğəmbərə ﷺ bir surə nazil olduğu zaman: "**Sizi kimsə görürmü?" – deyə bir-birinə baxır, sonra da üz çevirib gedirlər**", yəni haqdan üz çevirib gedirlər. Onların din xüsusunda halları budur. Onlar haqqın yanında sabit qalmaz, onu qəbul etməz və ona əməl etməzlər. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Onlara nə olub ki, nəsihətdən üz döndərirlər? Sanki ürküdülmüş vəhşi uzunqulaqlardırlar. Ovçulardan, yaxud aslandan qaçırlar**" ("əl-Muddəssir", 49-51); "**Sənin**

[1] ət-Tabəri, 17491, 17575.
[2] ət-Tabəri, 17494, 17578.

**qarşında olan kafirlərə nə olub, belə tələsik, sağdan-soldan dəstə-dəstə ətrafından dağılışırlar?**" ("əl-Məaric", 36-37). Yəni bu qövmə nə olub ki, haqdan qaçıb batilə yönəlmək üçün sağdan-soldan dağılışıb sənin yanından gedirlər?

Uca Allah buyurur: "**...sonra da üz çevirib gedirlər. Allah da onların qəlblərini (haqdan) sapdırmışdır. Çünki onlar anlamayan bir qövmdür**". Bu, Uca Allahın bu ayəsinə bənzəyir: "**Onlar (İsrail oğulları) doğru yoldan sapdıqda, Allah da onların qəlblərini sapdırdı**" ("əs-Saff, 5). "**Çünki onlar anlamayan bir qövmdür**", yəni onlar Allahın xitabını anlamazlar, onu dərk etmək istəməzlər, əksinə, çaşqınlıq içindədirlər və ondan uzaqlaşmaq istəyərlər. Düşdükləri vəziyyətin səbəbi də məhz budur.

﴿لَقَدْ جَآءَكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِٱلْمُؤْمِنِينَ رَءُوفٌ
رَّحِيمٌ ﴿١٢٨﴾ فَإِن تَوَلَّوْا۟ فَقُلْ حَسْبِىَ ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ۖ عَلَيْهِ تَوَكَّلْتُ ۖ وَهُوَ رَبُّ ٱلْعَرْشِ ٱلْعَظِيمِ ﴿١٢٩﴾﴾

**128. Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir.**

**129. Əgər onlar üz döndərsələr, de: "Mənə Allah yetər. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Mən Ona təvəkkül etdim. O, böyük Ərşin Rəbbidir!"**

Uca Allah bu ayələrdə möminlərə onların özlərindən, yəni onlarla eyni mənşədən olan və onlarla eyni dildə danışan bir elçi göndərməklə onlara olan lütfünü və nemətini xatırladır. Necə ki İbrahim ﵇ duasında belə demişdir: "**Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin!**" ("əl-Bəqərə", 129). Uca Allah başqa bir ayədə belə buyurur: "**Allah möminlərə onların öz içərisindən Elçi göndərməklə lütf göstərdi. Bu Elçi onlara Allahın ayələrini oxuyur, onları günahlardan təmizləyir, onlara Kitabı və hikməti öyrədir**" ("Ali-İmran", 164). Burada isə belə buyurur: "**Sizə özünüzdən elə bir Elçi gəldi ki...**", yəni bu Peyğəmbər ﷺ sizin içərinizdən çıxmış və sizin dilinizdə danışır. Necə ki Cəfər ibn Əbu Talib ؓ Nəcaşiyə, Muğira ibn Şöbə ؓ isə Xosrovun elçisinə belə demişlər: "Həqiqətən, Allah bizim özümüzdən bizə bir peyğəmbər göndərmişdir. Biz onun əsil-nəcabətini və vəsflərini, getdiyi və qaldığı yerləri, doğru danışdığını və etibarlı insan olduğunu yaxşı bilirik".

Uca Allah buyurur: “**...sizin əziyyətə düşməyiniz ona ağır gəlir**”, ümmətini əziyyətə salan və onlara çətin gələn şeylər ona ağır gəlir. “Səhih” əsərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: “Həqiqətən, bu din asandır”.[1] İslamın buyurduğu qanun-qaydaların hamısı asan, səhvsiz və mükəmməldir. Uca Allah bu dini kimə asanlaşdırmışsa, onun üçün asandır. “**O sizə qarşı qayğıkeş...**”, yəni sizin hidayət olunmağınıza, dünya və axirət mənfəətinə nail olmağınıza hərisdir. ət-Tabərani رحمه الله Əbu Zərin رضي الله عنه belə dediyini rəvayət etmişdir: “Peyğəmbər ﷺ bizə göydə qanad çalan quşa kimi – hər şey barədə məlumat verib getmişdir. Peyğəmbər ﷺ belə demişdir: “Cənnətə yaxınlaşdıran və Cəhənnəmdən uzaqlaşdıran elə bir şey yoxdur ki, sizə bəyan olmasın”.[2]

Uca Allah buyurur: “**...möminlərə şəfqətli, rəhmlidir**”. Uca Allah başqa bir ayədə Peyğəmbərə ﷺ əmr edərək belə buyurur: “**Sənə tabe olan möminlərə qarşı təvazökar ol! Əgər onlar sənə asi olsalar, de: “Şübhəsiz ki, mən sizin etdiyiniz əməllərdən uzağam!” Qüdrətli və Rəhmli olan Allaha təvəkkül et!**” (“əş-Şuəra”, 215-217).

Həmçinin bu ayədə Uca Allah Peyğəmbərə ﷺ əmr edərək belə buyurur: “**Əgər onlar üz döndərsələr**”, yəni əgər onlar sənin gətirdiyin təmiz, kamil, hər şeyi əhatə edən şəriətdən üz döndərsələr, “**de: “Mənə Allah yetər**”, yəni Allah mənə kifayət edər. Ondan başqa haqq məbud yoxdur və mən yalnız Ona təvəkkül etdim. Uca Allah başqa bir ayədə belə buyurur: “**O, məşriqin və məğribin Rəbbidir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Elə isə Onu özünə Himayəçi götür!**” (“əl-Muzzəmmil”, 9). “**O, böyük Ərşin Rəbbidir!**” Yəni O, hər şeyin sahibi və yaradıcısıdır. Çünki O, göylərdə və yerdə olan bütün varlıqların tavanı olan böyük Ərşin Rəbbidir. Ərşin altında və göylərlə yer arasında nə varsa, hamısı Allahın hökmü altındadır. Onun elmi hər şeyi əhatə etmişdir. Onun əzəldən müəyyən etdiyi qəzavü-qədər hər şey üçün keçərlidir və O, hər şeyi Qoruyandır.

“ət-Tövbə” surəsinin təfsiri tamamlandı.
Həmd və şükür Allaha məxsusdur.

[1] əl-Buxari, 39.

[2] ət-Tabərani “əl-Kəbir” əsəri (2/155-156. 1647-ci hədis). əl-Heysəmi “əz-Zəvaid” əsərində (8/266-267) demişdir: “Hədisin raviləri “Səhih” əsərinin hədislərini rəvayət edənlərdər. Yalnız Muhəmməd ibn Abdullah ibn Yəzid əl-Məqri istisnadır. Lakin o mötəbər ravidir”. ət-Tabərani “Mucəmul-Kəbil” 1624. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1803.

الْكَلاَمُ عَلَى تفْسِيرِهَا

# “Yunus”

## surəsinin təfsiri

## Mərhəmətli və Rəhmli Allahın adı ilə
## Müvəffəqiyyət yalnız Allahdandır

## تَفْسِيرُ سُورَةِ يُونسَ

## "Yunus" surəsinin təfsiri

﴿الٓر تِلۡكَ ءَايَٰتُ ٱلۡكِتَٰبِ ٱلۡحَكِيمِ ١ أَكَانَ لِلنَّاسِ عَجَبًا أَنۡ أَوۡحَيۡنَآ إِلَىٰ رَجُلٖ مِّنۡهُمۡ أَنۡ أَنذِرِ ٱلنَّاسَ وَبَشِّرِ ٱلَّذِينَ ءَامَنُوٓاْ أَنَّ لَهُمۡ قَدَمَ صِدۡقٍ عِندَ رَبِّهِمۡۗ قَالَ ٱلۡكَٰفِرُونَ إِنَّ هَٰذَا لَسَٰحِرٞ مُّبِينٌ ٢﴾

**1. Əlif. Ləm. Ra. Bu, hikmətli Kitabın ayələridir.**

**2. İçlərindən bir adama "İnsanları qorxut və iman gətirənləri müjdələ ki, onları Rəbbi yanında mükafat gözləyir!" – deyə vəhy etməyimiz insanlara qəribəmi göründü? Kafirlər "Sözsüz ki, bu, açıq-aşkar bir sehrbazdır!" – dedilər.**

Bəzi surələrin əvvəlində gələn heca hərfləri barədə "əl-Bəqərə" surəsinin ilk ayələrinin təfsirində məlumat verilmişdir.

Uca Allah buyurur: "**Bu, hikmətli Kitabın ayələridir**", yəni bu açıq-aydın, təfsilatlı şəkildə izah edilmiş Quranın ayələridir. Mucahid ﷺ bu ayədə "Kitab" deyildikdə Tövrat və İncilin, əl-Həsən ﷺ isə Tövrat və Zəburun nəzərdə tutulduğunu demişdir. Lakin ayənin nə səbəbdən bu şəkildə təfsir edilməsini bilmirəm.

Uca Allah buyurur: "**İçərilərindən bir adama: "İnsanları qorxut və iman gətirənləri müjdələ ki, onları Rəbbi yanında mükafat gözləyir!" – deyə vəhy etməyimiz insanlara qəribəmi göründü?**" Uca Allah bu ayədə insanların içindən peyğəmbərlər seçilib göndərilməsinə təəccüblənən kafirləri məzəmmət edir. Necə ki Uca Allah Quranın başqa bir ayəsində əvvəlki nəsil kafirlərin "**Məgər bizə bir insanmı doğru yol göstərəcək?**" ("ət-Təğabun", 6) – dediklərini xəbər vermişdir. Hud və Saleh ﷺ öz qövmlərinə belə demişlər: "**Allahdan qorxub bəlkə mərhəmətə nail olasınız deyə sizi qorxutmaq üçün öz aranızdan olan bir kişinin vasitəsilə Rəbbinizin sizə öyüd-nəsihət verməsinə heyrətmi edirsiniz?**" ("əl-Əraf", 63-69). Həmçinin Uca Allah Qureyş kafirlərinin belə dediklərini xəbər verir: "**O, məbudların hamısını bir məbudmu etdi?! Həqiqətən,**

**bu, qəribə bir şeydir**" ("Sad", 5). İbn Abbas ﵄ demişdir: "Uca Allah Muhəmmədi ﷺ elçi göndərdikdə bəzi ərəblər bunu inkar etdilər və dedilər: "Allah, Muhəmməd kimi bir bəşəri elçi göndərməkdən ucadır". Uca Allah da "**İçlərindən bir adama "İnsanları qorxut və iman gətirənləri müjdələ ki, onları Rəbbi yanında mükafat gözləyir!" – deyə vəhy etməyimiz insanlara qəribəmi göründü?**" ayəsini nazil etdi".[1]

Təfsir alimləri Uca Allahın "**onları Rəbbi yanında mükafat gözləyir!**" ayəsi barədə ixtilaf etmişlər. İbn Abbas ﵄ demişdir: "Yəni Lövhi-Məhfuzda onlar üçün xoşbəxtlik yazılmışdır".[2] Başqa bir rəvayətdə isə belə demişdir: "Yəni etdikləri yaxşı əməllərə görə onlar üçün gözəl bir mükafat vardır".[3] Qeyd olunan ayə Uca Allahın bu ayələrinə bənzəyir: "**Allah, Öz tərəfindən gələcək şiddətli bir əzabla günahkarları qorxutmaq, yaxşı işlər görən möminləri gözəl mükafata nail olacaqları ilə müjdələmək üçün bu Kitabı ən doğru şəkildə nazil etdi. Möminlər orada əbədi qalacaqlar**" ("əl-Kəhf", 2-3). Mucahid ﵀ Uca Allahın "**...onları Rəbbi yanında mükafat gözləyir!**" ayəsi barədə belə demişdir: "Burada onların etdikləri saleh əməllərin – namazların, orucların, sədəqələrin və Allahın şəninə dedikləri təriflərin mükafatı nəzərdə tutulur".[4] İbn Cərir ﵀ də Mucahidin ﵀ rəyini seçmişdir. Ona görə möminlər ayədə zikr edilən yüksək məqama etdikləri saleh əməllərə görə nail olacaqlar.

Uca Allah buyurur: "**Kafirlər "Sözsüz ki, bu, açıq-aşkar bir sehrbazdır!" – dedilər**", yəni onlara özlərindən, onlar kimi bəşər olan (möminləri) müjdələyən və (kafirləri) qorxudan bir elçi göndərməyimizə baxmayaraq, "**Sözsüz ki, bu, açıq-aşkar bir sehrbazdır!**" – dedilər. Şübhəsiz ki, onlar yalançıdırlar.

﴿إِنَّ رَبَّكُمُ ٱللَّهُ ٱلَّذِى خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ فِى سِتَّةِ أَيَّامٍ ثُمَّ ٱسْتَوَىٰ عَلَى ٱلْعَرْشِ ۖ يُدَبِّرُ ٱلْأَمْرَ ۖ مَا مِن شَفِيعٍ إِلَّا مِنۢ بَعْدِ إِذْنِهِۦ ۚ ذَٰلِكُمُ ٱللَّهُ رَبُّكُمْ فَٱعْبُدُوهُ ۚ أَفَلَا تَذَكَّرُونَ ﴿٣﴾﴾

**3. Şübhəsiz ki, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. İşləri yoluna qoyan Odur. Yalnız Onun icazəsindən sonra kimsə şəfaətçi ola bilər. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər düşünüb ibrət almırsınız?**

---

[1] ət-Təbəri, 17527, 17612. Ali Nasr hədisin zəif olduğunu bildirmişdir.
[2] ət-Təbəri, 17539, 17624.
[3] ət-Təbəri, 17531, 17616.
[4] ət-Təbəri, 17532, 17617.

Uca Allah bu ayədə bütün aləmlərin Rəbbi olduğunu, göyləri və yeri altı günə yaratdığını xəbər verir. Bəzi alimlər bu altı günün bizim günlər kimi olduğunu, bəziləri isə hər günün insanların saydıqları illərdən min ilə bərabər olduğunu demişlər. Sonra O, Ərşə yüksəldi. Ərş ən əzəmətli varlıqdır və o, varlıqların tavanıdır. “**İşləri yoluna qoyan Odur**”, yəni yaratdıqlarının işlərini O idarə edir. “**Göylərdə və yerdə zərrə qədər bir şey də Ondan gizli qalmaz**” (“Səba”, 3). Bir iş Onu başqa bir işdən yayındırmaz, heç bir iş Ona çətin gəlməz, israrla dua edənlərin istəkləri Onu bezdirməz (usandırmaz), dağlarda, dənizlərdə, şəhərlərdə və çöllüklərdə böyüklərin işlərini idarə etmək Onu kiçiklərin işlərini idarə etməkdən yayındırmaz. “**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-Məhfuzdadır)**” (“Hud”, 6); “**O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın**” (“əl-Ənam”, 59).

Uca Allah buyurur: “**Yalnız Onun icazəsindən sonra kimsə şəfaətçi ola bilər**”. Başqa ayələrdə isə belə buyurur: “**Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər?**” (“əl-Bəqərə”, 255); “**Göylərdə neçə-neçə mələk var ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa heç kəsə heç bir fayda verməz**” (“ən-Nəcm”, 26); “**Onun qarşısında, izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz**” (“Səba”, 23).

Uca Allah buyurur: “**Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin**”, yəni tək və şəriki olmayan Allahı ibadətdə təkləşdirin. “**Məgər düşünüb ibrət almırsınız?**” Yəni ey müşriklər, halınız barədə düşünmürsünüz? Siz Allahın tək yaradan olduğunu bildiyiniz halda Onunla bərabər başqasına ibadət edirsiniz. Uca Allah başqa ayələrdə belə buyurur: “**Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə ki, “Allah!” – deyərlər**” (“əz-Zuxruf”, 87); “**De: “Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?” Onlar “Allahdır!” – deyəcəklər. De: “Bəs, qorxmursunuz?**” (“əl-Muminun”, 86-87). Həmçinin bu ayədən əvvəlki və sonrakı ayələr də belədir.

﴿إِلَيۡهِ مَرۡجِعُكُمۡ جَمِيعٗاۖ وَعۡدَ ٱللَّهِ حَقًّاۚ إِنَّهُۥ يَبۡدَؤُاْ ٱلۡخَلۡقَ ثُمَّ يُعِيدُهُۥ لِيَجۡزِيَ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ بِٱلۡقِسۡطِۚ
وَٱلَّذِينَ كَفَرُواْ لَهُمۡ شَرَابٞ مِّنۡ حَمِيمٖ وَعَذَابٌ أَلِيمُۢ بِمَا كَانُواْ يَكۡفُرُونَ ٤﴾

**4. Hamınızın dönüşü Onadır. Bu, Allahın haqq olan vədidir. O, məxluqu ilk dəfə yaradır, sonra onu Qiyamət günü yenidən diriltdir ki, saleh əməllər edənləri ədalətlə mükafatlandırsın. Kafirlərə gəlincə, küfr etdiklərinə görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır.**

Uca Allah bu ayədə Qiyamət günü məxluqatın Ona qayıdacağını xəbər verir. Uca Allah istisnasız hər kəsi ilk yaratdığı kimi təkrar ilk yaradılışına qaytaracaq. Sonra Uca Allah məxluqatı ilk dəfə yaratmağa başladığı kimi təkrar yaradacağını bildirir. “**Məxluqatı ilk dəfə yoxdan yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır**” (“ər-Rum”, 27).

Uca Allah buyurur: “**...saleh əməllər edənləri ədalətlə**”, yəni etdikləri əməllərə uyğun “**mükafatlandırsın. Kafirlərə gəlincə, küfr etdiklərinə görə onlar üçün qaynar içki və ağrılı-acılı bir əzab hazırlanmışdır**”, yəni kafirləri Qiyamət günü küfrlərinə görə bu ayələrdə zikr edilən əzablarla cəzalandıracaq. “**Onlar qızmar yel və qaynar su içində, qapqara duman kölgəsində olacaqlar**” (“əl-Vaqiə”, 42-43); “**Bu, qaynar su və irindir. Qoy onu dadsınlar! Kafirlər üçün əzabın buna bənzər başqa növləri də vardır**” (“Sad”, 57-58); “**Budur günahkarların yalan hesab etdikləri Cəhənnəm! Onlar onunla qaynar su arasında dolanacaqlar**” (“ər-Rahmən”, 43-44).

﴿هُوَ ٱلَّذِي جَعَلَ ٱلشَّمۡسَ ضِيَآءٗ وَٱلۡقَمَرَ نُورٗا وَقَدَّرَهُۥ مَنَازِلَ لِتَعۡلَمُواْ عَدَدَ ٱلسِّنِينَ وَٱلۡحِسَابَۚ مَا خَلَقَ ٱللَّهُ ذَٰلِكَ
إِلَّا بِٱلۡحَقِّۚ يُفَصِّلُ ٱلۡأٓيَٰتِ لِقَوۡمٖ يَعۡلَمُونَ ٥ إِنَّ فِي ٱخۡتِلَٰفِ ٱلَّيۡلِ وَٱلنَّهَارِ وَمَا خَلَقَ ٱللَّهُ فِي ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ لَأٓيَٰتٖ
لِّقَوۡمٖ يَتَّقُونَ ٦﴾

**5. Günəşi işıqlı, Ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə ona mənzillər (səfhələr[1]) müəyyən edən Odur. Allah bunları ancaq haqq olaraq yaratmışdır. O, ayələri bilən adamlara belə izah edir.**

[1] Səfhə - Günəşdən işıqlanma və Yerə görə vəziyyətlərindən asılı olaraq Ay və planetlərin müxtəlif dövrləri. (Azərbaycan dilinin izahlı lüğəti, 4/73).

**6. Doğrudan da, gecə ilə gündüzün bir-birini əvəz etməsində, Allahın göylərdə və yerdə yaratdıqlarında Allahdan qorxan adamlar üçün dəlillər vardır.**

Uca Allah bu ayələrdə qüdrətinin kamilliyinə və səltənətinin böyüklüyünə dəlalət edən əlamətləri yaratdığını xəbər verir. O, Günəşdən ayrılan şüanı Yer üzü üçün işıq, Aydan ayrılan şüanı isə nur etdiyini bildirir. Günəş bir növ, Ay isə başqa bir növ yaradılışdır. Qarşışıq düşməsinlər deyə onları fərqli yaratmışdır. Gündüzlərə Günəşi, gecələrə isə Ayı hakim etmişdir. Ay üçün mənzillər (səfhələr) müəyyən etmişdir. İlk çıxdıqda kiçik olur, sonra nuru və həcmi tədricən artır və nəhayət, bütöv Ay halına gəlir. Sonra yenidən kiçilməyə başlayır və (hicri təqvimlə) ayın sonunda ilk çıxdığı hala dönür. Uca Allah başqa ayələrdə belə buyurur: "**Nə Günəş Aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri öz orbiti ilə üzüb gedər**" ("Yasin", 40); "**Gecənin zülmətindən səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, Günəşi və Ayı (vaxt üçün) bir ölçü vasitəsi edən də Odur. Bu, Qüdrətli və Bilən Allahın müəyyən etdiyi hökmdür**" ("əl-Ənam", 96).

Bu ayədə Uca Allah belə buyurur: "**...illərin sayını və hesabı biləsiniz deyə ona**", yəni Aya "**mənzillər (səfhələr) müəyyən edən Odur**". Günəş vasitəsilə (Günəşin doğub-batması ilə) günlərin sayı bilinir, Ayın öz oxu ətrafında hərəkəti ilə isə ay və illərin hesabı bilinir. "**Allah bunları ancaq haqq olaraq yaratmışdır**", yəni Allah bunları əbəs yerə yaratmamışdır. Əksinə, bunların yaradılmasında Allahın dərin hikməti və tutarlı dəlilləri vardır. Uca Allah başqa ayələrdə belə buyurur: "**Biz göyü, yeri və onların arasındakıları nahaq yerə xəlq etməmişik. Bu, kafirlərin zənnidir. Vay o kafirlərin Oddakı halına!**" ("Sad", 27); "**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?" Haqq Hökmdar olan Allah hər şeydən ucadır! Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. O, şanlı Ərşin Rəbbidir**" ("əl-Muminun", 115-116).

Uca Allah buyurur: "**Biz**[1] **ayələri bilən adamlara belə izah edirik**", yəni ayələri və dəlilləri dərk edən adamlara belə açıqlayırıq.

[1] Qarilərdən İbn Kəsir (Qari), Əbu Amr, Həfs və Yaqub ayədə keçən feili üçüncü şəxsin təkində يُفَصِّلُ [yufəssilu] "**O, ayələri ... belə izah edir**" şəklində oxumuşlar. Muhəmməd ibn əs-Səməyfə ayədə həmin feili məchul növdə تُفَصَّلُ [tufəssalu] "Ayələr ... belə izah edilir" şəklində oxumuşdur (bu qiraət şəzdir). Digər qarilər isə feili birinci şəxsin cəmində نُفَصِّلُ [nufəssilu] "**Biz ayələri... belə izah edirik**" şəklində oxumuşlar. əl-Hafiz İbn Kəsir də təfsirində bu qiraəti seçmişdir.

Uca Allah buyurur: "**Doğrudan da, gecə ilə gündüzün bir-birini əvəz etməsində... Allahdan qorxan adamlar üçün dəlillər vardır**", yəni gecə ilə gündüzün bir-birini təqib etməsində Allahdan qorxanlar üçün dəlillər vardır. Biri gəldikdə o biri dərhal gedər, biri getdikdə isə digəri dərhal gələr və heç biri gecikməz. Uca Allah başqa ayələrdə belə buyurur: "**O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür**" ("əl-Əraf", 54); "**Nə Günəş Aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri öz orbiti ilə üzüb gedər**" ("Yasin", 40); "**Gecənin zülmətindən səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, Günəşi və Ayı (vaxt üçün) bir ölçü vasitəsi edən də Odur. Bu, Qüdrətli və Bilən Allahın müəyyən etdiyi hökmdür**" ("əl-Ənam", 96).

Uca Allah buyurur: "**...Allahın göylərdə və yerdə yaratdıqlarında Allahdan qorxan adamlar üçün dəlillər vardır**", yəni Allahın əzəmətinə dəlalət edən yaratdıqlarında Allahdan qorxan bir qövm üçün dəlillər vardır. Uca Allah başqa ayələrdə belə buyurur: "**Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər**" ("Yusuf", 105); "**De: "Görün göylərdə və yerdə nələr var". Lakin iman gətirməyən adamlara dəlillər və xəbərdarlıqlar heç bir fayda vermir**" ("Yunus", 101); "**Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır**" ("Ali-İmran", 190). Burada isə belə buyurur: "**Allahdan qorxan adamlar üçün dəlillər vardır**", yəni Allahın əzabından və qəzəbindən qorxanlar üçün dəlillər vardır.

﴿إِنَّ ٱلَّذِينَ لَا يَرۡجُونَ لِقَآءَنَا وَرَضُواْ بِٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَٱطۡمَأَنُّواْ بِهَا وَٱلَّذِينَ هُمۡ عَنۡ ءَايَٰتِنَا غَٰفِلُونَ ٧ أُوْلَٰٓئِكَ مَأۡوَىٰهُمُ ٱلنَّارُ بِمَا كَانُواْ يَكۡسِبُونَ ٨﴾

**7. Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlərin, dünya həyatından razı qalıb onunla rahatlıq tapanların və ayələrimizdən xəbərsiz olanların –**

**8. məhz onların qazandıqları günahlara görə gedəcəkləri yer Oddur.**

Uca Allah bu ayədə Qiyamət günü Allahın hüzurunda durmağı inkar edən, Onunla qarşılaşmağa ümid bəsləməyən, dünya həyatından razı qalıb qəlbləri onunla rahatlıq tapan bədbəxt insanların halı barədə xəbər verir. əl-Həsən ﷺ demişdir: "Allaha and olsun ki, dünya həyatını o qədər bəzəyib yüksəltdilər ki, sonunda Allahın kainatda yaratdığı dəlillərdən qafil olaraq dünyadan razı qaldılar, bu dəlillər barədə düşünmədilər,

Allahın ayələrini düşünüb onlara tabe olmadılar. Düşünmədilər ki, dünyada qazandıqları günahlara, səhvlərə, cinayətlərə, habelə Allahı, Onun Elçisini ﷺ və Axirət gününü inkar etdiklərinə görə Allahın hüzuruna qayıdacaqları gün cəza olaraq düşəcəkləri yer Cəhənnəm olacaqdır".

﴿إِنَّ ٱلَّذِينَ ءَامَنُوا۟ وَعَمِلُوا۟ ٱلصَّـٰلِحَـٰتِ يَهْدِيهِمْ رَبُّهُم بِإِيمَـٰنِهِمْ ۖ تَجْرِى مِن تَحْتِهِمُ ٱلْأَنْهَـٰرُ فِى جَنَّـٰتِ
ٱلنَّعِيمِ ﴿٩﴾ دَعْوَىٰهُمْ فِيهَا سُبْحَـٰنَكَ ٱللَّهُمَّ وَتَحِيَّتُهُمْ فِيهَا سَلَـٰمٌ ۚ وَءَاخِرُ دَعْوَىٰهُمْ أَنِ ٱلْحَمْدُ لِلَّهِ رَبِّ
ٱلْعَـٰلَمِينَ ﴿١٠﴾﴾

**9. İman gətirib saleh əməllər edənləri Rəbbi imanlarına görə doğru yola yönəldər. Nəim cənnətlərində onların ayaqları altından çaylar axar.**

**10. Onların oradakı duası: "Allahım! Sən pak və müqəddəssən!", orada bir-birlərini salamlaması: "Salam!" sözü və dualarının sonu: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!" sözləri olacaq.**

Bu ayələr Allaha iman gətirən, Onun göndərdiyi peyğəmbərləri təsdiqləyən, Allahın əmrlərinə tabe olan və yaxşı işlər görən xoşbəxt insanların halını bildirir. Həqiqətən, Allah onları imanlarına qarşılıq olaraq doğru yola yönəldəcək. Ola bilsin ki, ayədə "iman" kəlməsinin əvvəlində keçən بِ [bi] ön qoşması səbəb bildirir. Bu halda ayənin mənası belə olacaq: "Uca Allah dünyada iman gətirdikləri üçün Qiyamət günü Sirat körpüsü üzərində onlara doğru yol göstərəcək, onlar həmin körpünü keçib Cəhənnəmdən xilas olacaqlar və Cənnətə girəcəklər". Ola da bilər ki, bu ön qoşma "istianə" (yardımı ilə) manasındadır. Necə ki Mucahid Uca Allahın "**İman gətirib saleh əməllər edənləri Rəbbi imanlarına görə doğru yola yönəldər**" ayəsi barədə belə demişdir: "İmanları onlar üçün bir nur olacaq və onlar bu nurun köməyi ilə (haqq yolunda) gedəcəklər".[1]

Uca Allah buyurur: "**Onların oradakı duası: "Allahım! Sən pak və müqəddəssən!", orada bir-birlərini salamlaması: "Salam!" sözü və dualarının sonu: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!" sözləri olacaq**". Bu, Cənnət əhlinin halıdır. İbn Cureyc demişdir: "Uca Allahın "**Onların oradakı duası: "Allahım! Sən pak və müqəddəssən!"... olacaq**" ayəsi barədə mənə xəbər verilmişdir ki, Cənnət əhli iştahlarının çəkdiyi bir quşun yanından keçdikdə "Allahım! Sən pak və müqəddəssən!" – deyəcəklər. Onların duaları budur. Hökmdar olan Allah onlara

[1] ət-Təbəri, 17559, 17644.

istədiklərini verəcək və onları salamlayacaq. Onlar da Uca Allahın salamını qaytaracaqlar. Uca Allahın "**...orada bir-birlərini salamlaması: "Salam!" sözü... olacaq**" ayəsinin mənası da budur. Yedikdən sonra isə özlərinin Rəbbi olan Allaha həmd edəcəklər. Uca Allahın "**...dualarının sonu: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!" sözləri olacaq**" ayəsinin mənası da budur".[1]

Qeyd olunan ayə Uca Allahın bu ayələrinə bənzəyir: "**Möminlərin Ona qovuşacaqları gün xeyir-duaları "salam" olacaq. Allah onlara olduqca gözəl mükafat hazırlamışdır**" ("əl-Əhzab", 44); "**Onlar orada nə boş söz, nə də günaha səbəb olan söhbət eşidəcəklər. Ancaq "Salam! Salam!" – sözləri eşidəcəklər**" ("əl-Vaqiə", 25-26); "**Üstəlik, Rəhmli Rəbb onlara "Salam" deyəcək**" ("Yasin", 58); "**Mələklər bütün qapılardan onların yanına daxil olub deyəcəklər: "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!**" ("ər-Rad", 23-24).

Uca Allah buyurur: "**...dualarının sonu: "Həmd, aləmlərin Rəbbi Allaha məxsusdur!" sözləri olacaq**". Bu ayə göstərir ki, əbədi olaraq həmd edilən və ibadət olunan məbud yalnız Allahdır. Bu səbəbdən Uca Allah yaratmağa başlayarkən və davam edərkən, habelə, Kitabının əvvəlində və Kitabını nazil edərkən Özünə həmd etmişdir. Uca Allah buyurur: "**Kitabı Öz quluna nazil edən və onda heç bir nöqsana yol verməyən Allaha həmd olsun!**" ("əl-Kəhf", 1); "**Həmd, göyləri və yeri yaradan, zülmətləri və nuru var edən Allaha məxsusdur!**" ("əl-Ənam", 1). Bundan başqa Uca Allah Quranda bir çox məqamlarda da Özünə həmd etmişdir ki, bunları sadalamaq çox uzun olar. Hər bir halda həmd yalnız Onadır. Əvvəldə və sonda, dünya və Axirətdə, bütün hallarda həmd edilən yalnız Odur. Bir hədisdə Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Həqiqətən, Cənnət əhlinə nəfəs almaları ilham edildiyi kimi, "təsbih" (Subhən-Allah) və "həmd" (Əlhəmdulilləh) etmələri də ilham olunacaq".[2] Bu, həqiqətən, belə olacaq, çünki Cənnət əhli Allahın nemətlərinin onlara qat-qat artırıldığını, bu nemətlərin təkrarlandığını, yeniləndiyini, sonsuz olub bitmədiyini görəcəklər. Allahdan başqa heç bir məbud, Ondan başqa heç bir rəbb yoxdur.

[1] ət-Təbəri, 17562, 17647.
[2] Muslim, 2835/18, 7331.

﴿۞ وَلَوْ يُعَجِّلُ ٱللَّهُ لِلنَّاسِ ٱلشَّرَّ ٱسْتِعْجَالَهُم بِٱلْخَيْرِ لَقُضِىَ إِلَيْهِمْ أَجَلُهُمْ ۖ فَنَذَرُ ٱلَّذِينَ لَا يَرْجُونَ لِقَآءَنَا
فِى طُغْيَٰنِهِمْ يَعْمَهُونَ ﴿١١﴾﴾

**11. Əgər Allah insanlara istədikləri xeyiri tez verdiyi kimi, şəri də tez versəydi, əlbəttə, onların əcəli çatmış olardı. Bizimlə qarşılaşacaqlarına ümid etməyənləri isə azğınlıqları içində sərgərdan dolaşan vəziyyətdə tərk edərik.**

Uca Allah bu ayədə qullarına qarşı lütfkar və mülayim olduğunu bildirir. Belə ki, O, qullarının əsəbi və qəzəbli hallarında özlərinə, mallarına və övladlarına etdikləri bədduaları qəbul etmir. Uca Allah onların bu vəziyyətdə etdikləri bədduaları məqsədli şəkildə demədiklərini bilir və bu səbəbdən lütf və rəhmət olaraq bu bədduaları özlərinə, mallarına və ya övladlarına xeyir, bərəkət və artım diləyərək etdikləri xeyir duanı qəbul etdiyi kimi qəbul etmir. Bu səbəbdən Uca Allah ayədə "**Əgər Allah insanlara istədikləri xeyiri tez verdiyi kimi, şəri də tez versəydi, əlbəttə, onların əcəli çatmış olardı**" – deyə buyurur. Yəni əgər Allah onların hər duasını qəbul etsəydi, onları həlak edərdi. Lakin buna baxmayaraq, yenə də müsəlmana bəddua etməyi çoxaltmaq yaraşmaz. Necə ki Cabirdən ﵁ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Özünüzə, övladlarınıza, mallarınıza bəddua etməyin! Etdiyiniz bu bəddua Allahın duaları qəbul etdiyi bir vaxta düşüb qəbul oluna bilər".[1] Mucahid ﵀ bu ayənin təfsirində belə demişdir: "Bu bir insanın qəzəblənib övladına və ya malına "Allahım, ona bərəkət vermə və ona lənət et!" – deməsidir. Əgər Allah onun etdiyi xeyir duanı qəbul etdiyi kimi, bu duanı da qəbul etsəydi, əlbəttə, onu həlak edərdi".[2]

﴿وَإِذَا مَسَّ ٱلْإِنسَٰنَ ٱلضُّرُّ دَعَانَا لِجَنۢبِهِۦٓ أَوْ قَاعِدًا أَوْ قَآئِمًا فَلَمَّا كَشَفْنَا عَنْهُ ضُرَّهُۥ مَرَّ كَأَن لَّمْ يَدْعُنَآ إِلَىٰ
ضُرٍّ مَّسَّهُۥ ۚ كَذَٰلِكَ زُيِّنَ لِلْمُسْرِفِينَ مَا كَانُوا۟ يَعْمَلُونَ ﴿١٢﴾﴾

**12. İnsana bəla üz verdikdə – uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib-gedər. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi.**

[1] Muslim, 3009, 5328, 7705; Əbu Davud, 1532. Hədis səhihdir.
[2] ət-Təbəri, 17573, 17658.

Uca Allah bu ayədə insana bir zərər toxunduğu zaman onun narahat və təşviş içində olduğunu xəbər verir. Uca Allah başqa bir ayədə belə buyurur: "**İnsana nemət verdiyimiz zaman üz çevirib haqdan uzaq durar. Ona bir pislik toxunduqda isə uzun-uzadı**", yəni çox "**yalvarıb-yaxarar**" ("Fussilət", 51). Çünki insana bir çətinlik üz verdikdə təşvişə düşər, bundan narahat olar və həmin əsnada çox dua edər – uzanan yerdə, oturan yerdə, ayaq üstə, bütün hallarda onu bu çətinlikdən qurtarması və bu çətinliyi ondan sovuşdurması üçün Allaha yalvarar. Allah bu çətinliyi ondan uzaqlaşdırıb qəm və kədərini aradan qaldırdıqda isə üz çevirib haqdan uzaqlaşar və sanki ona heç bir şey olmamış kimi çıxıb gedər. "**... sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər**".

Sonra Uca Allah bu xüsusiyyətə sahib olan kəsləri məzəmmət edərək buyurur: "**Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi**". Uca Allahın hidayət, doğru yol, müvəffəqiyyət və düzgünlük bəxş etdiyi kəslərə gəlincə, onlar istisnadırlar. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Səbir edib yaxşı işlər görənlər istisnadır. Məhz onlar üçün bağışlanma və böyük bir mükafat vardır**" ("Hud", 11). Peyğəmbər ﷺ demişdir: "Mömінin işi qəribədir! Allahın onun qədərinə yazdığı hər bir iş onun üçün xeyirlidir. Başına sevindirici bir iş gəldikdə şükür edər, bu, onun üçün xeyir olar. Başına xoşagəlməz bir iş gəldikdə isə səbir edər, bu, onun üçün xeyir olar. Bu, mömindən başqa heç kimə məxsus deyildir".[1]

﴿وَلَقَدْ أَهْلَكْنَا ٱلْقُرُونَ مِن قَبْلِكُمْ لَمَّا ظَلَمُوا۟ وَجَآءَتْهُمْ رُسُلُهُم بِٱلْبَيِّنَٰتِ وَمَا كَانُوا۟ لِيُؤْمِنُوا۟ ۚ كَذَٰلِكَ نَجْزِى ٱلْقَوْمَ
ٱلْمُجْرِمِينَ ﴿١٣﴾ ثُمَّ جَعَلْنَٰكُمْ خَلَٰٓئِفَ فِى ٱلْأَرْضِ مِنۢ بَعْدِهِمْ لِنَنظُرَ كَيْفَ تَعْمَلُونَ ﴿١٤﴾﴾

**13. Sizdən əvvəlki nəsilləri də zülm etdiklərinə və elçiləri onlara açıq-aşkar dəlillər gətirdikləri halda onlara inanmadıqlarına görə məhv etdik. Biz günahkar adamları belə cəzalandırırıq.**

**14. Sonra onların ardınca sizi yer üzündə xələflər etdik ki, görək necə davranacaqsınız.**

Uca Allah bu ayələrdə peyğəmbərlərin onlara gətirdikləri aydın və qəti dəlilləri yalan saydıqlarına görə keçmiş nəsillərin başlarına gələnləri xəbər verir. Sonra Uca Allah bu qövmlərin yerinə başqalarını yer üzünün varisləri etmiş və onlara peyğəmbərlər göndərmişdir ki, Allaha necə itaət edəcəklərinə və göndərdiyi elçiyə necə tabe olacaqlarına baxsın. Muslimin "Səhih" əsərində Əbu Səiddən ؓ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Həqiqətən, dünya həyatı şirindir, gözoxşayandır.

[1] Muslim, 2999, 5318, 7692.

Uca Allah sizi orada varislər etmişdir ki, edəcəyiniz əməllərə baxsın. Dünyadan və qadınlardan çəkinin! Həqiqətən, İsrail oğullarının ilk fitnəsi qadınlara görə olmuşdur".[1]

﴿وَإِذَا تُتْلَىٰ عَلَيْهِمْ ءَايَاتُنَا بَيِّنَٰتٍ قَالَ ٱلَّذِينَ لَا يَرْجُونَ لِقَآءَنَا ٱئْتِ بِقُرْءَانٍ غَيْرِ هَٰذَآ أَوْ بَدِّلْهُ ۚ قُلْ مَا
يَكُونُ لِىٓ أَنْ أُبَدِّلَهُۥ مِن تِلْقَآئِ نَفْسِىٓ ۖ إِنْ أَتَّبِعُ إِلَّا مَا يُوحَىٰٓ إِلَىَّ ۖ إِنِّىٓ أَخَافُ إِنْ عَصَيْتُ رَبِّى عَذَابَ
يَوْمٍ عَظِيمٍ ﴿١٥﴾ قُل لَّوْ شَآءَ ٱللَّهُ مَا تَلَوْتُهُۥ عَلَيْكُمْ وَلَآ أَدْرَىٰكُم بِهِۦ ۖ فَقَدْ لَبِثْتُ فِيكُمْ عُمُرًا مِّن
قَبْلِهِۦٓ ۚ أَفَلَا تَعْقِلُونَ ﴿١٦﴾﴾

**15. Açıq-aydın ayələrimiz onlara oxunduğu zaman Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər deyərlər: "Bizə bundan başqa bir Quran gətir və ya onu dəyişdir!" De: "Mən onu öz istəyimlə dəyişdirə bilmərəm. Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxuram".**

**16. De: "Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım, O da onu sizə bildirməzdi. Mən axı bundan öncə də sizin aranızda yaşamışam. Məgər bilmirsiniz?"**

Uca Allah bu ayələrdə haqqı inkar edən, haqdan üz çevirən kafir Qureyş müşriklərinin inadkarlıqlarından xəbər verir. Peyğəmbər ﷺ onlara Allahın Kitabını, açıq-aşkar dəlilləri oxuduqda onlar "Bizə bundan başqa bir Quran gətir" – demişlər. Yəni bunu geri qaytar və bizə başqa bir tərzdə kitab gətir. Yaxud onu başqa bir şəklə çevir. Uca Allah Öz Peyğəmbərinə ﷺ belə buyurdu: "**De: "Mən onu öz istəyimlə dəyişdirə bilmərəm**", yəni bu iş mənə aid deyil. Mən yalnız (Allah tərəfindən) əmr olunan bir qul və Allahın dinini təbliğ edən bir elçiyəm. "**Mən yalnız mənə vəhy olunana tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxuram**".

Daha sonra Uca Allah onun gətirdiyi dinin doğruluğuna dəlil olaraq belə buyurur: "**De: "Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım, O da onu sizə bildirməzdi**", yəni mən sizə bu ayələri yalnız Allahın izni və istəyi ilə gətirirəm. Bunları özümdən demədiyimə və uydurmadığıma dəlil isə sizin bu ayələr qarşısında aciz qalmağınızdır. Halbuki siz, aranızda böyüyüb boya-başa çatdığım vaxtdan etibarən, ta ki Allahın məni peyğəmbər olaraq göndərdiyi vaxta qədər, həmişə doğru danışdığımı

[1] Muslim, 2742/99, 4925, 7124.

və etibarlı olduğumu yaxşı bilirsiniz. Məni heç bir şeylə tənqid edə bilməzsiniz. Bu səbəbdən Uca Allah belə buyurur: "**Mən axı bundan öncə də sizin aranızda yaşamışam. Məgər bilmirsiniz?**" Yəni sizin haqqı batildən ayırd edə biləcək ağlınız yoxdurmu? Rum hömdarı Herakl, Əbu Süfyana və onun yanında olanlara Peyğəmbərin ﷺ vəsfləri barədə verdiyi suallar içində belə bir sual vardı: "Bu dediklərini söyləməzdən əvvəl siz heç onu yalan danışmaqda ittiham etmişdinizmi?" Əbu Süfyan "Xeyr" – deyə cavab vermişdi. O vaxt Əbu Süfyan kafirlərin başçısı, müşriklərin böyüyü idi. Bununla belə, haqqı etiraf etmişdi. Necə ki şair demişdir:

Əsil fəzilət və üstünlük, düşmənlərin də şahidlik etdiyidir.

Herakl ona dedi: "Bildiyim odur ki, o, insanlara yalan danışmayan adam, Allah barədə də yalan danışmaz". Cəfər ibn Əbu Talib də Həbəşistan kralı Nəcaşiyə (rahmətullahi aleyh) belə demişdi: "Uca Allah bizim içimizdən nəsil-nəcabətini, doğruluğunu və etibarlı olduğunu bildiyimiz birini elçi göndərdi. Peyğəmbərlikdən əvvəl o, bizim aramızda qırx il yaşamışdır". Səid ibn Museyyib (rahimahullah) isə qırx üç il yaşadığını demişdir. Doğru və məşhur olan isə birinci görüşdür.

﴿فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَىٰ عَلَى اللَّهِ كَذِبًا أَوْ كَذَّبَ بِآيَاتِهِ ۚ إِنَّهُ لَا يُفْلِحُ الْمُجْرِمُونَ ﴿١٧﴾﴾

**17. Allaha qarşı yalan uydurandan və ya Onun ayələrini yalan hesab edəndən daha zalım kim ola bilər? Doğrudan da, günahkarlar nicat tapmazlar.**

Uca Allah bu ayədə buyurur ki, "**Allaha qarşı yalan uydurandan...**", yəni özündən sözlər uydurub Allaha aid edəndən və yalandan Allahın onu peyğəmbər göndərdiyini iddia edəndən daha zalım, daha azğın və günahı daha şiddətli heç kim yoxdur. Belə insandan daha günahkar və daha zalım bir kəs yoxdur. Bu insanın halı avamlara belə gizli qalmaz. Elə isə necə ola bilər ki, belə bir insanın halı peyğəmbərlərə şübhəli qalsın? Kim doğrudan və ya yalandan belə bir söz deyərsə (peyğəmbərlik iddia edərsə), sözsüz ki, Uca Allah onun doğru və ya yalan danışdığına Günəşdən daha aydın bir dəlil göstərər. Muhəmməd peyğəmbərlə (Peyğəmbərin ﷺ dövründə peyğəmbərlik iddiasında olan) Museylimə əl-Kəzzəbi görən kəslər üçün onlar arasındakı fərq səhər vaxtı ilə gecənin zülmət vaxtı arasında olan fərqdən daha aydın idi. Bəsirət sahibi olan hər kəs onların hər birinin simasından, danışığından və əməllərindən Muhəmmədin ﷺ doğruluğunu, Museylimə əl-Kəzzəb, Səcah və Əsvəd əl-Ənəsinin isə yalanını asan şəkildə anlaya bilər.

Abdullah ibn Sələm ﷺ demişdir: "Peyğəmbər ﷺ Mədinəyə gəldiyi zaman insanlar tələsik onu görməyə gəldilər. Mən də həmin adamların içində idim. Onu ilk gördüyüm an anladım ki, onun siması yalançı bir insanın siması deyil. Ondan ilk eşitdiyim sözlər bu idi: "Ey insanlar! Aranızda salamı yayın, kasıblara yemək yedizdirin, insanların gecələr yatdığı vaxt namaz qılın ki, Cənnətə salamatlıqla daxil olasınız".[1]

Daməm ibn Sələbə Bənu Sad ibn Bəkr qəbiləsindən bir qrup insanla Peyğəmbərin ﷺ yanına gəlib ona ﷺ bir neçə sual verdi. Həmçinin soruşdu: "Bu göyü kim qaldırıb?" Peyğəmbər ﷺ: "Allah" – deyə cavab verdi. Daməm soruşdu: "Bu dağları kim dikəldib?" Peyğəmbər ﷺ: "Allah" – deyə cavab verdi. Daməm soruşdu: "Bu yer üzünü kim döşəyib?" Peyğəmbər ﷺ: "Allah" – deyə cavab verdi. Daməm dedi: "Səni bu göyü qaldıran, dağları dikəldən və yer üzünü döşəyən Allaha and verirəm. Səni bütün insanlara Allahmı göndərdi?" Peyğəmbər ﷺ: "Bəli" – deyə cavab verdi. Sonra Daməm Peyğəmbərdən ﷺ namaz, zəkat, həcc və oruc barədə soruşdu. Bunlardan hər birini soruşduqca ona əvvəlki andı verir və Peyğəmbər ﷺ də and içirdi. Sonda Peyğəmbərə ﷺ dedi: "Doğru söylədin. Səni haqq ilə göndərən Allaha and olsun ki, bunlara nə artıracam, nə də azaldacağam".[2] Həmin kişi yalnız bu deyilənlərlə kifayətləndi və Peyğəmbərin ﷺ doğruluğunu sübut edən dəlilləri şəxsən müşahidə edib gözləri ilə gördü və inandı. Həssən ibn Sabit ﷺ demişdir:

"Əgər onun (Peyğəmbər ﷺ) haqqında açıq-aşkar dəlillər olmasaydı belə,
onu müşahidə etmək sənə doğruluğundan xəbər verərdi".

Museyliməyə gəlincə, bəsirət sahibləri onun qeyri-səlis danışığı, pis əməlləri, həsrət və rüsvayçılıq günü (Qiyamət günü) onu əbədi Cəhənnəmə salacaq (özündən uydurduğu) "quran"ı ilə yalançı olduğunu yəqin bilirdilər. Uca Allahın "**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur**..." ("əl-Bəqərə", 255) ayəsi ilə Museyliмənin (Allah onu rəzil etsin və lənətləsin!) boş-boş dediyi "Ey bir cüt qurbağanın qızı qurbağa, necə də təmizsən, suyu bulandırmırsan, su içənlərə mane olmursan", "Allah hamiləyə nemət vermişdir, onun qarın dərisi ilə daxili orqanları arasından hərəkət edən bir canlı çıxarmışdır", "Fil, fil nədir bilərsənmi? Onun uzun bir xortumu var", "And olsun xəmir yoğuran xəmirçilərə, çörək bişirən çörəkçilərə, yağ ilə loxma-loxma yeyənlərə! Həqiqətən, Qureyş həddi aşan bir qövmdür".

[1] əl-Musnəd (5/451); ət-Tirmizi (2485). ət-Tirmizi hədisin səhih olduğunu bildirmişdir. Əhməd, 23835, 24193; ət-Tirmizi, 2485, 2673. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 616.

[2] Muslim Ənəsdən oxşar mətnlə rəvayət etmişdir (12/10). Muslim, 111.

Onun bu və buna bənzər bir çox sayıqlamaları və xurafatları arasında nə qədər fərq vardır! Museyliмənin dediyi bu sözləri uşaqlar yalnız lağ-lağa olaraq tələffüz edirlər. Odur ki, Uca Allah onu rəzil, işlərini isə darmadağın etdi. Yoldaşları və ailəsi ona lənət etdi. Ətrafına toplaşanlar tövbə edib Allahın dinini qəbul etmək üçün Əbu Bəkr əs-Siddiqin ﷺ yanına gəldilər. Peyğəmbərin ﷺ xəlifəsi Əbu Bəkr əs-Siddiq onlardan Allahın lənətinə gəlmiş Museylimənin dediyi "quran"dan bir şey oxumağı tələb etdi. Onlar əvf edilmələrini və bu tələbi yerinə yetirməkdən azad olunmalarını istədilər. Lakin Əbu Bəkr insanlardan onu eşitməyənlərin dinləməsi və üzərində olduqları hidayətin, elmin üstünlüyünü bilmələri üçün mütləq Museylimənin dediklərindən bir şeylər oxumalarını tələb etdi. Bundan sonra onlar yuxarıda qeyd etdiklərimizi və ona bənzər boş-boş cümlələri Əbu Bəkrə oxudular. Oxuyub qurtardıqdan sonra Əbu Bəkr əs-Siddiq onlara dedi: "Təəssüflər olsun sizə, (bunları dinləyəndə) ağlınız harda idi?"

Rəvayət edilir ki, bir dəfə Amr ibn əl-As (İslamı qəbul etməzdən əvvəl) Museylimənin yanına getmişdi. Amr İslamı qəbul etməzdən əvvəl cahiliyyə dövründə onunla dostluq edərdi. Museylimə Peyğəmbəri ﷺ nəzərdə tutaraq ona dedi: "Təəssüf sənə ey Amr, dostunuza bu müddət ərzində nə nazil oldu?" Amr: "Onun səhabələrinin qısa, lakin əzəmətli bir surə oxuduqlarını eşitmişəm" – dedi. Museylimə: "O nə surədir?" – deyə soruşdu. Amr "**And olsun zamana! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa**" ("əl-Əsr", 1-3) – dedi. Museylimə bir müddət düşündükdən sonra belə dedi: "Mənə də buna bənzər bir surə nazil olub". Amr: "O nə surədir?" – deyə soruşduqda Museylimə belə cavab verdi: "Ey səhra pişiyi, şübhəsiz ki, sən iki qulaq və bir sinədən ibarətsən. Qalan hissən kiçik və alçaqdır". Sonra soruşdu: "Səncə, necədir ey Amr?" Amr dedi: "Allaha and olsun ki, həqiqətən, mən də bilirəm, sən də yaxşı bilirsən ki, yalan danışırsan". Əgər bir müşrik onun yalançı olduğunu anlayıb ona bunları deyirsə, bəsirət, sağlam ağıl və düzgün düşüncə sahibləri Muhəmmədin ﷺ halını və onun doğru danışdığını, həmçinin Allahın lənətinə gəlmiş Museylimənin halını və onun yalan danışdığını daha yaxşı anlamalı deyildilərmi? Bu səbəbdən Uca Allah bir ayədə belə buyurur: "**Allaha qarşı yalan uydurandan və ya özünə vəhy olunmadığı halda "Mənə də vəhy olunmuşdur" – söyləyəndən və "Mən də Allahın nazil etdiyinin bənzərini endirəcəyəm" – deyəndən daha zalım kim ola bilər?**" ("əl-Ənam", 93). Başqa bir ayədə isə belə buyurur: "**Allaha qarşı**

**yalan uyduran və ya Onun ayələrini yalan hesab edən kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, zalımlar nicat tapmazlar!**” (“əl-Ənam”, 21). Həmçinin əleyhinə dəlillər olduğu halda peyğəmbərlərin gətirdiyi haqqı yalan sayan kəsdən daha zalım heç kim yoxdur. Bir hədisdə belə deyilir: “Allaha qarşı ən çox həddi aşmış insan bir peyğəmbəri öldürən və ya peyğəmbərin öldürdüyü kəsdir”.[1]

﴿وَيَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنفَعُهُمْ وَيَقُولُونَ هَٰؤُلَاءِ شُفَعَاؤُنَا عِندَ اللَّهِ ۚ قُلْ أَتُنَبِّئُونَ اللَّهَ
بِمَا لَا يَعْلَمُ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ ۚ سُبْحَانَهُ وَتَعَالَىٰ عَمَّا يُشْرِكُونَ ﴿١٨﴾ وَمَا كَانَ النَّاسُ إِلَّا
أُمَّةً وَاحِدَةً فَاخْتَلَفُوا ۚ وَلَوْلَا كَلِمَةٌ سَبَقَتْ مِن رَّبِّكَ لَقُضِيَ بَيْنَهُمْ فِيمَا فِيهِ يَخْتَلِفُونَ ﴿١٩﴾﴾

**18. Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilməyənlərə ibadət edir və “Onlar Allah yanında bizim şəfaətçilərimizdir!” – deyirlər. De: “Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?” Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır.**

**19. İnsanlar vahid bir ümmət idilər, sonra ixtilafa düşdülər. Əgər Rəbbin tərəfindən əzəldən bir Söz verilməsəydi, ixtilafa düşdükləri şey barəsində aralarında dərhal hökm verilərdi.**

Uca Allah bu ayələrdə Allah yanında şəfaətlərinin fayda verəcəyini sanaraq Allahla yanaşı, başqalarına ibadət edən müşrikləri məzəmmət edir. Uca Allah onların nə bir fayda, nə də bir zərər verə biləcəklərini, onların zənn etdiklərinin (onlar üçün şəfaət edəcəklərinin) baş verməyəcəyini və bu şəfaətin əsla olmayacağını xəbər verir. Odur ki, ayədə belə buyurur: “**De: “Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?**” İbn Cərir demişdir: “Ayənin mənası belədir: “Siz Allaha göylərdə və yerdə olmayan bir şeyimi xəbər verirsiniz?” Sonra Uca Allah Özünü onların şirk və küfrlərindən uzaq tutaraq buyurur: “**Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır**”.[2]

Sonra Uca Allah şirkin insanlar arasında əvvəllər olmadığını, sonradan ortaya çıxdığını xəbər verir. Əvvəl bütün insanlar tək bir din olan İslam dinində idilər. İbn Abbas demişdir: “Adəm ilə Nuh arasında on əsr olmuşdur. Bu vaxt ərzində bütün insanlar İslam dinində olmuşlar. Sonra insanlar arasında ixtilaf baş vermiş, bütlərə və Allaha tay tutulan şeylərə

[1] Əhməd, 3868; ət-Tirmizi, 4073. Şueyb əl-Arnavut isnadının həsən olduğunu bildirmişdir.
[2] ət-Təbəri, 12/142.

ibadət edilməyə başlanmışdır. Uca Allah da elçilər vasitəsilə Öz ayələrini və açıq-aydın dəlillərini insanlara göndərmişdir ki, "**həlak olan açıq-aydın bir dəlillə həlak olsun, sağ qalan da açıq-aydın bir dəlillə sağ qalsın**" ("əl-Ənfal", 42)".[1]

Uca Allah buyurur: "**Əgər Rəbbin tərəfindən əzəldən bir Söz verilməsəydi, ixtilafa düşdükləri şey barəsində aralarında dərhal hökm veriləcəkdi**", yəni əgər əzəldən Uca Allah hüccət qaldırmadan heç kimə əzab verməyəcəyinə söz verməsəydi və məxluqata müəyyən olunuş vaxta qədər möhlət verməsəydi (əcəl müəyyən etməsəydi), ixtilafa düşdükləri şeylər barədə aralarında hökm verər, möminləri xoşbəxt edər, kafirləri isə çətinliyə salardı.

﴿وَيَقُولُونَ لَوْلَآ أُنزِلَ عَلَيْهِ ءَايَةٌ مِّن رَّبِّهِۦ ۖ فَقُلْ إِنَّمَا ٱلْغَيْبُ لِلَّهِ فَٱنتَظِرُوٓا۟ إِنِّى مَعَكُم مِّنَ ٱلْمُنتَظِرِينَ ٢٠﴾

**20. Onlar deyirlər: "Niyə ona Rəbbindən (peyğəmbərliyini təsdiqləyən) bir dəlil endirilməyib?" De: "Qeyb ancaq Allaha aiddir. Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm".**

Peyğəmbəri ﷺ yalan sayan bu inadkar kafirlər "Nə üçün Muhəmmədə Rəbbindən peyğəmbərliyini təsdiqləyən bir dəlil endirilməyib?" – deyib ondan Səmud qövmünə verilən dəvə kimi, onlar üçün Səfa dağının qızıla çevrilməsini, Məkkə dağlarının uzaqlaşdırılıb yerlərinə bağçalar və çaylar yaratmasını və sair buna bənzər, yalnız Allahın qadir olduğu şeyləri istəmişlər. Lakin Uca Allah etdiklərində və dediklərində hikmət sahibidir. Necə ki başqa ayələrdə belə buyurur: "**İstəsə, sənin üçün onların dediklərindən daha xeyirlisini, altından çaylar axan cənnətlər yaradan, sənin üçün qəsrlər inşa edə bilən Allah ən Əzəmətli, xeyiri və bərəkəti bol olandır! Üstəlik, onlar Qiyamət saatını da yalan saydılar. Biz də Qiyamət saatını yalan sayanlardan ötrü yandırıb-yaxan bir od hazırladıq**" ("əl-Furqan", 10-11); "**Bizim (Peyğəmbərin doğruluğunu təsdiqləyən) dəlillər göndərməkdən vaz keçməyimizə səbəb ancaq əvvəlkilərin onları yalan hesab etmələri idi. Səmud tayfasına açıq-aydın dəlil kimi bir dişi dəvə verdik, lakin onlar ona zülm etdilər. Biz dəlilləri yalnız qorxutmaq üçün göndəririk**" ("əl-İsra", 59). Uca Allah bu ayədə belə buyurur: "Yaratdığım məxluqlar barədə əzəli hökmüm budur ki, Mən onların tələb etdiklərini verdiyim zaman iman

[1] İbn Əbu Hatim, 10287; ət-Təbəri, 35351.

gətirsələr əzabımdan qorunmuş olarlar, əks təqdirdə onlara əzabımı tezləşdirərəm. Bu səbəbdən Uca Allah Peyğəmbərə ﷺ qövmünün ondan tələb etdiyi dəlilləri göstərdikdən sonra ona iman gətirdikləri təqdirdə əzabdan qurtulmaları, əks təqdirdə əzablarının tezləşməsi ilə qövmünə (iman gətirmələri üçün) möhlət verilməsi arasında seçim etmək haqqı verdikdə Peyğəmbər ﷺ onlara möhlət verilməsini seçmişdir. Peyğəmbər ﷺ qövmünə qarşı dəfələrlə mülayim rəftar etmişdir. Bu səbəbdən Uca Allah Öz peyğəmbərinə onların tələb etdiklərinə cavab olaraq belə deməyi buyurmuşdur: "**De: "Qeyb ancaq Allaha aiddir**", yəni bütün işlər Allaha aiddir. O, işlərin nəticələrini (nə ilə sona yetəcəyini) ən yaxşı biləndir. "**Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm**", yəni əgər siz tələb etdiyinizi görməyincə iman gətirən deyilsinizsə, o zaman Allahın mənim barəmdə və sizin barənizdə verəcəyi hökmü gözləyin. Halbuki onlar Peyğəmbərin ﷺ tələb etdiklərindən daha böyük möcüzələr göstərdiyini müşahidə etmişdilər. Peyğəmbər ﷺ bədirlənmiş (tam dairə şəklinə düşmüş) Ay gecəsində Aya işarə edərək onu iki yerə bölmüşdür. Bir parçası dağın arxasından, bir parçası isə qarşısından görünmüşdü. Şübhəsiz bu, onların tələb etdikləri və etmədikləri yer üzündəki dəlillərin ən böyüyüdür. Əgər onlar bu dəlilləri haqqa yönəlmək və haqq üzərində sabit qalmaq üçün tələb etsəydilər, Uca Allah mütləq onların bu istəklərinə cavab verərdi. Lakin Uca Allah bilir ki, onların bu istəkləri yalnız inadkarlıq və azğınlıqlarına görədir. Uca Allah da onları şübhələri içində tərk etdi. Çünki onlardan heç birinin iman gətirməyəcəyini bilirdi. Necə ki başqa ayələrdə belə buyurur: "**Həqiqətən, əleyhlərinə Rəbbinin Sözü doğru çıxmış kimsələr iman gətirməzlər. Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə, iman gətirməzlər**" ("Yunus", 96-97); "**Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah istəməyincə, onlar iman gətirməzdilər. Lakin onların çoxu bunu bilmir**" ("əl-Ənam", 111); Çünki onlar təkəbbürlüdürlər. "**Əgər onlara göydən bir qapı açsaydıq və onlar dayanmadan oraya qalxsaydılar, yenə də inanmayıb "Gözlərimiz dumanlanmış, daha doğrusu biz sehrlənmişik" – deyərdilər**" ("əl-Hicr", 14-15); "**Əgər onlar göy parçalarının düşdüyünü görsələr: "Bulud topasıdır!" – deyərlər**" ("ət-Tur", 44); "**Əgər sənə kağız üzərində bir yazı nazil etsəydik və onlar da əlləri ilə ona toxunsaydılar, kafir olanlar yenə də "Bu, açıq-aydın sehrdən başqa bir şey deyil!" – deyərdilər**" ("əl-Ənam", 7). Kafirlərin bu və buna bənzər tələblərinə cavab verməyin heç bir faydası yoxdur. Çünki onların istəkləri irad tutmaq, inadkarlıq göstərmək, həddi aşmaq və fəsad törətmək məqsədi daşıyır. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Gözləyin, şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm**" – deyə buyurur.

﴿وَإِذَآ أَذَقۡنَا ٱلنَّاسَ رَحۡمَةٗ مِّنۢ بَعۡدِ ضَرَّآءَ مَسَّتۡهُمۡ إِذَا لَهُم مَّكۡرٞ فِيٓ ءَايَاتِنَاۚ قُلِ ٱللَّهُ أَسۡرَعُ مَكۡرًاۚ إِنَّ رُسُلَنَا يَكۡتُبُونَ
مَا تَمۡكُرُونَ ٢١ هُوَ ٱلَّذِي يُسَيِّرُكُمۡ فِي ٱلۡبَرِّ وَٱلۡبَحۡرِۖ حَتَّىٰٓ إِذَا كُنتُمۡ فِي ٱلۡفُلۡكِ وَجَرَيۡنَ بِهِم بِرِيحٖ طَيِّبَةٖ وَفَرِحُواْ
بِهَا جَآءَتۡهَا رِيحٌ عَاصِفٞ وَجَآءَهُمُ ٱلۡمَوۡجُ مِن كُلِّ مَكَانٖ وَظَنُّوٓاْ أَنَّهُمۡ أُحِيطَ بِهِمۡ دَعَوُاْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ
ٱلدِّينَ لَئِنۡ أَنجَيۡتَنَا مِنۡ هَٰذِهِۦ لَنَكُونَنَّ مِنَ ٱلشَّٰكِرِينَ ٢٢ فَلَمَّآ أَنجَىٰهُمۡ إِذَا هُمۡ يَبۡغُونَ فِي ٱلۡأَرۡضِ بِغَيۡرِ ٱلۡحَقِّۗ يَٰٓأَيُّهَا
ٱلنَّاسُ إِنَّمَا بَغۡيُكُمۡ عَلَىٰٓ أَنفُسِكُمۖ مَّتَٰعَ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَاۖ ثُمَّ إِلَيۡنَا مَرۡجِعُكُمۡ فَنُنَبِّئُكُم بِمَا كُنتُمۡ تَعۡمَلُونَ ٢٣﴾

**21. İnsanlara üz verən bəladan sonra onlara bir mərhəmət daddırdığımız zaman ayələrimizə qarşı hiyləgərlik etməyə çalışarlar. De: “Allah daha tez hiylə qurar”. Şübhəsiz ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.**

**22. Sizi quruda və dənizdə hərəkət etdirən Odur. Siz gəmilərdə olduğunuz, gəmilər də içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman birdən fırtına qopar və dalğalar hər yandan onların üstünə gələr. Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə dini yalnız Allaha aid edərək Ona belə dua edərlər: “Əgər bizi bundan xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq”.**

**23. Allah onları xilas etdikdə isə dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər. Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir. Bunlar dünya həyatının keçici zövqləridir. Sonra isə dönüşünüz Bizə olacaq, Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik.**

Uca Allah bu ayələrdə bildirir ki, O, insanların başına gələn bəlalardan sonra onlara bir mərhəmət daddırdıqda, yəni quraqlıqdan sonra yağış, qıtlıqdan sonra bolluq, çətinlikdən sonra asanlıq kimi nemətlər verdikdə onlar, “**...ayələrimizə qarşı hiyləgərlik etməyə çalışarlar**”.

Mucahid ﷺ demişdir: “Allahın ayələrini yalan sayıb istehza edərlər”.[1] Uca Allah başqa bir ayədə belə buyurur: “**İnsana bəla üz verdikdə uzananda da, oturanda da, ayaq üstə olanda da Bizi çağırar. Bu bəlanı ondan sovuşdurduqda isə sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər. Həddi aşanlara etdikləri əməllər beləcə gözəl göstərildi**” (“Yunus”, 12).

[1] ət-Təbəri, 17592, 17675.

"Səhih" əsərində rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ (Hudeybiyyədə[1]) gecə ikən yağmış yağışdan sonra səhabələrə sübh namazını qıldırdı və namazı bitirdikdən sonra üzünü camaata çevirib soruşdu: "Bilirsinizmi, Rəbbiniz nə buyurdu?" Səhabələr "Allah və Onun Elçisi daha yaxşı bilir" – deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Allah buyurdu: "Qullarımdan bir qismi mömin, digər qismi isə kafir oldu. "Bizə Allahın lütfü və mərhəməti sayəsində yağış göndərilmişdir" – deyənlərə gəlincə, onlar Mənə iman gətirmiş və ulduzlara küfr etmişlər. "Yağış bizə filan və filan ulduza görə nazil olmuşdur" – deyənlərə gəldikdə isə onlar Mənə küfr etmiş və ulduzlara iman gətirmişlər".[2]

Uca Allah buyurur: "**De: "Allah daha tez hiylə qurar**", yəni Uca Allah onları tovlayıb tədricən məhvə aparmaq üçün onlara möhlət verər. O qədər möhlət verər ki, günah edən kəs daha ona əzab verilməyəcəyini zənn edər. Halbuki ona möhlət verilmişdir. Sonra qəflətən günah üzərində yaxalanar. Əməlləri yazan çox möhtərəm mələklər onun etdiyi hər bir əməli yazar, bu əməlləri onun əleyhinə hesaba alar, sonra bunu qeybi və aşkarı bilən Allaha ərz edərlər. Uca Allah da istər böyük olsun, istər kiçik, hətta xurma çəyirdəyinin oyuğu və ya pərdəsi qədər olan bir əməlin belə qarşılığını verəcəkdir.

Sonra Uca Allah buyurur: "**Sizi quruda və dənizdə hərəkət etdirən Odur**", yəni Öz mühafizəsi ilə sizi qoruyan və sizə nəzarət edən Odur. "**Siz gəmilərdə olduğunuz, gəmilər də içindəkiləri xoş bir küləklə apardığı və onlar buna sevindikləri zaman**", yəni sürətlə getdiklərinə sevindikləri zaman "**birdən fırtına qopar və dalğalar hər yandan onların**", yəni gəmilərin "**üstünə gələr**" və dəniz dalğaları hər tərəfdən onları əhatə edər. "**Dalğaların onları bürüyəcəyini yəqin etdikdə isə**", yəni həlak olacaqlarını yəqin etdikdə isə "**dini yalnız Allaha aid edərək Ona belə dua edərlər**", yəni Allahla yanaşı, heç bir məbuda dua etməzlər. Əksinə, yalnız Ona dua edib yalvararlar. Uca Allah başqa bir ayədə belə buyurur: "**Sizə dənizdə bir fəlakət üz verdiyi zaman Ondan başqa tapındıqlarınız sizdən uzaqlaşar. O sizi xilas edib quruya çıxardıqda isə üz döndərirsiniz. Həqiqətən, insan nankordur!**" ("əl-İsra", 67). Burada isə belə buyurur: "**dini yalnız Allaha aid edərək Ona belə dua edərlər: "Əgər bizi bundan**", yəni düşdükləri bu vəziyyətdən "**xilas etsən, əlbəttə, şükür edənlərdən olarıq**", yəni heç bir şeyi Sənə şərik qoşmarıq, burada yalnız Sənə dua etdiyimiz kimi, bundan sonra da yalnız Sənə ibadət edərik. Uca Allah buyurur: "**Allah onları xilas etdikdə isə**", yəni bu

---

[1] Hudeybiyyə – Məkkənin 16 kilometrliyində, Ciddə şəhərinə gedən yolda yerləşən yerdir. Hicri tarixinin 6-cı ilində orada Muhəmməd Peyğəmbərlə ﷺ müsəlmanları şəhərə buraxmayan və onları ümrə ziyarəti etməyə qoymayan məkkəlilər arasında "Hudeybiyyə sülhü" adlanan sülh müqaviləsi bağlanmışdır.

[2] əl-Buxari, 846, 980, 1038; Muslim, 71/125, 104, 240.

təhlükədən qurtardıqda isə “**dərhal haqsız olaraq yer üzündə azğınlıq edərlər**”, yəni sanki başlarına bu fəlakət gəlməmiş kimi davranarlar, “**sanki ona üz vermiş bəladan ötrü Bizi çağırmamış kimi keçib gedər**” (“Yunus”, 12).

Sonra Uca Allah buyurur: “**Ey insanlar! Azğınlığınız yalnız sizin öz əleyhinizədir**”, yəni bu azğınlığın cəzasını yenə özünüz dadacaqsınız və özünüzdən başqa heç kimə bir zərər verə bilməyəcəksiniz. Necə ki bir hədisdə belə deyilir: “Hakimə qarşı çıxmaq və qohumluq əlaqələrini kəsmək kimi, Allah tərəfindən Axirət gününə saxlanılması ilə bərabər dünyada cəzasının tezləşdirilməsinə daha layiqli başqa bir günah yoxdur”.[1]

Uca Allah buyurur: “**Bunlar dünya həyatının keçici zövqləridir**”, yəni sizin üçün bu dəyərsiz və alçaq dünya həyatında bəzi nemətlər vardır. “**Sonra isə dönüşünüz Bizə olacaq**”, yəni hüzurumuza qayıdacaqsınız, “**Biz də nə etdikləriniz barədə sizə xəbər verəcəyik**”, yəni etdiyiniz bütün əməlləri sizə bildirər və bu əməllərin əvəzini sizə tam olaraq verəcəyik. Kim (əməl dəftərində) xeyir taparsa, buna görə Allaha həmd etsin, kim xeyirdən başqa bir şey taparsa, yalnız özünü qınasın.

﴿إِنَّمَا مَثَلُ ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا كَمَآءٍ أَنزَلۡنَٰهُ مِنَ ٱلسَّمَآءِ فَٱخۡتَلَطَ بِهِۦ نَبَاتُ ٱلۡأَرۡضِ مِمَّا يَأۡكُلُ ٱلنَّاسُ وَٱلۡأَنۡعَٰمُ
حَتَّىٰٓ إِذَآ أَخَذَتِ ٱلۡأَرۡضُ زُخۡرُفَهَا وَٱزَّيَّنَتۡ وَظَنَّ أَهۡلُهَآ أَنَّهُمۡ قَٰدِرُونَ عَلَيۡهَآ أَتَىٰهَآ أَمۡرُنَا لَيۡلًا أَوۡ نَهَارٗا فَجَعَلۡنَٰهَا
حَصِيدٗا كَأَن لَّمۡ تَغۡنَ بِٱلۡأَمۡسِۚ كَذَٰلِكَ نُفَصِّلُ ٱلۡأٓيَٰتِ لِقَوۡمٖ يَتَفَكَّرُونَ ٢٤ وَٱللَّهُ يَدۡعُوٓاْ إِلَىٰ دَارِ ٱلسَّلَٰمِ وَيَهۡدِي مَن
يَشَآءُ إِلَىٰ صِرَٰطٖ مُّسۡتَقِيمٖ ٢٥﴾

**24. Dünya həyatının misalı göydən endirdiyimiz suyun misalına bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və sakinləri onun məhsulunu yığmağa qadir olduqlarını güman etdikləri zaman gecə yaxud gündüz əmrimiz yerə yetişər və biz onu sanki dünən heç bol məhsulu olmamış kimi yolunub biçilmiş bir hala gətirərik. Biz ayələri düşünən bir qövm üçün beləcə izah edirik.**

**25. Allah əmin-amanlıq yurduna – Cənnətə çağırır və istədiyini doğru yola yönəldir.**

[1] Əbu Davud (4902); ət-Tirmizi (2511). ət-Tirmizi hədisin “Həsən-Səhih” olduğunu demişdir. ət-Tirmizi, 2700. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 917.

Uca Allah dünya həyatının bərbəzəyinə, gözəlliyinə və bunların tez bir vaxtda sona çatıb bitməsinə göydən endirdiyi su (yağış) ilə yerdən çıxardığı bitkiləri misal çəkir. Bu bitkilər insanların yedikləri növbənöv əkin və meyvələr, habelə heyvanların yedikləri otlar, yoncalar və digər şeylərdir. "**Nəhayət, yer öz bərbəzəyinə**", yəni fani zinətinə "**bürünüb rövnəqləndiyi**", yəni təpələrində çıxan göz oxşayan növbənöv və rəngbərəng tər çiçəklərlə gözəlləşdiyi "**və sakinləri**", yəni bu bitkiləri əkib-becərənlər "**onun məhsulunu yığmağa qadir olduqlarını güman etdikləri zaman**", yəni məhsulu biçməyə və ya yığmağa qadir olduqlarını sandıqları vaxt bir ildırım çaxar və ya soyuq bir külək əsib məhsulun yarpaqlarını qurudar, meyvələrini tələf edər. Uca Allah buyurur: "**gecə yaxud gündüz əmrimiz yerə yetişər və biz onu sanki dünən heç bol məhsulu olmamış kimi**", yəni sanki əvvəl heç gözəl olmamış kimi "**yolunub biçilmiş bir hala gətirərik**", yəni yaşıl və gözəl olduqdan sonra quru samana çevirərik. Qatədə ﷺ demişdir: "**...sanki dünən heç bol məhsulu olmamış kimi**", yəni sanki heç bir nemət olmayan bir yerə çevirərik".[1] Uca Allah həlak olanlar barədə xəbər verərək belə buyurur: "**Əmrimiz gəldikdə Şueybi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik. Zülm edənləri isə qorxunc səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb qaldılar. Sanki orada heç yaşamamışdılar. Səmud qövmü məhv olduğu kimi Mədyən qövmü də məhv olsun!**" ("Hud", 94-95).

Sonra Uca Allah buyurur: "**Biz ayələri düşünən bir qövm üçün beləcə izah edirik**", yəni bu məsəldən ibrət alıb dünyanın yox olacağını dərk edənlər və dünyaya aldanıb onun vədlərinə inanan insanlardan qəflətən üz çevirdiyini anlayanlar üçün dəlillərimizi belə izah edirik. Dünyanın xisləti budur ki, o onu istəyəndən qaçar, ondan qaçanın isə arxasınca düşər. Uca Allah Öz Əziz Kitabının bir çox ayəsində dünya həyatına yer üzünün bitkilərini misal çəkir. Məsələn, "əl-Kəhf" surəsində belə buyurur: "**Onlara dünya həyatını məsəl çək. Bu dünya həyatı göydən göndərdiyimiz yağışa bənzər. Yerdəki bitkilər onunla qarışıb yetişər, sonra isə küləyin sovurub apardığı quru çör-çöpə dönər. Allah hər şeyə qadirdir**" ("əl-Kəhf", 45). Həmçinin "əz-Zumər" (21-ci ayədə) və "əl-Hədid" surələrində (20-ci ayədə) dünya həyatına göydən enən suyu misal çəkmişdir.

[1] ət-Təbəri, 17602, 17686.

Uca Allah buyurur: "**Allah əmin-amanlıq yurduna – Cənnətə çağırır və istədiyini doğru yola yönəldir**". Uca Allah əvvəlki ayədə dünyanı, onun tez bir vaxtda sona çatacağını xəbər verdikdən sonra bu ayədə Cənnətə təşviq edib oraya daxil olmağa çağırır və Cənnəti "əmin-amanlıq yurdu" adlandılrır. Yəni fəlakətlərdən, naqisliklərdən və çətinliklərdən salamat olan yurd. Uca Allah buyurur: "**Allah əmin-amanlıq yurduna – Cənnətə çağırır və istədiyini doğru yola yönəldir**".

Cabir ibn Abdullah ﷺ rəvayət etmişdir ki, bir gün Peyğəmbər ﷺ yanımıza gəlib dedi: "Mən yuxumda Cəbrailin başımın üstündə, Mikailin isə ayaq tərəfimdə dayandığını gördüm. Onlardan biri digərinə: "Onun barəsində bir məsəl çək!" – dedi. Digəri mənə dedi: "Dinlə, qoy qulağın eşitsin və dərk et, qoy qəlbin də dərk etsin! Səninlə ümmətinin məsəli bir yurd götürüb orada ev tikən və içində ziyafət verən, sonra insanları yeməyə dəvət etmək üçün elçi göndərən hökmdarın məsəlinə bənzəyir. Bəzi insanlar bu elçinin dəvətini qəbul etdilər, bəziləri isə qəbul etmədilər. Hökmdar – Allahdır, yurd – İslamdır, ev – Cənnətdir, elçi isə sənsən, ey Muhəmməd! Kim sənin dəvətini qəbul etsə, İslama daxil olar. İslama girən isə Cənnətə girər, Cənnətə girən isə oradakı ziyafətdən yeyər".[1]

﴿ ۞ لِّلَّذِينَ أَحۡسَنُواْ ٱلۡحُسۡنَىٰ وَزِيَادَةٞۖ وَلَا يَرۡهَقُ وُجُوهَهُمۡ قَتَرٞ وَلَا ذِلَّةٌۚ أُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلۡجَنَّةِۖ هُمۡ فِيهَا
خَٰلِدُونَ ٢٦ ﴾

**26. Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və onlar orada əbədi qalacaqlar.**

Uca Allah bu ayədə bildirir ki, imanı və saleh əməli ilə dünyada ən yaxşı işlər görənlərə Axirət yurdunda mükafat olaraq yaxşılıqlar olacaq. Başqa bir ayədə belə buyurur: "**Yaxşılığın əvəzi, ancaq yaxşılıq deyilmi?!**" ("ər-Rəhman", 60).

Uca Allah buyurur: "**...və bundan da üstünü vardır**". Bu üstünlük, əməllərin savabının on mislindən yeddi yüzədək və daha da çox artırılmasıdır. Bu üstünlüyə Allahın onlara Cənnətlərdə verəcəyi saraylar, hurilər, onlardan razı olması və gözlərinə sevinc gətirəcək nemətlər daxildir. Bunlardan daha əfzəl və daha üstün nemət isə Allahın kəramətli

[1] əd-Dərimi "Musnəd" 11, Hədis zəifdir. Bax: Mişkətul-Məsabih, 161.

Üzünə baxmaqdır. Bu, Allahın onlara verdiyi ən böyük üstünlükdür. Cənnət əhli buna etdikləri əməllərlə layiq olmamışlar. Bu, Allahın lütfü və mərhəməti sayəsindədir. Ayədə qeyd olunan üstünlüyün Allahın kəramətli Üzünə baxmaq kimi təfsir olunması Əbu Bəkr əs-Siddiq, Huzeyfə ibn əl-Yəmən, Abdullah ibn Abbas, Səid ibn Museyyeb, Mucahid, İkrimə, Əta, əd-Dahhək, əl-Həsən, Qatədə, əs-Suddi, Muhəmməd ibn İshaq və digər sələf və xələf alimlərindən rəvayət edilmişdir.

Bu xüsusda (ayədə keçən üstünlüyün Allahın kəramətli Üzünə baxmaq kimi təfsir olunması barədə) Peyğəmbərdən ﷺ bir çox hədis rəvayət edilmişdir. İmam Əhmədin ﵀ Suheybdən ﵁ rəvayət etdiyi hədis bu qəbildəndir. Suheyb ﵁ rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ Uca Allahın "**Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü vardır**" ayəsini oxuyub belə dedi: "Cənnət əhli Cənnətə, Cəhənnəm əhli isə Cəhənnəmə daxil olduğu zaman bir carçı belə səslənəcək: "Ey Cənnət əhli! Allahın sizə verdiyi bir vədi vardır və O bu vədi yerinə yetirmək istəyir". Onlar deyəcəklər: "O hansı vəddir? Allah bizim savab əməllərimizi tərəzidə artırmadımı?! Üzümüzü ağ etmədimi?! Bizi atəşdən qurtarıb Cənnətə daxil etmədimi?!" Bunun ardından Allah örtüyü qaldıracaq[1] və onlar Allaha baxacaqlar. Allaha and olsun ki, Allaha baxmaqdan onlara daha əziz, gözlərinə daha çox sevinc gətirəcək bir şey verilməmişdir". Hədisi Muslim və bir çox hədis alimi bu şəkildə rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Onların üzünü nə bir qubar...**", yəni Məhşərdəki Ərasatda[3] kafir və günahkarların üzünü qaraltı və toz bürüdüyü kimi onların üzünü nə qaraltı bürüyər, "**nə də bir zillət bürüyər**", yəni onlar nə zahirən, nə də daxilən alçalmazlar, xar olmazlar. Əksinə, onlar Uca Allahın barələrində buyurduğu kimi olacaqlar: "**Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər**" ("əl-İnsan", 11). Yəni üzləri parlaq, qəlbləri sevinc içində olar. Uca Allah Öz lütfü və mərhəməti ilə bizi də onlardan etsin! Amin!

---

[1] Bu, yalnız möminlərə məxsusdur. Kafirlər isə Allahı görə bilməyəcəklər. Uca Allah bu xüsusda buyurur: "**Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək! Sonra onlar Cəhənnəmə girəcəklər və onlara deyiləcək: "Budur sizin yalan hesab etdiyiniz Cəhənnəm!"** ("əl-Mutaffifin", 15).

[2] Əhməd, 18956, 19143; ət-Tirmizi, 2552, 2749; Muslim, 266, 467. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 521.

[3] "Ərasat" sözünün lüğəvi mənası "boşluq ərazi" deməkdir. "Məhşərdəki Ərasatda" dedikdə haqq-hesab üçün insanların toplaşacaqları boşluq ərazi – düzənlik nəzərdə tutulur.

﴿وَٱلَّذِينَ كَسَبُواْ ٱلسَّيِّـَٔاتِ جَزَآءُ سَيِّئَةِۭ بِمِثۡلِهَا وَتَرۡهَقُهُمۡ ذِلَّةٞۖ مَّا لَهُم مِّنَ ٱللَّهِ مِنۡ عَاصِمٖۖ كَأَنَّمَآ أُغۡشِيَتۡ وُجُوهُهُمۡ
قِطَعٗا مِّنَ ٱلَّيۡلِ مُظۡلِمًاۚ أُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلنَّارِۖ هُمۡ فِيهَا خَٰلِدُونَ ٢٧﴾

**27. Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və onlar orada əbədi qalacaqlar.**

Uca Allah əvvəlki ayədə xoşbəxt insanlar barədə xəbər verib etdikləri yaxşılıqların əvəzinin qat-qat artırılacağını, üstəlik əlavə olunacağını bildirdikdən sonra bu ayədə bədbəxt insanların halını bildirir və onlar barədə ədalətini bəyan edir. Belə ki, Uca Allah onların etdikləri pis əməllərə yalnız misli qədər cəza verəcək və bu cəzanı artırmayacaq. “**Onları zillət bürüyər**”, yəni həm etdikləri günahlara görə, həm də bu günahlardan qorxduqlarına görə üzlərini zillət bürüyər. Uca Allah başqa ayələrdə belə buyurur: “**Cəhənnəmin qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu gizlin-gizlin baxdıqlarını görəcəksən**” (“əş-Şura”, 45); “**Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah, sadəcə, onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır. O gün onlar başlarını yuxarı qaldıraraq carçıya doğru tələsəcəklər. Onlar özlərinə belə dönüb baxmayacaq və onların qəlbi də bomboş qalacaq – qorxudan bütün başqa duyğulardan xali olacaq. İnsanları onlara əzab gələcəyi günlə qorxut. O gün zalımlar deyəcəklər: “Ey Rəbbimiz! Bizə yaxın bir vaxta qədər möhlət ver ki, sənin dəvətini qəbul edək və elçilərin arxasınca gedək”. Onlara deyiləcəkdir: “Məgər əvvəllər siz dünyadan köçməyəcəyiniz barədə and içməmişdiniz?!**” (“İbrahim”, 42-44).

Uca Allah buyurur: “**Onları Allahdan qoruya bilən bir kimsə də yoxdur**”, yəni onları Allahın əzabından qoruyacaq və bu əzaba mane olacaq kimsə yoxdur. Başqa bir ayədə isə belə buyurur: “**O gün insan deyəcək: “Hara qaçaq?” Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq. O gün qayıdış ancaq sənin Rəbbinə olacaq**” (“əl-Qiyamə”, 10-12).

Uca Allah buyurur: “**Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və onlar orada əbədi qalacaqlar**”. Uca Allah Axirətdə onların üzlərinin qaralacağını bildirir. Necə ki başqa ayələrdə belə buyurur: “**O gün neçə-neçə üzlər ağaracaq, neçə-neçə üzlər də qaralacaqdır. Üzləri qaralan kəslərə “İman gətirdikdən sonra kafirmi oldunuz?! Elə isə küfr etdiyinizə görə dadın əzabı!” deyiləcəkdir.**

**Üzləri ağ olan kəslər isə Allahın mərhəməti içərisində olacaq və onlar orada əbədi qalacaqlar**" ("Ali-İmran", 106-107); "**O gün neçə-neçə üzlər parlayacaq, güləcək və fərəhlənəcək. O gün neçə-neçə üzlərə toz-torpaq hopacaq, onları zülmət bürüyəcək. Məhz onlar kafirlər, günahkarlardır!**" ("Əbəsə", 38-42).

﴿وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُوا مَكَانَكُمْ أَنتُمْ وَشُرَكَاؤُكُمْ ۚ فَزَيَّلْنَا بَيْنَهُمْ ۖ وَقَالَ شُرَكَاؤُهُم مَّا كُنتُمْ إِيَّانَا
تَعْبُدُونَ ﴿٢٨﴾ فَكَفَىٰ بِاللَّهِ شَهِيدًا بَيْنَنَا وَبَيْنَكُمْ إِن كُنَّا عَنْ عِبَادَتِكُمْ لَغَافِلِينَ ﴿٢٩﴾ هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا
أَسْلَفَتْ ۚ وَرُدُّوا إِلَى اللَّهِ مَوْلَاهُمُ الْحَقِّ ۖ وَضَلَّ عَنْهُم مَّا كَانُوا يَفْتَرُونَ ﴿٣٠﴾﴾

**28. O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: "Siz də, şərikləriniz də öz yerinizdə qalın!" – deyəcəyik. Biz onları ayıracağıq. Onların şərikləri deyəcəklər: "Siz bizə ibadət etmirdiniz.**

**29. Bizimlə sizin aranızda Allahın şahid olması yetər. Doğrudan da biz sizin ibadətinizdən xəbərsiz idik".**

**30. Orada hər kəs keçmişdə törətdiklərinin acısını çəkəcəkdir. Onlar Allaha – özlərinin həqiqi Himayədarına qaytarılacaq və uydurduqları bütlər onlardan uzaqlaşıb qeyb olacaq.**

Uca Allah buyurur: "**O gün onların hamısını bir yerə toplayacaq**", yəni yer üzündə olan insan və cinlərin hamısını bir yerə toplayacaq, istər yaxşı əməl sahibi olsun, istər günahkar. Başqa bir ayədə belə buyurur: "**Biz hamını bir yerə toplayacaq, onlardan heç birini kənara buraxmayacağıq**" ("əl-Kəhf", 47). Uca Allah buyurur: "**...sonra da müşriklərə: "Siz də, şərikləriniz də öz yerinizdə qalın!" – deyəcəyik. Biz onları ayıracağıq**", yəni onlara "Siz və bütləriniz müəyyən bir yerdə qalın. Möminlərin məqamlarından ayrılın" – deyilər. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Bu gün möminlərdən ayrılın, ey günahkarlar!**" ("Yasin", 59); "**Məhz Qiyamət saatının gələcəyi gün möminlərlə kafirlər ayrılacaqlar**" ("ər-Rum", 14).

Uca Allah bu ayədə Qiyamət günü müşriklərə və onların bütlərinə əmr edərək belə deyəcəyini xəbər verir: "**Siz də, şərikləriniz də öz yerinizdə qalın!" – deyəcəyik. Biz onları ayıracağıq. Onların şərikləri deyəcəklər: "Siz bizə ibadət etmirdiniz**", yəni Allahdan başqa ibadət etdikləri bütlər müşriklərin onlara ibadət etdiklərini inkar edib onlardan uzaqlaşacaq və deyəcək: "**Siz bizə ibadət etmirdiniz**". Uca Allah başqa

ayələrdə belə buyurur: "**Xeyr! Qiyamət günü o məbudlar onların ibadətini inkar edəcək və onların əleyhinə çıxacaqlar**" ("Məryəm", 82); "**Tabe olunmuş başçılar tabe olanlardan uzaqlaşacaqları zaman, hamısı əzabı görəcək və aralarındakı əlaqələr kəsiləcəkdir**" ("əl-Bəqərə", 106); "**Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən bütlərə yalvaran kimsədən daha çox azmış kim ola bilər?! Halbuki o bütlər onların yalvarışından xəbərsizdir. İnsanlar bir yerə toplanacaqları zaman bütlər onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcək**" ("əl-Əhqaf", 5-6).

Bu ayədə Uca Allah xəbər verir ki, müşriklər Allaha qoşduqları şəriklərə müraciət edərək onlara ibadət etdiklərini iddia etdikləri vaxt həmin şəriklər onlara belə deyəcək: "**Bizimlə sizin aranızda Allahın şahid olması yetər. Doğrudan da biz sizin ibadətinizdən xəbərsiz idik**", yəni biz sizin ibadətinizi hiss etməmişik və bizə ibadət etdiyinizi bilməmişik. Siz, ibadətinizdən xəbərsiz olduğumuz halda bizə ibadət etmisiniz. Sizinlə bizim aramızda Allah şahiddir ki, biz sizi ibadətə çağırmamışıq, sizə bunu əmr etməmişik və sizin bu ibadətinizdən razı qalmamışıq.

Bu ayə Allahla yanaşı, başqa məbudlara ibadət edən müşriklər üçün bir məzəmmətdir. Belə ki, əl-Həyy (Əbədi yaşayan), əl-Qayyum (Yaratdıqlarının Himayədarı), əs-Səmi (Eşidən), əs-Bəsir (Görən), hər şeyə Qadir olan, hər şeyi Bilən Allaha ediləcək ibadəti tərk edib eşitməyən, görməyən, heç bir fayda verməyən, özlərinə ibadəti əmr etməyən, bundan razı qalmayan, bunu istəməyən, əksinə, ən çox möhtac olduqları bir zamanda onlardan uzaqlaşan bütlərə ibadət etmişlər. Uca Allah elçilər göndərib kitablar nazil edərək, tək olan və şəriki olmayan Allaha ibadət etməyi əmr etmiş, Allahdan başqa məbudlara ibadət etməyi isə qadağan etmişdir. Necə ki başqa ayələrdə belə buyurur: "**Biz hər ümmətə "Allaha ibadət edin, tağutdan uzaq olun" – deyə elçi göndərdik. Onlardan kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir**" ("ən-Nəhl", 36); "**Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!" – deyə vəhy etməyək**" ("əl-Ənbiya", 25); "**Səndən əvvəl göndərdiyimiz elçilərdən – onların davamçılarından soruş: "Məgər Biz Mərhəmətli Allahdan başqa ibadət ediləsi məbudlar icad etmişik?**" ("əz-Zuxruf", 45). Müşriklər bir çox qismə bölünürlər. Uca Allah Öz Kitabında onları zikr etmiş, hallarını və dedikləri sözləri bəyan etmiş, sonra dediklərini ən mükəmməl şəkildə rədd etmişdir.

Uca Allah buyurur: "**Orada hər kəs keçmişdə törətdiklərinin acısını çəkəcəkdir**", yəni Qiyamət günü haqq-hesab məqamında hər kəs imtahan olunacaq və dünyada etdiyi xeyir və şər əməllərini biləcək. Uca Allah başqa ayələrdə belə buyurur: "**Sirlərin sınaqdan keçiriləcəyi gün**" ("ət-Tariq", 9); "**O gün insana əvvəllər etdiyi və sonraya saxladığı əməlləri barədə xəbər veriləcək**" ("əl-Qiyamə", 13); "**Biz hər bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə qarşısına qoyulan kitabı ona göstərəcəyik. Kitabını oxu! Bu gün sənə özün-özünü hesaba çəkməyin yetər**" ("əl-İsra", 13-14).

Uca Allah buyurur: "**Onlar Allaha – özlərinin həqiqi Himayədarına qaytarılacaq**", yəni bütün işlər ədalətli hakim olan Allaha qaytarılacaq. Uca Allah onlar arasında hökm verərək Cənnət əhlini Cənnətə, Cəhənnəm əhlini isə Cəhənnəmə salacaq. "**...və uydurduqları bütlər**", yəni Allaha iftira ataraq Ondan başqa ibadət etdikləri şeylər "**onlardan uzaqlaşıb qeyb olacaq**", yəni müşriklərdən uzaqlaşıb gedəcəklər.

﴿قُلْ مَن يَرْزُقُكُم مِّنَ ٱلسَّمَآءِ وَٱلْأَرْضِ أَمَّن يَمْلِكُ ٱلسَّمْعَ وَٱلْأَبْصَٰرَ وَمَن يُخْرِجُ ٱلْحَىَّ مِنَ ٱلْمَيِّتِ وَيُخْرِجُ ٱلْمَيِّتَ
مِنَ ٱلْحَىِّ وَمَن يُدَبِّرُ ٱلْأَمْرَ ۚ فَسَيَقُولُونَ ٱللَّهُ ۚ فَقُلْ أَفَلَا تَتَّقُونَ ﴿٣١﴾ فَذَٰلِكُمُ ٱللَّهُ رَبُّكُمُ ٱلْحَقُّ ۖ فَمَاذَا بَعْدَ ٱلْحَقِّ
إِلَّا ٱلضَّلَٰلُ ۖ فَأَنَّىٰ تُصْرَفُونَ ﴿٣٢﴾ كَذَٰلِكَ حَقَّتْ كَلِمَتُ رَبِّكَ عَلَى ٱلَّذِينَ فَسَقُوٓا۟ أَنَّهُمْ لَا يُؤْمِنُونَ ﴿٣٣﴾﴾

**31. De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar "Allah!" – deyəcəklər. De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?"**

**32. O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də haqdan döndərilirsiniz!**

**33. Beləliklə, fasiqlərin iman gətirməyəcəyinə dair Rəbbinin Sözü doğru çıxdı.**

Uca Allah müşriklərin Allahın tək yaradan olduğunu etiraf etmələrini Özünün tək məbud olduğuna dəlil gətirərək buyurur: "**De: "Sizə göydən və yerdən ruzi verən kimdir?**" Yəni göydən yağış suyu endirən, qüdrəti və istəyi ilə yer üzünü yaran, beləcə, "**orada taxıl, habelə üzüm və yonca, zeytun və xurma ağacları, sıx-sıx bağlar, meyvələr və otlar yetişdirən**" ("Əbəsə", 27-31) kimdir? Allahla yanaşı, başqa bir məbudmu var? Onlar "Allahdır" – deyəcəklər. "**O Öz ruzisini kəssə, sizə kim ruzi verə bilər?**"

("əl-Mulk", 21). Uca Allah buyurur: "**Qulaqlara və gözlərə hakim olan kimdir?**" Yəni sizə bu eşitmə və görmə qabiliyyətini bəxş edən istəsəydi, bunları sizdən alar və sizi bundan məhrum edərdi. Necə ki başqa ayələrdə belə buyurur: "**De: "Sizi yaradan, sizə qulaq, göz və ürək verən Odur. Necə də az şükür edirsiniz!**" ("əl-Mulk", 23); "**De: "Bir deyin görək, əgər Allah sizin eşitmə və görmə qabiliyyətinizi əlinizdən alsa, qəlblərinizə möhür vursa, Allahdan başqa hansı məbud onları sizə qaytara bilər?**" ("əl-Ənam", 46).

Uca Allah buyurur: "**Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir?**" Yəni Öz qüdrəti və hər şeyi əhatə edən neməti ilə ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? Bu ayənin təfsirində alimlər arasında olan fikir ayrılığını daha əvvəl qeyd etmişik və bildirmişik ki, ayə ümumidir və bütün qeyd olunan mənaları özündə cəm edir.[1]

Uca Allah buyurur: "**İşləri yoluna qoyan kimdir?**" Yəni hər şeyin səltənəti (idarəçiliyi) əlində olan, hər şeyi himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir? O, hər şeyi idarə edən hakimdir, heç kəs Onun hökmünü ləğv edə bilməz. O, gördüyü işlər barədə soruşulmaz, onlar isə soruşulacaqlar. "**Göylərdə və yerdə olan hər kəs ehtiyacı olan şeyi Ondan diləyir. Allah hər gün bir işdədir**" ("ər-Rəhman", 29). Səmada və yerdə olan bütün mülk Onundur. Oradakı mələklər, insanlar və cinlər Ona möhtacdırlar, Onun qullarıdır və Onun qarşısında boyun əyərlər. "**Onlar "Allah!" – deyəcəklər**", yəni onlar bunu bilirlər və etiraf edirlər. "**De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?**" Yəni belə olan halda öz fikirlərinizə əsaslanaraq cahilliyiniz üzündən Allahla bərabər başqasına ibadət edərkən Ondan qorxmursunuz?

Uca Allah buyurur: "**O sizin Haqq Rəbbiniz olan Allahdır**", yəni bütün bunları edənin Allah olduğunu etiraf edirsinizsə, bilin ki, ibadət olunmağa layiq olan tək haqq Rəbbiniz də məhz Odur. "**Haqdan sonra zəlalətdən başqa nə ola bilər?**" Yəni Ondan başqa ibadət olunan bütün məbudlar batildir, Ondan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. "**Siz necə də haqdan döndərilirsiniz!**" Yəni Allahın hər şeyi yaradan Rəbb olduğunu, hər şeydə mütləq hökm sahibi olduğunu bilə-bilə, Onu qoyub başqasına ibadətə necə yönəlirsiniz?

Uca Allah buyurur: "**Beləliklə, fasiqlərin iman gətirməyəcəyinə dair Rəbbinin Sözü doğru çıxdı**", yəni bu müşriklər Allahın tək yaradan və ruzi verən olduğunu, mülkünü tək idarə etdiyini, tək Allaha ibadət etməyə

[1] "Ali-İmran" surəsinin 27-ci ayəsinin təfsirinə bax.

çağırmaq üçün peyğəmbərlər göndərdiyini etiraf etdikləri halda Allahla yanaşı, başqa məbudlara ibadət edib Ona şərik qoşmaqda davam etdikləri üçün onların Cəhənnəmdə qalan bədbəxt insanlar olmasına dair Allahın sözü doğru çıxdı. Uca Allah başqa bir ayədə belə buyurur: "**Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?" Onlar "Bəli, gəlmişdi!" – deyəcəklər. Lakin əzab sözü kafirlər barəsində gerçəkləşdi**" ("əz-Zumər", 71).

﴿قُلْ هَلْ مِن شُرَكَآئِكُم مَّن يَبْدَؤُا۟ ٱلْخَلْقَ ثُمَّ يُعِيدُهُۥ ۚ قُلِ ٱللَّهُ يَبْدَؤُا۟ ٱلْخَلْقَ ثُمَّ يُعِيدُهُۥ ۖ فَأَنَّىٰ تُؤْفَكُونَ ﴿٣٤﴾ قُلْ هَلْ مِن شُرَكَآئِكُم
مَّن يَهْدِىٓ إِلَى ٱلْحَقِّ ۚ قُلِ ٱللَّهُ يَهْدِى لِلْحَقِّ ۗ أَفَمَن يَهْدِىٓ إِلَى ٱلْحَقِّ أَحَقُّ أَن يُتَّبَعَ أَمَّن لَّا يَهِدِّىٓ إِلَّآ أَن يُهْدَىٰ ۖ فَمَا لَكُمْ
كَيْفَ تَحْكُمُونَ ﴿٣٥﴾ وَمَا يَتَّبِعُ أَكْثَرُهُمْ إِلَّا ظَنًّا ۚ إِنَّ ٱلظَّنَّ لَا يُغْنِى مِنَ ٱلْحَقِّ شَيْـًٔا ۚ إِنَّ ٱللَّهَ عَلِيمٌۢ بِمَا يَفْعَلُونَ ﴿٣٦﴾﴾

**34. De: "Allaha qoşduğunuz şəriklərdən eləsi varmı ki, hər hansı bir məxluqu ilk dəfə yaratsın, öldükdən sonra onu əvvəlki halına qaytarsın?" De: "Məxluqu ilk dəfə Allah yaradır, öldükdən sonra onu əvvəlki halına qaytarır. Siz necə də haqdan döndərilirsiniz!"**

**35. De: "Allaha qoşduğunuz şəriklər arasında haqqa yönəldən bir kimsə varmı?" De: "Allah Öz qullarını haqqa yönəldir. Elə isə deyin görək haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa özünə doğru yol göstərilməyincə onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə edirsiniz?"**

**36. Onların əksəriyyəti ancaq zənnə qapılır. Şübhəsiz ki, zənn həqiqəti heç cür əvəz edə bilməz. Allah onların nə etdiklərini bilir.**

Uca Allah bu ayələrdə müşriklərin Allahdan başqalarını Ona şərik qoşmaqda və bütlərə ibadət etməkdə əsaslandıqları iddiaları boşa çıxarır. "**De: "Allaha qoşduğunuz şəriklərdən eləsi varmı ki, hər hansı bir məxluqu ilk dəfə yaratsın, öldükdən sonra onu əvvəlki halına qaytarsın?**" Yəni bu göyləri və yeri ilk yaratmağa başlayan, sonra oradakı varlıqları xəlq edən, göy cisimlərini yer üzündən ayıran, orada yaratdıqlarını yox edib, sonra yeni bir yaradılışla təkrar yaradan kimdir? "**De: "Məxluqu ilk dəfə Allah yaradır**", yəni bunları tək və şəriki olmadan edən Allahdır. "**Siz necə də haqdan döndərilirsiniz!**" Yəni belə olan halda doğru yoldan batilə necə yönəldilirsiniz? "**De: "Allaha qoşduğunuz şəriklər arasında haqqa yönəldən bir kimsə varmı?" De:**

**"Allah Öz qullarını haqqa yönəldir"**, yəni siz də yaxşı bilirsiz ki, Allaha qoşduğunuz şərikləriniz azmış bir insanı doğru yola yönəltməyə qadir deyil. Çaşmış və azmış insanları doğru yola yönəldən, qəlbləri azğınlıqdan doğru yola çevirən yalnız Özündən başqa ibadətə layiq məbud olmayan Allahdır. "**Elə isə deyin görək haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa özünə doğru yol göstərilməyincə onu tapa bilməyən kəs?**" Yəni deyin görək haqqa yönəldən, göz kor olduqdan sonra onu açan qulun (Muhəmməd peyğəmbər) arxasınca gedilər, yoxsa kor və dilsiz olduğu üçün kömək olmadan gedə bilməyən kəsin? Uca Allah İbrahimin ﷺ (atasına) belə dediyini xəbər verir: "**Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən?**" ("Məryəm", 42). İbrahim ﷺ öz qövmünə isə belə demişdir: "**O dedi: "Siz yonub düzəltdiklərinizəmi sitayiş edirsiniz? Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır**" ("əs-Saffat", 95-96). Bu mənada ayələr çoxdur.

Uca Allah buyurur: "**Sizə nə olub? Necə mühakimə edirsiniz?**", yəni sizin ağlınızı başınızdan alan nədir? Allahın yaratdığını Ona necə tay tutursunuz, birini digərinə necə bərabər edib həm Ona, həm də buna ibadət edirsiniz? Nə üçün ibadəti Rəbbə, Hökmdara, Hakimə, zəlalətdən çıxarıb doğru yola yönəldən Allaha məxsus etmirsiniz, dua edərkən yalnız Ona üz tutmursunuz?

Sonra Uca Allah müşriklərin öz dinlərində heç bir dəlilə əsaslanmadıqlarını bəyan edir. Onların əsaslandıqları sadəcə zəndir, yəni fərziyyə və xəyaldan ibarətdir. Bu isə onlara heç bir fayda verməz. Uca Allahın "**Allah onların nə etdiklərini bilir**" ayəsi onlara bir təhdid və şiddətli qorxutmadan ibarətdir, çünki etdikləri əməllərə görə Uca Allah onları layiqincə cəzalandıracağını xəbər verir.

﴿وَمَا كَانَ هَٰذَا ٱلۡقُرۡءَانُ أَن يُفۡتَرَىٰ مِن دُونِ ٱللَّهِ وَلَٰكِن تَصۡدِيقَ ٱلَّذِي بَيۡنَ يَدَيۡهِ وَتَفۡصِيلَ ٱلۡكِتَٰبِ لَا رَيۡبَ فِيهِ مِن رَّبِّ
ٱلۡعَٰلَمِينَ ﴿٣٧﴾ أَمۡ يَقُولُونَ ٱفۡتَرَىٰهُۖ قُلۡ فَأۡتُواْ بِسُورَةٖ مِّثۡلِهِۦ وَٱدۡعُواْ مَنِ ٱسۡتَطَعۡتُم مِّن دُونِ ٱللَّهِ إِن كُنتُمۡ صَٰدِقِينَ ﴿٣٨﴾ بَلۡ كَذَّبُواْ
بِمَا لَمۡ يُحِيطُواْ بِعِلۡمِهِۦ وَلَمَّا يَأۡتِهِمۡ تَأۡوِيلُهُۥۚ كَذَٰلِكَ كَذَّبَ ٱلَّذِينَ مِن قَبۡلِهِمۡۖ فَٱنظُرۡ كَيۡفَ كَانَ عَٰقِبَةُ ٱلظَّٰلِمِينَ ﴿٣٩﴾
وَمِنۡهُم مَّن يُؤۡمِنُ بِهِۦ وَمِنۡهُم مَّن لَّا يُؤۡمِنُ بِهِۦۚ وَرَبُّكَ أَعۡلَمُ بِٱلۡمُفۡسِدِينَ ﴿٤٠﴾﴾

**37. Bu Quran Allahdandır, Ondan başqaları tərəfindən uydurula bilməz. Lakin o özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir.**

**38. Yoxsa "O (Muhəmməd) onu özündən uydurdu?!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!"**

**39. Xeyr! Onlar elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlməmiş Quranı yalan hesab etdilər. Onlardan əvvəlkilər də yalan hesab etmişdilər. Bir gör zalımların aqibəti necə oldu.**

**40. İçərilərində bu Qurana inananlar da var, ona inanmayanlar da. Rəbbin fitnə-fəsad törədənləri daha yaxşı tanıyır.**

Bu ayələr Quranın ecazkarlığını bəyan edir. Belə ki, heç bir bəşər nə onun bənzərini, nə on surənin bənzərini, nə də surələrindən birinin bənzərini gətirməyə gücü çatmaz. Çünki o öz fəsahəti, bəlağəti, yığcamlığı, ayələrinin dilə yatımlı olması, dünya və Axirətdə fayda verəcək mənaları ehtiva etməsi ilə yalnız sifətlərində, işlərində, sözlərində və zatında bənzəri olmayan Allah dərgahından nazil ola bilər. Onun Sözü də məxluqların sözünə bənzəməz. Bu səbəbdən Uca Allah "**Bu Quran Allahdandır, Ondan başqaları tərəfindən uydurula bilməz**" – deyə buyurur. Yəni bu Quran yalnız və yalnız Allah dərgahından nazil ola bilər və heç bir bəşər sözünə bənzəməz. "**Lakin o özündən əvvəlkiləri təsdiqləyən...**", yəni özündən əvvəl nazil olmuş kitabları təsdiqləyir, onları mühafizə edir, onlarda baş vermiş təhrifləri, səhv yozumları və dəyişmələri bəyan edir. "**...və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir**", yəni oradakı hökmləri, halal və haramları haqqı ilə tam və geniş şəkildə bəyan edir. Onun aləmlərin Rəbbi Allah tərəfindən nazil olmasında heç bir şəkk-şübhə yoxdur.

Uca Allah buyurur: "**Yoxsa " O (Muhəmməd) onu özündən uydurdu?!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!**" Yəni əgər bu Quranın Allah tərəfindən göndərilmədiyini iddia edir, böhtan atır, onun Allah dərgahından nazil olmasına şübhə edib yalandan "Həqiqətən, bu, Muhəmməd tərəfindən uydurulub" – deyirsinizsə, bilin ki, Muhəmməd də sizin kimi bir insandır. Sizin iddianıza görə bu Quranı o uydurmuşdur. Elə isə siz də ona bənzər, yəni Qurana bənzər bir surə gətirin və bu işdə insan və cinlərdən gücünüzün çatdığı hər kəsi köməyə çağırın.

Bu, meydan oxumanın üçüncü məqamıdır. Uca Allah ilk olaraq onlara meydan oxuyaraq əgər Quranın Muhəmməd ﷺ tərəfindən uydurulmuş olduğunu iddia edir və bu iddialarında haqlı olduqlarını sanırlarsa, onları istədiklərini köməyə çağıraraq Muhəmmədin ﷺ qarşısına onun təkbaşına gətirdiyinin bir bənzəri ilə çıxmağa çağırmışdır. Uca Allah bu çağırışın ardından buna güclərinin çatmayacağını və onu bacarmayacaqlarını bildirərək belə buyurmuşdur: "**De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb bir-birinə kömək etsələr belə ona bənzərini gətirə bilməzlər**" ("əl-İsra", 88). Sonra (ikinci məqamda) Uca Allah "Hud" surəsinin əvvəlində onlardan daha azını istəyərək onları Qurandan on surənin bənzərini gətirməyə çağırmışdır. Uca Allah buyurur: "**Yoxsa onlar " O (Muhəmməd) onu özündən uydurdu?!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər uydurulmuş on surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!**" ("Hud", 13). Sonra bu surədə Uca Allah (üçüncü məqamda) daha da azını istəyərək onları Qurandan bir surənin bənzərini gətirməyə çağırmış və belə buyurmuşdur: "**Yoxsa "O (Muhəmməd) onu özündən uydurdu?!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!**" Həmçinin Uca Allah "əl-Bəqərə" surəsində Qurana bənzər bir surə gətirmələrinə çağırış edib meydan oxumuş və onların buna güclərinin əsla yetməyəcəyini bildirmişdir. Uca Allah belə buyurur: "**Əgər siz bunu edə bilmirsinizsə, heç edə də bilməzsiniz, onda yanacağı insanlardan və daşlardan olan kafirlər üçün hazırlanmış oddan çəkinin**". ("əl-Bəqərə", 24).

Həqiqətən, bəlağətli danışmaq ərəblərin fitri istedadı idi. Onların şeirləri və muəlləqatları[1] bu xüsusda ən yüksək dərəcəyə çatmışdı. Lakin onlara Allah dərgahından heç kimin bənzərini gətirməyə gücü çatmayacağı bir Kəlam gəldi. Bu Kəlamın bəlağətini, dildə axarlığını, gözəlliyini, səlisliyini, dərin məna və elm ifadə etməsini bildikləri üçün ərəblərdən bir çoxu ona iman gətirdi. Bu səbəbdən ərəblər Quranı ən yaxşı bilən, ən yaxşı anlayan, ona ən çox tabe olan və əmrlərinə itaət edən insanlar oldular. Necə ki sehrbazlar sehr sənətini yaxşı bildikləri üçün Musanın ﷺ gətirdiyinin yalnız Allah tərəfindən göndərilmiş və yardım edilmiş bir peyğəmbərin gətirə biləcəyini anladılar. Onlar bildilər ki, insan bunu ancaq Allahın izni ilə edə bilər. İsa ﷺ da tibb alimlərinin mövcud olduğu və xəstələrin müalicə edildiyi bir dövrdə göndərilmişdi. O, Allahın izni ilə anadangəlmə korun gözünü açar, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərdi. Onun dövründə bu kimi şeylər müalicəsi və əlacı olmayan xəstəliklər idi. Odur ki, içərlərindən elmli olanlar onun Allahın qulu və elçisi olduğunu anladılar. “Səhih” əsərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: “Elə bir peyğəmbər yoxdur ki, ona bir insanın inanacağı ayələr (peyğəmbərliyini təsdiqləyəcək dəlillər) göstərmək qüdrəti verilməsin. Mənə isə Allahın nazil etdiyi vəhy bəxş edilmişdir. Mən ümid edirəm ki, Qiyamət günü mənim ardıcıllarım onların hamısından çox olacaq”.[2]

Uca Allah buyurur: “**Xeyr! Onlar elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlməmiş Quranı yalan hesab etdilər**”, yəni onlar Quranı yalan hesab etdilər, onu anlamadılar və başa düşmədilər. “**...hələ yozumu onlara gəlməmiş**”, yəni onlar cahillikləri və səfehlikləri üzündən Quranı yalan hesab etdikləri vaxta qədər oradakı hidayəti və haqq dini əldə edə bilməmişlər. “**Onlardan əvvəlkilər də**”, yəni keçmiş ümmətlər də “**yalan hesab etmişdilər. Bir gör zalımların aqibəti necə oldu**”, yəni bax, gör təkəbbürlük, küfr, inad və cahillik ucbatından elçilərimi haqsızcasına yalan sayanları necə həlak etdik. Ey haqqı yalan sayanlar! Onların başına gələnlərin sizin də başınıza gəlməsindən qorxun!

Uca Allah buyurur: “**İçərilərində bu Qurana inananlar da var**”, yəni ey Muhəmməd, sənin elçi göndərildiyin insanların içində bu Qurana iman gətirib sənə tabe olan və sənin gətirdiyin vəhydən faydalananlar

---

[1] Muəlləqat – ərəblərin cahiliyyə dövründə çoxsaylı qəsidələrin içərisindən seçdikləri ən gözəl şeirləridir. “Muəlləqat” sözünün hərfi mənası “asılmış” deməkdir. Ərəblər bu şeirləri qızıl suyu ilə lövhələrə yazıb Kəbənin ətrafından asdıqlarına görə belə adlandırırdılar. Cahiliyyə dövründən yeddi ədəd muəlləqat gəlib günümüzə çatmışdır.

[2] əl-Buxari, 4598, 4981; Muslim, 217, 402.

da var, "**ona inanmayanlar da**", yəni ona iman gətirmədiyi halda ölən və bu halda diriləcək insanlar da var. "**Rəbbin fitnə-fəsad törədənləri daha yaxşı tanıyır**", yəni kimin hidayətə layiq olduğunu ən yaxşı bilən Odur və onu doğru yola yönəldir. Kimin də zəlalətə layiq olduğunu bilir və onu azdırır. O, Ədalətlidir və əsla zülm etməz. Hər kəsə layiq olduğunu verər. O, ucadır, müqəddəsdir, bütün nöqsanlardan uzaqdır, Ondan başqa ibadətə layiq məbud yoxdur.

﴿وَإِن كَذَّبُوكَ فَقُل لِّي عَمَلِي وَلَكُمْ عَمَلُكُمْ ۖ أَنتُم بَرِيئُونَ مِمَّا أَعْمَلُ وَأَنَا بَرِيءٌ مِّمَّا تَعْمَلُونَ ﴿٤١﴾ وَمِنْهُم مَّن
يَسْتَمِعُونَ إِلَيْكَ ۚ أَفَأَنتَ تُسْمِعُ الصُّمَّ وَلَوْ كَانُوا لَا يَعْقِلُونَ ﴿٤٢﴾ وَمِنْهُم مَّن يَنظُرُ إِلَيْكَ ۚ أَفَأَنتَ تَهْدِي الْعُمْيَ وَلَوْ كَانُوا لَا
يُبْصِرُونَ ﴿٤٣﴾ إِنَّ اللَّهَ لَا يَظْلِمُ النَّاسَ شَيْئًا وَلَٰكِنَّ النَّاسَ أَنفُسَهُمْ يَظْلِمُونَ ﴿٤٤﴾﴾

**41. Əgər səni yalançı hesab etsələr, de: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Siz mənim etdiyim əməldən uzaqsınız, mən də sizin etdiyiniz əməllərdən uzağam".**

**42. Onlardan səni dinləyənlər də vardır. Məgər karlara – əgər anlamırlarsa – sənmi eşitdirəcəksən?**

**43. Onlardan sənə baxanlar da vardır. Məgər korları – əgər görmürlərsə – sənmi doğru yola yönəldəcəksən?**

**44. Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər.**

Uca Allah Peyğəmbərinə ﷺ belə buyurur: "Əgər bu müşriklər səni yalançı hesab etsələr, onlardan və onların əməllərindən uzaqlaş və "**de: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir**". Başqa bir ayədə Uca Allah buyurur: "**De: "Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!**" ("əl-Kəfirun", 1-6). İbrahim عليه السلام və ona tabe olanlar da müşrik qövmlərinə belə demişlər: "**İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə var. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz tək olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaq!**" ("əl-Mumtəhənə", 4).

Uca Allah buyurur: "**Onlardan səni dinləyənlər də vardır**", yəni sənin gözəl sözünü, Əzəmətli Quranı, qəlbə, bədənə və dinə fayda verən bəlağətli, doğru hədisləri dinləyənlər də var. Əslində, bu sözlər haqqı bilməyə kifayətdir, lakin bu sözdən faydalanmaları nə sənə, nə də onlara aid deyil, çünki sən karlara haqqı eşitdirə bilməzsən. Habelə Allahın istədikləri istisna olmaqla, onları doğru yola yönəldə bilməzsən.

Uca Allah buyurur: "**Onlardan sənə baxanlar da vardır**", yəni onlar sənə, Allahın sənə bəxş etdiyi təmkinə, gözəl simaya, yüksək əxlaqa, ağıl və bəsirət sahibləri üçün peyğəmbərliyini sübut edən aydın dəlillərə baxarlar. Başqalarının baxdığı kimi, onlar da sənə baxarlar, lakin başqalarının əldə etdikləri hidayəti onlar əldə etməzlər. Möminlər sənə hörmət, kafirlər isə təhqir gözü ilə baxarlar. "**Onlar səni gördükdə ancaq sənə lağ edir və deyirlər: "Budurmu Allahın elçi göndərdiyi kəs?**" ("əl-Furqan", 41-42).

Sonra Uca Allah bildirir ki, bəzilərini Peyğəmbər ﷺ vasitəsilə doğru yola yönəltməklə, kor gözlərini, kar qulaqlarını, qapalı qəlblərini açmaqla, digərlərini isə imandan sapdırmaqla heç kimə əsla zülm etmir. O, Öz mülkündə istədiyi kimi hökm edir. Allah gördüyü işlər barədə soruşulmaz, onlar isə soruşulacaqlar. Bu səbəbdən növbəti ayədə: "**Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər**" – deyə buyurur. Əbu Zərin ؓ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ Rəbbinin belə dediyini bildirir: "Ey Mənim qullarım! Mən zülm etməyi Özümə haram saydım və onu sizin aranızda da haram etdim. Elə isə bir-birinizə zülm etməyin!...". Nəhayət, sonunda belə buyurdu: "Ey Mənim qullarım! Bu sizin əməllərinizdir. Onları sizin üçün hesaba alıram, sonra əvəzini verəcəyəm. Odur ki, kim xeyir tapsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey tapsa, özündən başqa heç kəsi qınamasın". Hədisi tam şəkildə Muslim رحمه الله rəvayət etmişdir.[1]

﴿وَيَوۡمَ يَحۡشُرُهُمۡ كَأَن لَّمۡ يَلۡبَثُوٓاْ إِلَّا سَاعَةٗ مِّنَ ٱلنَّهَارِ يَتَعَارَفُونَ بَيۡنَهُمۡۚ قَدۡ خَسِرَ ٱلَّذِينَ كَذَّبُواْ بِلِقَآءِ ٱللَّهِ وَمَا كَانُواْ مُهۡتَدِينَ ٤٥﴾

**45. Allah onları bir yerə toplayacağı gün, sanki dünyada və yaxud qəbirdə gündüzün ancaq bir saatını qalmışlar kimi, bir-birini tanıyacaqlar. Allahın qarşısında durmağı yalan sayıb doğru yola yönəlməyənlər, həqiqətən, ziyana uğramışlar.**

[1] Muslim, 2577/55, 4674, 6737.

Uca Allah bu ayədə insanlara Qiyamətin qopacağını və onların qəbirlərdən qalxıb Ərasatda (haqq-hesab üçün boşluq ərazidə) toplanacaqlarını xatırladaraq buyurur: "**Allah onları bir yerə toplayacağı gün, sanki dünyada və yaxud qəbirdə gündüzün ancaq bir saatını qalmışlar kimi, bir-birini tanıyacaqlar...**". Uca Allah başqa ayələrdə belə buyurur: "**Onlar Qiyaməti gördükləri an dünyada yalnız bir axşam çağı, yaxud bir səhər qədər qaldıqlarını güman edəcəklər!**" ("ən-Naziat", 46); "**O gün sur üfürüləcək və o gün günahkarları gözləri göm-göy göyərmiş halda bir yerə toplayacağıq. Onlar öz aralarında pıçıldaşıb deyəcəklər: "Dünyada cəmi on gün qaldınız!" Biz onların nə deyəcəklərini də yaxşı bilirik. Onların ən ağıllısı: "Dünyada cəmisi bir gün qaldınız!" – deyəcək**" ("Ta ha", 102-104); "**Qiyamət saatının gəldiyi gün günahkarlar dünyada bircə saat qaldıqlarına and içəcəklər. Onlar dünyada da haqdan belə üz döndərirdilər. Bilik və iman nəsib edilmiş kimsələr isə deyəcəklər: "Siz orada Allahın yazısı ilə dirilmə gününə qədər qaldınız. Bu gün, məhz dirilmə günüdür, lakin siz bunu bilmirdiniz**" ("ər-Rum", 55-56). Bütün bu ayələr dəlalət edir ki, dünya həyatı Axirət yurduna nisbətən çox qısa görünəcəkdir. Başqa bir ayədə Uca Allah belə buyurur: "**Allah kafirlərdən: "Yer üzündə neçə il qaldınız?" – deyə soruşacaq. Onlar: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən günləri sayanlardan soruş" – deyəcəklər. Allah deyəcək: "Siz orada çox az qaldınız. Kaş bunu biləydiniz!**" ("əl-Muminun", 112-114).

Uca Allah buyurur: "**...bir-birini tanıyacaqlar**", yəni oğullar atalarını, qohumlar bir-birini dünyada olduğu kimi tanıyacaqlar. Lakin hər kəs öz hayına qalacaq. Uca Allah başqa ayələrdə belə buyurur: "**Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar**" ("əl-Muminun", 101); "**Dost dostun halını xəbər almayacaq. Halbuki onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki bu onu xilas etsin. Xeyr! Bu, alovu şölələnən Oddur**" ("əl-Məaric", 10-15).

Uca Allahın "**Allahın qarşısında durmağı yalan sayıb doğru yola yönəlməyənlər, həqiqətən, ziyana uğramışlar**" ayəsi bu ayəyə bənzəyir: "**O gün Qiyaməti yalan sayanların vay halına!**" ("əl-Mursələt", 15). Çünki onlar Qiyamət günü həm özlərini, həm də ailələrini ziyana uğratmışlar. Açıq-aşkar ziyan da elə budur. Ən böyük ziyan da elə budur. Həsrət və peşmançılıq günü sevdiklərindən ayrı düşmək kimi ziyandan daha böyük bir ziyan və itki varmı?

﴿وَإِمَّا نُرِيَنَّكَ بَعْضَ ٱلَّذِى نَعِدُهُمْ أَوْ نَتَوَفَّيَنَّكَ فَإِلَيْنَا مَرْجِعُهُمْ ثُمَّ ٱللَّهُ شَهِيدٌ عَلَىٰ مَا يَفْعَلُونَ ﴿٤٦﴾ وَلِكُلِّ أُمَّةٍ
رَّسُولٌ ۖ فَإِذَا جَآءَ رَسُولُهُمْ قُضِىَ بَيْنَهُم بِٱلْقِسْطِ وَهُمْ لَا يُظْلَمُونَ ﴿٤٧﴾﴾

**46. Onlara vəd etdiyimiz əzabın bəzisini sənə göstərsək və yaxud da göstərmədən öncə səni öldürsək, yenə də onların dönüşü Bizədir. Həm də Allah onların nə etdiklərinə Şahiddir.**

**47. Hər ümmətin bir elçisi vardır. Elçiləri gəldikdə onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz.**

Uca Allah bu ayədə Öz Elçisinə ﷺ xitab edərək belə buyurur: "**Onlara vəd etdiyimiz əzabın bəzisini sənə göstərsək**", yəni sən həyatda ikən gözün sevinsin deyə onlardan intiqam alsaq "**və yaxud da göstərmədən öncə səni öldürsək, yenə də onların dönüşü Bizədir**", yəni onların qayıdacaqları yer hüzurumuzdur. Allah səndən sonra onların etdikləri əməllərə şahiddir.

Uca Allah buyurur: "**Hər ümmətin bir elçisi vardır. Elçiləri gəldikdə...**". Mücahidə ؒ görə burada Qiyamət günü nəzərdə tutulur. "**...onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz**". Uca Allah başqa bir ayədə isə belə buyurur: "**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcək**" ("əz-Zumər", 69). Hər bir ümmət Uca Allahın hüzuruna peyğəmbəri ilə birlikdə çıxarılacaq. Əməl dəftərləri xeyir və şər əməlləri ilə birlikdə qarşılarına qoyulacaq və öz əleyhlərinə şahidlik edəcək. Həmçinin gözətçi mələklər ümmət-ümmət şahidlik edəcəklər. Bu şərəfli ümmət yaradılış baxımından ümmətlərin sonuncusu olsa da, Qiyamət günü aralarında hökm veriləcək ilk ümmət olacaq. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Peyğəmbərin ﷺ belə dediyi rəvayət olunur: "Biz (zəmanəyə görə) sonuncular, Qiyamət günü isə birinci olacağıq. İnsanlar arasında ilk hökm veriləcək ümmət biz olacağıq".[1] Bu ümmətin Peyğəmbəri ﷺ ən şərəfli olduğuna görə Qiyamət günü birinciliyə sahib olacaq. Qiyamət gününə qədər ona Allahın salavatı və salamı olsun!

[1] əl-Buxari, 827, 876; Muslim, 856/22, 1414, 2018.

﴿وَيَقُولُونَ مَتَىٰ هَٰذَا ٱلْوَعْدُ إِن كُنتُمْ صَٰدِقِينَ ٤٨ قُل لَّآ أَمْلِكُ لِنَفْسِى ضَرًّا وَلَا نَفْعًا إِلَّا مَا شَآءَ ٱللَّهُ ۗ لِكُلِّ أُمَّةٍ أَجَلٌ ۚ
إِذَا جَآءَ أَجَلُهُمْ فَلَا يَسْتَـْٔخِرُونَ سَاعَةً ۖ وَلَا يَسْتَقْدِمُونَ ٤٩ قُلْ أَرَءَيْتُمْ إِنْ أَتَىٰكُمْ عَذَابُهُۥ بَيَٰتًا أَوْ نَهَارًا مَّاذَا يَسْتَعْجِلُ مِنْهُ
ٱلْمُجْرِمُونَ ٥٠ أَثُمَّ إِذَا مَا وَقَعَ ءَامَنتُم بِهِۦٓ ۚ ءَآلْـَٰٔنَ وَقَدْ كُنتُم بِهِۦ تَسْتَعْجِلُونَ ٥١ ثُمَّ قِيلَ لِلَّذِينَ ظَلَمُوا۟ ذُوقُوا۟ عَذَابَ
ٱلْخُلْدِ هَلْ تُجْزَوْنَ إِلَّا بِمَا كُنتُمْ تَكْسِبُونَ ٥٢﴾

**48. Kafirlər deyirlər: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?"**

**49. De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm. Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər".**

**50. Müşriklərə de: "Söyləyin görüm, əgər Onun əzabı sizə gecə yaxud gündüz gələcəksə, onda günahkarlar bunlardan hansını tələsik istəyəcəklər?**

**51. Əzab başınızın üstünü aldıqdan sonramı ona iman gətirəcəksiniz? Yoxsa indimi? Siz ki, onun tez gəlməsini istəyirdiniz!"**

**52. Sonra zalımlara deyiləcəkdir: "Dadın əbədi əzabı! Məgər siz ancaq qazandığınız günahlara görə cəzalandırılmırsınızmı?"**

Uca Allah bu ayələrdə bildirir ki, müşriklər onlara heç bir faydası olmadığı halda əzabın vaxtını təyin edilməzdən əvvəl soruşmaqla və onun tez gəlməsini istəməklə küfr edirlər. Başqa bir ayədə belə buyurur: "**Qiyamətə inanmayanlar onun tez gəlib çatmasını istəyirlər. Möminlər isə ondan qorxur və onun həqiqət olduğunu bilirlər**" ("əş-Şura", 18). Yəni möminlər Qiyamətin nə zaman olacağını dəqiq bilməsələr də, onun mütləq baş verəcəyini bilirlər. Bu səbəbdən Uca Allah Öz Elçisinə ﷺ onlara belə cavab verməyi tövsiyə edir: "**De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm**", yəni mən ancaq Allahın mənə öyrətdiyini söyləyirəm. Məni xəbərdar etdiyindən başqa, elmini Özündə saxladığı heç bir şeyə gücüm çatmaz. Mən Onun qulu və sizə göndərdiyi elçisiyəm. Qiyamətin yaxınlaşdığını və mütləq baş verəcəyini sizə xəbər verdim. Uca Allah onun başvermə vaxtını mənə bildirməmişdir, lakin "**Hər ümmətin bir əcəli vardır**", yəni hər nəslin müəyyən edilmiş bir ömrü vardır. Bu ömrün müddəti bitdikdə "**bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər**". Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Allah, əcəli çatmış kimsəyə**

**əsla möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır**" ("əl-Munafiqun", 11). Sonra Uca Allah onlara əzabının qəflətən gələcəyini xəbər verərək belə buyurur: "**Söyləyin görüm, əgər Onun əzabı sizə gecə yaxud gündüz gələcəksə, onda günahkarlar bunlardan hansını tələsik istəyəcəklər? Əzab başınızın üstünü aldıqdan sonramı ona iman gətirəcəksiniz? Yoxsa indimi? Siz ki, onun tez gəlməsini istəyirdiniz!**". Yəni onlara əzab gəldikdə belə deyərlər: "**Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qətiyyətlə inandıq!**" ("əs-Səcdə", 12); Uca Allah başqa bir ayədə belə buyurur: "**Onlar əzabımızı gördükdə dedilər: "Biz tək Allaha iman gətirdik və Ona qoşduğumuz şərikləri inkar etdik!" Lakin əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın Öz qulları barəsində əzəldən olub-keçmiş qanunudur. Kafirlər orada ziyana uğradılar**" ("Ğafir", 84-85).

"**Sonra zalımlara**" Qiyamət günü məzəmmət olaraq belə "**deyiləcəkdir: "Dadın əbədi əzabı! Məgər siz ancaq qazandığınız günahlara görə cəzalandırılmırsınızmı?**" Uca Allah başqa bir ayədə belə buyurur: "**O gün onlar amansızcasına sürüklənib Cəhənnəm oduna atılacaqlar. Onlara deyiləcək: "Bu, sizin yalan saydığınız Cəhənnəm odudur! Bəlkə bu da sehrdir, yoxsa görmürsünüz? Yanın orada! Dözsəniz də, dözməsəniz də, sizin üçün eynidir. Sizə ancaq etdiyiniz əməllərin cəzası verilir**" ("ət-Tur", 13-16).

﴿۞ وَيَسْتَنۢبِـُٔونَكَ أَحَقٌّ هُوَ ۖ قُلْ إِى وَرَبِّىٓ إِنَّهُۥ لَحَقٌّ ۖ وَمَآ أَنتُم بِمُعْجِزِينَ ﴿٥٣﴾ وَلَوْ أَنَّ لِكُلِّ نَفْسٍ ظَلَمَتْ مَا
فِى ٱلْأَرْضِ لَٱفْتَدَتْ بِهِۦ ۗ وَأَسَرُّوا۟ ٱلنَّدَامَةَ لَمَّا رَأَوُا۟ ٱلْعَذَابَ ۖ وَقُضِىَ بَيْنَهُم بِٱلْقِسْطِ ۚ وَهُمْ لَا يُظْلَمُونَ ﴿٥٤﴾﴾

**53. Səndən: "O, doğrudurmu?" – deyə xəbər alırlar. De: "Bəli, and olsun Rəbbimə! Həqiqətən də, o, doğrudur və siz bundan canınızı qurtara bilməyəcəksiniz".**

**54. Əgər zalım olan hər kəs yer üzündə olanların hamısına sahib olsaydı, mütləq onu əzabdan qurtarmaq üçün fidyə verərdi. Onlar əzabı gördükdə dərindən peşman olarlar. Onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz.**

Uca Allah buyurur: "**Səndən: "O, doğrudurmu?" – deyə xəbər alırlar**", yəni səndən soruşurlar ki, Allahın hüzuruna qayıtmaq, cəsədlər torpaq olduqdan sonra qəbirlərdən qalxmaq həqiqətdirmi? "**De: "Bəli, and olsun Rəbbimə! Həqiqətən də, o, doğrudur və bundan canınızı qurtara bilməyəcəksiniz**", yəni, sizin çürüyüb torpaq olmağınız Onun sizi təkrar yaratmasına mane ola bilməz. Necə ki sizi yoxdan var etmişdir. "**Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar**" ("Ya sin", 82). Quranda bu ayə də daxil olmaqla üç ayədən başqa elə bir ayə yoxdur ki, Uca Allah orada Öz Elçisinə ﷺ Axirəti inkar edənlərə qarşı Öz adına and içməyi əmr etsin. Bu iki ayənin biri "Səba", digəri isə "ət-Təğabun" surəsindədir. Uca Allah buyurur: "**Kafirlər: "Qiyamət saatı bizə gəlməyəcək!" – dedilər. De: "Xeyr, qeybi bilən Rəbbimə and olsun ki, o, mütləq sizi haqlayacaqdır. Göylərdə və yerdə zərrə qədər bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın kitabda** (Lovhi-Məhfuzda) **olmasın**" ("Səba", 3); "**Kafir olanlar heç vaxt dirildilməyəcəklərini iddia edirlər. De: "Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz. Sonra isə etdiyiniz əməllər sizə xəbər veriləcək. Bu, Allah üçün çox asandır!**" ("ət-Təğabun", 7).

Sonra Uca Allah bildirir ki, Qiyamət qopduqda kafir, Allahın əzabından qurtulmaq üçün dünya dolusu qızılı fidyə verməyi təmənna edəcək. "**Onlar əzabı gördükdə dərindən peşman olarlar. Onların arasında ədalətlə**", yəni haqsızlıq edilmədən "**hökm verilər və onlara zülm edilməz**".

﴿أَلَآ إِنَّ لِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِۗ أَلَآ إِنَّ وَعۡدَ ٱللَّهِ حَقّٞ وَلَٰكِنَّ أَكۡثَرَهُمۡ لَا يَعۡلَمُونَ ٥٥ هُوَ يُحۡيِۦ وَيُمِيتُ وَإِلَيۡهِ تُرۡجَعُونَ ٥٦﴾

**55. Bilin ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Bilin ki, Allahın vədi haqdır, lakin onların çoxu bunu bilmir.**

**56. O, həm dirildir, həm də öldürür. Siz yalnız Ona qaytarılacaqsınız.**

Uca Allah bu ayələrdə göylərin və yerin sahibi olduğunu, vədinin haqq olub mütləq yerinə yetəcəyini, həm dirildib, həm də öldürdüyünü, qulların son dönüşünün Ona olacağını, bütün bunlara qadir olduğunu, yer üzünün hər yerində – dənizdə və səhrada dağılan cəsədləri, parçalanıb dağılan hər şeyi ən yaxşı bilən olduğunu xəbər verir.

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ قَدۡ جَآءَتۡكُم مَّوۡعِظَةٞ مِّن رَّبِّكُمۡ وَشِفَآءٞ لِّمَا فِي ٱلصُّدُورِ وَهُدٗى وَرَحۡمَةٞ لِّلۡمُؤۡمِنِينَ ٥٧ قُلۡ بِفَضۡلِ
ٱللَّهِ وَبِرَحۡمَتِهِۦ فَبِذَٰلِكَ فَلۡيَفۡرَحُواْ هُوَ خَيۡرٞ مِّمَّا يَجۡمَعُونَ ٥٨﴾

**57. Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir.**

**58. De: "Bunlar Allahın lütfü və mərhəməti sayəsindədir!" Qoy onlar buna sevinsinlər. Bu ki, onların yığdıqlarından daha xeyirlidir.**

Uca Allah şərəfli Elçisinə ﷺ Əzəmətli Quranı nazil etməklə insanlara bəxş etdiyi nemətini xatırladaraq buyurur: "**Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət**", yəni yaramaz əməllərdən çəkindirən, "**kökslərdə olana bir şəfa**", yəni qəlblərdə olan şübhə və tərəddüdləri, oradakı pislikləri aradan qaldıran, "**möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir**", yəni onun vasitəsilə Allah tərəfindən hidayətə və mərhəmətə nail olunur. Buna yalnız ona iman gətirənlər, onu təsdiq edənlər və ona yəqinliklə inananlar nail ola bilər. Uca Allah başqa ayələrdə belə buyurur: "**Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik**" ("əl-İsra", 82); "**De: "O, iman gətirənlərə doğru yol göstəricisi və şəfadır". İman gətirməyənlərin isə qulaqlarında tıxac var. Onlar ona qarşı kordurlar. Onlar sanki uzaq bir yerdən çağırılırlar**" ("Fussilət", 44).

Uca Allah buyurur: "**De: "Bunlar Allahın lütfü və mərhəməti sayəsindədir!" Qoy onlar buna sevinsinlər. Bu ki, onların yığdıqlarından daha xeyirlidir**", yəni qoy onlar Allahdan onlara gələn hidayət və haqq dinə sevinsinlər, çünki o, sevinəcəkləri şeylərin ən üstünüdür. "**Bu ki, onların yığdıqlarından daha xeyirlidir**", yəni yığdıqları dünya mənfəətlərindən, dünyada olan fani gözəlliklərdən və şübhəsiz, yox olub gedəcək nemətlərdən daha xeyirlidir.

﴿قُلۡ أَرَءَيۡتُم مَّآ أَنزَلَ ٱللَّهُ لَكُم مِّن رِّزۡقٖ فَجَعَلۡتُم مِّنۡهُ حَرَامٗا وَحَلَٰلٗا قُلۡ ءَآللَّهُ أَذِنَ لَكُمۡۖ أَمۡ عَلَى ٱللَّهِ
تَفۡتَرُونَ ٥٩ وَمَا ظَنُّ ٱلَّذِينَ يَفۡتَرُونَ عَلَى ٱللَّهِ ٱلۡكَذِبَ يَوۡمَ ٱلۡقِيَٰمَةِۗ إِنَّ ٱللَّهَ لَذُو فَضۡلٍ عَلَى ٱلنَّاسِ وَلَٰكِنَّ أَكۡثَرَهُمۡ
لَا يَشۡكُرُونَ ٦٠﴾

**59. De: "Allahın sizə nazil etdiyi ruzi barədə söyləyin görüm, onun bir qismini haram, bir qismini isə halal saydınız". De: "Allahmı sizə izin verdi, yoxsa Allaha iftira edirsiniz?"**

**60. Allaha qarşı yalan uyduranların Qiyamət günü barədə fikirləri nədir? Həqiqətən, Allah insanlara qarşı lütfkardır, lakin onların çoxu şükür etmir.**

İbn Abbas, Mucahid, əd-Dahhək, Qatədə və Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﵏ demişlər: "Bu ayə Uca Allahın "**Onlar Allah üçün Onun yaratdığı əkindən və mal-qaradan pay ayırıb öz batil iddialarına əsasən: "Bu, Allah üçündür, bu da şərik qoşduqlarımız (bütlər) üçündür", – deyirlər. Şərikləri üçün ayırdıqları pay Allaha çatmır, Allah üçün ayırdıqları pay isə şəriklərinə çatır. Onların verdikləri hökm necə də pisdir!**" ("əl-Ənam", 136) ayəsində buyurduğu kimi, müşriklərin "Bəhira", "Saibə" və "Vəsilə" adlandırıb bütlərə nəzir etdikləri ev heyvanlarını haram və ya halal saymalarını inkar etmək üçün nazil olmuşdur".

İmam Əhməd ﵀ Əuf ibn Malik ibn Nadlənin, o da atası Malik ibn Nadlənin ﵁ belə dediyini rəvayət etmişdir: "Bir dəfə mən köhnə paltarda Peyğəmbərin ﷺ yanına gəldim. Peyğəmbər ﷺ məndən soruşdu: "Malın varmı?" Mən "Bəli" – deyə cavab verdim. Peyğəmbər ﷺ soruşdu: "Hansı növ malın var?" Mən "Hər növ malım var. Dəvə, qoyun, at, kölə" – deyə cavab verdim. Peyğəmbər ﷺ dedi: "Əgər Allah sənə bir mal vermişsə, qoy onun əlaməti üzərində görünsün". Sonra da əlavə olaraq belə dedi: "Bəlkə də, sən bıçağı götürüb dəvələrdən bir qisminin qulağını kəsib "Bu, kəsikdir" – deyirsən və onu həm özünə, həm də ailənə haram edirsən". Mən "Bəli, edirəm" – dedikdə, Peyğəmbər ﷺ: "Belə etmə, Allahın sənə verdiyi hər şey halaldır. Allahın biləyi sənin biləyindən daha güclüdür, Allahın ülgücü sənin ülgücündən daha itidir"[1] – dedi". Sonra ravi hədisin qalan qismini qeyd etdi. Bu hədisin isnadı yaxşı və qüvvətlidir.[2]

Uca Allah heç bir dəlil və heç bir istinad olmadan, öz zəif rəylərinə əsaslanaraq, Allahın halal etdiyini haram, haram etdiyini isə halal edənləri qınayıb bu etdiklərinə görə onları Qiyamət gününün əzabı ilə təhdid edərək belə buyurur: "**Allaha qarşı yalan uyduranların Qiyamət günü barədə fikirləri nədir?**" Yəni Allaha qarşı yalan uyduranlar hüzurumuza qayıdacaqları Qiyamət günü başlarına nə gətiriləcəyi barədə nə düşünürlər?

[1] Yəni əgər Allah istəsə, onların qulağını kəsik yaradardı, lakin Allah onları tam olaraq yaratmışdır.

[2] Əhməd, 15929,15983, 15988. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 1093.

Uca Allah buyurur: "**Həqiqətən, Allah insanlara qarşı lütfkardır**". İbn Cərir ﷺ bu ayə barədə belə demişdir: "Uca Allah dünyada günahkarlara dərhal əzab verməməklə insanlara qarşı lütfkardır".[1]

Mən deyirəm: "Ola bilsin, ayədə nəzərdə tutulan budur ki, Uca Allah dünyada yaratdığı mənfəətləri insanlara halal, dünya və dinlərində zərərli olan şeyləri isə haram etməklə onlara qarşı lütfkardır". "**...lakin onların çoxu şükür etmir**". Əksinə, Allahın onlara bəxş etdiyi nemətləri haram edirlər, dini özlərinə çətinləşdirərək Allahın nemətlərindən bəzisini halal, bəzisini isə haram edirlər. Müşriklər özləri üçün qoyduqları şəriət qanunlarında belə etmişlər, habelə Kitab əhli də dinlərində bu cür şeylər uydurmuşlar.

﴿وَمَا تَكُونُ فِي شَأْنٍ وَمَا تَتْلُوا۟ مِنْهُ مِن قُرْءَانٍ وَلَا تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلَّا كُنَّا عَلَيْكُمْ شُهُودًا إِذْ تُفِيضُونَ فِيهِ ۚ وَمَا يَعْزُبُ عَن رَّبِّكَ مِن مِّثْقَالِ ذَرَّةٍ فِى ٱلْأَرْضِ وَلَا فِى ٱلسَّمَآءِ وَلَآ أَصْغَرَ مِن ذَٰلِكَ وَلَآ أَكْبَرَ إِلَّا فِى كِتَٰبٍ مُّبِينٍ ﴿٦١﴾﴾

**61. Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, onları etdiyiniz zaman Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda olmasın.**

Uca Allah bu ayədə Öz Peyğəmbərinə ﷺ bildirir ki, həqiqətən, O onun, ümmətinin və bütün məxluqatın hər saatda, hər anda və hər saniyədə olduqları bütün hallarından xəbərdardır. Nə yerdə, nə də göydə zərrə qədər kiçik bir şey belə Onun elmindən və nəzərindən gizli qalmaz. Bundan daha kiçik və ya daha böyük elə bir şey yoxdur ki, açıq-aydın bir Kitabda (Lövhi-Məhfuzda) olmasın. Uca Allah başqa bir ayədə belə buyurur: "**Qeybin açarları Onun yanındadır, onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda** (Lövhi-Məhfuzda) **olmasın**" ("əl-Ənam", 59). Uca Allah bu ayələrdə ağacların və digər cansız əşyaların hərəkətlərini bildiyini xəbər verir. Həmçinin heyvanların da hərəkətlərini bildiyini xəbər verərək buyurur: "**Yer üzündə gəzən heyvanların və göydə uçan ikiqanadlı quşların hamısı sizin kimi ümmətlərdir. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanacaqlar**" ("əl-Ənam", 38); "**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır**" ("Hud", 6).

[1] ət-Təbəri, 8799, 8848.

Əgər Uca Allahın elmi mükəlləf olmayan bu əşyaların hərəkətləri barədə belədirsə, bəs onda Ona ibadət etmək əmr olunmuş mükəlləf olanların hərəkətləri barədə necə olar? Başqa bir ayədə belə buyurur: "**Qüdrətli və Rəhmli olan Allaha təvəkkül et! O səni namaza duranda da görür, səcdə edənlər içində hərəkət edəndə də**" ("əş-Şuəra", 217-219). Uca Allah bu ayədə belə buyurur: "**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, onları etdiyiniz zaman Biz sizə şahid olarıq**", yəni siz hər hansı bir işi gördüyünüz zaman Biz sizə şahid oluruq, sizi eşidir və görürük. Cəbrail Peyğəmbərdən ﷺ "Ehsan" barədə soruşduqda o, belə cavab verdi: "Ehsan – Allaha, sanki Onu görürmüşsən kimi ibadət etməkdir. Sən Onu görməsən də, bil ki, O səni görür".[1]

﴿أَلَآ إِنَّ أَوۡلِيَآءَ ٱللَّهِ لَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ ٦٢ ٱلَّذِينَ ءَامَنُواْ وَكَانُواْ يَتَّقُونَ ٦٣ لَهُمُ
ٱلۡبُشۡرَىٰ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَا وَفِي ٱلۡأٓخِرَةِۚ لَا تَبۡدِيلَ لِكَلِمَٰتِ ٱللَّهِۚ ذَٰلِكَ هُوَ ٱلۡفَوۡزُ ٱلۡعَظِيمُ ٦٤﴾

**62. Bilin ki, Allahın övliyalarının (sevib yardım etdiyi kəslərin) heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər.**

**63. O kəslər ki, iman gətirmiş və Allahdan qorxmuşlar.**

**64. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur.**

Uca Allah bu ayələrdə bildirir ki, Onun övliyaları, Özünün də açıqladığı kimi, Ona iman gətirənlər və Ondan qorxanlardır. Allahdan qorxan hər kəs Onun övliyasıdır. "**...heç bir qorxusu yoxdur**", yəni Axirətdə qarşılarına çıxacaq dəhşətlərə görə heç bir qorxusu yoxdur. "**...və onlar kədərlənməzlər**", yəni dünyada qoyub getdiklərinə görə kədərlənməyəcəklər. Abdullah ibn Məsud, İbn Abbas رضي الله عنهم və bir çox sələf demişlər: "Allahın övliyaları o kəslərdir ki, onları gördükdə Allah yada düşər".

İbn Cərir رحمه الله Əbu Hureyradan رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Həqiqətən, Allahın elə qulları var ki, (onlar peyğəmbər deyillər, lakin) peyğəmbərlər və şəhidlər onlara qibtə edəcəklər". Səhabələr dedilər: "Ey Allahın Elçisi, onları bizə bildir, biz də onları sevək". Peyğəmbər ﷺ dedi: "Onlar mal-dövlət və ya qohumluq əlaqələri üçün deyil, bir-birini məhz Allah üçün sevən bir qövmdür. Onlar (Qiyamət günü) nurdan düzəldilən minbərlərin üzərində üzləri nur saçaraq duracaqlar. İnsanlar

[1] əl-Buxari, 4404, 4777; Muslim, 10, 106.

qorxduğu zaman onlar qorxmazlar və insanlar kədərləndiyi zaman da kədərlənməzlər". Sonra Allah Elçisi ﷺ bu ayəni oxudu: "**Bilin ki, Allahın övliyalarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər**". Eyni hədisi Əbu Davud ﷺ Ömər ibn əl-Xattabdan ﷺ, o da Peyğəmbərdən ﷺ rəvayət etmişdir.[1] Bu hədisin də isnadı yaxşıdır, lakin Əbu Zura ilə Ömər ibn əl-Xattab ﷺ arasında əlaqə kəsikdir. Ən doğrusunu Allah bilir.

İmam Əhməd ﷺ rəvayət edir ki, bir dəfə Əbu Zərr ﷺ Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, bəzən bir insan bir xeyir əməl görür və insanlar bu əməlinə görə onu tərifləyirlər". Peyğəmbər ﷺ dedi: "Bu, möminin (dünyadakı) tezləşdirilmiş müjdəsidir". Hədisi Muslim ﷺ rəvayət etmişdir.[2]

Uca Allah buyurur: "**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır**". İbn Məsud, Əbu Hureyra, İbn Abbas, Mucahid, Urvə ibn əz-Zubeyr, Yəhya ibn Əbu Kəsir, İbrahim ən-Nəxai və Əta ibn Əbu Rabəh ayədə keçən müjdəni "gözəl yuxu" kimi təfsir etmişlər.

Bəzi təfsirçilər ayədə "müjdə" dedikdə mömin insan ölərkən mələklərin onu Cənnət və bağışlanma ilə müjdələməsinin nəzərdə tutulduğunu demişlər. Uca Allah başqa bir ayədə belə buyurur: "**Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli Allah tərəfindən verilən ziyafət kimi**" ("Fussilət", 30-32). əl-Bəradan ﷺ rəvayət edilən bir hədisdə belə deyilir: "Mömin insan ölüm ayağında olarkən onun yanına ağ üzlü, ağ paltarlı mələklər gəlir və "Ey gözəl ruh, rahatlıq, gözəl ruzi və sənə qəzəblənməmiş Rəbbin ilə sevinərək çıx!" – deyirlər. Ruh insanın ağzından su damcısı tuluğun ağzından axdığı kimi rahat çıxar".[3]

Onların Axirətdəki müjdəsinə gəlincə, Uca Allah başqa ayələrdə bu barədə belə buyurur: "**Ən böyük dəhşət onları kədərləndirməyəcək. Mələklər onları qarşılayıb: "Bu sizə vəd olunmuş gününüzdür!" – deyəcəklər**" ("əl-Ənbiya", 103); "**O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını**

---

[1] İbn Cərir, 11/92; Əbu Davud, 3527. Hədis səhih li-ğeyrihidir. Bax: Səhih ət-Tərğib vat-Tərhib, 3026.

[2] Əhməd, 21417, 21708; Muslim, 2642/166, 4780, 6891.

[3] Əhməd, 18557, 18733; Əbu Davud, 4753; ət-Tirmizi, 1071. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 1630.

**görəcəksən. Onlara "Bu gün sizin müjdəniz altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız!" – deyiləcək. Bu, böyük uğurdur**" ("əl-Hədid", 12).

Uca Allah buyurur: "**Allahın kəlmələri əsla dəyişilməz**", yəni Allahın bu vədi əsla əvəz olunmaz, Uca Allah bu vədinə xilaf çıxmaz və o dəyişilməz. Əksinə, o, qərarlaşdırılmış və sabitdir, mütləq yerinə yetəcəkdir. "**Bu, böyük uğurdur**".

﴿وَلَا يَحۡزُنكَ قَوۡلُهُمۡۘ إِنَّ ٱلۡعِزَّةَ لِلَّهِ جَمِيعًاۚ هُوَ ٱلسَّمِيعُ ٱلۡعَلِيمُ ٦٥ أَلَآ إِنَّ لِلَّهِ مَن فِي ٱلسَّمَٰوَٰتِ
وَمَن فِي ٱلۡأَرۡضِۗ وَمَا يَتَّبِعُ ٱلَّذِينَ يَدۡعُونَ مِن دُونِ ٱللَّهِ شُرَكَآءَۚ إِن يَتَّبِعُونَ إِلَّا ٱلظَّنَّ وَإِنۡ هُمۡ
إِلَّا يَخۡرُصُونَ ٦٦ هُوَ ٱلَّذِي جَعَلَ لَكُمُ ٱلَّيۡلَ لِتَسۡكُنُواْ فِيهِ وَٱلنَّهَارَ مُبۡصِرًاۚ إِنَّ فِي ذَٰلِكَ
لَأٓيَٰتٖ لِّقَوۡمٖ يَسۡمَعُونَ ٦٧﴾

**65. Onların sözləri səni kədərləndirməsin. Çünki qüdrət bütünlüklə Allaha məxsusdur. O, Eşidəndir, Biləndir.**

**66. Bilin ki, göylərdə və yerdə olanların hamısı Allahındır. Allahı qoyub başqa şəriklərə yalvaranlar nəyin ardınca gedirlər? Onlar yalnız zənnə uyur və ancaq yalan uydururlar.**

**67. Gecəni rahatlanmanız üçün yaradan, gündüzü də ruzi qazanmanız üçün işıqlı edən Odur. Həqiqətən, bunda eşidən adamlar üçün dəlillər vardır.**

Uca Allah Öz Elçisinə ﷺ xitab edərək buyurur: "**Onların**", yəni müşriklərin "**sözləri səni kədərləndirməsin**". Onlara qarşı Allahdan yardım istə və Ona təvəkkül et. "**Çünki qüdrət bütünlüklə Allaha məxsusdur**", yəni bütün izzət, şübhəsiz ki, Allahın, Onun Elçisinin ﷺ və möminlərindir. "**O, Eşidəndir, Biləndir**", yəni qullarının sözlərini ən yaxşı Eşidən və onların hallarını ən yaxşı Biləndir.

Sonra Uca Allah göylərin və yerin hökmranlığının Ona məxsus olduğunu, müşriklərin isə heç nəyə sahib olmayan, özlərinə nə bir zərər, nə də bir fayda verə bilməyən bütlərə ibadət etdiklərini və bu ibadətlərində heç bir dəlillərinin olmadığını, əksinə, onların yalnız zənnə uyduqlarını, böhtan və yalan danışdıqlarını xəbər verir.

Həmçinin bildirir ki, yorğunluqdan və əziyyətli işlərdən sonra istirahət etsinlər deyə qulları üçün gecəni yaradan Odur. "**...gündüzü də ruzi**

**qazanmanız üçün işıqlı edən Odur**", yəni gündüzü onların dolanışıqları, işləri, səfərləri və mənfəətləri üçün işıqlı edən Odur. "**Həqiqətən, bunda eşidən adamlar üçün dəlillər vardır**", yəni bu dəlilləri eşidib ondan ibrət alarlar və bu dəlillər arasında onları yaradanın, müqəddəratlarını müəyyən edənin və onları idarə edənin əzəmətinə dair sübut taparlar.

﴿قَالُوا۟ ٱتَّخَذَ ٱللَّهُ وَلَدًاۗ سُبْحَٰنَهُۥۖ هُوَ ٱلْغَنِىُّۖ لَهُۥ مَا فِى ٱلسَّمَٰوَٰتِ وَمَا فِى ٱلْأَرْضِۚ إِنْ عِندَكُم
مِّن سُلْطَٰنٍۭ بِهَٰذَآۚ أَتَقُولُونَ عَلَى ٱللَّهِ مَا لَا تَعْلَمُونَ ﴿٦٨﴾ قُلْ إِنَّ ٱلَّذِينَ يَفْتَرُونَ عَلَى ٱللَّهِ ٱلْكَذِبَ
لَا يُفْلِحُونَ ﴿٦٩﴾ مَتَٰعٌ فِى ٱلدُّنْيَا ثُمَّ إِلَيْنَا مَرْجِعُهُمْ ثُمَّ نُذِيقُهُمُ ٱلْعَذَابَ ٱلشَّدِيدَ بِمَا كَانُوا۟
يَكْفُرُونَ ﴿٧٠﴾﴾

**68. Onlar "Allah Özünə övlad götürmüşdü!" – dedilər. O, pakdır, müqəddəsdir! O, heç nəyə möhtac deyil. Göylərdə və yerdə nə varsa, Onundur. Buna aid sizdə heç bir dəlil yoxdur. Niyə Allaha qarşı bilmədiklərinizi söyləyirsiniz?**

**69. De: "Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar".**

**70. Onlar bir müddət dünyada faydalanar; sonra onların dönüşü Bizə olar. Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq.**

Uca Allah (İsanın) Onun övladı olduğunu iddia edənlərin iddialarını rədd edərək buyurur: "**O, pakdır, müqəddəsdir! O, heç nəyə möhtac deyil**", yəni Uca Allah bundan uzaqdır və pakdır, O heç nəyə möhtac deyildir. Hər şey Ona möhtacdır. "**Göylərdə və yerdə nə varsa, Onundur**", yəni hər şey Onun malı və hər kəs Onun qulu olduğu halda Onun yaratdıqlarından övladı necə ola bilər?! "**Buna aid sizdə heç bir dəlil yoxdur**", yəni dediyiniz bu yalan və böhtana dair heç bir dəliliniz yoxdur. "**Niyə Allaha qarşı bilmədiklərinizi söyləyirsiniz?**" Bu, şiddətli bir qorxutma, inkar və təhdiddir. Uca Allah başqa bir ayədə belə buyurur: "**Kafirlər "Mərhəmətli Allah Özünə övlad götürmüşdür!" – dedilər. Siz olduqca pis bir iş tutdunuz! Bundan az qaldı göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun – Mərhəmətli Allaha övlad isnad etdiklərinə görə. Mərhəmətli Allaha özünə övlad götürmək yaraşmaz. Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. Allah onları hesablamış və bir-bir saymışdır. Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək**" ("Məryəm", 88-95).

Sonra Uca Allah Ona qarşı yalan uyduranları, böhtan ataraq Onun övladı olduğunu iddia edənləri təhdid edərək onların nə dünyada, nə də axirətdə nicat tapmayacaqlarını bildirir. Dünyada onların küfrlərini daha da artırmaq, onları tədricən tovlayıb məhvə aparmaq üçün onlara möhlət verər və onlara müəyyən vaxta qədər fani nemətlərdən faydalanmaq imkanı verər. Sonra onları şiddətli bir əzaba düçar edər. Uca Allah buyurur: "**Onlar bir müddət dünyada faydalanar**", yəni qısa bir müddət faydalanar; "**sonra onların dönüşü Bizə olar**", yəni Qiyamət günü dönüşləri Bizədir. "**Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq**", yəni küfrlərinə, Allaha qarşı iddia etdikləri böhtan və yalanlarına görə onlara ən şiddətli əzabı daddıracağıq.

﴿ وَٱتْلُ عَلَيْهِمْ نَبَأَ نُوحٍ إِذْ قَالَ لِقَوْمِهِۦ يَٰقَوْمِ إِن كَانَ كَبُرَ عَلَيْكُم مَّقَامِى وَتَذْكِيرِى بِـَٔايَٰتِ ٱللَّهِ فَعَلَى ٱللَّهِ
تَوَكَّلْتُ فَأَجْمِعُوٓا۟ أَمْرَكُمْ وَشُرَكَآءَكُمْ ثُمَّ لَا يَكُنْ أَمْرُكُمْ عَلَيْكُمْ غُمَّةً ثُمَّ ٱقْضُوٓا۟ إِلَىَّ وَلَا تُنظِرُونِ ﴿٧١﴾ فَإِن تَوَلَّيْتُمْ
فَمَا سَأَلْتُكُم مِّنْ أَجْرٍ ۖ إِنْ أَجْرِىَ إِلَّا عَلَى ٱللَّهِ ۖ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ ٱلْمُسْلِمِينَ ﴿٧٢﴾ فَكَذَّبُوهُ فَنَجَّيْنَٰهُ وَمَن مَّعَهُۥ فِى
ٱلْفُلْكِ وَجَعَلْنَٰهُمْ خَلَٰٓئِفَ وَأَغْرَقْنَا ٱلَّذِينَ كَذَّبُوا۟ بِـَٔايَٰتِنَا ۖ فَٱنظُرْ كَيْفَ كَانَ عَٰقِبَةُ ٱلْمُنذَرِينَ ﴿٧٣﴾ ﴾

**71. Onlara Nuhun əhvalatını oxu. Bir zaman o, öz qövmünə demişdi: "Ey qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələrini xatırlatmağım sizə ağır gəlirsə, mən Allaha təvəkkül edirəm. Allaha qoşduğunuz şəriklərlə birləşib sözü bir yerə qoyun, sonra da işinizi aşkarda görün. Bundan sonra mənə qarşı bacardığınızı edin və mənə möhlət verməyin.**

**72. Əgər üz çevirsəniz, bilin ki, mən sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq Allahdadır. Mənə müsəlmanlardan olmaq əmr edilmişdir".**

**73. Onlar onu yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik, onları yer üzünə xələflər təyin etdik. Ayələrimizi yalan hesab edənləri isə suda batırdıq. Bir gör qorxudulanların aqibəti necə oldu!**

Uca Allah Öz Peyğəmbərinə ﷺ xitab edərək belə buyurur: "**Onlara**", yəni səni yalançı sayan və sənə qarşı çıxan Məkkə kafirlərinə "**Nuhun əhvalatını oxu**", yəni Nuhu yalançı sayan qövmünün əhvalatını danış. Bilsinlər ki, Uca Allah onların hamısını son nəfərinə qədər suda boğmaqla necə həlak etmişdir. Bəlkə bu qövmün həlak olmağı və yerli-dibli yox olmağı onların da başına gələr deyə çəkinərlər. "**Bir zaman o öz qövmünə demişdi: "Ey qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələrini**", yəni hüccət və dəlillərini "**xatırlatmağım sizə ağır gəlirsə, mən Allaha təvəkkül edirəm**", yəni sizə bunun ağır gəlib-gəlməməsi məni maraqlandırmır və mən bu çağırışımdan əsla əl çəkən deyiləm. "**Allaha qoşduğunuz şəriklərlə birləşib sözü bir yerə qoyun**", yəni siz və Allahdan başqa ibadət etdiyiniz bütlərdən ibarət şərikləriniz toplaşıb nə edəcəyinizi qərarlaşdırın, "**sonra da işinizi aşkarda görün. Bundan sonra mənə qarşı bacardığınızı edin və mənə möhlət verməyin**", yəni mənimlə aranızda olan ixtilafı üzə çıxarın. Əgər haqlı olduğunuzu sanırsınızsa, mənə bir an belə möhlət verməyin. Mənə etmək istədiyinizi gecikdirməyin, gücünüz nəyə yetirsə, onu edin. Mən sizdən qorxmuram, çünki siz haqq üzərində deyilsiniz. Necə ki Hud عليه السلام öz qövmünə belə demişdir: "**Biz ancaq onu deyə bilərik ki, bəzi məbudlarımız səni bəlaya düçar edib". O dedi: "Həqiqətən, mən Allahı şahid çağırıram, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam. Ondan başqa tapındıqlarınızın hamısından uzağam. Hamılıqla mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin. Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim**" ("Hud", 54-56).

"**Əgər üz çevirsəniz**", yəni əgər məni yalançı sayıb itaətimdən üz çevirsəniz, "**bilin ki, mən sizdən heç bir mükafat istəmirəm**", yəni onsuz da mən sizdən öyüd-nəsihətimin qarşılığının əvəzini istəmirəm. "**Mənim mükafatım ancaq Allahdadır. Mənə müsəlmanlardan olmaq əmr edilmişdir**", yəni mən yalnız mənə əmr olunana tabeyəm. Mənə müsəlman olmaq, yəni Uca və Qüdrətli Allaha təslim olmaq əmr olunmuşdur. İslam – şəriət qanunları və yolları müxtəlif olsa da, əvvəlki və sonrakı bütün peyğəmbərlərin dinidir. Necə ki Uca Allah bir ayədə belə buyurur: "**Ey ümmətlər, hər biriniz üçün bir şəriət və bir yol təyin etdik**" ("əl-Maidə", 48). Yəni yol və şəriət qanunları təyin etdik. Nuh عليه السلام belə demişdir: "**Mənə əmr olunub ki, müsəlman olum**" ("ən-Nəml", 91). Uca Allah İbrahimin عليه السلام belə dediyini xəbər verir: "**Rəbbi ona: "Müsəlman ol!" – dedikdə, o "Aləmlərin Rəbbinə təslim oldum!" – demişdi. İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də**

**ancaq müsəlman olaraq ölməlisiniz!**" ("əl-Bəqərə", 131-132); Yusuf ﷷ demişdir: "**Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur**" ("Yusuf", 101); Musa ﷷ demişdir: "**Musa dedi: "Ey qövmüm! Əgər Allaha iman gətirmişsinizsə və müsəlman olmuşsunuzsa, Ona təvəkkül edin!**" ("Yunus", 84); Sehrbazlar dua edərək belə demişlər: "**Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür**" ("əl-Əraf", 126); Bulqeys[1] demişdir: "**Qadına "Saraya daxil ol!" – deyildi. O, sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və baldırlarını açdı. Süleyman dedi: "Bu, büllurdan hamarlanıb düzəldilmiş bir saraydır!" Qadın dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. İndi isə Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!**" ("ən-Nəml", 44). Uca Allah başqa ayələrdə belə buyurur: "**Şübhəsiz ki, Biz, içində hidayət və nur olan Tövratı nazil etdik. Özlərini Allaha təslim edən peyğəmbərlər bununla yəhudilər arasında hökm edərdilər**" ("əl-Maidə", 44); "**Bir zaman Mən həvarilərə: "Mənə və rəsuluma iman gətirin!" – deyə vəhy etmişdim. Onlar da "İman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanıq!" – demişdilər**" ("əl-Maidə", 111). Peyğəmbərlərin sonuncusu və bəşər övladının ağası belə demişdir: "**De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm**" ("əl-Ənam", 162-163). Yəni bu ümmətdə ilk müsəlmanam. Buna görə də Peyğəmbər ﷺ: "Biz peyğəmbərlər, ata bir, ana ayrı qardaşlarıq, dinimiz birdir",[2] – deyə buyurmuşdur. Yəni şəriət qanunlarımız müxtəlif olsa da, hamımıza yalnız tək və şəriki olmayan Allaha ibadət etmək əmr olunub. Peyğəmbərin ﷺ hədisində keçən "ixvatu əllət" sözünün mənası "ataları bir, anaları ayrı qardaşlar" deməkdir.

Uca Allah buyurur: "**Onlar onu yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları**", yəni onun dinində olanları "**xilas etdik, onları yer üzünə xələflər təyin etdik. Ayələrimizi yalan hesab edənləri isə suda batırdıq. Bir gör qorxudulanların aqibəti necə oldu!**" Yəni ey Muhəmməd! Bax, gör möminləri necə qurtardıq və yalan sayanları necə həlak etdik!

[1] Bulqeys – Səba qövmünün qadın hökmdarı olmuşdur.
[2] əl-Buxari, 3187, 3443.

﴿ثُمَّ بَعَثْنَا مِنۢ بَعْدِهِۦ رُسُلًا إِلَىٰ قَوْمِهِمْ فَجَآءُوهُم بِٱلْبَيِّنَٰتِ فَمَا كَانُوا۟ لِيُؤْمِنُوا۟ بِمَا كَذَّبُوا۟ بِهِۦ مِن قَبْلُ ۚ كَذَٰلِكَ نَطْبَعُ عَلَىٰ قُلُوبِ ٱلْمُعْتَدِينَ ﴿٧٤﴾﴾

**74. Sonra onun arxasınca elçiləri öz ümmətlərinə göndərdik. Elçilər onlara açıq-aydın dəlillər gətirdilər. Onlar isə öncə yalan hesab etdiklərinə iman gətirmədilər. Biz həddi aşanların qəlblərini beləcə möhürləyirik.**

Uca Allah buyurur: "**Sonra onun arxasınca**", yəni Nuhun ﷺ arxasınca "**elçiləri öz ümmətlərinə göndərdik. Elçilər onlara açıq-aydın dəlillər gətirdilər**", yəni peyğəmbərlər gətirdikləri dinin doğruluğunu sübut edən dəlillər gətirdilər. "**Onlar isə öncə yalan hesab etdiklərinə iman gətirmədilər**", yəni ümmətlər özlərinə ilk göndəriləni yalan saydıqları üçün peyğəmbərlərinin onlara gətirdiklərinə inanmadılar. Uca Allah başqa bir ayədə belə buyurur: "**Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik**" ("əl-Ənam", 110).

Uca Allah buyurur: "**Biz həddi aşanların qəlblərini beləcə möhürləyirik**", yəni Uca Allah əvvəlkilərin qəlblərini haqqı yalan saydıqlarına görə möhürlədiyi kimi, onlardan sonra gələn bənzərlərinin qəlblərini də möhürləyir və onlar ağrılı-acılı əzabı görməyincə iman gətirməzlər. Ayədə nəzərdə tutulan məna budur: "Uca Allah elçiləri yalançı sayan ümmətləri həlak etmiş, elçilərə iman gətirənləri isə xilas etmişdir. Bu, Nuhdan sonra olmuşdur. Adəmin dövründən başlayaraq ta ki Nuhdan ﷺ əvvəl bütlərə ibadət etmək yeniliyi üzə çıxana qədər insanlar İslam dinində idilər. Uca Allah onlara Nuhu ﷺ göndərdi. Məhz buna görə Qiyamət günü möminlər ona "Sən Uca Allahın yer üzünə göndərdiyi ilk peyğəmbərsən..." – deyəcəklər. İbn Abbas رضي الله عنهما demişdir: "Adəm ilə Nuh arasında on əsr olmuşdur və bu müddət ərzində insanlar İslam dinində idilər".[1] Uca Allah başqa bir ayədə buyurur: "**Biz Nuhdan sonra neçə-neçə nəsli məhv etdik**" ("əl-İsra", 17). Bu, peyğəmbərlərin sonuncusunu və ağasını yalançı sayan müşrik ərəblər üçün böyük bir təhdiddir. Əgər bu peyğəmbərləri yalançı sayanların başlarına Uca Allahın qeyd etdiyi bu əzablar gəlmişsə, gör indi (Muhəmmədi ﷺ yalançı saymaqla) əvvəlkilərdən daha böyük günah edənlərin başına nələr gələ bilər?

---

[1] İbn Əbu Hatim, 1989; ət-Təbəri, 35351.

﴿ثُمَّ بَعَثۡنَا مِنۢ بَعۡدِهِم مُّوسَىٰ وَهَٰرُونَ إِلَىٰ فِرۡعَوۡنَ وَمَلَإِيْهِۦ بِـَٔايَٰتِنَا فَٱسۡتَكۡبَرُواْ وَكَانُواْ قَوۡمٗا مُّجۡرِمِينَ ٧٥ فَلَمَّا
جَآءَهُمُ ٱلۡحَقُّ مِنۡ عِندِنَا قَالُوٓاْ إِنَّ هَٰذَا لَسِحۡرٞ مُّبِينٞ ٧٦ قَالَ مُوسَىٰٓ أَتَقُولُونَ لِلۡحَقِّ لَمَّا جَآءَكُمۡۖ أَسِحۡرٌ هَٰذَا وَلَا
يُفۡلِحُ ٱلسَّٰحِرُونَ ٧٧ قَالُوٓاْ أَجِئۡتَنَا لِتَلۡفِتَنَا عَمَّا وَجَدۡنَا عَلَيۡهِ ءَابَآءَنَا وَتَكُونَ لَكُمَا ٱلۡكِبۡرِيَآءُ فِي ٱلۡأَرۡضِ وَمَا نَحۡنُ لَكُمَا
بِمُؤۡمِنِينَ ٧٨﴾

**75. Sonra onların arxasınca Musanı və Harunu Fironun və onun əyanlarının yanına açıq-aydın dəlillərimizlə elçi göndərdik, lakin onlar təkəbbürlük göstərdilər. Onlar günahkar bir tayfa idilər.**

**76. Onlara Bizim tərəfimizdən haqq gəldikdə "Şübhəsiz ki, bu, açıq-aydın bir sehrdir!" – dedilər.**

**77. Musa dedi: "Əcəba, sizə haqq gəldikdə "Bu, sehrdirmi?" – deyirsiniz? Halbuki sehrbazlar uğur qazanmazlar".**

**78. Onlar dedilər: "Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik".**

Uca Allah buyurur: "**Sonra onların arxasınca**", yəni bu peyğəmbərlərin arxasınca "**Musanı və Harunu Fironun və onun əyanlarının**", yəni qövmünün "**yanına açıq-aydın dəlillərimizlə elçi göndərdik, lakin onlar təkəbbürlük göstərdilər. Onlar günahkar bir tayfa idilər**", yəni təkəbbürlük göstərərək haqqa tabe olmadılar və boyun əymədilər. "**Onlara Bizim tərəfimizdən haqq gəldikdə: "Şübhəsiz ki, bu, açıq-aydın bir sehrdir!" – dedilər**". Sanki onlar (Allah onları rəzil etsin) dediklərinin yalan və böhtan olduğunu bilə-bilə and da içmişlər. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Buna yəqinliklə inandıqları halda haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!**" ("ən-Nəml", 14).

"**Musa**" onları məzəmmət edərək "**dedi: "Əcəba, sizə haqq gəldikdə: "Bu sehrdirmi?" – deyirsiniz? Halbuki sehrbazlar uğur qazanmazlar. Onlar dedilər: "Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan**", yəni inandığı dindən "**döndərəsiniz**", yəni yayındırasınız "**və yer üzündə böyüklük etmək**", yəni başçılıq etmək "**ikinizə qalsın**", yəni sənə və Haruna qalsın? "**Biz sizə iman gətirən deyilik**".

Uca Allah Əziz Kitabında Musa عليه السلام ilə Fironun hekayəsini bir çox yerdə qeyd etmişdir, çünki bu, qeyri-adi hekayələrdən biridir. Firon Musadan

(Musanın doğulmasından) son dərəcə ehtiyat edirdi, lakin Allahın qədəri onu qabaqlamış və o ən çox qorxduğu Musanı öz sarayında övladı kimi tərbiyə etmişdi. Musa böyüyüb boya-başa çatdıqdan sonra Uca Allah bir səbəb yaradaraq onu onların arasından çıxarıb ona peyğəmbərlik, risalət və Allahla vasitəsiz danışmaq neməti bəxş etdi. Musanı Fironun yanına elçi göndərərək onu Allaha ibadət etməyə və Allaha tərəf dönməyə çağırmışdır. Firon isə təkəbbürlük edib inadkarlıq göstərmiş və İsrail oğullarından iman gətirənləri alçaltmışdır. Uca Allah elçisi Musanı və onun qardaşı Harunu Fironun şərindən qorudu. Musa mübarizə aparmağa davam edərək ağıl sahiblərini heyrətə salan və yalnız Allahın yardım etdiyi bir insan tərəfindən gətirilə bilən dəlilləri bir-birinin ardınca ortaya qoymuşdur. Hər bir ayə əvvəlkindən daha böyük idi. Lakin Firon və onun tərəfdarları bütün bunları inadkarlıqla yalan saymış və təkəbbürlük göstərməkdə israr etmişlər. Sonda Uca Allah onlara uzaqlaşdırılması mümkün olmayan əzabını daddırmış və onların hamısını bir yerdə səhər vaxtı suya qərq edərək həlak etmişdir. "**Beləliklə də, zalım qövmün kökü kəsildi. Həmd aləmlərin Rəbbi Allaha məxsudur!**" ("əl-Ənam", 45).

﴿وَقَالَ فِرْعَوْنُ ٱئْتُونِى بِكُلِّ سَٰحِرٍ عَلِيمٍ ﴿٧٩﴾ فَلَمَّا جَآءَ ٱلسَّحَرَةُ قَالَ لَهُم مُّوسَىٰٓ أَلْقُوا۟ مَآ أَنتُم مُّلْقُونَ ﴿٨٠﴾ فَلَمَّآ
أَلْقَوْا۟ قَالَ مُوسَىٰ مَا جِئْتُم بِهِ ٱلسِّحْرُ ۖ إِنَّ ٱللَّهَ سَيُبْطِلُهُۥٓ ۖ إِنَّ ٱللَّهَ لَا يُصْلِحُ عَمَلَ ٱلْمُفْسِدِينَ ﴿٨١﴾ وَيُحِقُّ ٱللَّهُ ٱلْحَقَّ
بِكَلِمَٰتِهِۦ وَلَوْ كَرِهَ ٱلْمُجْرِمُونَ ﴿٨٢﴾﴾

**79. Firon dedi: "Bütün bilikli sehrbazları yanıma gətirin!"**

**80. Sehrbazlar gəldikdə Musa onlara dedi: "Nə atacaqsınızsa, atın!"**

**81. Onlar əllərindəki ipləri və dəyənəkləri atdıqda Musa dedi: "Sizin gördüyünüz iş sehrdir. Həqiqətən, Allah onu boşa çıxaracaq. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz.**

**82. Günahkarlar istəməsələr də, Allah Öz kəlmələri ilə haqqı bərqərar edəcək".**

Uca Allah "əl-Əraf" surəsində Musanın ﷷ sehrbazlarla olan hekayəsini zikr etmişdir. Bu xüsusdakı şərhlər orada qeyd edilmişdi. Həmin surədə bu hekayə təfsilatı ilə bildirilir. Bu hekayə "Ta ha" və "əş-Şuəra" surələrində də zikr edilir. Firon (Allah ona lənət etsin!) sehrbazların qalib gəlməsi ilə insanları Musanın gətirdiyi açıq-aşkar haqqa qarşı çıxarmaq istəyirdi, lakin bu onun məğlub olaraq Cənnəti itirməsi və Cəhənnəm əzabını qazanması ilə nəticələndi.

"**Firon dedi: "Bütün bilikli sehrbazları yanıma gətirin!" Sehrbazlar gəldikdə Musa onlara dedi: "Nə atacaqsınızsa, atın!**" Musa ﷺ bu sözü sehrbazlara ona görə dedi ki, onlar Firondan çoxlu hədiyyə almaq və onun yaxın adamları olmaq vədi alaraq səf-səf dayanmışdılar. "Sehrbazlar dedilər: "**Ey Musa! Ya sən əvvəlcə əlindəkini at, ya da birinci atan biz olaq!" Musa dedi: "Yox, siz atın!" Sehrbazlar əllərindəkiləri yerə atan kimi sehrləri sayəsində ona elə gəldi ki, onların kəndirləri və çomaqları hərəkətə gəlib sürünür**" ("Ta ha", 65-66). Musa ﷺ əvvəl insanlar onların etdiklərini görsünlər, sonra özü onların arxasınca haqqı gətirib batili yox etsin deyə, ilk olaraq, onların başlamasını istədi. Odur ki "**Onlar əllərindəkiləri atdıqda, insanların gözlərini sehrləyib canlarına qorxu saldılar və böyük bir sehr göstərdilər**" ("əl-Əraf", 116); "**Musanın ürəyi xoflandı. Biz dedik: "Qorxma, qalib gələn mütləq sən olacaqsan! Sağ əlindəkini yerə at, onların qurduqlarını udsun. Onların qurduqları sadəcə sehrbaz hiyləsidir. Sehrbaz isə hara gedirsə-getsin, uğur qazanmaz**" ("Ta ha", 67-69). Onlar əllərindəkiləri atdıqda Musa "**Sizin gördüyünüz iş sehrdir. Həqiqətən, Allah onu boşa çıxaracaq. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz. Günahkarlar istəməsələr də, Allah Öz kəlmələri ilə haqqı bərqərar edəcək**" – demişdir.

﴿فَمَآ ءَامَنَ لِمُوسَىٰٓ إِلَّا ذُرِّيَّةٌ مِّن قَوۡمِهِۦ عَلَىٰ خَوۡفٍ مِّن فِرۡعَوۡنَ وَمَلَإِيْهِمۡ أَن يَفۡتِنَهُمۡۚ وَإِنَّ فِرۡعَوۡنَ لَعَالٍ فِي
ٱلۡأَرۡضِ وَإِنَّهُۥ لَمِنَ ٱلۡمُسۡرِفِينَ ٨٣﴾

**83. Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi.**

Uca Allah bu ayədə bildirir ki, Musanın ﷺ gətirdiyi açıq-aydın ayələrə və qəti dəlillərə baxmayaraq, Fironun qövmündən ona yalnız çox az sayda gənc nəsil qəlblərində Fironun və onun əyanlarının onları yenidən küfrə qaytarmaq qorxusu olduğu halda iman gətirdi. Çünki Firon zalım, inadkar, asilikdə və təcavüzdə həddi aşan biri idi. Onun insanlar arasında hökmranlığı və heybəti vardı, bu səbəbdən rəiyyəti ondan çox qorxardı. İbn Abbas رضي الله عنهما Uca Allahın "**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi**" ayəsi barədə belə demişdir: "Musaya iman gətirən gənclər İsrail oğullarından deyildilər, Fironun qövmündən az sayda insanlar idi. Bunlar: Fironun arvadı, Firon ailəsindən bir kişi, Fironun xəzinədarı və xəzinədarın arvadı idi".[1]

[1] ət-Təbəri, 17781, 17864.

Uca Allah buyurur: "**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq**", yəni Firon qövmünün adlı-sanlı insanlarının onları fitnəyə salmasından qorxurdular. İsrail oğulları öz qövmlərindən Qarundan başqa heç kimin onları iman gətirdiklərinə görə fitnəyə salmasından qorxmurdular. Qarun Musanın qövmündən idi, lakin onlara qarşı çıxmışdı. Həmçinin İsrail oğullarının hamısının mömin olmasına aşağıdakı ayə dəlalət edir.

﴿وَقَالَ مُوسَىٰ يَٰقَوۡمِ إِن كُنتُمۡ ءَامَنتُم بِٱللَّهِ فَعَلَيۡهِ تَوَكَّلُوٓاْ إِن كُنتُم مُّسۡلِمِينَ ﴿٨٤﴾ فَقَالُواْ عَلَى ٱللَّهِ تَوَكَّلۡنَا رَبَّنَا لَا تَجۡعَلۡنَا فِتۡنَةٗ لِّلۡقَوۡمِ ٱلظَّٰلِمِينَ ﴿٨٥﴾ وَنَجِّنَا بِرَحۡمَتِكَ مِنَ ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ﴿٨٦﴾﴾

**84. Musa dedi: "Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və müsəlman olmusunuzsa, Ona təvəkkül edin!"**

**85. Onlar dedilər: "Biz ancaq Allaha təvəkkül edirik. Ey Rəbbimiz! Bizi zalım qövmün əlində sınağa çəkmə!**

**86. Və bizi Öz mərhəmətinlə kafir qövmün əlindən qurtar!"**

Uca Allah Musanın ﷺ İsrail oğullarına belə dediyini xəbər verir: "**Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və müsəlman olmusunuzsa, Ona təvəkkül edin!**" Yəni Allah Ona təvəkkül edənə yetər. "**Məgər Allah Öz quluna kifayət deyilmi?!**" ("əz-Zumər", 36); "**Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər**" ("ət-Talaq", 3).

Uca Allah bir çox ayədə ibadətlə Özünə təvəkkülü bir yerdə zikr edir. Necə ki bu ayələrdə buyurur: "**Elə isə yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et**" ("Hud", 123); "**De: "O, Mərhəmətli Allahdır! Biz Ona iman gətirib, Ona təvəkkül etmişik**" ("əl-Mulk", 29); "**O, məşriqin və məğribin Rəbbidir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Elə isə Onu özünə Himayəçi götür!**" ("əl-Muzzəmmil", 9). Həmçinin Uca Allah möminlərə bütün namazlarında dəfələrlə "**Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik**" ("əl-Fatihə", 5) – deməyi əmr etmişdir.

İsrail oğulları Uca Allahın bu əmrinə tabe olaraq belə demişlər: "**Biz ancaq Allaha təvəkkül edirik. Ey Rəbbimiz! Bizi zalım qövmün əlində sınağa çəkmə!**" Yəni onları bizim üzərimizdə müzəffər etmə, onları bizim üzərimizdə hakim etmə. Əgər belə olsa, onlar özlərinin haqq, bizim isə batil üzərində olduğumuzu sanar və buna aldanarlar. Bununla da fitnəyə düşərlər. Bu şərh Əbu Micləz və Əbu əd-Duhadan ﵏ rəvayət edilmişdir. Mucahid ayəni belə şərh etmişdir: "Yəni bizə nə Fironun qövmünün əli

ilə, nə də Öz tərəfindən bir əzabla əzab vermə. Əgər belə etsən, Fironun qövmü "Əgər haqq üzərində olsaydılar, əzaba düçar olmazdılar və biz onların üzərində hakim olmazdıq" – deyərlər və bizim üzümüzdən fitnəyə düşərlər".[1] "**Və bizi Öz mərhəmətinlə**", yəni Öz mərhəmətin və lütfünlə "**kafir qövmün əlindən qurtar!**" Yəni haqqı inkar edən, onu örtüb gizlədən kafir toplumdan bizi qurtar! Həqiqətən, biz Sənə iman gətirmişik və Sənə təvəkkül etmişik!

﴿وَأَوْحَيْنَآ إِلَىٰ مُوسَىٰ وَأَخِيهِ أَن تَبَوَّءَا لِقَوْمِكُمَا بِمِصْرَ بُيُوتًا وَٱجْعَلُوا۟ بُيُوتَكُمْ قِبْلَةً وَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ ۗ وَبَشِّرِ ٱلْمُؤْمِنِينَ ﴿٨٧﴾﴾

**87. Biz Musaya və onun qardaşına "Camaatınız üçün Misirdə evlər hazırlayın, evlərinizi namazgah edin və namaz qılın. Möminləri müjdələ!" – deyə vəhy etdik.**

Uca Allah bu ayədə İsrail oğullarını Firon və onun qövmündən nə üçün və necə xilas etdiyini zikr edir. Uca Allah Musa və onun qardaşı Haruna عليهما السلام qövmləri üçün Misirdə evlər hazırlamağı əmr etdi. İbn Abbas رضي الله عنهما Uca Allahın "**...evlərinizi namazgah edin...**" ayəsi barədə belə demişdir: "Onlara evlərini məscid etmək əmr olundu".[2] Firon və onun qövmü İsrail oğullarına işgəncə verib onları həddən artıq sıxışdırdıqları vaxt onlara namazları çoxaltmaq əmr olundu. Ən doğrusunu Allah bilir. Necə ki Uca Allah bir ayədə belə buyurur: "**Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir!**" ("əl-Bəqərə", 153). Bir hədisdə rəvayət olunur ki, Peyğəmbər ﷺ hər hansı bir çətinliyə düşdükdə dərhal namaz qılardı.[3] Məhz bu səbəbdən Uca Allah ayədə belə buyurur: "**Camaatınız üçün Misirdə evlər hazırlayın, evlərinizi namazgah edin və namaz qılın. Möminləri müjdələ!**" Yəni möminləri savab və yaxın bir zəfərlə müjdələ.

İbn Abbas رضي الله عنهما bu ayənin təfsirində belə demişdir: "İsrail oğulları (Fironun onları toplaşdıqları yerdə öldürəcəyindən qorxduqları üçün) Musaya dedilər: "Biz Fironun adamlarının yanında namaz üçün toplaşa bilmirik". Uca Allah da onlara evlərində namaz qılmağa izin verdi və qiblə olaraq evlərinə doğru namaz qılmağı buyurdu".[4] Mucahid رحمه الله demişdir:

[1] ət-Təbəri, 17789, 17873; İbn Əbu Hatim, 10522.
[2] ət-Təbəri, 17794, 17878.
[3] Əbu Davud, 1319, 1321. Hədis həsəndir. Bax: Səhih əl-Cami, 4073.
[4] ət-Təbəri, 17808, 17892.

"İsrail oğulları Fironun onları toplaşdıqları kilsələrdə öldürəcəyindən qorxduqları üçün onlara evlərini məscidlər etmək və evlərində gizlincə Kəbəyə doğru namaz qılmaq əmr olundu".[1] Qatədə və əd-Dahhək ﷺ də belə demişlər.

﴿وَقَالَ مُوسَىٰ رَبَّنَآ إِنَّكَ ءَاتَيْتَ فِرْعَوْنَ وَمَلَأَهُۥ زِينَةً وَأَمْوَٰلًا فِى ٱلْحَيَوٰةِ ٱلدُّنْيَا رَبَّنَا لِيُضِلُّوا۟ عَن سَبِيلِكَ ۖ رَبَّنَا
ٱطْمِسْ عَلَىٰٓ أَمْوَٰلِهِمْ وَٱشْدُدْ عَلَىٰ قُلُوبِهِمْ فَلَا يُؤْمِنُوا۟ حَتَّىٰ يَرَوُا۟ ٱلْعَذَابَ ٱلْأَلِيمَ ﴿٨٨﴾ قَالَ قَدْ أُجِيبَت دَّعْوَتُكُمَا
فَٱسْتَقِيمَا وَلَا تَتَّبِعَآنِّ سَبِيلَ ٱلَّذِينَ لَا يَعْلَمُونَ ﴿٨٩﴾﴾

**88. Musa dedi: "Ey Rəbbimiz! Sən Firona və onun əyanlarına dünya həyatında zinət və mal-dövlət bəxş etdin. Ey Rəbbimiz! Onlar insanları Sənin yolundan sapdırırlar. Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et, qəlblərini də sərtləşdir ki, ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər".**

**89. Allah dedi: "Hər ikinizin duası qəbul olundu. Siz (dininizdə və dəvətinizdə) sabitqədəm olun və nadanların yoluna uymayın!"**

Uca Allah bu ayələrdə bildirir ki, Firon və onun əyanları haqqı qəbul etməkdən haqsızcasına və təkəbbürlə imtina edib inadkarlıqla öz küfrlərində və azğınlıqlarında qalmağa davam etdikləri vaxt Musa ﷺ onlara bəddua edərək belə dedi: "**Ey Rəbbimiz! Sən Firona və onun əyanlarına dünya həyatında zinət**", yəni dünya nemətləri "**və mal-dövlət bəxş etdin**", yəni çoxlu mal-dövlət verdin. "**Ey Rəbbimiz! Onlar insanları Sənin yolundan sapdırırlar**", yəni onlara verdiyin sərvətlə yaratdıqlarından istədiyin kəsləri azdırırsan. Azdırmaq istədiyin kəs elə zənn edər ki, bu sərvətləri onları sevdiyin, onlara qayğı göstərdiyin üçün vermisən. "**Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et...**". İbn Abbas və Mucahid ﷺ demişlər: "Yəni tələf et". əd-Dahhək, Əbul-Aliyə və ər-Rabi ibn Ənəs ﷺ demişlər: "Uca Allah onların mallarını olduğu formada naxışlı daşlara çevirdi".[2]

Uca Allah buyurur: "**...qəlblərini də sərtləşdir ki...**". İbn Abbas ﷺ demişdir: "Yəni qəlblərini möhürlə ki". "**...ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər**". Musa ﷺ Allah və Allahın dini üçün qəzəblənərək Firona və onun əyanlarına belə bir bəddua etmişdir. Musaya ﷺ aydın oldu ki, onlarda heç bir xeyir yoxdur və onlardan bir xeyir gözlənilmir. Necə ki Nuh ﷺ bəddua edərək demişdir: "**Ey Rəbbim, kafirlərdən yer**

[1] ət-Təbəri, 17811, 17895.

[2] ət-Təbəri, 17829, 17912.

**üzündə bir nəfəri belə sağ qoyma! Əgər Sən onları sağ qoysan, onlar Sənin qullarını azdıracaq və yalnız günahkar, kafir övladlar doğub-törədəcəklər**" ("Nuh", 26-27). Bu səbəbdən Uca Allah Musanın عليه السلام onlar barədə bədduasını qəbul etdi. Qardaşı Harun عليه السلام da bu bədduaya "Amin" (Allahım, qəbul et!) demişdi. Uca Allah buyurur: "**Hər ikinizin duası qəbul olundu**", yəni Firon ailəsinin həlakı barədə hər ikinizin duası qəbul olundu. "Namazda imama tabe olan kəs "əl-Fatihə" surəsinin oxunuşunda "Amin" deyərsə, onu oxumuş sayılır" – deyənlər bu ayəyə əsaslanmışlar, çünki Musa dua etmiş, Harun isə "Amin" demişdi.

Uca Allah buyurur: "**Siz (dininizdə və dəvətinizdə) sabitqədəm olun**", yəni mənim əmrimə tabe olmaqda davam edin. Dində sabitqədəm olmaq da məhz budur. İbn Cureyc رحمه الله demişdir: "Deyilənə görə, Firon bu bədduadan sonra qırx il yaşadı".[1] Muhəmməd ibn Əli ibn Hüseyn رحمه الله isə Fironun bu bədduadan sonra yalnız qırx gün yaşadığını demişdir.

﴿ ۞ وَجَٰوَزۡنَا بِبَنِيٓ إِسۡرَٰٓءِيلَ ٱلۡبَحۡرَ فَأَتۡبَعَهُمۡ فِرۡعَوۡنُ وَجُنُودُهُۥ بَغۡيٗا وَعَدۡوًاۖ حَتَّىٰٓ إِذَآ أَدۡرَكَهُ ٱلۡغَرَقُ قَالَ
ءَامَنتُ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱلَّذِيٓ ءَامَنَتۡ بِهِۦ بَنُوٓاْ إِسۡرَٰٓءِيلَ وَأَنَا۠ مِنَ ٱلۡمُسۡلِمِينَ ٩٠ ءَآلۡـَٰٔنَ وَقَدۡ عَصَيۡتَ قَبۡلُ
وَكُنتَ مِنَ ٱلۡمُفۡسِدِينَ ٩١ فَٱلۡيَوۡمَ نُنَجِّيكَ بِبَدَنِكَ لِتَكُونَ لِمَنۡ خَلۡفَكَ ءَايَةٗۚ وَإِنَّ كَثِيرٗا مِّنَ ٱلنَّاسِ
عَنۡ ءَايَٰتِنَا لَغَٰفِلُونَ ٩٢ ﴾

**90. Biz İsrail oğullarını dənizdən keçirdik. Firon və onun qoşunu zülm və düşmənçilik məqsədilə onları təqib etdilər. Nəhayət, Firon dənizdə batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!"**

**91. Firona deyildi: "İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun.**

**92. Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan". Həqiqətən də, insanların çoxu ayələrimizdən xəbərsizdir.**

Uca Allah bu ayələrdə Fironu və onun ordusunu dənizdə suya necə qərq etdiyini xəbər verir. Deyilənə görə İsrail oğulları Musa عليه السلام ilə birlikdə Misirdən çıxdıqda, qadınlar və uşaqlar istisna olmaqla, altı yüz min döyüşçü idi. Onlar qibtilərdən[2] bir çox qızıl-zinət əşyaları

[1] ət-Təbəri, 17856, 17939.

[2] Qibti – Fironun nəslindən olan adamlara verilən addır.

borc almış və çıxarkən onları da özləri ilə götürmüşdülər. Buna son dərəcə qəzəblənən Firon şəhərlərə əsgər toplayanlar göndərdi və onlar ölkənin hər tərəfindən əsgər yığıb gətirdilər. Firon böyük fəxrlə əzəmətli bir ordu ilə onların arxasınca getdi. Çünki Uca Allahın onlar üçün nəzərdə tutduğu müqəddərat mütləq baş tutacaqdı. Fironun hakim olduğu məmləkətdən heç kim onun ordusuna qatılmaqdan yayınmadı. Nəhayət, Günəş doğan vaxt gəlib İsrail oğullarına çatdılar. "**İki dəstə bir-birini görüncə Musanın səhabələri "Biz yaxalanacağıq!" – dedilər**" ("əş-Şuəra", 61). İsrail oğulları dəniz sahilinə çatdıqda və Firon onlara yetişdikdə, iki ordunun qarşı-qarşıya döyüşməsindən başqa bir çarə qalmadıqda Musanın ﴿عليه السلام﴾ səhabələri israrla ondan düşdükləri bu çətin vəziyyətdən necə xilas olacaqlarını soruşmağa başladılar. Musa ﴿عليه السلام﴾ isə "Mənə bura gəlmək əmr olunub. "**Xeyr, Rəbbim mənimlədir. O mənə doğru yol göstərəcək!**" ("əş-Şuəra", 62) – deyirdi. İş çətinləşdikdə, asanlıq gəldi və Uca Allah Musaya ﴿عليه السلام﴾ əsasını dənizə vurmağı əmr etdi. Musa əsasını dənizə vurdu və "**Dəniz dərhal yarıldı və hər biri nəhəng bir dağ kimi oldu**" ("əş-Şuəra", 63), yəni İsrail oğullarının hər nəsli üçün bir yol olmaqla on iki yol açıldı və hər biri nəhəng bir dağ kimi oldu. Uca Allah küləyə əmr etdi və külək yarılan yerlərin torpağını qurutdu. "**Qullarımla birlikdə gecə yola çıx, əsanı suya vurmaqla onlar üçün dənizdə quru yol aç. Düşmənin sizə çatmasından və boğulmaqdan qorxma!**" ("Ta ha", 77). Hər bir qövm digərlərini görsün və həlak olduqlarını sanmasın deyə yollar arasında sular pəncərə şəklində yarıldı. Beləliklə, İsrail oğulları dənizi keçdi. Onların sonuncuları dənizdən çıxdıqdan sonra Firon və onun ordusu dəniz sahilinə çatdı. Fironun ordusu dənizə girdikdə isə hər şeyə Qadir olan Allah dənizə onların üzərinə bağlanmağı əmr etdi və onlardan heç biri xilas ola bilmədi. Dalğalar Fironun üstünə gəldi, ölüm bihuşluğu onu bürüdü və o bu halda "**İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım. Mən də müsəlmanlardanam!**" – dedi. Firon imanın fayda verməyəcəyi bir vaxtda iman gətirdi. "**Onlar əzabımızı gördükdə dedilər: "Biz tək Allaha iman gətirdik və Ona qoşduğumuz şərikləri inkar etdik!" Lakin əzabımızı gördükdə iman gətirmələri onlara heç bir fayda vermədi. Bu, Allahın Öz qulları barəsində əzəldən olub-keçmiş qanunudur. Kafirlər orada ziyana uğradılar**" ("Ğafir", 84-85).

Firon bu sözləri dedikdə Uca Allah cavab olaraq ona belə buyurdu: "**İndimi? Sən ki əvvəllər asilik etmiş**", yəni bu sözü indimi deyirsən? Halbuki bundan əvvəl Allahla aranda olan xüsuslarda Ona asi olmuş "**və fəsad törədənlərdən olmuşdun**", yəni yer üzündə insanları azdırmaqla fəsad törədirdin. "**Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir**" ("əl-Qasas", 41).

Uca Allahın Firon barədə nəql etdiyi bu sözlər Uca Allahın Öz Elçisinə ﷺ bildirdiyi qeybin sirlərindəndir. İmam Əhməd ibn Hənbəl رحمه الله İbn Abbasdan رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Cəbrail mənə dedi: "Ey Muhəmməd! Firon boğularkən "**İsrail oğullarının iman gətirdiklərindən başqa məbud olmadığına inandım**" – dedikdə məni görsəydin, ona mərhəmət olunmasından qorxaraq dənizin quru torpağından götürüb Fironun ağzına doldururdum". Hədisi ət-Tirmizi رحمه الله rəvayət etmiş və "həsən" olduğunu bildirmişdir.[1]

Uca Allah buyurur: "**Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan**". İbn Abbas və digər sələflər bu ayənin təfsirində belə demişlər: "İsrail oğullarından bəziləri Fironun ölümünə (dənizdə boğulmasına) şübhə etdilər. Uca Allah da dənizə onun ruhsuz bədənini çölə atmağı əmr etdi. Onun əynində tanınan və bilinən zirehi vardı. İsrail oğulları onun öldüyünə və həlak olduğuna yəqinliklə inansınlar deyə onun cəsədi yüksək bir yerə atılmışdı. Bu səbəbdən Uca Allah "**Bu gün sənin bədənini xilas edəcəyik (sahilə çıxaracağıq) ki, səndən sonra gələnlərə ibrət olasan**" – deyə buyurur. Yəni səni yüksək bir yerə qaldıracağıq". Mucahid رحمه الله demişdir: "**Bu gün sənin bədənini xilas edəcəyik**", yəni cəsədini qurtaracağıq". əl-Həsən رحمه الله demişdir: "Yəni ruh olmayan bədənini xilas edəcəyik". Abdullah ibn Şəddəd رحمه الله demişdir: "Yəni səni tanısınlar və ölümünə yəqinliklə inansınlar deyə cəsədini parçalanmamış, tam şəkildə xilas edəcəyik".[2] Əvvəl qeyd etdiyimiz kimi, bu rəylər arasında heç bir ziddiyyət yoxdur. Ən doğrusunu Allah bilir.

Uca Allah buyurur: "**...səndən sonra gələnlərə ibrət olasan**", yəni cəsədin İsrail oğullarına sənin ölümünə və həlakına dair sübut olsun, həmçinin hər canlının kəkilinin (aqibətinin) Uca Allahın əlində olduğuna, Onun qəzəbinin qarşısında heç nəyin dayana bilməyəcəyinə, Allahın hər şeyə qadir olduğuna dəlil olsun. "**Həqiqətən də, insanların çoxu ayələrimizdən xəbərsizdir**", yəni insanların çoxu Bizim ayələrimizdən nəsihət almazlar, onlardan ibrət götürməzlər. Firon və onun əyanlarının həlakı Aşura günü (Məhərrəm ayının onu) olmuşdur. əl-Buxarinin "Səhih" əsərində İbn Abbasdan رضي الله عنهما rəvayət edilir ki, Peyğəmbər ﷺ Mədinəyə təşrif buyurduqda yəhudilər Aşura günü oruc tutur və "Bu gün Musanın Firona qalib gəldiyi gündür" – deyirdilər. Peyğəmbər ﷺ səhabələrinə "Siz Musaya onlardan daha layiqsiniz, o günü oruc tutun!" – dedi".[3]

[1] Əhməd (3821); ət-Tirmizi (3107). Əhməd Şakir isnadının səhih olduğunu bildirmişdir. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2015.

[2] ət-Tabəri, 17961-17964, 17878-17880.

[3] əl-Buxari, 4312, 4680.

﴿وَلَقَدۡ بَوَّأۡنَا بَنِيٓ إِسۡرَٰٓءِيلَ مُبَوَّأَ صِدۡقٖ وَرَزَقۡنَٰهُم مِّنَ ٱلطَّيِّبَٰتِ فَمَا ٱخۡتَلَفُواْ حَتَّىٰ جَآءَهُمُ ٱلۡعِلۡمُۚ إِنَّ رَبَّكَ
يَقۡضِي بَيۡنَهُمۡ يَوۡمَ ٱلۡقِيَٰمَةِ فِيمَا كَانُواْ فِيهِ يَخۡتَلِفُونَ ٩٣﴾

**93. Biz İsrail oğullarını gözəl bir yurda sakin etdik və onlara pak ruzilərdən verdik. Onlar özlərinə elm gələnə qədər ixtilafa düşmədilər. Şübhəsiz ki, Rəbbin, ixtilafa düşdükləri şey barəsində Qiyamət günü onların arasında hökm verəcəkdir.**

Uca Allah bu ayədə İsrail oğullarına dini və dünyəvi nemətlər bəxş etdiyini və onları "**gözəl bir yurda**" yerləşdirdiyini xəbər verir. Bəzi təfsirçilərə görə ayədə "**gözəl bir yurda**" dedikdə Beytul-Məqdis və onun ətrafında yerləşən Misir və Şam ölkələri nəzərdə tutulur. Uca Allah Fironu və onun ordusunu həlak etdikdə Misir ölkələrinə bütünlüklə "Musəvi dövləti" (Yəhudi dövləti) hakim oldu. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Xor görülüb əzilməkdə olan qövmü isə yer üzünün xeyir-bərəkət verdiyimiz şərq və qərb bölgələrinə varislər təyin etdik. Səbir etdiklərinə görə Rəbbinin İsrail oğulları barəsindəki gözəl Sözü yerinə yetdi. Biz Firon və onun xalqının qurduqlarını və tikib ucaltdıqlarını darmadağın etdik**" ("əl-Əraf", 137); "**Biz o zalım tayfanı bağlardan və çeşmələrdən çıxardıq; xəzinələrdən və gözəl yerlərdən də qovduq. Beləcə, Biz İsrail oğullarını o yerlərə varis etdik. Günəş üfüqdən qalxarkən Firon öz əsgərləri ilə onları təqib etməyə başladı**" ("əş-Şuəra", 57-60). Lakin İsrail oğulları Misirdə qalmayıb Musa ﵇ ilə birgə Beytul-Məqdisə doğru yola çıxdılar. Beytul-Məqdisdə Əmaliqlər tayfası hökmranlıq edirdi. İsrail oğulları onlarla döyüşməkdən qorxdular və Uca Allah (cəza olaraq) onları səhrada qırx il azdıraraq sərgərdan dolaşdırdı. Bu əsnada əvvəl Harun, sonra isə Musa vəfat etdi. İsrail oğulları Harun və Musadan sonra Yuşa ibn Nun ﵇ ilə birgə səhradan çıxdılar və Uca Allah onlara Beytul-Məqdisi fəth etməyi nəsib etdi. Buxtənəssar[1] bu şəhəri onlardan almayana qədər oraya hakim oldular. Buxtənəssar bir müddət bu ölkəni işğal altında saxladı, sonra bu ölkə yenidən İsrail oğullarının əlinə keçdi. Daha sonra Yunan hökmdarları buranı işğal etdilər və bu ölkə uzun müddət yunanların əsarətində qaldı. Bu arada Uca Allah Məryəm oğlu İsanı ﵇ peyğəmbər göndərdi. Yəhudilər İsaya qarşı düşmənçilikdə Yunan hökmdarlarından yardım istədilər. Həmin vaxt Beytul-Məqdis Yunan hökmdarlarının hökmü altında idi. Onlar hökmdara İsadan ﵇ narazılıqlarını bildirdilər və rəiyyəti onlara qarşı qaldırdığını dedilər. Yunan hökmdarı İsanı tutmaq üçün adamlar göndərdi və Uca Allah onu

---

[1] B.e.ə. 562-605-ci illərdə Babil hökmdarı olmuşdur. B.e.ə. 587 və 597-ci illərdə iki dəfə Qüdsə hücum edib süquta uğratmış və Beytul-Məqdisi viranə qoymuşdur.

Öz dərgahına qaldırdı. Uca Allahın istəyi və qədəri ilə həvarilərdən biri onlara İsa kimi göstərildi. Onlar həvarinin İsa olduğunu sanaraq onu tutub çarmıxa çəkdilər. "**Onlar onu öldürdüklərinə əmin deyildilər. Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah qüdrətlidir, hikmət sahibidir**" ("ən-Nisa", 157-158). İsa Məsihdən ﷺ təxminən üç yüz il sonra Yunan hökmdarlarından biri olan Konstantin xristianlığı qəbul etdi. Bundan əvvəl isə o, filosof idi. O, xristianlığı bu dini korlamaq məqsədilə qəbul etmişdi. Yepiskoplar onun üçün sonradan uydurulmuş qanunlar və şəriət qaydaları qoydular. Konstantin onlar üçün kilsələr, monastırlar, heykəllər, məbəd və ibadət yerləri tikdirdi. Xristianlıq məhz bu vaxt yayıldı və bu din özündə olan dəyişiklik, təhrif, yalan və İsanın gətirdiyi dinə müxalif olan şeylərlə birlikdə hər yerdə məşhurlaşdı. Nəhayət, onların qurduqları dövlət səhabələr bu ölkələri fəth edənə qədər qalmaqda davam etdi. Beytul-Məqdisin fəthi möminlərin əmiri Ömər ibn əl-Xattabın ﷺ əli ilə olmuşdur. Həmd və şükür Allahadır.

Uca Allah buyurur: "**...və onlara pak ruzilərdən verdik**", yəni onları həm təbiət, həm də şəriət baxımından təmiz, faydalı və halal nemətlərlə ruziləndirdik. "**Onlar özlərinə elm gələnə qədər ixtilafa düşmədilər**", yəni onlar yalnız özlərinə elm gəldikdən sonra müəyyən məsələlər barədə ixtilafa düşmüşlər, əslində, bu məsələlərdə ixtilafa düşməli deyildilər. Çünki Uca Allah onlara bütün məsələləri bəyan etmiş və hər cür anlaşılmazlığı aradan qaldırmışdı. Bir hədisdə bildirilir ki, yəhudilər yetmiş bir firqəyə bölünmüşlər. Xaçpərəstlər isə yetmiş iki firqəyə bölünmüşlər. Bu ümmət isə yetmiş üç firqəyə bölünəcək. Bu təriqətlərdən yalnız biri Cənnətə, yetmiş ikisi isə Cəhənnəmə düşəcək. Səhabələr "Onlar (Cənnətə düşən firqə) kimdir, ey Allahın Elçisi?" – deyə soruşduqda Peyğəmbər ﷺ belə buyurdu: "Onlar mənim və səhabələrimin yolu ilə gedənlərdir". Hədisi bu mətnlə əl-Hakim ﷺ özünün "əl-Mustədrək" əsərində rəvayət etmişdir. Hədis "Sunən" və "Musnəd" əsərlərində yer almışdır.[1] Bu səbəbdən Uca Allah ayənin sonunda belə buyurur: "**Şübhəsiz ki, Rəbbin, ixtilafa düşdükləri şey barəsində Qiyamət günü onların arasında hökm verəcəkdir**", yəni sizi bir-birinizdən (haqlı olanları haqsızlardan) ayıracaqdır.

[1] Hədis əl-Mustədrək (1/129) əsərində Amr ibn Əuf əl-Muzənidən rəvayət olunur. Hədisi, həmçinin Əbu Davud (4596) və ət-Tirmizi (2640) Əbu Hureyradan rəvayət etmişlər. ət-Tirmizi hədisin "Həsən-Səhih" olduğunu bildirmişdir. Oxşar hədisi Əhməd (3/145) Ənəs ibn Malikdən rəvayət etmişdir.

﴿فَإِن كُنتَ فِي شَكٍّ مِّمَّآ أَنزَلۡنَآ إِلَيۡكَ فَسۡـَٔلِ ٱلَّذِينَ يَقۡرَءُونَ ٱلۡكِتَٰبَ مِن قَبۡلِكَۚ لَقَدۡ جَآءَكَ ٱلۡحَقُّ مِن رَّبِّكَ فَلَا
تَكُونَنَّ مِنَ ٱلۡمُمۡتَرِينَ ٩٤ وَلَا تَكُونَنَّ مِنَ ٱلَّذِينَ كَذَّبُواْ بِـَٔايَٰتِ ٱللَّهِ فَتَكُونَ مِنَ ٱلۡخَٰسِرِينَ ٩٥ إِنَّ ٱلَّذِينَ حَقَّتۡ عَلَيۡهِمۡ
كَلِمَتُ رَبِّكَ لَا يُؤۡمِنُونَ ٩٦ وَلَوۡ جَآءَتۡهُمۡ كُلُّ ءَايَةٍ حَتَّىٰ يَرَوُاْ ٱلۡعَذَابَ ٱلۡأَلِيمَ ٩٧﴾

**94. Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl Kitab oxuyanlardan soruş. Rəbbindən sənə haqq gəlmişdir. Odur ki, şübhə edənlərdən olma.**

**95. Allahın ayələrini yalan sayanlardan da olma, yoxsa ziyana uğrayanlardan olarsan.**

**96. Həqiqətən, əleyhlərinə Rəbbinin Sözü doğru çıxmış kimsələr iman gətirməzlər.**

**97. Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə, iman gətirməzlər.**

Qatədə ibn Duəmə ﷺ demişdir: "Bizə çatan məlumata görə, Peyğəmbərə ﷺ "**Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl Kitab oxuyanlardan soruş**" ayəsi nazil olduqda, o "Şübhə etmirəm və soruşmuram", – demişdir".[1] İbn Abbas, Səid ibn Cubeyr və Həsən əl-Bəsri ﷺ də belə demişlər. Bu ayə İslam ümmətini möhkəmləndirmək və Peyğəmbərin ﷺ vəsflərinin Kitab əhlinin əlində olan keçmiş kitablarında mövcud olduğunu onlara bildirmək məqsədi daşıyır. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər**" ("əl-Əraf", 157). Həmçinin onlar Peyğəmbəri ﷺ öz kitablarında öz oğullarını tanıdıqları kimi tanıyırlar. Buna rəğmən, insanları çaşdıraraq bu ayələri dəyişdirir, təhrif edir və əleyhlərinə dəlil olduğu halda ona iman gətirmirlər. Bu səbəbdən Uca Allah "**Həqiqətən, əleyhlərinə Rəbbinin Sözü doğru çıxmış kimsələr iman gətirməzlər. Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə, iman gətirməzlər**" – deyə buyurmuşdur. Yəni onlar özlərinə fayda verəcək bir imanla iman gətirməzlər. Əksinə, imanın fayda vermədiyi bir vaxtda (əzab gəldiyi vaxtda) iman gətirərlər. Odur ki Musa ﷺ Firona və onun əyanlarına bəddua edərək belə demişdi: "**Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et, qəlblərini də sərtləşdir**

[1] Abdur-Razzəq, 10211; ət-Təbəri, 17894, 17977. Hədis zəifdir. Bax: Difaun anil-Hədis ən-Nubuvvə vas-Sira, 1/15.

**ki, ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər**" ("Yunus", 88). Uca Allah başqa bir ayədə belə buyurur: "**Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah istəməyincə, onlar iman gətirməzdilər. Lakin onların çoxu bunu bilmir**" ("əl-Ənam", 111). Sonra Uca Allah buyurur:

﴿فَلَوْلَا كَانَتْ قَرْيَةٌ ءَامَنَتْ فَنَفَعَهَآ إِيمَٰنُهَآ إِلَّا قَوْمَ يُونُسَ لَمَّآ ءَامَنُوا۟ كَشَفْنَا عَنْهُمْ عَذَابَ ٱلْخِزْىِ فِى ٱلْحَيَوٰةِ ٱلدُّنْيَا وَمَتَّعْنَٰهُمْ إِلَىٰ حِينٍ ﴿٩٨﴾﴾

**98. Əzab gəldiyi an iman gətirib imanı özünə fayda verən bir məmləkət əhli olubmu? Yalnız Yunusun qövmü istisnadır, onlar iman gətirəndə onlardan dünya həyatında rüsvayçılıq əzabını sovuşdurduq və onlara müəyyən vaxta qədər fani nemətlərdən faydalanmaq imkanı verdik.**

Uca Allah bu ayədə buyurur ki, keçmiş ümmətlərdən peyğəmbərlər göndərdiyimiz elə bir məmləkət olubmu ki, əhalisi tamamilə iman gətirmiş olsun? Əksinə, ey Muhəmməd, səndən əvvəl göndərdiyimiz elə bir peyğəmbər yoxdur ki, qövmü və ya qövmünün əksəriyyəti onu yalançı hesab etməsin. Uca Allah başqa ayələrdə belə buyurur: "**Vay bu qulların halına! Onlara elə bir elçi gəlməyib ki, ona istehza etməsinlər**" ("Yasin", 30); "**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində "Sehrbazdır, ya da dəlidir!" – deməsinlər**" ("əz-Zariyat", 52); "**Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən bir peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri: "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!" – dedilər**" ("əz-Zuxruf", 23). Səhih bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Peyğəmbərlər mənə göstərildi. Yanımdan elə peyğəmbər keçirdi ki, yanında bir dəstə insan var idi. Elə peyğəmbər var idi ki, yanında bir, eləsi var idi ki, yanında iki kişi var idi. Elə peyğəmbər də var idi ki, yanında heç kəs yox idi".[1] Sonra Peyğəmbər ﷺ Musaya tabe olanların çoxluğunu, daha sonra öz ümmətinin çoxluğunu zikr etdi və onların gündoğanla günbatanı dolduracaq qədər çox olduqlarını bildirdi.

Ayədə nəzərdə tutulan budur: Keçmiş məmləkətlərdən peyğəmbərlərinə hamılıqla iman gətirmiş bir məmləkət yoxdur. Yalnız Yunusun عليه السلام qövmü istisnadır. Onun qövmü Ninəva xalqıdır.[2] Onların iman

[1] əl-Buxari, 5270, 5705; Muslim, 323, 549.

[2] Ninəva – müasir İraqın şimalında yerləşir.

gətirmələrinə səbəb peyğəmbərlərinin onları çəkindirdiyi əzabın onlara yetişməsindən qorxmaları olmuşdur. Onlar bu əzabın əlamətlərini gördükdən və peyğəmbərləri (Yunus) aralarından çıxıb getdikdən sonra iman gətirdilər və Allaha dua edərək Ondan imdad dilədilər, hüzurunda yalvardılar, müti oldular, övladlarını, heyvanlarını çölə çıxardılar. Uca Allahdan peyğəmbərlərinin onları çəkindirdiyi əzabı geri qaytarmasını dilədilər. Bu vaxt Uca Allah onlara rəhm edib əzabı onlardan qaytardı və onlara möhlət verdi. Uca Allah bu xüsusda belə buyurur: "**Yunusun qövmü istisnadır, onlar iman gətirəndə onlardan dünya həyatında rüsvayçılıq əzabını sovuşdurduq və onlara müəyyən vaxta qədər fani nemətlərdən faydalanmaq imkanı verdik**".

Təfsir alimləri bir məsələdə ixtilaf etmişlər; Yunusun عليه السلام qövmündən dünya əzabı ilə birlikdə Axirət əzabı da qaldırıldımı, yoxsa yalnız dünya əzabı qaldırıldı? Bu barədə təfsirçilər iki rəy irəli sürmüşlər. Birinci rəyə görə, ayədə bildirildiyi kimi, onlardan yalnız dünya həyatındakı əzab qaldırıldı. İkinci rəyə görə isə onlardan həm dünyadakı, həm də Axirətdəki əzab qaldırılmışdır. Çünki Uca Allah "**Biz onu yüz min nəfərə və daha çox adama peyğəmbər göndərdik. Onlar ona iman gətirdilər, Biz də onlara müəyyən vaxtadək firavanlıq nəsib etdik**" ("əs-Saffat", 147-148) – deyə buyurur. Bu ayədə Uca Allah onlar barədə "iman" sözünü işlətmişdir. İman isə Axirət əzabından qurtarır. Ayədən görünən məna budur. Ən doğrusunu isə Allah bilir.

Qatədə رحمه الله bu ayənin təfsirində belə demişdir: "Elə bir məmləkət yoxdur ki, əvvəl küfr etsin, əzab gəldikdə isə iman gətirsin və bu iman onlara fayda versin, əzabdan xilas olsunlar. Yalnız Yunusun qövmü istisnadır, onlar peyğəmbərlərini itirib əzabın onlara yaxınlaşdığını bildikdə, Uca Allah onların qəlblərinə tövbə etməyi ilham etdi. Onlar qalın parçadan paltarlar geyindilər, hər bir heyvanı balasından ayırdılar, sonra da tam qırx gecə Allaha yüksək səslə yalvarıb-yaxardılar. Uca Allah onların qəlblərindəki səmimi tövbəni və keçmiş əməllərindən peşmançılıqlarını bilib əzab başlarının üstünü kəsdikdən sonra əzabı onlardan uzaqlaşdırdı. Deyilənə görə, Yunusun qövmü Mosul ərazisində yerləşən Ninəva kəndi idi".[1] Bu şərh İbn Məsud, Mucahid, Səid ibn Cubeyr və bir çox sələfdən rəvayət edilmişdir. Hadisə tam şəkildə Allahın izni ilə "əs-Saffat" surəsinin təfsirində ətraflı gələcək.

[1] ət-Tabəri, 17898, 17981.

﴿وَلَوْ شَآءَ رَبُّكَ لَآمَنَ مَن فِى ٱلْأَرْضِ كُلُّهُمْ جَمِيعًا ۚ أَفَأَنتَ تُكْرِهُ ٱلنَّاسَ حَتَّىٰ يَكُونُوا۟ مُؤْمِنِينَ ﴿٩٩﴾ وَمَا كَانَ
لِنَفْسٍ أَن تُؤْمِنَ إِلَّا بِإِذْنِ ٱللَّهِ ۚ وَيَجْعَلُ ٱلرِّجْسَ عَلَى ٱلَّذِينَ لَا يَعْقِلُونَ ﴿١٠٠﴾﴾

**99. Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?**

**100. Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları rüsvay edər.**

Uca Allah buyurur: “Ey Muhəmməd, “**Əgər Rəbbin istəsəydi**”, yer üzündə olan insanların hamısına sənin gətirdiyinə (dinə) iman gətirməyə izin verərdi və onların hamısı sənə iman gətirərdi. Lakin Uca Allah etdiklərində hikmət sahibidir. Necə ki başqa ayələrdə belə buyurur: “**Ölkə əhalisi islah edən adamlar olduğu halda Rəbbin o ölkəni haqsız yerə məhv etməz. Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar**” (“Hud”, 118-119); “**İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi?**” (“ər-Rad”, 31). Burada isə Uca Allah belə buyurur: “**İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?**” Yəni bu sənin üzərinə düşən bir vəzifə deyil və bu sənə həvalə edilməmişdir. “**Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma**” (“Fatir”, 8); “**Onların doğru yola gəlməsi sənə aid deyildir. Allah yalnız istədiyi şəxsi doğru yola yönəldir**” (“əl-Bəqərə”, 272); “**Biz istəsəydik, göydən onlara elə bir əlamət göndərərdik ki, onun önündə başları itaətkarlıqla əyilərdi**” (“əş-Şuəra”, 3); “**Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir**” (“əl-Qasas”, 56); “**Biz onlara vəd etdiyimizin bir qismini sənə göstərsək və ya ondan öncə səni öldürsək, bil ki, sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Haqq-hesab çəkmək isə Bizə aiddir**” (“ər-Rad”, 40); “**Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən**” (“əl-Ğaşiyə”, 21-22). Bu və buna bənzər ayələr dəlalət edir ki, Uca Allah istədiyini edər, istədiyinə hidayət bəxş edər, istədiyini də Öz elmi, hikməti və ədaləti ilə azdırar. Bu səbəbdən belə buyurur: “**Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları**”, yəni Allahın hikmət və dəlillərini anlamayanları “**rüsvay edər**”, yəni çaşqınlığa və azğınlığa salar. Uca Allah doğru yolda olanları doğru yola yönəltməkdə, azmışları isə azdırmaqda ədalətlidir.

﴿قُلِ ٱنظُرُوا۟ مَاذَا فِى ٱلسَّمَـٰوَٰتِ وَٱلْأَرْضِ ۚ وَمَا تُغْنِى ٱلْـَٔايَـٰتُ وَٱلنُّذُرُ عَن قَوْمٍ لَّا يُؤْمِنُونَ ﴿١٠١﴾ فَهَلْ يَنتَظِرُونَ إِلَّا
مِثْلَ أَيَّامِ ٱلَّذِينَ خَلَوْا۟ مِن قَبْلِهِمْ ۚ قُلْ فَٱنتَظِرُوٓا۟ إِنِّى مَعَكُم مِّنَ ٱلْمُنتَظِرِينَ ﴿١٠٢﴾ ثُمَّ نُنَجِّى رُسُلَنَا وَٱلَّذِينَ
ءَامَنُوا۟ ۚ كَذَٰلِكَ حَقًّا عَلَيْنَا نُنجِ ٱلْمُؤْمِنِينَ ﴿١٠٣﴾﴾

**101. De: "Görün göylərdə və yerdə nələr var". Lakin iman gətirməyən adamlara dəlillər və xəbərdarlıqlar heç bir fayda vermir.**

**102. Yoxsa onlar özlərindən əvvəl gəlib-gedənlərə üz vermiş əzablı günlərin bənzərinimi gözləyirlər? De: "Gözləyin! Şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm".**

**103. Sonra elçilərimizi və möminləri xilas edərik. Möminləri xilas etmək Bizə vacibdir.**

Uca Allah bu ayələrdə qullarına onlara bəxş etdiyi nemətlər, habelə göylərdə və yerdə ağıl sahibləri üçün yaratdığı açıq-aydın dəlillər haqqında düşünməyi tövsiyə edir. Uca Allah göylərdə hərəkətdə olan və sabit dayanan parlaq ulduzlar, Günəş və Ay, gecə və gündüz yaratmışdır. Onların biri digərini təqib edir, biri digərinə daxil olur, biri uzanarkən digəri qısalır, sonra uzanan qısalır, qısalan isə uzanır. Habelə göyü yüksəldib genişləndirmiş, onu gözəlləşdirmiş və (ulduzlarla) bəzəmişdir. Uca Allah göydən yağış endirir və onunla ölmüş torpağı dirildir. Orada müxtəlif növ meyvələr, əkinlər, çiçəklər və növbənöv bitkilər yetişdirmiş, surətləri, rəngləri və faydaları müxtəlif olan heyvanlar yaratmışdır. Yer üzündə dağlar, düzənliklər, çöllər, tikilmiş və viran qalmış yerlər yaratmışdır. Dənizdə qəribə canlılar və dalğalar yaratmışdır. Bununla belə dənizi səfərə çıxanların ixtiyarına vermişdir. Dəniz insanların gəmilərini daşıyır və hər şeyə qadir olan Allahın onu insanlara ram etməsi ilə gəmilər orada rahat hərəkət etir. Ondan başqa ibadətə layiq məbud və Ondan başqa rəbb yoxdur.

Uca Allah buyurur: "**Lakin iman gətirməyən adamlara dəlillər və xəbərdarlıqlar heç bir fayda vermir**", yəni iman gətirməyən bir qövmə göydə və yerdə olan dəlillər, doğruluğuna dəlalət edən ayələrlə gələn peyğəmbərlər nə fayda gətirəcək? Uca Allah başqa bir ayədə belə buyurur: "**Həqiqətən, əleyhlərinə Rəbbinin Sözü doğru çıxmış kimsələr iman gətirməzlər. Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə, iman gətirməzlər**" ("Yunus", 96-97).

Uca Allah buyurur: “**Yoxsa onlar özlərindən əvvəl gəlib-gedənlərə üz vermiş əzablı günlərin bənzərinimi gözləyirlər?**” Yəni ey Muhəmməd! Yoxsa səni yalançı sayanlar özlərindən əvvəl peyğəmbərlərini yalançı sayan keçmiş ümmətlərə üz vermiş Allahın əzablı günləri kimi, onların da əzaba düçar olmasını gözləyirlər? “**De: “Gözləyin! Şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyənlərdənəm**. **Sonra elçilərimizi və möminləri xilas edərik**”, yəni peyğəmbərləri yalançı sayanları isə həlak edərik. “**Möminləri xilas etmək Bizə vacibdir**”, yəni bu, Uca Allahın Özünə vacib etdiyi bir haqdır. Necə ki başqa bir ayədə belə buyurur: “**Allah yaratdıqlarına qarşı rəhmli olmağı Özünə vacib etmişdir**” (“əl-Ənam”, 54). əl-Buxari və Muslimin “Səhih” əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Allah məxluqatı yaratdığı zaman Öz yanında Ərşin üzərində yerləşən Kitabında Özünə aid belə yazmışdır: “Həqiqətən də, Mənim rəhmətim qəzəbimi üstələyir!”[1]

﴿قُلْ يَٰٓأَيُّهَا ٱلنَّاسُ إِن كُنتُمْ فِى شَكٍّ مِّن دِينِى فَلَآ أَعْبُدُ ٱلَّذِينَ تَعْبُدُونَ مِن دُونِ ٱللَّهِ وَلَٰكِنْ أَعْبُدُ
ٱللَّهَ ٱلَّذِى يَتَوَفَّىٰكُمْ ۖ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ ٱلْمُؤْمِنِينَ ﴿١٠٤﴾ وَأَنْ أَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا وَلَا تَكُونَنَّ مِنَ
ٱلْمُشْرِكِينَ ﴿١٠٥﴾ وَلَا تَدْعُ مِن دُونِ ٱللَّهِ مَا لَا يَنفَعُكَ وَلَا يَضُرُّكَ ۖ فَإِن فَعَلْتَ فَإِنَّكَ إِذًا مِّنَ ٱلظَّٰلِمِينَ ﴿١٠٦﴾
وَإِن يَمْسَسْكَ ٱللَّهُ بِضُرٍّ فَلَا كَاشِفَ لَهُۥٓ إِلَّا هُوَ ۖ وَإِن يُرِدْكَ بِخَيْرٍ فَلَا رَآدَّ لِفَضْلِهِۦ ۚ يُصِيبُ بِهِۦ مَن
يَشَآءُ مِنْ عِبَادِهِۦ ۚ وَهُوَ ٱلْغَفُورُ ٱلرَّحِيمُ ﴿١٠٧﴾﴾

**104. De: “Ey insanlar! Dinimə şəkk edirsinizsə, bilin ki, mən Allahdan başqa tapındıqlarınıza deyil, canınızı alacaq olan Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir”.**

**105. Sən hənif olaraq üzünü dinə tərəf çevir və müşriklərdən olma.**

**106. Allahı qoyub sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan.**

**107. Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir.**

[1] əl-Buxari, 6999, 7554; Muslim, 2751/14, 4939, 7145.

Uca Allah Öz elçisi Muhəmmədə ﷺ xitab edərək belə buyurur: "De: "Ey insanlar, əgər sizə gətirdiyim, Allahın mənə vəhy etdiyi Hənif dinin doğruluğuna şübhə edirsinizsə, bilin ki, mən sizin Allahdan başqa ibadət etdiklərinizə ibadət etmirəm. Mən tək və şəriki olmayan Allaha ibadət edirəm. O sizi necə diriltmişsə, elə də öldürəcək. Sonra Onun hüzuruna dönəcəksiniz. Əgər sizin Allahdan başqa ibadət etdiyiniz ilahlar haqdırsa, mən onlara ibadət etmirəm. Çağırın onları, qoy mənə zərər versinlər. Həqiqətən, onlar nə fayda, nə də zərər verə bilirlər. Zərər və fayda yalnız tək və şəriki olmayan Allahın Əlindədir. Mənə möminlərdən olmaq əmr olunmuşdur".

Uca Allah buyurur: "**Sən hənif olaraq**", yəni şirkdən üz çevirərək "**üzünü dinə tərəf çevir**", yəni yalnız tək olan Allaha ibadət et. Bu səbəbdən ayənin sonunda "**və müşriklərdən olma**" – deyə buyurur.

Uca Allah buyurur: "**Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, Bağışlayandır, Rəhmlidir**". Bu ayə xeyir və şərin, fayda və zərərin yalnız Allaha aid olduğunu bəyan edir. Bu xüsusda heç kim Ona şərik deyildir. Tək və şərik qoşulmadan ibadətə layiq olan Odur.

Uca Allah buyurur: "**O, Bağışlayandır, Rəhmlidir**", yəni hansı günah olursa olsun, hətta Allaha şərik qoşmaq olsa belə, tövbə edənin, Ona təvəkkül edənin tövbəsini qəbul edər, ona qarşı Bağışlayan və Rəhmli olar.

﴿قُلْ يَٰٓأَيُّهَا ٱلنَّاسُ قَدْ جَآءَكُمُ ٱلْحَقُّ مِن رَّبِّكُمْ ۖ فَمَنِ ٱهْتَدَىٰ فَإِنَّمَا يَهْتَدِى لِنَفْسِهِۦ ۖ وَمَن ضَلَّ فَإِنَّمَا يَضِلُّ
عَلَيْهَا ۖ وَمَآ أَنَا۠ عَلَيْكُم بِوَكِيلٍ ﴿١٠٨﴾ وَٱتَّبِعْ مَا يُوحَىٰٓ إِلَيْكَ وَٱصْبِرْ حَتَّىٰ يَحْكُمَ ٱللَّهُ ۚ وَهُوَ خَيْرُ ٱلْحَٰكِمِينَ ﴿١٠٩﴾﴾

**108. De: "Ey insanlar! Rəbbinizdən sizə haqq gəlmişdir. Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Mən sizi qoruyan deyiləm".**

**109. Sənə nazil edilən vəhylərə tabe ol və Allah Öz hökmünü verənə qədər səbir et. O, hökmranların ən yaxşısıdır.**

Uca Allah Öz Elçisinə ﷺ əmr edərək buyurur ki, insanlara Allah dərgahından gətirdiyi dinin haqq olduğunu və özündə heç bir şübhə doğurmadığını xəbər versin. Kim onunla doğru yola yönələrsə, bunun faydası yalnız onun özünə qayıdar. Kim də ondan uzaqlaşıb azarsa, bunun

ziyanı yalnız özünə qayıdar. "**Mən sizi qoruyan deyiləm**", yəni mən sizin mömin olmanız üçün başınızın üstündə nəzarətçi deyiləm. Mən yalnız sizi xəbərdar edənəm. Doğru yola yönəltmək isə Allaha aiddir.

Uca Allah buyurur: "**Sənə nazil edilən vəhylərə tabe ol və Allah Öz hökmünü verənə qədər səbir et**", yəni Allahın sənə nazil etdiyinə və sənə vəhy etdiyinə sarıl və insanlardan sənə qarşı çıxanların əməllərinə səbir et. Ta ki "**Allah Öz hökmünü verənə qədər**", yəni Allah səninlə onların arasında qəti hökm verənə qədər. "**O, hökmranların ən yaxşısıdır**", yəni Öz ədaləti və hikməti ilə səninlə onların arasında hökm edənlərin ən xeyirlisidir.

**“Yunus” surəsinin təfsiri bitdi.**

**Həmd olsun aləmlərin Rəbbi Allaha!**

الْكَلاَمُ عَلَى تَفْسِيرِهَا

# “Hud”

## surəsinin təfsiri

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**
**Müvəffəqiyyət yalnız Allahdandır**

## تَفْسِيرُ سُورَةِ هُود

## “Hud” surəsinin təfsiri

﴿الٓرۚ كِتَٰبٌ أُحۡكِمَتۡ ءَايَٰتُهُۥ ثُمَّ فُصِّلَتۡ مِن لَّدُنۡ حَكِيمٍ خَبِيرٍ ١ أَلَّا تَعۡبُدُوٓاْ إِلَّا ٱللَّهَۚ إِنَّنِي لَكُم مِّنۡهُ نَذِيرٞ وَبَشِيرٞ ٢ وَأَنِ
ٱسۡتَغۡفِرُواْ رَبَّكُمۡ ثُمَّ تُوبُوٓاْ إِلَيۡهِ يُمَتِّعۡكُم مَّتَٰعًا حَسَنًا إِلَىٰٓ أَجَلٖ مُّسَمّٗى وَيُؤۡتِ كُلَّ ذِي فَضۡلٖ فَضۡلَهُۥۖ وَإِن تَوَلَّوۡاْ فَإِنِّيٓ أَخَافُ
عَلَيۡكُمۡ عَذَابَ يَوۡمٖ كَبِيرٍ ٣ إِلَى ٱللَّهِ مَرۡجِعُكُمۡۖ وَهُوَ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٌ ٤﴾

**1. Əlif. Ləm. Ra. Bu, Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır.**

**2. Bu ona görədir ki, Allahdan başqasına ibadət etməyəsiniz. Həqiqətən, mən Onun tərəfindən sizi xəbərdar edən və müjdələyənəm.**

**3. Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər Ondan üz çevirsəniz, bilin ki, mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram.**

**4. Siz Allahın hüzuruna qayıdacaqsınız. O, hər şeyə qadirdir.**

Surənin əvvəlində gələn heca hərfləri barədə “əl-Bəqərə” surəsinin ilk ayələrində ətraflı məlumat verilib. Odur ki, burada təkrar zikr edilməsinə ehtiyac yoxdur. Müvəffəq edən Allahdır.

Uca Allah buyurur: “**Bu, Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən, ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır**”, yəni bu sözlər (ifadələr) mükəmməldir, mənaları da ətraflı izah edilmişdir. Beləcə, o həm ifadə, həm də məna etibarilə mükəmməldir. Bu şərh Mucahid və Qatədədən ﷬ rəvayət edilmişdir. İbn Cəririn ﷬ seçdiyi rəy də budur.

Uca Allah buyurur: “**Müdrik, hər şeydən Xəbərdar olan Allah tərəfindən...**”, yəni bu Quran sözlərində, hökmlərində hikmət sahibi,

işlərin aqibətindən xəbərdar olan Allah dərgahındandır.

"**Bu ona görədir ki, Allahdan başqasına ibadət etməyəsiniz**", yəni bu mükəmməl və ətraflı izah edilmiş Quran ona görə nazil olmuşdur ki, ibadət yalnız tək və şəriki olmayan Allaha edilsin. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona "Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!" – deyə vəhy etməyək**" ("əl-Ənbiya", 25); "**Biz hər ümmətə "Allaha ibadət edin, tağutdan uzaq olun" – deyə elçi göndərdik**" ("ən-Nəhl", 36).

"**Həqiqətən, mən Onun tərəfindən sizi xəbərdar edən və müjdələyənəm**", yəni həqiqətən, mən, Allaha qarşı çıxdığınız təqdirdə sizi əzabla qorxudan, Ona itaət etdiyiniz təqdirdə isə savabla müjdələyənəm. Səhih bir hədisdə rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ Məkkədə Səfa dağına çıxıb ən yaxınlarından başlayaraq, Qureyş qəbiləsindən olan qohumlarını çağırdı və Qureyş qəbiləsi bir yerə topaşdıqda onlara belə dedi: "Əgər mən sizə desəm ki, düşmən səhər və ya axşam sizin üstünüzə hücum edəcək, mənə inanarsınızmı?" Onlar "Biz səndən heç vaxt yalan eşitməmişik" – deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Onda bilin ki, mən sizi şiddətli əzabla qorxudan bir peyğəmbərəm!"[1]

Uca Allah buyurur: "**Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin**", yəni sizə keçmiş günahlarınıza görə Allahdan bağışlanma diləməyi, gələcəkdə edəcəyiniz günahlara görə tövbə etməyi və davamlı olaraq bu hal üzərində qalmağı əmr edirəm. "**O sizə müəyyən olunmuş vaxtadək gözəl gün-güzəran nəsib etsin**", yəni dünyada "**və hər fəzilət sahibinə Öz lütfündən versin**", yəni Axirət yurdunda layiq olduğunu versin. Bu təfsir Qatədəyə ﵀ aiddir. Uca Allah başqa bir ayədə belə buyurur: "**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq**" ("ən-Nəhl", 97). Səhih bir hədisdə rəvayət olunur ki, Peyğəmbər ﷺ Sada belə demişdir: "Sən Allahın Üzünü diləyərək (Allahın rizasını qazanmaq üçün) xərclədiyin sədəqənin, hətta həyat yoldaşının ağzına qoyduğun (loxmanın) əvəzini mütləq alacaqsan".[2]

[1] əl-Buxari, 4589, 4971.
[2] əl-Buxari, 5896, 6373; Muslim, 3076, 4296.

Uca Allah buyurur: “**Əgər Ondan üz çevirsəniz, bilin ki, mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram**”. Bu, Allahın əmrlərindən üz çevirib Onun elçilərini yalançı sayanlar üçün şiddətli bir təhdiddir. Allahın hüzuruna qayıdacağı gün bu əzab, şübhəsiz, onu haqlayacaq. “**Siz Allahın hüzuruna qayıdacaqsınız**”, yəni Qiyamət günü dönüşünüz Allahadır. “**O, hər şeyə qadirdir**”, yəni O Öz övliyalarına istədiyi yaxşılığı etməyə, düşmənlərindən isə intiqam almağa və Qiyamət günü məxluqatı yenidən yaratmağa, əlbəttə ki, qadirdir. Bu ayə qorxutmaq, əvvəlki ayələr isə rəğbətləndirmək mənasındadır.

﴿أَلَآ إِنَّهُمۡ يَثۡنُونَ صُدُورَهُمۡ لِيَسۡتَخۡفُواْ مِنۡهُۚ أَلَا حِينَ يَسۡتَغۡشُونَ ثِيَابَهُمۡ يَعۡلَمُ مَا يُسِرُّونَ وَمَا يُعۡلِنُونَۚ إِنَّهُۥ عَلِيمُۢ بِذَاتِ ٱلصُّدُورِ ٥﴾

**5. Baxın, onlar Ondan (Allahdan) gizlətmək üçün sinələrini bükürlər (və ya qəlblərindəki küfrü gizlədirlər). Doğrusu, onlar libaslarına büründükdə belə Allah onların gizli saxladıqlarını da, aşkara çıxardıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir**

İbn Abbas ﵄ bu ayənin təfsirində demişdir: “Onlar cinsi əlaqə zamanı övrət yerlərinin göyə tərəf yönəlməsini bəyənməzdilər. Uca Allah da bu ayəni nazil etdi”. Başqa bir rəvayətdə İbn Abbas ﵄ belə demişdir: “Bəzi insanlar təbii ehtiyaclarını ödəmək üçün açıq səmada ayaqyoluna çıxmağa və qadınları ilə yaxınlıq etməyə utanardılar. Onlar barədə bu ayə nazil oldu”.[1] əl-Buxari ﵀ İbn Abbasın ﵄ belə dediyini rəvayət etmişdir: “**... libaslarına büründükdə...**”, yəni başlarını örtdükdə”.[2] Digər bir rəvayətə görə İbn Abbas ﵄ bu ayənin təfsirində belə demişdir: “Ayədə Allah barədə şəkk və pis əməl nəzərdə tutulur”. Bu şərh Mucahid, əl-Həsən və başqalarından da rəvayət edilmişdir. Yəni onlar küfr bir söz dedikdə və ya günah bir əməl etdikdə (sinələrini büküb) ikiqat olardılar və belə etməklə bunu Allahdan gizləyə biləcəklərini sanardılar. Uca Allah da onlara bildirdi ki, onlar gecənin qaranlığında yatarkən libaslarına büründükləri zaman “**onların gizli saxladıqlarını da**”, yəni gizli saxladıqları sözü də, “**aşkara çıxardıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir**”, yəni Uca Allah onların qəlblərində gizli saxladıqları niyyətləri, fikirləri və sirləri bilir. Zuheyr ibn Əbu Sələmənin ﵀ bu xüsusda dediyi şeir necə də gözəldir:

[1] ət-Tabəri, 17950-17953, 18033-18035; əl-Buxari, 4313, 4681.
[2] əl-Buxari, 4313-4315, 4681-4683.

Qəlbinizdən keçirdikləriniz gizli qalsın deyə Allahdan əsla gizlətməyin!

Çünki Allahdan nə gizlədilsə, onu mütləq bilər.

Abdullah ibn Şəddad ﷺ demişdir: "Onlardan (kafirlərdən) biri Peyğəmbərin ﷺ yanından keçdikdə, ikiqat olar və başını örtərdi. Uca Allah da onlar barədə bu ayəni nazil etdi".[1] Ayənin "**Ondan gizlətmək üçün**" hissəsindəki "**Ondan**" şəxs əvəzliyinin Allaha aid edilməsi daha düzgündür, çünki bu cümlədən sonra Uca Allah "**Doğrusu, onlar libaslarına büründükdə belə Allah onların gizli saxladıqlarını da, aşkara çıxardıqlarını da bilir**" – deyə buyurur.

﴿۞ وَمَا مِن دَآبَّةٍ فِى ٱلْأَرْضِ إِلَّا عَلَى ٱللَّهِ رِزْقُهَا وَيَعْلَمُ مُسْتَقَرَّهَا وَمُسْتَوْدَعَهَا ۚ كُلٌّ فِى كِتَـٰبٍ مُّبِينٍ ٦﴾

**6. Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-Məhfuzdadır).**

Uca Allah bu ayədə yer üzündə olan bütün varlıqların böyük və ya kiçik olmasından, dənizdə və ya quruda yaşamasından asılı olmayaraq, bütün canlıların ruzisinə zamin olduğunu xəbər verir. Həmçinin bildirir ki, O "**onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir**", yəni onların yer üzündə gedib çatacaqları yeri də, sığınacaqları yuvalarını da bilir. İbn Abbas رضي الله عنهما demişdir: "**Qərar tutduqları yeri**", yəni sığınacaqları yeri, "**qorunub saxlanıldıqları yeri**", yəni öləcəkləri yeri bilir".[2] Mucahid ﷺ isə demişdir: "Qərar tutduqları yer" ana bətnləri, "qorunub saxlanıldıqları yer" isə atalarının belidir".[3] Uca Allah, həmçinin bildirir ki, bunların hamısı Uca Allahın dərgahında bir kitabda açıqlanaraq yazılmışdır. Necə ki başqa ayələrdə belə buyurur: "**Yer üzündə gəzən heyvanların və göydə uçan ikiqanadlı quşların hamısı sizin kimi ümmətlərdir. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanacaqlar**" ("əl-Ənam", 38); "**Qeybin açarları Onun yanındadır, onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın**" ("əl-Ənam", 59).

---

[1] ət-Tabəri, 17938, 18020.
[2] ət-Tabəri, 17962, 18044.
[3] ət-Tabəri, 17965, 18047.

﴿وَهُوَ ٱلَّذِى خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضَ فِى سِتَّةِ أَيَّامٍ وَكَانَ عَرْشُهُۥ عَلَى ٱلْمَآءِ لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ
عَمَلًا ۗ وَلَئِن قُلْتَ إِنَّكُم مَّبْعُوثُونَ مِنۢ بَعْدِ ٱلْمَوْتِ لَيَقُولَنَّ ٱلَّذِينَ كَفَرُوٓا۟ إِنْ هَٰذَآ إِلَّا سِحْرٌ مُّبِينٌ ﴿٧﴾ وَلَئِنْ
أَخَّرْنَا عَنْهُمُ ٱلْعَذَابَ إِلَىٰٓ أُمَّةٍ مَّعْدُودَةٍ لَّيَقُولُنَّ مَا يَحْبِسُهُۥٓ ۗ أَلَا يَوْمَ يَأْتِيهِمْ لَيْسَ مَصْرُوفًا عَنْهُمْ وَحَاقَ بِهِم
مَّا كَانُوا۟ بِهِۦ يَسْتَهْزِءُونَ ﴿٨﴾﴾

**7. Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün Ərşi su üzərində ikən, göyləri və yeri altı gündə yaradan Odur. Əgər sən "Siz öləndən sonra diriləcəksiniz!" – desən, kafir olanlar "Bu, açıq-aydın bir sehrdir!" – deyərlər.**

**8. Əgər onlara gələcək əzabı müəyyən vaxtadək gecikdirsək "Onu saxlayan nədir?" – deyəcəklər. Xəbəriniz olsun ki, əzab onlara gəldiyi gün onu heç nə onlardan dəf edə bilməyəcək və istehza etdikləri o əzab onları bürüyəcəkdir.**

Uca Allah bu ayələrdə hər şeyə qadir olduğunu, göyləri və yeri altı günə yaratdığını, bundan əvvəl Ərşinin suyun üzərində olduğunu xəbər verir. Muslimin "Səhih" əsərində Abdullah ibn Amr ibn əl-Asdan ﷠ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah məxluqatın qəzavü-qədərini (taleyini), göyləri və yeri yaratmamışdan əlli min il əvvəl müəyyən etmişdir (yazmışdır). Onun Ərşi suyun üzərində idi".[1] əl-Buxari ﷬ bu ayənin təfsirində Əbu Hureyradan ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Qüdrətli və əzəmətli Allah buyurur: "(Ey Qulum!) Malından Mənim yolumda xərclə, Mən də sənə xərcləyəcəyəm". Peyğəmbər ﷺ dedi: "Allahın Əli doludur. Bu nemətlərin səhər-axşam ardı-arası kəsilmədən xərclənməsi Onun Əlini boş qoya bilməz". Həmçinin demişdir: "Məgər Allahın göyü və yeri yaratdığı gündən bəri nə qədər xərclədiyini görmürsünüz?! Bu Onun Əlindəkilərin azalmasına zərrə qədər təsir göstərməmişdir. O zaman Onun Ərşi suyun üzərində idi. Allahın Əlində tərəzi var. O, bu tərəzini aşağı endirir və yuxarı qaldırır".[2] İmam Əhməd ﷬ Əbu Razin Ləqit ibn Amir ibn Muntəfiq əl-Uqaylidən ﷛ rəvayət etmişdir ki, bir dəfə o, Peyğəmbərdən ﷺ: "Ey Allahın Elçisi! Rəbbimiz məxluqatı yaratmazdan əvvəl harada idi?" – deyə soruşduqda Peyğəmbər ﷺ ona belə cavab vermişdir: "O, buludun üzərində idi. Bu buludun nə altında, nə də üstündə hava vardı. Bundan sonra Ərşi yaratdı". Hədisi ət-Tirmizi və İbn Məcə rəvayət etmişlər. ət-Tirmizi hədisin "Həsən" olduğunu demişdir.[3]

[1] Muslim, 2653/16, 4797, 6919.

[2] əl-Buxari, 4316, 4684.

[3] Əhməd, 4/11; ət-Tirmizi, 3109; İbn Məcə, 182. Hədis zəifdir. Bax: Mişkətul-Məsabih, 5725.

Mucahid ﷺ demişdir: "**Ərşi su üzərində ikən...**", yəni heç bir şey yaratmazdan əvvəl Ərşi su üzərində idi".[1] Qatədə ﷺ isə demişdir: "Uca Allah bu ayədə göyləri və yeri yaratmazdan əvvəl yaradılışın başlanğıcının necə olduğunu sizə xəbər verir".[2] İbn Abbas ﷺ demişdir: "Ərş uca olduğu üçün belə adlanır".[3]

Muhəmməd ibn İshaq ﷺ Uca Allahın "**Ərşi su üzərində ikən, göyləri və yeri altı gündə yaradan Odur**" ayəsi barədə belə demişdir: "Uca Allah, bu ayədə Özünü vəsf etdiyi kimi idi. O zaman sudan başqa heç bir şey yox idi və suyun üzərində Uca Allahın Ərşi, Ərşin üzərində isə əzəmət, kəramət, izzət, səltənət, mülk, qüdrət, helm[4], elm, rəhmət və nemət sahibi, istədiyini edən Allah vardı".[5]

Uca Allah buyurur: "**Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün**", yəni Allah göyləri və yeri qullarının tək Ona ibadət edib heç nəyi Ona şərik qoşmamaları, faydalanmaları üçün yaratmışdır. O bunları əbəs yerə yaratmamışdır. Uca Allah başqa ayələrdə belə buyurur: "**Biz göyü, yeri və onların arasındakıları nahaq yerə xəlq etməmişik. Bu, kafirlərin zənnidir. Vay o kafirlərin Oddakı halına!**" ("Sad", 27); "**Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?" Haqq Hökmdar olan Allah hər şeydən ucadır! Ondan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. O, şanlı Ərşin Rəbbidir**" ("əl-Muminun", 115-116); "**Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım**" ("əz-Zariyat", 56).

Uca Allah buyurur: "**Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün**", yəni imtahan etmək üçün yaratdım. Uca Allah ayədə "**Hansınızın daha yaxşı əməl sahibi olduğunu**" buyurur, "hansınızın daha çox əməl sahibi olduğunu" buyurmur. Bir əməl sırf Allah üçün və Peyğəmbərin ﷺ gətirdiyi şəriətə uyğun olmadıqca yaxşı əməl sayılmaz. Əgər edilən əməldə bu iki şərtdən biri olmazsa, həmin əməl batildir.

---

[1] İbn Əbu Hatim, 10698; ət-Təbəri, 17975, 18057.

[2] ət-Təbəri, 17978, 18060.

[3] İbn Əbu Hatim, 10176, 10213, 10701.

[4] Helm (və ya "Hilm") – "təmkinlik", "mülayimlik" və "yumşaq xasiyyət" deməkdir. (Bax. Bəşir Əhmədov "Etimologiya lüğəti"). Uca Allahın "əl-Həlim" (Həlim) adı da məhz bu sözdəndir. Uca Allah buyurur: "**Allah sizi qərəzsiz içdiyiniz andlara görə cəzalandırmaz, lakin O, sizi qəlbinizin qərəzinə (qəsdən içdiyiniz andlara) görə cəzalandıracaqdır. Allah Bağışlayandır, Həlimdir**" ("əl-Bəqərə", 225).

[5] İbn Əbu Hatim, 10703.

Uca Allah buyurur: "**Əgər sən "Siz öləndən sonra diriləcəksiniz!" – desən, kafir olanlar "Bu, açıq-aydın bir sehrdir!" – deyərlər**". Uca Allah buyurur ki, ey Muhəmməd, sən bu müşriklərə Allahın onları ilk dəfə yaratdığı kimi öldükdən sonra dirildəcəyini xəbər versən, sənə belə cavab verəcəklər. Halbuki onlar göyləri və yeri yaradanın Allah olduğunu bilirlər. Uca Allah bu xüsusu bu ayələrdə bildirir: "**Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə "Allah!" – deyərlər**" ("əz-Zuxruf", 87); "**Əgər sən onlardan "Göyləri və yeri yaradan, Günəşi və Ayı ram edən kimdir?" – deyə soruşsan, onlar mütləq "Allahdır!" – deyəcəklər**" ("əl-Ənkəbut", 61). Buna baxmayaraq, onlar Qiyamət günü yenidən diriləcəklərini və Allahın hüzuruna qayıdaclarını inkar edirlər. Halbuki Qiyamət günü insanları diriltmək ilk dəfə yaratmaqdan daha asandır. Uca Allah başqa ayələrdə belə buyurur: "**Məxluqatı ilk dəfə yoxdan yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır**" ("ər-Rum", 27); "**Sizi yaratmaq və diriltmək, ancaq bir adamı yaratmaq və diriltmək kimidir**" ("Loğman", 28).

Uca Allah buyurur: "**...kafir olanlar "Bu, açıq-aydın bir sehrdir!" – deyərlər**", yəni onlar küfr və inadkarlıqdan "Öldükdən sonra dirilmənin baş verəcəyinə dair dediyini biz təsdiq etmirik. Bunu ancaq sehr etdiyin kəslər təsdiq edərlər. Onlara sehr etdiyin üçün dediyin sözlərdə sənə tabe olarlar".

Uca Allah buyurur: "**Əgər onlara gələcək əzabı müəyyən vaxtadək gecikdirsək, "Onu saxlayan nədir?" – deyəcəklər**". Uca Allah bu ayədə buyurur ki, əgər bu müşriklərin əzabını və cəzalandırılmasını müəyyən bir vaxtadək, sayılı bir müddətədək təxirə salıb bu əzabla onları təhdid etsək, onlar bu əzabı inkar edib onun gəlməsinə tələsərək, "**Onu saxlayan nədir?**" – deyəcəklər. Yəni bu əzabı gecikdirən nədir? Çünki onların təbiətləri və xislətləri inkar və şübhəyə alışmışdır. Onların inkar və şübhədən qaçacaq bir yerləri yoxdur.

Quran və hədislərdə الأُمَّةُ [əl-ummə] "ümmət" sözü müxtəlif mənalarda işlənir. Bəzən Uca Allahın bu ayəsində olduğu kimi, "müddət" və "vaxt" nəzərdə tutulur: "**...müəyyən vaxtadək gecikdirsək...**". Həmçinin Yusuf عليه السلام barədə: "**O iki nəfərdən edamdan qurtulan, uzun müddətdən sonra xatırlayaraq dedi:...**" ("Yusuf", 45) buyurmuşdur. Bəzən bu söz bu ayədə olduğu kimi, tabe olunan "rəhbər" və "imam" mənasında işlənir:

"**Həqiqətən, İbrahim Allaha müti, hənif bir rəhbər idi. O, müşriklərdən deyildi**" ("ən-Nəhl", 120). Bəzən isə "din" və "yol" mənasında işlənir. Necə ki Uca Allah müşriklərin belə dediklərini xəbər verir: "**Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!**" ("əz-Zuxruf", 23). Bu söz "camaat", "toplum", "ümmət" və "bir dəstə adam" mənasında da işlənir. Bu ayələrdə olduğu kimi "**O (Musa), Mədyən sulağına gəlib çatanda quyunun yanında heyvanlarına su verən adamlar gördü**" ("əl-Qəsəs", 23); "**Biz hər ümmətə "Allaha ibadət edin, tağutdan uzaq olun" – deyə elçi göndərdik**" ("ən-Nəhl", 36); "**Hər ümmətin bir elçisi vardır. Elçiləri gəldikdə onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz**" ("Yunus", 47). Bu ayədə "ümmət" dedikdə, dəvət ümməti[1], yəni peyğəmbər göndərilmiş həm mömin, həm də kafirlərdən ibarət insanlar nəzərdə tutulur. Muslimin "Səhih" əsərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Canım Əlində olan Allaha and olsun ki, bu ümmətdən hər hansı bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra da mənimlə göndəriləne iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəm əhlindən olar".[2] Peyğəmbərin ﷺ dəvətini qəbul etmiş ümmətə gəlincə, onlar göndərilmiş elçiləri təsdiq edən kəslərdir. Necə ki Uca Allah buyurur: "**Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz...**" ("Ali-İmran", 110). "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbərin ﷺ (Qiyamət günü Kövsər hovuzunun başında mələklərin hovuzdan uzaqlaşdırdığı kəslər barədə mələklərə) belə deyəcəyi bildirilir: "Mən "Ümmətim, ümmətim!" – deyəcəyəm".[3]

Uca Allahın bu ayələrdə buyurduğu kimi, "ümmət" sözü "firqə", "qəbilə", "toplum" və "tayfa" mənasında da işlənir: "**Musanın qövmündən elə bir camaat var ki, haqq ilə insanları doğru yola yönəldir və onun sayəsində ədalətlə hökm verirlər**" ("əl-Əraf", 159); "**Onların hamısı eyni deyil. Kitab əhli içərisində dinində sabitqədəm bir toplum vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar**" ("Ali-İmran", 113).

[1] Ümmət iki qisim olur: "dəvət ümməti" və "icabət ümməti". "Dəvət ümməti" dedikdə peyğəmbər göndərilmiş bütün insanlar nəzərdə tutulur, istər bu peyğəmbərə iman gətirmiş, istər gətirməmiş olsunlar. "İcabət ümməti" dedikdə isə peyğəmbərin dəvətini qəbul edən möminlər nəzərdə tutulur.

[2] Muslim, 153/240, 218, 403.

[3] əl-Buxari, 6956, 7510.

﴿وَلَئِنۡ أَذَقۡنَا ٱلۡإِنسَٰنَ مِنَّا رَحۡمَةٗ ثُمَّ نَزَعۡنَٰهَا مِنۡهُ إِنَّهُۥ لَيَـُٔوسٞ كَفُورٞ ٩ وَلَئِنۡ أَذَقۡنَٰهُ نَعۡمَآءَ بَعۡدَ
ضَرَّآءَ مَسَّتۡهُ لَيَقُولَنَّ ذَهَبَ ٱلسَّيِّـَٔاتُ عَنِّيٓۚ إِنَّهُۥ لَفَرِحٞ فَخُورٌ ١٠ إِلَّا ٱلَّذِينَ صَبَرُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ
أُوْلَٰٓئِكَ لَهُم مَّغۡفِرَةٞ وَأَجۡرٞ كَبِيرٞ ١١﴾

**9. Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar.**

**10. Əgər başına gələn müsibətdən sonra ona firavanlıq daddırsaq, "Bəlalar məndən sovuşdu!" – deyər və sevinib lovğalıq edər.**

**11. Səbir edib yaxşı işlər görənlər istisnadır. Məhz onlar üçün bağışlanma və böyük bir mükafat vardır.**

Uca Allah bu ayələrdə insan və onda olan pis xislətlər barədə xəbər verir. Yalnız Allahın rəhm etdiyi mömin qulları istisnadır. Belə ki, insana verilən nemətdən sonra ona bir çətinlik üz versə, gələcəyə ümidini kəsər, keçmiş halına görə isə nankor olar və verilmiş neməti inkar edər. Sanki o bundan əvvəl heç bir xeyir görməmişdi və bundan sonra da bu vəziyyətdən çıxmağa ümidi yoxdur. Həmçinin bir müsibətdən sonra ona bir nemət gəlsə, "**Bəlalar məndən sovuşdu!" – deyər**", yəni "Bundan sonra mənə üz verəcək heç bir müsibət və pislik qalmadı" – deyər "**və sevinib lovğalıq edər**", yəni əlində olanla öyünər və başqalarına qarşı lovğalıq edər.

Uca Allah buyurur: "**Səbir edib**", yəni çətinliklərə və müsibətlərə səbir edib "**yaxşı işlər görənlər istisnadır**", yəni bolluq və əmin-amanlıq dönəmində yaxşı işlər görənlər istisnadır. "**Məhz onlar üçün bağışlanma**", yəni başlarına gələn müsibətlərə qarşılıq bağışlanma "**və böyük bir mükafat vardır**", yəni bolluq dönəmində etdikləri yaxşı əməllərə qarşılıq büyük savab vardır. Bir hədisdə Peyğəmbər ﷺ belə buyurur: "Canım Əlində olan Allaha and olsun ki, müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta ayağına batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah həmin müsəlmanın günahlarını bağışlamasın".[1] Başqa bir hədisdə belə buyurur: "Canım Əlində olana (Allaha) and olsun ki, Uca Allahın mömin üçün hökm etdiyi bütün işlər onun üçün xeyirlidir. Ona sevindirici bir şey gəldikdə şükür edər və bu onun üçün xeyir olar. Başına xoşagəlməz bir iş gəldikdə isə səbir edər və bu da onun üçün xeyir olar. Bu xüsusiyyət yalnız möminə

[1] Muslim, 2573-2574/52, 4668, 6731.

aiddir".[1] Uca Allah başqa ayələrdə belə buyurur: "**And olsun zamana! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı tövsiyə edənlər və bir-birinə səbirli olmağı tövsiyə edənlərdən başqa**" ("əl-Əsr"); "**Həqiqətən, insan kəmhövsələ yaradılmışdır. Ona bir pislik toxunduqda özündən çıxır, bir xeyir nəsib olduqda isə xəsislik edir. Namaz qılanlar istisnadır**" ("əl-Məaric", 19-22).

﴿فَلَعَلَّكَ تَارِكُۢ بَعۡضَ مَا يُوحَىٰٓ إِلَيۡكَ وَضَآئِقُۢ بِهِۦ صَدۡرُكَ أَن يَقُولُواْ لَوۡلَآ أُنزِلَ عَلَيۡهِ كَنزٌ أَوۡ جَآءَ مَعَهُۥ مَلَكٌۚ إِنَّمَآ
أَنتَ نَذِيرٞۚ وَٱللَّهُ عَلَىٰ كُلِّ شَيۡءٖ وَكِيلٌ ١٢ أَمۡ يَقُولُونَ ٱفۡتَرَىٰهُۖ قُلۡ فَأۡتُواْ بِعَشۡرِ سُوَرٖ مِّثۡلِهِۦ مُفۡتَرَيَٰتٖ وَٱدۡعُواْ مَنِ
ٱسۡتَطَعۡتُم مِّن دُونِ ٱللَّهِ إِن كُنتُمۡ صَٰدِقِينَ ١٣ فَإِلَّمۡ يَسۡتَجِيبُواْ لَكُمۡ فَٱعۡلَمُوٓاْ أَنَّمَآ أُنزِلَ بِعِلۡمِ ٱللَّهِ وَأَن لَّآ
إِلَٰهَ إِلَّا هُوَۖ فَهَلۡ أَنتُم مُّسۡلِمُونَ ١٤﴾

**12. Onların "Nə üçün ona bir xəzinə endirilməyib, yaxud onunla bir mələk gəlməyib?" – demələri üzündən, bəlkə də sənə gələn vəhyin bir hissəsini (təbliğ etməyi) tərk edəcəksən və buna görə köksün daralacaq. Sən ancaq qorxudansan. Allah isə hər şeyi Qoruyandır.**

**13. Yoxsa onlar "Muhəmməd onu özündən uydurdu?!" – deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər uydurulmuş on surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!"**

**14. Əgər sizə cavab verməsələr, bilin ki, o ancaq Allahın elmi ilə nazil olmuşdur və Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Siz müsəlman olacaqsınızmı?**

Uca Allah bu ayələrdə müşriklərin inadkarlıq edib dedikləri sözlərə görə Peyğəmbərə ﷺ təsəlli verir. Uca Allah bir ayədə onların Peyğəmbərə ﷺ belə dediklərini xəbər verir: "**Onlar dedilər: "Bu necə elçidir ki, yemək yeyir, bazarları gəzib dolaşır? Nə üçün ona özü ilə birlikdə xəbərdarlıq edən bir mələk göndərilmədi? Niyə ona bir xəzinə verilmədi? Niyə meyvəsindən yeyib dolanmasından ötrü bir bağı olmadı?" Zalımlar "Siz ancaq sehrlənmiş bir adamın ardınca gedirsiniz" – dedilər**" ("əl-Furqan", 7-8). Uca Allah bu ayələrdə Öz Elçisinə ﷺ müşriklərin dedikləri bu sözlərə görə köksünü daraltmamağı, kədərlənməməyi və gecə-gündüz Allahın yoluna dəvət etməkdən yayınmamağı əmr edir. Başqa bir ayədə belə buyurur: "**Biz onların dediklərindən sənin qəlbinin daraldığını bilirik. Sən həmd-səna ilə Rəbbini təriflə və səcdə edənlərdən ol!**

[1] Muslim, 2299/64, 5318, 7692. (oxşar mətnlə).

**Sənə ölüm gələnədək Rəbbinə ibadət et**" ("əl-Hicr", 97-99). Burada isə belə buyurur: "**Onların "Nə üçün ona bir xəzinə endirilməyib, yaxud onunla bir mələk gəlməyib?" – demələri üzündən, bəlkə də sənə gələn vəhyin bir hissəsini (təbliğ etməyi) tərk edəcəksən və buna görə köksün daralacaq**", yəni bu sözləri dediklərinə görə qəlbin sıxılar. Bil ki, sən yalnız bir qorxudansan. Səndən əvvəlki peyğəmbər qardaşların sənə bir nümunədir. Onları da yalançı saymış və onlara da əziyyət vermişlər. Lakin onlar Allahın köməyi onlara gələnədək səbir etmişlər.

Sonra Uca Allah Quranın ecazkarlığını bəyan edib heç kimin heç vaxt onun bənzərini, onun surələri kimi on surəni, hətta bir surəsini belə gətirməyə gücü çatmayacağını bildirir. Çünki Rəbbin Kəlamı məxluqların sözünə bənzəməz. Necə ki Onun sifətləri yaradılanların sifətlərinə bənzəməz, Onun Zatına da heç bir şey bənzəməz. O ucadır, müqəddəsdir, pakdır. Ondan başqa ibadətə layiq məbud və Ondan başqa rəbb yoxdur.

Sonra Uca Allah buyurur: "**Əgər sizə cavab verməsələr, bilin ki, o ancaq Allahın elmi ilə nazil olmuşdur**", yəni əgər onların sizin dəvət etdiyinizin əksini gətirməyə gücləri çatmasa və dəvətinizin qarşısında dayana bilməsələr, bilin ki, onlar acizdirlər və bu Kəlam Allah dərgahından nazil olmuşdur. O özündə Allahın elmini, əmr və qadağalarını ehtiva edir. "**Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Siz müsəlman olacaqsınızmı?**"

﴿مَن كَانَ يُرِيدُ ٱلْحَيَوٰةَ ٱلدُّنْيَا وَزِينَتَهَا نُوَفِّ إِلَيْهِمْ أَعْمَٰلَهُمْ فِيهَا وَهُمْ فِيهَا لَا يُبْخَسُونَ ﴿١٥﴾ أُو۟لَٰٓئِكَ ٱلَّذِينَ
لَيْسَ لَهُمْ فِى ٱلْءَاخِرَةِ إِلَّا ٱلنَّارُ ۖ وَحَبِطَ مَا صَنَعُوا۟ فِيهَا وَبَٰطِلٌ مَّا كَانُوا۟ يَعْمَلُونَ ﴿١٦﴾﴾

**15. Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər.**

**16. Onlar, axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar.**

İbn Abbas ﵄ bu ayə barədə belə demişdir: "Həqiqətən, riyakarlar etdikləri yaxşı əməllərin qarşılığını bu dünyada alacaqlar. Onlara xurma çəyirdəyindəki oyuq qədər haqsızlıq edilməz. Uca Allah buyurur ki, kim oruc, namaz və ya gecə namazı kimi saleh əməllər görər və bu əməlləri yalnız dünya malı əldə etmək üçün edərsə, istədiyi mükafatı, qarşılığı ona bu dünyada tam olaraq verərəm. Beləcə, dünya malını əldə etmək

üçün etdiyi əməli boşa çıxar və o, axirətdə ziyana uğrayanlardan olar".[1] Mucahid, əd-Dahhək və bir çox alimdən də belə rəvayət edilmişdir. Qatədə ﷺ demişdir: "Kimin dərd-qəmi, fikri-xəyalı, arzu-istəyi dünya olarsa, Uca Allah onun etdiyi yaxşılıqların qarşılığını dünyada verər. Sonra əvəzi veriləcək bir yaxşı əməli olmadan axirətə köçər. Möminə gəlincə, o, yaxşı əməllərinə görə həm dünyada mükafatlandırılar, həm də axirətdə savaba nail olar".[2] Uca Allah başqa ayələrdə belə buyurur: "**Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və Allahın rəhmətindən qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar. Biz hamıya – onlara da, bunlara da Rəbbinin nemətindən veririk. Rəbbinin neməti heç kəsə qadağan deyil. Bax gör, dünyada onların birini digərindən necə üstün etdik. Axirətdə isə daha böyük dərəcələr və daha böyük üstünlüklər var**" ("əl-İsra", 18-21). "**Biz axirət savabını istəyənin savabını artırar, dünya qazancını istəyənə də ondan verərik. Lakin axirətdə onun heç bir payı olmaz**" ("əş-Şura", 20).

﴿أَفَمَن كَانَ عَلَىٰ بَيِّنَةٍ مِّن رَّبِّهِۦ وَيَتْلُوهُ شَاهِدٌ مِّنْهُ وَمِن قَبْلِهِۦ كِتَٰبُ مُوسَىٰٓ إِمَامًا وَرَحْمَةً ۚ أُو۟لَٰٓئِكَ يُؤْمِنُونَ بِهِۦ ۚ وَمَن يَكْفُرْ بِهِۦ مِنَ ٱلْأَحْزَابِ فَٱلنَّارُ مَوْعِدُهُۥ ۚ فَلَا تَكُ فِى مِرْيَةٍ مِّنْهُ ۚ إِنَّهُ ٱلْحَقُّ مِن رَّبِّكَ وَلَٰكِنَّ أَكْثَرَ ٱلنَّاسِ لَا يُؤْمِنُونَ ﴿١٧﴾﴾

**17. Məgər Rəbbindən açıq-aydın bir dəlilə istinad edən, ardınca Ondan bir şahid gələn, ondan da əvvəl rəhbər və mərhəmət olmuş Musanın Kitabını təsdiqlədiyi kimsə kafirə tay ola bilərmi? Məhz onlar (möminlər) Qurana iman gətirmişlər. Onu inkar edən firqələrin vəd olunduğu yer oddur. Sənin isə Qurana heç bir şübhən olmasın. Çünki bu, sənin Rəbbindən gələn haqdır, lakin insanların çoxu buna inanmır.**

Uca Allah bu ayədə möminlərin halını xəbər verir. Onlar Allahın xəlq etdiyi fitrət üzərində olub Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığını etiraf edirlər. Uca Allah bu xüsusda belə buyurur: "**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu**

[1] ət-Təbəri, 18012, 18092.
[2] ət-Təbəri, 18019, 18099.

**bilmir**" ("ər-Rum", 30). "Səhih" əsərində Əbu Hureyradan ﷺ rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Hər bir körpə fitrəti üzərində (tövhidə meyilli olaraq) doğulur. Sonra ata-anası onu ya yəhudi, ya xristian, ya da məcusi (oda sitayiş edən) edir. Beləcə, heyvanlar da gözəl biçimdə yaranır. Heç sən onların arasında qulağı kəsik bir heyvan görürsənmi?"[1]

Uca Allah buyurur: "**...ardınca Ondan bir şahid gələn...**", yəni ona Allah tərəfindən bir şahid gəlmişdir. Bu da Allahın peyğəmbərlərə vəhy etdiyi şəriətdir. Bu şəriət Muhəmmədə vəhy olunan şəriətlə tamamlanmış, əzəmətləndirilmiş və son olaraq ona xitam verilmişdir. Ona və bütün peyğəmbərlərə Allahın salavatı və salamı olsun! İbn Abbas, Mucahid, əs-Suddi və bir çoxları Uca Allahın "**...ardınca Ondan bir şahid gələn...**" ayəsini belə təfsir etmişlər: "Həqiqətən, bu şahid Cəbraildir". Əli, əl-Həsən və Qatədə ﷺ demişlər: "Bu şahid Muhəmməddir". Hər iki təfsir bir-birinə yaxındır, çünki onların hər ikisi Allahın dinini çatdırmışlar. Cəbrail Muhəmmədə ﷺ dini çatdırmış, Muhəmməd ﷺ isə onu ümmətinə təbliğ etmişdir.

Sonra Uca Allah buyurur: "**...ondan da əvvəl rəhbər və mərhəmət olmuş Musanın Kitabını təsdiqlədiyi kimsə kafirə tay ola bilərmi?**" Yəni Qurandan əvvəl Musanın Kitabı vardır və o, Tövratdır. "**...rəhbər və mərhəmət olmuş...**", yəni Uca Allah Tövratı o ümmətə rəhbər, örnək və Öz dərgahından mərhəmət olaraq nazil etmişdir. Kim ona haqqı ilə iman gətirərsə, bu iman onu Qurana iman gətirməyə yönəldər. Bu səbəbdən Uca Allah "**Məhz onlar Qurana iman gətirmişlər**" – deyə buyurur.

Daha sonra Uca Allah Quranı və ya onun bir qismini inkar edənləri təhdid edərək belə buyurur: "**Onu inkar edən firqələrin vəd olunduğu yer oddur**", yəni istər müşrik, istər Kitab əhli, istərsə də başqaları olsun, rənglərindən, görünüşlərindən və cinsindən asılı olmayaraq Adəm övladlarından kimə Quran çatarsa və onu inkar edərsə düşəcəyi yer od olar. Uca Allah başqa ayələrdə belə buyurur: "**Bu Quran mənə, onunla sizi və onun yetişəcəyi hər kəsi xəbərdar etməyim üçün vəhy olundu**" ("əl-Ənam", 19); "**De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm**" ("əl-Əraf", 158). Bu ayədə isə belə buyurur: "**Onu inkar edən firqələrin vəd olunduğu yer oddur**". Muslimin "Səhih" əsərində Əbu Musa əl-Əşaridən ﷺ Peyğəmbərin ﷺ belə dediyi rəvayət edilir: "Canım Əlində olan Allaha and olsun ki, bu ümmətdən hər hansı bir yəhudi və ya xristian mənim barəmdə eşidib, sonra mənə iman gətirmədiyi halda ölərsə, mütləq Cəhənnəmə düşər".[2]

---

[1] əl-Buxari, 1296, 1385; Muslim, 2658/22, 4803, 6926.

[2] Muslim, 153/240, 218, 403.

Uca Allah buyurur: "**Sənin isə Qurana heç bir şübhən olmasın. Çünki bu, sənin Rəbbindən gələn haqdır**", yəni Quran Allah dərgahından gələn bir haqdır. Onda heç bir şəkk-şübhə yoxdur. Uca Allah başqa ayələrdə belə buyurur: "**Əlif. Ləm. Mim. Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi olan Allah nazil etmişdir**" ("əs-Səcdə", 1-2); "**Əlif. Ləm. Mim. Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır**" ("əl-Bəqərə", 1-2).

Uca Allah buyurur: "**...lakin insanların çoxu buna inanmır**". Başqa ayələrdə isə belə buyurur: "**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir**" ("Yusuf", 103); "**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar**" ("əl-Ənam", 116); "**İblisin onlar barəsindəki zənni doğru çıxdı. Bir dəstə mömindən başqa, qalanları ona tabe oldular**" ("Səba", 20).

﴿وَمَنْ أَظْلَمُ مِمَّنِ ٱفْتَرَىٰ عَلَى ٱللَّهِ كَذِبًا ۚ أُو۟لَـٰٓئِكَ يُعْرَضُونَ عَلَىٰ رَبِّهِمْ وَيَقُولُ ٱلْأَشْهَـٰدُ هَـٰٓؤُلَآءِ
ٱلَّذِينَ كَذَبُوا۟ عَلَىٰ رَبِّهِمْ ۚ أَلَا لَعْنَةُ ٱللَّهِ عَلَى ٱلظَّـٰلِمِينَ ﴿١٨﴾ ٱلَّذِينَ يَصُدُّونَ عَن سَبِيلِ ٱللَّهِ وَيَبْغُونَهَا عِوَجًا
وَهُم بِٱلْـَٔاخِرَةِ هُمْ كَـٰفِرُونَ ﴿١٩﴾ أُو۟لَـٰٓئِكَ لَمْ يَكُونُوا۟ مُعْجِزِينَ فِى ٱلْأَرْضِ وَمَا كَانَ لَهُم مِّن دُونِ ٱللَّهِ مِنْ
أَوْلِيَآءَ ۘ يُضَـٰعَفُ لَهُمُ ٱلْعَذَابُ ۚ مَا كَانُوا۟ يَسْتَطِيعُونَ ٱلسَّمْعَ وَمَا كَانُوا۟ يُبْصِرُونَ ﴿٢٠﴾ أُو۟لَـٰٓئِكَ ٱلَّذِينَ
خَسِرُوٓا۟ أَنفُسَهُمْ وَضَلَّ عَنْهُم مَّا كَانُوا۟ يَفْتَرُونَ ﴿٢١﴾ لَا جَرَمَ أَنَّهُمْ فِى ٱلْـَٔاخِرَةِ هُمُ ٱلْأَخْسَرُونَ ﴿٢٢﴾﴾

**18. Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər "Bunlar Rəbbinə iftira yaxanlardır" – deyəcəklər. Allahın lənəti olsun zalımlara!**

**19. O kəslər ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axirəti inkar edirlər.**

**20. Onlar yer üzündə Allahdan yaxa qurtara bilməyəcəklər. Onların Allahdan başqa himayədarları da yoxdur. Onların əzabı qat-qat artırılar. Çünki onlar haqqı eşidə bilmirdilər və görmürdülər.**

**21. Onlar özlərini ziyana uğradarlar. Uydurduqları bütlər isə onlardan qeybə çəkilib gedər.**

**22. Şübhə yoxdur ki, axirətdə ən çox ziyana uğrayanlar da onlardır.**

Uca Allah bu ayələrdə Ona qarşı yalan uyduranların Axirət yurdunda mələklərin, peyğəmbərlərin, insanların və cinlərin qarşısında rüsvay olacaqlarını bəyan edir. İmam Əhməd ﷺ Safvən ibn Muhrizin belə dediyini rəvayət etmişdir: “Bir dəfə İbn Ömərin əlindən tutmuşdum. Birdən onun qarşısına bir kişi çıxdı və ondan “Peyğəmbərdən ﷺ Qiyamət günü Allahla qulun gizli danışması barədə nə eşitmisən?” – deyə soruşdu. İbn Ömər belə dedi: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Allah mömini Özünə tərəf yaxınlaşdıracaq, Özü onu əhatə edib günahlarını insanlardan gizlədəcək və günahlarını ona etiraf etdirərək “Filan günahı etdiyini bilirsənmi? Filan günahı etdiyini bilirsənmi? Filan günahı etdiyini bilirsənmi?” – deyə soruşacaq. Mömin “Bəli, ey Rəbbim!” – deyə cavab verəcək. Nəhayət, Allah ona günahlarını etiraf etdirdikdə və o öz-özlüyündə həlak olduğunu güman etdikdə Allah buyuracaq: “Dünyada sənin günahlarını ört-basdır etdim. Bu gün isə sənin günahlarını bağışlayıram”. Sonra ona içində yaxşı əməlləri yazılmış bir kitab veriləcək. Kafirə və münafiqlərə gəldikdə isə onların əməllərinə şahid olanlar “**Bunlar Rəbbinə iftira yaxanlardır” – deyəcəklər. Allahın lənəti olsun zalımlara!**” Hədisi əl-Buxari və Muslim ﷺ də rəvayət etmişlər.[1]

Uca Allah buyurur: “**O kəslər ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır**”, yəni o kəslər ki, insanları haqqa tabe olmaqdan, Allaha aparan doğru yoldan yayındırır, onları Cənnətdən uzaqlaşdırır, “**onu əyri göstərməyə çalışır**”, yəni onların doğru yolu deyil, əyri yolu tutmalarını istəyir “**və Axirəti inkar edirlər**”, yəni Axirətin olacağını inkar edirlər, onu yalan sayırlar. “**Onlar yer üzündə Allahdan yaxa qurtara bilməyəcəklər. Onların Allahdan başqa himayədarları da yoxdur**”, yəni əksinə, onlar Allahın mütləq hakimiyyəti, qələbəsi, hökmranlığı və səltənəti altındadırlar. O, Axirətdən əvvəl dünyada onlardan intiqam almağa qadirdir. Lakin “**Allah, sadəcə, onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır**” (“İbrahim”, 42). əl-Buxari və Muslimin “Səhih” əsərlərində rəvayət olunan bir hədisdə belə deyilir: “Həqiqətən, Allah zalıma müəyyən vaxtadək möhlət verər. Nəhayət, onu yaxaladıqdan sonra heç vaxt onu buraxmaz”.[2] Bu səbəbdən Uca Allah ayədə “**Onların əzabı qat-qat artırılar. Çünki onlar haqqı eşidə bilmirdilər və görmürdülər**” – deyə buyurur. Yəni onlara qat-qat artıq əzab verilər. Çünki Uca Allah onlara qulaqlar, gözlər və qəlblər vermişdir. Amma qulaqları, gözləri və qəlbləri onlara heç bir fayda verməmiş, əksinə, onlar haqqı eşitməyə qarşı kar, haqqı görüb ona tabe olmağa qarşı kor

[1] Əhməd, 5436; əl-Buxari, 2261, 2441, 4685; Muslim, 1768/64, 4972, 7191.
[2] əl-Buxari, 4318, 4686; Muslim, 2583/61, 4680, 6746.

olmuşlar. Başqa bir ayədə Uca Allah onların Cəhənnəmə girərkən belə deyəcəklərini bildirir: "**Əgər biz dinləsəydik və ya anlasaydıq, alovlu od sakinlərinin içində olmazdıq!**" ("əl-Mulk", 10). Başqa bir ayədə isə belə buyurur: "**Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq**" ("ən-Nəhl", 88). Onlar tabe olmadıqları hər bir əmrə və qarşı çıxdıqları hər bir qadağaya görə əzaba düçar olacaqlar. Üstün rəyə görə onlar Axirət yurdunda şəriətin buyurduğu əmr və qadağalardan sorumludurlar.

Uca Allah buyurur: "**Onlar özlərini ziyana uğradarlar. Uydurduqları bütlər isə onlardan qeybə çəkilib gedər**", yəni onlar, həqiqətən, özlərinə zərər verərlər, çünki özlərini yandırıcı, çox qızmar oda salarlar. Onlara orada əzab verilər və bu əzab bir göz qırpımı belə yüngülləşdirilməz. Uca Allah başqa bir ayədə belə buyurur: "**Onun alovu azaldıqca onlar üçün alovu artıracağıq**" ("əl-İsra", 97). "**Uydurduqları bütlər isə onlardan qeybə çəkilib gedər**", yəni Allahı qoyub ibadət etmək üçün uydurduqları bütlər onlardan uzaqlaşıb gedər, onlara heç bir fayda verməz, əksinə, onları böyük bir zərərə uğradar. Uca Allah başqa ayələrdə belə buyurur: "**İnsanlar bir yerə toplanacaqları zaman bütlər onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər**" ("əl-Əhqaf", 6); "**Müşriklər Allahdan başqa məbudlar qəbul etdilər ki, onlara kömək olsunlar. Xeyr! Qiyamət günü o məbudlar onların ibadətini inkar edəcək və onların əleyhinə çıxacaqlar**" ("Məryəm", 82-83). İbrahim عليه السلام də qövmünə belə demişdi: "**Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allahı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi inkar edib lənətləyəcəksiniz. Gedəcəyiniz yer də Oddur. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz**" ("əl-Ənkəbut", 25). Uca Allah başqa bir ayədə belə buyurur: "**Tabe olunmuş başçılar tabe olanlardan uzaqlaşacaqları zaman, hamısı əzabı görəcək və aralarındakı əlaqələr kəsiləcəkdir**" ("əl-Bəqərə", 166). Bu və digər ayələr onların Qiyamət günü ziyana uğrayacaqlarına və həlak olacaqlarına dəlalət edir. Bu səbəbdən Uca Allah burada belə buyurur: "**Şübhə yoxdur ki, axirətdə ən çox ziyana uğrayanlar da onlardır**". Uca Allah onların hallarını bəyan edərək Axirət yurdunda ən çox ziyana uğrayan insanlar olacaqlarını bildirir. Çünki onlar Cənnət nemətlərini qaynar suya, irigözlü huriləri qanlı irindən ibarət yeməyə, hündür qəsrləri  Cəhənnəmin alçaq təbəqələrinə, Mərhəmətli Allaha yaxın olub Onu görməyi isə qarşısında hər şeyin baş əydiyi Allahın qəzəbinə və əzabına dəyişmişlər. Heç şübhə yoxdur ki, Axirətdə ən çox zərər çəkənlər və ziyana uğrayanlar da onlardır.

﴿إِنَّ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ وَأَخۡبَتُوٓاْ إِلَىٰ رَبِّهِمۡ أُوْلَٰٓئِكَ أَصۡحَٰبُ ٱلۡجَنَّةِۖ هُمۡ فِيهَا خَٰلِدُونَ ٢٣ * مَثَلُ ٱلۡفَرِيقَيۡنِ كَٱلۡأَعۡمَىٰ وَٱلۡأَصَمِّ وَٱلۡبَصِيرِ وَٱلسَّمِيعِۚ هَلۡ يَسۡتَوِيَانِ مَثَلًاۚ أَفَلَا تَذَكَّرُونَ ٢٤﴾

**23. Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar.**

**24. Bu iki zümrənin məsəli korla karın, görənlə eşidənin məsəlinə bənzəyir. Onların məsəli eyni ola bilərmi? Məgər düşünüb ibrət almırsınız?**

Uca Allah əvvəlki ayələrdə bədbəxt insanları qeyd etdikdən sonra bu ayələrdə iman gətirib yaxşı işlər görən xoşbəxt insanları qeyd edir. Onlar qəlbən iman gətirib, həm dildə, həm də əməldə yaxşı işlər görənlərdir. Onlar bu əməlləri sayəsində Cənnətlərə varis olmuşlar. Bu Cənnətlərdə onları yüksək mərtəbədə otaqlar, səf-səf düzülmüş taxtlar, gözəl nemətlər, növbənöv meyvələr, göyləri və yeri Yaradana baxmaq şərəfinə nail olmaq gözləyir. Onlar orada əbədi qalacaqlar, ölməyəcəklər, qocalmayacaqlar, xəstələnməyəcəklər, sidik və ya nəcis ifraz etməyəcəklər və tüpürməyəcəklər. Onların burunlarından bəlğəm gəlməz, yeyib-içdikləri şeylər müşk qoxusu verən tər və gəyirməklə xaric olar.

Sonra Uca Allah kafir və möminlərə məsəl çəkərək buyurur: "**Bu iki zümrənin məsəli korla karın, görənlə eşidənin məsəlinə bənzəyir**", yəni Uca Allahın birinci bədbəxt olaraq vəsf etdiyi kəslərlə ikinci xoşbəxt olaraq vəsf etdiyi möminlərin məsəli belədir; birincilər kor və kar, ikincilər isə görən və eşidən kəslər kimidirlər. Kafir dünyada haqqa qarşı kordur. Axirətdə isə xeyirə yol tapa bilməz və onu anlamaz. Habelə dəlilləri eşitməyə qarşı kardır, ona fayda verəcək şeyləri eşitməz. "**Əgər Allah onlarda bir xeyir olduğunu bilsəydi, əlbəttə, onlara eşitdirərdi. Əgər onlara eşitdirsəydi belə, yenə də üz çevirərək dönərdilər**" ("əl-Ənfal", 23). Möminə gəlincə, o, ağıllı, anlayışlı, zəkalı və haqqı görəndir. Haqla batili bir-birindən ayıra bilir, xeyirə tabe olub şəri tərk edir, dəlilləri eşidir. Dəlillə şübhəni bir-birindən ayıra bilir və batilə uymur. Heç bununla digəri bir-birinə tay ola bilərmi?

Uca Allah buyurur: "**Məgər düşünüb ibrət almırsınız?**" Yəni məgər ibrət götürüb bunları bir-birindən ayıra bilmirsinizmi? Uca Allah başqa ayələrdə belə buyurur: "**Cəhənnəm əhli ilə Cənnət əhli eyni deyil. Məhz Cənnət əhli uğur qazananlardır**" ("əl-Həşr", 20); "**Kor ilə görən eyni deyil, zülmətlərlə nur da, kölgə ilə bürkü də eyni deyil. Dirilərlə**

**ölülər də eyni deyillər. Şübhəsiz ki, Allah istədiyinə haqqı eşitdirir. Sən isə qəbirlərdə olanlara eşitdirə bilməzsən. Sən ancaq qorxudub xəbərdar edənsən. Həqiqətən, Biz səni haqla müjdə verən və xəbərdar edən olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən bir peyğəmbər gəlmiş olmasın**" ("Fatir", 19-24).

﴿وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَىٰ قَوْمِهِۦٓ إِنِّي لَكُمْ نَذِيرٌ مُّبِينٌ ﴿٢٥﴾ أَن لَّا تَعْبُدُوٓاْ إِلَّا ٱللَّهَۖ إِنِّيٓ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ
أَلِيمٍ ﴿٢٦﴾ فَقَالَ ٱلْمَلَأُ ٱلَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِۦ مَا نَرَىٰكَ إِلَّا بَشَرًا مِّثْلَنَا وَمَا نَرَىٰكَ ٱتَّبَعَكَ إِلَّا ٱلَّذِينَ هُمْ أَرَاذِلُنَا
بَادِيَ ٱلرَّأْيِ وَمَا نَرَىٰ لَكُمْ عَلَيْنَا مِن فَضْلٍۭ بَلْ نَظُنُّكُمْ كَٰذِبِينَ ﴿٢٧﴾﴾

**25. Biz Nuhu öz xalqına elçi göndərdik. O dedi: "Həqiqətən, mən sizin üçün açıq-aydın xəbərdar edən bir elçiyəm.**

**26. Allahdan başqasına ibadət etməyin! Mən sizi yaxalayacaq məşəqqət gününün əzabından qorxuram".**

**27. Onun qövmünün kafir zadəganları dedilər: "Biz səni özümüz kimi, sadəcə, bir insan hesab edir və içimizdən ancaq ən rəzil adamların kor-koranə sənə qoşulduğunu görürük. Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik".**

Uca Allah bu ayələrdə Nuh ﷺ barədə xəbər verir. O, Uca Allahın yer üzündə bütlərə ibadət edən müşriklərə göndərdiyi ilk peyğəmbərdir. O öz qövmünə belə demişdir: "**Həqiqətən, mən sizin üçün açıq-aydın xəbərdar edən bir elçiyəm**", yəni əgər Allahdan qeyrisinə ibadət etsəniz, sizi Allahın əzabının gələcəyi ilə açıq-aydın xəbərdar edirəm. "**Allahdan başqasına ibadət etməyin! Mən sizi yaxalayacaq məşəqqət gününün əzabından qorxuram**", yəni əgər bu halda qalmağa davam etsəniz, Allah sizə Axirət yurdunda ağrılı-acılı və şiddətli əzab verər. "**Onun qövmünün kafir zadəganları dedilər**". Burada "zadəganlar" dedikdə qövmün kafir başçıları və böyükləri nəzərdə tutulur. "**Biz səni özümüz kimi, sadəcə, bir insan hesab edir...**", yəni sən mələk deyilsən, adi bir insansan. Necə olur ki, Allah bizim içimizdən sənə vəhy etdi? Biz görürük ki, sənə içimizdən yalnız dərzilər, alış-verişlə məşğul olanlar və bu kimi rəzil insanlar tabe olurlar. Şərəfli və adlı-sanlı insanlar isə sənə tabe olmurlar. Həmçinin sənə tabe olanlar düşünüb-daşınmadan, araşdırmadan, dərhal dəvətini qəbul edib sənə tabe olmuşlar. Odur ki, belə demişlər: "**...içimizdən ancaq ən rəzil adamların kor-koranə sənə qoşulduğunu görürük**", yəni elə ilk

dəfədən düşünmədən sənə tabe olduqlarını görürük. "**Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük**", yəni bu dini qəbul etdiyinizdən bəri nə yaradılışda, nə əxlaqda, nə ruzidə, nə də yaşayış tərzində bizdən bir üstünlüyünüzü də görmürük. "**Əksinə, biz sizi yalançı hesab edirik**", yəni özünüzü saleh əməl sahibi və ibadət əhli hesab etməkdə, Axirət yurduna dönəcəyiniz təqdirdə isə xoşbəxt olacağınızı iddia etməkdə yalançı sanırıq. Bu, kafirlərin Nuha və ona tabe olanlara etirazlarıdır. Bu onların cahilliyinə, elmlərinin və ağıllarının azlığına dəlalət edir. Çünki haqqa tabe olanların aşağı təbəqədən olmaları haqq üçün bir ar və ya ayıb sayılmaz. Həqiqətən, haqq özü-özlüyündə doğrudur. Fərq etməz, istər haqqa tabe olanlar şərəfli, istərsə də rəzil toplumdan olsun. Əksinə, şəkk yoxdur ki, haqqa tabe olanlar kasıb olsalar belə, şərəfli olanlar məhz onlardır. Haqdan üz döndərib ona tabe olmayanlar isə zəngin olsalar belə, rəzil olanlar məhz onlardır. Lakin reallıq budur ki, çox vaxt haqqa tabe olanlar zəif insanlar olurlar, adlı-sanlı insanlar isə çox vaxt haqqa qarşı çıxırlar. Uca Allah bir ayədə belə buyurur: "**Biz səndən əvvəl hansı bir şəhərə xəbərdarlıq edən bir peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri "Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!" – dedilər**" ("əz-Zuxruf", 23). Rum imperatoru Herakl Əbu Süfyan Sahr ibn Hərbdən ﵁ Peyğəmbərin ﷺ vəsfləri barədə soruşaraq "Ona tabe olan insanlar adlı-sanlılardır, yoxsa zəiflər?" – demişdir. Əbu Süfyan "Zəiflərdir" – deyə cavab verdikdə Herakl "Kasıblar peyğəmbərlərə tabe olurlar" – demişdir.[1]

Onların Nuha ﵇ tabe olan insanlar barədə "**içimizdən ancaq ən rəzil adamların kor-koranə sənə qoşulduğunu görürük**" demələri həmin insanlar üçün məzəmmət və ya ayıb deyil. Çünki haqq aydın olduqda düşünməyə gərək qalmaz. Əksinə, hər bir saf və ağıllı adamın üzərinə düşən vəzifə haqqa dərhal tabe olmaqdır. Bütün peyğəmbərlər (onların hamısına Allahın salavatı və salamı olsun) son dərəcə aydın bir din gətirmişlər.

Uca Allah onların belə dediklərini buyurur: "**Həmçinin sizin bizdən üstün olduğunuzu da görmürük**". Bəli, onlar bunu görmürdülər. Çünki haqqa qarşı kor olub onu eşitmir və görmürdülər. Əksinə, onlar şübhələri içində tərəddüd edirdilər, cəhalət zülmətində sərgərdan gəzirdilər. Onlar iftiraçı, yalançı, məhrum və rəzil kəslər idilər. Axirətdə isə ziyana uğrayanlar onlar olacaqlar.

---

[1] əl-Buxari, 7.

﴿قَالَ يَٰقَوۡمِ أَرَءَيۡتُمۡ إِن كُنتُ عَلَىٰ بَيِّنَةٖ مِّن رَّبِّي وَءَاتَىٰنِي رَحۡمَةٗ مِّنۡ عِندِهِۦ فَعُمِّيَتۡ عَلَيۡكُمۡ أَنُلۡزِمُكُمُوهَا وَأَنتُمۡ
لَهَا كَٰرِهُونَ ٢٨﴾

**28. Nuh dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözünüzə görünməyən bir mərhəmət bəxş edibsə, onda necə olsun? Yoxsa siz onu qəbul etmək istəmədiyiniz halda biz sizi ona inanmağa məcburmu edəcəyik?**

Uca Allah bu ayədə Nuhun (ə) öz qövmünə belə cavab verdiyini bildirir: "**Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə**", yəni mən Rəbbim tərəfindən şəkk-şübhə doğurmayan, açıq-aşkar bir işə (dinə) və həqiqi peyğəmbərliyə istinad edirəm. Bu, Allahın həm Nuha, həm də onlara böyük bir rəhmətidir. "**O da Öz tərəfindən mənə gözünüzə görünməyən bir mərhəmət bəxş edibsə**", yəni bunlar sizə gizli qalmışdır, siz ona yetişə bilmirsiniz, bu nemətin qədrini bilmirsiniz, əksinə, dərhal onu yalan saymağa və rədd etməyə tələsirsiniz. "**Yoxsa siz onu qəbul etmək istəmədiyiniz halda biz sizi ona inanmağa məcburmu edəcəyik?**" Yəni onu qəbul etmək istəmədiyiniz halda biz sizə onu zorla qəbul etdirəcəyikmi?

﴿وَيَٰقَوۡمِ لَآ أَسۡـَٔلُكُمۡ عَلَيۡهِ مَالًاۖ إِنۡ أَجۡرِيَ إِلَّا عَلَى ٱللَّهِۚ وَمَآ أَنَا۠ بِطَارِدِ ٱلَّذِينَ ءَامَنُوٓاْۚ إِنَّهُم مُّلَٰقُواْ رَبِّهِمۡ
وَلَٰكِنِّيٓ أَرَىٰكُمۡ قَوۡمٗا تَجۡهَلُونَ ٢٩ وَيَٰقَوۡمِ مَن يَنصُرُنِي مِنَ ٱللَّهِ إِن طَرَدتُّهُمۡۚ أَفَلَا تَذَكَّرُونَ ٣٠﴾

**29. Ey qövmüm! Mən buna görə sizdən var-dövlət istəmirəm. Mənim mükafatım ancaq Allaha aiddir. Mən iman gətirənləri qovan deyiləm. Çünki onlar Rəbbi ilə qarşılaşacaqlar. Lakin mən sizin cahil adamlar olduğunuzu görürəm.**

**30. Ey qövmüm! Əgər onları qovsam, məni Allahdan kim qoruya bilər? Məgər düşünüb ibrət almırsınız?**

Nuh (ə) öz qövmünə belə demişdir: "Ey qövmüm! Mən sizə etdiyim bu nəsihətin əvəzinə, sizdən nə mal, nə də mükafat istəmirəm. Mən mükafatımı yalnız Qüdrətli Allahdan istəyirəm. "**Mən iman gətirənləri qovan deyiləm**". Sanki onlar özlərini daha üstün saydıqları üçün möminlərlə birlikdə oturmağı özlərinə sığışdırmayaraq Nuhdan (ə) möminləri ətrafından qovmağı tələb etmişlər. Necə ki onların bənzərləri

peyğəmbərlərin sonuncusundan (Muhəmmməddən ﷺ) ətrafında olan zəif toplumu uzaqlaşdırıb onlarla xüsusi bir məclisdə oturmağı istəmişdilər. Uca Allah da bu ayələri nazil etdi: "**Rəbbinin Üzünü diləyərək səhər və axşam çağı Ona dua edənləri yanından qovma. Nə sən onların verəcəkləri hesabata, azca da olsa, cavabdehsən, nə də onlar sənin verəcəyin hesabata, azca da olsa, cavabdehdirlər. Onları qovsan, zalımlardan olarsan**" ("əl-Ənam", 52); "**Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bər-bəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!**" ("əl-Kəhf", 28). Uca Allah başqa bir ayədə isə belə buyurur: "**Beləliklə, Biz onların bir qismini digəri ilə sınadıq ki, onlar desinlər: "Məgər Allah bizim aramızdan ancaq bunlaramı lütf göstərmişdir?" Allah şükür edənləri daha yaxşı tanıyan deyilmi?**" ("əl-Ənam", 53).

﴿وَلَآ أَقُولُ لَكُمۡ عِندِي خَزَآئِنُ ٱللَّهِ وَلَآ أَعۡلَمُ ٱلۡغَيۡبَ وَلَآ أَقُولُ إِنِّي مَلَكٞ وَلَآ أَقُولُ لِلَّذِينَ تَزۡدَرِيٓ أَعۡيُنُكُمۡ
لَن يُؤۡتِيَهُمُ ٱللَّهُ خَيۡرًاۖ ٱللَّهُ أَعۡلَمُ بِمَا فِيٓ أَنفُسِهِمۡ إِنِّيٓ إِذٗا لَّمِنَ ٱلظَّٰلِمِينَ ٣١﴾

**31. Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən sizin xor baxdığınız kəslərə demirəm ki, Allah onlara əsla xeyir verməyəcək. Onların canında nələr olduğunu Allah daha yaxşı bilir. Əks təqdirdə, sözsüz ki, mən zalımlardan olardım".**

Belə deməklə Nuh ﷺ öz qövmünə Allahın elçisi olduğunu, onları tək və şəriki olmayan Allaha ibadət etməyə çağırdığını bildirir. Həmçinin bildirir ki, Allahın xəzinələrinə heç kim hakim ola bilməz. Allahın agah etdiyi şəxslər istisna olmaqla, heç kim Onun qeybindən xəbərdar ola bilməz. Nuh, həmçinin bildirir ki, o, mələk deyil. Əksinə, peyğəmbər olaraq möcüzələrlə göndərilmiş bir insandır. Nuh bildirir ki, mən sizin kiçik görüb xor baxdığınız insanlar barədə "İman gətirdiklərinə görə onlara Allah dərgahında bir savab yoxdur" – demirəm. Çünki onların qəlblərində olanları ən yaxşı bilən Allahdır. Əgər zahirən olduğu kimi qəlbən də iman gətirmişlərsə, onlar üçün ən gözəl mükafat vardır. Onlar iman gətirdikdən sonra kimsə onlara bir pislik etsə, onlara zülm etmiş və onlar barəsində bilmədiyi bir sözü demiş olar.

﴿قَالُوا۟ يَٰنُوحُ قَدْ جَٰدَلْتَنَا فَأَكْثَرْتَ جِدَٰلَنَا فَأْتِنَا بِمَا تَعِدُنَآ إِن كُنتَ مِنَ ٱلصَّٰدِقِينَ ﴿٣٢﴾ قَالَ إِنَّمَا يَأْتِيكُم
بِهِ ٱللَّهُ إِن شَآءَ وَمَآ أَنتُم بِمُعْجِزِينَ ﴿٣٣﴾ وَلَا يَنفَعُكُمْ نُصْحِىٓ إِنْ أَرَدتُّ أَنْ أَنصَحَ لَكُمْ إِن كَانَ ٱللَّهُ يُرِيدُ أَن
يُغْوِيَكُمْ ۚ هُوَ رَبُّكُمْ وَإِلَيْهِ تُرْجَعُونَ ﴿٣٤﴾﴾

**32. Onlar dedilər: “Ey Nuh! Sən bizimlə mübahisə etdin və mübahisəmizi də çox uzatdın. Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin əzabı gətir”.**

**33. O dedi: “Onu istəsə, ancaq Allah sizə gətirəcək və siz də ondan yaxa qurtara bilməyəcəksiniz.**

**34. Əgər Allah sizi azdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm belə, nəsihətim sizə fayda verməz. O sizin Rəbbinizdir və Ona da qaytarılacaqsınız”.**

Uca Allah bildirir ki, Nuhun ﷺ qövmü ondan Allahın intiqamının, əzabının və qəzəbinin tezləşməsini istədilər. Bəla və müsibətin gəlməsi isə deyilən sözdən asılıdır. Onlar dedilər: “**Ey Nuh! Sən bizimlə mübahisə etdin və mübahisəmizi də çox uzatdın**”, yəni bizimlə höcətləşdin və bunu uzatdın. Bil ki, biz sənə tabe olmayacağıq. “**Əgər doğru danışanlardansansa, bizə vəd etdiyin əzabı gətir**”, yəni bizi təhdid etdiyin əzabı və intiqamı gətir. Bizə istədiyin bədduanı et. Qoy etdiyin bəddua bizi tutsun. “**O dedi: “Onu istəsə, ancaq Allah sizə gətirəcək və siz də ondan yaxa qurtara bilməyəcəksiniz**”, yəni sizi Allah cəzalandıracaq və əzabı tezləşdirəcək. Heç kəs Onun əzabından yaxa qurtara bilməz. “**Əgər Allah sizi azdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm belə, nəsihətim sizə fayda verməz**”, yəni əgər Allah sizi azdırmaq və həlak etmək istəmişsə, sizə dini təbliğ etməyim, sizi çəkindirməyim və sizə nəsihət etməyim nə fayda verəcək? “**O sizin Rəbbinizdir və Ona da qaytarılacaqsınız**”, yəni bütün işlərin düzülüşü Onun Əlindədir. O əsla zülm etməyən, ədalətli hakim və hər şeyi idarə edəndir. O, dünya və axirətin sahibidir.

﴿أَمْ يَقُولُونَ ٱفْتَرَىٰهُ ۖ قُلْ إِنِ ٱفْتَرَيْتُهُۥ فَعَلَىَّ إِجْرَامِى وَأَنَا۠ بَرِىٓءٌ مِّمَّا تُجْرِمُونَ ﴿٣٥﴾﴾

**35. Yoxsa onlar “Muhəmməd onu özündən uydurdu!” – deyirlər? De: “Əgər mən onu özümdən uydurmuşamsa, günahım özümə aiddir. Lakin mən sizin etdiyiniz günahlardan uzağam”.**

Bu ayə hekayənin ortasında onun mənasını gücləndirən və onu təsdiq edən bir ara cümləsidir. Uca Allah Muhəmmədə ﷺ belə buyurur: "Yoxsa haqqı inkar edən bu kafirlər "O bunu özündən uydurdu" – deyirlər? "**De: "Əgər mən onu özümdən uydurmuşamsa, günahım özümə aiddir**", yəni bunun günahı mənim boynumadır. "**Lakin mən sizin etdiyiniz günahlardan uzağam**", yəni bu uydurulmayıb, çünki Allah qatında Allaha qarşı yalan danışanlara hazırlanmış əzabı ən yaxşı bilən mənəm.

﴿وَأُوحِيَ إِلَىٰ نُوحٍ أَنَّهُۥ لَن يُؤۡمِنَ مِن قَوۡمِكَ إِلَّا مَن قَدۡ ءَامَنَ فَلَا تَبۡتَئِسۡ بِمَا كَانُواْ يَفۡعَلُونَ ٣٦ وَٱصۡنَعِ ٱلۡفُلۡكَ
بِأَعۡيُنِنَا وَوَحۡيِنَا وَلَا تُخَٰطِبۡنِي فِي ٱلَّذِينَ ظَلَمُوٓاْ إِنَّهُم مُّغۡرَقُونَ ٣٧ وَيَصۡنَعُ ٱلۡفُلۡكَ وَكُلَّمَا مَرَّ عَلَيۡهِ مَلَأٞ مِّن قَوۡمِهِۦ
سَخِرُواْ مِنۡهُۚ قَالَ إِن تَسۡخَرُواْ مِنَّا فَإِنَّا نَسۡخَرُ مِنكُمۡ كَمَا تَسۡخَرُونَ ٣٨ فَسَوۡفَ تَعۡلَمُونَ مَن يَأۡتِيهِ عَذَابٞ يُخۡزِيهِ
وَيَحِلُّ عَلَيۡهِ عَذَابٞ مُّقِيمٌ ٣٩﴾

**36. Nuha belə vəhy olundu: "Qövmündən, daha əvvəl iman gətirənlər istisna olmaqla, artıq heç kəs iman gətirməyəcək. Elə isə onların etdikləri əməllərə görə kədərlənmə.**

**37. Gözlərimizin önündə və vəhyimiz üzrə gəmini düzəlt. Zalım olanlardan ötrü Mənə müraciət etmə. Şübhəsiz ki, onlar suda batırılacaqlar".**

**38. Nuh gəmini düzəldir, qövmünün zadəganları isə hər dəfə yanından keçdikdə onu ələ salırdılar. O isə deyirdi: "Əgər siz bizi ələ salırsınızsa, biz də sizi, sizin bizi ələ saldığınız kimi ələ salacağıq.**

**39. Siz rüsvayedici əzabın kimə gələcəyini və daimi əzabın kimə üz verəcəyini mütləq biləcəksiniz".**

Uca Allah bu ayələrdə bildirir ki, Nuhun عليه السلام qövmü Allahın əzabının onlara tez gəlməsini istədikləri zaman Uca Allah Nuha عليه السلام vəhy etdi və bu ayələrdə bildirdiyi kimi, Nuh عليه السلام onlara bəddua etdi: "**Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma!**" ("Nuh", 26); "**O, Rəbbinə yalvarıb: "Məni üstələdilər! Mənə kömək et!" – dedi**" ("əl-Qəmər", 10). Bu zaman Uca Allah ona belə vəhy etdi: "**Qövmündən, daha əvvəl iman gətirənlər istisna olmaqla, artıq heç kəs iman gətirməyəcək**", bundan sonra onların etdikləri əməllərə görə kədərlənmə, onların etdikləri əməllər səni narahat etməsin. "**Gözlərimizin önündə**", yəni nəzarətimiz altında "**və vəhyimiz üzrə**", yəni sənə nə düzəldəcəyini öyrədəcəyik, "**gəmini düzəlt. Zalım olanlardan ötrü Mənə müraciət etmə. Şübhəsiz ki, onlar suda batırılacaqlar**".

Uca Allah buyurur: "**Nuh gəmini düzəldir, qövmünün zadəganları isə hər dəfə yanından keçdikdə onu ələ salırdılar**", yəni Nuhu məsxərəyə qoyur və onları təhdid etdiyi daşqını yalan sayırdılar. "**O isə deyirdi: "Əgər siz bizi ələ salırsınızsa, biz də sizi, sizin bizi ələ saldığınız kimi ələ salacağıq**". Bu, şiddətli bir qorxutma və təhdiddir. "**Siz rüsvayedici əzabın**" dünyada "**kimə gələcəyini və daimi əzabın kimə üz verəcəyini mütləq biləcəksiniz**", yəni kimin əbədi əzaba düçar olacağını biləcəksiniz.

﴿حَتَّىٰٓ إِذَا جَآءَ أَمۡرُنَا وَفَارَ ٱلتَّنُّورُ قُلۡنَا ٱحۡمِلۡ فِيهَا مِن كُلّٖ زَوۡجَيۡنِ ٱثۡنَيۡنِ وَأَهۡلَكَ إِلَّا مَن سَبَقَ عَلَيۡهِ ٱلۡقَوۡلُ وَمَنۡ ءَامَنَۚ وَمَآ ءَامَنَ مَعَهُۥٓ إِلَّا قَلِيلٞ ٤٠﴾

**40. Nəhayət, əmrimiz gəldiyi və təndir qaynayıb daşdığı zaman Biz Nuha dedik: "Heyvanların hər növündən bir cüt, barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir". Lakin onunla birlikdə az adam iman gətirmişdi.**

Uca Allahın ara vermədən, davamiyyətli yağan yağış barədə vədi yetişdikdə Nuha عليه السلام ayədə buyurduqlarını əmr etdi. Uca Allah bu yağış barədə başqa bir ayədə belə buyurur: "**Biz göyün qapılarını leysan yağışı ilə açdıq. Yeri yarıb bulaqlar qaynatdıq. Göydən tökülən və yerdən çıxan sular əzəldən yazılmış bir iş üçün bir-birinə qovuşdu. Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq. İnkar edilmiş peyğəmbərə mükafat olaraq o gəmi Gözlərimiz önündə üzüb gedirdi**" ("əl-Qəmər", 11-14). İbn Abbas رضي الله عنهما ayədə keçən "**təndir qaynayıb daşdığı zaman**" ifadəsi barədə belə demişdir: "Ayədə "təndir" deyildikdə yer üzü nəzərdə tutulur".[1] Yəni sanki yer üzü qaynayan bulaqlar halına gəlmiş, hətta od qalanan təndirlərdən belə su qaynamışdı. Bu təfsir əksər sələf və xələf alimlərinin rəyidir.

Bu zaman Uca Allah Nuha عليه السلام ruhu olan canlıların hər növündən bir cütünü özü ilə birlikdə gəmiyə daşımasını əmr etdi. Bəzi alimlər erkək və dişi olmaqla bitkilərin də hər növündən bir cütünün gəmiyə daşımağın əmr olunduğunu demişlər.

Uca Allah buyurur: "**...barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni... gəmiyə mindir**", yəni gəmiyə ailə üzvlərini də mindir. Ailə dedikdə Nuhun عليه السلام ev əhli və qohumları nəzərdə tutulur. Yalnız Allaha iman gətirməyən, barələrində həlak olmaq hökmü verilmiş kəslər

[1] İbn Əbu Hatim, 10858.

istisnadır. Nuhun zövcəsi ilə oğlu Yam da barələrində həlak olmaq hökmü verilmiş kəslərdən idi. Nuhun zövcəsi Allahı və Onun Elçisini عليه السلام inkar edirdi.

Uca Allah buyurur: "**...bir də iman gətirənləri gəmiyə mindir**", yəni qövmündən iman gətirənləri gəmiyə mindir. "**Lakin onunla birlikdə az adam iman gətirmişdi**", yəni Nuh عليه السلام öz qövmü arasında uzun bir müddət – doqquz yüz əlli il qalmasına baxmayaraq, onlardan çox az adam ona iman gətirmişdi. İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, onlar, qadınları da daxil olmaqla, səksən nəfər idilər.[1] Kəb əl-Əhbərdən رحمه الله nəql olunan rəvayətə görə isə onlar yetmiş iki nəfər idilər. Bəzi alimlər onların on nəfər olduğunu demişlər. Ən doğrusunu bilən və ən yaxşı hökm edən Allahdır.

﴿وَقَالَ ٱرۡكَبُواْ فِيهَا بِسۡمِ ٱللَّهِ مَجۡرٜىٰهَا وَمُرۡسَىٰهَآۚ إِنَّ رَبِّي لَغَفُورٞ رَّحِيمٞ ٤١ وَهِيَ تَجۡرِي بِهِمۡ فِي مَوۡجٖ
كَٱلۡجِبَالِ وَنَادَىٰ نُوحٌ ٱبۡنَهُۥ وَكَانَ فِي مَعۡزِلٖ يَٰبُنَيَّ ٱرۡكَب مَّعَنَا وَلَا تَكُن مَّعَ ٱلۡكَٰفِرِينَ ٤٢ قَالَ سَـَٔاوِيٓ إِلَىٰ جَبَلٖ
يَعۡصِمُنِي مِنَ ٱلۡمَآءِۚ قَالَ لَا عَاصِمَ ٱلۡيَوۡمَ مِنۡ أَمۡرِ ٱللَّهِ إِلَّا مَن رَّحِمَۚ وَحَالَ بَيۡنَهُمَا ٱلۡمَوۡجُ فَكَانَ مِنَ ٱلۡمُغۡرَقِينَ ٤٣﴾

**41. Nuh dedi: "Gəmiyə minin! Onun üzüb getməsi də, dayanması da Allahın adı ilədir. Şübhəsiz ki, Rəbbim Bağışlayandır, Rəhmlidir".**

**42. Gəmi onları dağlar kimi dalğalar içərisində apardığı zaman Nuh kənarda duran oğlunu səsləyib dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!"**

**43. O dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam!" Nuh dedi: "Bu gün, Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" Sonda dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu.**

Uca Allah bu ayələrdə bildirir ki, Nuh عليه السلام özü ilə birlikdə gəmiyə mindirməsi əmr olunmuş kəslərə belə demişdir: "**Gəmiyə minin! Onun üzüb getməsi də, dayanması da Allahın adı ilədir**", yəni gəminin suyun üzərində üzüb getməsi də, üzməyinin başa çatıb sahilə yan alması da Allahın adı ilədir. Uca Allah başqa bir ayədə belə buyurur: "**Sən yanında olanlarla birlikdə gəmiyə mindiyin zaman de: "Bizi zalım qövmdən xilas edən Allaha həmd olsun!" Həmçinin de: "Ey Rəbbim! Məni mübarək bir yerə çıxart. Sən yer verənlərin ən yaxşısısan!**" ("əl-Muminun", 28-29). Buna görə də hər işin əvvəlində, habelə gəmiyə,

[1] ət-Təbəri, 18178, 18261.

heyvana və s. minərkən Allahın adının çəkilməsi ("Bismilləh" – "Allahın adı ilə!" deyilməsi) müstəhəbdir. Uca Allah başqa bir ayədə belə buyurur: "**O Allah ki, bütün cütləri yaratdı. Mindiyiniz gəmiləri və heyvanları yaratdı ki, onların belinə, yaxud göyərtəsinə qalxıb yerləşdiyiniz zaman Rəbbinizin nemətini yada salıb deyəsiniz: "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq**" ("əz-Zuxruf", 12-14). Hər işin əvvəlində Allahın adının çəkilməsinə təşviq edən bir sıra hədislər var. Allahın izni ilə bu barədə qarşıda "əz-Zuxruf" surəsinin təfsirində qeyd ediləcək.

Uca Allah buyurur: "**Şübhəsiz ki, Rəbbim Bağışlayandır, Rəhmlidir**". Kafirlərdən intiqam alınaraq onların hamısının suya qərq edildiyi qeyd edildikdən sonra Allahın Bağışlayan və Rəhmli olduğunun vurğulanması son dərəcə münasibdir. Necə ki Uca Allah başqa ayələrdə belə buyurur: "**Doğrudan da, sənin Rəbbin tez cəza verəndir. Həqiqətən də, O, Bağışlayandır, Rəhmlidir**" ("əl-Əraf", 167); "**Həqiqətən, Rəbbin insanların zalımlığına baxmayaraq tövbə edənləri bağışlayır. Sözsüz ki, Rəbbinin cəzası şiddətlidir**" ("ər-Rad", 6). Uca Allah bir çox ayələrdə əzabı ilə rəhmətini birlikdə qeyd etmişdir.

Uca Allah buyurur: "**Gəmi onları dağlar kimi dalğalar içərisində apardığı zaman...**", yəni gəmi onları bütün yer üzünü basmış suyun üzərində aparırdı. Su dağların zirvəsinə qədər yüksəlmiş və hətta dağların zirvəsindən on və ya on beş qulac daha yüksəyə qalxmışdı. Bu gəmi suyun üzündə Allahın izni, himayəsi, nəzarəti və neməti ilə üzürdü. Uca Allah başqa ayələrdə belə buyurur: "**Su aşıb-daşdıqda Biz sizi üzən gəmidə daşıdıq. Sizə bir xatırlatma olsun və yadda saxlayan qulaqlar onu yadda saxlasın deyə belə etdik**" ("əl-Həqqa", 11-12); "**Biz onu taxtalardan pərçimlənib mismarlanmış gəmidə daşıdıq. İnkar edilmiş peyğəmbərə mükafat olaraq o gəmi Gözlərimiz önündə üzüb gedirdi. Biz həmin hadisəni nəsillərə ibrət üçün saxladıq. Amma heç bir yada salan varmı?**" ("əl-Qəmər", 13-15).

Uca Allah buyurur: "**Nuh kənarda duran oğlunu səsləyib dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!**" Bu, Nuhun عليه السلام dördüncü oğlu kafirliyi seçən Yam idi. Atası gəmiyə minərkən onu iman gətirməyə, kafirlər kimi suda boğulmamaq üçün onlarla birlikdə gəmiyə minməyə səslədi. O isə "**Məni sudan qoruyacaq bir dağa sığınacağam!**" – dedi. O, cahilliyindən tufanın dağların zirvəsinə çatmayacağını və bir dağın başına çıxarsa, suda boğulmaqdan qurtaracağını sanmışdı. Atası Nuh عليه السلام ona belə dedi: "**Bu gün, Allahın rəhm etdiklərindən başqa heç**

**kəs Onun əmrindən qoruna bilməz!**" Yəni bu gün heç bir şey səni Allahın əzabından qoruya bilməz. "**Sonda dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu**".

﴿وَقِيلَ يَٰٓأَرۡضُ ٱبۡلَعِي مَآءَكِ وَيَٰسَمَآءُ أَقۡلِعِي وَغِيضَ ٱلۡمَآءُ وَقُضِيَ ٱلۡأَمۡرُ وَٱسۡتَوَتۡ عَلَى ٱلۡجُودِيِّۖ وَقِيلَ بُعۡدٗا لِّلۡقَوۡمِ ٱلظَّٰلِمِينَ ٤٤﴾

**44. Sonra deyildi: "Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu. Sonra deyildi: "Məhv olsun zalım adamlar!"**

Uca Allah bu ayədə bildirir ki, gəmidəkilərdən başqa yer üzündə olan insanların hamısı suda boğulduqdan sonra O, yerə üzərindəki suyu udmağı, göyə isə yağışını saxlamağı əmr etdi. "**Su çəkildi**", yəni azalmağa başladı və "**iş bitdi**", yəni yer üzündə Allahı inkar edən insanlardan heç kim qalmadı. "**...və gəmi**", içindəkilərlə birlikdə "**Cudi dağı üzərində qərar tutdu**". Mucahid ﷬ demişdir: "Cudi Ərəbistan Yarımadasında yerləşən bir dağdır. O gün dağlar suda boğulmaqdan xilas olmaq üçün uzanıb yüksəlmişlər, o dağ isə Allah üçün təvazökarlıq göstərdiyi üçün suya batmamışdı. Nuhun gəmisi onun üzərində qərar tutaraq lövbər salmışdı".[1] Qatədə ﷬ demişdir: "Gəmi dağın üzərində bir ay dayandı, sonra ondan endilər". Qatədə ﷬, həmçinin demişdir: "Uca Allah Nuhun gəmisini Ərəb Yarımadasında Cudi dağı üzərində bir ibrət və əlamət olaraq saxladı ki, bu ümmətin birinciləri onu görsünlər. Ondan sonra neçə-neçə gəmilər həlak olmuş və külə dönmüşdür".[2] əd-Dahhək ﷬ isə Cudinin Mosulda bir dağ olduğunu demişdir. Bəziləri isə onun Tur dağı olduğunu demişlər.[3]

Uca Allah buyurur: "**Sonra deyildi: "Məhv olsun zalım adamlar!**" Yəni "zalımlar həlak olsun, ziyana uğrasın və Allahın rəhmətindən uzaq olsunlar!" – deyildi. Onların hamısı son nəfərinə qədər həlak oldular, onlardan heç kim qalmadı.

[1] ət-Təbəri, 18197, 18729.
[2] İbn Əbu Hatim, 10916; ət-Təbəri, 18202, 18284.
[3] ət-Təbəri, 1203, 18285.

﴿وَنَادَىٰ نُوحٌ رَّبَّهُۥ فَقَالَ رَبِّ إِنَّ ٱبْنِى مِنْ أَهْلِى وَإِنَّ وَعْدَكَ ٱلْحَقُّ وَأَنتَ أَحْكَمُ ٱلْحَٰكِمِينَ ﴿٤٥﴾ قَالَ يَٰنُوحُ إِنَّهُۥ
لَيْسَ مِنْ أَهْلِكَ ۖ إِنَّهُۥ عَمَلٌ غَيْرُ صَٰلِحٍ ۖ فَلَا تَسْـَٔلْنِ مَا لَيْسَ لَكَ بِهِۦ عِلْمٌ ۖ إِنِّىٓ أَعِظُكَ أَن تَكُونَ مِنَ ٱلْجَٰهِلِينَ ﴿٤٦﴾ قَالَ رَبِّ
إِنِّىٓ أَعُوذُ بِكَ أَنْ أَسْـَٔلَكَ مَا لَيْسَ لِى بِهِۦ عِلْمٌ ۖ وَإِلَّا تَغْفِرْ لِى وَتَرْحَمْنِىٓ أَكُن مِّنَ ٱلْخَٰسِرِينَ ﴿٤٧﴾﴾

**45. Nuh Rəbbini çağırıb dedi: "Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin ən üstünüsən!"**

**46. O dedi: "Ey Nuh! O, sənin ailəndən deyildir. Doğrusu, bu, (kafirlər üçün mədət diləməyin) pis bir işdir. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm".**

**47. O dedi: "Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram".**

Nuh ﷵ suda boğulan oğlunun aqibətindən hali olmaq üçün belə bir sual vermişdir: "**Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir**", yəni Sən mənə ailəmin xilas olacağını vəd etmişdin. Həqiqətən, Sənin vədin haqdır, mütləq yerinə yetəcəkdir. Sən hökm edənlərin ən üstünü olduğun halda oğlum necə suda boğuldu? Uca Allah buyurdu: "**Ey Nuh! O, sənin ailəndən deyildir**", yəni oğlun xilas edəcəyimi vəd etdiyim ailə üzvlərindən deyil, çünki Mən sənə, ailəndən ancaq iman gətirənləri xilas edəcəyimi vəd etmişdim. Odur ki, Allah belə buyurur: "**Barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir**" ("Hud", 40). Nuhun ﷵ suda boğulan oğlu isə kafir olduğu və atasına qarşı çıxdığı üçün suda boğulmasına hökm verilmiş kəslərdən idi.

Bir çox alimlər bildirmişlər ki, ayədə Nuhun ﷵ öz oğlunun deyil, zinadan (arvadının zina etməsindən) doğulan oğlunun nəzərdə tutulduğunu deyənlər ayəni səhv təfsir etmişlər. İbn Abbas və bir çox sələflər demişlər: "Heç bir peyğəmbərin zövcəsi zina etməmişdir". İbn Abbas رضي الله عنهما demişdir: "**O, sənin ailəndən deyildir**", yəni sənə xilas edəcəyimi vəd etdiklərimdən deyil". İbn Abbasın رضي الله عنهما bu təfsiri doğrudur, çünki Uca Allah bir peyğəmbərin zövcəsinə zina etmək imkanı verməyəcək qədər qeyrətlidir. Bu səbəbdən Uca Allah möminlərin anası, əs-Siddiqin qızı, Peyğəmbərin ﷺ xanımı Aişəyə رضي الله عنها zina iftirası atıldıqda qəzəblənmiş,

bu barədə danışan və onu yayan möminləri məzəmmət etmişdir. Uca Allah bu barədə belə buyurur: "**Şübhəsiz ki, Aişə barəsində yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır. İçlərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir. Nə üçün siz bunu eşitdiyiniz zaman mömin kişilər və qadınlar bir-birləri haqda yaxşı fikirdə olub "Bu, açıq-aydın bir böhtandır!" – demədilər? Nəyə görə onlar buna dair dörd şahid gətirmədilər? Madam ki, şahid gətirmədilər, deməli, onlar Allah yanında əsl yalançıdırlar. Əgər Allahın dünyada və axirətdə sizə lütfü və mərhəməti olmasaydı, dedi-qodularınıza görə sizə böyük bir əzab toxunardı. O zaman siz bunu dilinizə gətirir, bilmədiyiniz sözü danışır və onu əhəmiyyətsiz bir şey hesab edirdiniz. Halbuki bu, Allah yanında çox böyük günahdır**" ("ən-Nur", 11-15). İbn Abbas ﵄ demişdir: "Şübhəsiz, o, Nuhun oğlu olmuşdur, lakin əməldə və niyyətdə atasına qarşı çıxmışdır". İkrimə ﵀ demişdir: "Bəzi qiraətlərdə ayənin "**Doğrusu, bu, pis bir işdir**" hissəsi "Həqiqətən, o, saleh əməl görməmişdir" şəklində oxunmuşdur.[1]

﴿قِيلَ يَٰنُوحُ ٱهۡبِطۡ بِسَلَٰمٖ مِّنَّا وَبَرَكَٰتٍ عَلَيۡكَ وَعَلَىٰٓ أُمَمٖ مِّمَّن مَّعَكَۚ وَأُمَمٞ سَنُمَتِّعُهُمۡ ثُمَّ يَمَسُّهُم مِّنَّا عَذَابٌ أَلِيمٞ ٤٨﴾

**48. Sonra deyildi: "Ey Nuh! Sənə və səninlə birlikdə olan ümmətlərə Bizim bəxş etdiyimiz əmin-amanlıq və bərəkətlərlə gəmidən en! Özlərinə bir müddət güzəran verəcəyimiz, sonra da Öz tərəfimizdən ağrılı-acılı bir əzaba düçar edəcəyimiz ümmətlər də olacaqdır".**

Uca Allah bu ayədə bildirir ki, gəmi Cudi dağı üzərində dayandıqda Nuha ﵇ (Allah dərgahından) əmin-amanlıqla enməsi deyildi. Bu əmin-amanlıq həm onun, həm onunla birlikdə olan möminlərin, həm də Qiyamət gününə qədər onun nəslindən gələcək bütün möminlərin üzərinə olacaq. İbn İshaq ﵀ demişdir: "Uca Allah tufanı dayandırmaq istədikdə yer üzünə bir külək göndərdi və su sakitləşdi, yerin dərinliklərindəki su qaynaqları və səmanın qapıları bağlandı. Uca Allah buyurur: "**Sonra deyildi: "Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu. Sonra deyildi: "Məhv olsun**

[1] ət-Təbəri, 18225, 18307; İbn Əbu Hatim, 10927.

**zalım adamlar!**" Su azalmağa, yerin dərinliklərinə çəkilməyə başladı".[1] Sonra Nuha ﷺ "**Ey Nuh! Sənə və səninlə birlikdə olan ümmətlərə Bizim bəxş etdiyimiz əmin-amanlıq və bərəkətlərlə gəmidən en!...**" – deyildi.

﴿تِلۡكَ مِنۡ أَنۢبَآءِ ٱلۡغَيۡبِ نُوحِيهَآ إِلَيۡكَۖ مَا كُنتَ تَعۡلَمُهَآ أَنتَ وَلَا قَوۡمُكَ مِن قَبۡلِ هَٰذَاۖ فَٱصۡبِرۡۖ إِنَّ ٱلۡعَٰقِبَةَ لِلۡمُتَّقِينَ ٤٩﴾

**49. Bunlar sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl onları nə sən, nə də sənin qövmün bilirdi. Səbir et! Şübhəsiz ki, gözəl aqibət müttəqilərindir.**

Uca Allah bu ayədə Öz Peyğəmbərinə ﷺ buyurur ki, bu və buna bənzər hekayələr "**sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir**", yəni keçmişdə baş verən qeybi xəbərlərdir, onları sənə olduğu kimi vəhy edirik. Sanki sən bu hadisələrə şahidsən. Onları sənə vəhy yolu ilə öyrədirik. "**Bundan əvvəl onları nə sən, nə də sənin qövmün bilirdi**", yəni nə səndə, nə də qövmündən bir nəfərdə bu barədə hər hansı bir məlumat yox idi. Kimsə səni yalançı sayıb deyə bilməz ki, sən bunları ondan öyrənmisən. Əksinə, Allah bunları sənə doğru şəkildə, olduğu kimi xəbər vermişdir. Necə ki səndən əvvəlki peyğəmbərlərin kitabları buna şahidlik edir. Odur ki, qövmündən səni yalançı sayanların dediklərinə və sənə verdikləri əziyyətlərə səbir et. Biz daha əvvəl peyğəmbərlərə düşmənlərinə qarşı yardım etdiyimiz kimi səni də qoruyub yardım edəcəyik. Dünyada və axirətdə gözəl aqibət sənin və sənə tabe olanların olacaq. Uca Allah buyurur: "**Şübhəsiz ki, Biz Öz elçilərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik**" ("Ğafir", 51); "**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu Sözümüz əzəldən deyilmişdi: "Həqiqətən, onlara kömək göstəriləcək. Bizim ordumuz mütləq qalib gələcək**" ("əs-Saffat, 171-172). Bu ayədə isə belə buyurur: "**Səbir et! Şübhəsiz ki, gözəl aqibət müttəqilərindir**".

[1] ət-Təbəri, 18205, 18287.

﴿وَإِلَىٰ عَادٍ أَخَاهُمْ هُودًا ۚ قَالَ يَٰقَوْمِ ٱعْبُدُوا۟ ٱللَّهَ مَا لَكُم مِّنْ إِلَٰهٍ غَيْرُهُۥٓ ۖ إِنْ أَنتُمْ إِلَّا مُفْتَرُونَ ﴿٥٠﴾ يَٰقَوْمِ
لَآ أَسْـَٔلُكُمْ عَلَيْهِ أَجْرًا ۖ إِنْ أَجْرِىَ إِلَّا عَلَى ٱلَّذِى فَطَرَنِىٓ ۚ أَفَلَا تَعْقِلُونَ ﴿٥١﴾ وَيَٰقَوْمِ ٱسْتَغْفِرُوا۟ رَبَّكُمْ
ثُمَّ تُوبُوٓا۟ إِلَيْهِ يُرْسِلِ ٱلسَّمَآءَ عَلَيْكُم مِّدْرَارًا وَيَزِدْكُمْ قُوَّةً إِلَىٰ قُوَّتِكُمْ وَلَا تَتَوَلَّوْا۟ مُجْرِمِينَ ﴿٥٢﴾﴾

**50. Ad qövmünə də qardaşları Hudu göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Siz ancaq iftira yaxırsınız.**

**51. Ey qövmüm! Mən bunun əvəzində sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradandadır. Məgər anlamırsınız?**

**52. Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra da Ona tövbə edin ki, göydən sizə bolluca yağış yağdırsın və gücünüzü daha da artırsın. Günahkarcasına üz çevirməyin".**

Uca Allah buyurur: "Həqiqətən, Biz "**Ad qövmünə də qardaşları Hudu göndərdik**". Hud ﷵ onlara tək Allaha ibadət edib heç nəyi Ona şərik qoşmamağı əmr etmiş və onları özlərindən uydurub adlar verdikləri bütlərdən çəkinməyə çağırmışdır. Həmçinin bildirmişdir ki, bu nəsihəti və Allahın dinini çatdırması müqabilində onlardan heç bir mükafat istəmir, o öz savabını yalnız onu yaradan Allahdan istəyir. Heç bir qarşılıq istəmədən sizi dünya və axirətdə islah edən əməllərə çağıranı "**Məgər anlamırsınız?**"

Sonra Hud ﷵ onlara keçmiş günahlardan təmizlənmək üçün Allahdan bağışlanma diləməyi və gələcəkdə günah edəcəkləri təqdirdə tövbə etməyi əmr etmişdir. Kim bu sifətlərə sahib olarsa, Uca Allah onun ruzisini artırıb işlərini asanlaşdırar və onu qoruyar. Uca Allah başqa bir ayədə buyurur: "**Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır! O, sizin üzərinizə bol-bol yağış göndərər**" ("Nuh", 10-11). Bir hədisdə belə deyilir: "Kim davamiyyətli olaraq istiğfar edərsə (Allahdan bağışlanma diləyərsə), Uca Allah onu hər bir sıxıntıdan qurtarar, hər bir çətinlikdən ona bir çıxış yolu nəsib edər və ona heç ummadığı yerdən ruzi yetirər".[1]

[1] Əhməd, 2234; Əbu Davud, 1518; İbn Məcə, 3819. Hədis zəifdir. Bax: Daif əl-Cami, 5829.

﴿قَالُواْ يَٰهُودُ مَا جِئۡتَنَا بِبَيِّنَةٖ وَمَا نَحۡنُ بِتَارِكِيٓ ءَالِهَتِنَا عَن قَوۡلِكَ وَمَا نَحۡنُ لَكَ بِمُؤۡمِنِينَ ﴿٥٣﴾ وَلَوۡ أَنَّ
لِكُلِّ نَفۡسٖ ظَلَمَتۡ مَا فِي ٱلۡأَرۡضِ لَٱفۡتَدَتۡ بِهِۦۗ وَأَسَرُّواْ ٱلنَّدَامَةَ لَمَّا رَأَوُاْ ٱلۡعَذَابَۖ وَقُضِيَ بَيۡنَهُم بِٱلۡقِسۡطِ وَهُمۡ
لَا يُظۡلَمُونَ ﴿٥٤﴾ أَلَآ إِنَّ لِلَّهِ مَا فِي ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِۗ أَلَآ إِنَّ وَعۡدَ ٱللَّهِ حَقّٞ وَلَٰكِنَّ أَكۡثَرَهُمۡ لَا يَعۡلَمُونَ ﴿٥٥﴾ هُوَ يُحۡيِۦ
وَيُمِيتُ وَإِلَيۡهِ تُرۡجَعُونَ ﴿٥٦﴾﴾

**53. Onlar dedilər: "Ey Hud! Sən bizə açıq-aydın bir dəlil gətirmədin, biz də sənin sözünlə məbudlarımızı tərk edən deyilik. Biz sənə inanmırıq.**

**54. Biz ancaq onu deyə bilərik ki, bəzi məbudlarımız səni bəlaya düçar edib". O dedi: "Həqiqətən, mən Allahı şahid çağırıram, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam.**

**55. Ondan başqa tapındıqlarınızın hamısından uzağam. Hamılıqla mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin.**

**56. Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim düz yoldadır (ədalətlə hökm verir).**

Uca Allah bu ayələrdə bildirir ki, onlar öz Peyğəmbərlərinə belə demişlər: "**Ey Hud! Sən bizə açıq-aydın bir dəlil gətirmədin**", yəni sən bizə iddianı təsdiqləyən açıq-aydın bir dəlil gətirmədin, "**biz də sənin sözünlə məbudlarımızı tərk edən deyilik**", yəni sənin "onları tərk edin!" deməyinlə biz məbudlarımızı tərk etmərik. "**Biz sənə inanmırıq**", yəni sənə inanıb dediklərini təsdiqləmirik. "**Biz ancaq onu deyə bilərik ki, bəzi məbudlarımız səni bəlaya düçar edib**". Onlar belə dedilər: "Biz hesab edirik ki, məbudlarımızdan bəziləri onlara ibadət etməkdən daşınmağa çağırıb onları pislədiyinə görə səni dəli etmiş və ağlını almışlar". "**O dedi: "Həqiqətən, mən Allahı şahid çağırıram, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam. Ondan başqa tapındıqlarınızın hamısından uzağam**", yəni mən sizin Allahdan başqa ibadət etdiyiniz bütlərdən uzağam. "**Hamılıqla mənə qarşı hiylə qurun**", yəni siz və əgər haqdırsa, məbudlarınız – hamılıqla mənə qarşı hiylə qurun "**və mənə heç möhlət də verməyin**", yəni sonra mənə bir göz qırpımı qədər belə möhlət verməyin.

Uca Allah buyurur: "**Mən, Rəbbim və Rəbbiniz olan Allaha təvəkkül etdim. Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın**", yəni bütün canlılar Onun hökmranlığı altındadır. O, ədalətli hakimdir və əsla hökmündə zülm etməz. Həqiqətən, O, doğru yoldadır (ədalətlə hökm edər). Bu vəziyyət özündə Hudun ﵇ gətirdiyi dinin doğruluğuna, onlara nə fayda, nə də zərər verən, əksinə, nə eşidən, nə görən, nə dostluq, nə də düşmənçilik edə bilən cansız bütlərə ibadətlərinin batilliyinə tutarlı və qəti dəlili əhatə edir. İbadət yalnız və yalnız ona layiq olan Allaha sərf edilməlidir. O, təkdir, Onun şəriki yoxdur. Mülk Onun Əlindədir. O Öz mülkünü istədiyi kimi idarə edir. Elə bir şey yoxdur ki, Onun mülkü, səltənəti və hökmranlığı altında olmasın. Ondan başqa məbud yoxdur. Ondan başqa rəbb yoxdur.

﴿فَإِن تَوَلَّوْا فَقَدْ أَبْلَغْتُكُم مَّا أُرْسِلْتُ بِهِ إِلَيْكُمْ ۚ وَيَسْتَخْلِفُ رَبِّي قَوْمًا غَيْرَكُمْ وَلَا تَضُرُّونَهُ شَيْئًا ۚ إِنَّ رَبِّي عَلَىٰ كُلِّ شَيْءٍ
حَفِيظٌ ﴿٥٧﴾ وَلَمَّا جَاءَ أَمْرُنَا نَجَّيْنَا هُودًا وَالَّذِينَ آمَنُوا مَعَهُ بِرَحْمَةٍ مِّنَّا وَنَجَّيْنَاهُم مِّنْ عَذَابٍ غَلِيظٍ ﴿٥٨﴾ وَتِلْكَ عَادٌ ۖ
جَحَدُوا بِآيَاتِ رَبِّهِمْ وَعَصَوْا رُسُلَهُ وَاتَّبَعُوا أَمْرَ كُلِّ جَبَّارٍ عَنِيدٍ ﴿٥٩﴾ وَأُتْبِعُوا فِي هَٰذِهِ الدُّنْيَا لَعْنَةً وَيَوْمَ الْقِيَامَةِ ۗ أَلَا
إِنَّ عَادًا كَفَرُوا رَبَّهُمْ ۗ أَلَا بُعْدًا لِّعَادٍ قَوْمِ هُودٍ ﴿٦٠﴾﴾

**57. Əgər üz çevirsəniz, bilin ki, mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir qövm gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir".**

**58. Əmrimiz gəldikdə Hudu və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik və onları ağır bir əzabdan qurtardıq.**

**59. Bu, Ad qövmü idi! Onlar Rəbbinin ayələrini inkar etdilər, Onun elçilərinə asi oldular və hər bir inadcıl təkəbbür sahibinin əmrinə uydular.**

**60. Onları həm bu dünyada, həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Həqiqətən, Ad qövmü öz Rəbbini inkar etdi. Məhv olsun Hudun qövmü Ad!**

Hud ﵇ onlara belə demişdir: "Əgər sizə təbliğ etdiyim tək və şəriki olmayan Rəbbiniz Allaha ibadətdən üz çevirsəniz, bilin ki, Allahın mənimlə göndərdiyi dini sizə təbliğ etməyimlə artıq əleyhinizə olan dəlil qalxmışdır. "**Rəbbim yerinizə başqa bir qövm gətirər**", yəni Rəbbim sizə məhəl qoymadan yerinizə yalnız Ona ibadət edib, Ona heç nəyi şərik qoşmayan bir qövm gətirər. Siz öz küfrünüzlə Ona heç bir zərər verə

bilməzsiniz. Əksinə, bu əməllərin cəzası yenə sizə qayıdar. "**Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir**", yəni Rəbbim qullarının dediklərinə və etdiklərinə şahiddir və onları haqqı ilə qoruyar. Bunların da qarşılığını qullarına tam şəkildə verər. Əgər etdikləri xeyir əməldirsə, qarşılığında xeyir görəcəklər, pisliyin qarşılığı isə pislikdir.

Uca Allah buyurur: "**Əmrimiz gəldikdə...**". Bu əmr yağış gətirməyən (xeyir-bərəkətsiz) küləkdir. Uca Allah onları son nəfərlərinə kimi həlak etmiş, Hud və ona tabe olanları rəhməti və lütfü ilə ağrılı-acılı əzabdan qurtarmışdır. "**Hudu və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik və onları ağır bir əzabdan qurtardıq**". "**Bu, Ad qövmü idi! Onlar Rəbbinin ayələrini inkar etdilər**", yəni Allahın ayələrini inkar etdilər, peyğəmbərlərinə asi oldular. Çünki bir peyğəmbəri inkar edən bütün peyğəmbərləri inkar etmiş sayılır. Çünki iman gətirmək mövzusunda bu peyğəmbərlər arasında heç bir fərq yoxdur. Ad qövmü Hudu ﷺ inkar etmiş və onu inkar etmələri bütün peyğəmbərləri inkar etməyə bərabər tutulmuşdur. "**...və hər bir inadcıl təkəbbür sahibinin əmrinə uydular**", yəni doğru yolda olan peyğəmbərlərinə tabe olmayıb hər bir inadkar təkəbbür sahibinə tabe oldular. Bu səbəbdən bu dünyada həm Allahın, həm də yad edildikləri zaman Allahın mömin qullarının lənətinə düçar oldular. Qiyamət günü isə bütün varlıqların hüzurunda onlara "**Həqiqətən, Ad qövmü öz Rəbbini inkar etdi. Məhv olsun Hudun qövmü Ad!**" – deyə səslənəcəklər. əs-Suddi رحمه الله demişdir: "Ad qövmünə göndərilən peyğəmbərdən sonra göndərilən elə bir peyğəmbər yoxdur ki, onun dili ilə onlara lənət oxunmasın".[1]

﴿۞ وَإِلَىٰ ثَمُودَ أَخَاهُمْ صَٰلِحًا ۚ قَالَ يَٰقَوْمِ ٱعْبُدُوا۟ ٱللَّهَ مَا لَكُم مِّنْ إِلَٰهٍ غَيْرُهُۥ ۖ هُوَ أَنشَأَكُم مِّنَ ٱلْأَرْضِ وَٱسْتَعْمَرَكُمْ
فِيهَا فَٱسْتَغْفِرُوهُ ثُمَّ تُوبُوٓا۟ إِلَيْهِ ۚ إِنَّ رَبِّى قَرِيبٌ مُّجِيبٌ ﴿٦١﴾﴾

**61. Səmud qövmünə də qardaşları Salehi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ibadətə layiq olan məbudunuz yoxdur. O sizi torpaqdan yaratdı və sizi orada sakin etdi. Elə isə ondan bağışlanma diləyin, sonra da Ona tövbə edin. Şübhəsiz ki, Rəbbim Yaxındır, çağırışa cavab verəndir".**

---

[1] İbn Əbu Hatim, 8664.

Uca Allah buyurur: "Həqiqətən, Biz "**Səmud qövmünə də qardaşları Salehi göndərdik**". Səmud qövmü Təbuk ilə Mədinə şəhərləri arasında yerləşən Hicr qəsəbəsində məskunlaşırdı. Uca Allah Ad qövmündən sonra onlara qardaşları Salehi ﷺ peyğəmbər göndərmişdi və o öz qövmünə yalnız Allaha ibadət etməyi əmr edirdi. Uca Allah buyurur: "**O sizi torpaqdan yaratdı**", yəni ilk olaraq atanız Adəmi ﷺ və sizi torpaqdan yaratdı "**və sizi orada sakin etdi**", yəni sizi yer üzünü abadlaşdıran və orada məhsullar yetişdirən sakinlər etdi. "**Elə isə ondan bağışlanma diləyin**", yəni keçmiş günahlarınıza görə Ondan bağışlanma diləyin, "**sonra da Ona tövbə edin**", yəni gələcəkdə günah etsəniz tövbə edin. "**Şübhəsiz ki, Rəbbim Yaxındır, çağırışa cavab verəndir**". Uca Allah başqa bir ayədə belə buyurur: "**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər**" ("əl-Bəqərə", 186).

﴿قَالُوا۟ يَٰصَٰلِحُ قَدْ كُنتَ فِينَا مَرْجُوًّا قَبْلَ هَٰذَآ ۖ أَتَنْهَىٰنَآ أَن نَّعْبُدَ مَا يَعْبُدُ ءَابَآؤُنَا وَإِنَّنَا لَفِى شَكٍّ مِّمَّا تَدْعُونَآ إِلَيْهِ
مُرِيبٍ ﴿٦٢﴾ قَالَ يَٰقَوْمِ أَرَءَيْتُمْ إِن كُنتُ عَلَىٰ بَيِّنَةٍ مِّن رَّبِّى وَءَاتَىٰنِى مِنْهُ رَحْمَةً فَمَن يَنصُرُنِى مِنَ ٱللَّهِ إِنْ
عَصَيْتُهُۥ ۖ فَمَا تَزِيدُونَنِى غَيْرَ تَخْسِيرٍ ﴿٦٣﴾﴾

**62. Onlar dedilər: "Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin. Doğrudanmı atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin əqidə barəsində şübhə doğuran şəkk içindəyik".**

**63. O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə bir mərhəmət bəxş edibsə, onda necə olsun? Əgər Allaha asi olsam, məni Ondan kim qoruya bilər? Siz mənə ziyandan başqa bir şey artırmayacaqsınız.**

Uca Allah bu ayələrdə Salehlə qövmü arasında baş tutan söhbəti, qövmünün ona qarşı cahilliyini və inadkarlığını zikr edir. Qövmü ona belə demişdi: "**Ey Saleh! Sən bundan əvvəl içərimizdə ümid edilən bir kimsə idin**", yəni bu sözləri söyləməzdən əvvəl ağıllı olduğun üçün biz səndən yaxşılıq və xeyir umurduq. "**Doğrudanmı atalarımızın**", yəni sələflərimizin "**ibadət etdiyinə ibadət etməyi bizə qadağan edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin əqidə barəsində şübhə doğuran şəkk içindəyik**", yəni biz sənin dediklərinə çox şəkk edirik.

"**O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə...**", yəni əgər Rəbbimin mənim vasitəmlə göndərdiyi din barədə yəqinliyə və dəlilə sahibəmsə, "**O da Öz tərəfindən mənə bir mərhəmət bəxş edibsə, onda necə olsun? Əgər Allaha asi olsam, məni Ondan kim qoruya bilər?**" Yəni əgər mən sizi haqqa və yalnız Allaha ibadət etmək çağırışımdan əl çəkib Ona asi olsam, siz mənə əsla fayda verməyəcək və "**mənə ziyandan başqa bir şey artırmayacaqsınız**".

﴿وَيَا قَوْمِ هَٰذِهِ نَاقَةُ اللَّهِ لَكُمْ آيَةً ۖ فَذَرُوهَا تَأْكُلْ فِي أَرْضِ اللَّهِ ۖ وَلَا تَمَسُّوهَا بِسُوءٍ فَيَأْخُذَكُمْ عَذَابٌ
قَرِيبٌ ﴿٦٤﴾ فَعَقَرُوهَا فَقَالَ تَمَتَّعُوا فِي دَارِكُمْ ثَلَاثَةَ أَيَّامٍ ۖ ذَٰلِكَ وَعْدٌ غَيْرُ مَكْذُوبٍ ﴿٦٥﴾ فَلَمَّا جَاءَ أَمْرُنَا
نَجَّيْنَا صَالِحًا وَالَّذِينَ آمَنُوا مَعَهُ بِرَحْمَةٍ مِنَّا وَمِنْ خِزْيِ يَوْمِئِذٍ ۗ إِنَّ رَبَّكَ هُوَ الْقَوِيُّ الْعَزِيزُ ﴿٦٦﴾ وَأَخَذَ
الَّذِينَ ظَلَمُوا الصَّيْحَةُ فَأَصْبَحُوا فِي دِيَارِهِمْ جَاثِمِينَ ﴿٦٧﴾ كَأَنْ لَمْ يَغْنَوْا فِيهَا ۗ أَلَا إِنَّ ثَمُودَ كَفَرُوا
رَبَّهُمْ ۗ أَلَا بُعْدًا لِثَمُودَ ﴿٦٨﴾﴾

**64. Ey qövmüm! Allahın qayadan çıxardığı bu dişi dəvəsi sizin üçün bir möcüzədir. Buraxın onu, Allahın torpağında otlasın. Ona bir pislik etməyin, yoxsa sizi yaxın bir əzab yaxalayar".**

**65. Onlar dəvənin diz vətərini kəsdilər. Saleh dedi: "Yurdunuzda üç gün də kef eləyin. Bu, yalan olmayan bir vəddir".**

**66. Əmrimiz gəldikdə Salehi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə əzabdan və o günün rüsvayçılığından qurtardıq. Həqiqətən, Rəbbin Qüvvətlidir, Qüdrətlidir.**

**67. Zülm edənləri isə qorxunc bir səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb qaldılar.**

**68. Sanki orada heç yaşamamışdılar. Həqiqətən, Səmud qövmü öz Rəbbini inkar etdi. Məhv olsun Səmud qövmü!**

Bu hekayə barədə "əl-Əraf" surəsində (73-78-ci ayələrin təfsirində) kifayət qədər məlumat verilmişdir. Odur ki, burada təkrar qeyd edilməsinə lüzum görmürük. Müvəffəq edən Allahdır!

﴿وَلَقَدْ جَآءَتْ رُسُلُنَآ إِبْرَٰهِيمَ بِٱلْبُشْرَىٰ قَالُوا۟ سَلَٰمًا ۖ قَالَ سَلَٰمٌ ۖ فَمَا لَبِثَ أَن جَآءَ بِعِجْلٍ حَنِيذٍ ﴿٦٩﴾ فَلَمَّا رَءَآ أَيْدِيَهُمْ
لَا تَصِلُ إِلَيْهِ نَكِرَهُمْ وَأَوْجَسَ مِنْهُمْ خِيفَةً ۚ قَالُوا۟ لَا تَخَفْ إِنَّآ أُرْسِلْنَآ إِلَىٰ قَوْمِ لُوطٍ ﴿٧٠﴾ وَٱمْرَأَتُهُۥ قَآئِمَةٌ
فَضَحِكَتْ فَبَشَّرْنَٰهَا بِإِسْحَٰقَ وَمِن وَرَآءِ إِسْحَٰقَ يَعْقُوبَ ﴿٧١﴾ قَالَتْ يَٰوَيْلَتَىٰٓ ءَأَلِدُ وَأَنَا۠ عَجُوزٌ وَهَٰذَا بَعْلِى شَيْخًا ۖ إِنَّ
هَٰذَا لَشَىْءٌ عَجِيبٌ ﴿٧٢﴾ قَالُوٓا۟ أَتَعْجَبِينَ مِنْ أَمْرِ ٱللَّهِ ۖ رَحْمَتُ ٱللَّهِ وَبَرَكَٰتُهُۥ عَلَيْكُمْ أَهْلَ ٱلْبَيْتِ ۚ إِنَّهُۥ حَمِيدٌ مَّجِيدٌ ﴿٧٣﴾﴾

**69. Elçilərimiz İbrahimə (İshaqın doğulacağı barədə) müjdə gətirdilər və "Salam!" – dedilər. O da "Salam!" – dedi və dərhal gedib qızardılmış bir buzov gətirdi.**

**70. İbrahim qonaqların yeməyə əl vurmadıqlarını gördükdə onlar onun xoşuna gəlmədi və onların yanında canına qorxu düşdü. Onlar dedilər: "Qorxma! Həqiqətən, biz Lut qövmünə göndərilmişik".**

**71. Onun arvadı pərdə arxasında durmuşdu. O, güldü. Biz onu İshaqla, İshaqın ardınca da Yaqubla müjdələdik.**

**72. O dedi: "Vay halıma! Mən bir qoca qarı, bu ərim də bir qoca kişi olduğu halda doğa bilərəmmi? Doğrusu, bu, təəccüblü bir şeydir".**

**73. Onlar dedilər: "Allahın əmrinə təəccübmü edirsən? Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir".**

Uca Allah buyurur: "**Elçilərimiz**", yəni mələklər "**İbrahimə müjdə gətirdilər**". Bəzi təfsir alimləri bu müjdənin İshaqın عليه السلام doğulacağı barədə, bəzi alimlər isə Lut عليه السلام qövmünün həlak olacağı barədə olduğunu bildirmişlər. Birinci rəyə Uca Allahın bu ayəsi dəlalət edir: "**İbrahimdən qorxu çəkildikdə və ona müjdə gəldikdə Lut qövmü barəsində Bizimlə mübahisə etməyə başladı**" ("Hud", 74). Mələklər gəldikləri zaman İbrahimə "**Salam!" – dedilər. O da "Salam!" – dedi**", yəni "sizə salam olsun!" – dedi "**və dərhal gedib qızardılmış bir buzov gətirdi**", yəni tez gedib onlara yemək gətirdi. Bu yemək qızmar daşda qızardılmış cavan bir buzov idi. Bu təfsir İbn Abbas, Qatədə və bir çoxlarından rəvayət edilmişdir. Uca Allah başqa bir ayədə belə buyurur: "**O, təşviş içində ailəsinin yanına getdi və kök bir buzov qızardıb gətirdi. Onu onların qabağına qoyub dedi: "Yeməkyemirsinizmi?**" ("əz-Zariyat", 26-27). Bu ayə qonaq qəbul etməyin bir çox ədəblərini özündə ehtiva edir.

Uca Allah buyurur: "**İbrahim qonaqların yeməyə əl vurmadıqlarını gördükdə onlar onun xoşuna gəlmədi**", yəni bunu bəyənmədi "**və onların yanında canına qorxu düşdü**". İbrahim عليه السلام mələklərin yemək istəmədiklərini, onlara gətirdiyi yeməkdən tamamilə üz çevirdiklərini gördükdə bu haldan xoşlanmadı və canına qorxu düşdü.

Uca Allah mələklərin belə dediklərini xəbər verir: "**Onlar dedilər: "Qorxma! Həqiqətən, biz Lut qövmünə göndərilmişik**", yəni onlar belə dedilər: "Bizdən qorxma! Biz Lut qövmünü həlak etmək üçün göndərilmiş mələklərik". Sara (İbrahimin zövcəsi) onların (Lut qövmünün) həlak olacağı müjdəsinə gülərək sevindi. Çünki onlar çox fitnə-fəsad törətmişdilər, küfr və inadkarlıqları həddən artıq idi. Bu sevincinə (kafir qövmə bəslədiyi nifrətə) görə Sara mükafatlandırılaraq ümidi kəsilməsinə baxmayaraq övladla müjdələndi. İbn Abbas رضي الله عنهما ayədə keçən **فَضَحِكَتْ** [fədahikət] "güldü" feilini "heyz oldu" kimi təfsir etmişdir.

Uca Allah buyurur: "**O, güldü. Biz onu İshaqla, İshaqın ardınca da Yaqubla müjdələdik**", yəni onu elə bir oğul uşağı ilə müjdələdik ki, o uşağın da öz uşağı, davamı və nəsli olacaq. Yaqub İshaqın oğludur. Uca Allah "əl-Bəqərə" surəsində keçən bir ayədə belə buyurur: "**Yoxsa siz Yaquba ölüm gəldiyi zaman onun yanında idiniz? O zaman o öz oğullarına demişdi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, ataların – İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!**" ("əl-Bəqərə", 133). Alimlər bu ayəni dəlil gətirərək İbrahimin عليه السلام kəsmək istədiyi oğlunun İsmail olduğunu demişlər. Onlara görə bu uşağın İshaq olması mümkün deyil. Çünki ona bu övladla və bu övladın Yaqub عليه السلام adında doğulacaq oğlu ilə müjdə verilmişdi. Hələ İshaq عليه السلام kiçik uşaq ikən və ona vəd edilən Yaqub adlı oğlu doğulmamışkən İbrahimə عليه السلام onu kəsmək necə əmr oluna bilər? Allahın vədi haqdır və Allah verdiyi vədə əsla xilaf çıxmaz. Bu halda İshaqın عليه السلام kəsilməsinin əmr edilməsi mümkün deyil və nəticədə kəsilməsi əmr edilən övladın İsmail عليه السلام olduğu ortaya çıxır. Bu dəlilə əsaslanmaq son dərəcə gözəl, doğru və aydındır. Allaha həmd olsun!

Uca Allah bu ayədə Saranın عليها السلام belə dediyini bildirir: "**O dedi: "Vay halıma! Mən bir qoca qarı, bu ərim də bir qoca kişi olduğu halda doğa bilərəmmi? Doğrusu, bu, təəccüblü bir şeydir**". Uca Allah "əz-Zariyat" surəsində isə bu müjdəni eşitdikdə Saranın عليها السلام belə etdiyini bildirir: "**Zövcəsi qışqırıb üz-gözünə vura-vura dedi: "Axı mən sonsuz qoca qarıyam!**" ("əz-Zariyat", 29). Adətən, təəccüb halında qadınların dedikləri və davranışları belə olur.

Uca Allah buyurur: "**Onlar dedilər: "Allahın əmrinə təəccübmü edirsən?**" Yəni mələklər ona dedilər: "Allahın işinə təəccüblənmə! Çünki Allah bir şeyin olmasını istədikdə ona yalnız "Ol!" – deyər və o dərhal olar. Buna təəccüblənmə! Sən sonsuz qoca bir qarı, ərin isə yaşlı bir qoca olsa da, həqiqətən, Allah istədiyini etməyə Qadirdir". Mələklər sözlərinə davam edərək belə dedilər: "**Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir**", yəni, həqiqətən, Allah bütün işlərində Tərifəlayiqdir, dediklərində isə təriflənəndir. Sifətlərində və Zatında şanlı və şərəflidir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə səhabələr Peyğəmbərdən ﷺ soruşurlar: "Ey Allahın Elçisi, biz sənə salamı necə verməyi bilirik. Bəs sənə xeyir-duanı (salavatı) necə verək?" Peyğəmbər ﷺ buyurdu: "Deyin: "Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən![1]"[2]

﴿فَلَمَّا ذَهَبَ عَنْ إِبْرَٰهِيمَ ٱلرَّوْعُ وَجَآءَتْهُ ٱلْبُشْرَىٰ يُجَٰدِلُنَا فِى قَوْمِ لُوطٍ ﴿٧٤﴾ إِنَّ إِبْرَٰهِيمَ لَحَلِيمٌ أَوَّٰهٌ مُّنِيبٌ ﴿٧٥﴾ يَٰٓإِبْرَٰهِيمُ أَعْرِضْ عَنْ هَٰذَآ ۖ إِنَّهُۥ قَدْ جَآءَ أَمْرُ رَبِّكَ ۖ وَإِنَّهُمْ ءَاتِيهِمْ عَذَابٌ غَيْرُ مَرْدُودٍ ﴿٧٦﴾﴾

**74. İbrahimdən qorxu çəkildikdə və ona müjdə gəldikdə Lut qövmü barəsində Bizimlə mübahisə etməyə başladı.**

**75. Həqiqətən, İbrahim həlim, Allaha çox yalvaran və Ona üz tutan bir kəs idi.**

**76. Mələklər dedilər: "Ey İbrahim! Bu mübahisədən əl çək. Çünki Rəbbinin əmri artıq gəlmişdir və onlara qarşısıalınmaz bir əzab gələcəkdir".**

Uca Allah bu ayələrdə də İbrahimdən ﷺ bəhs edir. Belə ki, mələklər onun təklif etdiyi yeməkdən yemədikdə onun canına qorxu düşmüşdü. Sonra mələklər onu oğul övladı ilə müjdələyib Lut qövmünün həlak olacağını ona xəbər verdilər və bu qorxu hissi ondan keçib getdi. Qorxu hissi keçdikdən sonra onlarla söhbət etməyə başladı. İbrahim ﷺ onlardan

[1] Transkripsiyası: [Alla:hummə salli alə Muhəmmədin və alə ə:li Muhəmməd, kəmə salleytə alə ə:li İbrahim, innəkə həmi:dun məci:d. Allahummə bə:rik alə Muhəmmədin və alə ə:li Muhəmməd, kəmə bə:raktə alə ə:li İbrahim, innəkə həmi:dun məci:d].

[2] əl-Buxari, 4423, 4797; Muslim, 614, 935.

soruşdu: "Siz, içində üç yüz mömin olan bir kəndi həlak edirsinizmi?" Onlar "Xeyr" – dedilər. İbrahim soruşdu: "Bəs, içində iki yüz mömin olan bir kəndi həlak edirsinizmi?" Onlar "Xeyr" – dedilər. İbrahim soruşdu: "Bəs, içində qırx mömin olan bir kəndi həlak edirsinizmi?" Onlar "Xeyr" – dedilər. İbrahim soruşdu: "Bəs, otuz?" Onlar "Xeyr" – dedilər. İbrahim beşə çatana qədər mələklər "xeyr" – deyə cavab verdilər. İbrahim "Əgər orada bir müsəlman olsa, oranı həlak edərsinizmi?" – deyə soruşduqda, onlar yenə "Xeyr" – deyə cavab verdilər. Bu vaxt İbrahim dedi: "**Orada Lut da var!" Onlar dedilər: "Biz orada kimin olduğunu yaxşı bilirik. Biz onu da, onun ailəsini də mütləq xilas edəcəyik. Yalnız arvadından başqa. O, geridə qalanlardan olacaq**" ("əl-Ənkəbut", 32). İbrahim ﷷ bunu eşitdikdə susdu və rahatlaşdı.[1]

Uca Allah buyurur: "**Həqiqətən, İbrahim həlim, Allaha çox yalvaran və Ona üz tutan bir kəs idi**". Uca Allah bu ayədə İbrahimi ﷷ gözəl xislətlərlə tərifləyir. Bu barədə daha əvvəl ("ət-Tövbə" surəsinin 114-cü ayəsinin təfsirində) keçmişdir.

Uca Allah buyurur: "**Mələklər dedilər: "Ey İbrahim! Bu mübahisədən əl çək. Çünki Rəbbinin əmri artıq gəlmişdir və onlara qarşısıalınmaz bir əzab gələcəkdir**". Yəni onlar barədə hökm artıq verilmişdir. Onların həlak olması və Allahın günahkar tayfadan uzaqlaşdırılmayan əzabının onları haqlaması barədə söz artıq gerçəkləşmişdir.

﴿وَلَمَّا جَآءَتْ رُسُلُنَا لُوطًا سِيٓءَ بِهِمْ وَضَاقَ بِهِمْ ذَرْعًا وَقَالَ هَٰذَا يَوْمٌ عَصِيبٌ ﴿٧٧﴾ وَجَآءَهُۥ قَوْمُهُۥ يُهْرَعُونَ إِلَيْهِ
وَمِن قَبْلُ كَانُوا۟ يَعْمَلُونَ ٱلسَّيِّـَٔاتِ ۚ قَالَ يَٰقَوْمِ هَٰٓؤُلَآءِ بَنَاتِى هُنَّ أَطْهَرُ لَكُمْ ۖ فَٱتَّقُوا۟ ٱللَّهَ وَلَا تُخْزُونِ فِى ضَيْفِىٓ ۖ أَلَيْسَ
مِنكُمْ رَجُلٌ رَّشِيدٌ ﴿٧٨﴾ قَالُوا۟ لَقَدْ عَلِمْتَ مَا لَنَا فِى بَنَاتِكَ مِنْ حَقٍّ وَإِنَّكَ لَتَعْلَمُ مَا نُرِيدُ ﴿٧٩﴾﴾

**77. Elçilərimiz Lutun yanına gəldikdə, onlara görə kədərləndi, ürəyi sıxıldı və "Bu, çox çətin bir gündür" – dedi.**

**78. Qövmü yüyürərək onun yanına gəldi. Onlar əvvəllər də yaramaz işlər görürdülər. O dedi: "Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər. Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin! Məgər aranızda ağıllı bir kişi yoxdur?"**

**79. Onlar dedilər: "Bilirsən ki, sənin qızlarına heç bir ehtiyacımız yoxdur. Nə istədiyimizi də yəqin ki, bilirsən".**

[1] ət-Təbəri, 18341, 18425.

Uca Allah bu ayələrdə bildirir ki, mələklərdən olan elçilər Allahın o gecə Lut ﷺ qövmünü həlak edəcəyini İbrahimə ﷺ xəbər verdikdən sonra onun yanından ayrılıb Lutun ﷺ yanına gəldilər. Deyilənə görə Lut ﷺ özünə aid bir ərazidə olarkən, başqa bir rəvayətə görə isə evində olarkən mələklər onun yanına gəlmişlər. Onlar onun yanına Uca Allah tərəfindən bir imtahan olaraq son dərəcə gözəl surətli gənclər şəklində gəldilər. Sözsüz ki, bunda Allahın dərin bir hikməti vardır. Lut ﷺ onların gəlişindən çox narahat oldu, qəlbi sıxıldı və əgər onları müsafir etməsə, qövmündən kiminsə onları müsafir edib onlara pislik edəcəyindən qorxub dedi: "**Bu, çox çətin bir gündür**". İbn Abbas və bir çox alimlər demişlər: "Yəni müsibəti böyük olan bir gündür, çünki Lut bilirdi ki, onları müdafiə etmək məcburiyyətində qalacaq və bu ona çox ağır gəldi". əs-Suddi ﷺ demişdir: "Mələklər İbrahimin yanından Lutun qəsəbəsinə doğru yola çıxdılar. Günorta vaxtı Sədum çayına çatdılar. Orada Lutun su daşıyan bir qızını gördülər və ondan "Ey qızcığaz, qalmağa bir ev varmı?" – deyə soruşdular. Qız "Mən qayıdana qədər burada qalın" – dedi. O, qövmünün onlara zərər verməsindən qorxurdu və atasının yanına gəlib dedi: "Atacan, şəhərin qapısında gənclərə rast gəldim, onlardan daha gözəl simalara sahib kimsə görməmişdim. Elə et ki, qövmün onları ələ keçirib onlara qarşı əxlaqsızlıq etməsin". Lutun qövmü ona kişiləri qonaq etməyi qadağan etmişdi və "Qoy kişiləri biz qonaq edək" – demişdi. Lut onları evinə gətirdi. Ailəsindən başqa heç kim onların gəlişini bilmirdi. Lakin Lutun zövcəsi çıxıb qövmünə onların gəlişini xəbər verdi və onlar qaça-qaça Lutun yanına gəldilər".[1]

Uca Allah buyurur: "**Qövmü yüyürərək onun yanına gəldi**", yəni onlar gənclərin gəlişinə sevinərək tələsik, qaça-qaça onun yanına gəldilər. "**Onlar əvvəllər də yaramaz işlər görürdülər**", yəni bu onlarda vərdiş halına gəlmişdi və sonda bu halda ikən əzab onları haqladı.

Uca Allah buyurur: "**O dedi: "Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər**". Lut ﷺ belə deməklə onlara qövmünün qadınlarını göstərmişdi. Həqiqətən, peyğəmbər öz ümməti üçün ata yerindədir. Lut ﷺ onları dünya və axirətləri üçün ən faydalı olana yönəltmişdi. Başqa bir ayədə qeyd edildiyinə görə, onlara belə demişdi: "**Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz, həqiqətən də, həddi aşan adamlarsınız**" ("əş-Şuəra", 165-166). Uca Allah

[1] əl-Hakim, 4059; İbn Əbu Hatim, 11052; ət-Təbəri, 18354, 18439. əl-Hakim Muslimin şərtlərinə görə səhih olduğunu bildirmiş, əz-Zəhəbi də onunla razılaşmışdır.

digər bir ayədə Lut ﷺ ilə qövmü arasında belə bir danışığın keçdiyini zikr edir: "**O dedi: "Bunlar mənim qızlarımdır! Əgər istəyirsinizsə, onlarla evlənin!" Ey Muhəmməd! Sənin canına and olsun ki, onlar sərxoşluqları içində veyil-veyil gəzirdilər**" ("əl-Hicr", 70-72). Bu ayədə isə belə demişdir: "**Ey qövmüm! Bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha təmizdirlər**". Mucahid ﷺ bu ayənin təfsirində demişdir: "Ayədə Lutun öz qızları nəzərdə tutulmur, ümmətindən olan qadınlar nəzərdə tutulur, çünki hər bir peyğəmbər öz ümmətinin atasıdır".[1] İbn Cureyc ﷺ demişdir: "Lut ﷺ onlara qadınlarla evlənməyi əmr etmişdir, onları zina etməyə yönəltməmişdir".[2]

Uca Allah buyurur: "**Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin!**" Yəni sizə buyurduğumu qəbul edin və qadınlarınızla kifayətlənin! "**Məgər aranızda ağıllı bir kişi yoxdur?**" Yəni aranızda xeyirə sahib olub əmr etdiyimi qəbul edən və qadağan etdiklərimdən çəkinən bir kəs yoxdurmu? "**Onlar dedilər: "Bilirsən ki, sənin qızlarına heç bir ehtiyacımız yoxdur**", yəni sən yaxşı bilirsən ki, bizim qadınlarımıza ehtiyacımız yoxdur və bizdə onlara qarşı (cinsi) istək yoxdur. "**Nə istədiyimizi də yəqin ki, bilirsən**", yəni bizim yalnız kişilərə qarşı istəyimiz var və sən bunu yaxşı bilirsən. Odur ki, bu sözü bizə təkrar-təkrar deməyinə nə ehtiyac var? əs-Suddi ﷺ demişdir: "**Nə istədiyimizi də yəqin ki, bilirsən**", yəni yalnız kişiləri istəyirik".[3]

﴿قَالَ لَوْ أَنَّ لِي بِكُمْ قُوَّةً أَوْ ءَاوِيٓ إِلَىٰ رُكْنٍ شَدِيدٍ ٨٠ قَالُوا۟ يَـٰلُوطُ إِنَّا رُسُلُ رَبِّكَ لَن يَصِلُوٓا۟ إِلَيْكَ ۖ فَأَسْرِ بِأَهْلِكَ بِقِطْعٍ مِّنَ ٱلَّيْلِ وَلَا يَلْتَفِتْ مِنكُمْ أَحَدٌ إِلَّا ٱمْرَأَتَكَ ۖ إِنَّهُۥ مُصِيبُهَا مَآ أَصَابَهُمْ ۚ إِنَّ مَوْعِدَهُمُ ٱلصُّبْحُ ۚ أَلَيْسَ ٱلصُّبْحُ بِقَرِيبٍ ٨١﴾

**80. O dedi: "Kaş ki, sizə çatan bir qüvvəm olaydı, yaxud möhkəm bir dayağa söykənəydim!"**

**81. Mələklər dedilər: "Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar sənə əsla zərər yetirə bilməzlər. Gecənin bir vaxtında arvadından başqa bütün ailənlə yola düş. Qoy içinizdən heç kəs dönüb arxaya baxmasın. Çünki onların başına gələcək müsibət onun da başına gələcəkdir. Onların həlak olmaq vaxtı səhərdir. Məgər səhər yaxın deyilmi?"**

---

[1] İbn Əbu Hatim, 11066; ət-Tabəri, 18375, 18460.

[2] ət-Tabəri, 18376, 1846.

[3] İbn Əbu Hatim, 11074.

Uca Allah elçisi Lut عليه السلام barədə xəbər verərək buyurur ki, Lut onları təhdid edərək dedi: "**Kaş ki, sizə çatan bir qüvvəm olaydı, yaxud möhkəm bir dayağa söykənəydim!**". Yəni kaş ki sizə çatan bir gücüm olaydı, şəxsən özüm sizi cəzalandıraydım və həmqəbilələrimlə sizə lazım olanı edəydim. Əbu Hureyradan رضي الله عنه rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Allah Luta rəhm etsin! Həqiqətən, o, möhkəm bir dayağa sığınmışdı". Bununla Peyğəmbər ﷺ Uca Allahı nəzərdə tuturdu. "Uca Allah ondan sonra elə bir peyğəmbər göndərməmişdir ki, qövmündən onu müdafiə edəcək şəxslər çıxarmasın".[1] Bu vaxt mələklər ona Allahın elçiləri olduqlarını və qövmünün ona pislik edə bilməyəcəklərini xəbər verib dedilər: "**Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. Onlar sənə əsla zərər yetirə bilməzlər**". Mələklər ona gecənin sonunda ailəsini götürüb yola çıxmağı və ailəsinin arxasınca gedib onları qarşısına almağı əmr etdilər. Mələklər dedilər: "**Qoy içinizdən heç kəs dönüb arxaya baxmasın**", yəni qövmünün başına gələnləri eşitdikdə o dəhşətli səslər sizi qorxutmasın. Əksinə, yolunuza davam edin. "**... arvadından başqa**", ayənin bu hissəsi "**bütün ailənlə yola düş**" əmrindən istisna edilmişdir.

Sonra mələklər ona müjdə olaraq qövmünün həlakının yaxın olduğunu xəbər verdilər. Çünki Lut عليه السلام onlara "Onları indi məhv edin" – demiş, onlar isə cavabında "**Onların həlak olmaq vaxtı səhərdir. Məgər səhər yaxın deyilmi?**" – demişlər. Lutun عليه السلام qövmü qapıda dayanmış və sanki oraya bağlanmışdılar. Onlar hər bir tərəfdən oraya yüyürərək gəlmişdilər. Lut عليه السلام qapıda dayanıb onlarla mübarizə aparır, onları etmək istədikləri əməldən çəkindirirdi. Onlar isə onun dediklərini qəbul etmir, əksinə, onu təhdid edirdilər. Bu vaxt Cəbrail عليه السلام onların qarşılarına çıxıb qanadı ilə üzlərinə vurdu və gözlərini kor etdi. Onlar geri döndülər və yollarını belə tapa bilmədilər. Uca Allah bu xüsusda belə buyurur: "**Onlar Lutdan onun qonaqlarını tələb etdilər. Biz də onların gözlərini kor etdik və dedik: "Əzabımı və təhdidlərimi dadın!" Sübh çağı onlara yaxalarından əl çəkməyəcək bir əzab gəldi. Elə isə əzabımı və təhdidlərimi dadın!**" ("əl-Qəmər", 37-39).

﴿فَلَمَّا جَآءَ أَمْرُنَا جَعَلْنَا عَٰلِيَهَا سَافِلَهَا وَأَمْطَرْنَا عَلَيْهَا حِجَارَةً مِّن سِجِّيلٍ مَّنضُودٍ ﴿٨٢﴾ مُّسَوَّمَةً عِندَ
رَبِّكَ ۖ وَمَا هِيَ مِنَ ٱلظَّٰلِمِينَ بِبَعِيدٍ ﴿٨٣﴾﴾

[1] ət-Tirmizi, 3116, 3404. Hədis həsəndir. Bax: Silsilə əs-Səhihə, 1617, 1867.

**82. Əmrimiz gəldikdə oranın altını üstünə çevirdik və odda bişmiş gil daşları ardıcıl olaraq onların üstünə yağdırdıq.**

**83. O daşlara Rəbbinin yanında işarə qoyulmuşdur. Onlar zalımlardan da uzaq deyildir.**

Uca Allah buyurur: "**Əmrimiz gəldikdə...**", bu, Günəş doğarkən olmuşdur, "**oranın**", yəni Sədum şəhərinin "**altını üstünə çevirdik**". Uca Allah başqa bir ayədə belə buyurur: "**Onların başına gətirdiyini gətirdi**" ("ən-Nəcm", 54). Yəni onların üzərinə odda bişmiş gil daşlar yağdırdı. Ayədə keçən سِجِّيلٌ [sicci:l] sözü fars dilində "gil daş" mənasındadır. İbn Abbas və başqaları da ayəni belə təfsir etmişlər. Uca Allah başqa bir ayədə isə belə buyurur: "**Onların üstünə gildən daşlar yağdıraq**" ("əz-Zariyat", 33). Yəni daşlaşmış çox bərk gillər yağdırdıq. Bəzi təfsirçilər ayədə keçən سِجِّيلٌ [sicci:l] sözünün "qızardılmış" mənasında olduğunu demişlər. əl-Buxari ﷺ demişdir: "سِجِّيلٌ [sicci:l] sözünün mənası "iri, möhkəm" deməkdir. سِجِّينٌ [Sicci:n] sözü də eyni mənadadır".

Bəzi təfsir alimləri ayədə keçən مَنْضُود [məndu:d] sözünün "göydə hazırlanmış", yəni "göydə bu iş üçün hazırlanmış" mənasında olduğunu demişlər. Digərləri isə bu sözün "onların üzərinə enməkdə bir-birini təqib edən", "bir-birinin ardınca gələn" mənasında olduğunu demişlər.

Uca Allah buyurur: "**O daşlara Rəbbinin yanında işarə qoyulmuşdur**", yəni bu daşlar təyin olunmuş və möhürlənmişdir. Onların üzərlərində həlak edəcəkləri adamların adları vardır. Hər daşın üzərində başına düşəcəyi insanın adı yazılmışdır.

Deyilənə görə, bu daşlar həm şəhər əhalisinin, həm də bu şəhərin əhalisindən ətraf kəndlərə getmiş insanların üzərinə düşmüşdür. Bu insanlardan biri başqa adamlarla söhbət etdiyi vaxt qəflətən göydən bir daş gəlib məhz onun başına düşərək həlak edirmiş. Daş digər ölkələrdə olanları da təqib edərək son nəfərlərinə qədər həlak etmiş və onlardan heç kimi sağ saxlamamışdır.

Mucahid ﷺ demişdir: "Cəbrail Lut qövmünü evlərindən və həyətlərindən heyvanları və əşyaları ilə birlikdə götürüb yuxarı qaldırmışdır. Belə ki, göy əhli onların itlərinin ulaşmasını da eşitmişdir. Sonra onları başıaşağı buraxmışdır. Onları sağ qanadının örtülən hissəsində daşımışdır. Başıaşağı buraxdıqda ilk düşən onların adlı-sanlı insanları olmuşdur".[1] Qatədə və digərləri demişlər: "Bizə rəvayət olunduğuna görə, səhər açıldıqda Cəbrail qanadını açmış və onların

[1] ət-Təbəri, 18458, 18543.

yaşadığı ərazini üzərində olan hər şeyləri – sarayları, heyvanları, daşları və ağacları ilə birlikdə yerdən qoparmış, sonra onları qanadına almış və dünya səmasına qaldırmışdır. Belə ki, səma sakinləri insanların və itlərin səslərini eşitmişlər. Onlar dörd milyon nəfər idi. Sonra Cəbrail onları tərsinə çevirmiş və bu halda bir-birinin ardınca yer üzünə atmışdır. Onları yerlə yeksan etmiş və üzərlərinə gildən yanar daşlar yağdırmışdır".[1]

əs-Suddi ﷺ demişdir: "Lut qövmü səhərə çıxdıqda Cəbrail nazil olub onların yaşadığı yer üzünü yeddi qatı ilə birlikdə söküb qoparmış və onu göyə qaldırmışdır. Belə ki, dünya səmasının sakinləri onların itlərinin ulaşmasını və xoruzlarının banlamasını eşitmişlər. Sonra onları başıaşağı çevirib həlak etmişdir. Uca Allahın "**Alt-üst olmuş kəndi də O, viran qoydu**" ("ən-Nəcm", 53) ayəsi buna işarədir. Yer üzünə düşdükdə ölməyənlərin üzərlərinə Uca Allah onlar yerin altında ikən daş yağdırmışdır. Onlardan başqa şəhərlərə getmiş kəslər getdikləri yerlərdə təqib edilmişlər. Onlardan biri insanlarla söhbət edərkən daş gəlib məhz onu öldürmüşdür. Uca Allahın "**...odda bişmiş gil daşları ardıcıl olaraq onların üstünə yağdırdıq...**" ayəsi isə buna işarədir. Yəni odda bişmiş gil daşları şəhərlərdə ardıcıl olaraq onların üstünə yağdırdıq".[2]

Uca Allah buyurur: "**Onlar zalımlardan da uzaq deyildir**", yəni bu cəza və əzab zülm etməkdə onlara bənzəyənlərdən heç vaxt uzaq olmayacaq.

﴿وَإِلَىٰ مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا ۚ قَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ مَا لَكُم مِّنْ إِلَٰهٍ غَيْرُهُ ۖ وَلَا تَنقُصُوا الْمِكْيَالَ
وَالْمِيزَانَ ۚ إِنِّي أَرَاكُم بِخَيْرٍ وَإِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ مُّحِيطٍ ﴿٨٤﴾﴾

**84. Mədyən qövmünə də qardaşları Şueybi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ibadətə layiq olan məbudunuz yoxdur. Ölçünü və çəkini əskiltməyin. Mən sizi bolluq içində görürəm və qorxuram ki, başınıza hər şeyi bürüyən günün əzabı gələ.**

Uca Allah buyurur: "**Mədyən qövmünə də qardaşları Şueybi göndərdik**". Mədyən ərəb qəbilələrindən biridir. O, Hicaz ilə Şam arasında yerləşən Məan şəhərinə yaxın idi və bu şəhər əhalisinin adı ilə Mədyən kimi tanınırdı. Uca Allah onlara Şueybi ﷺ elçi göndərmişdi. Şueyb ﷺ nəsəb cəhətdən onların ən şərəflilərindən idi. Bu səbəbdən

[1] ət-Təbəri, 18462, 18547.
[2] ət-Təbəri, 18464, 18549.

Uca Allah ayədə "**qardaşları Şueybi göndərdik**" – deyə buyurur. Şueyb onlara tək Allaha ibadət etməyi əmr edib onları ölçünü və çəkini əskiltməkdən çəkindirərək belə demişdir: "**Mən sizi bolluq içində görürəm və qorxuram ki, başınıza hər şeyi bürüyən günün əzabı gələ**", yəni sizin bol yaşayış və ruzi içində olduğunuzu görürəm və qorxuram ki, Allahın haram buyurduqlarını etdiyinizə görə bu nemətlər əlinizdən alınsın, "**qorxuram ki, başınıza**" Axirət yurdunda "**hər şeyi bürüyən günün əzabı gələ**".

﴿وَيَٰقَوْمِ أَوْفُواْ ٱلْمِكْيَالَ وَٱلْمِيزَانَ بِٱلْقِسْطِ ۖ وَلَا تَبْخَسُواْ ٱلنَّاسَ أَشْيَآءَهُمْ وَلَا تَعْثَوْاْ فِى ٱلْأَرْضِ
مُفْسِدِينَ ﴿٨٥﴾ بَقِيَّتُ ٱللَّهِ خَيْرٌ لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ ۚ وَمَآ أَنَا۠ عَلَيْكُم بِحَفِيظٍ ﴿٨٦﴾﴾

**85. Ey qövmüm! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin, insanların mallarını əskik verməyin və yer üzündə fəsad yaymaqla pis işlər görməyin!**

**86. Əgər möminsinizsə, bilin ki, Allahın saxladığı (nemətlər) sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm".**

Şueyb əvvəlcə onları insanlara mal verərkən ölçü və çəkini əskiltməkdən çəkindirmiş, sonra isə həm alarkən, həm də verərkən ölçüyə və çəkiyə tam riayət etməyi əmr etmiş, onlara yer üzündə fəsad törətməyi qadağan etmişdir, çünki onlar yol kəsirdilər.

Uca Allah buyurur: "**Allahın saxladığı sizin üçün daha xeyirlidir**". İbn Abbas demişdir: "Allahın ruzisi sizin üçün daha xeyirlidir. Allahın sizə verdiyi ruzi sizin insanlara əskik verməklə əldə etdiyinizdən daha xeyirlidir". ər-Rabi ibn Ənəs demişdir: "Allahın vəsiyyəti sizin üçün daha xeyirlidir". Mucahid demişdir: "Allaha itaət etmək sizin üçün daha xeyirlidir". Qatədə demişdir: "Allahın sizə verdiyi pay sizin üçün daha xeyirlidir". Abdur-Rahmən ibn Zeyd ibn Əsləm demişdir: "Həlak" dedikdə "əzab", "saxlamaq" dedikdə isə "rəhmət" nəzərdə tutulur". İbn Cərir demişdir: "**Allahın saxladığı**", yəni ölçü və çəkiyə tam riayət etdikdən sonra sizə qalan qazanc "**sizin üçün**" insanların mallarını haqsızcasına götürməkdən "**daha xeyirlidir**".[1] Bu təfsir İbn Abbasdan rəvayət edilmişdir". Mən deyirəm: "Bu, Uca Allahın "**De: "Murdar şeyin çox olması sənin xoşuna gəlsə belə, murdarla təmiz eyni ola bilməz**" ("əl-Maidə", 100) ayəsinə bənzəyir".

[1] ət-Təbəri, 18480-18486; 18565-18571.

Uca Allah buyurur: "**Mən sizin üstünüzdə gözətçi deyiləm**", yəni mən sizin üzərinizdə nəzarətçi və qoruyucu deyiləm. Bunları insanların sizi görməsi üçün deyil, Allah üçün edin!

﴿قَالُوا۟ يَـٰشُعَيْبُ أَصَلَوٰتُكَ تَأْمُرُكَ أَن نَّتْرُكَ مَا يَعْبُدُ ءَابَآؤُنَآ أَوْ أَن نَّفْعَلَ فِىٓ أَمْوَٰلِنَا مَا نَشَـٰٓؤُا۟ ۖ إِنَّكَ لَأَنتَ ٱلْحَلِيمُ ٱلرَّشِيدُ ﴿٨٧﴾﴾

**87. Onlar dedilər: "Ey Şueyb! Atalarımızın ibadət etdikləri məbudlardan, yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan".**

Onlar (Allah onları rəzil etsin) istehza edərək belə deyirdilər: "**Ey Şueyb! Atalarımızın ibadət etdikləri məbudlardan**", yəni bütlərdən "**yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi**", yəni sənin sözünə görə çəkidə və ölçüdə aldatmağı tərk edəkmi? Onlar bizim mallarımızdır və biz onları istədiyimiz kimi sərf edərik. "**...sənə namazınmı əmr edir?**" Aməş ﷺ demişdir: "Yəni oxuduğun Quranmı əmr edir?" əl-Həsən ﷺ Uca Allahın "**Ey Şueyb! Atalarımızın ibadət etdikləri məbudlardan, yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir?**" ayəsi barədə belə demişdir: "Bəli, Allaha and olsun ki, onun namazı onlara atalarının ibadət etdiklərini tərk etməyi əmr edirdi".[1] əs-Səuri ﷺ demişdir: "Onlar "**yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən...**" deməklə zəkatı qəsd edirdilər".[2]

İbn Abbas, İbn Cərir və başqalarının dediklərinə görə onlar (Allahın düşmənləri) "**Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan**" sözünü istehza edərək demişlər. Allah onları rəzil etsin və Öz rəhmətindən uzaqlaşdırsın, necə ki etmişdir.

﴿قَالَ يَـٰقَوْمِ أَرَءَيْتُمْ إِن كُنتُ عَلَىٰ بَيِّنَةٍ مِّن رَّبِّى وَرَزَقَنِى مِنْهُ رِزْقًا حَسَنًا ۚ وَمَآ أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَىٰ مَآ أَنْهَىٰكُمْ عَنْهُ ۚ إِنْ أُرِيدُ إِلَّا ٱلْإِصْلَـٰحَ مَا ٱسْتَطَعْتُ ۚ وَمَا تَوْفِيقِىٓ إِلَّا بِٱللَّهِ ۚ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ ﴿٨٨﴾﴾

---

[1] İbn Əbu Hatim, 11136.

[2] İbn Əbu Hatim, 11139.

**88. O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun? Sizə qadağan buyurduğum şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam.**

Şueyb ﷺ onlara belə demişdir: "**Ey qövmüm! Bir deyin görək, əgər mən**" dəvət etdiyim din barədə "**Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun?**" Burada "**gözəl bir ruzi**" dedikdə, peyğəmbərliyin nəzərdə tutulduğu deyilmişdir. Bəzi təfsirçilər isə halal ruzinin nəzərdə tutulduğunu demişlər. Hər ikisinin nəzərdə tutulduğu da ehtimal olunur. əs-Səuri ﷺ Uca Allahın "**Sizə qadağan buyurduğum şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm**" ayəsi barədə belə demişdir: "Yəni sizə bir şeyi qadağan edib xəlvətdə sizdən gizli özüm onu etmərəm". Qatədə ﷺ demişdir: "Yəni sizi bir işdən daşınmağa çağırıb özüm onu etmərəm". "**Mən ancaq bacardığım qədər islah etmək istəyirəm**", yəni sizə buyurduqlarımla və qadağan etdiklərimlə bacardığım qədər sizi islah etməkdən başqa bir məqsədim yoxdur. "**Mən ancaq Allahın sayəsində uğur qazanıram**", yəni etmək istədiyim işlərdə doğru olana müvəffəq olmağım yalnız Allahdandır. "**Mən yalnız Ona təvəkkül edir**", yəni bütün işlərimdə Allaha təvəkkül edir "**və yalnız Ona üz tuturam**".[1]

İmam Əhməd ﷺ Bəhz ibn Həkimin atasının, o da Bəhzin babasının belə dediyini rəvayət etmişdir: "Peyğəmbər ﷺ mənim qövmümdən olan bəzi insanları bir ittihama görə tutub həbs etmişdi. Qövmümdən bir kişi Peyğəmbər ﷺ xütbə oxuyarkən onun yanına gəlib soruşdu: "Ey Muhəmməd! Qonşularımı nə üçün həbs etmisən?" Peyğəmbər ﷺ ona cavab vermədi. Kişi sözünə davam edib dedi: "Həqiqətən, bəzi insanlar "Sən bir şeyi qadağan edir, təklikdə isə onu edirsən" – deyirlər". Peyğəmbər ﷺ soruşdu: "Bu nə deyir?" Mən Peyğəmbərin ﷺ onun sözünü eşidib qövmünə bəddua etməsindən və bu bədduadan sonra heç vaxt nicat tapmayacaqlarından qorxub onların sözünün arasına söz qatmağa başladım. Peyğəmbər ﷺ onu sorğu-suala tutmağa davam etdi və nəhayət, onun nə dediyini anladı və belə buyurdu: "Həqiqətən, belə dedilərmi? (və ya onlardan biri, həqiqətən, belə dedimi?) Allaha and olsun ki, əgər etmişsəmsə, bunun günahı onlara deyil, mənə yazılır. Gedin, onun qonşularını buraxın!"[2]

---

[1] ət-Təbəri, 18496, 18581.

[2] əl-Hakim, 432; Əhməd, 20033, 20268. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 2397.

Bu mövzuda İmam Əhməd Abdul-Məlik ibn Səid ibn Suveyd əl-Ənsaridən Peyğəmbərin belə dediyini rəvayət etmişdir: "Mənə nisbət olunan bir hədis eşitdiyiniz zaman qəlbinizə yatarsa, onu eşitdikdə dəriləriniz yumşalarsa və onu özünüzə yaxın hiss edərsinizsə, bilin ki, ona ən layiqli olan mənəm. Əgər mənə nisbət olunan bir hədis eşitdiyiniz zaman qəlbinizə yatmasa, onu eşitdikdə dəriləriniz və tükləriniz ürpəşərsə və onu özünüzdən uzaq hiss edərsinizsə, bilin ki, o hədisdən ən uzaq olan mənəm".[1] Bu hədisin isnadı səhihdir. Hədisin mənası – ən doğrusunu Allah bilir – belədir: "Məndən sizə bir xeyir söz çatdığı zaman bilin ki, ona ən layiqliniz mənəm. Xoşlamadığınız bir söz çatarsa, bilin ki, ondan ən uzaq olanınız mənəm". "**Sizə qadağan buyurduğum şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm**".

Əbu Süleyman əd-Dabbi belə demişdir: "Ömər ibn Abdul-Əzizdən bizə məktublar gələrdi. Bu məktublarda əmr və qadağalar yazılardı. Sonunda isə bunlar qeyd edilərdi: "Özümün bu yazdıqlarıma əməl etməyim isə ancaq saleh qulun dediyi kimidir: "**Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam**".[2]

﴿وَيَٰقَوۡمِ لَا يَجۡرِمَنَّكُمۡ شِقَاقِيٓ أَن يُصِيبَكُم مِّثۡلُ مَآ أَصَابَ قَوۡمَ نُوحٍ أَوۡ قَوۡمَ هُودٍ أَوۡ قَوۡمَ صَٰلِحٖۚ وَمَا قَوۡمُ لُوطٖ
مِّنكُم بِبَعِيدٖ ٨٩ وَٱسۡتَغۡفِرُواْ رَبَّكُمۡ ثُمَّ تُوبُوٓاْ إِلَيۡهِۚ إِنَّ رَبِّي رَحِيمٞ وَدُودٞ ٩٠﴾

**89. Ey qövmüm! Qoy mənimlə olan ixtilafınız Nuh qövmünün, yaxud Hud qövmünün, yaxud Saleh qövmünün başına gələnlərin eynisini sizin də başınıza gətirməsin. Lut qövmü də sizdən uzaq deyildir".**

**90. Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim Rəhmlidir, Sevəndir, həm də Seviləndir.**

Şueyb onlara belə demişdir: "**Ey qövmüm! Qoy mənimlə olan ixtilafınız**", yəni mənə qarşı düşmənçiliyiniz və mənə olan kin-küdurətiniz sizi küfrünüzdə və fəsad törətməyinizdə israr etməyə sövq etməsin. Belə etsəniz, Nuhun, Hudun, Salehin və Lutun qövmlərinin başına gələn müsibət və əzabın eynisi sizin də başınıza gələr".

---

[1] Əhməd, 16102, 16155, 23655, 24005. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 732.

[2] İbn Əbu Hatim, 11147.

Uca Allah buyurur: "**Lut qövmü də sizdən uzaq deyildir**". Burada uzaqlığın zaman olaraq nəzərdə tutulduğu deyilmişdir. Yəni onlar sanki dünən sizin qarşınızda həlak olmuşlar. Bu uzaqlığın məkan olduğu da deyilmişdir. Hər ikisinin nəzərdə tutulduğu da ehtimal olunur. "**Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin**", yəni keçmiş günahlarınıza görə bağışlanma diləyin, sonra gələcəkdə baş verəcək pis əməllərinizdən Ona tövbə edin. "**Həqiqətən, Rəbbim**" tövbə edib Ona dönənlərə qarşı "**Rəhmlidir, Sevəndir, həm də Sevilәndir**".

﴿قَالُوا۟ يَٰشُعَيْبُ مَا نَفْقَهُ كَثِيرًا مِّمَّا تَقُولُ وَإِنَّا لَنَرَىٰكَ فِينَا ضَعِيفًا ۖ وَلَوْلَا رَهْطُكَ لَرَجَمْنَٰكَ ۖ وَمَآ أَنتَ عَلَيْنَا
بِعَزِيزٍ ﴿٩١﴾ قَالَ يَٰقَوْمِ أَرَهْطِىٓ أَعَزُّ عَلَيْكُم مِّنَ ٱللَّهِ وَٱتَّخَذْتُمُوهُ وَرَآءَكُمْ ظِهْرِيًّا ۖ إِنَّ رَبِّى بِمَا تَعْمَلُونَ
مُحِيطٌ ﴿٩٢﴾﴾

**91. Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən".**

**92. O dedi: "Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan da əzizdir? Siz Ona arxa çevirdiniz. Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir.**

"**Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük**". əs-Suddi ﷺ demişdir: "Yəni sən təksən". Əbu Rauq ﷺ demişdir: "Onlar bununla onun zəlil olduğunu nəzərdə tutmuş və demişlər: "Çünki sənin tayfan sənin dinində deyil".[1] "**Əgər qəbilən olmasaydı**", yəni sənin qövmün və tayfan olmasaydı, sənin qəbilən şərəf baxımından bizdən üstün olmasaydı, "**səni daşqalaq edərdik**". Bəzi təfsirçilərə görə burada daşla daşqalaq etmək, bəzilərinə görə isə söymək nəzərdə tutulur. "**Sən bizim üçün heç də böyük bir adam deyilsən**", yəni sən bizim yanımızda hörmətli deyilsən. "**O dedi: "Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan da əzizdir?**" Yəni qəbiləmdən çəkinərək mənə toxunmursunuz, lakin qorxmursunuz ki, Allahın peyğəmbərinə bir pislik edərsiniz və bu da Ona ağır gələr. Allahdan çəkinməyib "**Ona arxa çevirdiniz**", yəni Ona itaət etmədiniz və Onu yüksək tutmadınız. "**Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir**", yəni O sizin bütün etdiklərinizi bilir və bu əməllərinizə görə sizi mütləq cəzalandıracaq.

[1] İbn Əbu Hatim, 11164.

﴿وَيَٰقَوۡمِ ٱعۡمَلُواْ عَلَىٰ مَكَانَتِكُمۡ إِنِّي عَٰمِلٞۖ سَوۡفَ تَعۡلَمُونَ مَن يَأۡتِيهِ عَذَابٞ يُخۡزِيهِ وَمَنۡ هُوَ كَٰذِبٞۖ
وَٱرۡتَقِبُوٓاْ إِنِّي مَعَكُمۡ رَقِيبٞ ٩٣ وَلَمَّا جَآءَ أَمۡرُنَا نَجَّيۡنَا شُعَيۡبٗا وَٱلَّذِينَ ءَامَنُواْ مَعَهُۥ بِرَحۡمَةٖ مِّنَّا
وَأَخَذَتِ ٱلَّذِينَ ظَلَمُواْ ٱلصَّيۡحَةُ فَأَصۡبَحُواْ فِي دِيَٰرِهِمۡ جَٰثِمِينَ ٩٤ كَأَن لَّمۡ يَغۡنَوۡاْ فِيهَآۗ أَلَا بُعۡدٗا لِّمَدۡيَنَ كَمَا
بَعِدَتۡ ثَمُودُ ٩٥﴾

**93. Ey qövmüm! Əlinizdən gələni edin, mən də edəcəyəm. Rüsvayedici əzabın kimə gələcəyini və kimin yalançı olduğunu tezliklə biləcəksiniz. Gözləyin! Şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyirəm".**

**94. Əmrimiz gəldikdə Şueybi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik. Zülm edənləri isə qorxunc səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb qaldılar.**

**95. Sanki orada heç yaşamamışdılar. Səmud qövmü məhv olduğu kimi Mədyən qövmü də məhv olsun!**

Allahın peyğəmbəri Şueyb ﷺ qövmünün onun dəvətini qəbul etməsindən ümidini kəsdikdə belə dedi: "**Ey qövmüm! Əlinizdən gələni edin**", yəni öz yolunuzla (dininizlə) getməkdə davam edin. Bu, şiddətli bir təhdiddir. "**...mən də edəcəyəm**", yəni mən də öz yolumla (dinimlə) gedəcəyəm. "**Rüsvayedici əzabın kimə gələcəyini və kimin yalançı olduğunu tezliklə biləcəksiniz**", yəni mənim yoxsa sizin yalançı olduğunuzu biləcəksiniz. "**Gözləyin! Şübhəsiz ki, mən də sizinlə birlikdə gözləyirəm**".

Uca Allah buyurur: "**Əmrimiz gəldikdə Şueybi və onunla birlikdə iman gətirənləri Öz mərhəmətimizlə xilas etdik. Zülm edənləri isə qorxunc səs yaxaladı və onlar öz evlərində üzüqoylu düşüb qaldılar**", yəni olduqları yerdə səssiz, hərəkətsiz və cansız halda dizüstə çökdülər. Uca Allah burada onları qorxunc bir səsin yaxaladığını, "əl-Əraf" surəsində (78-ci ayə) dəhşətli bir sarsıntının (zəlzələnin) yaxaladığını, "əş-Şuəra" surəsində (189-cu ayə) isə kölgəli günün əzabının yaxaladığını bildirmişdir. Onlar bir ümmət idilər və əzaba düçar olduqları gün sadalanan bu əzabların hamısı onları yaxalamışdır. Uca Allah bu ayələrin hər birində məzmuna uyğun olanı bildirmişdir. "əl-Əraf" surəsində onlar Şueybə ﷺ "**Ey Şueyb! Ya biz hökmən səni də, səninlə birlikdə iman gətirənləri də yurdumuzdan çıxaracaq, ya da siz bizim dinimizə dönəcəksiniz**" ("əl-Əraf", 88) dedikləri üçün bu ayədə sarsıntının qeyd

edilməsi uyğundur. Belə ki, üzərində zülm etdikləri və peyğəmbərlərini çıxarmaq istədikləri yer titrəyərək onları sarsıtmışdır. Burada onlar peyğəmbərlərinə qarşı sözlə ədəbsizlik etdikləri üçün dəhşətli səsin onları susduraraq hərəkətsiz hala salmasının qeyd edilməsi uyğundur. "əş-Şuəra" surəsində isə onlar "**Əgər doğru danışanlardansansa, göyün bir parçasını üstümüzə endir**" ("əş-Şuəra", 187) dedikləri üçün Uca Allah onların bu davranış və sözlərinə ən münasib olan əzabı qeyd edərək belə buyurur: "**Onlar isə onu yalançı saydılar və buna görə də kölgəli günün əzabı onları yaxaladı. Həqiqətən, o, böyük bir günün əzabı idi**" ("əş-Şuəra", 189). Bu, Quranın çox incə sirlərindəndir. Allaha davamlı olaraq həmd və şükür olsun!

Uca Allah buyurur: "**Sanki orada heç yaşamamışdılar**", yəni sanki bundan əvvəl öz yurdlarında heç yaşamamışdılar. "**Səmud qövmü məhv olduğu kimi Mədyən qövmü də məhv olsun!**" Səmud qövmü ilə Mədyən qövmü qonşu olub yol kəsməkdə və küfr etməkdə bir-birlərinə bənzəyirdilər. Hər ikisi ərəb qəbilələri idi.

﴿وَلَقَدْ أَرْسَلْنَا مُوسَىٰ بِـَٔايَٰتِنَا وَسُلْطَٰنٍ مُّبِينٍ ﴿٩٦﴾ إِلَىٰ فِرْعَوْنَ وَمَلَإِيْهِۦ فَٱتَّبَعُوٓاْ أَمْرَ فِرْعَوْنَ ۖ وَمَآ أَمْرُ فِرْعَوْنَ
بِرَشِيدٍ ﴿٩٧﴾ يَقْدُمُ قَوْمَهُۥ يَوْمَ ٱلْقِيَٰمَةِ فَأَوْرَدَهُمُ ٱلنَّارَ ۖ وَبِئْسَ ٱلْوِرْدُ ٱلْمَوْرُودُ ﴿٩٨﴾ وَأُتْبِعُواْ فِى هَٰذِهِۦ لَعْنَةً وَيَوْمَ
ٱلْقِيَٰمَةِ ۚ بِئْسَ ٱلرِّفْدُ ٱلْمَرْفُودُ ﴿٩٩﴾﴾

**96. Biz Musanı ayələrimizlə və aydın bir dəlillə elçi göndərdik –**

**97. Firon və onun əyanlarına. Əyanlar isə Fironun əmrinə tabe oldular. Halbuki Fironun əmri doğru yol göstərən əmr deyildi.**

**98. Firon Qiyamət günü öz qövmünün qabağına düşüb onları Oda aparacaq. Girəcəkləri yer nə pis yerdir!**

**99. Onları həm burada, həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Onlara verilən pay nə pis paydır!**

Uca Allah burada Musanı ﷺ ayələrlə və tutarlı dəlillərlə qibtilərin hökmdarı Fironun və onun əyanlarının yanına göndərdiyini xəbər verir. "**Əyanlar isə Fironun əmrinə tabe oldular**", yəni Fironun azğın yoluna tabe oldular. "**Halbuki Fironun əmri doğru yol göstərən əmr deyildi**", yəni bu yolda hidayət yox idi. Bu yol cəhalət, zəlalət, küfr və inaddan ibarət idi. Onlar bu dünyada ona tabe olduqları kimi, Qiyamət günü də Firon onların öndəri və başçısı olub onları Cəhənnəm atəşinə

aparacaq. Ən ağır əzabdan onun payı, əlbəttə, ən çox olacaq. Uca Allah başqa ayələrdə belə buyurur: "**Firon elçiyə asi oldu. Biz də onu şiddətli bir əzabla yaxaladıq**" ("əl-Muzzəmmil", 16); "**O isə haqqı yalan sayıb asi oldu. Sonra da üz döndərib fəsad törətməyə girişdi. O, camaatını toplayıb onlara hündür səslə müraciət edərək dedi: "Sizin ən uca rəbbiniz mənəm!" Belə olduqda, Allah da onu dünya və Axirət əzabı ilə yaxaladı. Həqiqətən, bunda Allahdan qorxanlardan ötrü işarə var**" ("ən-Naziat", 21-26). Uca Allah burada isə belə buyurur: "**Firon Qiyamət günü öz qövmünün qabağına düşüb onları Oda aparacaq. Girəcəkləri yer nə pis yerdir!**" Onlara tabe olanların da halı belə olacaq. Onlar Allahın hüzuruna qayıdacaqları gün əzabları qat-qat artırılacaq. Uca Allah bir ayədə belə buyurur: "**Nəhayət, hamısı orada toplandığı zaman sonrakılar əvvəlkilər barəsində deyəcəklər: "Ey Rəbbimiz! Bunlardır bizi azdıran! Elə isə Odda bunlara ikiqat əzab ver!" Allah deyəcək: "Əzab hər kəs üçün ikiqatdır, lakin siz bunu bilmirsiniz!**" ("əl-Əraf", 38). Uca Allah kafirlərin Cəhənnəmdə belə deyəcəklərini xəbər verir: "**Onlar deyəcəklər: "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onlara ikiqat əzab ver və onları böyük bir lənətə məruz qoy!**" ("əl-Əhzab", 67-68).

Uca Allah buyurur: "**Onları həm burada, həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Onlara verilən pay nə pis paydır!**" Yəni onları Cəhənnəm əzabı ilə cəzalandırmağımızdan əlavə, həm bu dünyada, "**həm də Qiyamət günündə lənət təqib edəcəkdir. Onlara verilən pay nə pis paydır!**" Mucahid ﷺ demişdir: "Qiyamət günü də onları lənət təqib edəcəkdir. Beləliklə, onlara iki lənət vardır".[1] İbn Abbas رضي الله عنهما Uca Allahın "**Onlara verilən pay nə pis paydır!**" ayəsi barədə belə demişdir: "Bu pay dünya və Axirətdəki lənətdir".[2] əd-Dahhək və Qatədə ﷺ də belə demişlər. Qeyd edilən ayə Uca Allahın bu ayəsinə bənzəyir: "**Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir. Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar Allahın rəhmətindən qovulmuş kimsələrdən olacaqlar**" ("əl-Qəsəs", 41-42). Uca Allah başqa bir ayədə belə buyurur: "**O zaman onlar Cəhənnəmdə bir-birləri ilə höcətləşəcək, zəiflər təkəbbür göstərənlərə deyəcəklər: "Biz sizin ardınızca gedirdik. İndi siz Cəhənnəm odunun bir hissəsini bizdən uzaq edə bilərsinizmi?!**" ("Ğafir", 46).

[1] İbn Əbu Hatim, 11198 ət-Təbəri, 18537-18540, 18620-18623.
[2] İbn Əbu Hatim, 11198 ət-Təbəri, 18541, 18624.

﴿ذَٰلِكَ مِنۡ أَنۢبَآءِ ٱلۡقُرَىٰ نَقُصُّهُۥ عَلَيۡكَۖ مِنۡهَا قَآئِمٞ وَحَصِيدٞ ﴿١٠٠﴾ وَمَا ظَلَمۡنَٰهُمۡ وَلَٰكِن ظَلَمُوٓاْ أَنفُسَهُمۡۖ
فَمَآ أَغۡنَتۡ عَنۡهُمۡ ءَالِهَتُهُمُ ٱلَّتِي يَدۡعُونَ مِن دُونِ ٱللَّهِ مِن شَيۡءٖ لَّمَّا جَآءَ أَمۡرُ رَبِّكَۖ وَمَا زَادُوهُمۡ غَيۡرَ تَتۡبِيبٖ ﴿١٠١﴾﴾

**100. Bu, sənə söylədiyimiz məmləkətlər haqda hekayətlərin bəzisidir. Onlardan izi qalanı da var, yerlə yeksan olanı da.**

**101. Biz onlara zülm etmədik, lakin onlar özləri özlərinə zülm etdilər. Rəbbinin əmri gəldikdə Allahdan başqa çağırdıqları bütlər onları heç nədən qurtara bilmədi. Bütlər onların ancaq tələfatını artırdı.**

Uca Allah əvvəlki ayələrdə peyğəmbərləri, onların öz ümmətləri ilə aralarında cərəyan edən hadisələri, kafirləri necə həlak etdiyini, möminləri isə necə xilas etdiyini qeyd etdikdən sonra belə buyurur: "**Bu, sənə söylədiyimiz məmləkətlər haqda hekayətlərin bəzisidir**", yəni bəzi məmləkətlərin xəbərləridir. "**Onlardan izi qalanı da var**", yəni onların bir qismi hələ tikili halda qalmış, "**yerlə yeksan olanı da**", bir qismi isə yer üzündən silinib getmişdir. "**Biz onlara zülm etmədik**", yəni onları həlak etdikdə biz onlara zülm etmədik, "**lakin onlar özləri özlərinə zülm etdilər**", yəni elçilərimizi yalançı hesab edib onları inkar etməklə özləri özlərinə zülm etdilər. "**Rəbbinin əmri gəldikdə Allahdan başqa çağırdıqları bütlər onları heç nədən qurtara bilmədi**", yəni Allahın onları həlak etmək barədə əmri gəldikdə Allahı qoyub ibadət etdikləri, Allahdan başqa dua etdikləri bütləri, ilahları onlara heç bir fayda vermədi. Onları bu əzabdan qurtara bilmədi. "**Bütlər onların ancaq tələfatını artırdı**", yəni onların xəsarətlərini və ziyanlarını artırmaqdan başqa bir şeyə yaramadı, çünki onların həlak olmalarına səbəb yalnız bu ilahlara tabe olub onlara ibadət etmələri olmuşdur. Onların başlarına gələn də məhz buna görə gəlmiş, dünya və axirətdə onları ziyana sürükləmişdir.

﴿وَكَذَٰلِكَ أَخۡذُ رَبِّكَ إِذَآ أَخَذَ ٱلۡقُرَىٰ وَهِيَ ظَٰلِمَةٌۚ إِنَّ أَخۡذَهُۥٓ أَلِيمٞ شَدِيدٌ ﴿١٠٢﴾﴾

**102. Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun yaxalaması, həqiqətən də, üzücüdür, şiddətlidir.**

Uca Allah bu ayədə buyurur ki, peyğəmbərlərimizi yalançı sayan zalım nəsilləri necə həlak etmişiksə, onların bənzərlərini də belə həlak edərik. "**Onun yaxalaması, həqiqətən də, üzücüdür, şiddətlidir**". əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Musa əl-Əşaridən ﵁ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Allah zalıma müəyyən

vaxtadək möhlət verər. Nəhayət, onu yaxaladıqdan sonra heç vaxt onu buraxmaz". Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "**Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun yaxalaması, həqiqətən də, üzücüdür, şiddətlidir**".[1]

﴿إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لِّمَنْ خَافَ عَذَابَ ٱلْآخِرَةِ ۚ ذَٰلِكَ يَوْمٌ مَّجْمُوعٌ لَّهُ ٱلنَّاسُ وَذَٰلِكَ يَوْمٌ مَّشْهُودٌ ﴿١٠٣﴾ وَمَا
نُؤَخِّرُهُۥٓ إِلَّا لِأَجَلٍ مَّعْدُودٍ ﴿١٠٤﴾ يَوْمَ يَأْتِ لَا تَكَلَّمُ نَفْسٌ إِلَّا بِإِذْنِهِۦ ۚ فَمِنْهُمْ شَقِيٌّ وَسَعِيدٌ ﴿١٠٥﴾﴾

**103. Həqiqətən, bunlarda axirət əzabından qorxanlar üçün bir ibrət vardır. Bu, insanların bir yerə toplanacağı bir gündür. Bu həm də hamının şahid olacağı bir gündür.**

**104. Biz onu, sadəcə, müəyyən olunmuş vaxtadək təxirə salmışıq.**

**105. O gün gəldikdə Allahın izni olmadan heç kəs danışa bilməz. Onlardan kimisi bədbəxt, kimisi də xoşbəxt olacaq.**

Uca Allah buyurur: "Həqiqətən, kafirləri həlak etməyimizdə, peyğəmbərlərə yardım edib möminləri xilas etməyimizdə "**bir ibrət vardır**", yəni Axirətdə vəd etdiyimizin doğruluğuna dair bir dərs vardır. Uca Allah buyurur: "**Şübhəsiz ki, Biz Öz elçilərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik**" ("Ğafir", 51). Uca Allah başqa bir ayədə belə buyurur: "**Kafir olanlar öz elçilərinə dedilər: "Sizi ya öz torpağımızdan qovacağıq, ya da mütləq dinimizə qayıdacaqsınız!" Rəbbi də onlara belə vəhy etdi: "Biz zalımları mütləq məhv edəcək və onlardan sonra sizi o yerdə sakin edəcəyik. Bu, hüzurumda durmaqdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir**" ("İbrahim", 13-14).

Uca Allah buyurur: "**Bu, insanların**", yəni əvvəlki və sonrakı insanların hamısının "**bir yerə toplanacağı bir gündür**". Başqa bir ayədə belə buyurur: "**Biz hamını bir yerə toplayacaq, onlardan heç birini kənara buraxmayacağıq**" ("əl-Kəhf", 47). "**Bu həm də hamının şahid olacağı bir gündür**", yəni o elə böyük bir gündür ki, bütün mələklər orada iştirak edəcək və bütün peyğəmbərlər oraya toplaşacaqlar. Bu, bütün varlıqların – insan, cin, quş və heyvanların bir yerə toplaşacağı bir gündür. Zərrə qədər haqsızlıq etməyən Ədalətli Allah onların arasında hökm verəcək. Əgər qulun gördüyü iş yaxşılıq olarsa, Allah onun savabını qat-qat artırar.

[1] əl-Buxari, 4318, 4686; Muslim, 4680, 6746.

Uca Allah buyurur: "**Biz onu, sadəcə, müəyyən olunmuş vaxtadək təxirə salmışıq**", yəni Biz Qiyamətin qopmasını ancaq ona görə gecikdiririk ki, Adəmin nəslindən müəyyən sayda insanların yaranması barədə Allahın əzəldən deyilmiş Sözü, qəza və qədəri həyata keçsin. Onların dünyaya gəlməsi üçün Uca Allah müəyyən bir müddət qoymuşdur. Bu müddət başa çatıb Adəmin nəslindən olan insanların yaranması tamamlandıqda Uca Allah Qiyaməti qoparacaq. Bu səbəbdən Uca Allah ayədə "**Biz onu, sadəcə, müəyyən olunmuş vaxtadək təxirə salmışıq**" – deyə buyurmuşdur. Yəni bu müddət müəyyən olunmuş vaxta qədərdir, bu vaxt nə artar, nə də azalar. "**O gün gəldikdə Allahın izni olmadan heç kəs danışa bilməz**", yəni Qiyamət günü gəldikdə Allahın izni olmadan heç kəs danışa bilməz. Uca Allah başqa ayələrdə belə buyurur: "**Ruh (Cəbrail) və mələklərin səf-səf duracağı gün ər-Rəhmanın izin verdiyi kimsələrdən və doğru söz deyənlərdən başqa heç kəs danışmayacaq**" ("ən-Nəbə", 38); "**O gün insanlar heç bir yana meyil etmədən carçının arxasınca yeriyəcəklər. Mərhəmətli Allahın qarşısında səslər kəsiləcək və sən yalnız pıçıltı eşidəcəksən**" ("Taha", 108). əl-Buxari və Muslimin "Səhih" əsərlərində Peyğəmbərdən ﷺ rəvayət edilən uzun şəfaət hədisində belə deyilir: "O gün yalnız peyğəmbərlər danışacaq. O gün peyğəmbərlərin duası isə "Ey Allahım, qurtar, qurtar!" olacaq".[1]

Uca Allah buyurur: "**Onlardan kimisi bədbəxt, kimisi də xoşbəxt olacaq**", yəni orada toplaşanlardan kimisi bədbəxt, kimisi də xoşbəxtdir. Başqa bir ayədə belə buyurur: "**İnsanların bir qismi Cənnətdə, digər qismi isə Odda olacaq**" ("əş-Şura", 7). Sonra Uca Allah bədbəxt və xoşbəxt olanların halını bəyan edərək belə buyurur:

﴿فَأَمَّا ٱلَّذِينَ شَقُواْ فَفِى ٱلنَّارِ لَهُمْ فِيهَا زَفِيرٌ وَشَهِيقٌ ﴿١٠٦﴾ خَٰلِدِينَ فِيهَا مَا دَامَتِ ٱلسَّمَٰوَٰتُ وَٱلْأَرْضُ إِلَّا مَا شَآءَ رَبُّكَ ۚ
إِنَّ رَبَّكَ فَعَّالٌ لِّمَا يُرِيدُ ﴿١٠٧﴾﴾

**106. Bədbəxtlərə gəlincə, onlar Od içərisində qalacaqlar. Onlar orada xırıldayacaq və bağıracaqlar.**

**107. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir.**

---

[1] əl-Buxari, 764, 806; Muslim, 267, 469.

Uca Allah buyurur: "**Bədbəxtlərə gəlincə, onlar Od içərisində qalacaqlar. Onlar orada xırıldayacaq və bağıracaqlar**". İbn Abbas ﵄ demişdir: "Xırıldamaq" boğazdan, "bağırmaq" isə sinədən gələn səsdir".[1] Yəni onlara verilən əzabdan nəfəs vermələri xırıldamaq, nəfəs almaları isə bağırmaq olacaq. Allah bizi bu haldan qorusun! "**Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar**". İmam Əbu Cəfər İbn Cərir ﵀ demişdir: "Ərəblər bir şeyi əbədi və davamlı olaraq vəsf etmək istədikdə "Göylər və yer durduqca bu belədir", – deyərdilər. Həmçinin belə deyərdilər: "Gecə və gündüz bir-birini təqib etdikcə bu qalacaqdır". Onlar bununla əbədi olmağı nəzərdə tutardılar. Ərəblər öz aralarında bu ifadəni bildikləri və onu işlətməyə adət etdikləri üçün Uca Allah onlara məhz belə xitab edərək "**...göylər və yer durduqca onlar orada əbədi qalacaqlar**", –buyurmuşdur".[2]

Mən deyirəm: "Ola bilsin burada göylərin və yerin durması deyildikdə, (dünyada olan göylər və yer deyil) onların növü nəzərdə tutulur, çünki Axirət aləminin də göyləri və yeri olması labüddür. Uca Allah bir ayədə belə buyurur: "**O gün yer başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və insanlar Tək olan, hər şeyə Qalib gələn Allahın hüzurunda duracaqlar**" ("İbrahim", 48). Odur ki, əl-Həsən əl-Bəsri ﵀ Uca Allahın "**... göylər və yer durduqca onlar orada əbədi qalacaqlar**" ayəsi barədə belə demişdir: "O gün bu göy başqa bir göylə, bu yer üzü başqa bir yerlə əvəz olunacaq. Ayədə də məhz bu göyün və yerin durması nəzərdə tutulur. Bu göy və yer durduqca onlar orada əbədi qalacaqlar".[3] İbn Abbas ﵄ Uca Allahın "**...göylər və yer durduqca onlar orada əbədi qalacaqlar**" ayəsi barədə belə demişdir: "Hər Cənnətin göyü və yeri vardır".[4] Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﵀ demişdir: "Yəni yer yer olaraq, göy də göy olaraq durduqca".[5]

Uca Allah buyurur: "**Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir**". Qeyd olunan ayə Uca Allahın bu ayəsinə bənzəyir "**Allah deyəcək: "Sizin qalacağınız yer Oddur. Allahın istədikləri kəslərdən başqa siz orada əbədi qalacaqsınız". Həqiqətən, Rəbbin hikmət sahibidir, hər şeyi biləndir**" ("əl-Ənam", 128). Təfsir alimləri bu ayədə

[1] İbn Əbu Hatim, 11225; ət-Təbəri, 18568, 18651.
[2] ət-Təbəri, 18571, 18654.
[3] İbn Əbu Hatim, 11230.
[4] İbn Əbu Hatim, 11229.
[5] ət-Təbəri, 18572, 18655.

zikr edilən istisnanın mənasında ixtilaf edərək bir çox rəy irəli sürmüşlər. [İbn Cərir bu rəylərin çoxunu nəql etmiş, sonda İbn Abbas və əl-Həsəndən rəvayət etdiyi bu rəyi seçmişdir:] "Ayədəki istisna tövhid əhlindən olan günahkarlara aiddir. Uca Allah mələklərdən, peyğəmbərlərdən və möminlərdən şəfaət edənlərin böyük günah sahibləri üçün edəcəkləri şəfaət sayəsində onları Cəhənnəmdən çıxaracaq. Sonra rəhm edənlərin ən rəhmlisi olan Allahın rəhməti gələcək və ömründə heç bir xeyir iş görməyən, lakin bir gün "Lə İləhə İlləllah" (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur) deyənləri Cəhənnəm odundan çıxaracaq. Bu barədə Peyğəmbərdən ﷺ səhih hədislər rəvayət olunur".[1] Qədim və müasir alimlərin bir çoxu bu ayənin təfsirində belə demişlər. əs-Suddi ﵀ isə bu ayənin "**İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları Cənnətlərə daxil edəcəyik**" ("ən-Nisa", 57) ayəsi ilə nəsx olunduğunu demişdir.

﴿ وَأَمَّا ٱلَّذِينَ سُعِدُوا۟ فَفِى ٱلْجَنَّةِ خَٰلِدِينَ فِيهَا مَا دَامَتِ ٱلسَّمَٰوَٰتُ وَٱلْأَرْضُ إِلَّا مَا شَآءَ رَبُّكَ ۖ عَطَآءً غَيْرَ مَجْذُوذٍ ﴿١٠٨﴾ ﴾

**108. Xoşbəxtlərə gəldikdə isə onlar Cənnətdə olacaqlar. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Bu, tükənməz bir lütfdür.**

Uca Allah buyurur: "**Xoşbəxtlərə gəldikdə isə**" bunlar peyğəmbərlərə tabe olanlardır "**onlar Cənnətdə olacaqlar**", yəni onların gedəcəkləri yer Cənnətdir. "**Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar**". Ayədəki istisnanın mənası budur: "Cənnətə

[1] Rəvayət edilən şəfaət hədislərinin birində belə deyilir: "...Bundan sonra Allah "Mələklər şəfaət etdilər, peyğəmbərlər şəfaət etdilər, möminlər şəfaət etdilər. (Şəfaət etməyən) yalnız rəhmlilərin Rəhmlisi qaldı", – deyə buyuracaq. Sonra da heç vaxt yaxşılıq etməmiş, (odda) yanıb kömürə dönmüş bir toplumu ovuclayıb Cəhənnəmdən çıxaracaq və onları Cənnətin yollarında axan, "Həyat çayı" deyilən bir çaya atacaq. Beləliklə, onlar selin gətirdiyi toxumun cücərib yetişdiyi kimi diriləcəklər… Cənnət əhli onları tanıyacaq və deyəcək: "Nə bir yaxşı əməli, nə də özləri üçün əvvəlcədən tədarük gördükləri xeyirləri olmadığı halda Allahın Cənnətə daxil etdiyi, azadlığa buraxdığı kimsələr bunlardır!" Sonra Allah onlara belə buyuracaq: "Cənnətə girin! Gözünüzün gördüyü hər nə varsa, sizindir". Onlar deyəcəklər: "Ey Rəbbimiz! Sən aləmlərdən heç kəsə vermədiyin nemətləri bizə verdin!" Allah buyuracaq: "Sizə bundan da üstün olanını hazırlamışam!" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bundan üstün nə ola bilər ki?" Allah buyuracaq: "Mənim rizam! Artıq bundan sonra Mənim sizə heç vaxt qəzəbim tutmayacaq". (Muslim, 269, 372). Bir çox alim bu hədisə əsaslanaraq namazı səhlənkarlıqdan tərk edənlərin İslamdan çıxmadıqlarını bildirmişlər.

daxil olanların orada əbədi olaraq nemət içində qalmaları Allahın üzərində vacib olan bir haqq deyil. Əksinə, bu, Uca Allahın istəyinə bağlıdır və bu onlara Allahın daimi bir nemətidir. Odur ki, Cənnət əhlinə nəfəs alıb-vermə ilham olunduğu kimi, Allahın şəninə təriflər demək və Ona həmd etmək də ilham olunacaq". əd-Dahhək və əl-Həsən əl-Bəsri demişlər: "Burada Cəhənnəmdə olan günahkar tövhid əhli nəzərdə tutulur. Onlar sonra oradan çıxarılacaqlar". Uca Allah bunun arxasınca dərhal "**Bu, tükənməz bir sovqatdır**", – deyə buyurur. Yəni ardı kəsilməyən nemətdir. Bu şərh İbn Abbas, Mucahid, Əbul-Aliyə və bir çoxuna aiddir. Çünki bəziləri Allahın istəyi zikr edildikdən sonra bu nemətin tükənəcəyini və ya başqa bir şeyin olacağını sana bilər. Əksinə, Uca Allah ayəyə bu nemətin davamlı olacağı və heç vaxt tükənməyəcəyi ilə son vermişdir. Necə ki əvvəlki ayədə Cəhənnəm əhlinin əzabının davamlı olacağını və Öz istəyinə bağlı olduğunu bəyan etmişdir. O onlara Öz ədalətinə və hikmətinə uyğun əzab verəcək. Odur ki, ayənin sonunda "**Həqiqətən, Rəbbin istədiyini edəndir**" ("Hud", 107) – deyə buyurmuşdur. Başqa bir ayədə isə belə buyurur: "**Allah gördüyü işlər barədə soruşulmaz; onlar isə soruşulacaqlar**" ("əl-Ənbiya", 23). Uca Allah bu ayədə isə "**Bu, tükənməz bir sovqatdır**" buyurmaqla qəlbləri sevindirmiş və nəzərdə tutulanı təsdiqləmişdir.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə belə buyurulur: "Qiyamət günü ölüm ağlı-qaralı, buynuzlu bir qoç şəklində gətiriləcək. Sonra deyiləcək: "Ey Cənnət əhli, siz əbədi yaşayacaq və heç vaxt ölməyəcəksiniz! Ey Cəhənnəm əhli, siz də əbədi yaşayacaq və heç vaxt ölməyəcəksiniz!"[1] "Səhih" əsərində rəvayət olunan başqa bir hədisdə Cənnət əhlinə belə deyiləcək: "Ey Cənnət əhli, siz əbədi yaşayacaq və heç vaxt ölməyəcəksiniz! Həmişə cavan qalacaq və heç vaxt qocalmayacaqsınız! Həmişə sağlam olacaq və heç vaxt xəstələnməyəcəksiniz! Həmişə nemət içində olacaq və heç vaxt bədbəxt olmayacaqsınız!"[2]



[1] əl-Buxari, 4361, 4730; Muslim, 5087, 7360.

[2] Muslim, 5069, 7336.

﴿فَلَا تَكُ فِي مِرْيَةٍ مِّمَّا يَعْبُدُ هَٰؤُلَاءِ ۚ مَا يَعْبُدُونَ إِلَّا كَمَا يَعْبُدُ آبَاؤُهُم مِّن قَبْلُ ۚ وَإِنَّا لَمُوَفُّوهُمْ نَصِيبَهُمْ غَيْرَ
مَنقُوصٍ ﴿١٠٩﴾ وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ فَاخْتُلِفَ فِيهِ ۚ وَلَوْلَا كَلِمَةٌ سَبَقَتْ مِن رَّبِّكَ لَقُضِيَ بَيْنَهُمْ ۚ وَإِنَّهُمْ لَفِي
شَكٍّ مِّنْهُ مُرِيبٍ ﴿١١٠﴾ وَإِنَّ كُلًّا لَّمَّا لَيُوَفِّيَنَّهُمْ رَبُّكَ أَعْمَالَهُمْ ۚ إِنَّهُ بِمَا يَعْمَلُونَ خَبِيرٌ ﴿١١١﴾﴾

**109. Onların nəyə ibadət etdiklərinə şübhə etmə. Onlar da atalarının əvvəllər ibadət etdiyi kimi ibadət edirlər. Şübhəsiz ki, Biz onların qismətini əskiltmədən verəcəyik.**

**110. Biz Musaya Kitab verdik, lakin onun barəsində də ixtilaf düşdü. Əgər Rəbbin tərəfindən əzəldən bir Söz olmasaydı, aralarında dərhal hökm verilərdi. Həqiqətən, onlar Quran barəsində də şübhə doğuran şəkk içindədirlər.**

**111. Şübhəsiz ki, Rəbbin onların hər birinə əməllərinin əvəzini tam verəcəkdir. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır.**

Uca Allah buyurur: "**Onların nəyə ibadət etdiklərinə şübhə etmə**", yəni müşriklərin ibadət etdiklərinin batil, əməllərinin isə cahillik və azğınlıq olmasına şübhən olmasın. Onlar ancaq bundan əvvəl atalarının ibadət etdiklərinə kor-koranə ibadət edirlər. Yəni onların etdikləri ibadətdə atalarının cahil əməllərinə tabe olmaqdan başqa, istinad edəcəkləri bir dəlil yoxdur. Uca Allah buna görə onları layiqli bir cəza ilə cəzalandıracaq və onlardan kafir olanlara aləmlərdən heç kimə vermədiyi bir əzabı verəcək. Əgər onların yaxşılıqları olsa, Uca Allah bu yaxşılıqların əvəzini axirətdən əvvəl dünyada tam olaraq ödəyəcək. İbn Abbas رضي الله عنهما Uca Allahın "**Şübhəsiz ki, Biz onların qismətini əskiltmədən verəcəyik**" ayəsi barədə belə demişdir: "Onlara vəd olunmuş xeyir və şər tam olaraq veriləcək".[1] Abdur-Rahmən ibn Zeyd ibn Əsləm رحمه الله demişdir: "Onların əzabdan nəsiblərini əskiltmədən tam olaraq verəcəyik".[2]

Sonra Uca Allah Musaya عليه السلام Kitab verdiyini qeyd edir. İnsanlar onun barəsində ixtilafa düşdülər. Kimisi ona iman gətirdi, kimisi də onu inkar etdi. Odur ki, ey Muhəmməd, səndən əvvəl gəlib-keçən peyğəmbərlərdə sənin üçün gözəl bir nümunə vardır. Onların səni yalançı saymaları səni qəzəbləndirməsin və bu səni kədərləndirib qorxutmasın. "**Əgər Rəbbin tərəfindən əzəldən bir Söz olmasaydı, aralarında dərhal hökm verilərdi**". İbn Cərir رحمه الله demişdir: "Yəni əgər əzabın müəyyən bir müddətə

---

[1] İbn Əbu Hatim, 11248; ət-Təbəri, 18595, 18678.

[2] İbn Əbu Hatim, 11250.

qədər gecikdirilməsinə dair Söz olmasaydı, Uca Allah onların arasında hökm verib işlərini bitirərdi". Ola bilsin ki, ayədə "**Rəbbin tərəfindən əzəldən bir Söz**" deyildikdə Uca Allahın elçi göndərib əleyhinə hüccət (dəlil) qaldırmadan heç kimə əzab verməyəcəyinə dair Sözü nəzərdə tutulsun. Necə ki Uca Allah bir ayədə "**Biz elçi göndərməmiş heç kəsə əzab vermərik**" ("əl-İsra", 15) – deyə buyurmuşdur. Başqa bir ayədə isə belə buyurur: "**Əgər Rəbbin tərəfindən əvvəlcədən vəd edilmiş Söz və müəyyən edilmiş bir vaxt olmasaydı, əzab onları dərhal yaxalayardı. Onların dediklərinə səbir et**" ("Taha", 129-130). [Sonra Uca Allah kafirlərin Peyğəmbərin ﷺ onlara gətirdikləri Quran barəsində dərin bir şübhə içində olduqlarını xəbər verərək buyurur: "**Həqiqətən, onlar Quran barəsində də şübhə doğuran şəkk içindədirlər**".][1]

Daha sonra Uca Allah ümmətlərin əvvəlkilərini və sonuncularını bir yerə yığacağını, onların etdikləri əməllərin qarşılığını verəcəyini, əgər əməlləri xeyir olarsa, xeyirlə mükafatlandıracağını, pis olarsa, pisliklə cəzalandıracağını xəbər verərək belə buyurur: "**Şübhəsiz ki, Rəbbin onların hər birinə əməllərinin əvəzini tam verəcəkdir. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır**", yəni Allah onların aşkarda və gizlində edilən kiçik və böyük olan bütün əməllərindən xəbərdardır.

﴿فَٱسْتَقِمْ كَمَآ أُمِرْتَ وَمَن تَابَ مَعَكَ وَلَا تَطْغَوْا۟ ۚ إِنَّهُۥ بِمَا تَعْمَلُونَ بَصِيرٌ ﴿١١٢﴾ وَلَا تَرْكَنُوٓا۟ إِلَى ٱلَّذِينَ ظَلَمُوا۟
فَتَمَسَّكُمُ ٱلنَّارُ وَمَا لَكُم مِّن دُونِ ٱللَّهِ مِنْ أَوْلِيَآءَ ثُمَّ لَا تُنصَرُونَ ﴿١١٣﴾﴾

**112. Sənə əmr edildiyi kimi sən də, səninlə birlikdə tövbə edənlər də doğru yolda olun. Həddi aşmayın, çünki O, sizin nə etdiklərinizi görür.**

**113. Zalımlara meyil etməyin, yoxsa sizə od toxunar. Sizin Allahdan başqa himayədarlarınız yoxdur. Sonra sizə kömək də olunmaz.**

Uca Allah bu ayələrdə Öz Elçisinə ﷺ və mömin qullarına doğru yolda davamlı olaraq sabit qalmağı əmr edir. Bu, düşmənlərə qalib gəlməyə və həddi aşmaqdan çəkinməyə yardım edən ən böyük səbəbdir. Çünki həddi aşmaq bir müşrikə qarşı olsa belə, həlaka aparan əməldir. Uca Allah qullarının əməllərini gördüyünü, heç bir şeydən xəbərsiz olmadığını, heç nəyin Ondan gizli qalmadığını bildirir.

[1] Mötərizəyə alınmış hissə kitabın çap olunmuş variantında yoxdur. Bu hissə əlyazmadan əlavə olunmuşdur.

Uca Allah buyurur: "**Zalımlara meyil etməyin**". İbn Abbas ﵄ bu ayənin təfsirində belə demişdir: "Zalımlara meyil göstərməyin. Yəni zalımlardan kömək istəməyin ki, sonra onların etdikləri digər əməllərlə razılaşmış kimi olmayasınız. **"...yoxsa sizə od toxunar. Sizin Allahdan başqa himayədarlarınız yoxdur. Sonra sizə kömək də olunmaz**", yəni Allahın əzabından xilas edəcək, qurtaracaq bir köməkçiniz yoxdur.

﴿وَأَقِمِ ٱلصَّلَوٰةَ طَرَفَيِ ٱلنَّهَارِ وَزُلَفًا مِّنَ ٱلَّيۡلِۚ إِنَّ ٱلۡحَسَنَٰتِ يُذۡهِبۡنَ ٱلسَّيِّـَٔاتِۚ ذَٰلِكَ ذِكۡرَىٰ لِلذَّٰكِرِينَ ١١٤ وَٱصۡبِرۡ فَإِنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجۡرَ ٱلۡمُحۡسِنِينَ ١١٥﴾

**114. Gündüzün iki başında (əvvəlində və axırında) və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır.**

**115. Səbir et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz.**

İbn Abbas ﵄ Uca Allahın "**Gündüzün iki başında... namaz qıl!**" ayəsi barədə demişdir: "Yəni Sübh və Məğrib namazlarını qıl". əl-Həsən və Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﵀ də belə demişlər.[1] Mucahid ﵀ demişdir: "Bu, günün əvvəlində qılınan Sübh namazı ilə günün sonunda qılınan Zöhr və Əsr namazlarıdır".[2]

Uca Allah buyurur: "**...və gecənin bəzi saatlarında namaz qıl!**" İbn Abbas, Mucahid, əl-Həsən və digər alimlər ayədə İşa namazının nəzərdə tutulduğunu demişlər. əl-Həsəndən ﵀ nəql olunan başqa bir rəvayətə görə ayədə Məğrib və İşa namazları nəzərdə tutulur. Qatədə, əd-Dahhək və başqaları da bunun Məğrib və İşa namazları olduğunu demişlər. Ola bilsin ki, bu ayə İsra gecəsi (Merac gecəsi)[3] beş vaxt namaz

---

1 ət-Təbəri, 18615-18617, 18698-18700.

2 ət-Təbəri, 18610, 18693.

3 Merac gecəsi – Peyğəmbərin ﷺ göyə – Uca Allahın hüzuruna yüksəldiyi gecədir. Merac gecəsi Peyğəmbər ﷺ bir çox peyğəmbərlə görüşmüşdür. Həmin gecə ona "əl-Bəqərə" surəsinin son iki ayəsi (285 və 286-cı ayələr) birbaşa (Cəbrailin vasitəçiliyi olmadan) vəhy edilmişdir. Həmçinin ümmətinə beş vaxt namazın vacibliyi buyurulmuşdur. Bu hədisin tam mətni belədir: Malik ibn Sasaə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ gecə səfəri haqqında (bunları) danışmışdır: "Mən Hatimdə və ya Hicrədə (Kəbəyə bitişik yarımdairə şəklində hörülmüş, hündür olmayan divarla Kəbənin arasındakı yer) uzanmışkən bir nəfər (Cəbrail) yanıma gəldi və bədənimi buradan bura kimi (boğazından və ya köksündən qarnının alt nahiyəsinə qədər) yarıb qəlbimi çıxartdı. Sonra yanıma içi imanla dolu olan qızıl ləyən gətirdilər. Qəlbimi (Zəmzəm suyu ilə) yuduqdan sonra onu (imanla) doldurdular. Sonra mənim yanıma qatırdan alçaq, uzunqulaqdan hündür ağ rəngli bir heyvan gətirdilər". (Hədisi Ənəsdən eşidən Carud) dedi: "Ey Əbu Həmzə, bu, Buraq idimi?" Ənəs dedi: "Bəli, o, addımını insanın gördüyü son

fərz olmamışdan əvvəl nazil olmuşdur. Beş vaxt namaz fərz olmamışdan



nöqtəyə qoyurdu". (Peyğəmbər ﷺ sözünə davam edib dedi:) "Mən heyvana mindikdən sonra Cəbrail məni özü ilə apardı. Nəhayət, dünya səmasına gəlib çatdıqda, o, qapının açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O nə gözəl ziyarətçidir!" Sonra qapılar açıldı. Mən içəri keçdikdə (orada) Adəmi gördüm. (Cəbrail) "Bu, atan Adəmdir, salam ver ona!" – dedi, mən də ona salam verdim. O, mənim salamımı aldı və dedi: "Xoş gəlmisən, ey əməlisaleh oğul və əməlisaleh peyğəmbər!" Sonra biz ikinci səmaya qalxdıq və (Cəbrail) qapının açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O, nə gözəl ziyarətçidir!" Sonra qapılar açıldı. Mən içəri keçdikdə (orada) xalauşaqlarını - Yəhyanı və İsanı gördüm. (Cəbrail) "Bu, Yəhya və İsadır, salam ver onlara!" – dedi, mən də onlara salam verdim. Onlar mənim salamımı aldıqdan sonra dedilər: "Xoş gəlmisən, ey əməlisaleh qardaş və əməlisaleh peyğəmbər!" Sonra biz üçüncü səmaya qalxdıq və (Cəbrail) qapının açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O, nə gözəl ziyarətçidir!" Sonra qapılar açıldı. Mən içəri keçdikdə (orada) Yusufu gördüm. (Cəbrail) "Bu, Yusufdur, salam ver ona!" – dedi, mən də ona salam verdim. O, mənim salamımı aldıqdan sonra dedi: "Xoş gəlmisən, ey əməlisaleh qardaş və əməlisaleh peyğəmbər!" Sonra biz dördüncü səmaya qalxdıq və (Cəbrail) qapının açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O, nə gözəl ziyarətçidir!" Sonra qapılar açıldı. Mən içəri keçdikdə (orada) İdrisi gördüm. (Cəbrail) "Bu, İdrisdir, salam ver ona!" – dedi, mən də ona salam verdim. O, mənim salamımı aldıqdan sonra dedi: "Xoş gəlmisən, ey əməlisaleh qardaş və əməlisaleh peyğəmbər!" Sonra biz beşinci səmaya qalxdıq və (Cəbrail) qapının açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O, nə gözəl ziyarətçidir!" (Sonra qapılar açıldı.) Mən içəri keçdikdə (orada) Harunu gördüm. (Cəbrail) "Bu, Harundur, salam ver ona!" – dedi, mən də ona salam verdim. O, mənim salamımı aldıqdan sonra dedi: "Xoş gəlmisən, ey əməlisaleh qardaş və əməlisaleh peyğəmbər!" Sonra biz altıncı səmaya qalxdıq və (Cəbrail) qapının açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O, nə gözəl ziyarətçidir!" (Sonra qapılar açıldı.) Mən içəri keçdikdə (orada) Musanı gördüm. (Cəbrail) "Bu, Musadır, salam ver ona!" – dedi, mən də ona salam verdim. O, mənim salamımı aldıqdan sonra dedi: "Xoş gəlmisən, ey əməlisaleh qardaş və əməlisaleh peyğəmbər!" Mən onun yanından keçib getdikdə o ağladı. Ondan "Nə üçün ağlayırsan?" – deyə soruşdular. Musa dedi: "Məndən sonra göndərilmiş bu cavan oğlanın ümmətindən Cənnətə daxil olanların sayı, mənim ümmətimdən ora daxil olanların sayından qat-qat artıq olacaq". Sonra biz yeddinci səmaya qalxdıq və (Cəbrail) qapının

əvvəl namazlardan yalnız ikisi vacib idi ki, bunlar da Günəş doğmamışdan

açılmasını xahiş etdi. (Gözətçilər) "Kimdir o?" – deyə soruşdular. O "Cəbraildir!" – dedi. Onlar "Yanındakı kimdir?" – deyə soruşdular. O "Muhəmməddir!" – dedi. Onlar soruşdular: "Onu çağırıblarmı?" Cəbrail "Bəli!" – dedi. Onlar dedilər: "Xoş gəlib, səfa gətirib! O, nə gözəl ziyarətçidir!" (Sonra qapılar açıldı.) Mən içəri keçdikdə (orada) İbrahimi gördüm. (Cəbrail) "Bu, atan İbrahimdir, salam ver ona!" – dedi, mən də ona salam verdim. O, mənim salamımı aldıqdan sonra dedi: "Xoş gəlmisən, ey əməlisaleh qardaş və əməlisaleh peyğəmbər!" Sonra mənə son həddəki Sidr (son hüdud şanaqülləsi. Yeddinci göydə bitən ağac. O, bu adını ona görə alıb ki, yerdən gedən və Allahdan nazil olan hər nə varsa, ona qədər gedib çatır) ağacını göstərdilər. Onun meyvələri Həcər (məmləkətində) düzəldilən saxsı səhənglərə bənzəyirdi, yarpaqları da fil qulaqları boyda idi. (Cəbrail) "Bu, Sidrətul-Muntəhadır" – dedi. Bu ağacın dibindən dörd çay axırdı. Bu çaylardan ikisi altdan, ikisi də üstdən axırdı. Mən soruşdum. "Bu nə çaylardır, ey Cəbrail?" Dedi: "Altdakı çaylar Cənnətdən axır. Üstdəki çaylar isə Nil və Fərat çaylarıdır". Sonra mənə Beytul-Məmuru (yeddinci səmada bilavasitə Kəbənin üstündə yerləşən məbəddir. Hər gün onu yetmiş min mələk ziyarət edir və bir daha ora qayıtmırlar) göstərdilər. (Digər rəvayətdə deyilir: "Mən Cəbraildən onun barəsində soruşdum. Dedi: "Bu, Beytul-Məmurdur. Hər gün onun içində yetmiş min mələk namaz qılır, sonra oradan çıxır və bir daha ora qayıtmır). Sonra mənə bir qab şərab, bir qab süd və bir qab bal gətirdilər. Mən südü götürdüm. Onda (Cəbrail) dedi: "Budur fitrət, sən və sənin ümmətin fitrət üzərindədir (Tövhidə meyillidir)". Sonra mənə gündəlik olaraq əlli (vaxt) namaz qılmaq vacib buyruldu. Mən geri qayıtdım və Musanın yanına gəlib çatdıqda, o (məndən) "Sənə nə əmr edildi?" – deyə soruşdu. Dedim: "Mənə gündəlik əlli vaxt namaz qılmaq vacib buyruldu". Musa dedi: "Sənin ümmətin gündəlik olaraq əlli (vaxt) namazı qıla bilməyəcək. Vallahi ki, mən səndən əvvəl bunu insanlara tətbiq etmək və İsrail oğullarını haqq yola çəkmək istədim, (lakin heç nə alınmadı). Rəbbinin yanına qayıt və Ondan (bu hökmü) yüngülləşdirməyi xahiş et!" Mən Allahın yanına qayıdıb (Ona yalvardım) və O, vacib namazların sayını qırxa endirdi. Sonra mən Musanın yanına qayıtdım və o, (əvvəlcə) dediklərini (mənə) bir də təkrar söylədi. Sonra mən Allahın yanına qayıtdım və Allah vacib namazların sayını otuza endirdi. Sonra mən Musanın yanına qayıtdım və o, (əvvəlcə) dediklərini bir də (mənə) təkrar söylədi. Mən bir də (Allahın) yanına qayıtdım və Allah vacib namazların sayını iyirmiyə endirdi. Sonra mən Musanın yanına qayıtdım və o, (əvvəlcə) dediklərini bir də (mənə) təkrar söylədi. Mən bir daha Allahın yanına qayıtdım və mənə gündəlik olaraq on vaxt namaz qılmaq vacib buyruldu. Sonra mən (Musanın yanına) qayıtdım və o, (əvvəlcə) dediklərini bir də (mənə) təkrar söylədi. Mən (axırıncı kərə Allahın) yanına qayıtdım və mənə gündəlik olaraq beş vaxt namaz qılmaq vacib buyruldu. Sonra mən Musanın yanına qayıtdım və o, məndən "Sənə nə əmr edildi?" – deyə soruşdu. Dedim: "Mənə gündəlik olaraq beş vaxt namaz qılmaq əmr olundu". Musa dedi: "Sənin ümmətin gündəlik olaraq beş (vaxt) namazı qıla bilməyəcək. Mən səndən əvvəl bunu insanlara tətbiq etmək və İsrail oğullarını haqq yola çəkmək istədim, (lakin heç nə alınmadı). Rəbbinin yanına qayıt və Ondan ümmətin üçün (bu hökmü) yüngülləşdirməyi xahiş et!" Dedim: "Mən Rəbbimdən (yetərincə) istədim, artıq (nə isə istəməyə) üzüm gəlmir. Lakin mən (bu hökmlə) razıyam və buna boyun əyirəm". Mən çıxıb getdikdə belə bir səda gəldi: "Mən əzəldən yazdığım hökmü vacib buyurdum, (sonra da) qullarımın yükünü yüngülləşdirdim (Digər hədisdə bu cümlənin tamamı belə rəvayət edilmişdir: "Odur ki, yaxşı əməlin əvəzini on qat verəcəyəm". Yəni hər bir müsəlman beş vaxt namaz qılmaqla əlli namazın savabını qazanır)". (əl-Buxari, 3598, 3674, 3887; Muslim, 234, 429). Digər rəvayətlərdə aşağıdakı əlavələr vardır:

əvvəl və batmamışdan əvvəl qılınan namazlar idi. Gecə əsnasında qılınan namaz isə həm Peyğəmbərə ﷺ, həm də onun ümmətinə vacib idi. Sonra ümmətinə vacibliyi nəsx olundu, Peyğəmbərə ﷺ vacibliyi isə qaldı. Bir rəyə görə ona vacibliyi də nəsx olunmuşdur. Ən doğrusunu isə Allah bilir.

Uca Allah buyurur: "**Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır**", yəni yaxşı işlər görmək keçmiş günahlara kəffarədir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilir ki, bir dəfə Osman ibn Əffan ﵁ Allah Elçisinin ﷺ dəstəmazı kimi dəstəmaz aldı, sonra ətrafındakılara belə dedi: "Mən Allah Elçisinin ﷺ belə dəstəmaz aldığını gördüm. Sonra Peyğəmbər ﷺ dedi: "Mənim kimi dəstəmaz alıb, qəlbindən heç bir şey keçirtmədən (dünyəvi işlər barədə düşünmədən) iki rükət namaz qılan kimsənin keçmiş günahları bağışlanar".[1]

"Səhih" əsərində Əbu Hureyradan ﵁ rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Bir deyin görüm, əgər sizdən birinizin qapısının önündən bolsulu çay axsaydı, o da hər gün bu çayda beş dəfə yuyunsaydı, onun bədənində olan çirkabdan bir şey qalardımı?" Səhabələr "Onun bədənindəki çirkabdan heç nə qalmazdı" – deyə cavab verdikdə Peyğəmbər ﷺ buyurdu: "Beş vaxt qılınan namazların məsəli də buna bənzəyir. Belə ki, Allah bununla günahları silir!"[2]

Muslim "Səhih" əsərində Əbu Hureyradan ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurardı: "Böyük günahlar etmədikcə, beş vaxt namaz, bu namazlar arasında edilən günahların kəffarəsidir. Habelə cümə namazı növbəti cüməyədək, Ramazan orucu isə növbəti Ramazan orucuna qədər olan günahların kəffarəsidir".[3]

əl-Buxari ﵀ İbn Məsuddan ﵁ rəvayət etmişdir ki, bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gəlib ona naməhrəm bir qadını öpdüyünü xəbər

"…(Göy qapıları) açıldıqda biz yaxın göyün üstünə qalxdıq və orada oturmuş bir adam gördük ki, onun sağ və sol tərəfində (insanlardan ibarət) toplumlar var idi. Bu adam sağa baxanda gülür, sola baxanda isə ağlayırdı. O, (məni görüb) dedi: "Əməlisaleh peyğəmbər və əməlisaleh oğul xoş gəlibdir!" Mən Cəbraildən "Bu kimdir?" – deyə soruşdum. Dedi: "Bu Adəmdir, onun sağında və solunda olan toplumlar zürriyyətinin ruhlarıdır. Sağında duranlar Cənnət əhli, solunda duranlar isə Cəhənnəm əhlidir. (Buna görə də) sağına baxanda gülür, soluna baxanda ağlayır…". (əl-Buxari, 336, 342, 349). "…Sonra (Cəbrail) mənimlə elə bir yüksəkliyə qalxdı ki, mən qələmlərin xışıltısını eşitdim". (əl-Buxari, 336, 342, 349). "…Sonra (Cəbrail) məni son həddəki Sidr ağacının yanına apardı. Onun rəngləri vəsfedilməzdir. Sonra məni Cənnətə daxil etdilər. Orada mən incilər düzülmüş boyunbağılar, habelə (Cənnət) torpağının müşk olduğunu gördüm". (əl-Buxari, 336, 342, 349).

[1] əl-Buxari, 155, 159; Muslim, 331, 660.

[2] əl-Buxari, 497, 528; Muslim, 1071, 1554.

[3] Muslim, 233/14, 342, 572.

verdi (bu günahdan necə təmizlənə biləcəyini öyrənmək istədi). Uca Allah da bu ayəni nazil etdi: "**Gündüzün iki başında (əvvəlində və axırında) və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır**". Kişi soruşdu: "Ey Allahın Elçisi! Bu hökm yalnız mənə aiddir?" Peyğəmbər ﷺ dedi: "Bu, mənim ümmətimin hamısına aiddir!"[1]

İmam Əhməd ﷺ Əbu Zərdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ona belə demişdir: "Harada olursansa ol, Allahdan qorx! Pisliyin ardından yaxşılıq et ki, onu silsin və insanlarla gözəl əxlaqla rəftar et!"[2]

﴿فَلَوْلَا كَانَ مِنَ ٱلْقُرُونِ مِن قَبْلِكُمْ أُو۟لُوا۟ بَقِيَّةٍ يَنْهَوْنَ عَنِ ٱلْفَسَادِ فِى ٱلْأَرْضِ إِلَّا قَلِيلًا مِّمَّنْ أَنجَيْنَا مِنْهُمْ ۗ وَٱتَّبَعَ ٱلَّذِينَ ظَلَمُوا۟ مَآ أُتْرِفُوا۟ فِيهِ وَكَانُوا۟ مُجْرِمِينَ ﴿١١٦﴾ وَمَا كَانَ رَبُّكَ لِيُهْلِكَ ٱلْقُرَىٰ بِظُلْمٍ وَأَهْلُهَا مُصْلِحُونَ ﴿١١٧﴾﴾

**116. Gərək sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olardı. Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi. Zülm edənlər isə onlara verilmiş dünyanın ləzzətinə uydular və günahkar oldular.**

**117. Ölkə əhalisi islah edən adamlar olduğu halda Rəbbin o ölkəni haqsız yerə məhv etməz.**

Uca Allah bu ayədə buyurur: "Gərək keçmiş nəsillərdə aralarındakı şər, pislik, günah və yer üzündəki fitnə-fəsaddan çəkindirən xeyir əhli olardı". Uca Allah buyurur: "**Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi**", yəni onların içində bu qisim insanlar az idi, çox deyildi. Allahın qəzəbi və qəfil əzabı o qövmləri haqladığı zaman xilas etdiyi kəslər məhz bunlar olmuşlar. Bu səbəbdən Uca Allah bu şərəfli ümmətə içərisində yaxşı işlər görməyi buyurub pis əməllərdən çəkinməyə çağıran bir camaatın olmasını əmr edərək belə buyurur: "**Qoy içinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır**" ("Ali-İmran", 104). Bir hədisdə belə buyurulur: "İnsanlar pis bir əməl görüb onu dəyişdirməzlərsə, Allah

[1] əl-Buxari, 526, 495, 4319, 4687; Muslim, 4963, 7177.

[2] Bu hədis ən-Nəvəvinin "Qırx hədis" əsərində on səkkizinci hədisdir. Hədis Əbu Zərr və Muazdan ﷺ rəvayət olunur. Hədisi ət-Tirmizi (1987) rəvayət etmiş və həsən olduğunu bildirmişdir. (Əhməd Şakir). ət-Tirmizi, 1987, 2115. Hədis həsəndir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 5083.

onların hamısına əzab göndərər".[1] Odur ki, Uca Allah belə buyurur: "**Gərək sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olardı. Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi**".

Uca Allah buyurur: "**Zülm edənlər isə onlara verilmiş dünyanın ləzzətinə uydular və günahkar oldular**", yəni günah və pis əməllər üzərində qalmaqda davam etdilər və digər insanların onları bu əməllərdən çəkindirməsinə məhəl qoymadılar. Sonda gözləmədikləri bir anda əzab onları haqladı "**və günahkar oldular**".

Sonra Uca Allah bir ölkəni yalnız zülm etdikləri vaxt həlak etdiyini bildirir. Əhalisi islah edən adamlar olan bir ölkəni Allahın əzabı heç vaxt haqlamaz. Allahın əzabı yalnız əhalisi zülm edən adamlar olan bir ölkəyə gəlir. Necə ki başqa ayələrdə belə buyurur: "**Biz onlara zülm etmədik, lakin onlar özləri özlərinə zülm etdilər**" ("Hud", 101); "**Kim yaxşı iş görsə, xeyri özünə, kim də pislik etsə, zərəri öz əleyhinə olar. Sənin Rəbbin qullara zülm edən deyil**" ("Fussilət", 46).

﴿وَلَوْ شَاءَ رَبُّكَ لَجَعَلَ النَّاسَ أُمَّةً وَاحِدَةً ۖ وَلَا يَزَالُونَ مُخْتَلِفِينَ ﴿١١٨﴾ إِلَّا مَن رَّحِمَ رَبُّكَ ۚ وَلِذَٰلِكَ خَلَقَهُمْ ۗ وَتَمَّتْ
كَلِمَةُ رَبِّكَ لَأَمْلَأَنَّ جَهَنَّمَ مِنَ الْجِنَّةِ وَالنَّاسِ أَجْمَعِينَ ﴿١١٩﴾﴾

**118. Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar.**

**119. Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa. Allah onları bunun üçün yaratdı. Rəbbinin "Mən Cəhənnəmi bütün günahkar cinlər və insanlarla dolduracağam!" Sözü yerinə yetəcək.**

Uca Allah bu ayədə bütün insanları iman və ya küfr ümməti olaraq tək bir ümmət etməyə qadir olduğunu xəbər verir. Necə ki başqa bir ayədə belə buyurur: "**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi**" ("Yunus", 99).

Uca Allah buyurur: "**Amma onlar elə hey ixtilafdadırlar. Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa**", yəni insanlar arasında dinlərində, inanclarında, rəylərində və yollarında ixtilaf hələ də davam etməkdədir. "**Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa**", yəni Allahın elçilərinə tabe olan, onların əmr etdikləri dinə əməl edən, gətirdikləri xəbərləri təsdiqləyən Uca Allahın rəhm etdiyi kəslər istisnadır.

[1] əl-Musnəd (2). Əhməd Şakir demişdir: "Hədisin isnadı səhihdir"; Əbu Davud (4337); ət-Tirmizi (3057). ət-Tirmizi hədisin "Həsən-Səhih" olduğunu bildirmişdir; İbn Məcə (4005).

Nəhayət, onlar peyğəmbər və elçilərin sonuncusu, yazıb oxumağı bacarmayan Peyğəmbər ﷺ göndərildikdə ona tabe olmuş, onu təsdiqləmiş, ona yardım edib dəstəkləmiş, beləcə, dünya və axirət xoşbəxtliyini əldə etmişlər. Çünki onlar "Nicat tapmış" firqədirlər. "əl-Musnəd" və "Sunən" əsərlərində bir-birini qüvvətləndirən isnadlarla rəvayət edilmiş bir hədisdə belə deyilir: "Yəhudilər yetmiş bir firqəyə bölünmüşlər. Xaçpərəstlər yetmiş iki firqəyə bölünmüşlər. Bu ümmət isə yetmiş üç firqəyə bölünəcək. Bu firqələrin yalnız biri Cənnətə, yetmiş ikisi isə Cəhənnəmə düşəcək". Səhabələr "Onlar (Cənnətə düşən firqə) hansıdır, ey Allahın Elçisi?" – deyə soruşduqda, Peyğəmbər ﷺ belə buyurdu: "Onlar mənim və səhabələrimin yolu ilə gedənlərdir".[1] Qatədə ﵀ demişdir: "Ölkələri və zahiri görünüşləri müxtəlif olsa da, Allahın rəhmətinə layiq olanlar bir camaatdır. Ölkələri və zahiri görünüşləri eyni olsa da, Allaha asi olanlar firqələrə bölünmüşlər".[2]

Uca Allah buyurur: "**Allah onları bunun üçün yaratdı**". əl-Həsən əl-Bəsri ﵀ bu ayə barədə belə demişdir: "Yəni onları ixtilaf etmələri üçün yaratmışdır".[3] İbn Abbas ﵄ demişdir: "Onları iki firqə yaratmışdır".[4] Bu rəy Uca Allahın "**Onlardan kimi bədbəxt, kimi də xoşbəxt olacaq**" ("Hud", 105) ayəsinə bənzəyir. Bəzi alimlər demişlər: "Yəni onları rəhmət üçün yaratmışdır". İbn Abbas ﵄ demişdir: "Onları əzab üçün deyil, rəhmət üçün yaratmışdır".[5] Mucahid, əd-Dahhək və Qatədə ﵏ də belə demişlər. Bu rəyin mənası Uca Allahın bu ayəsinə aiddir: "**Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım**" ("əz-Zariyat", 56). Bəzi alimlər isə demişlər: "Yəni onları həm rəhmət, həm də ixtilaf üçün yaratmışdır". əl-Həsən əl-Bəsridən ﵀ nəql olunan başqa bir rəvayətdə o, Uca Allahın "**Amma onlar elə hey ixtilafdadırlar. Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa. Allah onları bunun üçün yaratdı**" ayəsinin təfsirində belə demişdir: "İnsanlar müxtəlif dinlərə ayrılmışlar. "**Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa**". Rəbbin kimə rəhm etmişsə, ixtilafa düşməmişdir". Ondan "Onları bunun üçün (ayrılığa düşmələri üçün) yaratmadımı?" – deyə soruşduqda, o belə cavab verdi: "Bunları Cənnət üçün, o birilərini Cəhənnəm üçün, bunları rəhmət üçün, o birilərini isə əzab üçün yaratmışdır".[6] İbn Vəhb ﵀ demişdir: "Bir dəfə Malikdən

[1] Hədis "əl-Mustədrək" (1/129) əsərində Amr ibn Əuf əl-Muzənidən rəvayət olunur. Hədisi, həmçinin Əbu Davud (4596) və ət-Tirmizi (2641) Əbu Hureyradan rəvayət etmişlər. ət-Tirmizi hədisin "Həsən-Səhih" olduğunu bildirmişdir. Oxşar hədisi Əhməd (3/145) Ənəs ibn Malikdən rəvayət etmişdir. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 204.

[2] İbn Əbu Hatim, 11290.

[3] ət-Tabəri, 18719, 18803.

[4] ət-Tabəri, 18726, 18810.

[5] ət-Tabəri, 18739, 18823.

[6] ət-Tabəri, 18702, 18786; İbn Əbu Hatim, 11282.

Uca Allahın "**Amma onlar elə hey ixtilafdadırlar. Yalnız Rəbbinin rəhm etdiyi şəxslərdən başqa. Allah onları bunun üçün yaratdı**" ayəsi barədə soruşdum. O belə cavab verdi: "İnsanların bir qismi Cənnətdə, bir qismi isə Cəhənnəmdə olacaq".[1] İbn Cərir ﷫ də bu rəyi seçmişdir.

Uca Allah buyurur: "**Rəbbinin "Mən Cəhənnəmi bütün günahkar cinlər və insanlarla dolduracağam!" Sözü yerinə yetəcək**". Uca Allah bildirir ki, Öz kamil elmi və hikməti ilə yazdığı qəzavü-qədərdə hökm vermişdir ki, yaratdıqları arasında kimisi Cənnətə, kimisi də Cəhənnəmə düşməyə layiq olacaq. Uca Allah Cəhənnəmi mütləq cin və insan tayfaları ilə dolduracaq. Bu xüsusda Onun böyük hikməti vardır. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ؓ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir dəfə Cənnətlə Cəhənnəm höcətləşdi. Cənnət dedi: "Mənə nə olub ki, içimə ancaq zəif və aciz görünən adamlar girsin?" Cəhənnəm dedi: "Mən məxsusi olaraq inadkarlardan və təkəbbürlülərdən (onlara əzab verməkdən) ötrü yaradılmışam". Onda Qüdrətli və Uca Allah Cənnətə buyurdu: "Sən Mənim rəhmətimsən, Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə rəhm edərəm". Sonra Cəhənnəmə buyurdu: "Sən də Mənim əzabımsan, Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə əzab verərəm. Sizin hər birinizi kifayət qədər insan və cinlə dolduracağam". Qüdrətli və Əzəmətli Allah Cənnətin dolması üçün başqa varlıqlar yaradacaq və onları Cənnətə yerləşdirəcək. Cəhənnəmə gəlincə, o ancaq o zaman dolacaq ki, Allah Öz Ayağını onun üstünə qoyacaq və o "İzzətinə and olsun ki, yetər, yetər!" – deyəcək".[2]

﴿وَكُلًّا نَّقُصُّ عَلَيْكَ مِنْ أَنۢبَآءِ ٱلرُّسُلِ مَا نُثَبِّتُ بِهِۦ فُؤَادَكَ ۚ وَجَآءَكَ فِى هَٰذِهِ ٱلْحَقُّ وَمَوْعِظَةٌ وَذِكْرَىٰ لِلْمُؤْمِنِينَ ﴿١٢٠﴾﴾

**120. Elçilərin xəbərlərindən hər birini sənə söyləyirik ki, bununla sənin ürəyini möhkəmləndirək. Bu sənə haqq, möminlərə isə öyüd-nəsihət və xatırlatma olaraq gəlmişdir.**

Uca Allah bu ayədə buyurur: "Səndən əvvəl gəlib-keçən peyğəmbərlərin qövmləri ilə aralarında baş verən hadisələri, bu peyğəmbərlərin öz qövmləri ilə necə mübarizə apardıqlarını, onlarla necə höcətləşdiklərini, qövmlərinin onları yalançı saymalarına və əziyyətlərinə necə dözdüklərini, Uca Allahın Öz tərəfdarları olan möminlərə necə yardım etdiyini, düşmənləri olan kafirləri isə necə rəzil etdiyini sənə bildirdik. Bütün bu xəbərlər, ey Muhəmməd, sənin qəlbinə qüvvət vermək və səndən əvvəl gəlib-keçən peyğəmbər qardaşlarının sənə nümunə olması üçündür".

[1] ət-Təbəri, 18729, 18813.

[2] əl-Buxari, 4472, 4569, 4850; "Ədəbul-Mufrad" 554, 589.

Uca Allah buyurur: "**Bu sənə haqq, möminlərə isə öyüd-nəsihət və xatırlatma olaraq gəlmişdir**", yəni sənə peyğəmbərlərin hekayələrini, Allahın həm onları, həm də onlara iman gətirən möminləri necə xilas etdiyini, kafirləri isə necə həlak etdiyini ehtiva edən bu surədə kafirləri qorxudan, möminlərə isə ibrət olan nəsihətlər, doğru xəbər və haqq hekayələr gəlmişdir.

﴿وَقُل لِّلَّذِينَ لَا يُؤْمِنُونَ ٱعْمَلُوا۟ عَلَىٰ مَكَانَتِكُمْ إِنَّا عَـٰمِلُونَ ﴿١٢١﴾ وَٱنتَظِرُوٓا۟ إِنَّا مُنتَظِرُونَ ﴿١٢٢﴾﴾

**121. İman gətirməyənlərə de: "Əlinizdən gələni edin, biz də edəcəyik.**

**122. Gözləyin! Biz də gözləyirik".**

Uca Allah bu ayələrdə Öz Elçisinə ﷺ əmr edir ki, Rəbbindən gətirdiklərinə inanmayanları təhdid edərək onlara belə desin: "**Əlinizdən gələni edin**", yəni öz yolunuza uyğun əlinizdən nə gəlirsə edin, "**biz də edəcəyik**", yəni biz də öz yolumuza uyğun hərəkət edəcəyik. "**Gözləyin! Biz də gözləyirik**", yəni Axirət yurdunun gözəl aqibətinin kimə nəsib olacağını biləcəksiniz. Həqiqətən, zalımlar nicat tapmazlar. Uca Allah Öz Elçisinə ﷺ verdiyi vədi yerinə yetirmiş, ona yardım edib dəstəkləmiş, Öz Sözünü ən uca, kafir olanların sözünü isə ən aşağı etmişdir. Allah qüdrətlidir, hikmət sahibidir.

﴿وَلِلَّهِ غَيْبُ ٱلسَّمَـٰوَٰتِ وَٱلْأَرْضِ وَإِلَيْهِ يُرْجَعُ ٱلْأَمْرُ كُلُّهُۥ فَٱعْبُدْهُ وَتَوَكَّلْ عَلَيْهِ ۚ وَمَا رَبُّكَ بِغَـٰفِلٍ عَمَّا تَعْمَلُونَ ﴿١٢٣﴾﴾

**123. Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər də Ona qayıdacaqdır. Elə isə yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et. Rəbbin sizin etdiklərinizdən qafil deyildir.**

Uca Allah bu ayədə göylərin və yerin qeybini bildiyini, sonda bütün işlərin Ona qayıdacağını, haqq-hesab günü hər bir əməl sahibinin etdiyi əməlin qarşılığını tam şəkildə verəcəyini bildirir. Yaratmaq da, əmr etmək də Ona məxsusdur. Uca Allah yalnız Ona ibadət etməyi və yalnız Ona təvəkkül etməyi əmr edir. Uca Allah Ona təvəkkül edib Ona üz tutanlara kifayət edər.

Uca Allah buyurur: “**Rəbbin sizin etdiklərinizdən qafil deyildir**”, yəni ey Muhəmməd, səni yalançı sayanların halı əsla Allaha gizli deyildir. Əksinə, O onların etdiklərini və dediklərini ən yaxşı biləndir. Buna görə onları dünya və axirətdə etdiklərinə tam uyğun bir cəza ilə cəzalandıracaq. Sənə və tərəfdarlarına isə hər iki yurdda (dünya və axirətdə) onlara qarşı yardım edəcək.

**“Hud” surəsinin təfsiri bitdi.**
**Həmd olsun aləmlərin Rəbbinə!**

# الْكَلَامُ عَلَى تَفْسِيرِهَا

# “Yusuf”

## surəsinin təfsiri

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**
**Müvəffəqiyyət yalnız Allahdandır**

## تَفْسِيرُ سُورَةِ يُوسُفَ

## وهِيَ مَكِّيَّةٌ

## Yusuf surəsinin təfsiri
## Məkkə surəsidir

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

﴿الٓرۚ تِلۡكَ ءَايَٰتُ ٱلۡكِتَٰبِ ٱلۡمُبِينِ ۝١ إِنَّآ أَنزَلۡنَٰهُ قُرۡءَٰنًا عَرَبِيّٗا لَّعَلَّكُمۡ تَعۡقِلُونَ ۝٢ نَحۡنُ نَقُصُّ عَلَيۡكَ
أَحۡسَنَ ٱلۡقَصَصِ بِمَآ أَوۡحَيۡنَآ إِلَيۡكَ هَٰذَا ٱلۡقُرۡءَانَ وَإِن كُنتَ مِن قَبۡلِهِۦ لَمِنَ ٱلۡغَٰفِلِينَ ۝٣﴾

**1. Əlif. Ləm. Ra. Bu, açıq-aydın Kitabın ayələridir.**

**2. Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, anlaya biləsiniz.**

**3. Biz bu Quranı sənə vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Halbuki sən bundan əvvəl xəbərsiz olanlardan idin.**

Surələrin əvvəlində qeyd olunan heca hərfləri barədə "əl-Bəqərə" surəsinin əvvəlində ətraflı məlumat verilmişdir.

Uca Allah buyurur: "**Bu, açıq-aydın Kitabın**", yəni anlaşılmayan, qaranlıq qalan məsələləri açıqlayan, təfsir edən Quranın "**ayələridir**".

"**Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, anlaya biləsiniz**". Bu, həqiqətən, belədir, çünki ərəb dili ən səlis, ən aydın, (söz ehtiyatı baxımından) ən geniş, qəlbdən keçən duyğuları ən gözəl şəkildə ifadə edən bir dildir. Bu səbəbdən nazil olmuş müqəddəs kitabların ən şərəflisi olan Quran ən şərəfli dildə, ən şərəfli peyğəmbərə və ən şərəfli mələyin (Cəbrailin ﷺ) elçiliyi ilə yer üzünün ən şərəfli yerində (Məkkədə) nazil olmuşdur. İlk nazil olması ilin ən şərəfli ayı Ramazan ayında

olmuşdur. Beləcə, Quran hər cəhətdən kamilləşmişdir. Bu səbəbdən Uca Allah "**Biz bu Quranı sənə vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq**" – deyə buyurur.

Bu ayələrin nazilolma səbəbi barədə İbn Cərir ﷺ Musab ibn Saddan, o da (atası) Saddan belə bir rəvayət nəql etmişdir: "Uca Allah Öz Elçisinə ﷺ ayələr nazil etdi. O bu ayələri uzun müddət oxudu və səhabələr "Ey Allahın Elçisi! Bizə bir əhvalat danış" – deyə ona müraciət etdilər və Uca Allah da bu ayələri nazil etdi: "**Əlif. Ləm. Ra. Bu, açıq-aydın Kitabın ayələridir. Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, anlaya biləsiniz**". O bu ayələri də bir müddət oxuduqdan sonra səhabələr yenə "Ey Allahın Elçisi! Bizə bir əhvalat danış" – deyə ona müraciət etdilər və Uca Allah bu ayəni nazil etdi: "**Allah Sözün ən gözəlini – ayələri bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi**" ("əz-Zumər", 23). Sonra ravi hədisin qalan hissəsi qeyd edir. Hədisi əl-Hakim ﷺ də rəvayət etmişdir.[1]

Yaxşı olardı ki, Qurana tərif mənasını verən bu ayə ilə yanaşı, onun digər səmavi kitablara ehtiyac duymadığına dair İmam Əhmədin ﷺ rəvayət etdiyi bu hədisi qeyd edək. İmam Əhməd ﷺ Cabir ibn Abdullahdan ﷺ rəvayət etmişdir ki, bir dəfə Ömər ibn əl-Xattab ﷺ Kitab əhlindən olan bir nəfərdən əldə etdiyi bir kitabı Peyğəmbərin ﷺ yanına gətirdi. Ömər bu kitabı Peyğəmbərə ﷺ oxuduqda o qəzəblənib dedi: "Ey Xattabın oğlu, siz də onda (Quranda) çaşqınlığa düşdünüz? Canım Əlində olan Allaha and olsun ki, mən sizə onu ağappaq, tərtəmiz olaraq gətirdim. Yəhudi və xaçpərəstlərdən heç bir şey soruşmayın! Əgər belə etsəniz onlar sizə haqq olan bir xəbəri verdikdə, onu inkar edə bilərsiz və ya yalan bir xəbər verdikdə isə onu təsdiqləmiş olarsınız. Canım Əlində olan Allaha and olsun ki, əgər Musa sağ olsaydı, mənə tabe olmaqdan başqa bir yol seçməzdi".[2]

﴿إِذْ قَالَ يُوسُفُ لِأَبِيهِ يَٰٓأَبَتِ إِنِّى رَأَيْتُ أَحَدَ عَشَرَ كَوْكَبًا وَٱلشَّمْسَ وَٱلْقَمَرَ رَأَيْتُهُمْ لِى سَٰجِدِينَ ۝٤﴾

**4. Bir zaman Yusuf atasına demişdi: "Atacan! Mən yuxuda on bir ulduz, Günəş və Ay gördüm. Gördüm ki, onlar mənə səcdə edirlər".**

[1] İbn Hibban, 6209; ət-Təbəri, 18776, 18861; İbn Əbu Hatim, 11323; əl-Hakim, 3319. əl-Hakim, əz-Zəhəbi, Şueyb əl-Arnavut, Muqbil və Ali Nasr səhih olduğunu bildirmişlər.

[2] Əhməd, 15156, 15195, 15223; İbn Əbu Asim "Sunnə" 50. Hədis həsəndir. Bax: İrvaul-Ğalil, 1589.

Uca Allah bu ayədə buyurur ki, ey Muhəmməd, qövmünə Yusuf barədə danışacağın bu hekayədə onun öz atasına belə dediyini bildir. Yusufun atası Yaqub ﵇ idi. İmam Əhməd ﵀ İbn Ömərdən ﵄ rəvayət etdiyi bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "İbrahimin oğlu İshaq, onun oğlu Yaqub, onun da oğlu Yusuf möhtərəm peyğəmbərdir, özü də möhtərəm peyğəmbərin oğludur, atası da möhtərəm peyğəmbərin oğludur, babası da möhtərəm peyğəmbərin oğludur".[1] Bu hədisi əl-Buxari ﵀ də rəvayət etmişdir. Yenə əl-Buxari ﵀ Əbu Hureyradan ﵁ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbərdən ﷺ "İnsanların ən hörmətlisi kimdir?" – deyə soruşdular. O dedi: "Allahdan ən çox qorxanıdır". Səhabələr dedilər: "Biz səndən bu haqda soruşmuruq". O dedi: "Allahın sevimli dostu İbrahimin oğlu İshaq peyğəmbərin oğlu Yaqub peyğəmbərin oğlu Yusuf peyğəmbərdir". Onlar dedilər: "Biz səndən bu haqda soruşmuruq". O dedi: "Yəqin ki, siz məndən ərəblərin əcdadı barədə soruşursunuz?" Səhabələr "Bəli" – dedilər. Peyğəmbər ﷺ dedi: "Əgər şəriəti başa düşsələr, cahiliyyə dövründə ən xeyirli olanlarınız, İslamda da ən xeyirliləriniz olacaq".[2] İbn Abbas ﵄ demişdir: "Peyğəmbərlərin yuxusu (Allah tərəfindən) vəhydir".[3]

Təfsirçilər bu yuxunun yozumu barədə öz rəylərini bildirmişlər. Belə ki, on bir ulduz Yusufun ﵇ qardaşlarıdır, onlar Yusufdan ﵇ başqa on bir nəfər idi. Günəş və Ay isə onun ata və anasıdır. Bu yozum İbn Abbas, əd-Dahhək, Qatədə və başqalarından rəvayət edilmişdir. Bu yuxu qırx il sonra, başqa bir rəyə görə isə səksən il sonra həyata keçmişdir. O, ata-anasını qardaşlarının qarşısında taxtına çıxarmışdır. Quranda bu, belə izah edilir: "**O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar hamısı onun qarşısında səcdə etdilər. O dedi: "Atacan! Bu, çoxdankı yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O mənə lütf etdi. O məni zindandan çıxardı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan yanıma gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır. Həqiqətən, O, Biləndir, Hikmət sahibidir**" ("Yusuf", 100).

﴿قَالَ يَٰبُنَيَّ لَا تَقۡصُصۡ رُءۡيَاكَ عَلَىٰٓ إِخۡوَتِكَ فَيَكِيدُواْ لَكَ كَيۡدًاۖ إِنَّ ٱلشَّيۡطَٰنَ لِلۡإِنسَٰنِ عَدُوّٞ مُّبِينٞ ٥﴾

**5. O dedi: "Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir.**

[1] Əhməd, 5712. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4610.

[2] əl-Buxari, 3104, 3353.

[3] ət-Tirmizi, 3689, 4053. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 6/166.

Uca Allah bu ayədə xəbər verir ki, Yusuf عليه السلام gördüyü yuxunu atasına danışdığı zaman Yaqub عليه السلام oğluna belə demişdir. Onun yuxusunun yozumu isə bu idi ki, qardaşları ona boyun əyəcək, təzim və hörmət edəcəklər. Çünki ona hörmət və təzim əlaməti olaraq səcdə edəcəklər.[1] Yaqub عليه السلام qorxdu ki, Yusuf عليه السلام yuxusunu qardaşlarına danışar, onlar da buna görə ona həsəd aparar və bu həsəd üzündən Yusufa pislik edərlər. Odur ki, Yaqub عليه السلام ona belə dedi: "**Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar**", yəni sənə hiylə qurub bu hiylə ilə səni öldürərlər. Peyğəmbər ﷺ bir hədisdə belə demişdir: "Sizdən biriniz yaxşı yuxu görərsə, qoy o yuxunu (sevdiyi adama) danışsın. Xoşuna gəlməyən bir yuxu gördükdə isə həmin yuxunun şərindən Allaha sığınsın və yuxusunu heç kimə danışmasın. Əgər belə edərsə, bu yuxu ona zərər verməz".[2]

﴿وَكَذَٰلِكَ يَجْتَبِيكَ رَبُّكَ وَيُعَلِّمُكَ مِن تَأْوِيلِ ٱلْأَحَادِيثِ وَيُتِمُّ نِعْمَتَهُۥ عَلَيْكَ وَعَلَىٰٓ ءَالِ يَعْقُوبَ كَمَآ أَتَمَّهَا
عَلَىٰٓ أَبَوَيْكَ مِن قَبْلُ إِبْرَٰهِيمَ وَإِسْحَٰقَ ۚ إِنَّ رَبَّكَ عَلِيمٌ حَكِيمٌ ۝٦﴾

**6. Beləcə, Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin hər şeyi biləndir, hikmət sahibidir".**



---

[1] Hörmət və təzim əlaməti olaraq insana səcdə etmək əvvəlki ümmətlərdə icazəli idi. Necə ki Uca Allah mələklərə təzim əlaməti olaraq Adəmə عليه السلام səcdə etməyi əmr etmişdir. Lakin bizim ümmətə bu qadağan edildi. Abdullah ibn Əbu Əufə رضي الله عنه rəvayət edir ki, Muaz رضي الله عنه Şamdan gəldiyi zaman Peyğəmbərə ﷺ səcdə etdi. Allah Elçisi ﷺ "Bu nədir, ey Muaz!" – deyə soruşdu. Muaz رضي الله عنه dedi: "Mən Şamda olarkən onların (xaçpərəstlərin) öz rahiblərinə səcdə etdiklərini gördüm və qəlbimdən bunu sənin üçün etmək keçdi" – deyə cavab verdi. Peyğəmbər ﷺ buyurdu: "Əgər mən kiməsə Allahdan başqasına səcdə etməyi əmr etməli olsaydım, o halda qadına öz ərinə səcdə etməyi əmr edərdim. Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, qadın ərinin haqqını ödəməyincə Rəbbinin haqqını ödəmiş sayılmaz. Belə ki, qadın dəvənin belindəki palanın üstündə oturmuş olsa belə, əri onu istədikdə ərinin istəyini yerinə yetirməlidir". (İbn Məcə, 1853). Bu barədə 100-cü ayənin təfsirində ətraflı məlumat veriləcək.

[2] Əhməd, 22583, 22636, 22953; Muslim, 2261, 6060). Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurur: "Qiyamət yaxınlaşdıqca müsəlmanın yuxusu nadir hallarda yalan çıxacaq. Sizdən doğru danışanların yuxusu daha düz çıxacaq. Müsəlmanın yuxusu peyğəmbərliyin qırx beşdə bir hissəsidir. Yuxular üç qisim olur: Birincisi, Allahdan müjdə olan saleh yuxular. İkincisi, şeytanın təlqin etdiyi kədərli yuxular. Üçüncüsü, yaddaşa həkk olunmuş hadisələrlə bağlı yuxular. Sizdən biri xoşa gəlməyən yuxu görərsə, yatağından qalxsın, namaz qılsın və bu yuxunu heç kəsə danışmasın". (əl-Buxari, 6499, 7017. Muslim, 2263, 4200, 6048).

Uca Allah bu ayədə xəbər verir ki, Yaqub عليه السلام oğlu Yusufa عليه السلام belə demişdir: "Rəbbin səni seçib yuxuda Günəş və Ayla birgə ulduzların sənə səcdə etdiyini göstərdiyi kimi, "**Beləcə, Rəbbin səni seçəcək**", yəni peyğəmbərlik vermək üçün seçəcək "**sənə yuxuları yozmağı öyrədəcək**". Mucahid və bir çoxları demişlər: "Yəni yuxuların yozulmasına dair sənə elm verəcək". "**...və Öz nemətini bundan əvvəl ataların**", Allahın sevimli dostu "**İbrahimə və**" onun oğlu "**İshaqa tamamladığı kimi**" peyğəmbərlik verib vəhy etməklə "**sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin hər şeyi biləndir, hikmət sahibidir**", yəni Allah kimə peyğəmbərlik verəcəyini daha yaxşı bilir.

﴿۞ لَّقَدْ كَانَ فِي يُوسُفَ وَإِخْوَتِهِۦٓ ءَايَٰتٌ لِّلسَّآئِلِينَ ﴿٧﴾ إِذْ قَالُوا۟ لَيُوسُفُ وَأَخُوهُ أَحَبُّ إِلَىٰٓ أَبِينَا مِنَّا وَنَحْنُ عُصْبَةٌ
إِنَّ أَبَانَا لَفِي ضَلَٰلٍ مُّبِينٍ ﴿٨﴾ ٱقْتُلُوا۟ يُوسُفَ أَوِ ٱطْرَحُوهُ أَرْضًا يَخْلُ لَكُمْ وَجْهُ أَبِيكُمْ وَتَكُونُوا۟ مِنۢ بَعْدِهِۦ
قَوْمًا صَٰلِحِينَ ﴿٩﴾ قَالَ قَآئِلٌ مِّنْهُمْ لَا تَقْتُلُوا۟ يُوسُفَ وَأَلْقُوهُ فِي غَيَٰبَتِ ٱلْجُبِّ يَلْتَقِطْهُ بَعْضُ ٱلسَّيَّارَةِ إِن
كُنتُمْ فَٰعِلِينَ ﴿١٠﴾﴾

**7. Sözsüz ki, Yusuf və onun qardaşlarının hekayətində soruşanlar üçün ibrətlər vardır.**

**8. Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusuf və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir.**

**9. Yusufu ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olasınız".**

**10. Onlardan biri dedi: "Yusufu öldürməyin! Əgər ona qarşı hökmən nə isə etmək istəyirsinizsə, onda onu bir quyunun dibinə atın ki, karvanlardan biri onu götürsün!"**

Uca Allah buyurur ki, Yusufun əhvalatında, habelə qardaşları ilə arasında baş verən hadisələrdə bu barədə soruşan və elmə sahib olmaq istəyənlər üçün ibrət, nəsihət və dəlillər vardır. Həqiqətən, bu çox qeyri-adi və öyrənilməyə dəyən bir əhvalatdır. "**Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə**", yəni camaat və çoxluq "**olmağımıza baxmayaraq Yusuf və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir**", yəni onlar belə zənn edərək and içmişlər: "Allaha and olsun ki, biz camaat olduğumuz halda Yusuf və qardaşı – onun anabir qardaşı Binyamini nəzərdə tutmuşlar – atamıza bizdən daha sevimlidir. Bu ikisi (Yusuf və

qardaşı) atamıza bizdən, yəni camaatdan necə sevimli ola bilər? "**Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir**", yəni onları üstün tutub bizdən daha çox sevməklə açıq-aşkar bir yanlışlıq içindədir.

"**Yusufu ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olasınız**". Qardaşlar belə dedilər: "Atanızın sizi sevməsinə əngəl olan maneəni (Yusufu) atanızın gözünün qarşısından yox edin ki, o sadəcə sizinlə maraqlansın. Bunu ya onu öldürməklə, ya da kimsəsiz bir əraziyə atmaqla edin. Beləliklə, ondan canınız qurtaracaq və atanız tərəfindən seviləcəksiniz. Onu aradan götürdükdən sonra isə əməlisaleh bir qövm olarsınız". Beləcə, onlar günah əməl etməzdən əvvəl qəlblərində bu günahdan tövbə etməyi də gizlətmiş oldular.

"**Onlardan biri dedi: ...**" Qatədə və Muhəmməd ibn İshaq ﷺ demişlər: "Bunu deyən ən böyük qardaş Rubil idi".[1] "**Yusufu öldürməyin!**" Yəni Yusufa qarşı olan düşmənçiliyiniz və kininiz sizi onu öldürmək həddinə çatdırmasın. Halbuki onların Yusufu öldürmələri qeyri-mümkün idi. Çünki Uca Allah onun barəsində mütləq yerinə yetəcək və tamamlanacaq bir işin olmasını istəmişdi. Həmin iş Uca Allahın ona vəhy etməsi, peyğəmbərlik verməsi, Misir ölkəsinə yerləşdirməsi və orada ona hökmranlıq verməsi idi. Uca Allah Rubilin "**onu bir quyunun dibinə atın**" – deyərək qardaşlarına verdiyi məsləhət ilə onları bu fikirdən (onu öldürmək fikrindən) daşındırdı. Qatədə ﷺ bu quyunun Beytul-Məqdisdə olduğunu demişdir. "**... karvanlardan biri onu götürsün**", yəni yoldan keçənlər onu götürsün və beləcə, ondan qurtulasınız. Onu öldürməyə ehtiyac yoxdur. "**Əgər ona qarşı hökmən nə isə etmək istəyirsinizsə...**", yəni əgər söylədiyinizi etməyə qəti qərar vermisinizsə, belə (mən dediyim kimi) edin.

Muhəmməd ibn İshaq ﷺ demişdir: "Onlar qohumluq əlaqələrini kəsmək, ataya asi olmaq, heç bir günahı olmayan zəif və kiçik bir uşağa, habelə haqq, hörmət və fəzilət sahibi olan yaşlı bir insana qarşı mərhəmətsizlik göstərmək kimi böyük bir günahı etməyi aralarında qərarlaşdırmışdılar. Onların bu qərarı Allah dərgahında böyük bir günah sayılır. Bununla belə sümüklərinin zəifliyinə, yaşının ahıllığına baxmayaraq, atanı sevimli oğlundan ayırmaqla onun övlad üzərindəki haqqını yerinə yetirməsinə mane oldular. Bunlarla yanaşı, ataları kiçik uşağı sevdiyinə görə Allah dərgahında yüksək məqama sahib idi. Atasından ayrı düşən isə zəif, azyaşlı, valideyn qayğısına və himayəsinə möhtac bir uşaq idi. Allah onları bağışlasın! Həqiqətən, O, rəhm edənlərin ən rəhmlisidir. Həqiqətən, onlar öz üzərlərinə böyük bir günah götürmüşlər".[2]

---

[1] ət-Təbəri, 18799-18800, 18882-18884.

[2] İbn Əbu Hatim, 11360.

﴿قَالُوا۟ يَٰٓأَبَانَا مَا لَكَ لَا تَأْمَ۫نَّا عَلَىٰ يُوسُفَ وَإِنَّا لَهُۥ لَنَٰصِحُونَ ﴿١١﴾ أَرْسِلْهُ مَعَنَا غَدًا يَرْتَعْ وَيَلْعَبْ وَإِنَّا لَهُۥ لَحَٰفِظُونَ ﴿١٢﴾﴾

**11. Onlar dedilər: "Ey atamız! Sənə nə olub ki, Yusufu bizə etibar etmirsən? Həqiqətən də, biz ona xeyir arzulayırıq.**

**12. Sabah onu bizimlə göndərsən, bir qədər əylənib oynayar. Biz onu mütləq qoruyarıq!"**

Böyük qardaşları Rubilin onlara məsləhət verdiyi kimi, Yusufu ﷺ quyuya atmağı planlaşdırdıqda, ataları Yaqubun ﷺ yanına gəlib dedilər: "**Ey atamız! Sənə nə olub ki, Yusufu bizə etibar etmirsən? Həqiqətən də, biz ona xeyir arzulayırıq**". Bu onların iddiası və edəcəkləri işə bir hazırlıq idi. Əslində, onlar atalarının Yusufa ﷺ olan sevgisindən dolayı ona həsəd aparır və buna görə dediklərinin tam əksini etmək istəyirdilər. "**Sabah onu bizimlə göndərsən, bir qədər əylənib oynayar**". Bəzi qarilər ayəni birinci şəxsin cəmində نَرْتَعْ ونَلْعَبْ [nərtə və nəl'əb] "bir qədər əylənib oynayaq", bəziləri isə bu feilləri 3-cü şəxsdə يَرْتَعْ ويَلْعَبْ [yərtə və yəl'əb] "**bir qədər əylənib oynayar**" şəklində oxumuşlar.[1] Yəni "sabah onu bizimlə birlikdə göndər ki, gəzib-oynasın" – dedilər. İbn Abbas رضي الله عنهما demişdir: "Yəni qaçsın və sevinsin". Qatədə, əd-Dahhak, əs-Suddi və başqaları da ayəni bu şəkildə təfsir etmişlər. "**Biz onu mütləq qoruyarıq!**" Yəni biz onu sənin üçün qoruyar və mühafizə edərik.

﴿قَالَ إِنِّى لَيَحْزُنُنِىٓ أَن تَذْهَبُوا۟ بِهِۦ وَأَخَافُ أَن يَأْكُلَهُ ٱلذِّئْبُ وَأَنتُمْ عَنْهُ غَٰفِلُونَ ﴿١٣﴾ قَالُوا۟ لَئِنْ أَكَلَهُ ٱلذِّئْبُ وَنَحْنُ عُصْبَةٌ إِنَّآ إِذًا لَّخَٰسِرُونَ ﴿١٤﴾﴾

**13. O dedi: "Doğrusu, onu aparmağınız məni narahat edər. Həm də qorxuram ki, sizin başınız oyuna qarışıb onu nəzarətsiz qoyduqda, canavar onu yesin".**

**14. Onlar dedilər: "Biz bütöv bir dəstə olduğumuz halda canavar onu yesə, onda biz ziyana uğrayarıq".**

---

[1] Ayənin نَرْتَعْ ونَلْعَبْ [nərtə və nəl'əb] "bir qədər əylənib oynayaq" şəklində oxunması qiraət alimləri İbn Kəsirə və Əbu Amr ibn Amirə رحمه الله aiddir. Yerdə qalan yeddi qiraətdə isə يَرْتَعْ ويَلْعَبْ [yərtə və yəl'əb] "**bir qədər əylənib oynayar**" şəklində oxunmuşdur. Hafiz İbn Kəsir رحمه الله də birinci qiraəti seçmişdir.

Uca Allah bu ayələrdə xəbər verir ki, Yusufun qardaşları Yaqubdan onu özləriylə birlikdə səhraya mal-qara otarmağa aparmağı xahiş etdikdə, Yaqub ﷵ oğullarına cavab olaraq belə dedi: "**Dorğusu, onu aparmağınız məni narahat edər**", yəni sizin gedib qayıtdığınız müddətdə ondan ayrı qalmaq mənə çətin gələr. Yaqub ona güclü sevgi bəsləyirdi. Çünki onda böyük xeyirin əlamətlərini sezmiş, həm yaradılış, həm də xasiyyət baxımından kamillik və peyğəmbərlik əlamətlərini görmüşdü. Ona Allahın salavatı və salamı olsun!

"**Həm də qorxuram ki, sizin başınız oyuna qarışıb onu nəzarətsiz qoyduqda, canavar onu yesin**", yəni qorxuram başınız ox atmağa və çobanlıq etməyə qarışdığı zaman ondan xəbərsiz olarsız və qurd gəlib onu yeyər. Qardaşlar Yaqubun ﷵ ağızından bu sözü alıb, tutduqları əməldə bundan bir bəhanə kimi istifadə etdilər. Ona cavab olaraq dərhal belə dedilər: "**Biz bütöv bir dəstə olduğumuz halda canavar onu yesə, onda biz ziyana uğrayarıq**", yəni əgər bizim aramızda qurd hücum edib onu yeyərsə, onda, həqiqətən, biz aciz, həlak olmuş və ziyana uğramış olarıq.

﴿فَلَمَّا ذَهَبُوا۟ بِهِۦ وَأَجْمَعُوٓا۟ أَن يَجْعَلُوهُ فِى غَيَٰبَتِ ٱلْجُبِّ ۚ وَأَوْحَيْنَآ إِلَيْهِ لَتُنَبِّئَنَّهُم بِأَمْرِهِمْ هَٰذَا وَهُمْ لَا يَشْعُرُونَ ١٥﴾

**15. Qardaşları onu aparıb quyunun dibinə atmaq qərarına gəldikdə biz ona belə vəhy etdik: "Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən".**

Uca Allah bu ayədə buyurur ki, qardaşlar atalarına müraciət etdikdən sonra Yusufu onun yanından götürüb apardılar və onu "**quyunun dibinə atmaq qərarına**" gəldilər. Bu, onların etdiklərinin nə qədər böyük bir günah olduğuna işarə edir. Belə ki, qardaşların hamısı çoxdan Yusufu ﷵ quyunun dibinə atmağı qərara almış və bunda razılığa gəlmişdilər. Atalarının qəlbi arxayın və rahat olsun deyə, üzdə Yusufa ﷵ dəyər verib hörmət etdiklərini göstərərək, onu atalarından aldılar. Deyilənə görə Yaqub Yusufu ﷵ onlarla göndərərkən onu bağrına basıb öpmüş və ona dua etmişdir. əs-Suddi və başqaları demişlər: "Onlar atalarının gözündən itər-itməz dərhal Yusufa hörmətsizlik edərək onu söyüb-döymüş, həm sözdə, həm də əməldə ona əziyyət verməyə başlamışlar. Daha sonra Yusufu atmağa qərar verdikləri quyunun başına gəlib onu ipə bağlayaraq quyunun dibinə salmışlar. Yusuf qardaşlarından birinə sarıldıqda sarıldığı qardaşı onu şillələyib söyürmüş. Quyunun kənarından tutmağa cəhd etdikdə isə əllərinə vurmuş və quyunun yarısına çatdıqda ipi kəsmişlər. Yusuf əvvəlcə suya düşmüş, daha sonra quyunun ortasında olan qayaya dırmaşmışdır. Bu qayaya ərəbcə **الرَّاغُوفَةُ** [ər-ra:ğu:fə] deyilir. Yusuf onun ortasında dayanmışdır".

Uca Allah buyurur: "**...biz ona belə vəhy etdik: "Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən**". Uca Allah bu ayədə Öz lütfünü, mərhəmətini və çətinlik anında asanlıq endirdiyini xatırladır. Belə ki, çətin durumda Yusufun ﷺ qəlbini xoş etmək və onu sabit etmək üçün ona belə vəhy etmişdir: "Düşdüyün bu çətinliyə görə kədərlənmə. Həqiqətən, bu çətinlikdən sənin üçün gözəl bir qurtuluş və çıxış yolu vardır. Allah onlara qarşı sənə yardım edəcək. Səni ucaldacaq və dərəcəni qaldıracaq. Vaxt gələcək onlara etdikləri bu iş barədə xəbər verəcəksən. Həmin vaxt onlar səni tanımayacaq və sənin Yusuf olduğunu hiss etməyəcəklər".

﴿وَجَاءُو أَبَاهُمْ عِشَاءً يَبْكُونَ ﴿١٦﴾ قَالُوا يَا أَبَانَا إِنَّا ذَهَبْنَا نَسْتَبِقُ وَتَرَكْنَا يُوسُفَ عِنْدَ مَتَاعِنَا فَأَكَلَهُ
الذِّئْبُ ۖ وَمَا أَنْتَ بِمُؤْمِنٍ لَنَا وَلَوْ كُنَّا صَادِقِينَ ﴿١٧﴾ وَجَاءُو عَلَىٰ قَمِيصِهِ بِدَمٍ كَذِبٍ ۚ قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ
أَنْفُسُكُمْ أَمْرًا ۖ فَصَبْرٌ جَمِيلٌ ۖ وَاللَّهُ الْمُسْتَعَانُ عَلَىٰ مَا تَصِفُونَ ﴿١٨﴾﴾

**16. Onlar axşam ağlaya-ağlaya atalarının yanına gəlib**

**17. dedilər: "Ey atamız! Biz Yusufu əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən".**

**18. Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. Yaqub dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır".**

Uca Allah bu ayələrdə qardaşların Yusufu ﷺ quyuya atdıqdan sonra nələr etdiklərini bildirir. Onlar gecə qaranlıq düşdükdə atalarının yanına ağlayıb fəryad qoparaq, yalandan Yusufa ﷺ görə kədərlənib təəssüf hissi keçirdiklərini göstərərək qayıtdılar. Uydurduqları hadisəyə görə üzrxahlıq edərək belə dedilər: "**Ey atamız! Biz Yusufu əşyalarımızın**", yəni paltarlarımızın və yeməklərimizin "**yanında qoyub yarışmaq üçün getmişdik**", yəni ox atıb yarışmaq üçün getmişdik. "**Canavar da onu yedi**". Yaqubun Yusufa ﷺ görə qorxduğu və onun qardaşlarını xəbərdar etdiyi də məhz bu idi.

Qardaşlar atalarına "**Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən**" deməklə onu uydurduqları yalana inandırmağa çalışmışlar və bu onların hiyləgərcəsinə davrandıqlarını göstərir. Onlar demişlər:

"Biz doğru danışan insanlar olsaq da sənin bizə inanmayıb dediklərimizi təsdiqləməyəcəyini bilirik. Bizi bunda necə ittiham etməyəsən axı? Sən onu canavar yeyəcəyindən qorxurdun və təəssüf ki, belə də oldu, onu canavar yedi. Bu hadisənin qəribəliyinə və sənin əvvəlcədən dediyinlə baş verən hadisənin üst-üstə düşməsinə görə bizi yalançı saymağa haqqın var".

Uca Allah buyurur: "**Qardaşları onun köynəyinə saxta**", yəni yalançı "**qan ləkəsi sürtüb gətirdilər**". Bu onların toplu şəkildə Yusufa عليه السلام qarşı qurduqları hiyləni qüvvətləndirmək üçün etdikləri bir əməl idi. Mucahid, əs-Suddi və bir çoxlarının qeyd etdiklərinə görə, onlar bir quzu kəsmiş və canavar Yusufu عليه السلام yeyərkən əynində bu köynək varmış təsəvvürünü yaratmaq üçün Yusufun paltarına həmin quzunun qanını bulaşdırmışlar. Qanı köynəyə bulaşdırmışlar, lakin onu cırmağı və parçalamağı unutmuşlar. Bu səbəbdən Allahın peyğəmbəri Yaqub عليه السلام onların dediklərinə inanmadı. Əksinə, qəlbində onların bu işi birlikdə etdiklərinə dair şübhə yarandı və onlardan üz döndərib belə dedi: "**Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir**", yəni sizin birlikdə qərar verdiyiniz və etdiyiniz bu işə qarşı Uca Allah Öz yardımı və lütfü ilə mənə yardım edənə qədər gözəl bir şəkildə səbir edəcəyəm. "**Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır**", yəni sizin danışdığınız bu yalan və baş verməsi mümkün olmayan hadisələrə qarşı yalnız Allahdan yardım diləmək lazımdır. İbn Abbas رضي الله عنهما Uca Allahın "**Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər**" ayəsi barədə belə demişdir: "Əgər onu yırtıcı heyvan yemiş olsaydı, əlbəttə, köynəyini də parçalayardı".[1] əş-Şabi, əl-Həsən, Qatədə və bir çoxları da belə demişlər. Mucahid رحمه الله demişdir: "Gözəl səbir – ah-fəryad qoparmadan edilən səbirdir".[2] əl-Buxari "Yusuf" surəsinin təfsirində "Aişə barədə yalan xəbər gətirənlər" başlığı altında Aişənin رضي الله عنها hədisini qeyd etmiş və onun (ona atılan iftiraları bildikdə) belə dediyini bildirmişdir: "Allaha and olsun ki, mən həm özümə, həm də sizə ancaq Yusufun atası Yaqubun dediyini misal çəkə bilərəm. Bir zaman o belə demişdir: "**Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır**".[3]



[1] ət-Təbəri, 18851, 18935.
[2] ət-Təbəri, 18866, 18950.
[3] əl-Buxari, 4322, 4690.

﴿وَجَآءَتۡ سَيَّارَةٞ فَأَرۡسَلُواْ وَارِدَهُمۡ فَأَدۡلَىٰ دَلۡوَهُۥۖ قَالَ يَٰبُشۡرَىٰ هَٰذَا غُلَٰمٞۚ وَأَسَرُّوهُ بِضَٰعَةٗۚ وَٱللَّهُ عَلِيمُۢ بِمَا
يَعۡمَلُونَ ١٩ وَشَرَوۡهُ بِثَمَنِۭ بَخۡسٖ دَرَٰهِمَ مَعۡدُودَةٖ وَكَانُواْ فِيهِ مِنَ ٱلزَّٰهِدِينَ ٢٠﴾

**19. Quyunun yaxınlığına bir karvan gəldi və suçularını su dalınca göndərdilər. O, su qabını quyuya saldı və "Şad xəbər! Burada bir oğlan uşağı var!" – dedi. Onlar onu satmaq üçün gizlətdilər. Allah isə onların nə etdiklərini bilirdi.**

**20. Onlar onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar. Onların ona heç rəğbətləri də yox idi.**

Uca Allah bu ayələrdə qardaşlarının Yusufu عليه السلام quyuya atıb tək buraxdıqları zaman onun başına gələnləri xəbər verir. İbn İshaq رحمه الله demişdir: "Qardaşları Yusufu quyuya atdıqdan sonra həmin gün quyunun ətrafında oturub onun nə edəcəyini və ona nə olacağını müşahidə etməyə başladılar. Bu vaxt Uca Allah onun üçün bir karvan göndərdi. Bu karvan o quyuya yaxın bir yerdə düşərgə saldı və suçularını su dalınca göndərdi. Suçu – karvan üçün su axtaran və su tədarükü görən şəxsdir. Suçu quyuya gəlib su qabını oraya saldıqda Yusuf su qabından sallandı və suçu onu çıxardıb "**Şad xəbər! Burada bir oğlan uşağı var!**" – deyərək karvan əhlini müjdələdi".

Uca Allah buyurur: "**Onlar onu satmaq üçün gizlətdilər**", yəni suçular onu digər karvan əhlindən gizlətdilər və quyudan çıxardıqlarını bildikləri halda onlara şərik olacaqlarından qorxub "Biz onu su sahiblərindən satın aldıq və onu özümüzə bir mal olaraq götürdük" – dedilər. Bu təfsir Mucahid, əs-Suddi və İbn Cəririndir. İbn Abbas رضي الله عنهما Uca Allahın "**Onlar onu satmaq üçün gizlətdilər**" ayəsi barədə belə demişdir: "Burada Yusufun qardaşları nəzərdə tutulur. Onlar Yusufun qardaşı olduqlarını gizlətdilər. Yusuf da, həmçinin qardaşlarının onu öldürəcəyindən qorxub susdu və satılmağı seçdi. Yusufun qardaşları Yusufun quyuda olduğunu karvanın suçularından birinə bildirdilər və o yoldaşlarına "**Şad xəbər! Burada**" satdıq "**bir oğlan uşağı var!**" – deyə səsləndi. Beləcə, qardaşları onu satdı".[1]

Uca Allah buyurur: "**Allah isə onların nə etdiklərini bilirdi**", yəni Yusufun عليه السلام qardaşlarının və onu alanların nə etdiklərini ən yaxşı bilən Odur. O bunu dəyişdirməyə və buna mane olmağa, əlbəttə, Qadirdir. Lakin əvvəlcədən müəyyən etdiyi qəzavü-qədəri yerinə yetsin deyə Öz

[1] ət-Təbəri, 18898, 18982.

hikməti ilə hadisələri öz məcrasında saxlamışdır. Əslində yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah ən Əzəmətli, xeyiri və bərəkəti bol olandır. Uca Allah bu hadisə ilə Elçisi Muhəmmədə ﷺ bildirir ki, həqiqətən, Mən qövmünün sənə verdikləri əziyyəti ən yaxşı bilənəm. Onların etdiklərini dəf etməyə qadirəm. Lakin Mən, onlara möhlət verirəm. Sonra sənə xoş aqibət nəsib edəcək, onların isə əleyhinə hökm edəcəyəm. Necə ki Yusufa qardaşlarına qarşı hökm və gözəl aqibət nəsib etdim.

Uca Allah buyurur: "**Onlar onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar**", yəni qardaşları Yusufu ucuz bir qiymətə satdılar. Bu təfsir Mucahid və İkrimənindir. Ayədə keçən الْبَخْسُ [əl-bəxs] "**dəyərsiz**" sözü "naqis", "az" mənasındadır. Yəni qardaşları onun qarşılığında çox az məbləğ aldılar. Bununla belə "**Onların ona heç rəğbətləri də yox idi**", yəni onu yanlarında saxlamaq istəmirdilər. Ona qarşı heç bir rəğbətləri yox idi. Əgər onu qarşılıqsız istəsəydilər ona da razı olardılar. Bu səbəbdən Uca Allah ayədə "**bir neçə dirhəmə satdılar**" buyurur. İbn Məsuddan رضي الله عنه rəvayət edilir ki, qardaşları Yusufu عليه السلام iyirmi dirhəmə satmışlar. Mucahid رحمه الله isə bu məbləğin iyirmi iki dirhəm olduğunu bildirmişdir.[1] əd-Dahhək رحمه الله Uca Allahın "**Onların ona heç rəğbətləri də yox idi**" ayəsi barədə belə demişdir: "Çünki onlar onun peyğəmbərliyini və Allah yanında dərəcəsini bilmirdilər".[2]

﴿وَقَالَ ٱلَّذِى ٱشْتَرَىٰهُ مِن مِّصْرَ لِٱمْرَأَتِهِۦٓ أَكْرِمِى مَثْوَىٰهُ عَسَىٰٓ أَن يَنفَعَنَآ أَوْ نَتَّخِذَهُۥ وَلَدًا ۚ وَكَذَٰلِكَ
مَكَّنَّا لِيُوسُفَ فِى ٱلْأَرْضِ وَلِنُعَلِّمَهُۥ مِن تَأْوِيلِ ٱلْأَحَادِيثِ ۚ وَٱللَّهُ غَالِبٌ عَلَىٰٓ أَمْرِهِۦ وَلَٰكِنَّ أَكْثَرَ ٱلنَّاسِ لَا
يَعْلَمُونَ ﴿٢١﴾ وَلَمَّا بَلَغَ أَشُدَّهُۥٓ ءَاتَيْنَٰهُ حُكْمًا وَعِلْمًا ۚ وَكَذَٰلِكَ نَجْزِى ٱلْمُحْسِنِينَ ﴿٢٢﴾﴾

**21. Onu alan misirli öz arvadına: "Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək" – dedi. Beləliklə, Yusufu yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların çoxu bunu bilmir.**

**22. Yusuf yetkinlik yaşına çatdıqda Biz ona mühakimə yürütmək bacarığı və elm verdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq.**

Uca Allah bu ayələrdə Yusufa lütf göstərdiyini, Misirdə onu almaq üçün bir adam göndərdiyini, bu adamın ona qayğı göstərib hörmət etdiyini,

[1] ət-Təbəri, 18920-18932, 19003-19015.
[2] ət-Təbəri, 18937, 19020.

ailəsinə ona yaxşı baxmağı tövsiyə etdiyini, onda xeyir və əməlisalehlik sezdiyini xəbər verir. Onu alan adam zövcəsinə belə demişdir: "**Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək**". Misirdə onu alan şəxs Misirin adlı-sanlı insanlarından biri idi. O, vəzir idi. İbn Abbas ﵄ onun Misir xəzinələrinə cavabdeh olan Qitfir adlı bir şəxs olduğunu demişdir. Həmin vaxt Misir hökmdarı Əməliq qəbiləsindən Rayyən ibn Valid adlı bir nəfər idi. Vəzirin zövcəsinin adı isə Rail bint Rəail idi.[1] Digər təfsirçilərə görə isə qadının adı Züleyxa olmuşdur.

Uca Allah buyurur: "**Beləliklə, Yusufu yer üzündə**", yəni Misirdə "**yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır**", yəni bir işin baş verməsini istədikdə, onun qarşısını heç nə ala bilməz, heç nə ona mane ola bilməz və heç kim ona qarşı çıxa bilməz. Əksinə, O yaratdığı hər şeyə qalibdir. "**Lakin insanların çoxu bunu bilmir**", yəni insanların çoxu Allahın yaradılmışlar barədə hikmətini və istədiyinə lütf göstərməsini anlaya bilmir.

Uca Allah buyurur: "**Yusuf yetkinlik yaşına çatdıqda**", yəni ağlı və yaradılışı kamala çatdıqda, "**Biz ona mühakimə yürütmək bacarığı və elm verdik**". Burada peyğəmbərlik nəzərdə tutulur. Uca Allah o qövmlər arasında peyğəmbərliyi ona vermişdi. "**Biz yaxşı iş görənləri belə mükafatlandırırıq**", yəni, həqiqətən, Yusuf ﵇ Rəbbinə itaət edirdi və yaxşı işlər görürdü. Yusufun ﵇ yetkinlik yaşı barədə ixtilaf edilmişdir. İbn Abbas, Mucahid və Qatədə ﵏ otuz üç yaş demişlər. əd-Dahhək iyirmi, əl-Həsən qırx, əs-Suddi ﵀ isə otuz yaş demişdir. İmam Malik ﵀ demişdir: "Yetginlik yaşı həddi-büluğa çatmaqdır".[2] Bu rəylərdən başqa rəylər də deyilmişdir. Ən doğrusunu isə Allah bilir.

﴿وَرَٰوَدَتۡهُ ٱلَّتِي هُوَ فِي بَيۡتِهَا عَن نَّفۡسِهِۦ وَغَلَّقَتِ ٱلۡأَبۡوَٰبَ وَقَالَتۡ هَيۡتَ لَكَۚ قَالَ مَعَاذَ ٱللَّهِۖ إِنَّهُۥ رَبِّيٓ أَحۡسَنَ مَثۡوَايَۖ إِنَّهُۥ لَا يُفۡلِحُ ٱلظَّٰلِمُونَ ٢٣﴾

**23. Evində qaldığı qadın onu yoldan çıxarmaq istədi və qapıları bağlayıb "Yanıma gəl!" – dedi. O isə "Allaha sığınıram! Axı sənin ərin mənim ağamdır, mənə yaxşı baxmışdır. Şübhəsiz ki, zalımlar nicat tapmazlar!" – dedi.**

---

[1] ət-Təbəri, 18941-18943, 19024-19026.
[2] ət-Təbəri, 14151, 14209.

Uca Allah bu ayədə Yusufun عليه السلام Misirdə evində qaldığı vəzirin zövcəsi barədə xəbər verir. Əri qadına Yusufa عليه السلام yaxşı baxmağı tövsiyə etmişdi. "**Evində qaldığı qadın onu yoldan çıxartmaq istədi**", yəni onda özünə qarşı həvəs oyatmaq istədi. Yusuf عليه السلام yaraşıqlı olduğu üçün qadın onu çox sevmişdi və bu sevgi onu Yusuf عليه السلام üçün bəzənməyə sövq etdi. Qadın Yusufun عليه السلام üzünə qapıları bağlayıb onu özünə tərəf çağıraraq "**Yanıma gəl!" – dedi**". Yusuf عليه السلام bundan qəti şəkildə imtina edərək "**Allaha sığınıram! Axı sənin ərin mənim ağamdır, mənə yaxşı baxmışdır" – dedi**". Onlar "rəbb" sözünü "ağa", "böyük" mənasında işlədirdilər. Yəni Yusuf عليه السلام belə demək istəmişdi: "Həqiqətən, sənin ərin mənim ağamdır. O mənə yaxşı baxmış və yaxşılıq etmişdir. Mən onun bu yaxşılığına ailəsi ilə zina etməklə qarşılıq verə bilmərəm. Çünki "**Şübhəsiz ki, zalımlar nicat tapmazlar!**" Mucahid, əs-Suddi, Muhəmməd ibn İshaq və başqaları da belə demişlər.

﴿وَلَقَدْ هَمَّتْ بِهِۦ ۖ وَهَمَّ بِهَا لَوْلَآ أَن رَّءَا بُرْهَـٰنَ رَبِّهِۦ ۚ كَذَٰلِكَ لِنَصْرِفَ عَنْهُ ٱلسُّوٓءَ وَٱلْفَحْشَآءَ ۚ إِنَّهُۥ مِنْ عِبَادِنَا ٱلْمُخْلَصِينَ ﴿٢٤﴾﴾

**24. Qadın ona meyil etmişdi. Əgər Yusuf Rəbbinin dəlilini görməsəydi, o da ona meyil edərdi. Beləcə, Biz pisliyi və çirkin əməli ondan uzaqlaşdırdıq. Həqiqətən, o, Bizim seçilmiş qullarımızdandır.**

Alimlərin bu məqam barədə (Yusufun عليه السلام da ona meyil etməsi barədə) sözləri və rəyləri çox fərqlidir. Bəzi alimlər belə demişlər: "Yusufun ona meyil etməsi bunu qəlbindən keçirməsidir". Bu rəyi əl-Bəğavi رحمه الله bəzi alimlərdən nəql etmiş, sonra Əbu Hureyradan رضي الله عنه rəvayət edilən bir hədisi qeyd etmişdir. Hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Uca Allah belə buyurmuşdur: "Qulum bir savab iş görməyə niyyət etsə, (buna əməl etməzsə), bunu ona bir savab yazın! Əgər bunu yerinə yetirərsə, ona bunun on mislini yazın! Əgər bir günah iş görməyə niyyət etsə, sonra niyyətindən vaz keçsə, ona bir savab yazın! Çünki o bu günahdan Məndən qorxduğu üçün vaz keçmişdir. Əgər bunu edərsə, ona etdiyi günahın mislini yazın!" Bu hədis əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilmişdir.[1] Bəzi alimlər Yusufun عليه السلام qadını döymək istədiyini demişlər. Bəzi alimlər Yusufun عليه السلام onu arvadı olaraq arzu etdiyini demişlər. Bəzi alimlər isə belə demişlər: "**Əgər Yusuf Rəbbinin dəlilini görməsəydi, o da ona meyil edərdi**", yəni ona meyil etməmişdir. Yusufun عليه السلام gördüyü dəlil barədə də bir çox rəylər deyilmişdir. İbn Cərir رحمه الله demişdir: "Belə demək daha

[1] əl-Buxari, 6947, 7501; Muslim, 184, 350.

doğrudur: “Həqiqətən, Yusuf Allahın ayələrini görmüşdür və bu ayələr onu meyil etdiyi günahdan daşınmağa sövq etmişdir. Bu ayə Yaqubun surəti və ya mələk, və yaxud onu bu əməldən daşınmağa çağıran yazı ola bilər. Bu ayələrdən hər hansı birinin olduğunu bildirən qəti bir dəlil yoxdur. Doğru olan budur ki, Uca Allahın buyurduğu kimi, ümumidir”.

Uca Allah buyurur: “**Beləcə, Biz pisliyi və çirkin əməli ondan uzaqlaşdırdıq**”, yəni düşdüyü vəziyyətdə ona günahdan yayındıran bir dəlil göstərdiyimiz kimi, eyni şəkildə onu bütün işlərində pislikdən və çirkinlikdən təmizlədik. “**Həqiqətən, o, Bizim seçilmiş qullarımızdandır**”, yəni o Bizim seçilib təmizlənmiş ən yaxşı qullarımızdan biridir. Allahın salavatı və salamı onun üzərinə olsun!

﴿وَٱسۡتَبَقَا ٱلۡبَابَ وَقَدَّتۡ قَمِيصَهُۥ مِن دُبُرٖ وَأَلۡفَيَا سَيِّدَهَا لَدَا ٱلۡبَابِۚ قَالَتۡ مَا جَزَآءُ مَنۡ أَرَادَ بِأَهۡلِكَ سُوٓءًا إِلَّآ
أَن يُسۡجَنَ أَوۡ عَذَابٌ أَلِيمٞ ٢٥ قَالَ هِيَ رَٰوَدَتۡنِي عَن نَّفۡسِيۚ وَشَهِدَ شَاهِدٞ مِّنۡ أَهۡلِهَآ إِن كَانَ قَمِيصُهُۥ قُدَّ
مِن قُبُلٖ فَصَدَقَتۡ وَهُوَ مِنَ ٱلۡكَٰذِبِينَ ٢٦ وَإِن كَانَ قَمِيصُهُۥ قُدَّ مِن دُبُرٖ فَكَذَبَتۡ وَهُوَ مِنَ ٱلصَّٰدِقِينَ ٢٧ فَلَمَّا
رَءَا قَمِيصَهُۥ قُدَّ مِن دُبُرٖ قَالَ إِنَّهُۥ مِن كَيۡدِكُنَّۖ إِنَّ كَيۡدَكُنَّ عَظِيمٞ ٢٨ يُوسُفُ أَعۡرِضۡ عَنۡ هَٰذَاۚ وَٱسۡتَغۡفِرِي
لِذَنۢبِكِۖ إِنَّكِ كُنتِ مِنَ ٱلۡخَاطِـِٔينَ ٢٩﴾

**25. Onlar bir-birini qabaqlamaq məqsədilə qapıya tərəf yüyürdülər və qadın onun köynəyini arxadan cırdı. İkisi də qapının yanında qadının əri ilə rastlaşdı. Qadın dedi: “Sənin ailənə pislik etmək istəyənin cəzası, zindana salınmaqdan və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən başqa nə ola bilər?!”**

**26. Yusuf dedi: “O məni yoldan çıxarmaq istəyirdi”. Qadının ailəsindən olan bir şahid belə şahidlik etdi: “Əgər onun köynəyi öndən cırılıbsa, qadın doğru deyir, o isə yalançılardandır.**

**27. Yox, əgər onun köynəyi arxadan cırılıbsa, qadın yalan deyir, o isə doğru danışanlardandır”.**

**28. Qadının əri onun köynəyinin arxadan cırıldığını gördükdə dedi: “Şübhəsiz ki, bu sizin qadın hiylələrinizdəndir. Həqiqətən də, sizin hiyləniz böyükdür.**

**29. Yusuf, sən bundan (bu işi açıb danışmaqdan) vaz keç! Sən də ey arvad, günahına görə bağışlanma dilə. Çünki sən, günah etmisən”.**

Uca Allah bu ayələrdə onların (Yusuf və vəzirin zövcəsinin) qapıya doğru qaçarkən düşdükləri halı bildirir. Yusuf qaçır, qadın isə onu evə geri qaytarmaq üçün arxasınca gedirdi. Bu əsnada qadın ona yetişmiş, arxadan köynəyini tutmuş və onu vəhşicəsinə cırmışdı. Deyilənə görə köynək Yusufun ﷺ əynindən düşmüşdür. Yusuf qaçmağa davam etmiş, qadın isə onun arxasınca qaçmışdır. Qapının yanında qadının əri ilə qarşılaşmışlar. Bu vaxt qadın hiylə işlədərək düşdüyü vəziyyətdən çıxmış və özünü təmizə çıxarıb Yusufa ﷺ böhtan ataraq, ərinə belə demişdir: "**Sənin ailənə pislik etmək**", yəni zina etmək "**istəyənin cəzası, zindana salınmaqdan**", yəni həbs olunmaqdan "**və ya ağrılı-acılı bir əzaba düçar edilməkdən**", yəni ağrıdıcı bir şəkildə döyülməkdən "**başqa nə ola bilər?!**" Bu zaman Yusuf ﷺ haqqı deyib özünü müdafiə etmək və qadının ona atdığı xəyanət böhtanından təmizə çıxmaq üçün "**O məni yoldan çıxarmaq istəyirdi**" – deyərək, əslində, qadının onu qovduğunu, onu tutub özünə tərəf çəkmək istədiyini və nəticədə köynəyini cırdığını bildirmişdir. "**Qadının ailəsindən olan bir şahid belə şahidlik etdi: "Əgər onun köynəyi öndən cırılıbsa, qadın doğru deyir**", yəni Yusuf qadını özünə ram etmək istəyirmiş. Belə ki, Yusuf onu istəmiş olsaydı və qadın müqavimət göstərsəydi, bu halda qadın onu sinəsindən itələyib köynəyini öndən cırmış olardı. Əgər belə olmuşsa, onda qadının dediyi doğrudur. "**Yox, əgər onun köynəyi arxadan cırılıbsa, qadın yalan deyir, o isə doğru danışanlardandır**". Həqiqətən, baş verən də budur ki, Yusuf ﷺ qadından qaçmaq istədikdə, qadın onun arxasınca qaçaraq onu geri qaytarmaq üçün köynəyinin arxasından tutmuş və köynəyi arxadan cırmışdır.

Alimlər qadının ailəsindən olan bu şahid barədə ixtilaf etmişlər. Bu şahid yaşca kiçik yoxsa, böyük olmuşdur? Bu barədə sələf alimlərindən iki rəy rəvayət edilmişdir. İbn Abbas ﷺ Uca Allahın "**Qadının ailəsindən olan bir şahid belə şahidlik etdi...**" ayəsi barədə belə demişdir: "Onun saqqalı vardı". O, həmçinin bu adamın vəzirin yaxınlarından biri olduğunu demişdir. Mucahid, İkrimə, əl-Həsən, Qatədə, əs-Suddi və başqaları da onun bir kişi olduğunu demişlər. Zeyd ibn Əsləm və əs-Suddi ﷺ bu adamın qadının əmisi oğlu olduğunu demişlər. əl-Həsən, Səid ibn Cubeyr və əd-Dahhək ibn Muzəhim ﷺ bu şahidin evdə bir uşaq olduğunu demişlər. İbn Cərir ﷺ də bu rəyi seçmişdir. Bu barədə Peyğəmbərdən ﷺ bir hədis rəvayət edilmişdir: "Körpə uşaq ikən dörd nəfər danışmışdır...". Sonra Peyğəmbər ﷺ onlardan birinin Yusufun ﷺ şahidi olduğunu bildirmişdir.[1]

[1] Əhməd (2822). Əhməd Şakir isnadının səhih olduğunu bildirmişdir.

Uca Allah buyurur: "**Qadının əri onun köynəyinin arxadan cırıldığını gördükdə**", yəni qadının əri Yusufun doğru danışdığını, qadının isə Yusufa böhtan ataraq yalan danışdığını anladıqda "**dedi: "Şübhəsiz ki, bu sizin qadın hiylələrinizdəndir**", yəni bu gəncin ismətinə atdığın bu palçıq və böhtan, sizin hiylələrinizdən biridir. "**Həqiqətən də, sizin hiyləniz böyükdür**".

Sonra vəzir Yusufa ﷺ baş verənləri gizlətməyi əmr edərək belə dedi: "**Yusuf, sən bundan vaz keç!**" Yəni bu səhifəni bağla və heç kimə bildirmə. "**Sən də ey arvad, günahına görə bağışlanma dilə**". Vəzir yumşaqxasiyyətli və mülayim bir adam olduğu yaxud qadını üzrlü hesab etdiyi üçün onu cəzalandırmadı. Çünki qadın tab gətirə bilməyəcəyi bir gözəlliklə qarşılaşmışdı. Əri ona "**Sən də ey arvad, günahına görə bağışlanma dilə**" – demişdir. Yəni sən bu gənclə günah iş görmək istədin, sonra isə o, günahsız olduğu halda ona böhtan atdın. Etdiyin bu əməllərə görə bağışlanma dilə. "**Çünki sən, günah etmisən**".

﴿۞وَقَالَ نِسْوَةٌ فِي ٱلْمَدِينَةِ ٱمْرَأَتُ ٱلْعَزِيزِ تُرَٰوِدُ فَتَىٰهَا عَن نَّفْسِهِۦۖ قَدْ شَغَفَهَا حُبًّاۖ إِنَّا لَنَرَىٰهَا فِي ضَلَٰلٖ
مُّبِينٖ ﴿٣٠﴾ فَلَمَّا سَمِعَتْ بِمَكْرِهِنَّ أَرْسَلَتْ إِلَيْهِنَّ وَأَعْتَدَتْ لَهُنَّ مُتَّكَـٔٗا وَءَاتَتْ كُلَّ وَٰحِدَةٖ مِّنْهُنَّ سِكِّينٗا وَقَالَتِ ٱخْرُجْ
عَلَيْهِنَّۖ فَلَمَّا رَأَيْنَهُۥٓ أَكْبَرْنَهُۥ وَقَطَّعْنَ أَيْدِيَهُنَّ وَقُلْنَ حَٰشَ لِلَّهِ مَا هَٰذَا بَشَرًا إِنْ هَٰذَآ إِلَّا مَلَكٞ كَرِيمٞ ﴿٣١﴾ قَالَتْ فَذَٰلِكُنَّ ٱلَّذِي
لُمْتُنَّنِي فِيهِۖ وَلَقَدْ رَٰوَدتُّهُۥ عَن نَّفْسِهِۦ فَٱسْتَعْصَمَۖ وَلَئِن لَّمْ يَفْعَلْ مَآ ءَامُرُهُۥ لَيُسْجَنَنَّ وَلَيَكُونٗا مِّنَ ٱلصَّٰغِرِينَ ﴿٣٢﴾ قَالَ
رَبِّ ٱلسِّجْنُ أَحَبُّ إِلَيَّ مِمَّا يَدْعُونَنِيٓ إِلَيْهِۖ وَإِلَّا تَصْرِفْ عَنِّي كَيْدَهُنَّ أَصْبُ إِلَيْهِنَّ وَأَكُن مِّنَ ٱلْجَٰهِلِينَ ﴿٣٣﴾ فَٱسْتَجَابَ لَهُۥ رَبُّهُۥ
فَصَرَفَ عَنْهُ كَيْدَهُنَّۚ إِنَّهُۥ هُوَ ٱلسَّمِيعُ ٱلْعَلِيمُ ﴿٣٤﴾﴾

**30. Şəhərdəki qadınlar dedilər: "Vəzirin arvadı cavan köləsini yoldan çıxarmaq istəyir. Artıq qəlbi onun sevgisinin əsirinə çevrilmişdir. Biz onu aşkar bir azğınlıq içində görürük".**

**31. Qadın onların hiyləsindən xəbər tutduqda məclis qurub onları qonaqlığa dəvət etdi, onlar üçün mütəkkələr hazırladı, sonra da onların hər birinə bir bıçaq verdi və Yusufa "Onların qarşısına çıx!" – dedi. Qadınlar Yusufu gördükdə onu (qəlblərində) o qədər böyütdülər ki, özlərini unudub (meyvə əvəzinə) əllərini kəsdilər və dedilər: "Allah pakdır! Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!"**

**32. Qadın dedi: "Barəsində məni qınadığınız oğlan bax budur! Mən onu yoldan çıxarmağa çalışdım, o isə imtina etdi. Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır".**

**33. Yusuf dedi: "Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyil edər və cahillərdən olaram".**

**34. Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir.**

Uca Allah bu ayələrdə bildirir ki, Yusuf عليه السلام ilə vəzirin arvadının xəbəri şəhərə, yəni Misirə yayıldı və insanlar bu barədə danışmağa başladılar. "**Şəhərdəki qadınlar dedilər**", yəni şəhərdəki zadəganların və əmirlərin qadınları kimi kübar qadınlar vəzirin arvadının bu hərəkətini xoş qarşılamayıb buna görə onu qınayaraq dedilər: "**Vəzirin arvadı cavan köləsini yoldan çıxarmaq istəyir**", yəni vəzirin arvadı cavan oğlanı ram etmək istəmiş və onu özünə tərəf çağırmışdır. "**Artıq qəlbi onun sevgisinin əsirinə çevrilmişdir**", yəni sevgisi qəlbinin dərinliklərinə işləmişdir. İbn Abbas رضي الله عنهما demişdir: "Ayədə keçən **الشّغَفُ** [əş-şəğaf] sözü "öldürücü sevgi" deməkdir. **الشّغَفُ** [əş-şəğaf] bundan daha aşağı sevgiyə də deyilir. **الشّغَافُ** [əş-şəğa:f] sözü "ürək pərdəsi" mənasındadır".[1] Qadınlar dedilər: "**Biz onu aşkar bir azğınlıq içində görürük**", yəni cavan oğlanı sevməsi və onu yoldan çıxarmaq istəməsi ilə açıq-aşkar bir azğınlıq içindədir. "**Qadın onların hiyləsindən xəbər tutduqda...**". Bəzi təfsirçilər demişlər: "Yəni onların dedi-qodularını və sözlərini eşitdikdə". İbn İshaq رحمه الله demişdir: "Yusufun gözəlliyi barədə xəbər qadınlara çatdıqda onu görməyi çox arzuladılar. Bu sözləri də onu görə bilmək üçün demişlər. Bu vaxt vəzirin arvadı "**məclis qurub onları qonaqlığa dəvət etdi**", yəni onları evində təşkil etdiyi bir ziyafətə dəvət etdi, "**onlar üçün mütəkkələr**[2] **hazırladı**". İbn Abbas, Səid ibn Cubeyr, Mucahid və başqaları demişlər: "Bu, hazırlanmış oturacaq yerlərdir. Orada örtüklər, yastıqlar və yeməklər vardır. Orada turunc[3] (portağal) və buna bənzər bıçaqla kəsiləcək meyvələr vardır". Bu səbəbdən Uca Allah "**sonra da onların hər birinə bir bıçaq verdi**" – deyə buyurur. Bu, qadınların Yusufu عليه السلام görmək üçün qurduqları hiyləyə qarşışlıq olaraq vəzirin arvadının onlara qurduğu hiylə idi. "**Yusufa "Onların qarşısına çıx!" – dedi**". Qadın Yusufu عليه السلام

[1] İbn Əbu Hatim, 11523.
[2] Mütəkkə – uzunsov və dəyirmi balışdır.
[3] Xoşətirli sitrus meyvəsi.

başqa bir yerdə saxlamışdı. Yusuf عليه السلام qadınların qarşısına çıxdıqda və "**Qadınlar Yusufu gördükdə onu (qəlblərində) o qədər böyütdülər ki**", yəni qadınlar onu qəlblərində çox böyütdülər, yüksək dəyərləndirdilər və onu gördükdə bıçaqla portağalı kəsdiklərini sanaraq əllərini kəsməyə başladılar. Yəni bıçaqla əllərini yaraladılar. Bir çox təfsirçilər belə demişlər.

Zeyd ibn Əsləmdən رحمه الله rəvayət edildiyinə görə, qadınlar yeyib-içib könülləri xoş olduqdan sonra vəzirin arvadı onların önlərinə turunc qoymuş və hər birinə bir bıçaq vermişdir. Sonra onlardan "Yusufu görmək istəyirsinizmi?" – deyə soruşmuşdur. Onlar "Bəli" – dedikdə Yusufa عليه السلام xəbər göndərib ona qadınların qarşısına çıxmağı əmr etmişdir. Qadınlar Yusufu عليه السلام gördükdə əllərini kəsməyə başlamışlar. Sonra qadın Yusufa عليه السلام qayıtmağı əmr etmiş, o da qayıtmışdır. Belə etməkdə məqsədi Yusufu عليه السلام qadınlara həm öndən, həm də arxadan göstərmək olmuşdur. Onlar hələ də əllərini kəsirlərmiş. Nəhayət, ağrını hiss etdikdə (Yusufa عليه السلام baxmamaq üçün) arxalarını çevirməyə başlamışlar. Vəzirin arvadı "Siz bir dəfə baxmaqla belə etdiniz, o halda məni necə qınayırsınız?" – demişdir. Onlar da "Allah pakdır! Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!" – demişlər. Sonra vəzirin arvadına belə demişlər: "Bu gördüklərimizdən sonra artıq səni qınamırıq".[1] Çünki qadınlar insanlar arasında nə ona bənzər, nə də gözəllikdə ona yaxın olan birini əsla görməmişdilər. Yusufa عليه السلام gözəlliyin yarısı verilmişdir. Necə ki İsra hadisəsinə dair səhih bir hədisdə bildirilir ki, Peyğəmbər ﷺ üçüncü səmada Yusufla عليه السلام rastlaşmışdır. Peyğəmbər ﷺ onu belə vəsf etmişdir: "Mən içəri keçdikdə Yusufu gördüm. Ona gözəlliyin yarısı verilmişdi".[2]

Bu səbəbdən qadınlar Yusufu عليه السلام gördükdə "**Allah pakdır!**" – demişlər. Mucahid və bir çoxları ayədə keçən حَاشَ لِلَّهِ [hə:şə lilləh] cümləsini "Allah qorusun!" şəklində təfsir etmişlər. "**Bu ki bəşər deyil. Bu ancaq hörmətə layiq bir mələkdir!" Qadın dedi: "Barəsində məni qınadığınız oğlan bax budur!**" Vəzirin arvadı etdiyi əmələ haqq qazandırmaq üçün belə demiş və Yusufun عليه السلام gözəlliyi və kamil xilqəti ilə sevilməyə layiq olduğunu bildirmişdir.

Qadın dedi: "**Mən onu yoldan çıxarmağa çalışdım, o isə imtina etdi**". Bəzi təfsirçilər belə demişlər: "Qadınlar onun açıq-aydın gözəlliyini gördükdə vəzirin arvadı onlara Yusufun عليه السلام gizli qalan digər gözəl bir xislətini də bildirdi. Bu onun yaraşıqlı olması ilə bərabər, həm də iffətli

---

[1] İbn Əbu Hatim, 11550.

[2] Muslim, 234, 429..

olması idi. Vəzirin arvadı daha sonra onu təhdid edərək belə dedi: "**Əgər əmrimi yerinə yetirməsə, əlbəttə ki, zindana atılacaq və zəlillərdən olacaqdır**". Bu vaxt Yusuf ﷺ qadınların şərindən və hiyləsindən Allaha sığınıb belə dedi: "**Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən**", yəni zina etməkdən "**daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən, mən onlara meyil edər və cahillərdən olaram**", yəni əgər məni öz nəfsimlə baş-başa buraxsan, nəfsimlə bacarmağa gücüm yetməz. Sənin gücün və qüvvətin olmadan mən özümə nə bir zərər, nə də bir fayda verə bilərəm. Sənsən yardım istənilən, yalnız Sənə təvəkkül edilir. Sən məni öz nəfsimlə baş-başa buraxma. "**Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, Eşidəndir, Biləndir**". Beləcə, Uca Allah Yusufu ﷺ böyük bir iffətlə qorudu və Yusuf ﷺ qadından qəti şəkildə imtina edərək zindana atılmağı seçdi. Bu kamilliyin ən üstün dərəcəsidir. Belə ki, Yusuf ﷺ gözəlliyə və kamil xilqətə sahib bir gənc ikən Misir vəzirinin arvadı onu özünə tərəf çağırmışdır. Qadının gözəllik, mal-dövlət və ad-san baxımından ən üst səviyyədə olmasına baxmayaraq, Yusuf ﷺ özünə hakim olmuş və Allahdan qorxub Onun savabını umaraq zindana atılmağı bu işi görməkdən üstün tutmuşdur.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Yeddi qisim insan var ki, Allah onları Öz kölgəsindən[1] başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcək: bunlar ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam, xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan kişi (və ya qadın), gözəl və zadəgan bir qadın tərəfindən zinaya çağırıldıqda "Mən Allahdan qorxuram!" – deyən kişidir".[2]

﴿ ثُمَّ بَدَا لَهُم مِّنۢ بَعۡدِ مَا رَأَوُاْ ٱلۡأٓيَٰتِ لَيَسۡجُنُنَّهُۥ حَتَّىٰ حِينٖ ٣٥ ﴾

**35. Bu qədər dəlilləri gördükdən sonra yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər.**

---

[1] Hədisdə qeyd olunan kölgənin Uca Allaha nisbət olunması ehtiram, saygı və hörmət mənasındadır. Necə ki Kəbəyə Allahın Evi, Qurana Allahın Kitabı deyilir. Hədisin başqa rəvayətlərində bu kölgənin Ərşin kölgəsi olacağı bildirilir.

[2] əl-Buxari, 1423, 1334; Muslim, 1712, 2427.

Uca Allah bu ayədə bildirir ki, Yusufun عليه السلام sədaqətli, iffətli və təmiz olduğuna dair dəlillər ortaya çıxdıqdan, günahsız olduğunu bildikdən sonra yenə də onu bir müddət zindanda həbs etməyi özləri üçün daha uyğun və faydalı gördülər. Yusufun عليه السلام həbs edilməsinə səbəb isə – ən doğrusunu Allah bilir – bu barədə söz-söhbət yayıldıqdan sonra güya qadını ram etmək istəməsi və buna görə də həbs edilmiş kmi insanlarda təsəvvür yaratmaq olmuşdur. Bu səbəbdən böyük hökmdar Yusufun عليه السلام zindanda qaldığı müddətin sonunda onu yanına çağırmaq istədikdə, Yusuf عليه السلام özü haqqında deyilən xəyanətin böhtan olduğu aydın olunmayana qədər zindandan çıxmaq istəməmişdir. Günahsız olduğu aydın olduqdan sonra o, isməti təmiz halda həbsdən çıxmışdır. Allahın salavatı və salamı onun üzərinə olsun! əs-Suddi رحمه الله demişdir: "Qadının Yusufa qarşı etdiyi hərəkət yayılmasın və Yusufun ismətinin təmiz olduğu üzə çıxıb qadın rüsvay olmasın deyə onu həbs etmişlər".

﴿وَدَخَلَ مَعَهُ ٱلسِّجْنَ فَتَيَانِ ۖ قَالَ أَحَدُهُمَآ إِنِّىٓ أَرَىٰنِىٓ أَعْصِرُ خَمْرًا ۖ وَقَالَ ٱلْـَٔاخَرُ إِنِّىٓ أَرَىٰنِىٓ أَحْمِلُ فَوْقَ رَأْسِى خُبْزًا تَأْكُلُ ٱلطَّيْرُ مِنْهُ ۖ نَبِّئْنَا بِتَأْوِيلِهِۦٓ ۖ إِنَّا نَرَىٰكَ مِنَ ٱلْمُحْسِنِينَ ﴿٣٦﴾﴾

**36. Onunla birlikdə iki gənc də zindana salındı. Onlardan biri dedi: "Mən yuxuda gördüm ki, üzümdən şərab sıxıram". Digəri isə belə dedi: "Mən gördüm ki, başımın üstündə çörək aparıram, quşlar da ondan dimdikləyib yeyir. Bunun yozumunu bizə bildir. Həqiqətən, biz səni yaxşı adam hesab edirik".**

Qatədə رحمه الله demişdir: "Gəclərdən biri hökmdarın şərab sıxanı, digəri isə çörək bişirəni idi".[1] əs-Suddi رحمه الله demişdir: "Hökmdar bu iki gənci onu yemək və içki ilə zəhərləməyi planlaşdırdıqlarını düşündüyü üçün həbs etdirmişdi".[2]

Yusuf عليه السلام zindanda səxavəti, etibarı, doğru danışığı, ağır təbiəti, çox ibadət etməsi, yuxuları yoza bilməsi, həbsdə olanlara qarşı lütfkarlığı, xəstələri ziyarət etməsi və onların haqlarını qoruması ilə tanınırdı. Bu iki gənc zindana girdikdə onunla dostlaşdılar və onu çox sevdilər. Yusufa عليه السلام "Allaha and olsun ki, biz səni çox sevdik" – dedilər. Yusuf عليه السلام dedi: "Allah sizə bərəkət versin! Məni kim sevmişsə, mütləq onun sevgisindən mənə zərər gəlmişdir; məni atam sevmişdi, bu sevgi üzündən əziyyətə məruz qaldım; məni vəzirin arvadı sevdi, yenə əziyyətə məruz qaldım".

[1] İbn Əbu Hatim, 11617.

[2] ət-Tabəri, 19267, 19351.

Onlar "Allaha and olsun ki, səni sevməyə bilmərik" – dedilər. Daha sonra onların hərəsi bir yuxu gördü. Hökmdarın şərab sıxanı yuxuda özünün şərab, yəni üzüm sıxdığını gördü. Çörək bişirən isə belə dedi: "**Mən gördüm ki, başımın üstündə çörək aparıram, quşlar da ondan dimdikləyib yeyir. Bunun yozumunu bizə bildir. Həqiqətən, biz səni yaxşı adam hesab edirik**". Əksər təfsirçilərə görə məşhur olan bizim qeyd etdiyimiz bu təfsirdir. Bu iki gənc yuxu görmüşlər və Yusufdan عليه السلام gördükləri yuxunu yozmasını istəmişlər. Lakin İbn Cərir رحمه الله Abdullah ibn Məsudun رضي الله عنه belə dediyini rəvayət etmişdir: "Yusufun iki zindan yoldaşı heç bir şey görməmişlər. Onu sınamaq üçün özlərini yuxu görmüş kimi göstərmişlər".[1]

﴿قَالَ لَا يَأۡتِيكُمَا طَعَامٞ تُرۡزَقَانِهِۦٓ إِلَّا نَبَّأۡتُكُمَا بِتَأۡوِيلِهِۦ قَبۡلَ أَن يَأۡتِيَكُمَاۚ ذَٰلِكُمَا مِمَّا عَلَّمَنِي رَبِّيٓۚ إِنِّي تَرَكۡتُ مِلَّةَ
قَوۡمٖ لَّا يُؤۡمِنُونَ بِٱللَّهِ وَهُم بِٱلۡأٓخِرَةِ هُمۡ كَٰفِرُونَ ٣٧ وَٱتَّبَعۡتُ مِلَّةَ ءَابَآءِيٓ إِبۡرَٰهِيمَ وَإِسۡحَٰقَ وَيَعۡقُوبَۚ مَا كَانَ
لَنَآ أَن نُّشۡرِكَ بِٱللَّهِ مِن شَيۡءٖۚ ذَٰلِكَ مِن فَضۡلِ ٱللَّهِ عَلَيۡنَا وَعَلَى ٱلنَّاسِ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يَشۡكُرُونَ ٣٨﴾

**37. O dedi: "Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam.**

**38. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın həm bizə, həm də bütün insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir.**

Yusuf عليه السلام bu iki gəncə bildirir ki, gördükləri istənilən yuxunu yoza bilər və bu yuxu həyata keçməzdən əvvəl onun yozmunu xəbər verəcəkdir. Yusuf عليه السلام dedi: "**Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm**". Mucahid رحمه الله bu ayənin təfsirində demişdir: "Yusuf onlara belə demişdir: "Yuxunuzda sizə yemək verildiyini görsəniz, bu yemək sizə gəlməmişdən əvvəl mən onun yozumunu sizə bildirərəm".[2] Sonra Yusuf عليه السلام belə demişdir: "Bu, Allahın mənə öyrətdiyi elmdir. Çünki mən Allahı və Axirət gününü inkar edən, Axirət günü Allahın savabına ümid bəsləməyən, əzabından qorxmayan kafir millətin dinini tərk etmişəm. "**Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum...**". Yəni

[1] ət-Təbəri, 19270, 19354.
[2] İbn Əbu Hatim, 11608.

mən küfr və şirk yolundan ayrılıb bu peyğəmbərlərin yolunu tutdum. Onların hamısına Allahın salavatı və salamı olsun. Doğru yolu tutan, peyğəmbərlərə tabe olan və zalımların yolundan üz çevirən hər kəsin halı belədir. Uca Allah onun qəlbinə hidayət bəxş edər, ona bilmədiklərini öyrədər, onu xeyir işlərdə öndər və doğru yola çağıran bir kəs edər.

“**Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın həm bizə, həm də bütün insanlara olan lütfüdür**”. Bu lütf tövhiddir. Tövhid – Allahdan başqa ibadətə layiq məbudun olmadığını, Onun tək İlah olduğunu və şərikinin olmadığını təsdiq və qəbul etməkdir. “**Bu, Allahın həm bizə**”, yəni Uca Allahın bizə olan lütfüdür, belə ki, bunu bizə vəhy etmiş və buna əməl etməyi buyurmuşdur. Bu, Allahın, “**həm də bütün insanlara olan lütfüdür**”, belə ki, bizi insanları buna çağıran dəvətçilər etmişdir. “**...lakin insanların çoxu şükür etmir**”, yəni Allahın peyğəmbərlər göndərməklə onlara bəxş etdiyi neməti bilmirlər. Əksinə, “**Məgər sən Allahın nemətlərini küfrə dəyişənləri və öz xalqını həlak yurduna sürükləyənləri görmürsənmi?**” (“İbrahim”, 28).

﴿يَٰصَٰحِبَيِ ٱلسِّجۡنِ ءَأَرۡبَابٞ مُّتَفَرِّقُونَ خَيۡرٌ أَمِ ٱللَّهُ ٱلۡوَٰحِدُ ٱلۡقَهَّارُ ﴿٣٩﴾ مَا تَعۡبُدُونَ مِن دُونِهِۦٓ إِلَّآ أَسۡمَآءٗ
سَمَّيۡتُمُوهَآ أَنتُمۡ وَءَابَآؤُكُم مَّآ أَنزَلَ ٱللَّهُ بِهَا مِن سُلۡطَٰنٍۚ إِنِ ٱلۡحُكۡمُ إِلَّا لِلَّهِۚ أَمَرَ أَلَّا تَعۡبُدُوٓاْ إِلَّآ إِيَّاهُۚ ذَٰلِكَ ٱلدِّينُ
ٱلۡقَيِّمُ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يَعۡلَمُونَ ﴿٤٠﴾﴾

**39. Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Tək olan, hər şeyə Qalib gələn Allah?**

**40. Ondan başqa ibadət etdikləriniz sizin və atalarınızın qoyduğunuz adlardan başqa bir şey deyildir. Allah onlara dair heç bir dəlil nazil etməmişdir. Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir.**

Sonra Yusuf ﷺ bu iki gəncə xitab edərək onları tək və şəriki olmayan Allaha ibadət etməyə və qövmlərinin Allahdan başqa ibadət etdiyi bütləri tərk etməyə çağırıb onlara belə dedi: “**Ey mənim zindan yoldaşlarım! Ayrı-ayrı tanrılar yaxşıdır, yoxsa Tək olan, hər şeyə Qalib gələn Allah?**” Yəni izzəti, cəlalı, əzəmət və səltənəti qarşısında hər şeyin boyun əydiyi Allah?

Sonra Yusuf ﷺ onlara bildirdi ki, ilah adlandırıb ibadət etdikləri məbudlar uydurduqlarından başqa bir şey deyil, özləri onları belə

adlandırmışlar. Bu adları sonrakı nəsil özlərindən əvvəl gələn nəsillərdən götürmüşdür. Bunların Allah dərgahından gələn heç bir dəlili yoxdur. Odur ki, onlara "**Allah onlara dair heç bir dəlil nazil etməmişdir**" – demişdir. Sonra Yusuf ﷺ bu iki gəncə bildirmişdir ki, hökm, idarəçilik, seçim və hökmranlıq bütünlüklə Allaha məxsusdur, O bütün qullarına yalnız Ona ibadət etməyi əmr etmişdir. Sonra demişdir: "**Doğru din budur**", yəni sizi çağırdığım doğru din budur. Bu din Allahı ibadətdə təkləşdirmək və ibadətləri yalnız Onun üçün etməkdir. Bu, Allahın əmr etdiyi, sevib razı qaldığı və barəsində dəlillər endirdiyi bir dindir, "**lakin insanların çoxu bunu bilmir**". Bu səbəbdən insanların əksəriyyəti Allaha şərik qoşur. "**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir**" ("Yusuf", 103). Yusuf ﷺ bu iki gəncin xeyiri qəbul edib ona can atdıqlarını, susaraq onun dediklərinə qulaq asdıqlarını, ona ehtiram göstərib sual verməlvalərini gördükdə bunlardan onları tövhidə (Allahı ibadətdə təkləşdirməyə) və İslama çağırmaq üçün bir vasitə kimi istifadə etmişdir. Onları tövhidə dəvət etdikdən sonra təkrar soruşmalarını gözləmədən yuxularını yozmağa başlayaraq belə dedi:

﴿يَٰصَٰحِبَيِ ٱلسِّجۡنِ أَمَّآ أَحَدُكُمَا فَيَسۡقِي رَبَّهُۥ خَمۡرٗاۖ وَأَمَّا ٱلۡأٓخَرُ فَيُصۡلَبُ فَتَأۡكُلُ ٱلطَّيۡرُ مِن رَّأۡسِهِۦۚ قُضِيَ
ٱلۡأَمۡرُ ٱلَّذِي فِيهِ تَسۡتَفۡتِيَانِ ٤١﴾

**41. Ey mənim zindan yoldaşlarım! Sizdən biriniz öz ağasına şərab süzəcək, digəriniz isə çarmıxa çəkiləcək və quşlar onun başından dimdikləyib yeyəcəklər. Haqqında soruşduğunuz işə artıq qabaqcadan qərar verilmişdir".**

Yusuf ﷺ onlara belə demişdir: "**Ey mənim zindan yoldaşlarım! Sizdən biriniz öz ağasına şərab süzəcək...**". Bu, yuxuda şərab sıxdığını görən gənc idi, lakin Yusuf digəri kədərlənməsin deyə, onun kim olduğunu gizlədərək bildirməmiş və "**digəriniz isə çarmıxa çəkiləcək və quşlar onun başından dimdikləyib yeyəcəklər**" – demişdir. Halbuki o, başının üstündə çörək apardığını, quşların da ondan dimdikləyib yeydiyini görən gənc idi. Sonra Yusuf ﷺ onlara bu işin artıq bitdiyini və mütləq həyata keçəcəyini bildirmişdir. Abdullah ibn Məsud ﷺ demişdir: "Onlar yuxularını danışdıqda və Yusuf yuxunu yozduqda isə "Biz heç bir şey görməmişdik" – demişlər. Buna görə də Yusuf "**Haqqında soruşduğunuz işə artıq qabaqcadan qərar verilmişdir**" – demişdir.[1]

[1] ət-Təbəri, 19296, 19381.

﴿وَقَالَ لِلَّذِى ظَنَّ أَنَّهُۥ نَاجٍ مِّنْهُمَا ٱذْكُرْنِى عِندَ رَبِّكَ فَأَنسَىٰهُ ٱلشَّيْطَٰنُ ذِكْرَ رَبِّهِۦ فَلَبِثَ فِى ٱلسِّجْنِ بِضْعَ
سِنِينَ ﴿٤٢﴾﴾

**42. Yusuf onlardan edamdan qurtulacağını yəqin etdiyi kimsəyə dedi: “Ağanın yanında məni yada sal!” Lakin şeytan ona Yusufu ağasının yadına salmağı unutdurdu və o, zindanda bir neçə il də qaldı.**

Yusuf – ən doğrusunu Allah bilir – çarmıxa çəkiləcək gənc hiss etməsin deyə, xilas olacağını yəqin etdiyi şərab süzənə gizlicə belə dedi: “**Ağanın yanında məni yada sal!**” Yəni mənim hekayəmi ağan olan padşahın yanında xatırlat. Lakin həmin gənc ağasının yanında Yusufu və onun hekayəsini xatırlamağı unutdu. Bu, şeytanın hiylələrindən biri idi ki, Allahın peyğəmbəri həbsdən xilas olmasın. Ayədə keçən **الْبِضْعُ** [əl-bid›u] “**bir neçə**” ifadəsi barədə Mucahid və Qatədə ﵀ belə demişlər: “Bu söz üç və doqquz arası saya deyilir”.[1] Vəhb ibn Munəbbih ﵀ demişdir: “Əyyub yeddi il xəstəliklə imtahan olunmuş, Yusuf da həbsdə yeddi il qalmışdır”.

﴿وَقَالَ ٱلْمَلِكُ إِنِّىٓ أَرَىٰ سَبْعَ بَقَرَٰتٍ سِمَانٍ يَأْكُلُهُنَّ سَبْعٌ عِجَافٌ وَسَبْعَ سُنۢبُلَٰتٍ خُضْرٍ وَأُخَرَ يَابِسَٰتٍ
يَٰٓأَيُّهَا ٱلْمَلَأُ أَفْتُونِى فِى رُءْيَٰىَ إِن كُنتُمْ لِلرُّءْيَا تَعْبُرُونَ ﴿٤٣﴾ قَالُوٓا۟ أَضْغَٰثُ أَحْلَٰمٍ وَمَا نَحْنُ بِتَأْوِيلِ ٱلْأَحْلَٰمِ
بِعَٰلِمِينَ ﴿٤٤﴾ وَقَالَ ٱلَّذِى نَجَا مِنْهُمَا وَٱدَّكَرَ بَعْدَ أُمَّةٍ أَنَا۠ أُنَبِّئُكُم بِتَأْوِيلِهِۦ فَأَرْسِلُونِ ﴿٤٥﴾ يُوسُفُ أَيُّهَا ٱلصِّدِّيقُ
أَفْتِنَا فِى سَبْعِ بَقَرَٰتٍ سِمَانٍ يَأْكُلُهُنَّ سَبْعٌ عِجَافٌ وَسَبْعِ سُنۢبُلَٰتٍ خُضْرٍ وَأُخَرَ يَابِسَٰتٍ لَّعَلِّىٓ أَرْجِعُ إِلَى ٱلنَّاسِ
لَعَلَّهُمْ يَعْلَمُونَ ﴿٤٦﴾ قَالَ تَزْرَعُونَ سَبْعَ سِنِينَ دَأَبًا فَمَا حَصَدتُّمْ فَذَرُوهُ فِى سُنۢبُلِهِۦٓ إِلَّا قَلِيلًا مِّمَّا تَأْكُلُونَ ﴿٤٧﴾ ثُمَّ
يَأْتِى مِنۢ بَعْدِ ذَٰلِكَ سَبْعٌ شِدَادٌ يَأْكُلْنَ مَا قَدَّمْتُمْ لَهُنَّ إِلَّا قَلِيلًا مِّمَّا تُحْصِنُونَ ﴿٤٨﴾ ثُمَّ يَأْتِى مِنۢ بَعْدِ ذَٰلِكَ عَامٌ فِيهِ يُغَاثُ
ٱلنَّاسُ وَفِيهِ يَعْصِرُونَ ﴿٤٩﴾﴾

**43. Padşah dedi: “Mən yuxuda yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də qurusunu gördüm. Ey zadəganlar! Əgər yuxu yoza bilirsinizsə, yuxumun yozumunu mənə bildirin”.**

**44. Onlar dedilər: “Bunlar qarmaqarışıq yuxulardır. Biz belə yuxuların yozumunu bilmirik”.**

---

[1] ət-Təbəri, 19327-19328, 19412-19413.

**45. O iki nəfərdən edamdan qurtulan, bir müddətdən sonra xatırlayaraq dedi: "Mən sizə onun yozumunu bildirərəm. Bircə məni Yusufun yanına göndərin!"**

**46. O, zindana gəlib dedi: "Ey Yusuf! Ey düz danışan kişi! Yeddi arıq inəyin yeddi kök inəyi yediyi, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də quru sünbüllər barədə bizə xəbər ver. Ola bilsin ki, mən o adamların yanına qayıdım, bəlkə onlar da bilsinlər".**

**47. Yusuf dedi: "Yeddi il ard-arda əkəcəksiniz. Biçdiyinizi isə yeyəcəyiniz az bir miqdar istisna olmaqla, sünbüldə saxlayın.**

**48. Sonra bunun ardınca, toxumluq saxlayacağınız az bir miqdar istisna olmaqla, əvvəlcədən həmin illər üçün tədarük gördüyünüzü yeyəcək yeddi ağır il – quraqlıq illəri gələcək.**

**49. Bunun ardınca da elə bir il gələcək ki, onda insanlara bol yağış veriləcək və onlar çoxlu meyvə şirəsi sıxacaqlar".**

Misir hökmdarının bu yuxusu Uca Allahın əzəldən müəyyən etdiyi bir hökmü idi ki, həmin yuxu Yusufun عليه السلام həbsdən izzət və hörmətlə çıxmasına səbəb olsun. Misir hökmdarı yuxu görmüş və bu yuxu onu qorxutmuşdu. Hökmdar bu yuxunun yozumunun nə olduğunu bilmədiyi üçün çaşqınlıq içində qalmış, kahinləri, dövlətin baş bilənlərini və əmirlərini yığmış, gördüyü yuxunu onlara danımış və onlardan bu yuxunu yozmağı tələb etmişdir. Onlar isə onu yoza bilməyib "**Bunlar qarmaqarışıq yuxulardır. Biz belə yuxuların yozumunu bilmirik**" – deyərək bəhanə gətirmişlər. Yəni əgər sənin yuxun doğru bir yuxu olsaydı belə, qarmaqırışıq olduğu üçün biz onun yozumunu bilmirik. Bu vaxt Yusufla عليه السلام birlikdə zindanda olan iki gəncdən xilas olanı Yusufu عليه السلام xatırladı. Şeytan Yusufun عليه السلام ondan etdiyi xahişi – padşahın yanında onu yada salmasını unutdurmuşdu. Edamdan qurtulan gənc "**bir müddətdən sonra**" xatırladı. Bəzi qarilər ayədə keçən بَعْدَ أُمَّةٍ [bədə ummətin] "bir müddətdən sonra" ifadəsini بَعْدَ أَمَهٍ [bədə əmətin] "unutduqdan sonra" şəklində oxumuşlar. Bu gənc bir müddət sonra xatırlayıb padşaha və padşahın bu yuxunu yozmaq üçün topladığı insanlara dedi: "**Mən sizə onun yozumunu bildirərəm**", yəni bu yuxunun yozumunu bildirərəm "**Bircə məni Yusufun yanına göndərin!**" Yəni məni zindandakı doğru danışan kişinin – Yusufun yanına göndərin. Onlar bu adamı Yusufun عليه السلام yanına göndərdilər və o, Yusufun yanına gəlib "**Ey Yusuf! Ey düz danışan kişi! Yeddi arıq inəyin yeddi kök inəyi yediyi, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də quru sünbüllər barədə bizə xəbər ver**" – deyərək padşahın gördüyü yuxunu ona danışdı. Bu vaxt Yusuf عليه السلام xahişini unutmuş həmin gəncə hirslənmədən və qarşısına onu zindandan çıxartdırmağı şərt qoymadan yuxunun yozumunu bildirərək belə dedi: "**Yeddi il ard-arda əkəcəksiniz**", yəni sizə yeddi il dalbadal

yağış və bolluq gələcək. Yusuf ﷺ inəyi il kimi yozmuşdur. Çünki meyvə və əkinlərin bitdiyi torpağı onlar şumlayır. Yaşıl sünbül də yerdə bitən bitkilərdəndir.

Sonra Yusuf ﷺ onlara bu yeddi ildə nə edəcəklərini öyrədib belə dedi: "**Biçdiyinizi isə yeyəcəyiniz az bir miqdar istisna olmaqla, sünbüldə saxlayın**", yəni bu yeddi bolluq ilində yeyəcəyiniz az bir miqdar istisna olmaqla, biçdiyinizin tez xarab olmaması və daha çox qalması üçün onu sünbüldə saxlayın. Növbəti yeddi qıtlıq ilində faydalanmaq üçün tədarük gördüyünüzü israf etməyin və az-az, qənaətlə yeyin. Yeddi qıtlıq ili yeddi bolluq ilin ardınca gələcək. Kök inəkləri yeyən arıq inəklər bu yeddi quraqlıq ildir. Çünki qıtlıq illərində bolluq illərində yığdıqlarını yeyəcəklər. Quru sünbüllər də bunlardır. Sonra Yusuf ﷺ onlara bu yeddi qıtlıq ilində heç bir şey bitməyəcəyini, əkdikləri toxumların onlara heç bir şey gətirməyəcəyini xəbər verərək "**Sonra bunun ardınca, toxumluq saxlayacağınız az bir miqdar istisna olmaqla, əvvəlcədən həmin illər üçün tədarük gördüyünüzü yeyəcək yeddi ağır il – quraqlıq illəri gələcək**" – demişdir.

Daha sonra Yusuf ﷺ onları bu ağır illərin ardınca bol yağışlı illərin gəlməsi ilə müjdələdi və bildirdi ki, bu illərdə onlar meyvə sıxacaqlar. Yəni bu yeddi quraqlıq illərindən sonra elə illər gələcək ki, bol yağış yağacaq, ölkələrdə bitkilər bitəcək və insanlar adətləri üzrə zeytun yağı, şəkər və bənzərlərini sıxacaqlar. Bəzi alimlər südsağmanın da bura daxil olduğunu demişlər. İbn Abbas رضي الله عنه bu ayəni "süd sağacaqlar" kimi təfsir etmişdir.

﴿وَقَالَ ٱلۡمَلِكُ ٱئۡتُونِي بِهِۦۖ فَلَمَّا جَآءَهُ ٱلرَّسُولُ قَالَ ٱرۡجِعۡ إِلَىٰ رَبِّكَ فَسۡـَٔلۡهُ مَا بَالُ ٱلنِّسۡوَةِ ٱلَّٰتِي قَطَّعۡنَ أَيۡدِيَهُنَّۚ
إِنَّ رَبِّي بِكَيۡدِهِنَّ عَلِيمٞ ﴿٥٠﴾ قَالَ مَا خَطۡبُكُنَّ إِذۡ رَٰوَدتُّنَّ يُوسُفَ عَن نَّفۡسِهِۦۚ قُلۡنَ حَٰشَ لِلَّهِ مَا عَلِمۡنَا عَلَيۡهِ مِن
سُوٓءٖۚ قَالَتِ ٱمۡرَأَتُ ٱلۡعَزِيزِ ٱلۡـَٰٔنَ حَصۡحَصَ ٱلۡحَقُّ أَنَا۠ رَٰوَدتُّهُۥ عَن نَّفۡسِهِۦ وَإِنَّهُۥ لَمِنَ ٱلصَّٰدِقِينَ ﴿٥١﴾ ذَٰلِكَ لِيَعۡلَمَ أَنِّي لَمۡ
أَخُنۡهُ بِٱلۡغَيۡبِ وَأَنَّ ٱللَّهَ لَا يَهۡدِي كَيۡدَ ٱلۡخَآئِنِينَ ﴿٥٢﴾ ۞ وَمَآ أُبَرِّئُ نَفۡسِيٓۚ إِنَّ ٱلنَّفۡسَ لَأَمَّارَةُۢ بِٱلسُّوٓءِ إِلَّا مَا رَحِمَ رَبِّيٓۚ
إِنَّ رَبِّي غَفُورٞ رَّحِيمٞ ﴿٥٣﴾﴾

**50. Padşah dedi: "Onu yanıma gətirin!" Elçi onun yanına gəldikdə Yusuf dedi: "Ağanın yanına qayıt və soruş gör ki, əllərini kəsən qadınların məqsədi nə idi? Şübhəsiz ki, Rəbbim onların hiyləsini bilir".**

**51. Padşah qadınlara dedi: "Yusufu yoldan çıxarmaqla nə məqsəd güdürdünüz?" Onlar dedilər: "Allah uzaq eləsin! Biz onun haqqında pis bir şey bilmirik". Vəzirin arvadı dedi: "İndi haqq bəlli oldu. Onu mən yoldan çıxarmaq istəyirdim. Həqiqətən də, o, doğru danışanlardandır.**

**52. Bu (etiraf) ona görədir ki, ərim yanımda olmadıqda ona xəyanət etmədiyimi və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin.**

**53. Mən özümü təmizə çıxarmıram. Çünki nəfs adama pis işləri çox əmr edər. Yalnız Rəbbimin rəhm etdiyi kəs istisnadır. Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir".**

Uca Allah bu ayələrdə bildirir ki, padşaha gördüyü yuxunun yozumunu xoşagələn və heyrət doğuran şəkildə xəbər verdikdə, o, Yusufun ﷺ fəzilətinin, elminin, və əxlaqının öz rəiyyətindən üstün olduğunu anladı və "**Onu yanıma gətirin!**" – deyə əmr etdi. Yəni onu zindandan çıxarıb yanıma gətirin. Padşahın elçisi Yusufa ﷺ bu xəbəri gətirdikdə, padşah və rəiyyəti vəzirin arvadının ona böhtan atdığını və ismətinin təmiz olduğunu yəqinliklə bilsinlər deyə zindandan dərhal çıxmağı qəbul etmədi. Yusuf istəyirdi bilsinlər ki, onun zindana atılmasının səbəbi günah etməsi deyil, ona qarşı bir haqsızlıq və düşmənçilik olmuşdur. Yusuf ﷺ dedi: "**Ağanın yanına qayıt və soruş gör ki, əllərini kəsən qadınların məqsədi nə idi? Şübhəsiz ki, Rəbbim onların hiyləsini bilir**". Sünnədə Yusufun ﷺ bu davranışını tərifləyən, onun fəzilətinə, şərəfinə, şanının ucalığına və səbrinə dəlalət edən hədislər gəlmişdir. Allahın salavatı və salamı onun üzərinə olsun! "Musnəd" əsərində, habelə əl-Buxari və Muslimin "Səhih" əsərlərində Əbu Hureyradan ؓ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Bizim İbrahimdən daha çox şübhə etməyə haqqımız çatır. Belə ki, o demişdir: "**Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!" Rəbbi ona "Məgər sən inanmırsan?" – dedi. İbrahim dedi: "Əlbəttə, inanıram! Amma istəyirəm ki, qəlbim rahat olsun**" ("əl-Bəqərə", 260). Allah Luta rəhmət eləsin! Həqiqətən, o, möhkəm bir dayağa (Allaha) söykənmişdi.[1] Əgər mən Yusuf qədər zindanda qalsaydım, (sonra da padşahın elçisi gəlib məni çağırmış olsaydı,) mən onun çağırışını dərhal qəbul edərdim[2]".[3]

[1] Uca Allah buyurur: **"Lut dedi: "Kaş ki, sizə çatan bir qüvvəm olaydı, yaxud möhkəm bir dayağa söykənəydim!"** ("Hud", 80).

[2] Peyğəmbər ﷺ bu sözləri təvazökarlıqdan demişdir. Yoxsa, əlbəttə, o peyğəmbərlərin ən əzmkarı və ən üstünüdür.

[3] Əhməd, 7311; əl-Buxari, 4326, 4694; Muslim, 216, 399, 4369, 6291.

Uca Allah buyurur: "**Padşah qadınlara dedi: "Yusufu yoldan çıxarmaqla nə məqsəd güdürdünüz?**" Padşah vəzirin arvadının verdiyi ziyafətdə əllərini kəsən qadınları yığdı və vəzirin arvadını nəzərdə tutaraq onların hamısına xitab edərək belə dedi: "Ziyafət günü "**Yusufu yoldan çıxarmaqla nə məqsəd güdürdünüz? Onlar dedilər: "Allah uzaq eləsin! Biz onun haqqında pis bir şey bilmirik**", yəni qadınlar padşahın sualına cavab olaraq belə dedilər: "Yusufu ittiham etməkdən Allaha sığınırıq. Allaha and olsun ki, biz onun hər hansı bir pis işini bilmirik". Bu vaxt "**Vəzirin arvadı dedi: "İndi haqq bəlli oldu**". İbn Abbas və Mucahid ﵁ demişlər: "Yəni indi haqq üzə çıxdı". "**Onu mən yoldan çıxarmaq istəyirdim. Həqiqətən də, o, doğru danışanlardandır**", yəni Yusuf "**O məni yoldan çıxarmaq istəyirdi**" deməklə doğru danışırdı. "**Bu etiraf ona görədir ki, ərim yanımda olmadıqda ona xəyanət etmədiyimi... bilsin**", yəni mən bunu öz əleyhimə ona görə etiraf etdim ki, ərim ona xəyanət etmədiyimi və böyük günahın (zinanın) baş vermədiyini bilsin. Bəli, mən bu gənci yoldan çıxarmaq istədim, amma o qəbul etmədi. Ərim mənim günahsız olduğumu bilsin deyə, bunu etiraf etdim. "**Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin. Mən özümü təmizə çıxarmıram**", yəni mən özümü təmizə çıxarmıram. Həqiqətən, nəfs insanı pis əməllərə sövq edir və günah əməllər etməyi arzulayır. Bu səbəbdən mən onu yoldan çıxarmaq istədim, çünki nəfs insana pis işləri çox əmr edər. "**Yalnız Rəbbimin rəhm etdiyi kəs istisnadır**", yəni yalnız Uca Allahın günahlardan qoruduğu şəxs istisnadır. "**Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir**". Hekayənin axışına, sözün mənalarına ən uyğun, ən layiq və ən məşhur fikir budur ki, bu sözlər vəzirin arvadına aiddir. əl-Məvərdi "Təfsir" kitabında bu rəyi nəql etmiş, İmam, Böyük alim Əbul-Abbas İbn Teymiyyə ﵀ bu fikiri dəstəkləmişdir.

Bəzi təfsirçilər bu sözlərin (52 və 53-cü ayələrin) Yusufa ﵇ aid olduğunu bildirmişlər. Onların rəyinə görə bu iki ayənin mənası belədir: padşahın elçisini ona görə qaytardım ki, vəzir evdə olmadıqda arvadı ilə ona xəyanət etmədiyimi "**və Allahın xainlərin hiylələrinə yol vermədiyini bilsin. Mən özümü təmizə çıxarmıram. Çünki nəfs adama pis işləri çox əmr edər. Yalnız Rəbbimin rəhm etdiyi kəs istisnadır. Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir**". İbn Cərir və İbn Əbu Hatim ﵏ yalnız bu rəyi rəvayət etmişlər. Mucahid, Səid ibn Cubeyr, əl-Həsən, Qatədə və başqaları da belə demişlər, lakin birinci görüş (bu sözlərin vəzirin arvadına aid olması) daha qüvvətli və daha üstündür. Çünki deyilənlərin hamısı padşahın hüzurunda vəzirin arvadının sözləridir. Yusuf ﵇ onların yanında deyildi. Əksinə, padşah bundan sonra Yusufu ﵇ yanına gətizdirdi.

﴿وَقَالَ ٱلۡمَلِكُ ٱئۡتُونِي بِهِۦٓ أَسۡتَخۡلِصۡهُ لِنَفۡسِيۖ فَلَمَّا كَلَّمَهُۥ قَالَ إِنَّكَ ٱلۡيَوۡمَ لَدَيۡنَا مَكِينٌ أَمِينٞ ٥٤ قَالَ ٱجۡعَلۡنِي عَلَىٰ
خَزَآئِنِ ٱلۡأَرۡضِۖ إِنِّي حَفِيظٌ عَلِيمٞ ٥٥﴾

**54. Padşah dedi: "Onu yanıma gətirin! Onu özümə yaxın adam edəcəyəm". Onunla söhbət etdikdə "Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan" – dedi.**

**55. Yusuf dedi: "Bu yerin xəzinələrini qorumağı mənə tapşır. Çünki mən qoruyanam, bu işi bilənəm".**

Uca Allah bu ayələrdə bildirir ki, padşah Yusufun عليه السلام günahsız və təmiz olduğunu, ona böhtan atıldığını yəqinliklə bildikdə belə dedi: "**Onu yanıma gətirin! Onu özümə yaxın adam edəcəyəm**", yəni onu özüm üçün xüsusi məsləhətçi edəcəyəm. "**Onunla söhbət etdikdə**", yəni onunla danışıb tanış olduqda, onun fəzilətini və üstünlüyünü, ondakı xilqəti və əxlaqi xüsusiyyətlərin gözəlliyini, ağıla və kamala sahib olduğunu gördükdə belə dedi: "**Sən bu gün yanımızda yüksək məqam sahibi, etibarlı bir adamsan**", yəni sən bu gün yanımızda mövqe sahibisən, etibarlı bir şəxssən. Bu vaxt Yusuf عليه السلام "**Bu yerin xəzinələrini qorumağı mənə tapşır. Çünki mən qoruyanam, bu işi bilənəm**" – deyib özünü təriflədi. Ehtiyac olduqda və tanınmadığı halda insanın özünü tərifləməsi icazəlidir. Yusuf عليه السلام özünün "qoruyan", yəni etibarlı bir xəzinədar və "bilən", yəni üzərinə götürdüyü işi bilən biri olduğunu demişdir. Yusuf عليه السلام bu vəzifəni yerinə yetirməyi bacaracağını və bunun insanlar üçün xeyirli olacağını bildiyi üçün onu istəmişdir. "Yerin xəzinələri" məhsulların toplandığı Ehramlardır.[1] Yusuf عليه السلام (padşahın gördüyü yuxuya əsasən) xəbərdar etdiyi quraqlıq illərində məhsullara ehtiyac olduğu qədər, ən doğru və ən faydalı bir şəkildə qənaət etmək məqsədilə bu vəzifəni istəmişdir. Padşah Yusufa عليه السلام olan rəğbətinə və hörmətinə görə onun bu istəyini qəbul etdi. Bu xüsusda Uca Allah növbəti ayədə belə buyurur:

﴿وَكَذَٰلِكَ مَكَّنَّا لِيُوسُفَ فِي ٱلۡأَرۡضِ يَتَبَوَّأُ مِنۡهَا حَيۡثُ يَشَآءُۚ نُصِيبُ بِرَحۡمَتِنَا مَن نَّشَآءُۖ وَلَا نُضِيعُ أَجۡرَ
ٱلۡمُحۡسِنِينَ ٥٦ وَلَأَجۡرُ ٱلۡأٓخِرَةِ خَيۡرٞ لِّلَّذِينَ ءَامَنُواْ وَكَانُواْ يَتَّقُونَ ٥٧﴾

**56. Beləliklə, Yusufa yer üzündə hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi. Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik.**

**57. İman gətirənlər və müttəqi olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir.**

[1] Ehramlar – Qədim Misirdə piramida şəklində inşa edilmiş nəhəng daş tikililər.

Uca Allah buyurur: "**Beləliklə, Yusufa yer üzündə**", yəni Misridə "**hökmranlıq verdik. O, istədiyi yerdə qala bilərdi**". əs-Suddi və Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ demişlər: "Yəni oranı istədiyi kimi idarə edərdi". İbn Cərir ﷺ demişdir: "Üzləşdiyi çətinlik, düşdüyü həbs və əsarətdən sonra orada istədiyi yerdə məskunlaşa bilərdi". "**Biz istədiyimizə mərhəmətimizi nəsib edirik və yaxşı iş görənlərin mükafatını əsirgəmirik**", yəni Biz Yusufun ﷺ qardaşlarının ona verdiyi əziyyətə və vəzirin arvadının ona atdığı böhtan ucbatından həbs edilməsinə görə səbir etməsini itirmədik. Uca Allah bunun ardından onu salamatlıq, qələbə və yardımla mükafatlandırdı. "**İman gətirənlər və müttəqi olanlar üçün, əlbəttə, axirət mükafatı daha xeyirlidir**". Uca Allah burada peyğəmbəri Yusuf ﷺ üçün Axirət yurdunda mükafat hazırladığını və bu mükafatın dünyada ikən ona verdiyi vəzifə və nüfuzdan daha böyük, daha çox və daha üstün olduğunu xəbər verir. Necə ki Uca Allah başqa bir ayədə Süleyman ﷺ barədə belə buyurur: "**Bu Bizim hədiyyəmizdir! Bunlardan istədiyinə versən də, verməsən də səndən haqq-hesab tələb olunmayacaqdır". Həqiqətən, o Bizə yaxın olanlardandır və onun üçün gözəl qayıdış yeri hazırlanmışdır**" ("Sad", 39-40).

Mucahidin ﷺ dediyinə görə ayədə nəzərdə tutulan məna belədir: "Misir hökmdarı Rayyan ibn Vəlid Yusufu Misirdə satın alan, onu tovlamaq istəyən qadının ərinin yerinə Misir diyarına vəzir təyin edir. Misir hökmdarı Yusufun dəvəti ilə İslamı qəbul edir".

﴿وَجَآءَ إِخۡوَةُ يُوسُفَ فَدَخَلُواْ عَلَيۡهِ فَعَرَفَهُمۡ وَهُمۡ لَهُۥ مُنكِرُونَ ٥٨ وَلَمَّا جَهَّزَهُم بِجَهَازِهِمۡ قَالَ ٱئۡتُونِي بِأَخٖ
لَّكُم مِّنۡ أَبِيكُمۡۚ أَلَا تَرَوۡنَ أَنِّيٓ أُوفِي ٱلۡكَيۡلَ وَأَنَا۠ خَيۡرُ ٱلۡمُنزِلِينَ ٥٩ فَإِن لَّمۡ تَأۡتُونِي بِهِۦ فَلَا كَيۡلَ لَكُمۡ عِندِي وَلَا
تَقۡرَبُونِ ٦٠ قَالُواْ سَنُرَٰوِدُ عَنۡهُ أَبَاهُ وَإِنَّا لَفَٰعِلُونَ ٦١ وَقَالَ لِفِتۡيَٰنِهِ ٱجۡعَلُواْ بِضَٰعَتَهُمۡ فِي رِحَالِهِمۡ لَعَلَّهُمۡ يَعۡرِفُونَهَآ إِذَا
ٱنقَلَبُوٓاْ إِلَىٰٓ أَهۡلِهِمۡ لَعَلَّهُمۡ يَرۡجِعُونَ ٦٢﴾

**58. Yusufun qardaşları Misirə gəlib onun yanına daxil oldular. Yusuf onları tanıdı, onlar isə onu tanımadılar.**

**59. Yusuf onların ərzaq yüklərini hazırlayarkən dedi: "Atabir qardaşınızı yanıma gətirin! Məgər görmürsünüz ki, mən ölçüyə tam riayət edirəm və mən qonaqpərvərlərin ən yaxşısıyam?**

**60. Əgər onu yanıma gətirməsəniz, mənim yanımda sizin üçün bir qab belə ərzaq verilməyəcək, özünüz də mənə yaxınlaşmayın".**

**61. Onlar dedilər: "Ona görə atasını razı salmağa çalışarıq. Biz, əlbəttə, bunu edərik".**

**62. O öz xidmətçilərinə dedi: "Onların taxıl əvəzinə ödədikləri mallarını da yüklərinin içinə qoyun ki, ailələrinin yanına döndükdə onu başa düşsünlər və ola bilsin ki, qayıtsınlar".**

əs-Suddi, Muhəmməd ibn İshaq və digər təfsirçilərin qeyd etdiklərinə görə Yusufun ﷺ qardaşlarını Misir diyarına gətirən səbəb bu olmuşdur: Yusufun ﷺ Misirə vəzir təyin olunduğu yeddi bolluq ilinin ardından qıtlıq illəri gəldikdə, quraqlıq bütün Misir ölkəsini bürüyərək Yaqub və övladlarının olduğu Kənan ölkəsinə də çatmışdı. Bu vaxt Yusuf ﷺ insanların məhsullarını ehtiyatla sərf etmiş, onları gözəl bir şəkildə toplamış və nəticədə böyük həcmdə məhsullarla dolu anbarlar meydana gəlmişdi. Digər ölkələrdən insanlar özlərinə və ailələrinə yeyinti məhsulları əldə etmək üçün bura gəlirdilər. Bu, Uca Allahın Misir əhalisinə bir mərhəməti idi.

Burada nəzərdə tutulan budur: "Yemək üçün gələnlər arasında Yusufun ﷺ qardaşları da vardı. Onlar atalarının əmri ilə gəlmişdilər. Onlara xəbər çatmışdı ki, Misirin vəziri insanlara öz qiymətinə yeyinti məhsulları verir. Onlar özləri ilə qarşılığında yemək almaq üçün mal götürmüşdülər və minikləri on nəfərdən ibarət bir dəstə ilə yola çıxmışdı. Yaqub ﷺ Yusufun doğma qardaşı Binyamini yanında saxlamışdı. O, Yusufdan sonra uşaqları arasında Yaqubun ﷺ ən sevimli övlad idi. Yusuf cah-calal içində başda oturduğu an qardaşları onun yanına daxil oldular və Yusuf onları dərhal tanıdı, onlar isə Yusufu ﷺ tanımadılar. Çünki o, hələ kiçik bir uşaq ikən onlardan ayrılmış, onu karvana satmışdılar. Karvanın onu hara apardığını bilmirdilər. Onun belə bir məqama sahib olacağı ağıllarına belə gəlmirdi. Bu səbəbdən onu tanımadılar. Yusuf ﷺ isə onları tanıdı". əs-Suddi və başqaları qeyd etmişlər ki, Yusuf ﷺ onlarla söhbət etməyə başlamış və onlardan "Siz haradan gəlmisiniz?" – deyə soruşmuşdur. Onlar "Kənan diyarından gəlmişik. Atamız Yaqub Allahın peyğəmbəridir" – deyə cavab vermişlər. Yusuf "Onun sizdən başqa övladı varmı?" – deyə soruşmuş, onlar "Biz on iki qardaş idik. Ən kiçiyimiz getdi və səhrada həlak oldu. O, atamızın ən çox sevdiyi övlad idi. Onun doğma qardaşı qalıb və atamız təsəlli tapmaq üçün onu yanında saxladı", – deyə cavab vermişlər. Yusuf ﷺ onları qonaq edib onlara hörmət etməyi əmr etmişdi.

Uca Allah buyurur: “**Yusuf onların ərzaq yüklərini hazırlayarkən dedi: “Atabir qardaşınızı yanıma gətirin!**” Yəni onların ölçülərini tam olaraq ölçüb yüklərini yükləyib hazırlatdırdı və onlara dedi: “Sizin doğru danışıb-danışmadığınızı bilmək üçün mənə barəsində bəhs etdiyiniz qardaşınızı yanıma gətirin! “**Məgər görmürsünüz ki, mən ölçüyə tam riayət edirəm və mən qonaqpərvərlərin ən yaxşısıyam?**” Beləcə, Yusuf ﷵ onları geri qayıtmağa təşviq etmiş, sonra da qorxudaraq belə demişdir: “**Əgər onu yanıma gətirməsəniz, mənim yanımda sizin üçün bir qab belə ərzaq verilməyəcək, özünüz də mənə yaxınlaşmayın**”, yəni əgər ikinci dəfə gələndə onu da özünüzlə gətirməsəniz, sizə ərzaq verməyəcəyəm. “**Onlar dedilər: “Ona görə atasını razı salmağa çalışarıq. Biz əlbəttə, bunu edərik**”, yəni dediklərimizin doğruluğunu biləsən deyə, onu sənin yanına gətirmək üçün mümkün olan hər şeyi edəcəyik. Bunun üçün bütün gücümüzü səfərbər edəcəyik. “**O öz xidmətçilərinə dedi: “Onların taxıl əvəzinə ödədikləri mallarını da**”, yəni qarşılığında yemək almaq üçün gətirdikləri əşyalarını da onlar hiss etmədən “**yüklərinin içinə qoyun ki, ailələrinin yanına döndükdə onu başa düşsünlər və ola bilsin ki, qayıtsınlar**”, yəni onu götürüb geri qaytarsınlar. Bəzi təfsirçilərə görə Yusuf ﷵ qorxub ki, onların növbəti dəfə yemək almaq üçün qayıtmağa başqa əşyaları olmasın. Başqa bir rəyə görə isə Yusuf ﷵ ona görə belə etmişdir ki, onlar əvəz olaraq apardıqları əşyaların gətirdikləri malların içində olduğunu gördükdə, onu sahibinə geri qaytarmadıqca rahatlıq tapa bilməyəcək və onları geri qaytarmaq istəyəcəklər. Çünki onların belə edəcəklərini bilirdi. Ən doğrusunu isə Allah bilir.

﴿فَلَمَّا رَجَعُوٓاْ إِلَىٰٓ أَبِيهِمۡ قَالُواْ يَٰٓأَبَانَا مُنِعَ مِنَّا ٱلۡكَيۡلُ فَأَرۡسِلۡ مَعَنَآ أَخَانَا نَكۡتَلۡ وَإِنَّا لَهُۥ لَحَٰفِظُونَ ﴿٦٣﴾ قَالَ هَلۡ ءَامَنُكُمۡ عَلَيۡهِ إِلَّا كَمَآ أَمِنتُكُمۡ عَلَىٰٓ أَخِيهِ مِن قَبۡلُ فَٱللَّهُ خَيۡرٌ حَٰفِظٗاۖ وَهُوَ أَرۡحَمُ ٱلرَّٰحِمِينَ ﴿٦٤﴾﴾

**63. Onlar atalarının yanına qayıtdıqda dedilər: “Ey atamız! Daha bizə ərzaq verilməyəcək. Ölçüb ərzaq almaq üçün qardaşımızı bizimlə birlikdə göndər. Şübhəsiz ki, biz onu qoruyacağıq”.**

**64. O dedi: “Daha öncə qardaşını sizə etibar etdiyim kimi, heç onu sizə etibar edə bilərəmmi? Allah daha yaxşı qoruyur. O, rəhmlilərin ən rəhmlisidir”.**

Uca Allah bu ayədə bildirir ki, qardaşlar atalarının yanına qayıtdıqda “**Ey atamız! Daha bizə ərzaq verilməyəcək**” – dedilər. Yəni əgər

qardaşımız Binyamini bizimlə göndərməsən, bundan sonra bizə ərzaq verilməyəcək. Onu bizimlə göndər ki, bizə ərzaq verilsin. "**Şübhəsiz ki, biz onu qoruyacağıq**", yəni ona görə qorxma! Şübhəsiz ki, o, sənin yanına geri qayıdacaq. Bundan əvvəl Yusuf عليه السلام barədə də belə demişdilər: "**Sabah onu bizimlə göndərsən, bir qədər əylənib oynayar. Biz onu mütləq qoruyarıq!**" ("Yusuf", 12). Odur ki, Yaqub عليه السلام onlara belə dedi: "**Daha öncə qardaşını sizə etibar etdiyim kimi, heç onu sizə etibar edə bilərəmmi?**" Yəni daha əvvəl qardaşına etdiyinizi ona da edəcəksiniz. Onu itirib məni ona həsrət qoymadınızmı? "**Allah daha yaxşı qoruyur. O, rəhmlilərin ən rəhmlisidir**", yəni Allah mənə qarşı mərhəmətlilərin ən mərhəmətlisidir. O, yaşlı olduğuma və oğluma olan sevgimə görə, əlbəttə, mənə rəhm edəcək. Ümid edirəm ki, Allah onu (Yusufu) mənə sağ-salamat qaytarar və onun vasitəsilə ailəmizi bir yerə cəm edər. Həqiqətən, O, rəhmlilərin ən rəhmlisidir.

﴿وَلَمَّا فَتَحُوا۟ مَتَٰعَهُمْ وَجَدُوا۟ بِضَٰعَتَهُمْ رُدَّتْ إِلَيْهِمْ ۖ قَالُوا۟ يَٰٓأَبَانَا مَا نَبْغِى ۖ هَٰذِهِۦ بِضَٰعَتُنَا رُدَّتْ إِلَيْنَا ۖ
وَنَمِيرُ أَهْلَنَا وَنَحْفَظُ أَخَانَا وَنَزْدَادُ كَيْلَ بَعِيرٍ ۖ ذَٰلِكَ كَيْلٌ يَسِيرٌ ﴿٦٥﴾ قَالَ لَنْ أُرْسِلَهُۥ مَعَكُمْ حَتَّىٰ
تُؤْتُونِ مَوْثِقًا مِّنَ ٱللَّهِ لَتَأْتُنَّنِى بِهِۦٓ إِلَّآ أَن يُحَاطَ بِكُمْ ۖ فَلَمَّآ ءَاتَوْهُ مَوْثِقَهُمْ قَالَ ٱللَّهُ عَلَىٰ مَا نَقُولُ وَكِيلٌ ﴿٦٦﴾﴾

**65. Onlar yüklərini açdıqda verdikləri mallarının da özlərinə qaytarıldığını görüb dedilər: "Ey atamız! Bizə daha nə lazımdır ki? Budur, sərmayəmiz özümüzə qaytarılıb. Biz ailəmizi ərzaqla təmin edər, qardaşımızı qoruyar və bir dəvə yükü artıq ərzaq alarıq. Bu isə əslində, az bir yükdür".**

**66. Yaqub dedi: "Başınıza bir müsibət gəlib çarəsiz qalmanız istisna olmaqla, onu yanıma gətirəcəyinizə dair Allaha and içməyincə onu sizinlə göndərməyəcəyəm". Onlar and içdikdə Yaqub dedi: "Allah söylədiklərimizə Vəkildir".**

Uca Allah bu ayələrdə buyurur ki, Yusufun عليه السلام qardaşları əşyalarını açdıqda qarşılıq olaraq apardıqları mallarının onlara geri qaytarıldığını gördülər. Yusuf عليه السلام xidmətçilərinə bu malı onların yüklərinin içinə qoymağı əmr etmişdi. Onlar bu malı əşyalarının içində tapdıqda belə dedilər: "**Ey atamız! Bizə daha nə lazımdır ki?**" Yəni ey atamız, daha nə istəyirik? "**Budur, sərmayəmiz özümüzə qaytarılıb**". Qatədə رحمه الله demişdir: "Yəni daha bundan başqa nə istəyək? Malımızın əvəzində ölçümüz tam verildiyi halda, qarşılıq olaraq apardığımız mal da bizə geri qaytarılmışdır". "**Biz ailəmizi ərzaqla təmin edər**", yəni əgər qardaşımızı

bizimlə göndərsən ailəmizə yenə ərzaq gətirərik. "**...qardaşımızı qoruyar və bir dəvə yükü artıq ərzaq alarıq**". Çünki Yusuf ﷺ hər adam başına bir dəvə yükü ərzaq verirdi. "**Bu isə əslində, az bir yükdür**". Bu, sözün tamamlanması və gözəlləşdirilməsi qəbilindən deyilən bir sözdür. Yəni qardaşlarını özləri ilə aparmaqla müqayisədə bu az bir şeydir və ona bərabər deyil (yəni qardaşlarını özləri ilə aparmaq daha məsuliyyətli işdir).[1]

"**Yaqub dedi: "Başınıza bir müsibət gəlib çarəsiz qalmanız istisna olmaqla, onu yanıma gətirəcəyinizə dair Allaha and içməyincə onu sizinlə göndərməyəcəyəm**", yəni Binyamini sağ-salamat qaytarıb yanıma gətirəcəyinizə dair Allaha and içib mənə söz verməyincə onu sizinlə Misirə göndərməyəcəyəm! Yalnız hamınızın əlacsız qalıb onu xilas etməyə gücünüzün çatmadığı hal istisnadır. "**Onlar and içdikdə Yaqub**" onların andını təsdiqləmək üçün "**dedi: "Allah söylədiklərimizə Vəkildir**". İbn İshaq رحمه الله demişdir: "Yaqub ehtiyacları olan ərzaq üçün onları göndərməkdən başqa çıxış yolu tapa bilmədiyi üçün belə etdi və Binyamini onlarla göndərdi".

﴿وَقَالَ يَٰبَنِيَّ لَا تَدۡخُلُواْ مِنۢ بَابٖ وَٰحِدٖ وَٱدۡخُلُواْ مِنۡ أَبۡوَٰبٖ مُّتَفَرِّقَةٖۖ وَمَآ أُغۡنِي عَنكُم مِّنَ ٱللَّهِ مِن شَيۡءٍۖ إِنِ
ٱلۡحُكۡمُ إِلَّا لِلَّهِۖ عَلَيۡهِ تَوَكَّلۡتُۖ وَعَلَيۡهِ فَلۡيَتَوَكَّلِ ٱلۡمُتَوَكِّلُونَ ٦٧ وَلَمَّا دَخَلُواْ مِنۡ حَيۡثُ أَمَرَهُمۡ أَبُوهُم مَّا كَانَ
يُغۡنِي عَنۡهُم مِّنَ ٱللَّهِ مِن شَيۡءٍ إِلَّا حَاجَةٗ فِي نَفۡسِ يَعۡقُوبَ قَضَىٰهَاۚ وَإِنَّهُۥ لَذُو عِلۡمٖ لِّمَا عَلَّمۡنَٰهُ وَلَٰكِنَّ أَكۡثَرَ
ٱلنَّاسِ لَا يَعۡلَمُونَ ٦٨﴾

**67. O dedi: "Ey oğullarım! Şəhərə bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər".**

**68. Atalarının onlara əmr etdiyi yerlərdən daxil olmalarının Allah yanında onlar üçün heç bir faydası olmadı, lakin bu, Yaqubun nəfsindəki bir istək idi ki, onu da yerinə yetirdi. Həqiqətən də, o, elm sahibi idi, çünki onu Biz öyrətmişdik. Lakin insanların çoxu bunu bilmir.**

---

[1] Bəzi təfsirçilərə görə isə ayənin mənası belədir: "Bu, asanlıqla əldə olunan bir yükdür". əs-Sədi رحمه الله bu ayənin təfsirində demişdir: "Yəni bu asan bir yük olacaq. Bundan sənə heç bir zərər gəlməz, çünki bu az müddət çəkəcək və xeyiri də göz qabağındadır". Bəzilərinə görə isə məna belədir: "Bu yükü vermək vəzir üçün çox asandır".

Uca Allah bu ayələrdə bildirir ki, Yaqub ﷺ oğullarını qardaşları Binyamin ilə birlikdə Misirə yola salmaq üçün hazırladıqda onlara şəhərə daxil olarkən hamısının bir qapıdan deyil, ayrı-ayrı qapılardan daxil olmalarını əmr etdi. İbn Abbas, Mucahid, əd-Dahhək, Qatədə və əs-Suddinin ﷺ dedikləri kimi, Yaqub qorxurdu ki, onlara göz dəyər. Çünki onlar gözəl zahiri görünüşə və yaraşığa sahib idilər. Onlara insanların nəzərlərinin dəyməsindən qorxurdu. Həqiqətən, gözdəymə haqdır və onun təsiri atlını miniyindən aşağı salır.[1]

"**Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm**", yəni bu ehtiyat tədbiri (gözdəymədən qorunmaq üçün ayrı-ayrı qapılardan girmək əmri) Allahın qəzavü-qədərini, əlbəttə, geri qaytarmaz, çünki Uca Allah bir şeyin baş verməsini istədikdə, heç kəs Ona qarşı çıxa bilməz və heç nə Ona mane ola bilməz. "**Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər**. **Atalarının onlara əmr etdiyi yerlərdən daxil olmalarının Allah yanında onlar üçün heç bir faydası olmadı, lakin bu, Yaqubun nəfsindəki bir istək idi ki, onu da yerinə yetirdi**". Bu istək gözdəymənin qarşısının alınması idi. "**Həqiqətən də, o, elm sahibi idi, çünki onu Biz öyrətmişdik**". Qatədə və əs-Səuri ﷺ demişlər: "Yəni bildiyinə əməl edərdi". İbn Cərir ﷺ demişdir: "Biz onu öyrətdiyimiz üçün elm sahibi idi".[2] "**Lakin insanların çoxu bunu bilmir**".



[1] Peyğəmbər ﷺ bu haqda demişdir: "Gözdəymə (nəzər) haqdır və insanı məzara, dəvəni qazana salar". (əl-Acluni "Kəşful-Xafə", 2/76). Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Biriniz qardaşında, yaxud özündə, yaxud da malında xoşuna gələn bir şey görsə, onun üçün bərəkət diləsin! ("Allah bərəkət versin" və ya "Allah bərəkətli etsin" desin!) Çünki gözdəymə həqiqətdir!" (İbn Məcə, 3509. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4020). Gözdəymədən qorunmaq üçün hər namazdan sonra "Ayətul-Kursi" ("əl-Bəqərə", 255), "əl-İxlas", "əl-Fələq" və "ən-Nəs" surələrini oxumaq lazımdır. Həmçinin səhər (Sübh namazından sonra) və axşam (Məğrib namazından yarım saat əvvəl) bu surələrin hər birini üç dəfə oxumaq lazımdır. İnsan özündə və ya başqasında xoşuna gələn bir şey gördükdə ona Uca Allahdan bərəkət diləyərək "Bərakəlla:hu fihi", yaxud "Mə şəə Allah" (Allah istədiyi kimidir) deməlidir.

[2] ət-Təbəri, 19499, 19584.

﴿وَلَمَّا دَخَلُوا۟ عَلَىٰ يُوسُفَ ءَاوَىٰٓ إِلَيْهِ أَخَاهُ ۖ قَالَ إِنِّىٓ أَنَا۠ أَخُوكَ فَلَا تَبْتَئِسْ بِمَا كَانُوا۟ يَعْمَلُونَ ﴿٦٩﴾﴾

**69. Onlar Yusufun yanına daxil olduqda o, qardaşını bərk-bərk qucaqlayıb dedi: "Mən sənin qardaşınam. Onların tutduqları işlərə görə kədərlənmə".**

Uca Allah bu ayədə bildirir ki, Yusufun عليه السلام qardaşları yanlarında onun doğma qardaşı Binyaminlə Yusufun yanına girdikdə onları hörmətlə qarşılamış, onlara ziyafət verərək onlarla mülayim və gözəl rəftar etmişdir. Yusuf عليه السلام doğma qardaşı ilə təklikdə qaldıqda vəziyyəti və başına gələnləri ona danışdı. Binyaminə Yusuf olduğunu bildirərək "**Mən sənin qardaşınam. Onların tutduqları işlərə görə kədərlənmə**" – dedi. Yəni qardaşlarımın mənə etdiklərinə görə kədərlənmə. Yusuf عليه السلام doğma qardaşına bu sirri gizlətməsini, qardaşı olduğuna dair verdiyi məlumatı onlara bildirməməsini əmr etdi. Sonra isə qardaşını hörmət və izzətlə yanında saxlamaq üçün bir hiylə quracağı barəsində onunla razılaşdı.

﴿فَلَمَّا جَهَّزَهُم بِجَهَازِهِمْ جَعَلَ ٱلسِّقَايَةَ فِى رَحْلِ أَخِيهِ ثُمَّ أَذَّنَ مُؤَذِّنٌ أَيَّتُهَا ٱلْعِيرُ إِنَّكُمْ لَسَٰرِقُونَ ﴿٧٠﴾
قَالُوا۟ وَأَقْبَلُوا۟ عَلَيْهِم مَّاذَا تَفْقِدُونَ ﴿٧١﴾ قَالُوا۟ نَفْقِدُ صُوَاعَ ٱلْمَلِكِ وَلِمَن جَآءَ بِهِۦ حِمْلُ بَعِيرٍ وَأَنَا۠ بِهِۦ
زَعِيمٌ ﴿٧٢﴾﴾

**70. Yusuf onları azuqə ilə təmin edərkən qardaşının yükünün içinə bir piyalə qoydu. Sonra bir carçı qışqırıb dedi: "Ey karvan əhli! Siz oğrusunuz!"**

**71. Qardaşlar onlara tərəf dönüb "Nə itirmisiniz?" – dedilər.**

**72. Onlar dedilər: "Padşahın piyaləsini itirmişik. Onu gətirənə bir dəvə yükü ərzaq veriləcək". Carçı "Mən buna zaminəm!" – dedi.**

Yusuf onların yüklərini hazırladıb dəvələrinə yüklətdikdə xidmətçilərindən birinə yüklərin içinə "**bir piyalə**", yəni su qabı qoymasını əmr etdi. Əksər alimlərin fikrinə görə bu, gümüş bir qab idi. Bu qabın qızıldan olduğu da deyilmişdir. Yusuf عليه السلام bu qabdan su içər və həmin vaxtlar ərzaq son dərəcə qıt olduğu üçün insanlara verdiyi ərzaqı da onunla ölçərdi. Xidmətçi heç kim hiss etmədən piyaləni Binyaminin əşyalarının içinə qoydu. Sonra aralarından bir carçı belə qışqırdı: "**Ey karvan əhli! Siz oğrusunuz!**" Onlar carçıya tərəf dönüb "**Nə itirmisiniz?" – dedilər. Onlar dedilər: "Padşahın piyaləsini itirmişik**", yəni hökmdarın ölçü üçün istifadə etdiyi su qabını itirmişik, "**Onu gətirənə bir dəvə yükü ərzaq veriləcək**", yəni hədiyyə olaraq. "**Carçı "Mən buna zaminəm!" – dedi**". Bu sözlər, bir növ zəmanətdir.

﴿قَالُوا۟ تَٱللَّهِ لَقَدْ عَلِمْتُم مَّا جِئْنَا لِنُفْسِدَ فِى ٱلْأَرْضِ وَمَا كُنَّا سَـٰرِقِينَ ﴿٧٣﴾ قَالُوا۟ فَمَا جَزَٰٓؤُهُۥٓ إِن كُنتُمْ
كَـٰذِبِينَ ﴿٧٤﴾ قَالُوا۟ جَزَٰٓؤُهُۥ مَن وُجِدَ فِى رَحْلِهِۦ فَهُوَ جَزَٰٓؤُهُۥ ۚ كَذَٰلِكَ نَجْزِى ٱلظَّـٰلِمِينَ ﴿٧٥﴾ فَبَدَأَ بِأَوْعِيَتِهِمْ قَبْلَ
وِعَآءِ أَخِيهِ ثُمَّ ٱسْتَخْرَجَهَا مِن وِعَآءِ أَخِيهِ ۚ كَذَٰلِكَ كِدْنَا لِيُوسُفَ ۖ مَا كَانَ لِيَأْخُذَ أَخَاهُ فِى دِينِ ٱلْمَلِكِ
إِلَّآ أَن يَشَآءَ ٱللَّهُ ۚ نَرْفَعُ دَرَجَـٰتٍ مَّن نَّشَآءُ ۗ وَفَوْقَ كُلِّ ذِى عِلْمٍ عَلِيمٌ ﴿٧٦﴾﴾

**73. Onlar dedilər: "Allaha and olsun! Siz bilirsiniz ki, biz bu yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik və biz oğru da deyilik".**

**74. Onlar dedilər: "Əgər yalançısınızsa, onda onun cəzası nədir?"**

**75. Qardaşlar dedilər: "Onun cəzası – yükündə itmiş piyalə tapılan kimsənin özünün kölə edilərək cəzalandırılmasıdır. Biz zalımları belə cəzalandırırıq".**

**76. O, qardaşının yükündən əvvəl onların yüklərini axtarmağa başladı, sonra da piyaləni qardaşının yükündən çıxardı. Biz Yusufa belə bir hiylə öyrətdik. Allahın istəyi olmasaydı, padşahın qanunlarına görə, o, qardaşını tutub öz yanında saxlaya bilməzdi. Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik. Hər bilik sahibindən də üstün bir bilən vardır.**

Xidmətçilər Yusufun (ə) qardaşlarını oğurluqda ittiham etdikdə Yusufun (ə) qardaşları onlara belə dedilər: "**Allaha and olsun! Siz bilirsiniz ki, biz bu yerlərə fitnə-fəsad törətmək üçün gəlməmişik**", yəni bizi tanıdığınız vaxtdan bəri yəqinliklə bilirsiniz ki, biz oğru deyilik. Çünki onların gözəl əxlaq sahibi olduqlarını müşahidə etmişdilər. "**...və biz oğru da deyilik**", yəni oğurluq bizim təbiətimizə ziddir. Xidmətçilər onlara dedilər: "**Əgər yalançısınızsa**", yəni əgər oğru sizdən biri olarsa, "**onda onun cəzası nədir?**" Yəni əgər piyaləni götürəni sizin içinizdə tapsaq onun cəzası nədir? "**Qardaşlar dedilər: "Onun cəzası – yükündə itmiş piyalə tapılan kimsənin özünün kölə edilərək cəzalandırılmasıdır. Biz zalımları belə cəzalandırırıq**". İbrahimin (ə) şəriəti belə idi. Oğru, malı oğurlanmış şəxsə (qul kimi) verilərdi. Yusufun (ə) istədiyi də elə bu idi. Bu səbəbdən məsələni gizlətmək üçün axtarışa qardaşının yükündən əvvəl onların yüklərindən başladı, "**sonra da piyaləni qardaşının yükündən çıxardı**". Yusuf (ə) qardaşı Binyamini onların öz etiraflarına və üzərlərinə götürdükləri öhdəliklərinə əsasən onlardan aldı. Beləcə, Yusuf (ə) onları öz inanclarına görə buna məcbur etdi. Bu səbəbdən Uca Allah "**Biz Yusufa belə bir hiylə öyrətdik**" – deyə buyurur. Bu, hikmət və fayda üçün nəzərdə tutulmuş, Allahın sevib razı qaldığı, bəyənilən bir hiylədir.

Uca Allah buyurur: "**Allahın istəyi olmasaydı, padşahın qanunlarına görə, o, qardaşını tutub öz yanında saxlaya bilməzdi**", yəni Misir padşahının qanunlarına görə Yusuf qardaşını yanında saxlaya bilməzdi. Lakin Uca Allah elə etdi ki, Yusufun qardaşları ona (oğrunun orada saxlanılması barədə) söz verdilər. Yusuf onların şəriətində belə olduğunu bilirdi. Bu səbəbdən Uca Allah "**Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik**" – deməklə Yusufu tərifləmişdir. Başqa bir ayədə isə belə buyurur: "**Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır**" ("əl-Mucadilə", 11).

Uca Allah buyurur: "**Hər bilik sahibindən də üstün bir bilən vardır**". əl-Həsən əl-Bəsri demişdir: "Uca Allaha çatana qədər elə bir alim yoxdur ki, ondan üstün bilən başqa bir alim olmasın".[1] Rəvayət olunur ki, İbn Abbas Uca Allahın "**Hər bilik sahibindən də üstün bir bilən vardır**" ayəsi barədə belə demişdir: "Bu alim ondan, o isə digərindən daha elmlidir. Allah isə bütün alimlərdən elmlidir".[2]

﴿قَالُوٓاْ إِن يَسۡرِقۡ فَقَدۡ سَرَقَ أَخٞ لَّهُۥ مِن قَبۡلُۚ فَأَسَرَّهَا يُوسُفُ فِي نَفۡسِهِۦ وَلَمۡ يُبۡدِهَا لَهُمۡۚ قَالَ أَنتُمۡ
شَرّٞ مَّكَانٗاۖ وَٱللَّهُ أَعۡلَمُ بِمَا تَصِفُونَ ٧٧﴾

**77. Onlar dedilər: "Əgər piyaləni o oğurlayıbsa, daha öncə onun qardaşı da oğurluq etmişdi". Yusuf bunu öz içində gizlədib onlara açıb söyləmədi və öz-özünə "Siz daha pis mövqedəsiniz. Allah sizin nə dediyinizi çox yaxşı bilir" – dedi.**

Yusufun qardaşları piyalənin Binyaminin yükünün içindən çıxarıldığını gördükdə vəzirə "**Əgər piyaləni o oğurlayıbsa, daha öncə onun qardaşı da oğurluq etmişdi**" – deyərək, vəzirə ona bənzəmədiklərini və Yusufu nəzərdə tutaraq, Binyaminin etdiyi əməli daha əvvəl onun bir qardaşının da etdiyini bildirmişlər. Səid ibn Cubeyr və Qatədə demişlər: "Yusuf ana tərəfindən babasının bir bütünü oğurlamış və onu qırmışdı".[3]

---

[1] ət-Təbəri, 19592, 19677.
[2] ət-Təbəri, 19585, 19670.
[3] ət-Təbəri, 19601, 19686.

Uca Allah buyurur: "**Yusuf bunu öz içində gizlədib onlara açıb söyləmədi**", yəni Yusuf ﷵ bundan sonra dediyi "**Siz daha pis mövqedəsiniz. Allah sizin nə dediyinizi çox yaxşı bilir**" cümləsini gizlədib onlara açıb demədi. Yusuf ﷵ bu sözü ürəyində dedi, onlara bildirmədi. Bu, bir şeyi deməzdən əvvəl qəlbdən keçirmək qəbilindəndir. Quranda, hədislərdə və ərəb dilində (şeirlərdə) buna aid nümunələr çoxdur.

﴿قَالُواْ يَٰٓأَيُّهَا ٱلۡعَزِيزُ إِنَّ لَهُۥٓ أَبٗا شَيۡخٗا كَبِيرٗا فَخُذۡ أَحَدَنَا مَكَانَهُۥٓۖ إِنَّا نَرَىٰكَ مِنَ ٱلۡمُحۡسِنِينَ ٧٨ قَالَ
مَعَاذَ ٱللَّهِ أَن نَّأۡخُذَ إِلَّا مَن وَجَدۡنَا مَتَٰعَنَا عِندَهُۥٓ إِنَّآ إِذٗا لَّظَٰلِمُونَ ٧٩﴾

**78. Onlar dedilər: "Ey hökmdar! Onun çox qoca atası var. Onun yerinə bizim birimizi götür. Həqiqətən, Biz səni yaxşı adam hesab edirik".**

**79. O dedi: "Allah eləməsin ki, xurcunundamalımızı tapdığımız kəsdən başqasını tutub saxlayaq. Onda biz zalımlardan olarıq".**

Yusufun ﷵ qardaşlarının etirafına əsasən Binyaminin tutularaq onun yanında saxlanılması dəqiqləşdikdə, qardaşlar Yusufu ﷵ yumşaltmağa və mərhəmətə gətirməyə çalışaraq belə dedilər: "**Ey hökmdar! Onun çox qoca atası var**". Belə deməklə onlar atasının onu çox sevdiyini və itirdiyi oğlunun əvəzinə onunla təsəlli tapdığını nəzərdə tutmuşlar. "**Onun yerinə bizim birimizi götür**", yəni ona əvəz olaraq bizdən birimizi saxla. "**Həqiqətən, Biz səni yaxşı adam hesab edirik**", yəni biz sənin ədalətli, insaflı olduğunu və xeyir işlər etdiyini görürük. "**O dedi: "Allah eləməsin ki, xurcununda malımızı tapdığımız kəsdən başqasını tutub saxlayaq**", yəni biz bunu sizin dediyinizə və etiraf etdiyinizə əsasən etdik. "**Onda biz zalımlardan olarıq**", yəni əgər günahkar bir insanın əvəzinə günahsızı götürsək zalımlardan olarıq.

﴿فَلَمَّا اسْتَيْأَسُوا مِنْهُ خَلَصُوا نَجِيًّا ۖ قَالَ كَبِيرُهُمْ أَلَمْ تَعْلَمُوا أَنَّ أَبَاكُمْ قَدْ أَخَذَ عَلَيْكُم مَّوْثِقًا مِّنَ
اللَّهِ وَمِن قَبْلُ مَا فَرَّطتُمْ فِي يُوسُفَ ۖ فَلَنْ أَبْرَحَ الْأَرْضَ حَتَّىٰ يَأْذَنَ لِي أَبِي أَوْ يَحْكُمَ اللَّهُ لِي ۖ وَهُوَ خَيْرُ الْحَاكِمِينَ ﴿٨٠﴾
ارْجِعُوا إِلَىٰ أَبِيكُمْ فَقُولُوا يَا أَبَانَا إِنَّ ابْنَكَ سَرَقَ وَمَا شَهِدْنَا إِلَّا بِمَا عَلِمْنَا وَمَا كُنَّا لِلْغَيْبِ
حَافِظِينَ ﴿٨١﴾ وَاسْأَلِ الْقَرْيَةَ الَّتِي كُنَّا فِيهَا وَالْعِيرَ الَّتِي أَقْبَلْنَا فِيهَا ۖ وَإِنَّا لَصَادِقُونَ ﴿٨٢﴾﴾

**80. Ondan ümidlərini kəsdikdə məsləhətləşmək üçün bir kənara çəkildilər. Onların böyüyü dedi: "Atanızın sizə Allaha and içdirməsi, bundan əvvəl də Yusufa qarşı haqsızlıq etdiyiniz yadınızdadırmı? Atam mənə izin verməyincə və ya Allah mənim barəmdə hökm verməyincə, mən bu yerdən ayrılmayacağam. O, hökm verənlərin ən yaxşısıdır.**

**81. Atanızın yanına qayıdın və deyin: "Ey atamız! Oğlun oğurluq etdi. Biz ancaq bildiyimiz şeyə şahidlik etdik. Biz qeybi bilənlər deyilik.**

**82. Olduğumuz şəhərdən və birlikdə gəldiyimiz karvandan soruş. Biz, həqiqətən də, doğru danışırıq".**

Uca Allah bu ayələrdə bildirir ki, Yusufun (عليه السلام) qardaşları sağ-salamat geri qaytaracaqlarına dair atalarına söz verib and içdikləri Binyamini qurtarmaqdan ümidlərini kəsdikdə, "**məsləhətləşmək üçün bir kənara çəkildilər**", yəni insanlardan ayrılıb bir kənara çəkildilər və öz aralarında pıçıldaşdılar. "**Onların böyüyü dedi**". Böyük qardaşları Rubil idi. Yusufun (عليه السلام) qardaşları onu öldürməyə cəhd etdikdə onu quyuya atmağı məsləhət görən o olmuşdu. Rubil onlara dedi: "**Atanızın sizə**" Binyamini sağ-salamat qaytaracağınıza dair "**Allaha and içdirməsi, bundan əvvəl də Yusufa qarşı haqsızlıq etdiyiniz yadınızdadırmı?**" İndi Binyamini geri aparmağın mümkünsüz olduğunu görürsünüz. Üstəlik bundan əvvəl Yusufu da ondan ayırmışdıq. "**Atam mənə izin verməyincə**", yəni atam məndən razı qalıb qayıtmağıma izin verməyincə "**və ya Allah mənim barəmdə hökm verməyincə**", yəni onlarla qılıncla vuruşub qardaşımı geri qaytarmayınca, yaxud da qardaşımı geri almağa mənə imkan verməyincə "**mən bu yerdən ayrılmayacağam**", yəni mən bu ölkədən əsla ayrılmaram. "**O, hökm verənlərin ən yaxşısıdır**".

Sonra böyük qardaş ataları onların haqlı və günahsız olduqlarını bilsin deyə hadisənin necə baş verdiyini ona xəbər verməyi əmr etdi. İkrimə və Qatədə (رحمه الله) Uca Allahın "**Biz qeybi bilənlər deyilik**" ayəsi barədə

belə demişlər: "Yəni biz sənin oğlunun oğurluq edəcəyini bilmirdik".[1] Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ demişdir: "Onun gizlində bir şey oğurlayacağını bilmədik. Bizdən, sadəcə oğrunun cəzası barədə soruşulmuşdu".[2]

"**Olduğumuz şəhərdən...**", burada Misirin nəzərdə tutulduğu deyilmişdir. Qatədə ﷺ isə başqa şəhərin nəzərdə tutulduğunu demişdir. "**...və birlikdə gəldiyimiz karvandan soruş**", yəni aralarında gəldiyimiz karvandan bizim düzgünlüyümüz, etibarlı olduğumuz və Binyamini necə mühafizə edib qoruduğumuz barədə soruş. "**Biz, həqiqətən də, doğru danışırıq**", yəni onun oğurluq etdiyini və buna görə tutulduğunu deməklə doğru danışırıq.

﴿قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْرًا ۖ فَصَبْرٌ جَمِيلٌ ۖ عَسَى ٱللَّهُ أَن يَأْتِيَنِى بِهِمْ جَمِيعًا ۚ إِنَّهُۥ هُوَ ٱلْعَلِيمُ
ٱلْحَكِيمُ ﴿٨٣﴾ وَتَوَلَّىٰ عَنْهُمْ وَقَالَ يَٰٓأَسَفَىٰ عَلَىٰ يُوسُفَ وَٱبْيَضَّتْ عَيْنَاهُ مِنَ ٱلْحُزْنِ فَهُوَ كَظِيمٌ ﴿٨٤﴾ قَالُوا۟
تَٱللَّهِ تَفْتَؤُا۟ تَذْكُرُ يُوسُفَ حَتَّىٰ تَكُونَ حَرَضًا أَوْ تَكُونَ مِنَ ٱلْهَٰلِكِينَ ﴿٨٥﴾ قَالَ إِنَّمَآ أَشْكُوا۟ بَثِّى
وَحُزْنِىٓ إِلَى ٱللَّهِ وَأَعْلَمُ مِنَ ٱللَّهِ مَا لَا تَعْلَمُونَ ﴿٨٦﴾﴾

**83. Yaqub dedi: "Xeyr, sizin nəfsiniz sizi bu işə sövq etdi. Mənə isə yaxşı səbir gərəkdir. Ümid edirəm ki, Allah onların hamısını mənə qaytarar. Həqiqətən də, O, Biləndir, Hikmət sahibidir".**

**84. Yaqub onlardan üz döndərdi və "Heyif Yusufdan!" – dedi. Kədərdən onun gözlərinə ağ gəldi. O, dərdini öz içində saxlayırdı.**

**85. Onlar dedilər: "Allaha and olsun ki, sən Yusufu tez-tez yada salmaqla axırda ya əldən düşəcək, ya da öləcəksən".**

**86. O dedi: "Mən dərd-qəmimi yalnız Allaha açıb söyləyirəm və Allahdan nazil olan vəhy sayəsində sizin bilmədiklərinizdən agah oluram.**

Yaqub oğullarının Yusufun ﷺ saxta qana bulaşmış köynəyini gətirdikləri zaman dediyi sözləri təkrar etdi: "**Xeyr, sizin nəfsiniz sizi bu işə sövq etdi. Mənə isə yaxşı səbir gərəkdir**". İbn İshaq ﷺ demişdir: "Onlar Yaqubun yanına gəlib baş verənləri ona xəbər verdikdə, Yaqub onları ittiham etmiş və Yusufa etdiklərinin eynisini Binyaminə də

[1] İbn Əbu Hatim, 11864.
[2] İbn Əbu Hatim, 11866.

etdiklərini sanaraq "**Xeyr, sizin nəfsiniz sizi bu işə sövq etdi. Mənə isə yaxşı səbir gərəkdir**" – demişdir".[1] Sonra Yaqub ﷺ Allahdan övladlarının üçünü də ona qaytarmasını dilədi. Bunlar Yusuf, qardaşı Binyamin və Rubildir. Rubil Misir diyarında qalıb gözləyirdi ki, ya atası ondan razı qalaraq geri qayıtmasını əmr etsin, ya da Allah onun barəsində hökm versin və o, qardaşını gizlincə götürüb geri qayıtsın. Yaqub ﷺ belə dedi: "**Ümid edirəm ki, Allah onların hamısını mənə qaytarar. Həqiqətən də, O, Biləndir**", yəni mənim halımı ən yaxşı bilən Odur, "**Hikmət Sahibidir**", yəni işlərində, qəzavü-qədərində Hikmət Sahibidir.

"**Yaqub onlardan üz döndərdi və "Heyif Yusufdan!" – dedi**", yəni oğullarından üz çevirib Yusuf ﷺ barədə öz köhnə kədərini xatırlayaraq "**Heyif Yusufdan!" – dedi**". Oğullarının (Binyaminin və Rubilin) kədəri onun yadına sevimli oğlu Yusufun müsibətini saldı və onun köhnə kədəri yeniləndi. Səid ibn Cubeyr ﷺ demişdir: "Bir müsibət üz verdikdə "İstirca" etmək ("Həqiqətən biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"[2] demək) bu ümmətdən başqa heç bir ümmətə verilməmişdir. Məgər eşitməmisiniz? Yaquba müsibət üz verdikdə "**Heyif Yusufdan!" – dedi. Kədərdən onun gözlərinə ağ gəldi. O, dərdini öz içində saxlayırdı**", yəni susdu və heç kəsə dərdindən gileylənmədi".[3] Qatədə və başqaları da belə demişlər. əd-Dahhək ﷺ demişdir: "**O, dərdini öz içində saxlayırdı**", yəni kədərli və qəm-qüssə içərisində idi".

Bu vaxt Yaqubun oğulları ona acıdı və ona bəslədikləri şəfqət və mərhəmətdən dolayı belə dedilər: "**Allaha and olsun ki, sən Yusufu tez-tez yada salmaqla**", yəni həmişə onu yada salmaqla "**axırda ya əldən düşəcək**", yəni sonunda ya zəifləyəcək, gücsüz hala düşəcək, "**ya da öləcəksən**". Onlar Yaquba belə dedilər: "Əgər sən belə davam etsən, biz sənin həlak olacağından qorxuruq".

---

[1] İbn Əbu Hatim, 11871.

[2] Transkripsiyası: [İnnə: lillə:hi və innə: ileyhi ra:ciu:n]. Uca Allah buyurur: "**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənləri müjdələ. O kəslər ki, onlara bir müsibət üz verdikdə "Biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən tariflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır**" ("əl-Bəqərə", 155-157). Peyğəmbər ﷺ demişdir: "Müsəlmanlardan hər hansı birinə bir müsibət üz verərsə və o əsnada "İstirca" edərək "İnnə: Lillə:hi və İnnə: İleyhi Ra:ciu:n" (Həqiqətən, biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!) – deyib, sonra "Allahummə! Əcurni fi musi:bəti və əxlif li xayran minhə" (Allahım! Başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!) – deyərsə, mütləq bu istədiyi olar". (Muslim, 1525, 2165).

[3] ət-Təbəri, 19658, 19745.

Yaqub onların dediklərinə cavab olaraq belə dedi: "**Mən dərd-qəmimi yalnız Allaha açıb söyləyirəm**", yəni mən kədərimi və dərdimi tək Allaha açıb deyirəm "**və Allahdan nazil olan vəhy sayəsində sizin bilmədiklərinizdən agah oluram**", yəni hər bir xeyiri Allahdan umuram. İbn Abbas ﵄ bu ayənin təfsirində demişdir: "Yəni mən bilirəm ki, Yusufun yuxusu haqdır və şübhəsiz ki, (vaxt gələcək) mən ona (ehtiram olaraq) səcdə edəcəyəm".[1]

﴿يَٰبَنِيَّ ٱذۡهَبُواْ فَتَحَسَّسُواْ مِن يُوسُفَ وَأَخِيهِ وَلَا تَاْيۡـَٔسُواْ مِن رَّوۡحِ ٱللَّهِۖ إِنَّهُۥ لَا يَاْيۡـَٔسُ مِن رَّوۡحِ ٱللَّهِ
إِلَّا ٱلۡقَوۡمُ ٱلۡكَٰفِرُونَ ٨٧ فَلَمَّا دَخَلُواْ عَلَيۡهِ قَالُواْ يَٰٓأَيُّهَا ٱلۡعَزِيزُ مَسَّنَا وَأَهۡلَنَا ٱلضُّرُّ وَجِئۡنَا بِبِضَٰعَةٖ
مُّزۡجَىٰةٖ فَأَوۡفِ لَنَا ٱلۡكَيۡلَ وَتَصَدَّقۡ عَلَيۡنَآۖ إِنَّ ٱللَّهَ يَجۡزِي ٱلۡمُتَصَدِّقِينَ ٨٨﴾

**87. Ey oğullarım! Yusufdan və qardaşından xəbər tutmaq üçün yola düşün, Allahın mərhəmətindən ümidinizi üzməyin. Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini üzərlər".**

**88. Onlar Yusufun yanına girdikdə dedilər: "Ey hökm sahibi! Biz və ailəmiz fəlakətə uğramışıq. Bir az mal gətirmişik. Bizə bunların əvəzində ölçünü tam elə və bizə sədəqə ver. Şübhəsiz ki, Allah sədəqə verənləri mükafatlandırar".**

Uca Allah bu ayələrdə bildirir ki, Yaqub ﵇ oğullarına Yusuf və qardaşı Binyamin barədə xəbər əldə etmək üçün yola çıxmağı buyurdu. Ayədə keçən **تَحَسَّسَ** [təhəssəsə] feili "xeyiri öyrənmək üçün araşdırmaq" mənasında, **تَجَسَّسَ** [təcəssəsə] isə "pis xüsusiyyəti öyrənmək üçün araşdırmaq" mənasında istifadə edilir. Yaqub oğullarını qardaşlarını axtarmağa rəğbətləndirmiş, müjdələmiş və onlara Allahın mərhəmətindən ümidi kəsməməyi əmr etmişdir. Yəni istəklərinə çatmaq və məqsədlərinə nail olmaq üçün Allahdan ümidlərini kəsməsinlər, çünki Allahdan ümidi yalnız kafir olan bir qövm kəsər.

Uca Allah buyurur: "**Onlar Yusufun yanına girdikdə**", yəni onlar Misir şəhərinə gedib Yusufun yanına daxil oldular və "**dedilər: "Ey hökm sahibi! Biz və ailəmiz fəlakətə uğramışıq**". Belə deməklə onlar qıtlığı, quraqlığı və yemək azlığını nəzərdə tutmuşlar. "**Bir az mal gətirmişik**", yəni biz ərzaq almaq üçün özümüzlə az miqdarda mal gətirmişik. Bu şərhi əl-Həsən, Mucahid və bir çoxları demişlər. Uca Allah onların belə dediklərini bildirir: "**Bizə bunların əvəzində ölçünü tam elə**", yəni bu çox dəyərsiz və az mal qarşılığında bizə əvvəl verdiyin qədər ərzaq ver "**və**

[1] ət-Təbəri, 19715, 19802; İbn Əbu Hatim, 11908.

**bizə sədəqə ver**". İbn Cureyc ﵀ demişdir: "Yəni qardaşımızı qaytarmaqla bizə sədəqə ver".[1] Səid ibn Cubeyr və əs-Suddi ﵏ demişlər: "Yəni bu dəyərsiz mal qarşılığında bizə sədəqə ver və bunları yetərli (kafi) qəbul et".

﴿قَالَ هَلْ عَلِمْتُم مَّا فَعَلْتُم بِيُوسُفَ وَأَخِيهِ إِذْ أَنتُمْ جَٰهِلُونَ ﴿٨٩﴾ قَالُوٓا۟ أَءِنَّكَ لَأَنتَ يُوسُفُ ۖ قَالَ أَنَا۠
يُوسُفُ وَهَٰذَآ أَخِى ۖ قَدْ مَنَّ ٱللَّهُ عَلَيْنَآ ۖ إِنَّهُۥ مَن يَتَّقِ وَيَصْبِرْ فَإِنَّ ٱللَّهَ لَا يُضِيعُ أَجْرَ ٱلْمُحْسِنِينَ ﴿٩٠﴾ قَالُوا۟
تَٱللَّهِ لَقَدْ ءَاثَرَكَ ٱللَّهُ عَلَيْنَا وَإِن كُنَّا لَخَٰطِـِٔينَ ﴿٩١﴾ قَالَ لَا تَثْرِيبَ عَلَيْكُمُ ٱلْيَوْمَ ۖ يَغْفِرُ ٱللَّهُ لَكُمْ ۖ وَهُوَ
أَرْحَمُ ٱلرَّٰحِمِينَ ﴿٩٢﴾﴾

**89. O dedi: "Siz cahil olduğunuz zaman Yusufa və qardaşına nələr etdiyinizi xatırlayırsınızmı?"**

**90. Onlar dedilər: "Yoxsa sən özün Yusufsan?" O dedi: "Mən Yusufam, bu da qardaşımdır. Allah bizə mərhəmət etmişdir. Kim Allahdan qorxsa və səbir etsə, bilsin ki, Allah yaxşı iş görənlərin mükafatını puç etməz".**

**91. Onlar dedilər: "Allaha and olsun ki, Allah səni bizdən üstün tutmuşdur. Biz isə günahkar olmuşuq".**

**92. Yusuf dedi: "Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir.**

Uca Allah bu ayələrdə Yusuf ﵇ barədə xəbər verərək bildirir ki, qardaşları başlarına gələn müsibəti, çətinliyi və ərzaq qıtlığını ona bildirdikdə, Yusuf özünün hökmranlıq, bolluq və rifah içində, atasının isə iki övladını itirdiyi üçün sıxıntı və kədər içində olduğunu xatırladı. Bu vaxt onda atasına və qardaşlarına qarşı mərhəmət və şəfqət hissi oyandı, dözə bilməyib ağladı və özünü onlara tanıdaraq belə dedi: "**Siz cahil olduğunuz zaman Yusufa və qardaşına nələr etdiyinizi xatırlayırsınızmı?**" Yəni Yusufla atasını bir-birindən necə ayırdınız? "**Siz cahil olduğunuz zaman**", yəni etdiyiniz bu günahın böyüklüyündən xəbərsiz olduğunuz üçün bu işi tutdunuz. Sələflərdən biri belə demişdir: "Allaha asi olan hər kəs cahildir. Sonra Uca Allahın bu ayəsini oxumuşdur: "**Şübhəsiz ki, Rəbbin, cahillikləri üzündən pis iş görən, ondan sonra tövbə edib özlərini islah edənləri, bütün bunlardan sonra, əlbəttə ki, Rəbbin bağışlayacaq və rəhm edəcək**" ("ən-Nəhl", 119)".

[1] ət-Təbəri, 19873, 19876.

Ən doğrusunu Allah bilir, lakin aydın olan budur ki, Yusuf ﷺ özünü onlara Uca Allahın bu xüsusda ona izin verməsi ilə tanıtmışdır. Həmçinin bundan əvvəl iki dəfə özünü onlardan gizlətməsi də Uca Allahın əmri ilə olmuşdur. Ən doğrusunu isə Allah bilir. Lakin vəziyyət gərginləşib iş çətinləşdikdə Uca Allah bu sıxıntını aradan qaldırmış və çıxış yolu qoymuşdur. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: "**Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir**" ("əş-Şərh", 5-6). Bu vaxt Yusufun ﷺ qardaşları soruşdular: "**Yoxsa sən özün Yusufsan?**" Yəni bu hal onları çox təəccübləndirdi, çünki iki il və ya daha uzun müddət onun yanına gedib-gəlmişlər və Yusufu ﷺ tanımamışlar. Bununla belə Yusuf ﷺ onları tanımış və özünü onlardan gizlətmişdir. Odur ki, ondan "**Yoxsa sən özün Yusufsan?**" – deyə soruşmuşlar. Yusuf ﷺ onlara belə cavab verdi: "**Mən Yusufam, bu da qardaşımdır. Allah bizə mərhəmət etmişdir**", yəni uzun müddət ayrılıqdan sonra bizi bir araya gətirməklə bizə lütf etmişdir. "**Kim Allahdan qorxsa və səbir etsə, bilsin ki, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. Onlar dedilər: "Allaha and olsun ki, Allah səni bizdən üstün tutmuşdur. Biz isə günahkar olmuşuq**". Onlar Yusufun ﷺ xilqət, əxlaq və var-dövlət cəhətdən, habelə hakimiyyət və peyğəmbərlik verilməklə onlardan üstün olduğunu etiraf edib özlərinin isə ona pislik etməklə günahkar olduqlarını təsdiqlədilər. "**Yusuf dedi: "Bu gün siz qınanılmayacaqsınız**", yəni bu gün siz məzəmmət olunmayacaqsınız və bu gündən etibarən mənə qarşı etdiyiniz günah əməldən bir daha bəhs etməyəcəyəm. Sonra Yusuf ﷺ sözlərinə əlavə olaraq onlar üçün bağışlanma diləyib dua edərək, "**Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir**" – dedi. əs-Suddi رحمه الله demişdir: "Onlar Yusufdan üzr istədilər və o onlara belə dedi: "**Bu gün siz qınanılmayacaqsınız**". Yəni bir daha sizin günahınızı sizə xatırlatmayacam".[1] İbn İshaq və əs-Səuri رحمه الله demişlər: "Yəni etdiyiniz əmələ görə bu gün siz məzəmmət olunmayacaq və qınanmayacaqsınız".[2] "**Allah sizi bağışlasın!**" Yəni etdiyiniz günahları gizlətsin. "**O, rəhm edənlərin ən rəhmlisidir**".



---

[1] ət-Təbəri, 19798, 19886.

[2] İbn Əbu Hatim, 11948-11949; ət-Təbəri, 19797, 19885.

﴿ٱذۡهَبُواْ بِقَمِيصِي هَٰذَا فَأَلۡقُوهُ عَلَىٰ وَجۡهِ أَبِي يَأۡتِ بَصِيرٗا وَأۡتُونِي بِأَهۡلِكُمۡ أَجۡمَعِينَ ﴿٩٣﴾
وَلَمَّا فَصَلَتِ ٱلۡعِيرُ قَالَ أَبُوهُمۡ إِنِّي لَأَجِدُ رِيحَ يُوسُفَۖ لَوۡلَآ أَن تُفَنِّدُونِ ﴿٩٤﴾ قَالُواْ تَٱللَّهِ إِنَّكَ لَفِي
ضَلَٰلِكَ ٱلۡقَدِيمِ ﴿٩٥﴾﴾

**93. Bu köynəyimi aparıb atamın üzünə atın, gözləri açılsın. Sonra da bütün ailənizlə birlikdə yanıma gəlin”.**

**94. Karvan Misir torpağından ayrılanda ataları dedi: “Mən, həqiqətən də, Yusufun qoxusunu hiss edirəm. Bircə məni ağılsız saymayaydınız”.**

**95. Onlar dedilər: “Allaha and olsun ki, sən hələ də öz köhnə yanlışlığından əl çəkməmisən”.**

Yusuf ﷺ onlara belə demişdir: “**Bu köynəyimi aparıb atamın üzünə atın, gözləri açılsın**”. Yaqubun ﷺ çox ağlamaqdan közləri kor olmuşdu. “**Sonra da bütün ailənizlə birlikdə yanıma gəlin**”, yəni Yaqub oğullarının hamısını yanıma gətirin. “**Karvan Misir torpağından ayrılanda ataları**”, yəni Yaqub ﷺ yanında qalmış oğullarına “**dedi: “Mən, həqiqətən də, Yusufun qoxusunu hiss edirəm. Bircə məni ağılsız saymayaydınız**”, yəni məni ağlını itirmiş qoca hesab etməyin. İbn Abbas, Mucahid, Əta, Qatədə və Səid ibn Cubeyr رحمه الله bu ayənin təfsirində demişlər: “Yəni məni səfeh hesab etməyəydiniz”.[1] Mucahid və əl-Həsən رحمه الله isə belə demişlər: “Mənə “qocalıb ağlını itirmisən” deməyəydiniz”.[2] İbn Abbas رضي الله عنهما oğulların atalarına “**Allaha and olsun ki, sən hələ də öz köhnə yanlışlığından əl çəkməmisən**” sözləri barədə belə demişdir: “Yəni sən hələ də öz köhnə yanlış fikrində qalmısan”.[3] Qatədə رحمه الله demişdir: “Yəni Yusufa olan sevgindən onu hələ də unutmamısan və başqa bir şeylə də təsəlli tapmadın. Onlar Yaquba nə atalarına, nə də Allahın peyğəmbərinə yaraşan ağır bir söz dedilər”.[4]

[1] İbn Əbu Hatim, 11966; ət-Təbəri, 19818, 19906.
[2] İbn Əbu Hatim, 11968; ət-Təbəri, 19847, 19933.
[3] ət-Təbəri, 19850, 19936.
[4] ət-Təbəri, 19851, 19937.

﴿فَلَمَّآ أَن جَآءَ ٱلۡبَشِيرُ أَلۡقَىٰهُ عَلَىٰ وَجۡهِهِۦ فَٱرۡتَدَّ بَصِيرٗاۖ قَالَ أَلَمۡ أَقُل لَّكُمۡ إِنِّيٓ أَعۡلَمُ مِنَ ٱللَّهِ مَا لَا
تَعۡلَمُونَ ٩٦ قَالُواْ يَٰٓأَبَانَا ٱسۡتَغۡفِرۡ لَنَا ذُنُوبَنَآ إِنَّا كُنَّا خَٰطِـِٔينَ ٩٧ قَالَ سَوۡفَ أَسۡتَغۡفِرُ لَكُمۡ رَبِّيٓۖ إِنَّهُۥ هُوَ
ٱلۡغَفُورُ ٱلرَّحِيمُ ٩٨﴾

**96. Müjdəçi gəlib köynəyi onun üzünə atan kimi gözləri açıldı və o dedi: "Məgər sizə deməmişdimmi ki, mən Allahdan gələn vəhy sayəsində sizin bilmədiklərinizi bilirəm?"**

**97. Onlar dedilər: "Ey atamız! Allahdan bizim günahlarımızın bağışlanmasını dilə. Doğrudan da, biz günahkar olmuşuq".**

**98. O dedi: "Mən Rəbbimdən sizin üçün bağışlanma diləyəcəyəm. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir".**

İbn Abbas və əd-Dahhək ﵀ ayədə keçən الْبَشِيرُ [əl-bəşir] "müjdəçi" sözünü "çapar"[1] kimi təfsir etmişlər. Mucahid və əs-Suddi ﵀ bu müjdəçinin Yaqubun oğlu Yahuza olduğunu demişlər. əs-Suddi ﵀ demişdir: "Saxta qana bulaşmış köynəyi gətirən o olduğu üçün əvvəlki günahını yumaq üçün bu dəfə də köynəyi gətirməyi o istəmişdir. Köynəyi gətirib atasının üzünə sürtdü, beləcə, onun gözləri açıldı".[2] Bu vaxt Yaqub ﵇ oğullarına dedi: "**Məgər sizə deməmişdimmi ki, mən Allahdan gələn vəhy sayəsində sizin bilmədiklərinizi bilirəm?**" Yəni mən bilirdim ki, Allah onu mənə qaytaracaq. Mən sizə " **Mən, həqiqətən də, Yusufun qoxusunu hiss edirəm. Bircə məni ağılsız saymayaydınız**" – demişdim. Bu vaxt qardaşlar atalarına qarşı mülayim davranaraq dedilər: "**Ey atamız! Allahdan bizim günahlarımızın bağışlanmasını dilə. Doğrudan da, biz günahkar olmuşuq". O dedi: "Mən Rəbbimdən sizin üçün bağışlanma diləyəcəyəm. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir**", yəni kim Allaha tövbə edərsə, Allah onun tövbəsini qəbul edər.

[1] Xəbər və ya məktub aparıb-gətirən adam.
[2] İbn Əbu Hatim, 11977-11978.

﴿فَلَمَّا دَخَلُوا عَلَىٰ يُوسُفَ آوَىٰ إِلَيْهِ أَبَوَيْهِ وَقَالَ ادْخُلُوا مِصْرَ إِن شَاءَ اللَّهُ آمِنِينَ ﴿٩٩﴾ وَرَفَعَ أَبَوَيْهِ عَلَى
الْعَرْشِ وَخَرُّوا لَهُ سُجَّدًا ۖ وَقَالَ يَا أَبَتِ هَٰذَا تَأْوِيلُ رُؤْيَايَ مِن قَبْلُ قَدْ جَعَلَهَا رَبِّي حَقًّا ۖ وَقَدْ أَحْسَنَ بِي إِذْ أَخْرَجَنِي
مِنَ السِّجْنِ وَجَاءَ بِكُم مِّنَ الْبَدْوِ مِن بَعْدِ أَن نَّزَغَ الشَّيْطَانُ بَيْنِي وَبَيْنَ إِخْوَتِي ۚ إِنَّ رَبِّي لَطِيفٌ لِّمَا يَشَاءُ ۚ إِنَّهُ
هُوَ الْعَلِيمُ الْحَكِيمُ ﴿١٠٠﴾﴾

**99. Onlar Yusufun yanına gəldikdə o, ata-anasını bağrına basıb dedi: "Əmin-amanlıqla Allahın istəyi ilə Misirə daxil olun!"**

**100. O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar hamısı onun qarşısında səcdə etdilər. O dedi: "Atacan! Bu, əvvəlki yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. O mənə lütf etdi. O məni zindandan çıxardı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan yanıma gətirdi. Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır. Həqiqətən, O, Biləndir, Hikmət sahibidir.**

Uca Allah bu ayələrdə Yaqubun ﵇ Misir ölkəsinə Yusufun yanına gəlişindən xəbər verir. Yusuf ﵇ qardaşlarına bütün ailə üzvlərilə onun yanına gəlməyi təklif etdikdə onlar son nəfərinə kimi yüklərini yığıb Kənan ölkəsindən köçdülər və Misir ölkəsinə doğru yola çıxdılar. Yusufa onların şəhərə yaxınlaşdıqları barədə xəbər verildikdə, onları qarşılamağa çıxdı. Ölkənin padşahı öz əmirlərinə və adlı-sanlı insanlara Yusufla ﵇ birlikdə Allahın peyğəmbəri Yaqubu ﵇ qarşılamaq üçün çıxmağı əmr etdi. Deyilənə görə, padşahın özü də Yaqubu ﵇ qarşılamaq üçün çıxmışdır, lakin bu dəqiq deyil.

Uca Allah buyurur: "**O, ata-anasını taxtın üstündə əyləşdirdi**", yəni özü ilə birlikdə ata-anasını taxtına oturtdu. "**Onlar hamısı onun qarşısında səcdə etdilər**", yəni ata-anası və on bir qardaşı ona səcdə etdilər. "**Atacan! Bu, əvvəlki yuxumun yozumudur**", yəni vaxtilə Yusufun ﵇ görüb atasına danışdığı bu yuxunun yozumudur: "**Mən yuxuda on bir ulduz, Günəş və Ay gördüm. Onların mənə səcdə etdiyini gördüm**" ("Yusuf", 4). Yusufun şəriətində (dinində) böyüklərə salam verərkən onlara səcdə etmək icazəli idi. Bu cür salamlaşma Adəm peyğəmbərdən başlayaraq İsanın ﵇ şəriətinə qədər icazəli olmuşdur. Bu ümmətə isə bu cür salamlaşma haram edilmiş və səcdə yalnız Rəbb olan Uca Allaha xas edilmişdir. Qatədə və başqalarının dediklərinin məzmunu budur.

Bir hədisdə rəvayət edilir ki, Muaz ﵁ Şamda olduğu zaman orada insanların dini rəhbərlərinə səcdə etdiklərini görmüşdü. Qayıtdıqdan sonra Peyğəmbərə ﷺ səcdə etdi. Allah Elçisi ﷺ "Bu nədir, ey Muaz!" – deyə soruşdu. Muaz ﵁ "Mən Şamda olarkən onların öz rahiblərinə səcdə etdiklərini gördüm. Ey Allahın Elçisi! Sən səcdə edilməyə onlardan daha layiqsən" – deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Əgər mən Allahdan başqa kiməsə səcdə etməyi əmr etmiş olsaydım, qadına üzərində böyük haqqı olduğuna görə öz ərinə səcdə etməsini əmr edərdim".[1]

Yusufun ﵇ qardaşlarının ona səcdə etməsinin izahı budur ki, onların şəriətlərində bu əməl icazəli idi. Bu səbəbdən də ona səcdə etmişlər. Bu vaxt Yusuf ﵇ belə dedi: "**Atacan! Bu, əvvəlki yuxumun yozumudur. Rəbbim onu gerçəkləşdirdi**", yəni yuxumun nəticəsi belə oldu. Ərəb dilində التَّأْوِيلُ [ət-təvil] sözü "nəticə", "aqibət" mənasını da verir. Uca Allah bir ayədə eyni sözü bu mənada işlədərək belə buyurur: "**Yoxsa kafirlər yalnız Quranda verilən xəbərlərin aqibətini gözləyirlər? Onun aqibəti gəldiyi gün...**" ("əl-Əraf", 53), yəni Qiyamət günü onlara vəd edilmiş xeyir və şər gəldiyi gün.

"**Rəbbim onu gerçəkləşdirdi**", yəni onu həyata keçirib həqiqətə çevirdi. Sonra Yusuf ﵇ Allahın ona bəxş etdiyi nemətləri xatırlayıb belə dedi: "**O mənə lütf etdi. O məni zindandan çıxardı və şeytan mənimlə qardaşlarımın arasına ədavət saldıqdan sonra sizi səhradan yanıma gətirdi**". İbn Cureyc və başqaları belə demişlər: "Onlar səhrada qoyun otaran bir xalq idi". Həmçinin İbn Cureyc ﵀ demişdir: "Onlar Şam hövzəsindəki Fələstin ölkəsində arabalarda yaşayırdılar".[2] "**Şübhəsiz ki, Rəbbim istədiyinə qarşı lütfkardır**", yəni bir işin olmasını istədikdə onun baş verməsi üçün səbəblər yaradar, bu səbəbləri asanlaşdırar və həyata keçirər. "**Həqiqətən, O, Biləndir**", yəni qulları üçün faydalı olanları ən yaxşı Biləndir, "**Hikmət sahibidir**", yəni sözlərində, etdiklərində, qəzavü-qədərində, seçdikərində və istədiklərində Hikmət sahibidir.

[1] İbn Məcə, 1853. (Oxşar mətnlə). Hədis səhihdir. Bax: Səhih əl-Cami, 7725.
[2] ət-Təbəri, 19934, 20018.

﴿۞ رَبِّ قَدْ ءَاتَيْتَنِى مِنَ ٱلْمُلْكِ وَعَلَّمْتَنِى مِن تَأْوِيلِ ٱلْأَحَادِيثِ ۚ فَاطِرَ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ أَنتَ وَلِىِّۦ فِى ٱلدُّنْيَا وَٱلْءَاخِرَةِ ۖ تَوَفَّنِى مُسْلِمًا وَأَلْحِقْنِى بِٱلصَّٰلِحِينَ ﴿١٠١﴾﴾

**101. Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur".**

Bu, doğru danışan Yusufun ﷺ duasıdır. Ata-anası və qardaşlarının onunla bir araya gəlməsi ilə Uca Allah ona olan nemətini tamamladıqda, ona peyğəmbərlik və hökmranlıq bəxş etdikdə, o, Rəbbinə bu şəkildə dua etmiş və duasında Rəbbindən ona olan nemətini dünyada tamamladığı kimi, Axirətdə də davamlı olmasını, müsəlman olaraq vəfat etməsini və öldükdən sonra onu əməlisalehlərə qovuşdurmasını diləmişdir. Bu əməlisalehlər onun peyğəmbər və elçilərdən olan qardaşlarıdır. Allahın salavatı və salamı onların hamısının üzərinə olsun!

Ola bilsin ki, Yusuf ﷺ bu duanı ölüm anında etmişdir. əl-Buxari və Muslimin "Səhih" əsərlərində Aişədən رضي الله عنها rəvayət edilir ki, Peyğəmbər ﷺ ölüm ayağında barmağını göyə qaldırıb üç dəfə "Allahım, məni uca dostlara[1] qovuşdur!" – dedi.[2]

Ola da bilsin ki, Yusufun ﷺ əcəli yaxınlaşıb ömrü sona çatdığı zaman İslam dini üzərində ölməyi və əməlisalehlərə qovuşmağı diləmişdir, ölümü arzu edərək diləməmişdir. Necə ki bir nəfər başqasına dua edərkən "Allah səni İslam dini üzərində öldürsün!" – deyir. Həmçinin bəzən dua edən belə deyir: "Allahım, bizi müsəlman olaraq yaşat, müsəlman olaraq öldür və bizi əməlisalehlərə qovuşdur!"

Yusufun ﷺ Allahdan özünə ölüm arzulayaraq belə dua etməsi də mümkündür. Çünki bu, onların dinində icazəli idi. Qatədə رحمه الله Uca Allahın "**Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur**" ayəsi barədə belə demişdir: "Uca Allah onun ailəsini bir yerə cəm edib gözünü aydın etdiyi gün o, hökm sahibi, dünya nemətləri, bolluq və rifah içində idi. Bu vaxt qəlbi özündən əvvəl gəlib-keçmiş əməlisaleh insanları istədi". İbn Abbas رضي الله عنهما demişdir: "Yusuf bu şəkildə dua edən (ölüm arzulayan) ilk peyğəmbərdir".[3] Lakin bizim şəriətimizdə ölümü

[1] "Uca dostlar" Uca Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərdir. Uca Allah bu xüsusda buyurur: "**Allaha və Peyğəmbərə itaət edənlər – məhz onlar Allahın nemət bəxş etdiyi peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olarlar. Onlar necə də gözəl dostlardır!**" ("ən-Nisa", 69).

[2] əl-Buxari, 4083, 4437; Muslim, 4476, 6450.

[3] İbn Əbu Hatim, 12016; ət-Təbəri, 19942, 20026

arzulamaq icazəli deyil. İmam Əhməd ﷺ Ənəs ibn Malikdən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən heç kəs başına gəlmiş bir müsibətə görə özünə ölüm diləməsin! Əgər çıxılmaz vəziyyətdə qalarsa, qoy belə desin: "Allahım, bu həyatda yaşamağım mənim üçün xeyirlidirsə, məni yaşat, yox, ölümüm mənim üçün xeyirlidirsə, onda məni öldür![1]" Hədisi əl-Buxari və Muslim "Səhih" əsərlərində rəvayət etmişlər. Yenə əl-Buxari və Muslimin "Səhih" əsərlərində belə bir hədis keçir: "Sizdən heç kəs özünə ölüm diləməsin. Əgər o, həyatda qalarsa, əməlisaleh adamdırsa, yaxşı işlər görüb savabını artırar, yox günahkar adamdırsa, ola bilər ki, tövbə etsin. Əgər çıxılmaz vəziyyətdə qalarsa, qoy belə desin: Allahım, bu həyatda yaşamağım mənim üçün xeyirlidirsə, məni yaşat, yox, ölümüm mənim üçün xeyirlidirsə, onda məni öldür!"[2]

Ölüm arzulamağın qadağan olması zərərin yalnız insanın özünə aid olduğu hala aiddir. Əgər fitnə dinə aid olarsa, bu zaman ölümü arzulamaq icazəlidir. Necə ki Uca Allah Fironun sehrbazları barədə xəbər verərək bildirir ki, Firon onları dinlərinə görə öldürməklə təhdid etdikdə onlar belə demişlər: "**Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür**!" ("əl-Əraf", 126). Həmçinin Məryəm ﷺ də doğum sancısı onu bir xurma ağacının altına gətirdikdə belə demişdir: "**Kaş bundan əvvəl öləydim və birdəfəlik unudulaydım!**" ("Məryəm", 24). Çünki o bilirdi ki insanlar onu zinakarlıqda ittiham edəcəklər, belə ki, o, ərdə olmadığı halda hamilə qalmış və uşaq dünyaya gətirmişdi. Onlardan biri "Bu uşağı haradan gətirdin?" – deyə soruşacaqdı. İnsanlar onu ilk olaraq bu sözlərlə qarşıladılar: "**Ey Məryəm! Sən yaramaz (və ya görünməmiş) bir iş tutdun. Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi**" ("Məryəm", 27-28). Uca Allah ona bu vəziyyətdən bir çıxış yolu nəsib etdi – uşağı beşikdə ikən danışdırdı və o, insanlara Allahın qulu və elçisi olduğunu söylədi. Bu uşaq böyük bir ayə, açıq-aydın bir möcüzə idi. Allahın salavatı və salamı onun üzərinə olsun!

İmam Əhməd və ət-Tirmizinin ﷺ Peyğəmbərin ﷺ gördüyü yuxu və Uca Allahın yuxuda ona öyrətdiyi dua barədə rəvayət etdikləri hədisdə belə buyurulur: "Allahım! Səndən xeyir işlər görməyi, pis işlərdən uzaq olmağı, kasıbları sevməyi, məni bağışlamağını, mənə rəhm etməyini və hər hansı bir qövmü fitnəyə salmaq istədikdə, fitnəyə düşməmiş canımı almağını diləyirəm".[3]

[1] Transkripsiyası: [Alla:hummə, əhyini mə: kə:nətil-həyə:tu xayran li və təvaffəni izə kə:nətil-vəfə:tu xayran li].

[2] Əhməd, 11998, 12002; əl-Buxari, 5874, 6351; Muslim, 4840, 6990.

[3] Əhməd, 16672, 16738, 22162, 23597; ət-Tirmizi, 3235, 3543. Hədis səhih li-ğeyrihidir. Bax: Silsilə əs-Səhihə, 3169.

Dində fitnə baş verdikdə ölümü arzulamaq icazəlidir. Odur ki, Əli ibn Əbu Talib ﷺ xəlifəliyinin sonlarında işlərin düzəlməyəcəyini, vəziyyətin daha da ağırlaşacağını gördükdə belə dua etmişdir: "Allahım, məni Öz dərgahına al, mən onlardan bezdim, onlar da məndən bezdilər". əl-Buxari ﷺ müsibətlərə düçar olub Xorasan əmiri ilə aralarında xoşagəlməz hadisələr baş verdikdə belə demişdir: "Allahım, məni Öz dərgahına al, məni öldür!" Bir hədisdə belə deyilir: "Dəccalın zühur etdiyi zaman insan baş verən fitnələri, bəlaları və sarsıntıları gördükdə bir qəbrin yanından keçərkən "Kaş ki, mən sənin yerində olaydım" – deyəcəkdir".[1]

﴿ذَٰلِكَ مِنْ أَنبَاءِ الْغَيْبِ نُوحِيهِ إِلَيْكَ ۖ وَمَا كُنتَ لَدَيْهِمْ إِذْ أَجْمَعُوا أَمْرَهُمْ وَهُمْ يَمْكُرُونَ ﴿١٠٢﴾ وَمَا أَكْثَرُ النَّاسِ وَلَوْ حَرَصْتَ بِمُؤْمِنِينَ ﴿١٠٣﴾ وَمَا تَسْأَلُهُمْ عَلَيْهِ مِنْ أَجْرٍ ۚ إِنْ هُوَ إِلَّا ذِكْرٌ لِّلْعَالَمِينَ ﴿١٠٤﴾﴾

**102. Bunlar sənə vəhy yolu ilə bildirdiyimiz qeyb xəbərlərindəndir. Onlar hiylə quraraq işlərinə qərar verdikləri zaman sən onların yanında deyildin.**

**103. Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir.**

**104. Sən ki bunun əvəzinə onlardan bir mükafat istəmirsən. Bu Quran aləmlər üçün ancaq bir öyüd-nəsihətdir.**

Uca Allah əvvəlki ayələrdə qulu və elçisi Muhəmmədə ﷺ Yusufun qardaşlarının hekayəsini, Allahın Yusufu ﷺ onlardan necə üstün etdiyini, onların Yusufu həlak etmək istəmələrinə baxmayaraq, ona gözəl aqibət, zəfər və hakimiyyət verdiyini bildirdikdən sonra bu ayələrdə belə buyurur: "Ey Muhəmməd, bunlar olub-keçmiş qeyb xəbərlərindəndir ki, sənə bir ibrət olsun və sənə qarşı çıxanlar bunu dinləyib öyüd alsınlar deyə onu "**sənə vəhy yolu ilə**" bildiririk və öyrədirik. "**Onlar hiylə quraraq işlərinə qərar verdikləri zaman**", yəni Yusufu ﷺ quyuya atmaq üçün hiylə qurduqları zaman "**sən onların yanında deyildin**", yəni sən onları müşahidə etmirdin. Lakin biz bu Quranı nazil etməklə və sənə vəhy etməklə bunları bildiririk. Uca Allah bu qəbildən olan başqa ayələrdə belə buyurur: "**Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. İsrail oğullarından hansı birinin Məryəmi himayə edəcəyi barədə qələmlərini püşk atdıqları zaman sən onların yanında deyildin. Bir-birilərilə müba-**

[1] Muslim (157/54) oxşar mətnlə rəvayət etmişdir.

**hisə etdikdə də, sən onların yanında deyildin**" ("Ali-İmran", 44); "**Biz Musaya əmri yerinə yetirməyi tapşırdıqda sən dağın qərb tərəfində deyildin. Sən buna şahid olanlardan da deyildin. Lakin Biz Musadan sonra neçə-neçə nəsil yaratdıq və onlar uzun ömür sürdülər. Sən Mədyən sakinləri arasında olub ayələrimizi onlara oxumurdun. Lakin elçiləri Biz göndəririk. Biz Musanı çağırdığımız zaman da sən Tur dağının yanında deyildin**" ("əl-Qəsəs", 44-46); "**Ali toplum mübahisə edərkən mənim onlardan heç bir xəbərim yox idi. Mənə, ancaq açıq-aydın xəbərdar edən olduğuma görə vəhy olunur**" ("Sad", 69-70).

Uca Allah belə buyurmaqla Muhəmmədin ﷺ Onun elçisi olduğunu, insanlara ibrət, dünya və axirətlərində qurtuluş olsun deyə keçmiş ümmətlərin xəbərlərindən onu agah etdiyini bildirir. Buna baxmayaraq, insanların çoxu buna iman gətirməmişdir. Odur ki, növbəti ayədə belə buyurur: "**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir**". Başqa bir ayədə isə belə buyurur: "**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar**" ("əl-Ənam", 116). Quranda buna bənzər bir çox ayə mövcuddur.

Uca Allah buyurur: "**Sən ki bunun əvəzinə onlardan bir mükafat istəmirsən**", yəni ey Muhəmməd, sən onlara etdiyin nəsihətin, onları xeyirə, doğru yola dəvət etməyin qarşılığında mükafat və ya qarşılıq tələb etmirsən. Əksinə, sən bunu Allahın rizasını diləyərək insanlara bir nəsihət olsun deyə edirsən. "**Bu Quran aləmlər üçün ancaq bir öyüd-nəsihətdir**", yəni bu Kitabdan öyüd alacaqlar, onun vasitəsilə doğru yola yönələcəklər, dünyada və axirətdə nicat tapacaqlar.

﴿وَكَأَيِّن مِّنْ ءَايَةٍ فِى ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ يَمُرُّونَ عَلَيْهَا وَهُمْ عَنْهَا مُعْرِضُونَ ﴿١٠٥﴾ وَمَا يُؤْمِنُ أَكْثَرُهُم
بِٱللَّهِ إِلَّا وَهُم مُّشْرِكُونَ ﴿١٠٦﴾ أَفَأَمِنُوٓا۟ أَن تَأْتِيَهُمْ غَٰشِيَةٌ مِّنْ عَذَابِ ٱللَّهِ أَوْ تَأْتِيَهُمُ ٱلسَّاعَةُ بَغْتَةً وَهُمْ لَا
يَشْعُرُونَ ﴿١٠٧﴾﴾

**105. Göylərdə və yerdə neçə-neçə dəlillər vardır ki, insanların çoxu onların yanından üz çevirib keçirlər.**

**106. Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.**

**107. Məgər onlar Allahın hər şeyi bürüyən əzabının onları əhatə etməyəcəyinə və ya özləri də hiss etmədən Qiyamət saatının onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi?**

Uca Allah bu ayələrdə insanların əksəriyyətinin Allahın ayələri və Onun təkliyini sübut edən dəlillər üzərində düşünməkdən qafil olduqlarını bildirir. Uca Allah göylərdə və yerdə varlıqlar – hərəkətli və hərəkətsiz parlaq ulduzlar, dövr edən orbitlər (göy cisimlərinin hərəkət yolu) yaratmışdır. Bunların hamısı Onun əmrinə tabedir. Yer üzündə nə çox bir-birinə qonşu müxtəlif münbitli torpaq sahələri, bağlar, bağçalar, hündür dağlar, okeanlar, qayalara çırpınan dalğalar, ucsuz-bucaqsız səhralar vardır. Nə çox canlı və cansızlar, heyvanlar və bitkilər, dadlarında, qoxularında, rənglərində və xüsusiyyətlərində bir-birinə bənzəyən və bənzəməyən meyvələr vardır. Müxtəlif varlıqları yaradan, əbədi və tək olan Allah pak və müqəddəsdir!

Uca Allah buyurur: "**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir**". İbn Abbas ﵄ bu ayənin təfsirində belə demişdir: "Onlar ibadətdə Allaha şərik qoşduqları halda onlardan "Göyləri kim yaradıb? Yer üzünü kim yaradıb? Dağları kim yaradıb?" – deyə soruşulduqda, onlar "Allah" – deyə cavab verərlər".[1] Mucahid, Əta, İkrimə, əş-Şabi, Qatədə, əd-Dahhək və Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﵏ də belə demişlər. Uca Allah başqa bir ayədə belə buyurur: "**Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!**" ("Loğman", 13). Allahla bərabər Ondan başqasına ibadət etmək ən böyük şirkdir.

əl-Buxari və Muslimin "Səhih" əsərlərində İbn Məsudun ﵁ belə dediyi rəvayət edilir: "Bir dəfə Peyğəmbərdən ﷺ "Ey Allahın Elçisi, ən böyük günah hansıdır?" – deyə soruşdum. Peyğəmbər ﷺ "Allah səni yaratdığı halda başqa birisini Ona tay tutmağın!" – deyə cavab verdi".[2] əl-Həsən əl-Bəsri ﵀ Uca Allahın "**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir**" ayəsi barədə belə demişdir: "Bu, münafiqdir. Bir əməl etdikdə onu riyakarlıqla (insanlara göstərmək üçün) edər. O bu əməli ilə Allaha şərik qoşar". əl-Həsən ﵀ bununla Uca Allahın "**Doğrusu, münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər**" ("ən-Nisa", 142) ayəsini nəzərdə tutur.

Ortada başqa bir şirk də vardır ki, bu, gizli şirkdir. Bu şirki edən adam çox vaxt bu əməlin şirk olduğunu hiss etmir. Urvədən ﵁ rəvayət edilir ki, bir dəfə Huzeyfə bir xəstəyə baş çəkmək üçün onun yanına girdi. Huzeyfə onun qoluna (şərdən qorunmaq məqsədilə) bağlanmış bir dəri parçası görüb onu qırdı və sonra bu ayəni oxudu "**Onların çoxu**

[1] ət-Təbəri, 20040.

[2] əl-Buxari, 4117, 4477; Muslim, 124, 267.

**ancaq şərik qoşaraq Allaha iman gətirir**".[1] Bir hədisdə isə belə buyurulur: "Kim, Allahdan başqasına and içərsə, şirk etmiş olar". Hədisi ət-Tirmizi ﷺ rəvayət etmiş və "həsən" olduğunu bildirmişdir.[2] İmam Əhməd, Əbu Davud və başqalarının İbn Məsuddan ﷺ rəvayət etdikləri bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Şəriətə uyğun olmayan[3] ovsun, şəfa ummaq və ya gözdəymədən qorunmaq üçün asılan muncuq (və ya hər hansı bir şey) və sehr Allaha şərik qoşmaqdır".[4] Əbu Hureyra Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Uca Allah buyurur: "Mən şərikə möhtac deyiləm. Kim bir əməl edər və əməlində bir kəsi Mənə şərik qoşarsa, bu əməli (qəbul etməyib) Mənə şərik qoşulana tərk edərəm". Hədisi Muslim ﷺ rəvayət etmişdir.[5]

Uca Allah buyurur: "**Məgər onlar Allahın hər şeyi bürüyən əzabının onları əhatə etməyəcəyinə və ya özləri də hiss etmədən Qiyamət saatının onlara qəflətən gəlməyəcəyinə əmindirlərmi?**" Yəni, yoxsa müşriklər hiss etmədikləri bir yerdən onları bürüyəcək əzabın gəlməyəcəyinə əmindirlərmi?! Qeyd edilən ayə Uca Allahın bu ayələrinə bənzəyir: "**Alçaq hiylələrə əl atanlar Allahın onları yerə batırmayacağına və yaxud gözləmədikləri bir yerdən əzabın onlara gəlməyəcəyinə əmindirlərmi? Ya da gəzib-dolaşdıqları zaman Allahın onları yaxalamayacağınımı düşünürlər? Axı onlar Allahdan yaxa qurtara bilməyəcəklər. Yaxud vahimə içində olduqları halda Allahın onları yaxalamayacağınımı düşünürlər? Həqiqətən də, Rəbbiniz çox şəfqətlidir, rəhmlidir**" ("ən-Nəhl", 45-47); "**Məgər o ölkələrin əhalisi əzabımızın onlara gecə vaxtı, onlar yatarkən gəlməyəcəyindən əmin idilərmi? Ya da o ölkələrin əhalisi əzabımızın onlara səhər-səhər, onlar əylənərkən gəlməyəcəyindən əmin idilərmi? Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər**" ("əl-Əraf", 97-99).



---

[1] İbn Əbu Hatim, 12040.

[2] ət-Tirmizi, 1535, 1620. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 2042.

[3] Şəriətə uyğun olmayan ovsun dedikdə, özündə Allahdan başqasından yardım diləməyi ehtiva edən və ya bilinməyən dildə oxunan dualar nəzərdə tutulur. Şəriətin buyurduğu Quran ayələri və ya hədislərdə varid olan dualarla edilən ovsun isə icazəlidir.

[4] Əhməd, 5/36; Əbu Davud, 3883; İbn Məcə, 3530. Hədis səhihdir: Bax: Mişkətul-Məsabih, 4552.

[5] Muslim, 2985, 5300, 7666.

﴿قُلْ هَٰذِهِۦ سَبِيلِىٓ أَدْعُوٓا۟ إِلَى ٱللَّهِ ۚ عَلَىٰ بَصِيرَةٍ أَنَا۠ وَمَنِ ٱتَّبَعَنِى ۖ وَسُبْحَٰنَ ٱللَّهِ وَمَآ أَنَا۠ مِنَ ٱلْمُشْرِكِينَ ١٠٨﴾

**108. De: “Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, elmlə insanları Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm”.**

Uca Allah bu ayədə bütün insanlara və cinlərə göndərdiyi elçisi Muhəmmədə ﷺ insanlara belə xəbər verməsini əmr edir: “Həqiqətən bu, Allahın yoludur. Bu yol insanları Allahdan başqa ibadətə layiq məbudun olmadığına, Allahın təkliyinə və şərikinin olmadığına şəhadət gətirməyə dəvət etməkdir. Peyğəmbər ﷺ insanları elmlə, əminliklə və açıq-aşkar dəlillərlə Allaha tərəf çağırır. O və ona tabe olan hər kəs elmlə, əminliklə, şəri və əqli dəlillərlə Peyğəmbərin ﷺ dəvət etdiyi bu yola dəvət edirlər”.

“**Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm**”, yəni Allahın şərikinin, tayının, bənzərinin, övladının, atasının, zövcəsinin, yardımçısının və məsləhətçisinin olmadığını, Onun bunlardan uzaq və pak olduğunu təsdiqləyirəm. O ucadır, müqəddəsdir, bunların hamısından çox uzaq və pakdır. “**Yeddi göy, yer və onlarda olanlar Ona tériflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır**” (“əl-İsra”, 44).

﴿وَمَآ أَرْسَلْنَا مِن قَبْلِكَ إِلَّا رِجَالًا نُّوحِىٓ إِلَيْهِم مِّنْ أَهْلِ ٱلْقُرَىٰٓ ۗ أَفَلَمْ يَسِيرُوا۟ فِى ٱلْأَرْضِ فَيَنظُرُوا۟ كَيْفَ كَانَ
عَٰقِبَةُ ٱلَّذِينَ مِن قَبْلِهِمْ ۗ وَلَدَارُ ٱلْءَاخِرَةِ خَيْرٌ لِّلَّذِينَ ٱتَّقَوْا۟ ۗ أَفَلَا تَعْقِلُونَ ١٠٩﴾

**109. Biz səndən əvvəl də şəhər əhlindən yalnız özlərinə vəhy etdiyimiz kişilərdən elçi göndərdik. Məgər yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlər? Əlbəttə, Axirət yurdu Allahdan qorxanlar üçün daha xeyirlidir. Məgər anlamırsınız?**

Uca Allah bu ayədə bildirir ki, elçilərini qadınlardan deyil, kişilərdən seçib insanlara göndərir. Bu, əksər alimlərin fikiridir. Bu ayənin məzmunu da onu göstərir ki, Uca Allah Adəm övladlarının qızlarından heç bir qadına şəriət qanunları vəhy etməmişdir. Qadınlar içərisində yalnız siddiqlər (sidq ürəkdən inanan qadınlar) olmuşdur. Uca Allah onların ən şərəflisi olan İmranın qızı Məryəm عليها السلام barədə xəbər verərək belə buyurur: “**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib-getmişlər.**

**Onun anası isə Allaha sidq ürəkdən inanan bir qadın idi**" ("əl-Maidə", 75). Uca Allah bu ayədə onu ən şərəfli məqam olan siddiq (sidq ürəkdən inanan qadın) dərəcəsində vəsf etmişdir. Əgər peyğəmbər olsaydı, şərəfli məqam kimi, əlbəttə, onu da qeyd edərdi. Məryəm ﷺ Quran ayəsinə əsasən siddiqdir (sidq ürəkdən iman gətirən qadındır). İbn Abbas ﵄ Uca Allahın "**Biz səndən əvvəl də şəhər əhlindən yalnız özlərinə vəhy etdiyimiz kişilərdən elçi göndərdik**" ayəsi barədə belə demişdir: "Yəni sizin dediyiniz kimi, peyğəmbərlər göy əhlindən deyillər".[1] İbn Abbasın ﵄ bu sözünü Uca Allahın bu ayələri təsdiqləyir: "**Səndən öncəki elçilərimiz də yemək yeyər, bazarları gəzib-dolanardılar**" ("əl-Furqan", 20); "**Biz onları yemək yeməyən bir vücud etmədik. Onlar əbədi də deyildilər. Sonra isə onlara verdiyimiz vədi yerinə yetirdik. Biz həm onları, həm də istədiyimiz kəsləri xilas edib, həddi aşanları məhvə uğratdıq**" ("əl-Ənbiya", 8-9); "**De: "Mən peyğəmbərlərin birincisi deyiləm. Mənə və sizə nə üz verəcəyini də bilmirəm. Mən, sadəcə, mənə vəhy olunana tabe oluram. Mən yalnız açıq-aşkar xəbərdar edənəm!**" ("əl-Əhqaf", 9).

Uca Allah buyurur: "**...şəhər əhlindən...**", yəni peyğəmbərlər təbiət və xasiyyət baxımından sərt və kobud olan səhra əhalisindən deyillər. Məlumdur ki, şəhər əhalisi təbiət baxımından kənd əhalisindən daha incə və zərif olur. Kənd və qəsəbələrdə yaşayanlar isə səhrada yaşayanlara nisbətən şəhərlilərin halına daha yaxındırlar. Bu səbəbdən Uca Allah "**Bədəvilər kafirlik və münafiqlik baxımından daha betər, Allahın Öz Elçisinə nazil etdiyi qanunları bilməməyə daha meyillidirlər**" ("ət-Tövbə", 97) – deyə buyurur.

Uca Allah buyurur: "**Məgər yer üzündə gəzib-dolaşıb**", yəni, ey Muhəmməd, səni yalançı sayan bu kafirlər yer üzündə gəzib-dolaşıb "**özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlər?**" Yəni peyğəmbərləri yalançı sayan ümmətlərin aqibətlərinin necə olduğunu, Uca Allahın onları yerlə yeksan etdiyini görmürlərmi?! Kafirləri də buna bənzərləri gözləyir. Uca Allah başqa bir ayədə belə buyurur: "**Məgər onlar yer üzündə gəzib-dolaşaraq zalımların aqibətini qəlbləri ilə düşünüb, qulaqları ilə eşitmirlər? Axı əslində, gözlər deyil, köksləredəki qəlb kor olur**" ("əl-Həcc", 46). Onların başlarına gələnləri eşitsələr görərlər ki, Uca Allah kafirləri həlak, möminləri isə xilas etmişdir. Uca Allahın yaratdıqları barədə hökmü belədir. Bu səbəbdən Uca Allah belə buyurur: "**Əlbəttə, Axirət yurdu Allahdan qorxanlar üçün daha xeyirlidir**", yəni möminləri

[1] İbn Əbu Hatim, 12051; ət-Təbəri, 21733.

dünyada xilas etdiyimiz kimi, Axirət yurdunda da onlar üçün qurtuluş yazmışıq. Əlbəttə, bu, onlar üçün dünyadan qat-qat daha xeyirlidir. Uca Allah başqa bir ayədə belə buyurur: “**Şübhəsiz ki, Biz Öz elçilərimizə və iman gətirənlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət vermək üçün ayağa qalxacağı gün yardım edəcəyik. O gün zalımlara üzr diləmələri heç bir fayda verməyəcək. Onları həm lənət, həm də pis yurd gözləyir**” (“Ğafir”, 51-52).

﴿حَتَّىٰٓ إِذَا ٱسۡتَيۡـَٔسَ ٱلرُّسُلُ وَظَنُّوٓاْ أَنَّهُمۡ قَدۡ كُذِبُواْ جَآءَهُمۡ نَصۡرُنَا فَنُجِّيَ مَن نَّشَآءُۖ وَلَا يُرَدُّ بَأۡسُنَا عَنِ ٱلۡقَوۡمِ ٱلۡمُجۡرِمِينَ ١١٠﴾

**110. Nəhayət, elçilər ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini yəqin bildikdə köməyimiz onlara gəlir və istədiyimiz kəs də nicat tapırdı. Günahkar tayfadan əzabımız əsla dəf olunmaz.**

Uca Allah bu ayədə bildirir ki, Onun köməyi peyğəmbərlərə çətin vəziyyətdə, köməyə ehtiyac duyduqları və Allahdan bir çıxış yolu gözlədikləri zaman nazil olur. Necə ki başqa bir ayədə belə buyurur: “**Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta, Peyğəmbər və onunla birlikdə olan möminlər “Allahın köməyi nə vaxt gələcək?” – dedilər. Bilin ki, Allahın köməyi yaxındır**” (“əl-Bəqərə”, 214).

Ayədə keçən كُذِبُوا [kuzibu] “**yalançı hesab edildiklərini**” feilində iki qiraət vardır. Bunlardan birincisi, feili كُذِّبُوا [kuzzibu] şəklində “zəl” hərfini şəddəli (qoşa hərfli) oxumaqdır. Aişə ﵂ də ayəni belə oxumuşdur. əl-Buxari ﵀ rəvayət etmişdir ki, bir dəfə Urvə ﵁ Aişədən Uca Allahın “**Nəhayət, elçilər hər dəfə ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini yəqin bildikdə köməyimiz onlara gəlir**” ayəsi barədə soruşmuşdu. Urvə ondan ayəni bu iki qiraətin hansı biri ilə oxuduğunu soruşduqda Aişə ayəni كُذِّبُوا [kuzzibu] şəklində oxuduğunu bildirmişdir. Urvə dedi: “Mən soruşdum: “Belə çıxır ki, onlar qövmlərinin onları yalançı saydıqlarını sanmamışlar, yəqin bilmişlər?” Aişə “Bəli, Allaha and olsun ki, onlar bunu yəqin bilmişlər” – dedi. Mən yenə soruşdum: “Onlar özlərinə (Allah tərəfindən) yalan deyildiyini sanmışlarmı?” Aişə dedi: “Belə deməkdən Allaha sığınıram! Peyğəmbərlər heç vaxt Allah barədə belə zəndə olmamışlar”. Mən soruşdum: “O halda bu ayənin mənası nədir?” Aişə dedi: “Onlar peyğəmbərlərinə tabe olan, onları təsdiqləyən və Rəbbinə iman gətirən kəslərdir. Başlarına uzun müddət müsibət gəlmiş və Allahın köməyi gecikmişdi. “**Nəhayət, elçilər ümidlərini itirdikdə**”,

yəni peyğəmbərlər qövmlərindən onları yalançı sayan kəslərin iman gətirəcəklərindən ümidlərini üzdükdə və ona tabe olanların da onları yalançı hesab etdiklərini sandıqda Allahın köməyi onlara gəlmişdir". Urvə dedi: "Mən soruşdum: "Bu ayə كُذِبُوا [kuzibu] deyilmi?" Aişə "Allaha sığınıram" – dedi". Burada Urvanın dediyi sona çatdı".[1]

İkinci qiraət isə bu feili كُذِبُوا [kuzibu] şəklində, "zəl" hərfini şəddəsiz (tək hərflə) oxumaqdır. Bu ayənin təfsirində ixtilaf etmişlər. İbn Abbas ﵄ Uca Allahın "**Nəhayət, elçilər hər dəfə ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini yəqin bildikdə köməyimiz onlara gəlir**" ayəsi barədə belə demişdir: "Yəni peyğəmbərlər qövmlərinin onlara tabe olmasından ümidlərini kəsib, qövmləri də peyğəmbərlərin onları yalançı saydıqlarını sandıqda, onlara kömək gəlmişdir "**və istədiyimiz kəs də nicat tapırdı**".[2]

İbn Cərir ﵀ İbrahim ibn Əbu Hurrə əl-Cəzəridən rəvayət etmişdir ki, bir dəfə qureyşli bir gənc Səid ibn Cubeyrə sual verərək belə dedi: "Ey Əbu Abdullah, bu ayə necə oxunmalıdır? "**Nəhayət, elçilər hər dəfə ümidlərini itirdikdə və özlərinin yalançı hesab edildiklərini yəqin bildikdə köməyimiz onlara gəlir**". Mən hər dəfə bu ayəyə çatdıqda, düşünürəm ki, kaş bu surəni heç oxumazdım". Səid ibn Cubeyr dedi: "Bəli, nəhayət, peyğəmbərlər qövmlərinin onları təsdiqləməsindən ümidlərini kəsib, elçi göndərildikləri kəslər də peyğəmbərlərin yalan danışdıqlarını sandıqda, onlara kömək gəlmişdir". əd-Dahhək ibn Muzəhim ﵀ demişdir: "... Bu elmə nail olmaq üçün Yəmənə getməli olsaydım belə az olardı".[3] İbn Cəririn ﵀ başqa bir rəvayətində isə Səid ibn Cubeyrdən bu sualı soruşan Muslim ibn Yəsar olmuşdur. Səid ibn Cubeyr Muslimə eyni cavabı verdikdən sonra Muslim qalxıb onu qucaqladı və dedi: "Sən məni bu sıxıntıdan qurtardığın kimi, Allah da səni sıxıntıdan qurtarsın!"[4]



---

[1] əl-Buxari, 4327, 4696.
[2] ət-Təbəri, 19987, 20071.
[3] ət-Təbəri, 20008, 20092.
[4] ət-Təbəri, 20009, 20093.

﴿لَقَدۡ كَانَ فِي قَصَصِهِمۡ عِبۡرَةٞ لِّأُوْلِي ٱلۡأَلۡبَٰبِۗ مَا كَانَ حَدِيثٗا يُفۡتَرَىٰ وَلَٰكِن تَصۡدِيقَ ٱلَّذِي بَيۡنَ يَدَيۡهِ وَتَفۡصِيلَ
كُلِّ شَيۡءٖ وَهُدٗى وَرَحۡمَةٗ لِّقَوۡمٖ يُؤۡمِنُونَ ١١١﴾

**111. Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.**

Uca Allah bu ayədə buyurur ki, həqiqətən, peyğəmbərlərlə qövmləri arasında baş verən hadisələrdə möminləri xilas edib kafirləri isə necə həlak etməyimizdə "**ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir**", yəni bu Quran Allahın Kəlamıdır, belə bir Kəlam başqaları tərəfindən uydurula bilməz. "**Ancaq özündən əvvəlkiləri təsdiqləyən**", yəni bu Quran özündən əvvəl nazil olmuş kitabların içərisində doğru olanları (Qurana uyğun olanları) təsdiq edir, təhrif olunanları və dəyişdirilənləri qəbul etmir, bəzi hökmləri ləğv edir, bəzilərini isə saxlayır. "**...və hər şeyi müfəssəl izah edəndir**", yəni Quran halal və haramı, bəyənilən və bəyənilməyən şeyləri bəyan etməklə, Allaha itaəti, vacib və müsətəhəb əməlləri buyurmaqla, haram və ona bənzər məkruh əməllərdən çəkindirməklə, gələcəyə dair qeybi hadisələr barədə ümumi və təfsilatlı şəkildə xəbər verməklə, Uca Rəbbin Ad və Sifətlərini, Onun yaratdıqlarına bənzəməkdən uzaq olduğunu bildirməklə hər şeyi müfəssəl izah etmişdir. Bu səbəbdən Uca Allah ayənin sonunda "**...iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir**" – deyə buyurur. Yəni onun vasitəsilə insanların qəlbləri azğınlıqdan hidayətə, zəlalətdən doğru yola yönəlir. Onun vasitəsilə insanlar bu dünyada və axirətdə qulların Rəbbi olan Allahdan mərhəmət diləyərlər. Uca Allahdan bizləri də dünya və axirətdə onlardan etməsini diləyirik! O gün üzləri ağ və parlaq olanlar ticarətlərində qazanacaq, üzləri qaralanlar isə xəsarətə uğrayacaqlar.

**"Yusuf" surəsinin təfsiri bitdi.**

**Həmd olsun aləmlərin Rəbbinə!**

الْكَلاَمُ عَلَى تفْسِيرِهَا

# “ər-Rad”

## surəsinin təfsiri

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**
**Müvəffəqiyyət yalnız Allahdandır**

## تفْسِيرُ سُورَةِ الرَّعْدِ
## وهِيَ مَكِّيَّةٌ

## ər-Rad surəsinin təfsiri
## Məkkə surəsidir

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

﴿الٓمٓرۚ تِلۡكَ ءَايَٰتُ ٱلۡكِتَٰبِۗ وَٱلَّذِىٓ أُنزِلَ إِلَيۡكَ مِن رَّبِّكَ ٱلۡحَقُّ وَلَٰكِنَّ أَكۡثَرَ ٱلنَّاسِ لَا يُؤۡمِنُونَ ١﴾

**1. Əlif. Ləm. Mim. Ra. Bunlar Kitabın ayələridir. Rəbbindən sənə nazil edilən həqiqətdir, lakin insanların çoxu buna inanmır.**

Surələrin əvvəlində gələn heca hərfləri barədə "əl-Bəqərə" surəsinin əvvəlində ətraflı məlumat verilmişdir. Orada bildirdiyimiz kimi, heca hərfləri ilə başlayan surələrdə Quranın üstünlüyünə, onun Allah dərgahından nazil olduğuna, özündə heç bir şəkk-şübhə doğrmadığına və haqq olduğuna işarə edilir. Bu səbəbdən Uca Allah burada "Bunlar Kitabın ayələridir" – deyə buyurur. Yəni bunlar Quranın ayələridir. Uca Allah "Bunlar Kitabın ayələridir" cümləsindən sonra Quranı vəsf edərək belə buyurur: "Rəbbindən sənə", yəni ey Muhəmməd sənə "nazil edilən həqiqətdir".

Uca Allahın "**...lakin insanların çoxu buna inanmır**" ayəsi bu ayəyə bənzəyir: "**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir**" ("Yusuf", 103). Yəni bu açıq-aydın şərhə baxmayaraq qəlblərində olan düşmənçilik, ziddiyyət, inad və nifaqdan dolayı insanların çoxu ona iman gətirməz.

﴿ ٱللَّهُ ٱلَّذِى رَفَعَ ٱلسَّمَٰوَٰتِ بِغَيۡرِ عَمَدٖ تَرَوۡنَهَاۖ ثُمَّ ٱسۡتَوَىٰ عَلَى ٱلۡعَرۡشِۖ وَسَخَّرَ ٱلشَّمۡسَ وَٱلۡقَمَرَۖ كُلّٞ يَجۡرِى لِأَجَلٖ مُّسَمّٗىۚ يُدَبِّرُ ٱلۡأَمۡرَ يُفَصِّلُ ٱلۡأٓيَٰتِ لَعَلَّكُم بِلِقَآءِ رَبِّكُمۡ تُوقِنُونَ ٢ ﴾

**2. Göyləri, gördüyünüz kimi, dirəksiz yüksəldən, sonra da Ərşə ucalan, müəyyən vaxta qədər göydə hərəkət edən Günəşi və Ayı əmrinə tabe edən Allahdır. O, işləri yoluna qoyur və ayələrini belə izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız.**

Uca Allah bu ayədə qüdrətinin kamilliyindən və hökmranlığının əzəmətindən xəbər verir. Belə ki, göylərin dirəksiz yüksəlməsi Onun izni və əmrilədir. O Öz izni və əmri ilə göyləri hökmü altına aldığı üçün onları yer üzündən elə bir yüksəkliyə ucaltmışdır ki, onu anlamaq və onun sonuna çatmaq mümkün deyil. İyas ibn Muaviyə ﷺ Uca Allahın "**Göyləri, gördüyünüz kimi, dirəksiz yüksəldən...**" ayəsi barədə belə demişdir: "Göy üzü yer üçün dirəksiz qübbə kimidir".[1] Uca Allahın "**Göyü də Öz izni olmadan yerə düşməsin deyə O tutub saxlayır**" ("əl-Həcc", 65) ayəsinin zahiri mənasından aydın olan da budur. Buna görə də ayədə keçən "**gördüyünüz kimi**" ifadəsi göyün dirəksiz ucaldılmasını qüvvətləndirmək mənasını daşıyır. Yəni sizin də gördüyünüz kimi, göylər dirəksiz yüksəldilmişdir. Qüdrət baxımından kamil olan da budur.

Uca Allah buyurur: "**...sonra da Ərşə ucalan...**". Bunun təfsiri daha əvvəl "əl-Əraf" surəsində (54-cü ayə) keçmişdir. Allahın Ərşə ucalması necəliyi araşdırılmadan, bənzədilmədən, inkar edilmədən və məxluqatla müqayisə edilmədən, olduğu kimi, (Uca Allaha layiqli şəkildə) qəbul edilməlidir. Uca Allah bütün bunlardan çox ucadır.

Uca Allah buyurur: "**...müəyyən vaxta qədər göydə hərəkət edən Günəşi və Ayı əmrinə tabe edən Allahdır**". Burada Qiyamətin qopması ilə Günəş və Ayın öz hərəkətlərinə son verəcəklərinə qədər dövr edəcəklərinin nəzərdə tutulduğu deyilmişdir. Başqa bir ayədə Uca Allah belə buyurur: "**Günəş də, özü üçün müəyyən edilmiş yerdə hərəkət edər. Bu, Qüdrətli, Bilən Allahın əzəli hökmüdür**" ("Yasin", 38). Deyilənə görə bu ayədə "müəyyən edilmiş yer" deyildikdə, Ərşin altı nəzərdə tutulur.[2] Günəş, Ay və digər ulduzlar oraya çatdıqda Ərşdən ən uzaq

---

[1] ət-Təbəri, 20059, 20147.

[2] Rəvayət edilir ki, Əbu Zərr Cundub ibn Cunədə ﷺ demişdir: "Bir dəfə Günəş batarkən Peyğəmbər ﷺ məndən soruşdu: "Günəş batarkən hara getdiyini bilirsənmi?" Mən "Bilmirəm", – deyə cavab verdim. Peyğəmbər ﷺ buyurdu: "O gedib Ərşin altında səcdə edənədək hərəkətinə davam edir, sonra ona "Qayıt" deyilənə qədər qalır. Ey Əbu Zərr,

nöqtədə olurlar. Çünki dəlillərlə təsdiq olunmuş doğru rəyə görə, Ərş bütün aləmin qübbəsi olub digər göy cisimləri kimi dövr etmir. Onun dayaqları və onu daşıyan mələklər vardır. Odur ki, bu dairəvi orbitin içində onun hərəkət etməsi təsəvvür edilə bilməz. Ayələri və rəvayət edilən səhih hədisləri nəzərdən keçirən hər kəs üçün bu açıq-aydındır. Həmd  və şükür Allaha məxsusdur.

Uca Allah ayədə Günəşi və Ayı zikr etmişdir. Çünki bu ikisi sabit (hərəkətsiz) ulduzlardan daha şərəfli və böyük olan yeddi səyyar ulduzun ən parlaq olanıdır. Əgər Uca Allah onları Öz əmrinə tabe etmişsə, o halda digər ulduzlar, ələlxüsus, Onun əmri altındadırlar. Necə ki Uca Allah başqa bir ayədə buna işarə edərək belə buyurur: “**Gecə və gündüz, Günəş və Ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda Günəşə və Aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin**” (“Fussilət”, 37). Uca Allah başqa bir ayədə bunu daha da açıq bir şəkildə belə zikr edir: “**Günəşi, Ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah ən Əzəmətli, xeyiri və bərəkəti  bol olandır**” (“əl-Əraf”, 54).

Uca Allah buyurur: “**O, işləri yoluna qoyur və ayələrini belə izah edir ki, bəlkə Rəbbinizlə qarşılaşacağınıza yəqinliklə inanasınız**”, yəni Ondan başqa ibadətə layiq məbudun olmadığına, məxluqatı ilk əvvəl yaratdığı kimi, istədiyi zaman onu təkrar diriltməyə qadir olduğuna dəlalət edən ayələri açıqlayır.

﴿وَهُوَ ٱلَّذِى مَدَّ ٱلْأَرْضَ وَجَعَلَ فِيهَا رَوَٰسِىَ وَأَنْهَٰرًا ۖ وَمِن كُلِّ ٱلثَّمَرَٰتِ جَعَلَ فِيهَا زَوْجَيْنِ ٱثْنَيْنِ ۖ يُغْشِى ٱلَّيْلَ ٱلنَّهَارَ ۚ إِنَّ
فِى ذَٰلِكَ لَءَايَٰتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ ﴿٣﴾ وَفِى ٱلْأَرْضِ قِطَعٌ مُّتَجَٰوِرَٰتٌ وَجَنَّٰتٌ مِّنْ أَعْنَٰبٍ وَزَرْعٌ وَنَخِيلٌ صِنْوَانٌ
وَغَيْرُ صِنْوَانٍ يُسْقَىٰ بِمَآءٍ وَٰحِدٍ وَنُفَضِّلُ بَعْضَهَا عَلَىٰ بَعْضٍ فِى ٱلْأُكُلِ ۚ إِنَّ فِى ذَٰلِكَ لَءَايَٰتٍ لِّقَوْمٍ يَعْقِلُونَ ﴿٤﴾﴾

**3. Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır.**

---

tezliklə elə bir zaman gələcək ki, ona “Gəldiyin yerə qayıt!” – deyiləcək. Məhz bu vaxt “**... əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir**” (“əl-Ənam”, 158). (əl-Buxari, 3199, 6874, 7424; Muslim, 229, 420).

**4. Yer üzündə bir-birinə yaxın müxtəlif münbit torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onların hamısı eyni su ilə suvarılır. Lakin Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda başa düşən adamlar üçün dəlillər var.**

Uca Allah əvvəlki ayələrdə səma aləmini zikr etdikdən sonra bu ayələrdə yerdə olan aləmi yaratmaqla Öz qüdrətini, hikmətini və yer aləmini mükəmməl etdiyini bildirərək belə buyurur: "**Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur**", yəni yeri uzunluq və en baxımından geniş etmiş, onu yüksək, sarsılmaz dağlarla bərkitmişdir. Orada hər növdən cüt-cüt olmaqla, qoxularında, dadlarında, görünüş və rənglərində bir-birindən fərqli meyvələrin suvarılması üçün çaylar və bulaqlar axıtmışdır.

Uca Allah buyurur: "**O, gündüzü gecə ilə örtüb bürüyür**", yəni onlardan biri digərini sürətlə təqib edər. Biri getdikdə digəri onu bürüyər. Biri sona çatdıqda dərhal o biri başlayar. Uca Allah məkanı və orada məskunlaşanları idarə etdiyi kimi zamanı da idarə edir. "**Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır**", yəni Allahın nemətləri, hikmət və dəlilləri üzərində düşünənlər üçün ayələr, ibrətlər vardır.

Uca Allah buyurur: "**Yer üzündə bir-birinə yaxın müxtəlif münbit torpaq sahələri**", yəni yer üzündə bir-birinə qonşu olan ərazilər vardır. Qonşu olmalarına baxmayaraq bu ərazilərin bəzilərində torpaqlar münbit və yaxşı olub orada insanların faydalanacağı şeylər bitər, bəzilərində isə torpaqlar quraq və şoran olub orada heç bir şey bitməz. Bu şərh İbn Abbas, Mucahid, Səid ibn Cubeyr və başqalarından rəvayət edilmişdir. Həmçinin yer üzündə olan torpaqların müxtəlif rənglərdə olması da bu ayəyə daxildir. Torpaqlardan bir qismi qırmızı, bir qismi ağ, bir qismi sarı, bir qismi qara, bir qismi daşlıq, bir qismi düzənlik, bir qismi qumluq, bir qismi bərk və sərt, digər qismi isə yumşaqdır. Bu torpaq sahələrinin hamısı bir-birinə qonşudur. Biri bir xüsusiyyətə, digəri isə başqa xüsusiyyətə malikdir. Bunun hamısı Uca Allahın istədiyini yaratdığına dəlalət edir. Ondan başqa ibadətə layiq məbud və Ondan başqa rəbb yoxdur.

Uca Allah buyurur: "**...üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır**". Ayədə keçən زَرْعٌ ونَخِيلٌ [zərun və nəxi:lun] "**əkinlər, ...xurma ağacları**" ifadələri ola bilsin وَ [və] bağlayıcısı ilə جَنَّاتٌ [cənnə:tun] "**üzüm bağları**" ifadəsinə aid edilmişdir. Buna görə hər iki söz mərfu (adlıq

halda) oxunur. Bu qiraәtә görә mәna belә olacaq: "**üzüm bağları, әkinlәr, şaxәli-şaxәsiz xurma ağacları vardır**". Bu sözlәrin أَعْنَابٍ [ә'nә:bin] "**üzüm**" sözünә aid olması da mümkündür. Bu qiraәtә görә bu sözlәr mәcrur (yiyәlik halda) زَرْعٍ ونَخِيلٍ [zәrin vә nәxi:lin] şәklindә olacaq. Bu qiraәtә görә isә mәna belә olacaq: "**Üzüm, әkin, şaxәli-şaxәsiz xurma bağları vardır**". Qarilәr bu ayәni hәr iki qiraәtlә oxumuşlar. Uca Allah buyurur: "**şaxәli-şaxәsiz**". Ayәdә keçәn صِنْوَانٌ [sinvә:nun] "şaxәli" sözünün mәnası "çox sayda gövdәlәri olan bitki" demәkdir. Nar, әncir vә bәzi xurma ağacları bu şәkildә bitәr. صِنْوَانٌ غَيْرُ [ğayru sinvә:nin] "şaxәsiz" sözünün mәnası isә digәr ağaclarda olduğu kimi tәk gövdәli ağaclardır. Buna görә dә әrәblәrdә bir insanın әmisinә صِنْوُ أَبِيهِ [sinvu әbihi] "atasının oxşarı" deyilir. Sәhih bir hәdisdә rәvayәt edildiyinә görә Peyğәmbәr ﷺ Ömәrә ؓ belә demişdir: "Mәgәr bilmirsәn ki, bir kişinin әmisi onun atasının bәnzәridir?"[1]

Uca Allah buyurur: "**Onların hamısı eyni su ilә suvarılır. Lakin Biz yeyilmәsinә görә onların birini digәrindәn üstün edirik**", yәni bu meyvә vә әkinlәrin görünüşlәri, rәnglәri, dadları, qoxuları, yarpaqları vә çiçәklәri fәrqlidir. Biri çox şirindir, digәri çox turşdur. Biri çox acıdır, digәri isә şirindir. Bәzi meyvәlәr isә hәr iki dadı özündә cәm etmişdir, әvvәl bir dadda olur, sonra Allahın izni ilә başqa bir dada çevrilir. Biri sarı, biri qırmızı, digәri ağ, o biri qara, bәzisi dә mavidir. Çiçәklәr dә belәdir. Bütün bu bitkilәr eyni mәnbәdәn çıxan su ilә qidalanır. Buna baxmayaraq aralarında sayıla bilmәyәcәk qәdәr çox fәrq vardır. Bütün bunlar anlayan kәslәr üçün qüdrәti ilә yaratdıqlarını bir-birindәn üstün edәn, istәdiyi kimi yaradan Allahın tәkliyinә әn böyük dәlillәrdir. Bu sәbәbdәn Uca Allah ayәnin sonunda "**Doğrudan da, bunda başa düşәn adamlar üçün dәlillәr var**" – deyә buyurur.

﴿۞ وَإِن تَعْجَبْ فَعَجَبٌ قَوْلُهُمْ أَءِذَا كُنَّا تُرَٰبًا أَءِنَّا لَفِى خَلْقٍ جَدِيدٍ ۗ أُو۟لَـٰٓئِكَ ٱلَّذِينَ كَفَرُوا۟ بِرَبِّهِمْ ۖ
وَأُو۟لَـٰٓئِكَ ٱلْأَغْلَـٰلُ فِىٓ أَعْنَاقِهِمْ ۖ وَأُو۟لَـٰٓئِكَ أَصْحَـٰبُ ٱلنَّارِ ۖ هُمْ فِيهَا خَـٰلِدُونَ ٥﴾

**5. Әgәr tәәccüblәnirsәnsә, onların "Mәgәr biz torpaq olduqdan sonra yenidәn yaradılacağıq?" demәsinә tәәccüblәn. Onlar Rәbbini inkar edәnlәrdir. Onlar boyunlarında qandallar olanlardır. Onlar Od sakinlәridir vә onlar orada әbәdi qalacaqlar.**

[1] Muslim, 1634, 2324.

Uca Allah bu ayədə elçisi Muhəmmədə ﷺ xitab edərək belə buyurur: “**Əgər təəccüblənirsənsə...**”, yəni əgər sən müşriklərin Allahın istədiyi hər şeyi etməyə qadir olduğuna dair ayə və dəlilləri görmələrinə, Allahın hər şeyi yoxdan yaratdığını etiraf etmələrinə baxmayaraq, öldükdən sonra Allahın hüzuruna dönməyi yalan saymalarına təəccüblənirsənsə, “**onların “Məgər biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?” deməsinə təəccüblən**”. Bütün bunlardan sonra müşriklər Allahın aləmləri təkrar yaradacağı barədə xəbərini yalan sayırlar. Halbuki onlar yalan saydıqlarından daha təəccüblü olanı (yoxdan var etməni) müşahidə etmiş və etiraf etmişlər. Əgər sən təəccüblənəcəksənsə, onların bu sözlərinə təəccüblənməlisən: “**Məgər biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?**” Hər bir elmli və ağıllı adam bilir ki, göyləri və yeri yaratmaq insanları yaratmaqdan daha əzəmətlidir. Hər şeyi ilk yaradan Allah üçün onu təkrar yaratmaq asandır. Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: “**Məgər onlar göyləri və yeri yaradan, onları yaratmaqla yorulmayan Allahın ölüləri də diriltməyə qadir olduğunu görmürlərmi?! Əlbəttə ki, O, hər şeyə qadirdir**” (“əl-Əhqaf”, 33).

Sonra Uca Allah bu yalan sayanları vəsf edərək belə buyurur: “**Onlar Rəbbini inkar edənlərdir. Onlar boyunlarında qandallar olanlardır**”, yəni onlar bu qandallarla Cəhənnəmə sürüklənəcəklər. “**Onlar Od sakinləridir və onlar orada əbədi qalacaqlar**”, yəni onlar orada əbədi qalacaqlar, başqa yerə gedə bilməyəcəklər və orada yox olmayacaqlar.

﴿وَيَسْتَعْجِلُونَكَ بِالسَّيِّئَةِ قَبْلَ الْحَسَنَةِ وَقَدْ خَلَتْ مِن قَبْلِهِمُ الْمَثُلَاتُ ۗ وَإِنَّ رَبَّكَ لَذُو مَغْفِرَةٍ لِّلنَّاسِ عَلَىٰ ظُلْمِهِمْ ۖ وَإِنَّ رَبَّكَ لَشَدِيدُ الْعِقَابِ ﴿٦﴾﴾

**6. Onlar səni yaxşılıqdan öncə pisliyə (əzabın gəlməsinə) tələsdirirlər. Halbuki onlardan əvvəl neçə-neçə ibrətamiz cəzalar olub keçmişdir. Həqiqətən, Rəbbin insanların zalımlığına baxmayaraq tövbə edənləri bağışlayır. Sözsüz ki, Rəbbinin cəzası şiddətlidir.**

Uca Allah buyurur: “**Onlar**”, yəni səni yalançı sayanlar “**səni yaxşılıqdan öncə pisliyə tələsdirirlər**”, yəni əzabın tez gəlməsini istəyirlər. Uca Allah başqa ayələrdə onlar barədə xəbər verərək belə buyurur: “**Kafirlər dedilər: “Ey özünə Zikr nazil edilən kəs! Doğrudan da, sən dəlisən. Əgər doğru danışanlardansansa, nəyə görə dediyinə şahidlik edə bilən mələkləri bizə gətirmirsən?” Biz mələkləri ancaq haqqı bərqərar etmək üçün endiririk. O zaman kafirlərə möhlət verilməz**”

(“əl-Hicr”, 6-8); “**Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Əgər artıq müəyyən etdiyimiz bir vaxt olmasaydı, əzab onlara gələrdi. O əzab onlara qəflətən, özləri də hiss etmədən gələcək. Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri bürüyəcək**” (“əl-Ənkəbut”, 53-54); “**İstəyən kimsə baş verəcək əzabı istədi**” (“əl-Məaric”, 1); “**Qiyamətə inanmayanlar onun tez gəlib çatmasını istəyirlər. Möminlər isə ondan qorxur və onun həqiqət olduğunu bilirlər. Şübhəsiz ki, Qiyamət saatı barəsində mübahisə edənlər dərin bir azğınlıq içindədirlər**” (“əş-Şura”, 18); “**Onlar istehza edərək “Ey Rəbbimiz! Bizim payımızı**”, yəni haqq-hesabımızı və əzabımızı “**Haqq-hesab günü gəlməmişdən əvvəl tezliklə ver!” – dedilər**” (“Sad”, 16); “**O zaman onlar “Ey Allah! Əgər bu, Sənin tərəfindən gəlmiş bir haqdırsa, onda üstümüzə göydən daş yağdır və ya bizə ağrılı-acılı bir əzab göndər” – demişdilər**” (“əl-Ənfal”, 32). Onlar Peyğəmbərdən ﷺ Allahın əzabını gətirməsini istəyirdilər. Buna səbəb onların dini yalan saymaları, küfrləri və şiddətli inadları idi. Uca Allah buyurur: “**Halbuki onlardan əvvəl neçə-neçə ibrətamiz cəzalar olub keçmişdir**”, yəni keçmiş ümmətlərin üzərinə əzabımızı göndərdik və onları sonra gələn nəsillərə ibrət və nəsihət qəbul edənlərə bir nəsihət etdik.

Sonra Uca Allah bildirir ki, əgər Onun həlimliyi və əfvi olmasaydı, onlara əzabını dərhal göndərərdi. Necə ki başqa bir ayədə belə buyurur: “**Əgər Allah insanları qazandıqları günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı**” (“Fatir”, 45). Bu ayədə isə belə buyurur: “**Həqiqətən, Rəbbin insanların zalımlığına baxmayaraq tövbə edənləri bağışlayır**”, yəni insanların gecə-gündüz zülm etmələrinə, günah işlətmələrinə baxmayaraq, Uca Allah insanları əfv edir, bağışlayır və onların səhvlərini örtür. Daha sonra Uca Allah insanlarda ümid və qorxu bərabər olsun deyə, bağışlayan olduğunu bildirdikdən sonra əzabının da şiddətli olduğunu bildirir. Necə ki başqa ayələrdə belə buyurur: “**Əgər onlar səni yalançı hesab etsələr, de: “Rəbbiniz geniş mərhəmət sahibidir. Lakin Onun əzabı günahkar tayfadan uzaqlaşdırılmaz**” (“əl-Ənam”, 147); “**Doğrudan da, sənin Rəbbin tez cəza verəndir. Həqiqətən də, O, Bağışlayandır, Rəhmlidir**” (“əl-Əraf”, 167); “**Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır**” (“əl-Hicr”, 49-50). Bu və buna bənzər bir çox ayələrdə Uca Allah qorxu və ümidi birlikdə qeyd etmişdir.

﴿وَيَقُولُ ٱلَّذِينَ كَفَرُوا۟ لَوْلَآ أُنزِلَ عَلَيْهِ ءَايَةٌ مِّن رَّبِّهِۦٓ ۗ إِنَّمَآ أَنتَ مُنذِرٌ ۖ وَلِكُلِّ قَوْمٍ هَادٍ ۝٧﴾

**7. Kafir olanlar deyirlər: “Məgər ona Rəbbindən bir dəlil endirilməli deyildimi?” Sən ancaq xəbərdar edənsən. Hər qövmün bir yolgöstərəni var.**

Uca Allah bu ayədə bildirir ki, müşriklər küfr və inadlarına görə belə deyəcəklər: “Əvvəlki peyğəmbərlərə verildiyi kimi, ona da (Muhəmmədə də) Rəbbindən (peyğəmbərliyini təsdiq edəcək) bir dəlil endirilməli deyildimi?” Necə ki müşriklər inad edərək Peyğəmbərdən ﷺ Səfa dağını onlar üçün qızıla çevirməsini, ətraflarında olan dağları yox edib onları otlaqlar və çaylarla əvəz etməsini tələb etmişlər. Uca Allah buyurur: “**Bizim (Peyğəmbərin doğruluğunu təsdiqləyən) dəlillər göndərməkdən vaz keçməyimizə səbəb ancaq əvvəlkilərin onları yalan hesab etmələri idi. Səmud tayfasına açıq-aydın dəlil kimi bir dişi dəvə verdik, lakin onlar ona zülm etdilər. Biz dəlilləri yalnız qorxutmaq üçün göndəririk**” (“əl-İsra”, 59). Uca Allah buyurur: “**Sən ancaq xəbərdar edənsən**”, yəni sənin vəzifən, yalnız Allahın sənə əmr etdiyi dini təbliğ etməkdir. “**Onların doğru yola gəlməsi sənə aid deyildir. Lakin Allah istədiyi şəxsi doğru yola yönəldir**” (“əl-Bəqərə”, 272).

Uca Allah buyurur: “**Hər qövmün bir yolgöstərəni var**”. İbn Abbas رضي الله عنهما bu ayənin təfsirində demişdir: “Uca Allah belə buyurur: “Ey Muhəmməd, sən ancaq xəbərdar edənsən. Hansısa bir qövmü doğru yola yönəldən isə Mənəm”.[1] Mucahid və Səid ibn Cubeyr رحمه الله də belə demişlər. Mucahid رحمه الله isə ayə barədə demişdir: “Yəni hər qövmün bir peyğəmbəri var”.[2] Necə ki Uca Allah başqa bir ayədə belə buyurur: “**Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən bir peyğəmbər gəlmiş olmasın**” (“Fatir”, 24). Qatədə və Abdur-Rahmən ibn Zeyd رحمه الله də belə demişlər. Malik رحمه الله isə demişdir: “Hər bir qövmün Allaha çağıran bir yolgöstərəni var”.

﴿ٱللَّهُ يَعْلَمُ مَا تَحْمِلُ كُلُّ أُنثَىٰ وَمَا تَغِيضُ ٱلْأَرْحَامُ وَمَا تَزْدَادُ ۖ وَكُلُّ شَىْءٍ عِندَهُۥ بِمِقْدَارٍ ۝٨ عَٰلِمُ ٱلْغَيْبِ وَٱلشَّهَٰدَةِ ٱلْكَبِيرُ ٱلْمُتَعَالِ ۝٩﴾

**8. Hər bir dişinin bətnində nə daşıdığını, bətnlərin nəyi əskildib, nəyi artıracağını Allah bilir. Onun yanında hər şeyin müəyyən ölçüsü var.**

**9. Allah qeybi və aşkarı biləndir, Böyükdür, Ucadır.**

[1] ət-Təbəri, 20146, 20234.
[2] ət-Təbəri, 20151, 20239.

Uca Allah bu ayələrdə bildirir ki, heç bir şey Onun kamil elmindən gizli qalmaz və O bütün dişi canlılardan hamilə olanların bətnlərində daşıdıqlarını Öz elmi ilə əhatə etmişdir. Necə ki başqa bir ayədə belə buyurur: “**Həqiqətən, Qiyamət saatı haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir**” (“Loğman”, 34). Yəni qadının bətnində daşıdığının oğlan və ya qız, gözəl və ya çirkin, xoşbəxt və ya bədbəxt, uzunömürlü və ya qısaömürlü olacağını bilir. Uca Allah başqa ayələrdə belə buyurur: “**O, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı**” (“ən-Nəcm”, 32); “**O sizi analarınızın bətnində üç zülmət içərisində yaranış ardından yaranışa salaraq yaradır**” (“əz-Zumər”, 6); “**Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq; sonra o qandan bir parça ət yaratdıq; sonra o bir parça ətdən sümüklər yaratdıq; sonra da sümükləri ət ilə örtdük; sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah ən Əzəmətli, xeyiri və bərəkəti bol olandır!**” (“əl-Muminun”, 12-14). əl-Buxari və Muslimin “Səhih” əsərlərində İbn Məsuddan ﷺ rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: “Sizdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra Allah onun yanına bir mələk göndərir. Bu mələyə dörd şey yazmaq əmr edilir və ona “Bu uşağın əməlini, ruzisini, əcəlini, bədbəxt və ya xoşbəxt olacağını yaz!” – deyilir”.[1] Başqa bir hədisdə belə rəvayət olunur: “Mələk soruşar: “Ey Rəbbim, oğlanmı, qızmı? Ey Rəbbim, bədbəxtmi, xoşbəxtmi? Ruzisi nə qədərdir? Əcəli nə qədərdir?” Uca Allah buyurar, mələk də yazar”.[2]

Uca Allah buyurur: “**...bətnlərin nəyi əskildib, nəyi artıracağını Allah bilir**”. əl-Buxari İbn Ömərdən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Qeybin beş açarı var ki, bunları Allahdan başqa heç kəs bilə bilməz: sabah nə baş verəcəyini yalnız Allah bilər, bətnlərin nəyi əskiltdiyini (uşağın doqquz aydan tez yaxud gec doğulacağını) yalnız Allah bilər, yağışın nə vaxt yağacağını Allahdan başqa heç kəs bilməz, heç kəs harada öləcəyini bilməz və Qiyamətin nə zaman qopacağını Allahdan başqa heç kəs bilməz”.[3] İbn Abbas demişdir: “**...bətnlərin nəyi əskildib**”, yəni bətndə olanın nə vaxt düşəcəyini, “**nəyi artıracağını**

[1] əl-Buxari, 2969, 3208; Muslim, 4781, 6893.
[2] Muslim, 4783, 6896.
[3] əl-Buxari, 4328, 4697.

**Allah bilir**", yəni hamiləliyini tamamlayıb nə vaxt doğacağını bilir. Çünki bəzi qadınlar hamiləliyini on aya, bəziləri isə doqquz aya tamamlayır. Bəzi qadınlarda bundan daha çox, bəzilərində isə az olur. Uca Allahın qeyd etdiyi əskiltmə və artırma budur. Bütün bunlar Uca Allahın elmi ilə olur".[1] Mucahid ﷺ Uca Allahın "**...bətnlərin nəyi əskildib, nəyi artıracağını Allah bilir**" ayəsi barədə belə demişdir: "Bətnlərin əskiltdiyi – qadının hamiləlik dövründə (uşaq düşərkən) gördüyü qandır. Artırdığı isə doqquz aydan çox olmasıdır".[2] Atiyyə əl-Əuvfi, Qatədə, Həsən əl-Bəsri və əd-Dahhək ﷺ da belə demişlər. Məkhul ﷺ demişdir: "Döl anasının bətnində heç bir şey istəməz. Ruzisinə görə narahat olmaz və kədərlənməz. Onun ruzisi anasının bətnində heyz qanından gələr. Bu səbəbdən hamilə qadın heyz olmaz. Dünyaya göz açdıqda isə ağlayar. Onun ağlaması yerini dəyişməsinə görədir. Göbəyi kəsildikdə isə Uca Allah onun ruzisini anasının doşlərindəki südə çevirər ki, uşaq yenə heç bir şey istəməsin, ruzisinə görə narahat və kədərli olmasın. Sonra əli ilə tutub yeyən uşaq olar. Bir də baxarsan ki, o yetkinlik yaşına çatmış və "Aclıqdan öləcəyəm və ya öldürüləcəyəm. Ruzim haradan gələcək?" – deyə soruşar". Məkhul sözünə davam edərək demişdir: "Təəssüflər olsun sənə! Sən ananın bətnində kiçik bir uşaq ikən Allah səni bəslədi. Nəhayət, güclü və dərrakəli olduğun zaman "Aclıqdan öləcəyəm və ya öldürüləcəyəm. Ruzim haradan gələcək?" – deyə soruşursan". Sonra Məkhul bu ayəni oxudu: "**Hər bir dişinin bətnində nə daşıdığını, bətnlərin nəyi əskildib, nəyi artıracağını Allah bilir. Onun yanında hər şeyin müəyyən ölçüsü var**".[3]

Qatədə ﷺ Uca Allahın "**Onun yanında hər şeyin müəyyən ölçüsü var**" ayəsi barədə belə demişdir: "Yəni Onun yanında hər şeyin bir əcəli vardır. Uca Allah varlıqların ruzilərini və əcəllərini hifz etmiş və bütün bunlar üçün müəyyən bir əcəl qoymuşdur".[4] Səhih bir hədisdə rəvayət edilir ki, bir dəfə Peyğəmbərin ﷺ qızlarından biri ona xəbər göndərərək bir oğlunun ölüm ayağında olduğunu və yanına gəlməsini istədiyini bildirmişdir. Peyğəmbər ﷺ ona xəbər göndərib belə dedi: "Həqiqətən, verən də, alan da Allahdır. Onun dərgahında hər şeyin müəyyən bir əcəli vardır. Ona deyin ki, səbir etsin və başına gələn müsibətin mükafatını Allahdan umsun". Sonra ravi hədisin davamını qeyd etmişdir.[5]

[1] ət-Təbəri, 20164, 20252.
[2] ət-Təbəri, 20166, 20254.
[3] İbn Əbu Hatim, 12170.
[4] İbn Əbu Hatim, 12172.
[5] əl-Buxari, 1204, 1284; Muslim, 1531, 2174.

Uca Allah buyurur: "**Allah qeybi və aşkarı biləndir**", yəni qulların gördüklərini də, onlara gizli qalanları da bilir. Heç bir şey Ona gizli qalmaz. "**Böyükdür, Ucadır**", yəni O hər şeydən böyük və ucadır. O Öz elmi ilə hər şeyi əhatə etmişdir. Hər şey Onun mütləq hakimiyyəti altındadır. Boyunlar Onun qarşısında əyilmiş, qullar istəsələr də, istəməsələr də, Ona boyun əymişlər.

﴿سَوَآءٞ مِّنكُم مَّنۡ أَسَرَّ ٱلۡقَوۡلَ وَمَن جَهَرَ بِهِۦ وَمَنۡ هُوَ مُسۡتَخۡفِۭ بِٱلَّيۡلِ وَسَارِبُۢ بِٱلنَّهَارِ ١٠ لَهُۥ مُعَقِّبَٰتٞ
مِّنۢ بَيۡنِ يَدَيۡهِ وَمِنۡ خَلۡفِهِۦ يَحۡفَظُونَهُۥ مِنۡ أَمۡرِ ٱللَّهِۗ إِنَّ ٱللَّهَ لَا يُغَيِّرُ مَا بِقَوۡمٍ حَتَّىٰ يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمۡۗ وَإِذَآ
أَرَادَ ٱللَّهُ بِقَوۡمٖ سُوٓءٗا فَلَا مَرَدَّ لَهُۥۚ وَمَا لَهُم مِّن دُونِهِۦ مِن وَالٍ ١١﴾

**10. Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib-dolananlar da Allah üçün eynidirlər.**

**11. İnsanı həm öndən, həm də arxadan növbə ilə təqib edənlər (mələklər) vardır. Onlar Allahın əmri ilə onu qoruyarlar. Həqiqətən də, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir qövmə pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur.**

Uca Allah bu ayələrdə bildirir ki, Onun elmi bütün varlıqları əhatə etmişdir. İnsanlardan sözünü gizləyən də, açıq deyən də Onun üçün eynidir, onu mütləq eşidər. Heç bir şey Ona gizli qalmaz. Uca Allah başqa ayələrdə belə buyurur: "**Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir**" ("Ta ha", 7); "**Şeytan ona görə belə etmişdir ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxardıqlarınızı da Bilən Allaha səcdə etməsinlər**" ("ən-Nəml", 25). Aişə ﵂ belə demişdir: "Bütün səsləri eşidən Allah pak və müqəddəsdir. Allaha and olsun ki, ərindən şikayət etmək üçün Peyğəmbərin ﷺ yanına gələn və əri barədə onunla mübahisə edən qadın danışanda, mən evin bir küncündə idim. Buna baxmayaraq mən o qadının bəzi sözlərini eşitmirdim. Uca Allah onun barəsində "**Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir**" ("əl-Mucadilə", 1) ayəsini nazil etdi".[1]

[1] əl-Buxari, 7385; İbn Məcə, 188, 2963.

Uca Allah buyurur: "**...gecə gizlənib**", yəni gecənin qaranlığında evinin gizli bir guşəsində gizlənib, "**gündüz gəzib-dolananlar da**", yəni gündüzün işığında gəzənlər də "**Allah üçün eynidirlər**", yəni hər ikisi Allahın elmində eynidir. Uca Allah başqa ayələrdə belə buyurur: "**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, onları etdiyiniz zaman Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda olmasın**" ("Yunus", 61).

Uca Allah buyurur: "**İnsanı həm öndən, həm də arxadan növbə ilə təqib edənlər (mələklər) vardır. Onlar Allahın əmri ilə onu qoruyarlar**", yəni qulu növbə ilə təqib edən mələklər – gecə və gündüz qoruyucuları vardır. Bu mələklər onu pisliklərdən və bəlalardan qoruyarlar. Həmçinin insanın xeyir və şər əməllərini yazan başqa mələklər də vardır. Bu mələklər də gecə və gündüz mələkləri olmaqla iki qisimdir. İnsanın sağında və solunda olan iki mələk onun əməllərini yazır. Sağdakı mələk yaxşı əməlləri, soldakı mələk isə günah işləri yazır. Biri arxadan, digəri öndən olmaqla insanı mühafizə edib qoruyan iki mələk də vardır. Qul gecə və gündüz bir-birlərini əvəz edən dörd mələyin arasında olur. Bunlardan ikisi qoruyucu, ikisi isə əməlləri yazan mələklərdir. "Səhih" əsərində rəvayət olunan bir hədisdə belə buyurulur: "Bir dəstə mələk gecələr, bir dəstə mələk də gündüzlər növbə ilə sizin yanınıza gəlir, onlar Sübh və Əsr namazlarında bir yerə toplanırlar. Bundan sonra gecəni sizin aranızda keçirən mələklər (səmaya) qalxır və Allah sizin nə etdiyinizi daha yaxşı bildiyi halda onlardan "Siz Mənim qullarımı nə vəziyyətdə tərk etmisiniz?" – deyə soruşur. Onlar deyirlər: "Biz onların yanlarına gəldikdə onlar namaz qılırdılar, onları tərk etdikdə də namaz qılırdılar".[1] İbn Abbas ﵄ Uca Allahın "**İnsanı həm öndən, həm də arxadan növbə ilə təqib edənlər (mələklər) vardır**" ayəsi barədə belə demişdir: "İnsanı Allahın əmri ilə həm öndən, həm də arxadan təqib edənlər mələklərdir". Həmçinin demişdir: "**Onlar Allahın əmri ilə onu qoruyarlar**", yəni mələklər insanı həm öndən, həm də arxadan mühafizə edərlər. Allahın qədəri gəldikdə isə ondan ayrılar və onu tək qoyarlar".[2] Mucahid ﵀ demişdir: "Elə bir qul yoxdur ki, yuxuda və ya oyaq olanda onu cinlərdən, insanlardan və həşəratlardan qorumaqla (Allah tərəfindən) vəzifələndirilmiş bir mələyi olmasın. Onlardan (cinlərdən, insanlardan və həşəratlardan) biri qula zərər toxundurmaq istədikdə, mələk ona "Geri çəkil!" – deyər. Yalnız Allahın izni ilə qula toxunan zərər istisnadır".[3]

[1] əl-Buxari, 555, 6932, 7429; Muslim, 1001, 1464.

[2] ət-Təbəri, 20215-20216, 20303-20304.

[3] ət-Təbəri, 20225, 20313.

İmam Əhməd ﷫ Abdullah ibn Məsuddan ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Sizdən elə bir kəs yoxdur ki, onun (Allah tərəfindən) vəzifləndirilmiş cinlərdən bir yoldaşı və mələklərdən bir yoldaşı olmasın”. Səhabələr soruşdular: “Sənin də varmı, ey Allahın Elçisi?” Peyğəmbər ﷺ dedi: “Bəli, mənim də var, lakin Uca Allah ona (cinə) qarşı mənə kömək edir və o mənə yalnız xeyiri əmr edir”. Hədisi yalnız Muslim ﷫ rəvayət etmişdir.[1]

Uca Allah buyurur: “**Onlar Allahın əmri ilə onu qoruyarlar**”, yəni mələklər qulu Allahın əmri ilə qoruyarlar. Bu rəyi Əli ibn Əbu Talhə və başqaları İbn Abbasdan ﵄ rəvayət etmişlər. Mucahid, Səid ibn Cubeyr, İbrahim ən-Nəxai və başqaları da bu rəyi seçmişlər. Kəb əl-Əhbər ﷫ demişdir: “Əgər Adəm övladına yer üzündə olan düzənlik və dağlarda gözə görünməyənlər göstərilsəydi, bunların hər birində şeytanların olduğunu görərdi. Əgər yemək yeyərkən, içərkən və övrət yerlərinizi açarkən Uca Allah tərəfindən sizi qorumaqla vəzifələndirmiş mələklər olmasaydı, mütləq (şeytanlar sizi) qapıb oğurlayardılar”.[2] Əbu Umamə ﷺ demişdir: “Elə bir Adəm övladı yoxdur ki, onunla birlikdə onu qoruyan bir mələk olmasın. Ta ki Allah tərəfindən onun üçün müəyyən olunan əcəl çatana qədər”.[3] Bəziləri ayəni “Allahın əmri ilə onu qoruyarlar” şəklində anlamışlar. Rəvayət olunur ki, bir dəfə səhabələr Peyğəmbərdən ﷺ soruşdular: “Ey Allahın Elçisi, (şəriətin buyurduğu) ovsunlar barədə nə deyirsən? Onlar Allahın qədərindən hər hansı bir şeyin qarşısını alırmı?” Peyğəmbər ﷺ dedi: “O da Allahın qədərindəndir”.[4]

﴿ هُوَ ٱلَّذِى يُرِيكُمُ ٱلْبَرْقَ خَوْفًا وَطَمَعًا وَيُنشِئُ ٱلسَّحَابَ ٱلثِّقَالَ ﴿١٢﴾ وَيُسَبِّحُ ٱلرَّعْدُ بِحَمْدِهِۦ وَٱلْمَلَٰٓئِكَةُ
مِنْ خِيفَتِهِۦ وَيُرْسِلُ ٱلصَّوَٰعِقَ فَيُصِيبُ بِهَا مَن يَشَآءُ وَهُمْ يُجَٰدِلُونَ فِى ٱللَّهِ وَهُوَ شَدِيدُ ٱلْمِحَالِ ﴿١٣﴾ ﴾

**12. Sizə qorxu və ümid məqsədilə şimşək göstərən, (yağışla dolu) ağır buludları meydana gətirən Odur.**

**13. Göy gurultusu həmd edərək Ona təriflər deyir. Mələklər də Onun qorxusundan təriflər deyirlər. Allah ildırımlar göndərib onunla istədiyini vurur. Onlar Allah barəsində mübahisə edirlər. Halbuki O, şiddətli cəza verəndir.**

Uca Allah bu ayələrdə bildirir ki, şimşəyə hökm edən Odur. Şimşək – buludlar arasında müşahidə edilən parlaq işıqdır.

---

[1] Əhməd, 3648; Muslim, 5034, 7287.

[2] ət-Təbəri, 20246, 20335.

[3] ət-Təbəri, 20248, 20337.

[4] ət-Tirmizi, 2065, 2206. Hədis zəifdir. Bax: Mişkətul-Məsabih, 97.

Uca Allah buyurur: "**Sizə qorxu və ümid məqsədilə şimşək göstərən...**". Qatədə ﷺ demişdir: "Müsafir üçün şümşək qorxudur, çünki o, şimşəyin əziyyət və çətinliyindən qorxar. Müsafir olmayan (evində olan) kəsə isə şimşək ümid verər, çünki o onun (gətirdiyi yağışın) bərəkətinə, faydasına ümid edər, Allahın ruzisini diləyər".[1]

Uca Allah buyurur: "**...ağır buludları meydana gətirən Odur**", yəni onları yeni bir yaradılışla yaradar. Bu buludlar yağışın çoxluğundan yer üzünə yaxın və ağır olur. Mucahid ﷺ demişdir: "Ağır bulud – yağışla yüklənmiş buluddur".[2]

Uca Allah buyurur: "**Göy gurultusu həmd edərək Ona təriflər deyir**". Başqa bir ayədə isə belə buyurur: "**Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız**" ("əl-İsra", 44).

Rəvayət edilir ki, Əli ﷺ göy gurultusu eşitdikdə belə deyərdi: "Sənin tərif dediyin Allah pak və müqəddəsdir![3]"[4] İbn Abbas, Əsvəd ibn Yəzid və Tavusdan ﷺ rəvayət olunur ki, onlar da göy gurultusu eşitdikdə belə deyərmişlər. Rəvayət edilir ki, Abdullah ibn Zubeyr ﷺ göy gurultusu eşitdiyi vaxt danışdığı sözü saxlayıb "**Göy gurultusu həmd edərək Ona təriflər deyir. Mələklər də Onun qorxusundan təriflər deyirlər**" – deyər və bunu əlavə edərdi: "Həqiqətən bu, yer üzünün əhalisi üçün şiddətli bir təhdiddir". Abdullah ibn Zubeyrin ﷺ bu sözünü Malik "Muvatta" əsərində və əl-Buxari ﷺ rəvayət etmişlər.[5]

Uca Allah buyurur: "**Allah ildırımlar göndərib onunla istədiyini vurur**", yəni Uca Allah istədiyi kəsdən intiqam almaq üçün cəza olaraq ona ildırım göndərib onu vurar. Buna görə də axır zamanda (Qiyamətə yaxın) ildırım vurmalar çoxalacaq.

Uca Allah buyurur: "**Onlar Allah barəsində mübahisə edirlər**", yəni onlar Allahın əzəmətinə və Ondan başqa ibadətə layiq məbudun olmadığına şübhə edirlər. "**Halbuki O, şiddətli cəza verəndir**". İbn Cərir ﷺ demişdir: "Yəni Uca Allah Ona qarşı çıxıb asi olanlara və küfründə israr edənlərə şiddətli cəza verəndir". Bu ayə məna etibarilə Uca Allahın bu ayəsinə bənzəyir: "**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə**

---

1 ət-Təbəri, 20252, 20342.

2 ət-Təbəri, 20258, 20348.

3 Transkripsiyası: [Subhə:nə mən səbbəhtə ləhu].

4 ət-Təbəri, 20261, 20351.

5 Malik, 2/992, 26; əl-Buxari "Ədəbul-Mufrad" 723. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 1522.

**oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə yeksan etdik**" ("ən-Nəml", 50-51). Əli Uca Allahın "**O, şiddətli cəza verəndir**" ayəsi barədə belə demişdir: "Yəni Onun günahkarları yaxalaması ağrılı-acılıdır". Mucahid demişdir: "Yəni çox qüvvətlidir".[1]

﴿لَهُۥ دَعۡوَةُ ٱلۡحَقِّۚ وَٱلَّذِينَ يَدۡعُونَ مِن دُونِهِۦ لَا يَسۡتَجِيبُونَ لَهُم بِشَيۡءٍ إِلَّا كَبَٰسِطِ كَفَّيۡهِ إِلَى ٱلۡمَآءِ لِيَبۡلُغَ فَاهُ وَمَا هُوَ بِبَٰلِغِهِۦۚ وَمَا
دُعَآءُ ٱلۡكَٰفِرِينَ إِلَّا فِي ضَلَٰلٖ ١٤﴾

**14. Haqq çağırış yalnız Onadır. Müşriklərin Ondan başqa çağırdıqları isə onlara heç bir şeylə cavab vermirlər. Onlar ağzına su çatsın deyə uzaqdan iki ovcunu suya açan kimsəyə bənzəyirlər. Halbuki o kimsə suyu ovuclayıb içməyincə, su onun ağzına çatan deyil. Doğrusu, kafirlərin duası azğınlıqdan başqa bir şey deyil.**

Əli ibn Əbu Talib Uca Allahın "**Haqq çağırış yalnız Onadır**" ayəsi barədə belə demişdir: "Bu tövhiddir (Allahı ibadətdə təkləşdirməkdir)". İbn Abbas isə demişdir: "Burada "Lə iləhə illəllah" (Allahdan başqa ibadətə layiq məbud yoxdur) kəlməsi nəzərdə tutulur".[2]

"**Müşriklərin Ondan başqa çağırdıqları isə onlara heç bir şeylə cavab vermirlər**", yəni Allahı qoyub Ondan başqa məbudlara ibadət edənlərin məsəli "**ağzına su çatsın deyə uzaqdan iki ovcunu suya açan**" kimsənin məsəlinə bənzəyir. Əli ibn Əbu Talib demişdir: "Onların halı dərin quyunun başında dayanıb əli ilə quyunun dibindən su götürməyə çalışan kimsənin halına bənzəyir. O, əli ilə heç vaxt suyu götürə bilməz. Ağzı ilə necə götürsün?" Mucahid demişdir: "Dili ilə suyu istəyir, əli ilə ona işarə edir. Belə olan halda su heç vaxt ona çatmaz".[3] Bəzi təfsirçilər demişlər: "Yəni onların məsəli əli ilə suyu qamarlayıb götürənin məsəlinə bənzəyir. Beləsinin əlində su qalmaz".

Ayənin mənası belədir: əlini suya doğru açan kəs, fərq etməz istər onu qamarlamaq uçün əlini uzatsın, istər uzaqdan götürmək üçün, ağızına çatmayan sudan faydalana bilmədiyi kimi, Allahla yanaşı, başqa ilahlara ibadət edən müşriklər də nə dünyada, nə də axirətdə heç bir halda onlardan fayda görməyəcəklər. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Doğrusu, kafirlərin duası azğınlıqdan başqa bir şey deyil**" – deyə buyurur.

[1] ət-Tabəri, 20273-20274, 20363-20364.
[2] ət-Tabəri, 20281-20282, 20371-20372.
[3] ət-Tabəri, 20286-20287, 20376-20377.

﴿وَلِلَّهِ يَسْجُدُ مَن فِي ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ طَوْعًا وَكَرْهًا وَظِلَٰلُهُم بِٱلْغُدُوِّ وَٱلْآصَالِ ۩ ﴿١٥﴾﴾

**15. Göylərdə və yerdə olan məxluqlar da, onların kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir.**

Uca Allah bu ayədə Öz əzəmətindən və hökmranlığından xəbər verir. Hər şey Onun qarşısında boyun əymiş və O hər şey üzərində mütləq hakimiyyət sahibidir. Odur ki, hər şey, möminlər istəyərək, müşriklər isə istəmədən Ona səcdə edir. “**...onların kölgələri də səhər-axşam**”, yəni günün əvvəlində və sonunda “**istər-istəməz Allaha səcdə edir**”. Uca Allah başqa bir ayədə belə buyurur: “**Məgər onlar Allahın xəlq etdiyi hər hansı bir şeyi müşahidə etməyiblərmi? Onların kölgələri müti surətdə Allaha səcdə edərək sağa-sola əyilir**” (“ən-Nəhl”, 48).

﴿قُلْ مَن رَّبُّ ٱلسَّمَٰوَٰتِ وَٱلْأَرْضِ قُلِ ٱللَّهُ ۚ قُلْ أَفَٱتَّخَذْتُم مِّن دُونِهِۦٓ أَوْلِيَآءَ لَا يَمْلِكُونَ لِأَنفُسِهِمْ نَفْعًا وَلَا ضَرًّا ۚ قُلْ
هَلْ يَسْتَوِى ٱلْأَعْمَىٰ وَٱلْبَصِيرُ أَمْ هَلْ تَسْتَوِى ٱلظُّلُمَٰتُ وَٱلنُّورُ ۗ أَمْ جَعَلُوا۟ لِلَّهِ شُرَكَآءَ خَلَقُوا۟ كَخَلْقِهِۦ فَتَشَٰبَهَ ٱلْخَلْقُ عَلَيْهِمْ ۚ قُلِ
ٱللَّهُ خَٰلِقُ كُلِّ شَىْءٍ وَهُوَ ٱلْوَٰحِدُ ٱلْقَهَّٰرُ ﴿١٦﴾﴾

**16. De: “Göylərin və yerin Rəbbi kimdir?” De: “Allahdır!” De: “Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə hami seçirsiniz?” De: “Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?” Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaradılış onlara bənzər göründü? De: “Hər şeyi yaradan Allahdır. O Təkdir, hər şeyə Qalib gələndir”.**

Uca Allah bu ayədə Özündən başqa ibadətə layiq məbudun olmadığını bildirir. Çünki müşriklər Allahın göyləri və yeri yaratdığını, onların Rəbbi və onları idarə edən olduğunu etiraf edirdilər. Bununla belə, onlar Allahdan başqalarını özlərinə hami seçib onlara ibadət edirdilər. Halbuki o ilahlar özlərinə fayda vermək üçün heç bir şeyə malik deyillər. O halda onlara ibadət edənlərə necə fayda verə bilərlər. “**...nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə hami seçirsiniz?**” Yəni onlar heç bir fayda verə bilməzlər və heç bir zərəri dəf edə bilməzlər. Allahla yanaşı, bu ilahlara ibadət edənlə, tək Allaha ibadət edib heç nəyi Ona şərik qoşmayan və Rəbbi tərəfindən nura yönəlmiş şəxs eyni ola bilərmi? Bu səbəbdən Uca Allah “**De: “Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?” Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan**

**şəriklər tapdılar və bu yaradılış onlara bənzər göründü?**” – deyə buyurur. Yəni yoxsa bu müşriklər yaratmaqda Allaha bənzər ilahlarmı tapdılar, bu ilahlar Allahın yaratdığı kimi yaratdı və bu yaradılış onlara bənzər göründü? Beləcə, onlar bilmədilər bu Allah tərəfindən yaradılıb, yoxsa başqa bir varlıq tərəfindən? Vəziyyət heç də belə deyil. Heç bir şey Allaha bənzəməz, Onun bənzəri, tayı, köməkçisi, övladı və həyat yoldaşı yoxdur. Allah, bütün bunlardan pak və ucadır. Müşriklər Allahla yanaşı, ilahlara ibadət edir və bu ilahların Allah tərəfindən yaradıldığını və Onun qulları olduğunu etiraf edirlər. Onlar həcc edərkən təlbiyəni[1] belə deyərdilər: “Hüzurundayıq, ey Rəbbimiz! Sənin şərikin yoxdur, yalnız bir şərikdən başqa. Sən ona və onun sahib olduqlarına sahibsən”. Bir ayədə Uca Allah onların “**Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik**” (“əz-Zumər”, 3) – dediklərini xəbər verir, sonra onların bu sözlərini rədd edir.[2] Çünki onlar buna etiqad etmişlər. Halbuki (Qiyamət günü) Uca Allahın yanında Onun izin verdiyi kəslərdən başqa heç kim şəfaətçi ola bilməyəcək. “**Onun qarşısında, izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz**” (“Səba”, 23); “**Göylərdə neçə-neçə mələk var ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa heç kəsə heç bir fayda verməz**” (“ən-Nəcm”, 26); “**Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. Allah onları hesablamış və bir-bir saymışdır. Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək**” (“Məryəm”, 93-95). Əgər hamı Onun quludursa, o halda nə üçün heç bir dəlil olmadan, sadəcə öz düşüncələrinə və uydurmalarına əsaslanaraq bir-birlərinə ibadət edirlər? Sonra Uca Allah əvvəlkilərdən sonunculara qədər onların özlərindən peyğəmbərlər göndərmiş, bu peyğəmbərlər də onları bu əməldən (Allaha şərik qoşmaqdan) çəkindirmiş və Allahdan başqa şeylərə ibadət etməkdən daşınmağa çağırmışlar. Lakin onlar bu peyğəmbərləri yalançı saymış və onlara qarşı çıxmışlar. Beləliklə, Allahın əzab sözü onlar barədə gerçəkləşmişdir. “**Rəbbin heç kəsə haqsızlıq etməz!**” (“əl-Kəhf”, 49).

---

[1] “Təlbiyə” həcc mərasimində uca səslə təkrar-təkrar deyilən duadır. Bu dua, əslində, belədir:

(( لَبَّيْكَ اللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ الْحَمْدَ، وَالنِّعْمَةَ، لَكَ وَ الْمُلْكَ، لاَ شَرِيكَ لَكَ ))

**Transkripsiyası**: [Ləbbeykə-lla:hummə ləbbeyk, ləbbeykə lə şəri:kə ləkə ləbbeyk, innəl-həmdə vən-ni’mətə, ləkə vəl-mulk, lə şəri:kə lək]

**Tərcüməsi**: “Hüzurundayam, Allahım, hüzurundayam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd Sənədir, nemət və mülk Sənə məxsusdur, Sənin şərikin yoxdur!”

[2] Uca Allah ayənin davamında onların bu sözünü rədd edərək belə buyurur: “**Əlbəttə ki, Allah ixtilaf etdikləri məsələlər barədə onların arasında Öz hökmünü verəcək. Şübhəsiz ki, Allah yalançı və kafir olan kimsəni doğru yola yönəltməz**”. (“əz-Zumər”, 3).

﴿أَنزَلَ مِنَ ٱلسَّمَآءِ مَآءً فَسَالَتۡ أَوۡدِيَةُۢ بِقَدَرِهَا فَٱحۡتَمَلَ ٱلسَّيۡلُ زَبَدٗا رَّابِيٗاۖ وَمِمَّا يُوقِدُونَ عَلَيۡهِ فِي ٱلنَّارِ ٱبۡتِغَآءَ حِلۡيَةٍ أَوۡ
مَتَٰعٖ زَبَدٞ مِّثۡلُهُۥۚ كَذَٰلِكَ يَضۡرِبُ ٱللَّهُ ٱلۡحَقَّ وَٱلۡبَٰطِلَۚ فَأَمَّا ٱلزَّبَدُ فَيَذۡهَبُ جُفَآءٗۖ وَأَمَّا مَا يَنفَعُ ٱلنَّاسَ فَيَمۡكُثُ فِي
ٱلۡأَرۡضِۚ كَذَٰلِكَ يَضۡرِبُ ٱللَّهُ ٱلۡأَمۡثَالَ ١٧﴾

**17. O, göydən su endirir və vadilər ölçülərinə uyğun öz məcralarından daşaraq sel olub axır. Sel də üzə çıxmış köpüyü götürüb aparır. Bəzək şeyləri və ya başqa əşyalar düzəltmək üçün insanların odda qızdırıb əritdikləri şeylərin üstündə də buna bənzər köpük olur. Allah haqqa və batilə belə misallar çəkir. Köpük yox olub gedir, insanlara fayda verən şeylər isə yerində qalır. Budur Allahın çəkdiyi misallar!**

Bu ayə özündə haqqın sabit və qalıcı olmasına, batilin isə məhv olmasına və sona çatmasına dair iki məsəli ehtiva edir. Uca Allah buyurur: "**O, göydən su**", yəni yağış "**endirir və vadilər ölçülərinə uyğun öz məcralarından daşaraq sel olub axır**", yəni hər vadi həmin yağış suyundan öz həcminə uyğun su götürər. Biri böyük olduğu üçün çox su götürür, digəri kiçik olduğu üçün ölçüsünə uyğun az su götürür. Bu, insanların qəlblərinə və onların bir-birlərindən fərqli olduqlarına işarədir. Bəzi qəlblər çox elm daşıyar. Bəzi qəlblər isə çox elm daşıya bilmir, bu ona dar gəlir. "**Sel də üzə çıxmış köpüyü götürüb aparır**", yəni bu vadilərdə axan suyun üzündə əmələ gələn köpük vardır. Bu birinci məsəldir. Uca Allahın "**Bəzək şeyləri və ya başqa əşyalar düzəltmək üçün insanların odda qızdırıb əritdikləri şeylərin üstündə də buna bənzər köpük olur**" sözü isə ikinci məsəldir. Dəmiri və ya misi bəzəmək üçün odda əridilib qəlibə tökülən qızılın və ya gümüşün üzərində də eynilə vadidə axan suda olduğu kimi köpük əmələ gəlir və bu köpük üzə çıxır. "**Allah haqqa və batilə belə misallar çəkir**", yəni necə ki köpük su ilə, habelə qızıl və buna bənzər odda əridilən metallarla birlikdə qalmır, gedir və yox olursa, haqq ilə batil də bir araya gəldikdə batil qalmır və davamlı olmur, əksinə, gedir və yox olur. Bu səbəbdən Uca Allah ayədə "**Köpük yox olub gedir**" – deyə buyurur. Yəni ondan istifadə edilməz, o parçalanar, bölünər və vadinin hər tərəfinə gedər, ağaclara ilişər və külək onları aparar. Qızıl, gümüş, dəmir və misin kiri də belədir, gedər və ondan heç bir fayda əldə olunmaz. Vadidə yalnız su qalar. Qızıl və buna bənzər metallar da belədir. Onlardan istifadə edilər. Odur ki, Uca Allah "**Köpük yox olub gedir, insanlara fayda verən şeylər isə yerində qalır**" – deyə buyurur. Başqa bir ayədə belə buyurur:

“**Biz insanlar üçün belə məsəllər çəkirik. Bunları isə ancaq həqiqəti dərk edən adamlar anlayarlar**” (“əl-Ənkəbut”, 43). Sələfdən biri belə demişdir: “Qurandan bir məsəl oxuyub onu başa düşmədikdə, öz halıma ağlayardım. Çünki Uca Allah belə buyurur: “**Bunları isə ancaq həqiqəti dərk edən adamlar anlayarlar**”.

İbn Abbas ﷺ Uca Allahın “**O, göydən su endirir və vadilər ölçülərinə uyğun öz məcralarından daşaraq sel olub axır. Sel də üzə çıxmış köpüyü götürüb aparır**” ayəsi barədə belə demişdir: “Sel vadidəki budaqları və çör-çöpü götürüb aparır”.[1] “**...insanların odda qızdırıb əritdikləri şeylərin üstündə də buna bənzər köpük olur**”. İnsanların odda qızdırıb əritdikləri şeylər qızıl, gümüş, zinət əşyaları, mis və dəmirdir. Mis və dəmirin tullantısı (çıxarı) olur. Uca Allah bunların çıxarını, su köpüyünə bənzətmişdir. İnsanların fayda götürdükləri isə qızıl və gümüşdür. Yerə fayda verən isə sudur, torpaq suyu canına çəkər və bu su yerdə bitkilər bitirər. Uca Allah bunu saleh əmələ məsəl çəkmişdir. Saleh əməllər sahibləri üçün qalıcıdır. Pis əməl isə köpüyün yox olub getdiyi kimi, sahibini tərk edib gedər. Hidayət və haqq Allah tərəfindən gəlmişdir. Kim haqqa əməl edərsə, o onun xeyrinə olar və yer üzündə insanlara fayda verən bitkilərin qaldığı kimi qalar. Dəmir də belədir, oda salınıb od onun çıxarını aparıb, xalis metal qalmayınca ondan fayda götürülməz və bıçaq, qılınc və s. kimi şeylər hazırlana bilməz. Həmçinin Qiyamət günü insanlar qəbirlərindən qalxdıqda, əməllər Allaha ərz olunduqda, batil gözə dəyməyəcək və yox olacaq. Haqqa tabe olanlar isə haqdan faydalanacaqlar. Bu ayənin təfsiri barədə Mucahid, əl-Həsən əl-Bəsri, Əta, Qatədə və bir çox xələf və sələf alimlərindən belə rəvayət edilmişdir.

Uca Allah “əl-Bəqərə” surəsinin əvvəlində münafiqlərə, biri od digəri su olmaqla, iki məsəl çəkir. Bu iki məsəl Uca Allahın bu ayələrində yer almışdır: “**Onların məsəli zülmət gecədə od qalayan kimsənin məsəlinə bənzər. Alov onun ətrafındakıları işıqlandırdığı zaman Allah onların nurunu aparar, özlərini də heç bir şey görə bilməyəcəkləri zülmətlər içərisində buraxar**” (“əl-Bəqərə”, 17) və “**Yaxud onların məsəli zülmət içində göy gurultusu və şimşəklə yağan leysana düşənlərin məsəlinə bənzəyir ki, ildırımdan ölmək qorxusu ilə barmaqlarını qulaqlarına tıxayırlar. Şübhəsiz ki, Allah kafirləri hər tərəfdən əhatəyə almışdır**” (“əl-Bəqərə”, 19). Həmçinin “ən-Nur” surəsində kafirlərə dair iki məsəl

[1] ət-Təbəri, 20311, 20401.

çəkmişdir. Bunlardan biri bu ayədir: "**Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir**" ("ən-Nur", 39). İlğım yalnız şiddətli istidə olur. əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə deyir: "Qiyamət günü yəhudilərə deyiləcək: "Bir deyin görək siz nə istəyirsiniz?" Onlar deyəcəklər: "Susamışıq, ey Rəbbimiz, bizə su ver." Onda onlara Cəhənnəm göstəriləcək və deyiləcək: "Bundan içmək istəmirsinizmi?" Onlar ilğıma bənzər, alovlanan atəşin kənarına toplanacaq və Cəhənnəmə düşəcəklər".[1] Uca Allah digər məsəldə belə buyurur: "**Yaxud onların əməlləri çox geniş və dərin dənizdəki qaranlığa bənzəyir. Onu bir dalğa, onun üstündən də başqa bir dalğa örtər; onun da üstündə bir bulud var; bir-birinin üstündə olan qaranlıqlar! İnsan əlini çıxarsa, az qala onu görməz. Allah kimə nur verməzsə, onun nuru olmaz**" ("ən-Nur", 40). əl-Buxari və "Muslimin "Səhih" əsərlərində Əbu Musa əl-Əşaridən ؓ rəvayət edilir ki, Peyğəmbər ﷺ belə demişdir: "Allahın mənim vasitəmlə göndərdiyi doğru yolgöstəricisi və elm, torpağa düşən bol yağışa bənzəyir. Bu torpağın bir qismi münbit olduğundan, suyu canına çəkib növbənöv bitkilər və çoxlu ot yetişdirir; bir qismi də quru olduğundan, suyu üstündə saxlayır və Allah da onunla insanları faydalandırır. Onlar bu sudan içir, üstəlik heyvanlarını və əkin sahələrini də sulayırlar; bu yağışın düşdüyü elə bir yer də var ki, ora hamar olduğundan, nə suyu (üstündə) saxlayır, nə də bir bitki yetişdirir. Bu, Allahın dinini dərk edən, Allahın mənim vasitəmlə göndərdiyindən faydalanan, elm öyrənən və (bunu başqalarına) öyrədən kimsə ilə buna tərəf başını belə qaldırmayan və Allahın mənim vasitəmlə göndərdiyi doğru yol göstəricisini qəbul etməyən kimsənin məsəlidir".[2] Bu, su ilə çəkilmiş bir məsəldir. İmam Əhmədin ؒ Əbu Hureyradan ؓ rəvayət etdiyi başqa bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Mənimlə sizin məsəliniz od qalamış bir kişinin məsəlinə bənzəyir. Od ətrafı işıqlandırdıqda pərvanələr və həşəratlar oda düşməyə başlayır. Kişi bu pərvanələri və həşəratları oda düşməkdən qorumaq istəyir, lakin onlar məhəl qoymayıb özlərini oda atırlar. Mənimlə sizin məsəliniz belədir. Mən sizin bel bağınızdan tutub oda girməyinizə mane oluram və "Oddan uzaqlaşın! Mənə doğru gəlin!" – deyirəm. Siz isə mənə məhəl qoymayıb özünüzü oda atırsınız". Hədisi əl-Buxari və Muslim ؒ də rəvayət etmişlər. Bu isə od ilə çəkilmiş bir məsəldir.

[1] əl-Buxari, 4215, 4581.
[2] əl-Buxari, 77, 79; Muslim, 4232, 6093.

﴿لِلَّذِينَ ٱسۡتَجَابُواْ لِرَبِّهِمُ ٱلۡحُسۡنَىٰۚ وَٱلَّذِينَ لَمۡ يَسۡتَجِيبُواْ لَهُۥ لَوۡ أَنَّ لَهُم مَّا فِي ٱلۡأَرۡضِ جَمِيعٗا وَمِثۡلَهُۥ مَعَهُۥ لَٱفۡتَدَوۡاْ بِهِۦٓۚ
أُوْلَٰٓئِكَ لَهُمۡ سُوٓءُ ٱلۡحِسَابِ وَمَأۡوَىٰهُمۡ جَهَنَّمُۖ وَبِئۡسَ ٱلۡمِهَادُ ١٨﴾

**18. Rəbbinin dəvətini qəbul edənlər üçün ən gözəl nemət (Cənnət) hazırlanmışdır. Onun dəvətini qəbul etməyənlərə gəlincə, yer üzündə olan var-dövlətin hamısı, üstəlik bir o qədəri də onların olsaydı, əzabdan qurtarmaq üçün onu mütləq fidyə verərdilər. Onlarla dəhşətli bir haqq-hesab çəkiləcəkdir. Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis yataqdır!**

Uca Allah bu ayədə xoşbəxt və bədbəxt insanların aqibətlərini bildirərək buyurur: "**Rəbbinin dəvətini qəbul edənlər üçün**", yəni Allaha və Onun Elçisinə itaət edən, Peyğəmbərin ﷺ əmrlərinə boyun əyən, keçmiş və gələcəklə əlaqədar gətirdiyi xəbərləri təsdiqləyən kəslərə "**ən gözəl nemət (Cənnət) hazırlanmışdır**", yəni ən gözəl mükafat vardır. Uca Allah Zülqərneyn (عليه السلام) barədə xəbər verərək belə buyurur: "**O dedi: "Zülm edəni cəzalandıracağıq. Sonra o, Rəbbinə qaytarılacaq. O da ona ağır bir əzab verəcək! İman gətirib yaxşı iş görən kimsəyə isə ən gözəl mükafat veriləcək. Biz ona əmrimizdən asan olanı buyuracağıq**" ("əl-Kəhf", 87-88). Başqa bir ayədə isə belə buyurur: "**Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır**" ("Yunus", 26).

Uca Allah buyurur: "**Onun dəvətini qəbul etməyənlərə gəlincə**", yəni Allaha itaət etməyənlərə gəlincə, "**yer üzündə olan var-dövlətin hamısı, üstəlik bir o qədəri də onların olsaydı, əzabdan qurtarmaq üçün onu mütləq fidyə verərdilər**", yəni əgər Axirət yurdunda Allaha itaət etməyənlərin dünya dolusu və üstəlik bir o qədər də qızılı olsaydı və Cəhənnəmdən xilas olmaq üçün onu fidyə vermk imkanları olsaydı, bunları fidyə verərdilər. Lakin bu onlardan qəbul edilməyəcək, çünki Uca Allah Qiyamət günü onlardan heç bir şey qəbul etməyəcək. "**Onlarla dəhşətli bir haqq-hesab çəkiləcəkdir**", yəni Axirətdə dünyada etdikləri hər şeyə, həm böyük, həm də kiçik günahlara görə hesaba çəkiləcəklər. Çünki Qiyamət günü əməlləri müzakirə olunacaq kimsəyə əzab veriləcək[1]. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis yataqdır!**" – deyə buyurur.

[1] Aişə (رضي الله عنها) rəvayət edir ki, Peyğəmbər ﷺ "Kim haqq-hesaba çəkilərsə, əzaba düçar olar"– deyə buyurdu. Mən dedim: "Məgər Uca Allah "**Onunla yüngül haqq-hesab çəkiləcək**" ("əl-İnşiqaq", 8) – deyə buyurmurmu?" Peyğəmbər ﷺ dedi: "Sən dediyin ərz etməkdir (hər kəsin etdiyi əməllər özünə ərz olunacaq). Əməlləri müzakirə olunacaq kimsə isə həlak olacaq". (əl-Buxari, 103).

﴿أَفَمَن يَعْلَمُ أَنَّمَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ الْحَقُّ كَمَنْ هُوَ أَعْمَىٰ ۚ إِنَّمَا يَتَذَكَّرُ أُولُو الْأَلْبَابِ ﴿١٩﴾﴾

**19. Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi? Bundan ancaq ağıl sahibləri ibrət alarlar.**

Uca Allah bu ayədə buyurur ki, ey Muhəmməd, insanlardan "**Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə**" ilə kor eyni deyil. Sənə nazil olanda heç bir şəkk-şübhə, anlaşılmazlıq və ziddiyyət yoxdur. Onun hamısı haqdır. Bir qismi digər qismini təsdiqləyir, heç bir qismi digər qismi ilə ziddiyyət təşkil etmir. Bütün xəbərləri doğrudur, əmrləri və qadağaları ədalətlidir. Uca Allah başqa bir ayədə belə buyurur: "**Rəbbinin Kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır**" ("əl-Ənam", 115). Yəni xəbərləri doğru, buyurduqları ədalətlidir. Ey Muhəmməd! Sənin gətirdiklərinin doğruluğunu yəqinliklə bilən şəxslə, xeyirə çata bilməyən və onu anlamayan kor eyni deyil. Hətta onu anlasaydı belə, ona boyun əyməz, onu təsdiqləməz və ona tabe olmazdı. Uca Allah başqa bir ayədə belə buyurur: "**Cəhənnəm əhli ilə Cənnət əhli eyni deyillər. Məhz Cənnət əhli uğur qazananlardır**" ("əl-Həşr", 20). Bu ayədə isə belə buyurur: "**Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi?**" Yəni bu, digəri ilə eynidirmi? Aralarında heç bir bərabərlik yoxdur. "**Bundan ancaq ağıl sahibləri ibrət alarlar**", yəni yalnız sağlam və səlim ağıl sahibləri anlar, ibrət alar və nəsihəti qəbul edərlər. Uca Allah bizi də onlardan etsin!

﴿الَّذِينَ يُوفُونَ بِعَهْدِ اللَّهِ وَلَا يَنقُضُونَ الْمِيثَاقَ ﴿٢٠﴾ وَالَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَن يُوصَلَ وَيَخْشَوْنَ رَبَّهُمْ وَيَخَافُونَ
سُوءَ الْحِسَابِ ﴿٢١﴾ وَالَّذِينَ صَبَرُوا ابْتِغَاءَ وَجْهِ رَبِّهِمْ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً وَيَدْرَءُونَ
بِالْحَسَنَةِ السَّيِّئَةَ أُولَٰئِكَ لَهُمْ عُقْبَى الدَّارِ ﴿٢٢﴾ جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَن صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ ۖ وَالْمَلَائِكَةُ
يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ ﴿٢٣﴾ سَلَامٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ ۚ فَنِعْمَ عُقْبَى الدَّارِ ﴿٢٤﴾﴾

**20. O kəslər ki, Allaha verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar.**

**21. O kəslər ki, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur (qohumluq və qardaşlıq əlaqələrini möhkəmlədir), Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər.**

**22. O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu –**

**23. əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn cənnətləri hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olub deyəcəklər:**

**24. “Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!”**



Uca Allah bu ayələrdə zikr olunan gözəl vəsflərə sahib olanlar barədə xəbər verərək onların dünya və Axirətdə gözəl aqibətə nail olacaqlarını, onlara yardım ediləcəyini bildirir. “**O kəslər ki, Allaha verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar**”, yəni onlar əhd bağladığı zaman əhdini pozan, mübahisə etdiyi zaman haqsızlıq edən, danışdıqda yalan danışan, əmanət verildikdə ona xəyanət edən münafiqlər kimi deyillər. “**O kəslər ki, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur**”, yəni qohumluq əlaqələrini möhkəmlədir, qohumlara, kasıblara və ehtiyac içində olanlara yaxşılıq edir, “**Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər**”, yəni etdikləri və etmədikləri əməllərdə Rəbbindən qorxar, bu xüsuslarda Allahın haqlarına riayət edər və Axirət yurdunda pis haqq-hesabdan qorxarlar. Bu səbəbdən Uca Allah onlara həm özlərinə, həm də başqalarına qarşı olan bütün davranışlarda, hallarda dürüst və doğru olmağı əmr etmişdir. “**O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir**”, yəni haramlara və günahlara qarşı səbir edir, Allah üçün, Onun razılığına və savabına nail olmaq üçün nəfslərini bu şeylərdən uzaq tutur, “**namaz qılır**”, yəni Allahın razı qalacağı, şəriətin buyurduğu şəkildə, vaxtlı-vaxtında, vaciblərinə, rükusuna, səcdəsinə, xuşusuna riayət etməklə namaz qılır, “**onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir**”, yəni onlara verdiyimiz ruzidən sərf edilməsi vacib olan şəxslərə – zövcəsinə, qohumlarına, kənar insanlara, möhtac olanlara və yoxsullara xərcləyirlər. “**...gizli və aşkar**”, yəni həm gizlində, həm də aşkarda, gecə-gündüz, istənilən halda xərcləyirlər “**və pisliyi yaxşılıqla dəf edirlər**”, yəni pisliyə yaxşılıqla qarşılıq verirlər. Kimsə onlara əziyyət verərsə, ona səbirlə, dözümlə, bağışlamaqla və əfv etməklə qarşılıq verirlər. Uca Allah başqa bir ayədə belə buyurur: “**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur**” (“Fussilət”, 34-35). Uca Allah bu gözəl vəsflərə sahib olan xoşbəxt insanlar barədə xəbər verərək onları Axirət yurdu gözlədiyini bildirir. Daha sonra bu gözəl yurdu açıqlayaraq

"**Ədn cənnətləri**" – deyə buyurur. "Ədn" sözünün mənası "daimi yaşamaq", "qalmaq" deməkdir. Yəni onlara içində əbədi qalacaqları, daimi yaşayacaqları Cənnətlər hazırlanmışdır.

Uca Allah buyurur: "**...əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn cənnətləri hazırlanmışdır**", yəni Uca Allah gözləri aydın olsun deyə, atalarından, ailələrindən, övladlarından iman gətirib Cənnətə layiq olan sevdiklərini də onlara qovuşduracaq. Belə ki, Uca Allah bir nemət və lütf olaraq yüksək mərtəbəyə nail olanın dərəcəsini azaltmayacaq, aşağı mərtəbədə olanı yuxarı mərtəbəyə yüksəldəcək. Uca Allah başqa bir ayədə belə buyurur: "**Möminlərin imanda onların arxasınca gedən nəsillərini də Cənnətdə özlərinə qovuşduracağıq. Onların əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs qazandığının girovudur**" ("ət-Tur", 21).

Uca Allah buyurur: "**Mələklər bütün qapılardan onların yanına daxil olub deyəcəklər: "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!**" Yəni mələklər hər tərəfdən onların yanına daxil olub Cənnətə girdikləri üçün onları təbrik edəcəklər. Onlar Cənnətə daxil olduqda mələklər dəstə-dəstə yanlarına gəlib onlara salam verər, Uca Allahın onları Özünə yaxınlaşdırıb nemət verərək, siddiqlərin və möhtərəm peyğəmbərlərin qonşuluğunda, əmin-amanlıq yurdunda əbədi həyat bəxş etməsi münasibətilə onları təbrik edərlər.

İmam Əhməd ﷺ Abdullah ibn Amr ibn əl-Asdan ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Allahın yaratdıqlarından Cənnətə birinci kimin daxil olacağını bilirsinizmi?" Səhabələr dedilər: "Allah və Onun Elçisi daha yaxşı bilir!" O buyurdu: "Allahın yaratdıqlarından Cənnətə birinci daxil olan yoxsullar və bütün yolları bağlanmış biçarə hicrət edənlərdir. Onların düçar olduqları çətin vəziyyət insanları qorxuya salır, istəkləri ürəklərində qalır və məqsədlərinə çatmadan ölürlər. Allah ﷻ mələklərdən istədiyinə buyuracaq: "Onların yanına gedin və onları salamlayın!" Mələklər deyəcəklər: "Biz səmanın sakinləri və yaratdıqlarından Sənin seçdiklərinik. Sən bizə əmr edirsən ki, biz bunların yanına gedib onlara salam verək?" Allah buyuracaq: "Onlar Mənə ibadət edib Mənə heç bir şeyi şərik qoşmayan və bütün yolları bağlanmış biçarə bəndələrdir. Onların düçar olduqları çətin vəziyyət insanları qorxuya salmış, istəkləri ürəklərində qalmış və məqsədlərinə çatmadan ölmüşlər". Bundan sonra mələklər onların yanına gəlib Cənnətin hər bir qapısından girərək deyəcəklər: "**Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!**" [1]

[1] Əhməd, 6282, 6570, 6727. Hədis səhihdir. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 3183.

﴿وَٱلَّذِينَ يَنقُضُونَ عَهۡدَ ٱللَّهِ مِنۢ بَعۡدِ مِيثَٰقِهِۦ وَيَقۡطَعُونَ مَآ أَمَرَ ٱللَّهُ بِهِۦٓ أَن يُوصَلَ وَيُفۡسِدُونَ فِي ٱلۡأَرۡضِ
أُوْلَٰٓئِكَ لَهُمُ ٱللَّعۡنَةُ وَلَهُمۡ سُوٓءُ ٱلدَّارِ ٢٥﴾

**25. Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır.**

Bu, bədbəxt insanların halı və vəsfləridir. Onlar dünyada möminlərin sahib olduqları vəsflərin əksinə sahib olduqları kimi, Axirət yurdunda da onların halı və düşəcəkləri yer möminlərin halına və düşəcəkləri yerə əks olacaq. Möminlər Allaha verdikləri sözü yerinə yetirən, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşduran kəslərdir. Bunlar isə “**Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad**” törədən kəslərdir. Bir hədisdə belə deyilir: “Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar; vəd verdiyi zaman vədinə xilaf çıxar; ona əmanət verildiyi zaman əmanətə xəyanət edər”.[1] Bir rəvayətdə isə belə deyilir: “Əhd bağladığı zaman əhdini pozar; mübahisə etdiyi zaman haqsızlıq edər”.[2]

Bu səbəbdən Uca Allah ayənin sonunda “**...onlar üçün lənət**”, yəni rəhmətdən uzaqlaşdırılmaq “**və pis yurd vardır**”, yəni pis aqibət və pis dönüş vardır. Onların gedəcəkləri yer Cəhənnəm olacaq. Ora necə də pis yaşayış yeridir. Əbul-Aliyə ﵀ Uca Allahın “**Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır**” ayəsi barədə belə demişdir: “Bunlar münafiqlərdəki altı xislətdir. Onlar insanlara qarşı güclü olduqda bu xislətlərini biruzə verərlər; danışdıqları zaman yalan danışar, vəd verdikləri zaman vədlərinə xilaf çıxar, onlara əmanət verildiyi zaman ona xəyanət edər, Allahla əhd bağladıqdan sonra onu pozar, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsər və yer üzündə fitnə-fəsad törədərlər. Əgər insanlar onlara qarşı güclü olarsa, bu üç xisləti biruzə verərlər; danışdıqları zaman yalan danışar, vəd verdikləri zaman vədlərinə xilaf çıxar, onlara əmanət verildiyi zaman ona xəyanət edərlər”.[3]

---

1 əl-Buxari, 33; Muslim, 89, 220.

2 əl-Buxari, 34; Muslim, 88, 219.

3 İbn Əbu Hatim, 288.

﴿ٱللَّهُ يَبْسُطُ ٱلرِّزْقَ لِمَن يَشَآءُ وَيَقْدِرُ ۚ وَفَرِحُوا۟ بِٱلْحَيَوٰةِ ٱلدُّنْيَا وَمَا ٱلْحَيَوٰةُ ٱلدُّنْيَا فِى ٱلْـَٔاخِرَةِ إِلَّا مَتَٰعٌ ٢٦﴾

**26. Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.**

Uca Allah bu ayədə bildirir ki, O istədiyinin ruzusuni bol edər, istədiyinin ruzisini isə azaldar. Bunda Onun hikməti və ədaləti vardır. Kafirlər isə dünyada küfrlərini tədricən artırsınlar deyə onlara verilən möhlətə görə sevinirlər. Uca Allah başqa bir ayədə belə buyurur: “**Yoxsa günahkarlar elə hesab edirlər ki, onlara var-dövlət və övlad verməklə onlara yaxşılıq etməyə tələsirik? Xeyr, onlar bu işin fərqinə varmırlar**” (“əl-Muminun”, 55-56).

Sonra Uca Allah Axirətdə mömin qulları üçün hazırladığı nemətlərə nisbətən dünya həyatının alçaq və dəyərsiz olduğunu bildirərək belə buyurur: “**Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür**”. Başqa ayələrdə belə buyurur: “**De: “Dünyanın ləzzəti azdır. Müttəqilər üçün isə Axirət daha xeyirlidir. Sizə xurma çəyirdəyindəki lif qədər belə haqsızlıq edilməz**” (“ən-Nisa”, 77); “**Xeyr, siz dünya həyatını olduqca üstün tutursunuz; Axirət isə daha xeyirli və daha baqidir**” (“əl-Əla”, 16-17). İmam Əhməd ﷀ Bənu Fəhr qəbiləsindən olan Mustəvriddən ؓ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ şəhadət barmağını göstərərk belə dedi: “Axirətə nisbətdə dünyanın məsəli sizlərdən birinin bu barmağını dənizə salmasına bənzəyir. Bir baxsın barmağı dənizdən nə götürəcək!”[1] Hədisi Muslim ﷀ də rəvayət etmişdir. Başqa bir hədisdə rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ qulaqları kiçik bir oğlaq leşinin yanından keçərkən belə dedi: “Allaha and olsun ki, bu leşi bura atdıqda sahiblərinə nə qədər dəyərsiz idisə, Allah üçün dünya ondan da dəyərsizdir”.[2]

[1] Əhməd, 18008, 18037, 18171; Muslim, 5101, 7376.
[2] Muslim, 5257, 7607.

﴿وَيَقُولُ ٱلَّذِينَ كَفَرُواْ لَوۡلَآ أُنزِلَ عَلَيۡهِ ءَايَةٞ مِّن رَّبِّهِۦۚ قُلۡ إِنَّ ٱللَّهَ يُضِلُّ مَن يَشَآءُ وَيَهۡدِيٓ إِلَيۡهِ مَنۡ أَنَابَ ٢٧ ٱلَّذِينَ
ءَامَنُواْ وَتَطۡمَئِنُّ قُلُوبُهُم بِذِكۡرِ ٱللَّهِۗ أَلَا بِذِكۡرِ ٱللَّهِ تَطۡمَئِنُّ ٱلۡقُلُوبُ ٢٨ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ طُوبَىٰ لَهُمۡ
وَحُسۡنُ مَـَٔابٖ ٢٩﴾

**27. Kafir olanlar deyirlər: “Məgər Rəbbindən ona bir dəlil endirilməli deyildimi?” De: “Şübhəsiz ki, Allah istədiyini azdırır. Tövbə edib Ona üz tutan kimsəni isə doğru yola yönəldir”.**

**28. Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır.**

**29. İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır.**

Uca Allah müşriklərin belə dediklərini xəbər verir: “**Məgər Rəbbindən ona bir dəlil endirilməli deyildimi?**” Həmçinin belə deyirdilər: “**Qoy o, əvvəlki elçilərə göndərilən dəlillər kimi bizə də bir dəlil gətirsin!**” (“əl-Ənbiya”, 5). Bu barədə daha əvvəl dəfələrlə bəhs etmişik və bildirmişik ki, həqiqətən, Uca Allah onların bu istəklərini yerinə yetirməyə qadirdir. Bir hədisdə belə deyilir: “Müşriklər Peyğəmbərdən ﷺ Səfa dağını qızıla çevirməsini, onlar üçün çaylar axıtmasını, Məkkə ətrafındakı dağları yox edib onları otlaqlar və bağçalarla əvəz etməsini istədikdə, Uca Allah Öz Elçisinə ﷺ belə buyurdu: “Ey Muhəmməd! İstəyirsənsə, bu istədiklərini onlara verim, lakin bundan sonra aralarından kafir olanlara aləmlərdən heç bir kəsə vermədiyim əzabı verəcəyəm. Yaxud istəyirsənsə, onlar üçün tövbə və rəhmət qapısını açım”. Peyğəmbər ﷺ buyurdu: “Ey Rəbbim, tövbə və rəhmət qapısını onların üzünə aç!”[1]

Bu səbəbdən Uca Allah Elçisinə ﷺ “**De: “Şübhəsiz ki, Allah istədiyini azdırır. Tövbə edib Ona üz tutan kimsəni isə doğru yola yönəldir**” – deyə buyurmuşdur. Yəni fərq etməz, istər Uca Allah onların istəyini qəbul edib Peyğəmbərə ﷺ möcüzə versin, istərsə də qəbul etməsin, hər iki halda azdıran da, doğru yola yönəldən də Odur. Hidayət və zəlalət Uca Allahın onların istəklərini qəbul edib-etməməsindən asılı deyil. Uca Allah başqa ayələrdə belə buyurur: “**Lakin iman gətirməyən adamlara dəlillər və xəbərdarlıqlar heç bir fayda vermir**” (“Yunus”, 101); “**Həqiqətən, əleyhlərinə Rəbbinin Sözü doğru çıxmış kimsələr iman gətirməzlər. Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə, iman**

[1] Əhməd, 2166. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 3388.

**gətirməzlər**" ("Yunus", 96-97); "**Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah istəməyincə, onlar iman gətirməzdilər. Lakin onların çoxu bunu bilmir**" ("əl-Ənam", 111). Bu səbəbdən Uca Allah burada belə buyurur: "**De: "Şübhəsiz ki, Allah istədiyini azdırır. Tövbə edib Ona üz tutan kimsəni isə doğru yola yönəldir**", yəni Allah Ona yönələn, Ona dönən, Ondan yardım diləyən və Ona boyun əyərək yalvaranı doğru yola yönəldir.

"**Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır**", yəni onlar Allaha tərəf meyil edib qəlbləri Onunla xoş olan, Onu zikr etdikdə rahatlıq tapan, himayədar və yardımçı olan Allahdan razı qalanlardır. "**Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır**", yəni Allah, həqiqətən, buna layiqdir.

"**İman gətirib saleh əməllər edənlər üçün xoş güzəran və gözəl qayıdış yeri hazırlanmışdır**". İbn Abbas ﵄ bu ayənin təfsirində belə demişdir: "Yəni onlar üçün fərəh və gözlərinə sevinc gətirəcək nemətlər vardır".[1] İkrimə ﵀ demişdir: "Yəni onlara veriləcək nemətlər necə də gözəldir!" əd-Dahhək ﵀ demişdir: "Yəni onlar üçün ləzzətlər vardır".[2] İbrahim ən-Nəxai ﵀ demişdir: "Yəni onlar üçün ən xeyirli nemətlər vardır".[3] Qatədə ﵀ demişdir: "Ayədə keçən طُوبَى لَهُمْ [tu:bə ləhum] "**xoş güzəran**" gözəlliklər, حُسْنُ مَئَاب [husnu məə:b] "**gözəl qayıdış yeri**" isə gözəl dönüş deməkdir".[4] Bütün bu rəylər eyni mənadadır və aralarında heç bir ziddiyyət yoxdur.

Şəhr ibn Həuşəb ﵀ demişdir: "Ayədə keçən طُوبَى [tu:bə] "Tubə" sözü Cənnətdə bir ağacın adıdır. Cənnətin bütün ağacları ondan şaxələnir. Onun budaqları Cənnət divarlarının arxasına qədər uzanır".[5] Əbu Hureyra, İbn Abbas və bir çox sələflərdən rəvayət edildiyinə görə "Tubə" Cənnətdə bir ağacdır. Cənnətdə olan hər evə onun bir budağı uzanır.

İmam Əhməd ﵀ Əbu Səid əl-Xudridən ﵁ rəvayət etmişdir ki, bir dəfə bir kişi Peyğəmbərə ﷺ dedi: "Ey Allahın Elçisi, səni görən və sənə iman gətirən adama Tubə nəsib olsun (və ya xoş halına)". Peyğəmbər ﷺ dedi: "Məni görən və mənə iman gətirənə Tubə nəsib olsun! Məni görmədən mənə iman gətirənə isə Tubə nəsib olsun, sonra yenə Tubə nəsib olsun,

[1] ət-Təbəri, 20369, 20458.
[2] ət-Təbəri, 20365-20366, 20454-20455.
[3] ət-Təbəri, 20372, 20461
[4] ət-Təbəri, 39207.
[5] ət-Təbəri, 20375, 20474.

sonra yenə Tubə nəsib olsun!” Kişi soruşdu: “Tubə nədir?” Peyğəmbər ﷺ dedi: “Cənnətdə uzunluğu yüz illik məsafəyə bərabər olan bir ağacdır. Cənnət əhalisinin paltarları onun qabıqlarından olacaq”.[1]

əl-Buxari və Muslim ﵏ Səhl ibn Səddən ﵁ rəvayət etmişlər ki, Peyğəmbər ﷺ demişdir: “Cənnətdə elə bir ağac vardır ki, atlı onun kölgəsində yüz il yol gedəcək, amma onu qət edə bilməyəcək”. Ravi demişdir: “Mən bu hədisi Noman ibn Əbu Ayyaş əz-Zəraqiyə danışdım. O dedi: “Mənə Əbu Səid əl-Xudri ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: “Cənnətdə elə bir ağac var ki, sürətli yarış atına minmiş bir atlı yüz il çapacaq, amma onu qət edə bilməyəcək”.[2] əl-Buxarinin “Səhih” əsərində Ənəsdən ﵁ rəvayət edilir ki, Peyğəmbər ﷺ Uca Allahın “**(Sağ tərəf sahibləri) ... uzanmış kölgəliklərdə... (olacaqlar)**” (“əl-Vaqiə”, 30) ayəsi barədə belə demişdir: “Cənnətdə elə bir ağac vardır ki, atlı onun kölgəsində yüz il yol gedəcək, amma onu qət edə bilməyəcək”.[3]

Muslimin “Səhih” əsərində Əbu Zərdən ﵁ rəvayət edilir ki, Peyğəmbər ﷺ Uca Allahın belə buyurduğunu bildirmişdir: “Ey Mənim qullarım! Sizdən əvvəlkilər və sonrakılar, insanlarınız və cinləriniz bir yerə toplanıb Məndən istəsələr, Mən də onların hər birinin istədiyini versəm, bu, Mənim mülkümdən yalnız dəryaya batırılan iynənin əskiltdiyi qədər əskildər. Ey Mənim qullarım! Bu sizin əməllərinizdir. Onları sizin üçün hesaba alıram, sonra əvəzini verəcəyəm. Odur ki, kim xeyir tapsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey tapsa, özündən başqa heç kəsi qınamasın”.[4]

﴿ كَذَٰلِكَ أَرْسَلْنَٰكَ فِىٓ أُمَّةٍ قَدْ خَلَتْ مِن قَبْلِهَآ أُمَمٌ لِّتَتْلُوَا۟ عَلَيْهِمُ ٱلَّذِىٓ أَوْحَيْنَآ إِلَيْكَ وَهُمْ يَكْفُرُونَ بِٱلرَّحْمَٰنِ ۚ قُلْ هُوَ رَبِّى لَآ إِلَٰهَ إِلَّا هُوَ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ مَتَابِ ﴿٣٠﴾ ﴾

**30. Beləliklə, Biz səni özündən əvvəl neçə-neçə ümmətlər gəlib getmiş bir ümmətə göndərdik ki, onlar Mərhəmətli Allahı inkar etdikləri halda sənə vəhy etdiyimizi onlara oxuyasan. De: “O, mənim Rəbbimdir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Mən yalnız Ona təvəkkül edir və Ona üz tutub tövbə edirəm”.**

---

[1] Əhməd, 11673, 11691. Hədis səhihdir. Bax: Silsilə əs-Səhihə, 1985.
[2] əl-Buxari, 3012, 3251.
[3] əl-Buxari, 3013, 3552; Muslim, 5055, 7316.
[4] Muslim, 4674, 6737.

Uca Allah bu ayədə buyurur ki, ey Muhəmməd, Allahı inkar edən keçmiş ümmətlərə peyğəmbərlər göndərdiyimiz kimi, səni də bu ümmətə göndərdik ki, “**sənə vəhy etdiyimizi onlara oxuyasan**”, yəni Allahın dinini onlara çatdırasan. Səndən əvvəlki peyğəmbərləri də yalançı saymışlar. Onlar sənin üçün gözəl bir nümunədir. Onların üzərinə əzabımızı endirdik. Qoy bunlar da üzərlərinə əzabımızın enməsindən qorxsunlar. Həqiqətən, onların səni yalançı saymaları, digər peyğəmbərlərin yalançı sayılmasından daha şiddətlidir. Uca Allah başqa ayələrdə belə buyurur: “**Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə elçilər göndərmişdik. Şeytan isə o kafir ümmətlərin əməllərini özlərinə gözəl göstərmişdi. Şeytan bu gün də onların dostudur. Onlar üçün ağrılı-acılı bir əzab vardır**” (“ən-Nəhl”, 63); “**Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbir etdilər. Heç kəs Allahın kəlmələrini dəyişə bilməz. Artıq peyğəmbərlərə aid bəzi xəbərlər sənə gəlib çatdı**” (“əl-Ənam”, 34), yəni peyğəmbərlərə necə kömək etməyimiz, onlara və onlara tabe olanlara dünya və axirətdə gözəl aqibət nəsib etməyimiz barədə xəbərlər sənə gəlib çatdı.

Uca Allah buyurur: “**...onlar Mərhəmətli Allahı inkar etdikləri halda**”, yəni səni elçi göndərdiyimiz bu ümmət Mərhəmətli Allahı inkar edir, Onu təsdiqləmirlər. Çünki onlar Uca Allahın Mərhəmətli və Rəhmli olaraq vəsf edilməsini qəbul etmirdilər. Məhz buna görə müşriklər Hudeybiyyə sülhü bağlanan gün müqavilədə “Mərhəmətli və Rəhmli Allahın adı ilə” cümləsinin yazılmasını qəbul etmədilər və “Mərhəmətli və Rəhmli nədir? Biz bunu bilmirik?” – dedilər. Bu rəvayət Qatədədən ﷺ nəql olunur. Hədis əl-Buxarinin “Səhih” əsərindədir.[1] Uca Allah buyurur: “**De: “İstər Allah deyib çağırın, istərsə də ər-Rahmən deyib çağırın. Necə çağırsanız da, hər halda ən gözəl adlar Ona məxsusdur**” (“əl-İsra”, 110). Muslimin “Səhih” əsərində Abdullah ibn Ömərdən رضي الله عنهما rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: “Allaha ən sevimli adlar Abdullah və Abdur-Rahmən adlarıdır”.[2]

[1] əl-Buxari, 2529, 2731-2732. Hədis belədir: “Suheyl ibn Amr Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Gəl bizimlə sizin aranızda (on illik) sülh müqaviləsi bağlayaq!” Peyğəmbər ﷺ katibini çağırıb müqaviləni yazmağı ona əmr edib dedi: “Yaz! Mərhəmətli, Rəhmli Allahın adı ilə!” Suheyl ibn Amr dedi: “ər-Rahmənə gəldikdə isə Allaha and olsun ki, mən onu tanımıram! Biz bir vaxtlar yazdığımız kimi yaz: “Allahım, Sənin adınla başlayıram!” Bu vaxt müsəlmanlar “Allaha and olsun ki, biz yalnız “Bismilləhir-Rahmənir-Rahim!” yazacağıq!” – deyə etiraz etdilər. Peyğəmbər ﷺ isə katibinə əmr edib dedi: “Yaz! Allahım, Sənin adınla başlayıram! Bu, Allahın elçisi Muhəmmədin bağladığı sülh müqaviləsidir...”.

[2] Muslim, 3975, 5709.

Uca Allah buyurur: "**De: "O, mənim Rəbbimdir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur**", yəni mən sizin inkar etdiyiniz Allaha iman gətirmişəm. Onun Rəbb və haqq məbud olduğunu təsdiqləyir və etiraf edirəm. O mənim Rəbbimdir, Ondan başqa ibadətə layiq olan məbud yoxdur. "**Mən yalnız Ona təvəkkül edir**", yəni bütün işlərimdə tək Ona təvəkkül edirəm "**və Ona üz tutub tövbə edirəm**", yəni mən yalnız Ona üz tuturam, çünki Ondan başqa heç kəs buna layiq deyil!

﴿وَلَوۡ أَنَّ قُرۡءَانٗا سُيِّرَتۡ بِهِ ٱلۡجِبَالُ أَوۡ قُطِّعَتۡ بِهِ ٱلۡأَرۡضُ أَوۡ كُلِّمَ بِهِ ٱلۡمَوۡتَىٰۗ بَل لِّلَّهِ ٱلۡأَمۡرُ جَمِيعًاۗ أَفَلَمۡ يَاْيۡـَٔسِ
ٱلَّذِينَ ءَامَنُوٓاْ أَن لَّوۡ يَشَآءُ ٱللَّهُ لَهَدَى ٱلنَّاسَ جَمِيعٗاۗ وَلَا يَزَالُ ٱلَّذِينَ كَفَرُواْ تُصِيبُهُم بِمَا صَنَعُواْ قَارِعَةٌ أَوۡ
تَحُلُّ قَرِيبٗا مِّن دَارِهِمۡ حَتَّىٰ يَأۡتِيَ وَعۡدُ ٱللَّهِۚ إِنَّ ٱللَّهَ لَا يُخۡلِفُ ٱلۡمِيعَادَ ٣١﴾

**31. Əgər oxunan bir kitabla dağlar hərəkətə gətirilsəydi və ya onunla yer parçalansaydı və yaxud da onun sayəsində ölülər danışsaydılar, o kitab yenə bu Quran olardı. Lakin bütün işlər Allaha məxsusdur. İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi? Allahın vədi gəlincəyə qədər etdikləri əməllərə görə kafir olanlara müsibət üz verməkdə davam edəcək və ya onların yurdunun yaxınlığında dayanacaqdır. Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz.**

Uca Allah bu ayədə Muhəmmədə ﷺ nazil etdiyi Quranı tərifləyib, onun özündən əvvəl nazil olmuş digər səmavi kitablardan üstün olduğunu bildirərək belə buyurur: "**Əgər oxunan bir kitabla dağlar hərəkətə gətirilsəydi və ya onunla yer parçalansaydı və yaxud da onun sayəsində ölülər danışsaydılar, o kitab yenə bu Quran olardı**", yəni əgər keçmiş kitablar içində dağları yerindən tərpədən və ya yer üzünü yarıb parçalayan, yaxud onun vasitəsilə qəbirlərdə olan ölüləri danışdıran bir kitab olsaydı, yenə də bu xüsusiyyətlərə sahib Quran olardı və ya Quran belə bir kitab olmağa daha layiq olardı. Çünki Quranda elə bir ecazkarlıq var ki, insanlar və cinlər bir yerə toplaşsalar belə, ona bənzər bir kitab və ya orada olan bir surəyə bənzər surə gətirə bilməzlər. Buna baxmayaraq müşriklər onu inkar edirlər. "**Lakin bütün işlər Allaha məxsusdur**", yəni bütün işlərin dönüşü Allahadır. Allahın istədiyi olar, istəmədiyi isə olmaz. Allah kimi doğru yoldan azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Kimə də hidayət bəxş etmişsə, onu heç kim azdıra bilməz. Bəzən əvvəlki kitablara da "Quran" deyilir. Çünki "Quran" sözünün düzəldiyi

"cəm etmək" feili onlara da aiddir.[1] İmam Əhməd ﷬ Əbu Hureyradan ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə demişdir: "Quranı (Zəburu) oxumaq Davuda asanlaşdırılmışdı. Çox vaxt o, atların yəhərlənməsini əmr edər və atlar yəhərlənməmişdən əvvəl Quranı (Zəburu) oxuyub bitirərdi. O ancaq öz əlləri ilə qazandığı ruzidən yeyərdi". Hədisi əl-Buxari ﷬ də rəvayət etmişdir.[2] Burada "Quran" deyildikdə "Zəbur" nəzərdə tutulur.

Uca Allah buyurur: "**İman gətirənlər hələ bilmirlərmi ki**", yəni möminlər bütün insanların iman gətirməyəcəklərini hələ anlamadılarmı və ya onlara hələ aydın olmadımı ki, "**əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi?**" Çünki ağıllara və qəlblərə Qurandan daha çox təsir edən böyük bir möcüzə və dəlil yoxdur. O Quran ki, əgər Uca Allah onu dağa nazil etsəydi bu dağın Allahın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. "Səhih" əsərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Peyğəmbərlərin içərisində elə bir peyğəmbər olmamışdır ki, ona bəşəriyyətin inandığı möcüzələrdən biri və ya daha çoxu verilmiş olmasın. Mənə verilmiş möcüzə isə Allahın mənə vəhy etdiyi Qurandır. Odur ki, Qiyamət günü mənim ardıcıllarımın onların hamısından çox olacağına ümid edirəm".[3] Hədisin mənası belədir: hər bir peyğəmbərin möcüzəsi onun ölümü ilə sona çatmışdır. Bu Quran isə daimi qalacaq bir hüccətdir. Onun kəramətləri sona çatmaz, bitməz, çox oxunmaqla köhnəlməz. Alimlər onu oxumaqdan doymaz. O, haqqı batildən ayırd edən bir kəlamdır, əsla bir əyləncə deyil. Hansı zalım onu tərk etmişsə, Allah onun belini qırmışdır. Kim ondan başqasında hidayət axtarmışsa, Allah onu azdırmışdır.

Uca Allah buyurur: "**Allahın vədi gəlincəyə qədər etdikləri əməllərə görə kafir olanlara müsibət üz verməkdə davam edəcək və ya onların yurdunun yaxınlığında dayanacaqdır**", yəni dini yalan saydıqlarına görə onların başına dünyada davamlı bəlalar gələcək və ya öyüd alıb ibrət götürsünlər deyə bəla onların ətrafına gələcək. Uca Allah başqa ayələrdə belə buyurur: "**Biz sizin ətrafınızda olan kəndləri məhv etdik. Biz ayələri onlara müxtəlif cür izah etdik ki, bəlkə küfrdən əl çəkələr**" ("əl-Əhqaf", 27); "**Bəli, Biz onlara və atalarına ömürləri boyunca xoş güzəran verdik. Məgər onlar Bizim gəlib müşriklərə aid ərazini hər tərəfdən**

[1] "Quran" sözü قَرَأَ [qaraə] feilindən düzəlib. Bu feil iki mənada işlənir: "oxumaq" və "cəm etmək". Bəzi alimlər "Quran" sözünün birinci mənadan düzəlib "oxunan kitab" mənasını, bəzi alimlər isə ikinci mənadan düzəlib "cəm edən" mənasını verdiyini bildirmişlər. Görünür İbn Kəsir ﷬ ikinci rəydədir.

[2] əl-Buxari, 3164, 3417; Əhməd, 8145.

[3] əl-Buxari, 4598, 4981; Muslim, 217, 402.

**əskiltdiyimizi görmürlərmi? Doğrudanmı onlar qalib gələcəklər?!"** ("əl-Ənbiya", 44). əl-Həsən ﵀ demişdir: "**...və ya onların yurdunun yaxınlığında dayanacaqdır**", yəni müsibət gəlib onların yurdunun yaxınlığında dayanacaqdır".[1] Ayənin məzmunundan da bu görünür. "**Allahın vədi gəlincəyə qədər**", yəni Məkkənin fəthi gəlincəyə qədər. əl-Həsən əl-Bəsri ﵀ isə burada Qiyamət gününün nəzərdə tutulduğunu demişdir.

Uca Allah buyurur: "**Şübhəsiz ki, Allah vədinə xilaf çıxmaz**", yəni peyğəmbərlərinə və onlara tabe olanlara dünya və Axirətdə yardım edəcəyinə dair verdiyi vədini pozmaz. "**Allahın Öz elçilərinə verdiyi vədə xilaf çıxacağını sanma. Həqiqətən, Allah Qüdrətlidir, intiqam almağa qadirdir**" ("İbrahim", 47).

﴿وَلَقَدِ ٱسْتُهْزِئَ بِرُسُلٍ مِّن قَبْلِكَ فَأَمْلَيْتُ لِلَّذِينَ كَفَرُوا۟ ثُمَّ أَخَذْتُهُمْ ۖ فَكَيْفَ كَانَ عِقَابِ ٣٢﴾

**32. Səndən əvvəlki elçilərə də istehza edilmişdi. Mən kafirlərə möhlət verdim, sonra isə onları yaxaladım. Görəydin onları cəzalandırmağım necə oldu!**

Uca Allah bu ayədə Öz Elçisinə ﷺ qövmündən onu yalançı sayanlara görə təsəlli verərək belə buyurur: "**Səndən əvvəlki elçilərə də istehza edilmişdi**", yəni onlar sənin üçün gözəl bir nümunədir. "**Mən kafirlərə möhlət verdim**", yəni onlara müəyyən vaxtadək möhlət verdim "**sonra isə onları yaxaladım**", yəni şiddəti artan bir əzabla yaxaladım. Onları cəzalandırmağım və aqibətləri sənə necə çatdı? Uca Allah başqa bir ayədə belə buyurur: "**Neçə-neçə şəhərə, əhalisi zülm edərkən möhlət verdim, sonra onları əzabla yaxaladım. Dönüş də ancaq Mənədir!**" ("əl-Həcc", 48). əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət olunan bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Allah zalıma müəyyən vaxtadək möhlət verər. Nəhayət, onu yaxaladıqdan (sonra heç vaxt) onu buraxmaz". Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "**Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun yaxalaması həqiqətən də, üzücüdür, şiddətlidir**" ("Hud", 102)".[2]

---

[1] ət-Təbəri, 20437, 20530.

[2] əl-Buxari, 4318, 4686; Muslim, 4680, 6746.

﴿أَفَمَنْ هُوَ قَآئِمٌ عَلَىٰ كُلِّ نَفْسٍۭ بِمَا كَسَبَتْ ۗ وَجَعَلُوا۟ لِلَّهِ شُرَكَآءَ قُلْ سَمُّوهُمْ ۚ أَمْ تُنَبِّـُٔونَهُۥ بِمَا لَا يَعْلَمُ فِى ٱلْأَرْضِ
أَم بِظَٰهِرٍ مِّنَ ٱلْقَوْلِ ۗ بَلْ زُيِّنَ لِلَّذِينَ كَفَرُوا۟ مَكْرُهُمْ وَصُدُّوا۟ عَنِ ٱلسَّبِيلِ ۗ وَمَن يُضْلِلِ ٱللَّهُ فَمَا لَهُۥ مِنْ هَادٍ ﴿٣٣﴾﴾

**33. Hər kəsin qazandığını qoruyub saxlayan Allah, buna qadir olmayan bütlər kimi ola bilərmi? Müşriklər isə Allaha şəriklər qoşurlar. De: "Onların adlarını söyləyin! Yoxsa siz, Allaha yer üzündə bilmədiyi şeyləri yaxud boş sözlərimi xəbər verirsiniz?" Doğrusu, kafirlərə öz hiylələri gözəl göstərildi və onlar doğru yoldan çıxarıldılar. Allah kimi azdırsa, onu doğru yola yönəldən olmaz.**

Uca Allah buyurur: "**Hər kəsin qazandığını qoruyub saxlayan Allah**", yəni Allah hər bir canlıya nəzarət edir, onun halını bilir və onu qoruyur, istər xeyir olsun, istər şər, əməl edənlərin nə etdiklərini bilir. Heç bir sirr Ona gizli qalmaz. Uca Allah başqa ayələrdə belə buyurur: "**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, onları etdiyiniz zaman Biz sizə şahid olarıq**" ("Yunus", 61); "**Qeybin açarları Onun yanındadır, onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur**" ("əl-Ənam", 59); "**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-Məhfuzdadır)**" ("Hud", 6); "**Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib-dolananlar da Allah üçün eynidirlər**" ("ər-Rad", 10); "**Sən ucadan danışsan da, danışmasan da fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir**" ("Ta ha", 7); "**Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür**" ("əl-Hədid", 4). Bu sifətlərə sahib olan Allah onların ibadət etdikləri eşitməyən, görməyən, dərk etməyən, nə özlərinə, nə də onlara ibadət edənlərə bir fayda verə bilən, nə özlərindən, nə də onlara ibaadət edənlərdən bir zərəri uzaqlaşdıra bilən bütlər kimidirmi? Ayənin məzmununun dəlalət ediyi məna ilə kifayətlənərək burada sualın cavabı verilməmişdir. Ayənin davamı belədir: "**Müşriklər isə Allaha şəriklər qoşurlar**", yəni onlar Allahla yanaşı, bütlərə ibadət edirlər.

"**De: "Onların adlarını söyləyin!**" Yəni onlar barədə bizə məlumat verin, onları bizə açıqlayın ki, bilinsinlər. Sözsüz ki, onlar həqiqət deyil. Bu səbəbdən Uca Allah "**Yoxsa siz Allaha yer üzündə bilmədiyi şeyləri yaxud boş sözlərimi xəbər verirsiniz?**" – deyə buyurur. Yəni onlar mövcud deyillər. Əgər yer üzündə mövcud olsaydılar, Uca Allah mütləq onları bilərdi, çünki heç bir sirr ona gizli qalmaz. "**...yaxud boş sözlərimi xəbər verirsiniz?**" Mucahid ﷺ demişdir: "Ayədə keçən بِظَاهِرٍ [biza:hirin] sözü "zənn" mənasındadır". əd-Dahhək və Qatədə ﷺ isə bu sözün "batil", "boş" mənalarında olduğunu demişlər.[1] Yəni siz bu bütlərin fayda və zərər verəcəyini yalnız zənn etdiyinizə görə onlara ibadət edirsiniz və onlara ilah adı vermisiniz. "**Onlar sizin və atalarınızın qoyduqları adlardan başqa bir şey deyil. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Onlar yalnız zənnə və nəfslərinin istəklərinə uyarlar. Halbuki Rəbbindən onlara doğru yolu göstərən rəhbər gəlmişdir**" ("ən-Nəcm", 23).

Uca Allah buyurur: "**Doğrusu, kafirlərə öz hiylələri gözəl göstərildi**". Mucahid ﷺ bu ayəni belə təfsir etmişdir: "Yəni kafirlərə dedikləri sözlər gözəl göstərildi".[2] Yəni kafirlərə düşdükləri zəlalət və bu zəlalətə gecə-gündüz dəvət etmələri gözəl göstərildi. Uca Allah başqa bir ayədə belə buyurur: "**Biz onlara fasiq dostlar qoşduq və bu dostlar onlara öndəkilərini və arxadakılarını gözəl göstərdilər (dünyanı sevdirib, axirəti unutdurdular). Onlardan əvvəl gəlib-getmiş cinlərdən və insanlardan olan ümmətlər barəsindəki Söz onlar barəsində də gerçək oldu. Həqiqətən də, onlar ziyana uğradılar**" ("Fussilət", 25).

Uca Allah buyurur: "**...və onlar doğru yoldan çıxarıldılar**", yəni düşdükləri azğınlıq onlara bəzədilb gözəl göstərildiyi üçün onun doğru olduğunu sandılar və beləcə, Allahın yolundan çıxarıldılar. Bu səbəbdən Uca Allah ayənin sonunda "**Allah kimi azdırsa, onu doğru yola yönəldən olmaz**" – deyə buyurur. Başqa ayələrdə isə belə buyurur: "**Allah kimi fitnəyə salmaq istərsə, sən ondan ötrü heç bir şeylə Allaha mane ola bilməzsən**" ("əl-Maidə", 41); "**Sən onların doğru yola gəlməsinə nə qədər çalışsan da, bil ki, Allah azdırdığı kimsələri doğru yola yönəltməz və onlara kömək edən də olmaz**" ("ən-Nəhl", 37).

---

[1] ət-Təbəri, 20448-20450, 20541-20543.

[2] ət-Təbəri, 20452, 20545.

﴿لَّهُمۡ عَذَابٞ فِي ٱلۡحَيَوٰةِ ٱلدُّنۡيَاۖ وَلَعَذَابُ ٱلۡأٓخِرَةِ أَشَقُّۖ وَمَا لَهُم مِّنَ ٱللَّهِ مِن وَاقٖ ٣٤ ۞ مَّثَلُ ٱلۡجَنَّةِ ٱلَّتِي وُعِدَ ٱلۡمُتَّقُونَۖ
تَجۡرِي مِن تَحۡتِهَا ٱلۡأَنۡهَٰرُۖ أُكُلُهَا دَآئِمٞ وَظِلُّهَاۚ تِلۡكَ عُقۡبَى ٱلَّذِينَ ٱتَّقَواْۚ وَّعُقۡبَى ٱلۡكَٰفِرِينَ ٱلنَّارُ ٣٥﴾

**34. Onlara dünya həyatında əzab vardır. Axirət əzabı isə daha məşəqqətlidir. Onları Allahdan qoruyan olmaz.**

**35. Müttəqilərə vəd edilmiş Cənnətin vəsfi belədir; onun altından çaylar axar və onun yeməkləri də, kölgəsi də daimidir. Müttəqilərin aqibəti budur. Kafirlərin aqibəti isə Oddur.**

Uca Allah bu ayələrdə kafirlərə veriləcək əzabı və yaxşı işlər görənlərə veriləcək savabı zikr etmişdir. Uca Allah əvvəlki ayələrdə müşriklərin halını, düşdükləri küfrü və şirki bildirdikdən sonra belə buyurur: "**Onlara dünya həyatında əzab vardır**", yəni dünyada möminlər tərəfindən öldürülmək və əsir alınmaqla onlara əzab vardır. "**Axirət əzabı isə**", yəni dünyadakı bu rəzilliklə bərabər Axirətdə onlar üçün hazırlanmış əzab isə "**daha məşəqqətlidir**", yəni bundan daha ağırdır. Necə ki Peyğəmbər ﷺ lənətləşən (yalan danışana lənət oxuyan) iki nəfərə belə demişdir: "Həqiqətən, dünya əzabı Axirət əzabından daha asan və daha yüngüldür".[1] Dünya əzabının sonu vardır, Axirət əzabı isə istiliyi dünya atəşinə nisbətən yetmiş qat artıq olan atəşdə, şiddəti və qalınlığı təsəvvür oluna bilməyən buxovlarda davamlı və əbədi olacaqdır. Uca Allah başqa ayələrdə belə buyurur: "**O gün heç kəs Allahın verdiyi əzab kimi əzab verə bilməz və heç kəs Onun buxovladığı kimi buxovlaya bilməz**" ("əl-Fəcr", 25-26); "**Biz də Qiyamət saatını yalan sayanlardan ötrü yandırıb-yaxan bir od hazırladıq. Onlar Cəhənnəm odunu uzaq məsafədən gördükdə belə onun necə qəzəblə qaynamasını duyacaq və xışıltısını eşidəcəklər. Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyəcəklər. Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!" De: "Bu yaxşıdır, yoxsa müttəqilərə bir mükafat və dönüş yeri olaraq vəd edilən Əbədiyyət cənnəti?**" ("əl-Furqan", 11-15). Bu səbəbdən Uca Allah bunu (Cəhənnəm əzabını) digəri ilə (Cənnət neməti ilə) birlikdə qeyd edərək belə buyurmuşdur: "**Müttəqilərə vəd edilmiş Cənnətin vəsfi belədir; onun altından çaylar axar və onun yeməkləri də, kölgəsi də daimidir**", yəni Cənnətin müxtəlif bölgələrində, tərəflərində, Cənnət əhlinin istədiyi yerlərdə çaylar axacaq, onlar bu çayların istiqamətini istədikləri səmtə yönəldə biləcəklər. Uca Allah başqa bir ayədə belə buyurur: "**Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar,**

[1] Muslim, 2742, 3819.

**dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində əbədi qalacaq və bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək kimsələr kimi ola bilərlərmi?!**” (“Muhəmməd”, 15).

Uca Allah buyurur: “**...onun yeməkləri də, kölgəsi də daimidir**”, yəni orada yeməklər, meyvələr və içkilər olacaqdır. Bunlar tükənməyən və sonu olmayan nemətlərdir. əl-Buxari və Muslimin “Səhih” əsərlərində Kusuf namazı[1] barədə İbn Abbasdan ﵄ rəvayət edilən bir hədisdə səhabələr Peyğəmbərdən ﷺ soruşdular: “Ey Allahın Elçisi, biz sənin dayandığın yerdə əlini uzadıb nə isə götürmək istədiyini, sonra da arxaya çəkildiyini gördük”. Peyğəmbər ﷺ dedi: “Mən Cənnəti gördüm və oradakı meyvələrdən bir salxım dərmək istədim. Mən onu dərə bilsəydim, dünya durduqca siz ondan yeyə bilərdiniz...”.[2]

Muslim “Səhih” əsərində Cabir ibn Abdullahdan ﵄ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Cənnətin sakinləri orada yeyib-içər, lakin bəlğəmləri olmaz, sidik və nəcis ifraz etməzlər. Yedikləri müşk qoxusu verən gəyirməklə bədənlərindən çıxar. Nəfəs aldıqları kimi onlara rahatlıqla təsbih (Subhən-Allah) və təhmid (Əlhəmdulilləh) etməyə ilham

---

[1] Günəş və ya Ay tutularkən qılınan namazın adıdır.

[2] Hədisin tam mətni belədir: Abdullah ibn Abbas ﵄ demişdir: “Peyğəmbərin ﷺ dövründə Günəş tutuldu və bu səbəbdən Peyğəmbər ﷺ camaata namaz qıldırdı. Namazda qiyamı o qədər uzatdı ki, bu vaxt ərzində “əl-Bəqərə” surəsini oxumaq olardı, sonra rükuya getdi və rükunu uzatdı, sonra rükudan qalxdı və qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra bir də rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra rükudan qalxıb səcdəyə getdi və iki dəfə səcdə etdi. Sonra ayağa qalxıb qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra rükudan qalxdı və yenə qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra bir də rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra rükudan qalxıb səcdəyə getdi və iki dəfə səcdə etdi, sonra salamları verib namazı bitirdi. Artıq Günəşin üzü açılmışdı. Bundan sonra Peyğəmbər ﷺ buyurdu: “Həqiqətən də, Günəş və Ay Allahın dəlillərindəndir. Onlar kimsənin nə ölümünə, nə də dünyaya gəldiyinə görə tutulur. Odur ki, onların tutulduğunu gördüyünüz zaman Allahı zikr edin!” Səhabələr dedilər: “Ey Allahın Elçisi, biz sənin dayandığın yerdə əlini uzadıb nə isə götürmək istədiyini, sonra da arxaya çəkildiyini gördük”. Peyğəmbər ﷺ dedi: “Mən Cənnəti gördüm və oradakı meyvələrdən bir salxım dərmək istədim. Mən onu dərə bilsəydim, dünya durduqca siz ondan yeyə bilərdiniz. Həmçinin Cəhənnəm də mənə göstərildi. Mən heç vaxt bu gün gördüyüm mənzərədən daha dəhşətlisini görməmişdim. Mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm”. Səhabələr soruşdular: “Nəyə görə, ey Allahın Elçisi?” O dedi: “Nankorluqlarına görə!” Yenə soruşdular: “Allaha qarşımı nankordurlar?” O dedi: “Onlar ərlərinə qarşı nankordurlar, yaxşılığı yerə vururlar. Birisinə ilboyu yaxşılıq etsən, sonra da səndən xoşuna gəlməyən bir şey görsə, deyər: “Mən səndən heç vaxt xeyir görmədim”. (əl-Buxari, 993, 1052; Muslim, 1512, 2147).

veriləcək".[1] Uca Allah başqa ayələrdə belə buyurur: "**(Cənnət sakinləri) çoxlu meyvələr – tükənməz və qadağan edilməyən meyvələr içində və hündür döşəklər üstündə olacaqlar**" ("əl-Vaqiə", 32-33); "**Cənnət ağaclarının kölgələri özləri onlara yaxınlaşacaq, meyvələri də tam onların ixtiyarına veriləcək**" ("əl-İnsan", 14). Cənnətin kölgələri də beləcə, daimi olub heç vaxt yox olmaz və azalmaz. Uca Allah bir ayədə belə buyurur: "**İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik. Orada onlar üçün pak zövcələr vardır. Biz onları sıx kölgəlikdə yerləşdirəcəyik**" ("ən-Nisa", 57). Daha əvvəl qeyd etdiyimiz kimi, əl-Buxari və Muslimin "Səhih" əsərlərində müxtəlif mətnlərlə rəvayət etdikləri hədisdə Peyğəmbər ﷺ demişdir: "Cənnətdə elə bir ağac var ki, sürətli yarış atına minmiş bir atlı yüz il atını çapar, amma onu qət edə bilməz". Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: "**(Sağ tərəf sahibləri) ... uzanmış kölgəliklərdə... (olacaqlar)**" ("əl-Vaqiə", 30)".[2]

Uca Allah Cənnətə təşviq edib Cəhənnəmdən çəkindirmək üçün bir çox ayədə Cənnətin vəsfi ilə Cəhənnəmin təsvirini bir yerdə qeyd etmişdir. Bu səbəbdən bu ayədə Uca Allah Cənnətin vəsfini qeyd etdikdən sonra "**Müttəqilərin aqibəti budur. Kafirlərin aqibəti isə Oddur**" – deyə buyurmuşdur. Necə ki başqa bir ayədə belə buyurur: "**Cəhənnəm əhli ilə Cənnət əhli eyni deyillər. Məhz Cənnət əhli uğur qazananlardır**" ("əl-Həşr", 20).

﴿وَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يَفْرَحُونَ بِمَا أُنزِلَ إِلَيْكَ ۖ وَمِنَ الْأَحْزَابِ مَن يُنكِرُ بَعْضَهُ ۚ قُلْ إِنَّمَا أُمِرْتُ أَنْ أَعْبُدَ
اللَّهَ وَلَا أُشْرِكَ بِهِ ۚ إِلَيْهِ أَدْعُو وَإِلَيْهِ مَآبِ ﴿٣٦﴾ وَكَذَٰلِكَ أَنزَلْنَاهُ حُكْمًا عَرَبِيًّا ۚ وَلَئِنِ اتَّبَعْتَ أَهْوَاءَهُم بَعْدَ مَا جَاءَكَ
مِنَ الْعِلْمِ مَا لَكَ مِنَ اللَّهِ مِن وَلِيٍّ وَلَا وَاقٍ ﴿٣٧﴾﴾

**36. Kitab verdiyimiz kəslər sənə nazil edilənə sevinirlər. Firqələr arasında eləsi də var ki, onun bir qismini inkar edirlər. De: "Mənə Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr edilmişdir. Mən yalnız Ona ibadət etməyə çağırıram və qayıdışım da yalnız Onadır!"**

**37. Beləliklə, Biz Quranı ərəbcə bir hökm olaraq nazil etdik. Əgər sənə gələn bu elmdən sonra onların istəklərinə tabe olsan, səni Allahdan nə bir himayə edən, nə də bir qoruyan olar.**

[1] Muslim, 5066, 7331.

[2] əl-Buxari, 4502, 4881; Muslim, 5056, 7317.

Uca Allah buyurur: “**Kitab verdiyimiz kəslər**”, yəni özlərinə verilən kitabda yazılanlara əməl edən kəslər “**sənə nazil edilənə sevinirlər**”, yəni öz kitablarında Quranın doğruluğunu təsdiqləyən və onun nazil olacağı ilə müjdələyən ayələr olduğu üçün sənə nazil edilən Qurana görə sevinirlər. Uca Allah başqa ayələrdə belə buyurur: “**Kitab verdiyimiz kəslərdən onu layiqincə oxuyanlar ona iman gətirənlərdir. Onu inkar edənlər isə ziyana uğrayanlardır**” (“əl-Bəqərə”, 121); “**De: “İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə ayələr oxunduğu zaman üzüstə səcdəyə qapanır və “Rəbbimiz pak və müqəddəsdir! Rəbbimizin vədi mütləq yerinə yetəcəkdir!” – deyirlər**” (“əl-İsra”, 107-108), yəni, həqiqətən, Uca Allahın bizim kitablarımızda Muhəmmədi ﷺ peyğəmbər göndərəcəyinə dair vədi haqdır və o mütləq yerinə yetəcək. Uca Allah Öz vədinə sadiqdir. Həmd yalnız Onadır. “**Onlar üzüqoylu düşüb ağlayır və bu ayələr onların itaətini artırır**” (“əl-İsra”, 109).

Uca Allah buyurur: “**Firqələr arasında eləsi də var ki, onun bir qismini inkar edirlər**”, yəni dəstələr arasında sənə nazil olanın bir qismini inkar edənlər də vardır. Mucahid ﷺ demişdir: “Bunlar Peyğəmbərə ﷺ nazil olan haqqın bir qismini inkar edən yəhudi və xaçpərəstlərdir”.[1] Qatədə və Abdur-Rahmən ibn Zeyd ibn Əsləm ﷺ də belə demişlər. Bu, Uca Allahın bu ayəsinə bənzəyir: “**Doğrusu, Kitab əhlindən elələri də var ki, onlar Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə, Allaha müti olaraq iman gətirər, Allahın ayələrini ucuz qiymətə satmazlar. Məhz onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir**” (“Ali-İmran”, 199).

“**De: “Mənə Allaha ibadət etmək və Ona şərik qoşmamaq əmr edilmişdir**”, yəni məndən əvvəl peyğəmbərlər göndərildiyi kimi, mən də insanları tək və şəriki olmayan Allaha ibadət etməyə çağırmaq üçün göndərildim. “**Mən yalnız Ona ibadət etməyə çağırıram**”, yəni mən insanları Onun yoluna çağırıram “**və qayıdışım da yalnız Onadır**”, yəni dönüşüm Onadır!

Uca Allah buyurur: “**Beləliklə, Biz Quranı ərəbcə bir hökm olaraq nazil etdik**”, yəni səndən əvvəl peyğəmbərlər göndərib onlara səmadan kitablar nazil etdiyimiz kimi, sənə də Quranı ərəbcə hökm olaraq nazil etdik. Bu aydın Quranla səni şərəfləndirdik və səni digərlərindən üstün etdik. “**Batil ona nə önündən, nə də arxasından girişə bilər. O, müdrik, tərifəlayiq Allah tərəfindən nazil edilmişdir**” (“Fussilət”, 42).

[1] ət-Təbəri, 20455, 20548.

Uca Allah buyurur: "**Əgər sənə gələn bu elmdən sonra**", yəni Allahdan sənə gələn elmdən sonra "**onların istəklərinə**", yəni rəylərinə "**tabe olsan, səni Allahdan nə bir himayə edən, nə də bir qoruyan olar**". Bu ayə Peyğəmbərin ﷺ Sünnəsinə tabe olub, Muhəmmədin ﷺ gətirdiyi aydın yolu tutduqdan sonra azaraq zəlalət əhlinin yoluna tabe olan elm əhli üçün bir təhdiddir.

﴿وَلَقَدْ أَرْسَلْنَا رُسُلًا مِّن قَبْلِكَ وَجَعَلْنَا لَهُمْ أَزْوَاجًا وَذُرِّيَّةً ۚ وَمَا كَانَ لِرَسُولٍ أَن يَأْتِيَ بِآيَةٍ إِلَّا بِإِذْنِ اللَّهِ ۗ لِكُلِّ أَجَلٍ كِتَابٌ ﴿٣٨﴾ يَمْحُو اللَّهُ مَا يَشَاءُ وَيُثْبِتُ ۖ وَعِندَهُ أُمُّ الْكِتَابِ ﴿٣٩﴾﴾

**38. Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik. Heç bir elçi Allahın izni olmadan bir ayə gətirə bilməzdi. Hər vaxtın bir yazısı var.**

**39. Allah bu yazıdan istədiyini silər, istədiyini də sabit saxlayar. Kitabın anası da Onun yanındadır.**

Uca Allah buyurur ki, ey Muhəmməd, səni bir bəşər olaraq elçi göndərdiyimiz kimi, səndən əvvəlki peyğəmbərləri də bəşər olaraq göndərmişdik. Onlar yemək yeyir, bazarları gəzib-dolaşır, qadınlarla evlənir, onlarla yaxınlıq edir və onlardan övladları olurdu. Onlara zövcələr və övladlar verdik. Uca Allah peyğəmbərlərin ən şərəflisi və ən sonuncusu barədə belə buyurmuşdur: "**De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır**" ("əl-Kəhf", 110). əl-Buxari və Muslimin "Səhih" əsərlərində rəvayət edilən bir hədisdə Peyğəmbər ﷺ belə demişdir: "Mənə gəlincə, mən bəzən oruc tutur, bəzən də tutmuram, gecənin bir vaxtını namaz qılır, digərində isə dincəlirəm, yağ da yeyirəm və nəhayət, mən qadınlarla evlənirəm. Kim mənim yolumdan üz döndərərsə, məndən deyil".[1]

---

[1] əl-Buxari, 4675, 5063; Muslim, 2487, 3469. əl-Buxari və Muslimin rəvayətlərində "yağ da yeyirəm" ifadəsi yoxdur. Bu əlavə əlyazmada mövcuddur. Çap olunmuş variantda isə "ət də yeyirəm" ifadəsi yer almışdır. əl-Buxarinin rəvayəti belədir: Ənəs ibn Malik demişdir: "Bir dəfə üç nəfər Peyğəmbərin ﷺ evinə gəlib onun əhli-əyalından Peyğəmbərin ﷺ ibadəti barəsində soruşdu. Bu haqda onlara xəbər verildikdə onlar etdikləri ibadətin az olduğunu güman edib belə dedilər: "Yəni biz Peyğəmbər ﷺ kimi ola bilərikmi? Üstəlik, Allah onun bütün keçmiş və gələcək xətalarını bağışlamışdır". Onlardan biri dedi: "Mən bütün gecələri ibadət edəcəyəm, yatmayacağam". O birisi dedi: "Mən ilboyu oruc tutacağam, gündüzlər yemək yeməyəcəyəm". Üçüncüsü dedi: "Mən qadınlara yaxın durmayacağam, heç vaxt evlənməyəcəyəm". Peyğəmbər ﷺ bunu eşidəndən sonra onların yanına gəlib dedi: "Filan, filan sözləri sizmi demisiniz?! Allaha and olsun ki, aranızda Allahdan ən çox qorxanınız mənəm. Bununla belə, mən bəzən oruc tutur, bəzən də tutmuram, gecənin bir vaxtını namaz qılır, digərində isə dincəlirəm və nəhayət, mən qadın-

Uca Allah buyurur: "**Heç bir elçi Allahın izni olmadan bir ayə gətirə bilməzdi**", yəni peyğəmbər xariqülادə şeyləri (möcüzələri) yalnız Allahın izni ilə gətirə bilər, bu iş ona aid deyil, Allaha aiddir. Allah istədiyini edər və istədiyinə hökm verər. "**Hər vaxtın bir yazısı var**", yəni qoyulmuş hər bir müddətin yazıldığı bir kitab vardır. Hər şeyin Allah dərgahında bir ölçüsü var. "**Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, Yazıda mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır**" ("əl-Həcc", 70). əd-Dahhək ﷺ Uca Allahın "**Hər vaxtın bir yazısı var**" ayəsi barədə belə demişdir: "Yəni hər kitabın bir ömrü vardır. Uca Allahın səmadan nazil etdiyi hər kitabın Allah dərgahında müəyyən olunmuş bir müddəti, təyin edilmiş bir ölçüsü vardır. Odur ki, Uca Allah istədiyini silər, istədiyini saxlayar. Nəhayət, Uca Allah Peyğəmbərə ﷺ nazil etdiyi Quranla bu kitabların hamısının hökmünü ləğv etmişdir. Ona Allahın salavatı və salamı olsun!"[1]

Uca Allah buyurur: "**Allah bu yazıdan istədiyini silər, istədiyini də sabit saxlayar**". Təfsirçilər bu mövzuda ixtilaf etmişlər. İbn Abbas ﷺ demişdir: "Uca Allah bir illik işləri yoluna qoyar, xoşbəxtlik və bədbəxtlik, həyat və ölüm istisna olmaqla, istədiyini silər". Mucahid ﷺ Uca Allahın "**Allah bu yazıdan istədiyini silər, istədiyini də sabit saxlayar**" ayəsi barədə belə demişdir: "Həyat və ölüm, bədbəxtlik və xoşbəxtlik istisna olmaqla, istədiyini silər, çünki bunlar dəyişməz".[2] Mənsur ﷺ demişdir: "Mucahiddən soruşdum: "Bizdən birinin "Allahım, əgər adım xoşbəxt insanlar arasındadırsa, adımı orada sabit et. Əgər bədbəxt insanlar arasındadırsa, adımı oradan sil və onu xoşbəxt insanlar arasında et", – deyə dua etməsi barədə nə deyərsən?" Mucahid "Gözəl" – deyə cavab verdi. Bir il və ya daha çox zaman keçdikdən sonra onu yenə gördüm və bu barədə təkrar soruşdum. O dedi: "**Biz onu mübarək bir gecədə nazil etdik. Həqiqətən, Biz xəbərdar edirik. Hər bir hikmətli iş o gecədə ayırd edilir**"("əd-Duxan", 3-4). Qədr gecəsində o ildə (növbəti Qədr gecəsinə qədər) olacaq ruzi və ya müsibətlər barədə hökm verilir. Sonra Uca Allah istədiyini tezləşdirər, istədiyini də gecikdirər. Bədbəxtlik və xoşbəxtlik yazısına gəlincə, o, sabit qalar və dəyişdirilməz".[3] İbn Cərir ﷺ Əbu Osman ən-Nəhdidən rəvayət etmişdir ki, Ömər ibn Xattab ﷺ Kəbəni təvaf edərkən ağlayaraq belə dua edərdi: "Allahım, mənim üçün bədbəxtlik və ya bir günah yazmısansa, onu sil. Həqiqətən, Sən istədiyini silər, istədiyini sabit saxlayarsan. Kitabın anası da Sənin yanındadır. Onu

larla evlənirəm. Belə olduğu halda mənim yolumdan çıxan kimsələr məndən deyillər".

1 ət-Təbəri, 20554.

2 ət-Təbəri, 20467, 20562.

3 ət-Təbəri, 20472, 20567

xoşbəxtlik və bağışlama et!"[1] Bütün bu rəvayətlərin mənası budur ki, Uca Allah qəzavü-qədərdən istədiyini silir, istədiyini də sabit saxlayır. Səid ibn Cubeyrdən رحمه الله rəvayət olunur ki, bu ayə Uca Allahın "**O, istədiyini bağışlayar, istədiyinə də, əzab verər. Allah hər şeyə qadirdir**" ("əl-Bəqərə", 284) ayəsinin mənasındadır. əl-Həsən əl-Bəsri رحمه الله Uca Allahın "**Allah bu yazıdan istədiyini silər, istədiyini də sabit saxlayar**" ayəsi barədə belə demişdir: "Kimin əcəli çatmışsa, o həyatdan gedər. Sağ olanlar isə əcəli çatana qədər qalar".[2] İbn Cərir رحمه الله də bu rəyi seçmişdir.

Uca Allah buyurur: "**Kitabın anası da Onun yanındadır**". Qatədə رحمه الله bu ayə barədə belə demişdir: "Yəni Kitabın hamısı və əsli Onun yanındadır".[3] əd-Dahhək رحمه الله isə demişdir: "Bu, Aləmlərin Rəbbi yanında olan bir kitabdır".[4] İbn Abbas رضي الله عنهما demişdir: "O, zikrdir".[5] Ən doğrusunu isə Allah bilir!

﴿وَإِن مَّا نُرِيَنَّكَ بَعْضَ ٱلَّذِى نَعِدُهُمْ أَوْ نَتَوَفَّيَنَّكَ فَإِنَّمَا عَلَيْكَ ٱلْبَلَٰغُ وَعَلَيْنَا ٱلْحِسَابُ ﴿٤٠﴾ أَوَلَمْ يَرَوْا۟ أَنَّا نَأْتِى
ٱلْأَرْضَ نَنقُصُهَا مِنْ أَطْرَافِهَا ۚ وَٱللَّهُ يَحْكُمُ لَا مُعَقِّبَ لِحُكْمِهِۦ ۚ وَهُوَ سَرِيعُ ٱلْحِسَابِ ﴿٤١﴾﴾

**40. Biz onlara vəd etdiyimizin bir qismini sənə göstərsək və ya ondan öncə səni öldürsək, bil ki, sənin öhdənə düşən ancaq təbliğ etməkdir. Haqq-hesab çəkmək isə Bizə aiddir.**

**41. Məgər kafirlər Bizim yer üzünə gəlib onu bəzi tərəflərindən azaltdığımızı (müsəlmanların ixtiyarına verdiyimizi) görmürlərmi? Allah istədiyi kimi hökm verir. Onun hökmünü ləğv edən olmaz. O, tez haqq-hesab çəkəndir.**

Uca Allah Öz Elçisinə ﷺ xitab edərək belə buyurur: "**Biz onlara vəd etdiyimizin bir qismini sənə göstərsək**", yəni ey Muhəmməd, düşmənlərinə vəd etdiyimiz rəzalətin və əzabın bir hissəsini sənə dünyada göstərsək "**və ya ondan öncə səni öldürsək**", yəni bundan əvvəl sənin canını alsaq, "**bil ki, sənin öhdənə düşən ancaq təbliğ etməkdir**", yəni Biz səni yalnız Allahın dinini onlara təbliğ etmək üçün göndərdik və sən artıq sənə əmr ediləni təbliğ etdin. "**Haqq-hesab çəkmək isə Bizə aiddir**", yəni onları hesaba çəkmək və cəzalandırmaq isə Bizə aiddir.

---

[1] ət-Təbəri, 20478, 20574.
[2] ət-Təbəri, 20494, 20591.
[3] ət-Təbəri, 20490, 20587.
[4] ət-Təbəri, 20509, 20605.
[5] ət-Təbəri, 20513, 20609.

Uca Allah başqa bir ayədə belə buyurur: "**Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. Sən onların üstündə hökmdar deyilsən. Lakin üz döndərib küfr edəni Allah ən şiddətli əzabla cəzalandırar. Şübhəsiz ki, onların dönüşü Bizədir. Sonra onları sorğu-suala çəkmək də Bizə aiddir**" ("əl-Ğaşiyə", 21-26).

Uca Allah buyurur: "**Məgər kafirlər Bizim yer üzünə gəlib onu bəzi tərəflərindən azaltdığımızı görmürlərmi?**" İbn Abbas ﵄ demişdir: "Yəni məgər kafirlər görmürlərmi ki, Biz Muhəmmədə bir yerdən sonra başqa bir yerin fəthini nəsib edirik?"[1] İkrimə ﵀ Uca Allahın "**azaltdığımızı**" sözünü "viran qoymaq" kimi təfsir etmişdir. Yəni "bəzi tərəflərini viran qoyduğumuzu görmürlərmi?" əl-Həsən və əd-Dahhək ﵀ demişlər: "Burada müsəlmanların müşriklər üzərində qələbə çalmaları nəzərdə tutulur".[2] Mucahid ﵀ demişdir: "Burada insanların ölməsi, meyvələrin azalması və yer üzünün viran qalması nəzərdə tutulur". Bir rəvayətdə İbn Abbas ﵄ belə demişdir: "Burada fəqihlərin, alimlərin və əməlisaleh insanların ölümü ilə yer üzünün viran qalması nəzərdə tutulur". Mucahid ﵀ də eyni şəkildə burada alimlərin ölümünün nəzərdə tutulduğunu demişdir. Lakin birinci rəy daha doğrudur. Bu, İslamın şəhər-şəhər, ölkə-ölkə qalib gəlməsidir. Uca Allah buyurur: "**Biz sizin ətrafınızda olan kəndləri məhv etdik. Biz ayələri onlara müxtəlif cür izah etdik ki, bəlkə küfrdən əl çəkələr**" ("əl-Əhqaf", 27). İbn Cərir ﵀ də bu rəyi seçmişdir.

﴿وَقَدْ مَكَرَ ٱلَّذِينَ مِن قَبْلِهِمْ فَلِلَّهِ ٱلْمَكْرُ جَمِيعًا ۖ يَعْلَمُ مَا تَكْسِبُ كُلُّ نَفْسٍ ۗ وَسَيَعْلَمُ ٱلْكُفَّٰرُ لِمَنْ عُقْبَى ٱلدَّارِ ﴿٤٢﴾

**42. Onlardan əvvəlkilər də hiylə qurdular. Halbuki bütün hiylələr Allaha aiddir. O, hər kəsin nə qazandığını bilir. Kafirlər Axirət yurdunun kimin olacağını biləcəklər.**

Uca Allah buyurur: "**Onlardan əvvəlkilər də hiylə qurdular**", yəni onlardan əvvəlkilər də peyğəmbərlərinə hiylə qurdular və onları ölkələrindən çıxarmaq istədilər. Uca Allah da (onların hiyləsinə qarşılıq) hiylə işlətdi və gözəl aqibəti Allahdan qoxanlara nəsib etdi. Uca Allah başqa ayələrdə belə buyurur: "**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün sənə qarşı hiylə qururdular.**

[1] ət-Təbəri, 20514, 20610.

[2] ət-Təbəri, 20517, 20613.

**Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır**" ("əl-Ənfal", 30); "**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə yeksan etdik. Haqsızlıqları üzündən viran qalmış evləri də budur. Həqiqətən, bunda bilən adamlar üçün ibrət var**" ("ən-Nəml", 50-52).

Uca Allah buyurur: "**O, hər kəsin nə qazandığını bilir**", yəni Uca Allah bütün gizlilikləri və qəlblərdən keçənləri bilәndir və hər bir əməl sahibinə etdiyi əməlin qarşılığını verəcək. "**Kafirlər Axirət yurdunun kimin olacağını biləcəklər**", yəni kafirlər gözəl aqibətin kimə nəsib olacağını – onlara yoxsa peyğəmbərlərə tabe olanlara nəsib olacağını biləcəklər. Əlbəttə ki, dünya və Axirətdə gözəl aqibət peyğəmbərlərə tabe olanların olacaq. Həmd və şükür Allaha məxsusdur!

﴿وَيَقُولُ ٱلَّذِينَ كَفَرُواْ لَسۡتَ مُرۡسَلٗاۚ قُلۡ كَفَىٰ بِٱللَّهِ شَهِيدَۢا بَيۡنِي وَبَيۡنَكُمۡ وَمَنۡ عِندَهُۥ عِلۡمُ ٱلۡكِتَٰبِ ٤٣﴾

**43. Kafirlər deyirlər: "Sən göndərilmiş elçi deyilsən!" De: "Mənimlə sizin aranızda Allahın və Kitabı bilən kimsənin şahid olması yetər".**

Uca Allah buyurur: "Bu kafirlər səni yalançı sayır və "**Sən göndərilmiş elçi deyilsən!**" – deyirlər. Yəni Allah səni peyğəmbər göndərməmişdir. "**De: "Mənimlə sizin aranızda Allahın və Kitabı bilən kimsənin şahid olması yetər**", yəni Allah mənə yetər. Mənimlə sizin aranızda şahid olaraq Allah yetər. Dini təbliğ etməyimə Allah şahiddir. Ey yalançılar! Sizin mənə atdığınız böhtanlara Allah şahiddir.

Uca Allah buyurur: "**...və Kitabı bilən kimsənin şahid olması yetər**". İbn Abbas ﵄ demişdir: "Onlar yəhudi və xaçpərəstlərdir". Mucahid ﵀ demişdir: "O, Allahın Özüdür". Doğru olan budur ki, "**Kitabı bilən kimsənin**" ifadəsi ümumidir və buraya keçmiş peyğəmbərlərin müjdəsi ilə Muhəmmədin ﷺ vəsflərini və xüsusiyyətlərini öz kitablarında görən Kitab əhlinin alimləri də daxildir. Uca Allah başqa ayələrdə belə buyurur: "**Allah dedi: "İstədiyimi əzabıma düçar edirəm. Mərhəmətim isə hər şeyi əhatə edir. Mən onu Allahdan qorxan, zəkat verən və ayələrimizə iman gətirənlər üçün yazacağam. O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən,**

**ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır**" ("əl-Əraf", 156-157); "**Məgər İsrail oğullarından olan alimlərin onu bilmələri bunlar üçün bir dəlil deyilmi?**" ("əş-Şuəra", 197). İsrail oğullarının alimlərindən bəhs edən bu və buna bənzər bir çox ayədə qeyd edilir ki, onlar bunu özlərinə nazil edilən kitablardan bilirlər.

**"ər-Rad" surəsinin təfsiri bitdi.**
**Həmd olsun aləmlərin Rəbbinə! Müvəffəq edən Allahdır!**

## Mündəricat


Müqəddimə........................................................................................ 3
"ƏL-ƏNFAL" SURƏSİNİN TƏFSİRİ ........................................................ 5
"əl-Ənfal", 1 ........................................................................................ 6
"əl-Ənfal", 2-4 ...................................................................................... 12
"əl-Ənfal", 5-8 ...................................................................................... 15
"əl-Ənfal", 9-10 .................................................................................... 22
"əl-Ənfal", 11-14 .................................................................................. 27
"əl-Ənfal", 15-16 .................................................................................. 32
"əl-Ənfal", 17-18 .................................................................................. 35
"əl-Ənfal", 19 ........................................................................................ 37
"əl-Ənfal", 20-23 .................................................................................. 38
"əl-Ənfal", 24 ........................................................................................ 40
"əl-Ənfal", 25 ........................................................................................ 42
"əl-Ənfal", 26 ........................................................................................ 44
"əl-Ənfal", 27-28 .................................................................................. 45
"əl-Ənfal", 29 ........................................................................................ 48
"əl-Ənfal", 30 ........................................................................................ 49
"əl-Ənfal", 31-33 .................................................................................. 52
"əl-Ənfal", 34-35 .................................................................................. 55
"əl-Ənfal", 36-37 .................................................................................. 59
"əl-Ənfal", 38-40 .................................................................................. 61
"əl-Ənfal", 41 ........................................................................................ 64
"əl-Ənfal", 42 ........................................................................................ 70
"əl-Ənfal", 43-44 .................................................................................. 74

"əl-Ənfal", 45-46 ..... 75
"əl-Ənfal", 47-49 ..... 77
"əl-Ənfal", 50-51 ..... 81
"əl-Ənfal", 52 ..... 82
"əl-Ənfal", 53-54 ..... 83
"əl-Ənfal", 55-57 ..... 83
"əl-Ənfal", 58 ..... 84
"əl-Ənfal", 59-60 ..... 85
"əl-Ənfal", 61-63 ..... 87
"əl-Ənfal", 67-69 ..... 91
"əl-Ənfal", 70-71 ..... 93
"əl-Ənfal", 72 ..... 96
"əl-Ənfal", 73 ..... 98
"əl-Ənfal", 74-75 ..... 99
"ƏT-TÖVBƏ" SURƏSİNİN TƏFSİRİ ..... 101
"ət-Tövbə", 1-2 ..... 102
"ət-Tövbə", 3 ..... 105
"ət-Tövbə", 4 ..... 107
"ət-Tövbə", 5 ..... 108
"ət-Tövbə", 6 ..... 110
"ət-Tövbə", 7 ..... 112
"ət-Tövbə", 8 ..... 113
"ət-Tövbə", 9-11 ..... 114
"ət-Tövbə", 12 ..... 114
"ət-Tövbə", 13-15 ..... 115
"ət-Tövbə", 16 ..... 117

"ət-Tövbə", 17-18........................................................................ 118
"ət-Tövbə", 19-22........................................................................ 119
"ət-Tövbə", 23-24........................................................................ 121
"ət-Tövbə", 25-27........................................................................ 122
"ət-Tövbə", 28-29........................................................................ 127
"ət-Tövbə", 30-31........................................................................ 131
"ət-Tövbə", 32-33........................................................................ 133
"ət-Tövbə", 34-35........................................................................ 135
"ət-Tövbə", 36 ............................................................................ 139
"ət-Tövbə", 37 ............................................................................ 143
"ət-Tövbə", 38-39........................................................................ 145
"ət-Tövbə", 40 ............................................................................ 146
"ət-Tövbə", 41 ............................................................................ 148
"ət-Tövbə", 42 ............................................................................ 150
"ət-Tövbə", 43-45........................................................................ 150
"ət-Tövbə", 46-47........................................................................ 152
"ət-Tövbə", 48 ............................................................................ 153
"ət-Tövbə", 49 ............................................................................ 154
"ət-Tövbə", 50-51........................................................................ 155
"ət-Tövbə", 52-54........................................................................ 156
"ət-Tövbə", 55 ............................................................................ 157
"ət-Tövbə", 56-57........................................................................ 158
"ət-Tövbə", 58-59........................................................................ 158
"ət-Tövbə", 60 ............................................................................ 160
"ət-Tövbə", 61 ............................................................................ 164
"ət-Tövbə", 62-63........................................................................ 165

“ət-Tövbə”, 64 ........ 166
“ət-Tövbə”, 65-66 ........ 166
“ət-Tövbə”, 67-68 ........ 168
“ət-Tövbə”, 69 ........ 169
“ət-Tövbə”, 70 ........ 169
“ət-Tövbə”, 71 ........ 170
“ət-Tövbə”, 72 ........ 171
“ət-Tövbə”, 73-74 ........ 174
“ət-Tövbə”, 75-78 ........ 178
“ət-Tövbə”, 79 ........ 179
“ət-Tövbə”, 80 ........ 181
“ət-Tövbə”, 81-82 ........ 181
“ət-Tövbə”, 83 ........ 183
“ət-Tövbə”, 84 ........ 184
“ət-Tövbə”, 85 ........ 187
“ət-Tövbə”, 86-87 ........ 187
“ət-Tövbə”, 88-89 ........ 188
“ət-Tövbə”, 90 ........ 189
“ət-Tövbə”, 91-93 ........ 190
“ət-Tövbə”, 94-96 ........ 192
“ət-Tövbə”, 97-99 ........ 193
“ət-Tövbə”, 100 ........ 195
“ət-Tövbə”, 101 ........ 197
“ət-Tövbə”, 102 ........ 199
“ət-Tövbə”, 103-104 ........ 200
“ət-Tövbə”, 105 ........ 201

"ət-Tövbə", 106 .......... 202
"ət-Tövbə", 107-108 .......... 203
"ət-Tövbə", 109-110 .......... 207
"ət-Tövbə", 111 .......... 208
"ət-Tövbə", 112 .......... 209
"ət-Tövbə", 113-114 .......... 210
"ət-Tövbə", 115-116 .......... 213
"ət-Tövbə", 117 .......... 214
"ət-Tövbə", 118-119 .......... 215
"ət-Tövbə", 120 .......... 222
"ət-Tövbə", 121 .......... 222
"ət-Tövbə", 122 .......... 223
"ət-Tövbə", 123 .......... 225
"ət-Tövbə", 124-125 .......... 227
"ət-Tövbə", 126-127 .......... 228
"ət-Tövbə", 128-129 .......... 229
"YUNUS" SURƏSİNİN TƏFSİRİ .......... 231
Yunus, 1-2 .......... 232
Yunus, 3 .......... 233
Yunus, 4 .......... 235
Yunus, 5-6 .......... 235
Yunus, 7-8 .......... 237
Yunus, 9-10 .......... 238
Yunus, 11 .......... 240
Yunus, 12 .......... 240
Yunus, 13-14 .......... 241

Yunus, 15-16 .......... 242
Yunus, 17 .......... 243
Yunus, 18-19 .......... 246
Yunus, 20 .......... 247
Yunus, 21-23 .......... 249
Yunus, 24-25 .......... 251
Yunus, 26 .......... 253
Yunus, 27 .......... 255
Yunus, 28-30 .......... 256
Yunus, 31-33 .......... 258
Yunus, 34-36 .......... 260
Yunus, 37-40 .......... 262
Yunus, 41-44 .......... 265
Yunus, 45 .......... 266
Yunus, 46-47 .......... 268
Yunus, 48-52 .......... 269
Yunus, 53-54 .......... 270
Yunus, 55-56 .......... 271
Yunus, 57-58 .......... 272
Yunus, 59-60 .......... 272
Yunus, 61 .......... 274
Yunus, 62-64 .......... 275
Yunus, 65-67 .......... 277
Yunus, 68-70 .......... 278
Yunus, 71-73 .......... 279
Yunus, 74 .......... 282

Yunus, 75-78 ........ 283
Yunus, 79-82 ........ 284
Yunus, 83 ........ 285
Yunus, 84-86 ........ 286
Yunus, 87 ........ 287
Yunus, 88-89 ........ 288
Yunus, 90-92 ........ 289
Yunus, 93 ........ 292
Yunus, 94-97 ........ 294
Yunus, 98 ........ 295
Yunus, 99-100 ........ 297
Yunus, 101-103 ........ 298
Yunus, 104-107 ........ 299
Yunus, 108-109 ........ 300
"HUD" SURƏSİNİN TƏFSİRİ ........ 303
"Hud", 1-4 ........ 304
"Hud", 5 ........ 306
"Hud", 6 ........ 307
"Hud", 7-8 ........ 308
"Hud", 9-11 ........ 312
"Hud", 12-14 ........ 313
"Hud", 15-16 ........ 314
"Hud", 17 ........ 315
"Hud", 18-22 ........ 317
"Hud", 23-24 ........ 320
"Hud", 25-27 ........ 321

"Hud", 28 ..................... 323
"Hud", 29-30 ..................... 323
"Hud", 31 ..................... 324
"Hud", 32-34 ..................... 325
"Hud", 35 ..................... 325
"Hud", 36-39 ..................... 326
"Hud", 40 ..................... 327
"Hud", 41-43 ..................... 328
"Hud", 44 ..................... 330
"Hud", 45-47 ..................... 331
"Hud", 48 ..................... 332
"Hud", 49 ..................... 333
"Hud", 50-52 ..................... 334
"Hud", 53-56 ..................... 335
"Hud", 57-60 ..................... 336
"Hud", 61 ..................... 337
"Hud", 62-63 ..................... 338
"Hud", 64-68 ..................... 339
"Hud", 69-73 ..................... 340
"Hud", 74-76 ..................... 342
"Hud", 77-79 ..................... 343
"Hud", 80-81 ..................... 345
"Hud", 82-83 ..................... 347
"Hud", 84 ..................... 348
"Hud", 85-86 ..................... 349
"Hud", 87 ..................... 350

"Hud", 88 .... 351
"Hud", 89-90 .... 352
"Hud", 91-92 .... 353
"Hud", 93-95 .... 354
"Hud", 96-99 .... 355
"Hud", 100-101 .... 357
"Hud", 102 .... 357
"Hud", 103-105 .... 358
"Hud", 106-107 .... 359
"Hud", 108 .... 361
"Hud", 109-111 .... 363
"Hud", 112-113 .... 364
"Hud", 114-115 .... 365
"Hud", 116-117 .... 369
"Hud", 118-119 .... 370
"Hud", 120 .... 372
"Hud", 121-122 .... 373
"Hud", 123 .... 373
"YUSUF" SURƏSİNİN TƏFSİRİ .... 375
"Yusuf", 1-3 .... 376
"Yusuf", 4 .... 377
"Yusuf", 5 .... 378
"Yusuf", 6 .... 379
"Yusuf", 7-10 .... 380
"Yusuf", 11-12 .... 382
"Yusuf", 13-14 .... 382

"Yusuf", 15 .......... 383
"Yusuf", 16-18 .......... 384
"Yusuf", 19-20 .......... 386
"Yusuf", 21-22 .......... 387
"Yusuf", 23 .......... 388
"Yusuf", 24 .......... 389
"Yusuf", 25-29 .......... 390
"Yusuf", 30-34 .......... 392
"Yusuf", 35 .......... 395
"Yusuf", 36 .......... 396
"Yusuf", 37-38 .......... 397
"Yusuf", 39-40 .......... 398
"Yusuf", 41 .......... 399
"Yusuf", 42 .......... 400
"Yusuf", 43-49 .......... 400
"Yusuf", 50-53 .......... 402
"Yusuf", 54-55 .......... 405
"Yusuf", 56-57 .......... 405
"Yusuf", 58-62 .......... 406
"Yusuf", 63-64 .......... 408
"Yusuf", 65-66 .......... 409
"Yusuf", 67-68 .......... 410
"Yusuf", 69 .......... 412
"Yusuf", 70-72 .......... 412
"Yusuf", 73-76 .......... 413
"Yusuf", 77 .......... 414

"Yusuf", 78-79 ........ 415
"Yusuf", 80-82 ........ 416
"Yusuf", 83-86 ........ 417
"Yusuf", 87-88 ........ 419
"Yusuf", 89-92 ........ 420
"Yusuf", 93-95 ........ 422
"Yusuf", 96-98 ........ 423
"Yusuf", 99-100 ........ 424
"Yusuf", 101 ........ 426
"Yusuf", 102-104 ........ 428
"Yusuf", 105-107 ........ 429
"Yusuf", 108 ........ 432
"Yusuf", 109 ........ 432
"Yusuf", 110 ........ 434
"Yusuf", 111 ........ 436
"ƏR-RAD" SURƏSİNİN TƏFSİRİ ........ 437
"ər-Rad", 1 ........ 438
"ər-Rad", 2 ........ 439
"ər-Rad", 3-4 ........ 440
"ər-Rad", 5 ........ 442
"ər-Rad", 6 ........ 443
"ər-Rad", 7 ........ 445
"ər-Rad", 8-9 ........ 445
"ər-Rad", 10-11 ........ 448
"ər-Rad", 12-13 ........ 450
"ər-Rad", 14 ........ 452

"ər-Rad", 15 ........ 453

"ər-Rad", 16 ........ 453

"ər-Rad", 17 ........ 455

"ər-Rad", 18 ........ 458

"ər-Rad", 19 ........ 459

"ər-Rad", 20-24 ........ 459

"ər-Rad", 25 ........ 462

"ər-Rad", 26 ........ 463

"ər-Rad", 27-29 ........ 464

"ər-Rad", 30 ........ 466

"ər-Rad", 31 ........ 468

"ər-Rad", 32 ........ 470

"ər-Rad", 33 ........ 471

"ər-Rad", 34-35 ........ 473

"ər-Rad", 36-37 ........ 475

"ər-Rad", 38-39 ........ 477

"ər-Rad", 40-41 ........ 479

"ər-Rad", 42 ........ 480

"ər-Rad", 43 ........ 481

## Qeyd üçün

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................

....................................................................................................................